İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM
## ƏLİYEV

# BİRİNCİ KİTAB

# AVQUST 2003 - OKTYABR 2003

AZƏRNƏŞR
BAKI - 2008

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2008

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2008, 424 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan çoxcildliyi böyük siyasi-tarixi və elmi-nəzəri əhəmiyyət kəsb edir.

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş daxili sabitlik, balanslı xarici siyasət kursu, iqtisadi dirçəliş Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Görülən yüksək səviyyəli işlərin, aparılan uğurlu, daxili və xarici siyasətin böyük əhəmiyyətini dərk etmək üçün oxucuların ixtiyarına verilən birinci cilddə respublikamıza gələn xarici dövlət xadimləri və nümayəndə heyətləri ilə yüksək səviyyəli söhbətləri, dünyanın nüfuzlu mətbuat orqanlarına bəyanat və müsahibələri, BMT-nin Baş Məclisinin 58-ci sessiyasındakı çıxışı, aparıcı dövlətlərin başçıları və digər siyasi xadimləri ilə söhbətləri verilmişdir.

Burada Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ məsələsinə aid ATƏT, Avropa Şurası rəhbərləri ilə görüşlərdə dövlət başçısının prinsipial mövqeyi öz əksini tapmışdır.

Bu cildə, həmçinin müstəqil Azərbaycan dövlətçiliyinin banisi Heydər Əliyevin Azərbaycan xalqına son müraciəti də daxil edilmişdir.

**İSBN 978-9952-8100-7-3**

$$\text{Я}\ \frac{0801000000}{\text{M}\ -651(07)-2008}$$

**BBK-32**

© Azərnəşr, 2008

## AZƏRBAYCAN XALQINA MÜRACİƏT

*Əziz həmvətənlər, hörmətli Azərbaycan vətəndaşları!*

*Bu günlərdə mənim Azərbaycan Respublikasına bütövlükdə rəhbərliyimin 34, müstəqil Azərbaycan dövlətinə prezident kimi rəhbərliyimin isə 10 ili tamam olur. Bu illərdə istər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, prezident kimi mənim həyat amalım yalnız sizə – bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib.*

*Azərbaycan xalqı dünyanın ən qabaqcıl xalqları sırasında öz layiqli yerini tutub. Onun zəngin mənəvi aləmi, dünya mədəniyyət xəzinəsinə bəxş etdiyi özünəməxsus töhfələr, sivil dünya dəyərlərinə yiyələnmək qabiliyyəti artıq hamıya*

*məlumdur. Azərbaycanlıların öz əməyi, istedadı ilə bütün sahələrdə dünya xalqları ailəsinə getdikcə daha sürətlə inteqrasiya olması indi heç kimi təəccübləndirmir.*

*Müstəqil dövlətimiz bu gün dünya ölkələrinin ən qabaqcıl təcrübələrindən və dəyərlərindən bəhrələnərək inkişaf edir. Demokratik cəmiyyət, hüquqi dövlət, insan və vətəndaş haqlarının aliliyi, siyasi plüralizm prinsiplərini rəhbər tutaraq Azərbaycan Avropanın və dünyanın ən qabaqcıl, qüdrətli dövlətləri ilə çiyin-çiyinə fəaliyyət göstərir. Ölkəmiz beynəlxalq aləmdə öz layiqli yerini tutub. İndi dünyanın, regionun və bizi əhatə edən xarici aləmin əsas strateji və qlobal məsələləri bizim rəyimiz, mənafelərimiz nəzərə alınmadan həll edilmir. Bizi tanıyırlar, qəbul edirlər və əsas məsələlərdə bizimlə hesablaşırlar.*

*Azərbaycanın iqtisadi həyatı yenidən qurulur, yüksək dinamizmlə dirçəlir və inkişaf edir. Ölkə iqtisadiyyatına daxili və xarici kapital qoyuluşu ildən-ilə artır, aqrar sahə, yeyinti və yüngül sənayesi modernləşir, iqtisadiyyatda qeyri-neft sektorunun payı yüksəlir, manatın sabitliyi qorunur, valyuta ehtiyatları artır, yeni-yeni yüksək maaşlı iş yerləri açılır. Bütün bunlar 1994-cü ildən başlayaraq həyata keçirilən yeni neft və iqtisadi inkişaf strategiyasının nəticəsidir. Mən əminəm ki,*

biz belə davam etsək, qarşıdan gələn bir neçə ildə Azərbaycanda nə bir işsiz, nə bir kasıb insana rast gəlinəcəkdir. Maaşlar, təqaüdlər və insanların ümumi gəlirləri yüksələn sürətlə artacaq. Azərbaycan dövləti, iş adamlarımız təkcə ölkəmizdə deyil, xarici aləmdə də ən perspektivli və gəlirli layihələrdə iştirak etmək, investisiya qoymaq imkanına və gücünə malik olacaqlar.

Dövlətimiz getdikcə öz müdafiə qabiliyyətini artırır, hərbi cəhətdən güclənir. Milli ordumuz qabaqcıl təcrübə və texnologiyalara yiyələnir, gənclərimiz həvəslə xidmətə gedirlər.

Bütün bunlar asan başa gəlməmişdir. Keçən dövrdə biz sizinlə birlikdə həm daxildən, həm də xaricdən qaynaqlanan nə qədər təhlükəli irticanın, təxribatın və digər antiazərbaycan aksiyaların qarşısını almışıq, nə qədər çətinliklərə sinə gərmişik. Siz bunları çox yaxşı bilirsiniz.

1988-ci ildən ermənilərin Dağlıq Qarabağda başladıqları avantürist millətçi separatizmin qarşısı Azərbaycan rəhbərliyinin qətiyyətsizliyi üzündən vaxtında alınmadı. 1990-1993-cü illərdə respublikamızda yaranmış siyasi və hakimiyyət böhranından, idarəsizlik və qarmaqarışıqlıqdan istifadə edən Ermənistan ordusu Azərbaycanın torpaqlarını işğal etdi, bir milyondan çox soydaşımızı qaçqın və köçkün vəziyyətinə saldı.

*Daxildə ölkə vətəndaşları bir-birinə qarşı silahlı toqquşmaya, qarşıdurmaya təhrik edildi, dövlətimizi və dövlətçiliyimizi məhv etməyə, dağıtmağa nə qədər səylər göstərildi. Biz bütün bunların qarşısını aldıq. Lakin xaos və anarxiya dövründə Azərbaycanın pozulmuş ərazi bütövlüyünü, qaçqın və köçkünlərin öz yurd-yuvasına qaytarılması problemini hələ də həll edə bilməmişik. Mən əminəm ki, biz bu məsələni də mütləq həll edəcəyik.*

*Buna baxmayaraq, bu illərdə xalqımız və dövlətimiz üçün taleyüklü əhəmiyyət kəsb edən məsələləri həll edə bilmişik.*

*İlk növbədə dövlətçiliyimizin əsasını təşkil edən ictimai-siyasi sabitliyə nail olmuş, milli birlik və qanunların aliliyinə söykənən vətəndaş cəmiyyətinin təməlini qoymuşuq.*

*İkincisi, hər bir dövlətin, onun yaşamasının qayəsini təşkil edən ölkə iqtisadiyyatını yenidən qurmuşuq, inkişaf yoluna çıxarmışıq.*

*Üçüncüsü, Azərbaycan xalqının istək və arzularının ifadəsi olan, özünün bütün müvafiq təsisatlarına malik güclü, demokratik dövlətimizi qura bilmişik, onun müstəqilliyinin dönməzliyini təmin etmişik.*

*Yalnız milli birliyə, ictimai-siyasi sabitliyə malik, iqtisadiyyatı dinamik inkişaf edən, güclü*

*dövlət təsisatları olan, demokratik və vətəndaş cəmiyyətinə əsaslanan müstəqil dövlətlə hər şeyi, o cümlədən ərazi bütövlüyü və digər məsələləri həll etmək olar. Əminəm ki, bu məhz belə də olacaq.*

*Əziz Azərbaycan vətəndaşları, əziz xalqım!*

*Mən öz mənalı həyatımın düz 60 ilini xalqımın bu günü və sabahı ilə yaşamışam. Bunun son on ili müstəqil Azərbaycan dövlətinə xidmətdə keçib. Bu sahədə görülən işlər sizə məlumdur, lakin mənim hələ tamamlanmamış çox perspektivli planlarım var. Son vaxtlar səhhətimdə yaranan bəzi problemlər mənə imkan vermir ki, bütün bu başladığım, nəticələrini aydın gördüyüm işləri tamamlayım. Buna baxmayaraq, 2003-cü ilin 15 oktyabrında keçiriləcək prezident seçkilərində iştirak etmək üçün mənim də namizədliyim irəli sürülüb və qeydiyyata alınıb. Yüz minlərlə insan seçki kampaniyasına qoşularaq mənim təbliğatımı aparır. Fürsətdən istifadə edərək bu insanlara, namizədliyimi irəli sürən və dəstəkləyən Yeni Azərbaycan Partiyasının bütün üzvlərinə, digər ictimai-siyasi təşkilatların nümayəndələrinə, elm, təhsil və mədəniyyət xadimlərinə, ziyalılara və mənə dəstək verən bütün Azərbaycan xalqına dərin təşəkkürümü bildirirəm. Ümidvaram ki,*

*tezliklə səhhətimi bərpa edərək Vətənə dönəcək, xalqımla yenidən birlikdə olacağam. İndi isə öz namizədliyimi İlham Əliyevin xeyrinə geri götürürəm.*

*Üzümü sizə – həmvətənlərimə tutaraq qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm.*

*Dərin hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*1 oktyabr 2003-cü il*

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN NÖVBƏDƏNKƏNAR SESSİYASI

*4 avqust 2003-cü il*

**M u r t u z  Ə l ə s g ə r o v:** *Məclisin gündəliyində bir məsələ vardır. Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsinə razılıq verilməsi haqqında. Bu məsələ ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab Heydər Əliyevin Milli Məclisə məktubu daxil olmuşdur. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 4-cü bəndinə uyğun olaraq, İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsi üçün razılıq verilməsi məsələsini müzakirənizə təqdim edirəm. Cənab prezident Heydər Əliyevin məktubu 2 avqust 2003-cü ildə imzalanmışdır.*

*Bildiyiniz kimi, İlham Heydər oğlu Əliyev Milli Məclisin deputatı kimi fəaliyyəti dövründə çox genişmiqyaslı işlər aparmışdır.*

*Hər şeydən əvvəl demək istəyirəm ki, Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, eləcə də Milli Olimpiya Komitəsinin prezidenti kimi geniş fəaliyyəti ilə yanaşı, İlham Əliyev Azərbaycan Respublikası Milli Məclisinin Avropa Şurasındakı nümayəndə heyətinin rəhbəri kimi Azərbaycanın taleyi ilə bağlı, dövlətimizin gələcək taleyi ilə bağlı çox böyük işlər görmüşdür. Xüsusilə qeyd etmək istəyirəm ki, son illər İlham Əliyevin fəaliyyəti nəticəsində Dağlıq Qarabağ məsələsinin Avropa Şurasında müzakirəsi ilə bağlı Azərbaycan nümayəndə heyəti çox böyük uğurlar əldə etmişdir. Əsirlərin və girovların qaytarılması, Dağlıq Qarabağda narkotik maddələrin yetişdirilməsi və bundan əldə edilən gəlirlərin terror məqsədi ilə istifadə edilməsi, Dağlıq Qarabağda tarixi abidələrin, mədəniyyət abidələrinin dağıdılmasına dair Azərbaycan*

*nümayəndə heyəti Avropa Şurasında bütövlükdə 30-dan çox sənəd yaymışdır.*

*Bu sənədlər nəticəsində və İlham Əliyevin təşəbbüsü ilə Avropa Şurası Ermənistanın Azərbaycana qarşı işğalçı siyasətini tanımış və Ermənistanı işğalçı dövlət kimi qəbul etmişdir. Bütün bunlar İlham Əliyevin səmərəli işinin nəticəsidir. Hesab edirəm ki, bunlar, bütövlüklə digər sahələrdə İlham müəllimin apardığı işlər tədqirəlayiqdir. Mən xüsusilə Milli Olimpiya Komitəsinin rəhbərliyi ilə son illər idman sahəsində əldə etdiyimiz nailiyyətlərin göz qabağında olduğunu qeyd etmək istəyirəm. İdmanın elə bir sahəsi yoxdur ki, o, Azərbaycanda inkişaf etməsin. Respublikanın bir sıra rayonlarında olimpiya kompleksləri tikilib istifadəyə verilmiş, bir sıra rayonlarda isə bu işlər davam etdirilir.*

*Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsində İlham müəllim Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti kimi geniş fəaliyyət göstərir. Bu fəaliyyət ona qısa müddətdə Azərbaycan xalqı qarşısında böyük nüfuz qazandırmışdır. Xalqımız, bütün Azərbaycan zəhmətkeşləri, gənclər İlham müəllimə dərin rəğbət bəsləyir. Mən onun Baş nazir vəzifəsinə təyin olunmasına ürəkdən tərəfdaram və bu təklifi alqışlayıram.*

*Bu gün Milli Məclisin hüquq siyasəti və dövlət quruculuğu məsələləri daimi komissiyası öz iclasını keçirmişdir. İslasda 10 nəfər iştirak etmişdir. Komissiya yekdilliklə bu təklifin lehinə səs vermişdir, yəni İlham Heydər oğlu Əliyevin Baş nazir vəzifəsinə təyin olunmasına razılıq verilməsinə öz münasibətini bildirmişdir**.*

---

* Müzakirələrdə deputatlardan Əli Hüseynov, Əli Əhmədov, Sirus Təbrizli, Eldar İbrahimov, Hadi Rəcəbli, Bahar Muradova, Mübariz Qurbanlı, Rəbiyyət Aslanova, Anar Rzayev, Aydın Mirzəzadə, Gülçöhrə Məmmədova, Bəxtiyar Əliyev, İsmayıl Ömərov, Arif Rəhimzadə çıxış etdilər və İlham Əliyevin Baş nazir vəzifəsinə təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin parlamentə təqdim etdiyi müraciəti yekdilliklə dəstəklədilər.

* * *

*Əlbəttə ki, çıxış etmək istəyən deputatlar çoxdur. Artıq 15 nəfər çıxış etmişdir. Mən hesab edirəm ki, qalan deputatlarımız da deyilən təkliflər və səslənən fikirlərlə tam razıdırlar. Doğrudan da İlham Əliyev elə bir səviyyəyə çatmışdır ki, o, Azərbaycan xalqının sevimlisinə çevrilmişdir. Ötən əsrin 80-ci illərində Heydər Əliyev Kremlin ən uca zirvəsinə yüksəlmişdisə, bu gün İlham Əliyev Avropa Şurasının yüksək zirvəsini fəth edib. Bu bizim üçün böyük fəxrdir. Mən hesab edirəm, İlham Əliyev siyasəti, iqtisadiyyatı, eləcə də diplomatiya tarixini gözəl bilən dövlət xadimidir və buradakı çıxışlardan aydın olur ki, biz onun çoxşaxəli fəaliyyətinin bir sıra sahələrini hələ bilmirik.*

*İnanıram ki, İlham Əliyev Nazirlər Kabinetinin başçısı, Baş nazir kimi digər keyfiyyətlərini də nümayiş etdirəcəkdir. Mən İlham Əliyevə uğurlar arzulayıram. Arzum budur ki, bu vəzifədə o, Azərbaycanın xoşbəxt gələcəyini təmin etsin, xalqımızın böyük istəklərini yerinə yetirmək üçün dava yüksək zirvələri fəth etsin. Bu təklifə hamımız səs verək, İlham Əliyevi təbrik edib ona uğurlar arzulayaq.*

* * *

**İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsinə razılıq verilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin 9-cu bəndinə müvafiq olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən qərara alır:

İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsinə razılıq verilsin.

**MURTUZ ƏLƏSGƏROV**
**Azərbaycan Respublikası Milli Məclisinin sədri**

**Bakı şəhəri, 4 avqust 2003-cü il**

## NAZİRLƏR KABİNETİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ YENİ TƏYİN OLUNMUŞ BAŞ NAZİRİ İLHAM ƏLİYEVİN HÖKUMƏT ÜZVLƏRİNƏ TƏQDİM OLUNMASI MƏRASİMİNDƏ ÇIXIŞ

*4 avqust 2003-cü il*

***R a m i z  M e h d i y e v*** *(Prezidentin İcra Aparatının rəhbəri): Siz hamınız bu gün çox mühüm ictimai-siyasi hadisənin şahidi olmusunuz. Artıq məlumdur ki, bu gün Milli Məclisin iclası keçirilmişdir və hörmətli cənab Prezidentin təqdimatı əsasında Milli Məclis hörmətli İlham Əliyevin Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin olunmasına razılıq verilməsi məsələsinə baxmışdır.*

*Onu qeyd etmək istəyirəm ki, Milli Məclisin iclası çox gözəl keçdi və çıxış edən bütün deputatlar hörmətli İlham müəllim haqqında çox dəyərli fikirlər söylədilər. Hamının yekdil bir fikri oldu ki, cənab prezident Heydər Əliyev çox müdrik bir qərar qəbul edərək, İlham Əliyevi Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə tövsiyə edibdir.*

*Respublikamızın ictimaiyyəti, dövlət adamları və eləcə də ölkədən kənarda İlham Əliyev haqqında, onun şəxsi keyfiyyətləri, xidmətləri, dövlətçiliyə münasibəti barədə çox geniş məlumata malikdirlər. İlham Əliyev dərin intellektə malik, dövlətçiliklə bağlı bir şəxsiyyətdir. İlham Əliyevin Azərbaycan xalqı qarşısında böyük xidmətləri vardır. Bu xidmətləri Azərbaycan cəmiyyəti, ictimaiyyəti, xarici ölkələrdə də çox yaxşı bilirlər və onu müasir bir siyasətçi kimi qəbul edirlər.*

*Cənab İlham Əliyevin Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti, səkkiz il deputat kimi gördüyü işlərlə yanaşı, Avropa Şurası Parlament Assambleyası sədrinin müavini və büro üzvü vəzifəsindəki fə-*

aliyyəti də Azərbaycan cəmiyyətində və xarici dövlətlərdə çox yüksək qiymətləndirilir.

Bir neçə müddət idi cəmiyyətdə fikir mübadiləsi aparılırdı, söhbətlər gəzirdi, insanlar narahat idi. Demək olar, bütün xalqımız cənab Prezidentin xəstəliyi ilə bağlı narahatlıq keçirirdi. Bütün xalqımız düşünürdü ki, cənab Prezidentin 34 illik fəaliyyəti nəticəsində Azərbaycanda əldə olunmuş uğurları, bu xətti kim davam etdirəcək, nə cür olacaq, Azərbaycanın taleyi kimlə bağlı olacaqdır? Bu gün cənab Prezident artıq öz fərmanlarını imzalayıbdır. Deyə bilərəm ki, bu gün saat 4-də Ankaradan təyyarə gəldi və həmin fərmanlar bizə təqdim olundu. Biz bunu artıq cəmiyyətə, ictimaiyyətə çatdırmışıq. İndi də sizə bildirmək istəyirəm.

Demək istəyirəm ki, bu, cəmiyyətdə çox böyük sevinclə qarşılanmışdır. Sizə açıq deyim ki, bu gün Prezident Aparatına dövlət adamlarından, adi insanlar içərisindən yüzlərlə telefon zəngi olubdur. Mənə zəng olubdur, bizim Aparatın başqa işçilərinə, şöbə müdirlərinə zənglər olubdur. İnsanlar öz sevincini, razılığını bildirir və cənab Prezidentə bir daha dərin hörmət və təşəkkürlərini bildirirlər ki, çox ağıllı, müdrik bir qərar qəbul edibdir. Ona görə biz cənab Prezidentə cansağlığı arzu edirik. Arzu edirik ki, o, müalicəsini başa çatdırıb tezliklə ölkəyə qayıtsın, prezident seçkilərində iştirak etsin.

Xalq artıq cənab Prezidentin seçkilərdə iştirakı ilə bağlı öz münasibətini bildiribdir.

Çoxsaylı mitinqlərdə, iclaslarda, görüşlərdə xalq öz fikrini bildiribdir. Cənab Prezident, demək olar ki, yenidən ölkənin başçısı seçilibdir. Formal tərəfi qalıb, oktyabrın 15-də seçki keçiriləcək və heç şübhə yoxdur ki, cənab Prezident növbəti beş il üçün də dövlətin başçısı seçiləcəkdir.

Sənədlərin göndərilməsi ilə bağlı mənə Ankaradan zəng oldu. Mənə məlumat verdilər ki, cənab Prezident parlamentin bugünkü iclasına televiziya vasitəsilə baxıb, onu çox yüksək qiymətləndiribdir. O insanlar ki, dövlətçilik mövqeyindən öz münasibətini bildirib, İlham Əliyev haqqında söylənilən fikirləri

bəyəniblər – möhtərəm Prezident onlara öz razılığını, təşəkkürünü bildiribdir.Qeyd edibdir ki, parlamentin iclası bir daha onu təsdiq etdi ki, o, düzgün qərar qəbul edibdir.

Ona görə icazə verin, belə bir mühüm hadisə ilə bağlı sizin hamınızı təbrik edim. İlk növbədə hörmətli İlham müəllimi təbrik edim, ona cansağlığı arzulayım. Biz hamımız əminik ki, İlham Əliyev öz yeni vəzifəsində cənab Prezidentin xəttini bundan sonra da davam etdirəcəkdir. Deyə bilərəm ki, o, indiyədək cənab Prezidentin tapşırıqları, göstərişləri əsasında bütün vəzifələrin öhdəsindən çox ləyaqətlə gəlmişdir.

Heç şübhə yoxdur, o, Azərbaycan Respublikasının Baş naziri vəzifəsinin öhdəsindən də layiqincə gələcək, cənab Prezidentin etimadını, bizim xalqımızın etimadını doğruldacaqdır. Bu vəzifədə, bu işdə ona böyük-böyük uğurlar arzulayırıq.

Mən inanıram ki, bu gün burada iştirak edən dövlət və hökumət adamları hörmətli İlham müəllimin ətrafında birləşəcəklər və Nazirlər Kabinetinin qarşısında Prezident tərəfindən qoyulan bütün vəzifələrin öhdəsindən canla-başla gələcəklər. Əsas məsələ odur ki, bundan sonra da öz vəzifəmizə çox ciddi və məsuliyyətlə yanaşaq, cənab Prezident tərəfindən bizə göstərilən hörməti və etimadı doğruldaq. Təşəkkür edirəm.

***Artur Rasizadə*** *(Baş nazirin birinci müavini)*: Hörmətli cənab Baş nazir!

Hörmətli hökumət üzvləri!

Azərbaycan prezidenti möhtərəm Heydər Əliyevin Milli Məclisin deputatı, Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti İlham Əliyevin Baş nazir təyin olunması haqqında fərmanını çox düzgün və müdrik qərar hesab edirəm. Bu təyinat Nazirlər Kabinetinin daha məhsuldar işləməsinə, möhtərəm prezidentimizin respublika hökuməti qarşısında qoyduğu vəzifələrin uğurla həyata keçirilməsinə səbəb olacaqdır.

Hamımız İlham Əliyevi təcrübəli siyasətçi, iqtisadiyyatı dərindən bilən dövlət adamı kimi tanıyırıq. Biz İlham Əliyevin ətrafında sıx birləşməli, daha məsuliyyətlə və əzmlə işləməliyik.

*İcazə verin, hamınızın adından hörmətli İlham Əliyevi ürəkdən təbrik edim, Heydər Əliyev siyasi xəttinin davamçısı kimi fəaliyyətində ona uğurlar arzulayım.*

* * *

**İ l h a m   Ə l i y e v:** Hörmətli Ramiz müəllim!

Hörmətli Artur müəllim!

Nazirlər Kabinetinin hörmətli üzvləri!

İlk növbədə mənə göstərilən bu böyük etimada görə cənab Prezidentə, Milli Məclisə təşəkkürümü bildirmək istəyirəm. Sizi əmin etmək istəyirəm ki, çalışacağam öz fəaliyyətimdə bu yüksək etimada layiq olum.

Azərbaycanda Heydər Əliyev tərəfindən aparılan iqtisadi siyasəti çox yüksək qiymətləndirirəm. Onun icrası ilə bilavasitə bağlı Nazirlər Kabinetinin fəaliyyətini çox yüksək qiymətləndirirəm. Hesab edirəm ki, bu, yeganə düzgün siyasətdir. Bu siyasət bizə imkan verir ki, çox qısa bir müddət ərzində Azərbaycan iqtisadi cəhətdən möhkəmlənsin, güclənsin, ölkədə güclü iqtisadi potensial yaransın.

Təkcə neft sektorunda görülən işlərin sadalanması kifayətdir bildirək ki, biz hansı əhəmiyyətli, irimiqyaslı layihələri həyata keçiririk. Bu layihələr təkcə bizim üçün deyil, bütün region üçün, bütün dünya üçün böyük əhəmiyyət kəsb edir.

Azərbaycanda aparılan iqtisadi islahatlar nəticəsində insanlarımızın rifah halı günü-gündən yaxşılaşır. Cənab Prezidentin son sərəncamları bir də onu göstərir ki, insana qayğı bizim siyasətin, cənab Prezidentin siyasətinin ən vacib bir hissəsidir. Çətin bir şəraitdə, hələ ki, Azərbaycanın bəlkə o qədər də iqtisadi imkanlarının olmadığı, məhdud olduğu bir vaxtda böyük bir təbəqənin maaşları artırılıbdır. Ümumiyyətlə isə, onların həyat səviyyəsi yenə də yaxşılaşacaqdır. Qaçqınlara və məcburi köçkünlərə göstərilən qayğı, yeni salınan şəhərciklər, qəsəbələr onu göstərir ki, Azərbaycanda aparılan iqtisadi siyasət düzgün siyasətdir və gərək biz hamımız bu siyasəti davam etdirək.

Mən Artur müəllimin fəaliyyətini xüsusilə qeyd etmək istəyirəm. Artur müəllim cənab Prezidentin çox etibarlı silahdaşıdır. Uzun illər ərzində onun rəhbərliyi altında fəaliyyət göstərən Nazirlər Kabineti çox mütəşəkkil bir qurumdur, çox yaxşı fəaliyyət göstərir. Bu fəaliyyətin nəticəsində Azərbaycan iqtisadiyyatda böyük uğurlar əldə edibdir. Mən əminəm ki, bundan sonra da biz hamımız birlikdə bu siyasəti davam etdirəcəyik.

Mən vaxtınızı çox almaq istəmirəm. Bir məqama da toxunmaq istəyirəm. Yəqin ki, bəzi siyasi möhtəkirlər, müxalifətdə olan bəzi şəxslər bu məsələləri onların maraqlarına cavab verən tərzdə təhlil edəcəklər. Yenə də çalışacaqlar ki, iqtidar daxilində hansısa ziddiyyət toxumları səpsinlər. Mən bunu dəfələrlə demişəm, hesab edirəm, bu gün də bunu demək lazımdır. Sizə bir daha bəyan edirəm ki, Azərbaycanda vahid bir komanda mövcuddur. O da Heydər Əliyev komandasıdır. Mən də o komandanın üzvüyəm, biz hamımız onun üzvüyük. Mənim öz komandam yoxdur və olmayacaq.

Ona görə istəyirəm hamı bunu bilsin ki, Nazirlər Kabineti bu vaxta qədər işlədiyi tərzdə öz fəaliyyətini davam etdirəcəkdir. Bu günə qədər görülən işlər bunu deməyə əsas verir. Görülən işlər çox gözəl nəticələrini artıq verir və bundan sonra da verəcəkdir. Ona görə, sadəcə olaraq, bunu bəyan etmək istəyirəm ki, biz hamımız bundan sonra da adi rejimdə işləyəcəyik. Burada heç bir dəyişiklikdən söhbət gedə bilməz. İqtisadiyyatda aparılan siyasət dəyişməz olaraq qalacaq və Nazirlər Kabinetində mövcud olan işlər də köhnə qaydada saxlanılacaqdır.

Mən əminəm ki, biz birlikdə bundan sonra da cənab Prezidentin iqtisadi siyasətinin həyata keçirilməsini davam etdirəcəyik. Hamımız birlikdə çalışacağıq ki, Azərbaycanda iqtisadiyyat güclənsin, insanlarımız rahat, firavan və rifah içində yaşasınlar. Sağ olun. Təşəkkür edirəm.

## BAŞ NAZİR İLHAM ƏLİYEVİN JURNALİSTLƏRƏ MÜSAHİBƏSİ

**J u r n a l i s t: Cənab İlham Əliyev, Sizi Baş nazir təyin olunmağınız münasibəti ilə təbrik edirik. Sizə yeni vəzifənizdə uğurlar arzulayırıq.**

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun, təşəkkür edirəm.

**S u a l: Cənab İlham Əliyev, Siz Baş nazir vəzifəsinə təyin olunmağınızın yekdilliklə dəstəklənəcəyini gözləyirdinizmi? Bu nəticədən məmnunsunuzmu?**

**C a v a b:** Əlbəttə ki, çox məmnunam. Doğrusu, yekdilliklə mənə  səs verəcəklərini gözləmirdim. Bilirsiniz ki, bizim parlamentdə bir çox partiyaların, o cümlədən müxalifətin və bitərəflərin nümayəndələri təmsil olunurlar. Buna baxmayaraq, mən yekdilliklə bu vəzifəyə təsdiq olundum və buna görə mənə səs verənlərə təşəkkür edirəm.

**S u a l: Cənab İlham Əliyev, ilk olaraq hansı addımları atacaqsınız?**

**C a v a b:** İlk növbədə onu deyə bilərəm ki, prezident Heydər Əliyevin siyasi xəttini davam etdirəcəyəm. Bilirsiniz ki, Azərbaycan iqtisadiyyatında böyük uğurlar əldə edilib, ciddi nailiyyətlərimiz var. Azərbaycanda iqtisadi islahatlar həyata keçirilir və bunun nəticəsində ölkəmiz əsaslı şəkildə inkişaf edir. Hesab edirəm ki, qazandığımız təcrübəni və mövcud potensialı daha da genişləndirmək lazımdır. Hamımızın məqsədi bundan istifadə edib Azərbaycanı qüdrətli, güclü dövlətə çevirməkdir. Biz buna nail oluruq və mən də gələcək fəaliyyətimdə bu amala xidmət edəcəyəm. Mənim iqtisadi sahədə də kifayət qədər biliyim var. Məsələləri daha dərindən təhlil edib, konkret addımlar atacağıq.

**S u a l: Hökumətin tərkibində hər hansı bir dəyişiklik olacaqmı?**

**C a v a b:** Hökumətdə heç bir dəyişiklik olmayacaq. Bilirsiniz ki, belə dəyişikliklərin edilməsi cənab Prezidentin səlahiyyətindədir. Hesab edirəm ki, bizim əsas məqsədimiz

yaranmış iqtisadi sabitliyi qoruyub saxlamaq və bu istiqamətdə irəliləməkdir. Mən hansısa kəskin hərəkətlərin tərəfdarı deyiləm. Hesab edirəm ki, hər şey tədricən həll olunmalıdır.

**S u a l: İlham müəllim, Siz cənab Prezidentə parlamentin qərarı barədə məlumat verəcəksinizmi? Yəqin ki, möhtərəm Heydər Əliyev buna çox sevinəcəkdir. Cənab Prezidentin səhhəti və Vətənə qayıtması ilə bağlı nə deyə bilərsiniz?**

**C a v a b:** Təbii ki, mən buradan çıxandan sonra cənab Prezidentə zəng vuracam və inanıram ki, o, buna ürəkdən sevinəcəkdir. Onu da deyim ki, cənab Prezidentin səhhəti yaxşıdır, müalicəsi davam edir. Onun Vətənə qayıtması barədə təkliflər var idi, bir neçə gün bundan əvvəl cənab Prezident qayıtmaq istəyirdi. Amma yenidən bəzi müayinələrdən keçməsi üçün qalması məsləhət görüldü. İnanıram ki, yaxın gələcəkdə Vətənə qayıdacaqdır.

**S u a l: İlham müəllim, Milli Olimpiya Komitəsinin prezidenti kim olacaq?**

**C a v a b:** Hesab edirəm ki, mən bu vəzifəni də icra edə bilərəm. Onu da deməliyəm ki, səkkiz ildir Milli Məclisin deputatıyam, bu bina mənim üçün doğma bir evdir. Deputat yoldaşlarıma minnətdarlığımı bildirirəm, onlar bu məsələyə müsbət münasibət bildirdilər. Əlbəttə ki, mən gələcək fəaliyyətimdə çalışacağam ki, bu yüksək etimadı doğruldam. Mən bu vaxta qədər çalışmışam ki, tapşırılan vəzifələrin öhdəsindən ləyaqətlə gəlim, mənə göstərilən etimada layiq olum. Siz özünüz də gördünüz, burada da səsləndi ki, mənə tapşırılan vəzifələri necə ləyaqətlə yerinə yetirmişəm. Hesab edirəm ki, bu vəzifədə də gözəl nailiyyətlər əldə edəcəyəm.

**S u a l: Siz Baş nazir təyin edildikdən sonra yəqin bəziləri deyəcəklər, prezident Heydər Əliyev elə bir vəziyyətdədir ki, onun siyasi xəttinin davam etdirilməsinə möhkəm təminat verəcək etibarlı əlin olmasına kəskin zərurət yaranmışdır. Siz bu arqumenti təkzib etməli olsanız, bunu necə edərdiniz?**

**C a v a b:** Hər bir insanın öz fikri ola bilər. Mən şərh vermək fikrində deyiləm. Müxtəlif fikirlər, kifayət qədər saxtakarlıq olacaqdır. Ona görə də hesab edirəm ki, mənim üçün başlıcası, diqqəti bu gün mənə həvalə olunan vəzifənin üzərində cəmləşdirməkdir. Bu, çox böyük məsuliyyətdir. Mən ilk növbədə bu barədə düşünməliyəm. O ki qaldı bunu kimin necə qəbul edəcəyinə, bu məni o qədər də düşündürmür.

**J u r n a l i s t: Çox sağ olun, Sizə uğurlar arzulayırıq.**

**İ l h a m Ə l i y e v:** Siz də sağ olun.

## "LİDER" YARIMDALMA ÜZƏN QAZMA QURĞUSU İLƏ TANIŞLIQDAN SONRA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*7 avqust 2003-cü il*

**S u a l: İlham müəllim, "Lider" yarımdalma qurğusu ilə tanışlıq sizdə hansı təəssüratı yaratdı?**

**C a v a b:** Çox gözəl təəssürat bağışlayır. Nəhəng bir qurğudur. Xəzər dənizində analoqu olmayan yarımdalma qazma qurğusudur. Əlbəttə, bu qurğu Azərbaycan xalqına uzun illər xidmət edəcəkdir. Suyun böyük dərinliyində qazma işlərini aparacaq və əminəm ki, Azərbaycan üçün yeni neft yataqlarını kəşf edəcəkdir.

**S u a l: İlham müəllim, mətbuatda Prezident Heydər Əliyevin Klivlendə getməsi ilə bağlı informasiyalar verildi. İstərdik, bu məsələyə müəyyən aydınlıq gətirəsiniz, vəziyyət necədir?**

**C a v a b:** Vəziyyət belədir ki, cənab Prezident dünən təyyarə ilə Klivlendə uçdu və bu gün Bakı vaxtı ilə hardasa, gecə saat 3-4 radələrində oraya çatdı. Mən də dərhal bu barədə məlumat aldım ki, cənab Prezident Klivlend xəstəxanasındadır. Hər şey də qaydasındadır.

**S u a l: Geri dönməsi nə zaman gözlənilir?**

**C a v a b:** Əlbəttə, onu gərək həkimlər desinlər. İndi Klivlenddə hələ ki, gecədir. Bir neçə saatdan sonra müayinə başlanacaq və ondan sonra nəsə demək mümkün olacaqdır.

**S u a l: İlham müəllim, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan Sizi səfərə dəvət edibdir. Siz bu səfəri reallaşdıracaqsınızmı?**

**C a v a b:** Bəli, əlbəttə, mən o dəvəti məmnunluqla qəbul etdim. Hörmətli Baş nazir cənab Ərdoğan mənimlə telefon söhbətində də bu dəvəti etmişdi. Ondan sonra bu, təbrik məktubunda da öz əksini tapmışdır. Mən də ona bildirdim ki, böyük

məmnuniyyətlə yaxın günlərdə çalışacağam ki, qardaş ölkəyə səfər edim.

**S u a l: İlham müəllim, prezidentin diaqnozu ilə bağlı kütləvi informasiya vasitələrində müxtəlif məlumatlar yayılır. Qabırğasının sınması ilə bağlı, ümumiyyətlə, vəziyyəti necədir?**

**C a v a b:** Özünü yaxşı hiss edir. Əlbəttə, qabırğalarının sınması cənab Prezidentin ümumi fiziki vəziyyətinə təsir edir. Yəqin siz də bunu hiss edirdiniz. Bir də ki, o, tam sağalmadan işə başlamışdı. Əlbəttə, bu, həkimlərin məsləhətlərinə zidd addım idi. Amma ümumiyyətlə, vəziyyəti normaldır. Lakin müəyyən bir müalicəyə ehtiyac var.

**S u a l: Cərrahiyyə əməliyyatının aparılacağı barədə də məlumat var?**

**C a v a b:** Bu barədə müxtəlif möhtəkirliklər ola bilər. Mən bir şey deyə bilmərəm. Hesab edirəm ki, buna ehtiyac olmayacaqdır. Əgər ehtiyac olarsa, orada çalışan həkimlər çox yüksək peşəkarlığa malikdirlər, bu ediləcəkdir. Amma bu günə qədər belə bir ehtiyac yoxdur.

**S u a l: İlham müəllim, məlumatlar yayılır ki, seçkilər ərəfəsində müxalifət ölkədə çaşqınlıq yaratmaq məqsədi ilə müxtəlif addımlar atmaq istəyir. Dünən bəyan elədilər ki, respublikanın bütün şəhər və rayonlarında etiraz aksiyalarına başlamaq haqqında qərar veriblər. Bu barədə nə deyərdiniz?**

**C a v a b:** Bilirsiniz, bu məni maraqlandırmır. Onların etiraz aksiyaları göz qabağındadır. Bu aksiyalara iki-üç mindən çox adam gəlmir, gələnlərin də yarısı pul alandan sonra çıxıb gedir. Yəni belə bir hərəkətlər nə məni, nə də hökuməti, iqtidarı narahat etmir və etməyəcək də. Hesab edirəm ki, müxalifət gərək daha çox öz təbliğatı ilə məşğul olsun, seçkiqabağı kampaniyada iştirak etsin. Mənim onlara məsləhətim budur. O ki qaldı kimi isə tanımaq, kimi isə tanımamaq məsələsinə, hansısa aclıq aksiyaları elan etməyə, bu məndə yalnız gülüş doğurur. Mən bilirəm ki, aclıq aksiyasını elan edən şəxs axşam

gedib öz kababını da yeyir, başqa şey də içir, səhər yenə də davam edir.

**S u a l: İlham müəllim, ölkədə fəaliyyət göstərən xarici neft şirkətlərini lobbiçilik fəaliyyəti ilə məşğul olmaqda ittiham edirlər. Hətta *BP* kimi konkret adlar da çəkirlər. Buna münasibət necədir?**

**C a v a b:** Hesab edirəm ki, bu, onların xarici neft şirkətlərinə qarşı növbəti təxribatıdır. Azərbaycanda fəaliyyət göstərən neft şirkətləri heç vaxt siyasi proseslərə müdaxilə etmirlər. Mən də köhnə vəzifəmdə, Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti vəzifəsində çalışarkən onlarla söhbətimdə də dəfələrlə bunu israrla xahiş etmişdim ki, onlar siyasi proseslərdən kənarda durmalıdırlar. Onlar burada Azərbaycanın hökuməti ilə kommersiya işləri aparılması üçün müqavilələr imzalayıblar və fəaliyyətləri də məhz bu çərçivədə həyata keçirilməlidir. Çox məmnunluq hissi ilə deyə bilərəm ki, bizim birgə fəaliyyətimizin lap əvvəlindən bu günə qədər heç vaxt nə *BP*, nə də başqa xarici neft şirkəti siyasi proseslərə müdaxilə etməmişdir və etməyəcək də. Müxalifətin onlara qarşı belə bir çirkin böhtandan istifadə etməsi də yeni deyildir. Bundan əvvəl də müxalifətin bəzi liderləri Azərbaycanda neft şirkətlərini təşvişə salmaqdan ötrü, çalışmaq üçün ki, onlar öz fəaliyyətini dayandırsınlar – müxtəlif ideyalarla çıxış edirdilər. Bəziləri deyirdilər ki, onlar hakimiyyətə gəldikləri təqdirdə Bakı–Tbilisi–Ceyhan layihəsini dayandıracaq, Azərbaycanın imzaladığı bütün müqavilələri ləğv edəcəklər. Buna oxşar hədələri neft şirkətlərinə ünvanlayırdılar. Amma çox şadam ki, Azərbaycanda işləyən böyük neft şirkətləri bu tezislərə, iddialara daim biganə qalmışdır. Yəni bir daha demək istəyirəm ki, burada heç bir lobbiçilikdən söhbət getmir və gedə də bilməz. Buna heç ehtiyac da yoxdur.

**S u a l: İlham müəllim, Baş nazir seçilməyinizə reaksiyalar Sizi razı salırmı və bu reaksiyalar qənaətbəxşdirmi?**

**C a v a b:** Məni razı salır. Hesab edirəm ki, ümumiyyətlə, mənim fəaliyyətim üçün reaksiyaların o qədər də önəmli mənası yoxdur. Amma əlbəttə, mən bir insan kimi çox məmnunam ki, həmkarlarım, inkişaf etmiş ölkələrin hökumətlərinin başında duran şəxslər məni təbrik edirlər. Bu mənim üçün çox xoşdur, böyük şərəfdir. Məni əsas maraqlandıran ölkə daxilindəki reaksiyadır. Mənim məlumatlarıma görə, bu da çox müsbətdir. Bu təyinat müsbət qarşılanıb, insanlarda arxayınçılıq hissi yaranıbdır. Mən bilirəm, bizim xalqımızı düşündürən əsas məsələlərdən biri də odur ki, Azərbaycanda ictimai-siyasi asayiş qorunub saxlanılsın, sabitlik pozulmasın, hərc-mərclik, xaos yaranmasın. İnsanlarımız bundan çox ehtiyat edirlər. Əlbəttə, bu nöqteyi-nəzərdən bu təyinat, hesab edirəm, çox məqsədəuyğundur və düzgün təyinatdır. Ona görə bu reaksiya mənim üçün daha önəmlidir. Çox şadam ki, ümumiyyətlə, ictimaiyyət tərəfindən buna müsbət münasibət var.

**S u a l: İlham müəllim, Siz cənab Prezidentlə birgə seçkilərə gedəcəksiniz. Bu gün siz müxalifətdən olan və digər namizədləri özünüzə və Prezidentə rəqib görürsünüzmü?**

**C a v a b:** Bilirsiniz, mən hesab edirəm ki, hər bir rəqibə hörmətlə yanaşmaq lazımdır. Şəxsi fikrim belədir ki, Azərbaycanda Heydər Əliyev tərəfindən həyata keçirilən siyasətə alternativ yoxdur. Bu, yeganə düzgün siyasətdir və öz nəticələrini verir. Azərbaycan inkişaf edir, qüdrətli dövlətə çevrilir. Azərbaycanda irimiqyaslı beynəlxalq layihələr həyata keçirilir. İndi gördüyünüz kimi nəhəng qazma qurğuları tikilir. Ümumiyyətlə, Azərbaycan beynəlxalq aləmdə özünə layiq yerini tuta bilibdir. Ona görə hesab edirəm, Azərbaycanın gələcəyi naminə, gələcək inkişafı üçün bu siyasət gərək davam etdirilsin. Şəxsən mən prezident olmaq iddiasına düşən müxalifət nümayəndələrinin şanslarına nikbinliklə baxmıram. Hesab edirəm ki, cəmiyyətdə onların dəstəyi çox aşağı səviyyədədir. Amma eyni zamanda, hesab edirəm və siyasi etika da bunu tələb edir ki, hər bir namizədə gərək hörmətlə yanaşasan.

**S u a l: İlham müəllim, Siz ödənişsiz məzuniyyət götürdünüz ki, seçkilərdə iştirak edə biləsiniz. Maraqlıdır, Qarabağ problemi ilə bağlı İlham Əliyevin seçki platforması necə olacaqdır?**

**C a v a b:** Mən dəfələrlə bəyan etmişəm, indi də demək istəyirəm ki, mənim prezidentliyə namizədliyim barədə təklifə razılıq verməyimin məqsədi ondan ibarətdir ki, cənab Prezidentin seçki kampaniyasında fəal iştirak edə bilim. Əlbəttə, mənim mövqeyim də, platformam da, dünyagörüşüm də yalnız cənab Prezidentin həyata keçirdiyi siyasətin çərçivəsindədir. Burada hansısa əsaslı fərqlərdən söhbət gedə bilməz.

O ki qaldı Qarabağ məsələsinə, əlbəttə, mən fikirləşirəm ki, biz gərək çalışaq bunu sülh yolu ilə həll edək. Azərbaycan xalqı sülh istəyir, müharibə istəmir. Atəşkəs müddəti ərzində Azərbaycan çox böyük addımlar atıb, çox böyük uğurlar qazanıbdır. Əgər biz Ermənistanla müqayisə etsək, görərik ki, bu müddət orada tənəzzüllə müşayiət olunubdur. Bəzən mənə sual verirlər ki, müharibənin nəticələri nədir? Mən çox ciddi deyirəm, hesab edirəm müharibənin nəticələri – bəlkə də bu, təzadlı səslənə bilər – Azərbaycanın xeyrinədir. Düzdür, Azərbaycan öz torpaqlarının müəyyən hissəsini itiribdir. Azərbaycanda bir milyondan çox qaçqın, köçkün var. Amma eyni zamanda, bu müddət ərzində, atəşkəs rejimi ərzində Azərbaycan həm siyasi səhnədə, həm də iqtisadiyyatda çox uğurlu addımlar atıbdır. Ermənistanla Azərbaycanın iqtisadi vəziyyəti arasındakı uçurum getdikcə dərinləşəcəkdir. Azərbaycan bir neçə ildən sonra qüdrətli, imkanlı bir dövlətə çevriləcəkdir. Ermənistanın isə elə bir perspektivi yoxdur. Onların perspektivi yalnız və yalnız hansısa xarici dövlətin ətəyindən yapışıb özlərinə gün ağlamaqdır ki, acından ölməsinlər. Ona görə hesab edirəm, indiki siyasət Azərbaycanda dəstəklənir və bizə imkan verəcək ki, sülh danışıqlarında istədiyimizə nail ola bilək. Yox, əgər gördük ki, bütün imkanlar

artıq tükəndi, onda hesab edirəm, Azərbaycanın tam hüququ var ki, öz ərazi bütövlüyünü bərpa etmək üçün hər bir addımı atsın.

**S u a l: İlham müəllim, Siz Türkiyənin Baş naziri ilə görüşəcəksiniz. Türkiyə ilə Ermənistan arasında sərhədlərin açılması məsələsinə toxunacaqsınızmı?**

**C a v a b:** Bilirsiniz, hesab edirəm bu məsələ bir az şişirdilir. Mən inanmaram ki, belə bir fikirlər, meyllər olsun. Əlbəttə, iki ölkəyə aid hər bir məsələ, o cümlədən bu məsələ də müzakirə olunacaqdır. Amma bu elə ciddi məsələ deyil ki, sizə deyim ki, bu, gündəlikdə durur. Bu, bəzi dairələr tərəfindən süni şəkildə şişirdilir. Hesab edirəm, burada hər hansı dəyişiklikdən söhbət gedə bilməz. Türkiyə–Azərbaycan münasibətləri dostluq, qardaşlıq əsasında qurulubdur. Biz bir millət, iki dövlətik. Bizim aramızda yalnız və yalnız qarşılıqlı anlaşma, mehribanlıq, xoş niyyət əhval-ruhiyyəsi var və bundan sonra da hökm sürəcəkdir.

**S u a l: İlham müəllim, Nazirlər Kabinetindəki çıxışınızda belə bir ifadə işlətdiniz ki, Artur Rasizadə Heydər Əliyevə sadiq adamdır. Sizcə, indi hakim komanda daxilində bu sözü hamıya şamil etmək olarmı?**

**C a v a b:** Mən bunu hamıya şamil edirəm. Hesab edirəm ki, Baş nazir kimi mənim əsas vəzifəm bundan ibarətdir ki, hansısa ayrı-seçkiliyə yol verməyim. Düşünürəm ki, bu çox etibarlı komandadır. Onlar Heydər Əliyevə, onun siyasətinə sadiq insanlardır. Ona görə bunu qeyd etdim ki, istəyirəm o insanlar da bilsinlər – mənim onlara münasibətim müsbətdir. Hərə öz işində rahat, sakit işləsin və heç bir şayiəyə, təxribata uymasınlar.Bilirsiniz, indi müxalifətin fəaliyyətinin bir istiqaməti də ondan ibarətdir ki, iqtidar daxilində hansısa ziddiyyətlər yaratsın, kimi kiminsə əleyhinə qaldırsın, müxtəlif şayiələr yaysın və s. Hesab edirəm ki, bizim iqtidarda təmsil olunan insanlar buna əhəmiyyət verməməlidirlər. Şəxsən mən buna əhəmiyyət vermirəm. Müxalifət mətbuatını oxumuram və hesab edirəm, əgər onları heç kim oxumasa, belə bir təəssürat yaranar ki, onlar, ümumiyyətlə, yoxdurlar. Azərbaycanda Heydər Əliyevin tərəfindən yaradılmış vahid komanda var və mən də o komandanın bir üzvüyəm. Sağ olun.

## RUSİYA TELEVİZİYASININ "VESTİ" XƏBƏRLƏR PROQRAMINA MƏXSUSİ MÜSAHİBƏ

*9 avqust 2003-cü il*

*Rusiya televiziyasının "Vesti" xəbərlər proqramının axşam buraxılışında Azərbaycan prezidenti Heydər Əliyevin səhhəti barədə məlumat səslənmişdir. Qeyd edilmişdir ki, Azərbaycan prezidenti Heydər Əliyevin Klivlend klinikasında müayinəsinin ilkin nəticələri qənaətbəxşdir. Bunu həmin xəstəxananın həkimləri bildirmişlər. Bununla belə, həkimlərin sözlərinə görə, o, müalicə kursu keçməlidir...*

*Azərbaycan dövlət başçısının oğlu İlham Əliyev Rusiya televiziyasına məxsusi müsahibə verərək demişdir ki, Heydər Əliyev bu klinikada bir neçə dəfə müalicə olunmuşdur və şəxsən mənim Amerika həkimlərinə etibar etməməyimə əsasım yoxdur...*

**İlham Əliyev:** Azərbaycan prezidenti Heydər Əliyevin səhhəti normaldır. Mən ölkəmizin başçısını müşayiət edən şəxslərlə bir neçə saat bundan əvvəl danışdım. Hər şey yaxşıdır, onun səhhəti tamamilə normaldır. Prezidentin səhhəti barədə bu gün Klivlend xəstəxanası da rəsmi məlumat yaymışdır. Məlumatda deyilir ki, müəyyən problemlərlə yanaşı, çox yaxşı, müsbət dinamika da var və biz ümidvarıq ki, cənab Prezident yaxın vaxtlarda tam sağalacaq və Vətənə dönəcəkdir.

**– Sizin özünüzün də iştirak edəcəyiniz prezident seçkiləri ərəfəsində Azərbaycanda vəziyyət barədə nə deyə bilərsiniz?**

– Təəssüf ki, bizim müxalifətçilər on il ərzində nə öz dünyagörüşündə, nə siyasi mübarizə aparmağın yeni formalarının axtarışında, nə də əhali arasında az-çox ciddi dəstək qazanmaq cəhdlərində müəyyən tərəqqiyə nail ola bilməmişlər. İndi mənim Baş nazir vəzifəsinə təyin olunmağım müxalifətdə böyük narahatlıq və sarsıntı doğurur. Onlar ümidli idilər ki,

prezident Əliyevin xəstələnməsi ilə əlaqədar hakim komandada çəkişmələr, fikir ayrılıqları başlanacaqdır. Hər halda, onlar belə düşünür, yaxud da belə təsəvvür etməyə çalışırdılar. Lakin onlar, həmişəki kimi, yenə də yanıldılar. Mənim parlament tərəfindən yekdilliklə dəstəklənməyim və hökumət üzvlərinin məni tamamilə dəstəkləməsi bir daha göstərdi ki, Azərbaycanda Heydər Əliyevin sıx birləşmiş komandası var və bu komanda onun siyasətini indi də, gələcəkdə də həyata keçirməyə qadirdir.

Onu da bildirim ki, Azərbaycan əcnəbi sərmayəçilər üçün bu gün də cəlbedicidir və bu, ölkə iqtisadiyyatında müsbət nəticələr verir.

Qarşıdakı üç ildə Azərbaycanın neft sektoruna 9 milyard dollar sərmayə qoyulacaqdır. Əgər indiyədək 5-6 milyard dollar sərmayə qoyulduğunu nəzərə alsaq, görərik ki, Azərbaycan adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə ön sıralardadır.

**– Rusiya–Azərbaycan münasibətləri haqqında fikriniz necədir?**

– İndi biz ölkələrimiz arasındakı ikitərəfli münasibətlərin səviyyəsindən çox məmnunuq. Təəssüf ki, keçmişdə yaxşı qarşılıqlı əlaqələrə nail olmaq heç də həmişə mümkün olmurdu. Amma sizə deməliyəm ki, Vladimir Putin prezident vəzifəsinə gəldikdən sonra, xüsusən onun Azərbaycana rəsmi səfərindən və burada danışıqlar aparıldıqdan, habelə prezidentimizin Rusiyaya dövlət səfərindən sonra ikitərəfli münasibətlərimizə yeni təkan verildi. Biz məsələlərin çox geniş dairəsi üzrə razılığa gəldik və artıq əməli nəticələr əldə etməyə başlamışıq.

## “VAŞİNQTON POST” QƏZETİNƏ MÜSAHİBƏ

*9 avqust 2003-cü il*

**S u a l: Birinci sualımız Prezidentlə bağlıdır. O, müayinə və müalicəsini davam etdirmək üçün Birləşmiş Ştatlara gedəcəkmi?**

**C a v a b:** Doğrudur, o, müalicəsini Birləşmiş Ştatlarda Klivlenddə davam etdirməyi planlaşdırır. Mənə elə gəlir ki, bu, doğru qərardır, çünki onu orada tanıyırlar. Mən əminəm ki, orada onun mümkün qədər tez sağalmasını təmin edəcəklər.

**S u a l: Hazırda aldığı müalicə nədir? Sınmış qabırğaların müalicəsidir, yoxsa başqa bir şey?**

**C a v a b:** Əlbəttə ki, qabırğası zədələndikdən sonra Prezidentin ümumi vəziyyəti də bizim istədiyimiz səviyyədə deyildir. Xüsusilə də bu ixtiyar yaşda hər hansı bir zədənin sağalması vaxt aparır. Prezidentin də xarakteri belədir ki, işdən kənarda qalmağa alışmayıb və o hadisədən sonra işə başlaması bir qədər tez olmuşdur. İndi səhhəti möhkəmləndirmək lazımdır və əminəm ki, onu artıq 4 il tanıyan həkimlər əllərindən gələni edəcəklər ki, buna nail olunsun.

**S u a l: Ürəyində də problemlər var?**

**C a v a b:** Bəli, 1987-ci ildən ürəyində problem olub, ilk dəfə infarkt keçirib, 1999-cu ildə Klivlenddə ürəyində cərrahiyyə əməliyyatı aparılmışdır.

**S u a l: Yaxın gələcək haqqında danışsaq, Prezident burada olmadığı müddətdə siz hökuməti gündəlik idarə edəcəksiniz?**

**C a v a b:** Hər şeydən əvvəl, mənim təyinatım o deməkdir ki, prezident Heydər Əliyevin Azərbaycanda 1993-cü ildən bəri apardığı siyasət davam etdiriləcəkdir. Bu bizim ölkə üçün çox vacibdir. Çünki keçmişdə bizim çətin anlarımız olub – qeyri-sabitlik, qarmaqarışıqlıq vaxtları, vətəndaş müharibəsi, iqtisadiyyatın tamamilə dağılması. Bütün bunları geridə

qoymaq üçün olduqca çox vaxt və səylər tələb olundu. Ona görə də cəmiyyətin əsas məqsədi sabitliyi qorumaq və aparılan siyasətin dəyişilməsinə yol verməməkdir. Düşünürəm ki, parlamentin mənim təyinatıma razılıq barədə qərarının əsasında da məhz bu fikirlər, düşüncələr, bu məqsədlər dururdu.

Əlbəttə, mən çalışacağam bacardığımı edim ki, indiyədək əldə olunanların hamısı nəinki qorunub saxlansın, həm də hökumət iqtisadi islahatlar sahəsində bu vaxtadək əldə etdiyimiz nailiyyətləri daha da artırsın. İqtisadiyyat sahəsində uğurlarımız çoxdur, Azərbaycana milyardlarla dollar sərmayənin yatırılmasına müvəffəq olmuşuq.

Xarici sərmayənin cəlb olunması sahəsində keçmiş SSRİ ölkələri içərisində aparıcı mövqedəyik. Neft və qaz sektorunda yaxşı infrastruktur yaratmağa müvəffəq olmuşuq. Üstəgəl, cəmiyyətin demokratikləşdirilməsi prosesi davam etməkdədir. Bu da olduqca mühüm məsələlərdən biridir. İqtisadiyyatın inkişafı ilə yanaşı, demokratiyanı da inkişaf etdirmək vacibdir. Mən əminəm ki, üzümüzə gələn seçkilər ədalətli, demokratik şəraitdə keçəcəkdir. Baş nazir kimi mən də seçkilərin bu cür keçməsini təmin etmək üçün əlimdən gələni əsirgəməyəcəyəm. Azərbaycan gərək siyasi və iqtisadi cəhətdən güclü, demokratik ölkə olsun. Bu bizim ümumi məqsədimizdir. Bəlkə də sizin hazırladığınız sualların çoxuna artıq cavab verdim.

**S u a l: Əlbəttə, seçkilər mövzusu gündəlikdədir. Siz də, atanız da prezidentliyə namizəd kimi qeydə alınmısınız. Sizlərdən kimin seçkilərdə iştirak etməsi ilə bağlı qərar nə vaxt qəbul olunacaqdır? Yəqin atanıza qarşı olmaq istəməzsiniz?**

**C a v a b:** Bəli, doğru deyirsiniz. Əslində, mənim namizədliyim irəli sürülən kimi bəyanat verdim ki, seçkilərdə iştirak etməyəcəyəm. Özümün namizədlər arasına daxil edilməyimə ona görə razı oldum ki, prezidentin seçki kampaniyasında daha fəal iştirak etmək istəyirəm. Şübhəsiz, mən istənilən halda seçki kampaniyasında iştirak edəcəkdim. Amma bu status mənə daha çox imkan açır. Mənə elə gəlir ki, qərarın nə vaxt qəbul

ediləcəyi barədə söhbət etmək bir qədər tezdir. Əminəm ki, Prezident seçkilərdə iştirak edəcəkdir. İctimaiyyətin əhval-ruhiyyəsindən, yalnız yerli deyil, beynəlxalq qurumların da keçirdiyi sorğulardan görünür ki, Prezident olduqca böyük üstünlüyə malikdir, əhalinin böyük əksəriyyəti ona səs vermək fikrindədir. Buna görə də onun bir daha yenidən seçilmək imkanı da çox böyükdür.

**S u a l: Amma eyni zamanda həm də mümkündür ki, o, qərar qəbul etsin ki, bu dəfə seçkilərdə iştirak etməsin. Elədirmi?**

**C a v a b:** Bu onun qərarından asılı olacaqdır. Amma mən düşünürəm ki, belə şey olmayacaq, o, seçkilərdə iştirak edəcəkdir.

**S u a l: Yəqin ki, Azərbaycanda Sizi tənqid edənlər də var. Müxalifət Sizin təyinatınızdan sonra bir nəslin yaratdığı monarxiya haqqında danışır. Sizin onlara cavabınız necə olardı?**

**C a v a b:** Əslində, mən hesab etmirəm ki, tənqidçilər çoxdur. Əksinə, eşitdiklərimiz, gördüklərimiz onu deyir ki, təyinat cəmiyyətdə rəğbətlə qarşılanıbdır. Azərbaycanda əhali ilk növbədə sabitliyin qorunub saxlanmasını istəyir. İnsanlar xüsusi biliyi, bacarığı, qabiliyyəti olmayan adamların yenidən hakimiyyətə gəlməsini ən pis hal kimi görürlər. Bu, əvvəllər baş vermişdir. Sizin dediyiniz müxalifət Azərbaycanda 1992-ci ildə hakimiyyətdə olub, amma bircə il tab gətiriblər. Hakimiyyətlərini bircə il qoruya biliblər, çünki idarəetmə üsulları ilə özlərini biabır ediblər. İndi isə budur, on ildir ki, çalışırlar Prezidenti tənqid, təhqir etsinlər. Yalnız prezidenti yox, elə hökuməti də, hakimiyyətdə olan başqalarını da. Beləliklə, bu təyinatla bağlı tənqid yalnız müxalifətdən gəlir.

Müxalifətə gəldikdə isə, onlar istədiklərini deyə bilərlər. Bütün hüquqi prosedura, Konstitusiyanın tələblərinə, hüquqi normalara riayət olunub, pozuntu yoxdur. üstəgəl, onu da əlavə edim ki, İlham Əliyev Azərbaycan siyasətində yeni sima deyildir. Mən 1995-ci ildən Azərbaycan parlamentinin

üzvüyəm, hakimiyyətdə olan partiya sədrinin birinci müavini-yəm. Bu təyinatadək 10 ilə qədər ARDNŞ-in birinci vitse-prezidenti, beynəlxalq əlaqələrin inkişaf etdirilməsinə cavabdeh şəxs olmuşam. Mən Azərbaycanın Olimpiya Komitəsinin prezidentiyəm. Bu, o deməkdir ki, bütün bunlar - həm ölkə daxilindəki, həm də beynəlxalq aləmdəki fəaliyyətim mənim bu vəzifəyə təyin olunmağıma əsas verir. Amma bir də onu deyim ki, müxalifət nə deyirsə, bu məni o qədər də narahat etmir.

**S u a l: Yəqin ki, bu illər ərzində atanız kimi, Siz də müxalifət tərəfindən çox tənqidə məruz qalmısınız. Xüsusilə də, son bir neçə gün ərzində müxalifətin Sizin atanızın artıq həyatda olmadığı ilə bağlı bəyanatlarına necə cavab verərdiniz? Bu Sizə toxunur və yəqin ki, Sizi acıqlandırır.**

**C a v a b:** Əlbəttə, təsəvvür etmək çətin deyil ki, bu, adamı hirsləndirməyə bilməz. Amma özümü məcbur edib, bu adam-lara hirslənə bilmirəm. Elə bilirəm ki, belə şeyləri yazanlar insanlığa xas olan son hisslərini də itiriblər. Mən siyasi mübarizəni də, yenidən hakimiyyətə gəlmək istəyini də başa düşə bilərəm, amma hər şey sivil formada olmalıdır. Biz insa-nıq, başqa məxluq deyilik. Son iki-üç ay müddətindəki müxalifət qəzetlərinə baxsanız, hər gün yalan, təhqir, Preziden-tin səhhəti ilə bağlı tamamilə qeyri-etik yazılar görərsiniz. Prezident ölkənin simvoludur. Xüsusilə də Heydər Əliyev kimi Prezident! Onu tənqid edənlərin fəaliyyəti nəticəsində parçalanmaqda olan, uçuruma sürüklənmiş ölkəni xilas edən Prezident!

Müxalifətdəki bu adamlara ən yaxşı cavab bizim praktiki işlərimiz, əməli addımlarımız ola bilər. Əgər geriyə, 1992-ci ilə, bu adamların, müxalifətin hakimiyyətdə olduğu zamankı Azərbaycana baxsanız və bugünkü günlə müqayisə etsəniz, böyük fərq görünəcəkdir.

Bu gün biz dünyada hörmət qazanmış ölkəyik. İnsanların həyat şəraitinin günbəgün yaxşılaşdığı ölkədir. Özü də bütün bunlar bizim əhalimizin 1 milyonunun qaçqın-köçkün olduğu

bir şəraitdə baş verir. Bildiyiniz kimi, Ermənistanın bizim ölkəyə qarşı təcavüzü nəticəsində ərazimizin bir hissəsi işğal olunmuşdur. Biz dünyada əhalinin sayı ilə müqayisədə, qaçqın-köçkünlərin ən yüksək faiz təşkil etdiyi ölkəyik. Hər 8 nəfərdən biri qaçqın-köçkündür, amma buna baxmayaraq, inkişaf prosesi gedir. Beləliklə, yenə deyirəm, onlara ən yaxşı cavab bizim fəaliyyətimiz, görülən işlərdir. Güclü iqtisadiyyat yaratmaq və güclü siyasi sistem qurmaq yolundakı xidmətlərimizdir.

**S u a l: Bəzi müxalifət üzvləri bildirirlər ki, onlara hədə-qorxu gəlinir, onlar döyülürlər, həbs olunurlar və bu da Sizin hökumətin razılığı ilə edilir. Bu həqiqətdirmi?**

**C a v a b:** Bu da həqiqətə uyğun deyil, onlar həbs olunmurlar, onlar azaddırlar. Özləri təhrik edirlər ki, onları həbs etsinlər. İndiki siyasətləri, – xüsusilə də başa düşdükdən sonra ki, sivil, demokratik yollarla hakimiyyətə gəlmək şansları yoxdur, – onların əlində olan yeganə mexanizm özlərini yazıq kimi qələmə verməkdir.

**J u r n a l i s t: Doğrudur.**

**İ l h a m Ə l i y e v:** Onlar çalışırlar ki, hüquq-mühafizə orqanları tərəfindən döyülsünlər, qorxudulsunlar. Amma mən əminəm ki, bizim hüquq-mühafizə orqanları onların planının həyata keçməsinə imkan verməyəcəklər. Ona görə də, gəlin onların dediyinə görə yox, həqiqi hadisələr əsasında mühakimə yürüdək. Onların heç biri həbs olunmayıb, özlərini rahat hiss edirlər, hamısının əla yaşayış şəraiti var, siyasi fəaliyyətlərini davam etdirmək üçün şərait var. Ona görə də, yəqin özlərini xoşbəxt sayırlar, vəziyyətdən razı olmalıdırlar. Bu onların ən çox əldə edə biləcəkləridir. Sizə deyim ki, onlar bu siyasi mühitdən ayrılsalar, aralı düşsələr, cəmiyyətdə öz yerlərini tapa bilməyəcəklər. Bunun sübuta ehtiyacı yoxdur. Onların heç biri, təkrar edirəm, heç biri, – adbaad, ayrılıqda götürək, – hansısa bir sahədə özlərini heç bir cəhətdən büruzə verə bilməyib, heç biri ölkə üçün yaxşı bir iş görə bilməyibdir. Onlar küçələrdən gəliblər, bu da ki, ümumiyyətlə, bütün cəmiyyətin sovet sisteminə qarşı narazılıq dalğası fonunda baş vermişdir. O vaxt

küçələrdə narazılıqlarını bildirən insan kütlələri yığışırdı, onların da ən zil səslə qışqıranları mövqe tutdular. Sizə deyə bilərəm ki, parlamentin keçmiş spikeri Qəmbərov, - hansı ki, indi özünü müxalifət lideri kimi qələmə verməyə çalışır, - 12 il müddətində elmi-tədqiqat institutunda aspirant olaraq qalırdı. O bu müddət ərzində elmi işin öhdəsindən gələ bilmirdi. İndi müxalifətdə olan o vaxtkı Baş nazir bir vaxtlar bazarda qarpız satırmış. Siyahını uzatmaq olar. Özünü müxalifət lideri sayan başqa birisi universitetdə SSRİ tarixi müəllimi idi.

Bu adamların ölkə idarə etmək təcrübəsi yoxdur və onların 1992-ci ildə idarəetmə dövrü bunu sübuta yetirdi. Onların bacarıqları, bilikləri, təcrübəsi yoxdur. Üstəgəl, cəmiyyətdən alacaqları dəstək də yoxdur. Cəmiyyət o dövrdəki böyük narahatlıqdan cana doymuşdur. Cəmiyyətə sabitlik lazımdır. İnsanlar iş istəyirlər, yaxşı maaş istəyirlər, uşaqlarını təhlükəsiz mühitdə böyütmək istəyirlər və indi bizim vəzifəmiz onlara bu şəraiti təmin etməkdir.

**S u a l: Siz dediniz ki, atanızın siyasətini davam etdirməkdə maraqlısınız. Bu, əlbəttə ki, belədir. Amma heç kim eynilə digərinə bənzəyə bilməz. Elə ola bilərmi ki, Siz başqa tip siyasətçi olasınız, atanızdan fərqlənəsiniz? Çünki, axı Sizin həyat təcrübəniz də müxtəlif olubdur?**

**C a v a b:** Mən çalışacağam, bütün həyatım boyu çalışacağam ki, atam kimi görünüm. O, mənim üçün həmişə həyatımızın nümunəsi olubdur. Onun həyatının çox çətin dövrləri olub. Kommunist Partiyası Siyasi Bürosunun üzvlüyündən, – bildiyiniz kimi, o, keçmiş SSRİ rəhbərliyində 8-9 adamdan biri idi, – kiçik, doğma Naxçıvan şəhərinə gəldi, elektrik enerjisinin olmadığı bir şəraitdə yaşamağa başladı. Orada qış ayları çox sərt olur. O, keçmiş sovet və Azərbaycan liderlərinin hücumlarına məruz qalmışdı. Sonra Azərbaycana yenidən rəhbərlik edəndə müxtəlif hakimiyyət çevrilişi cəhdləri olmuşdur. Ona qarşı terror cəhdləri olmuşdur. Bütün hallarda o, təkcə siyasətçi kimi deyil, həm də qorxmaz, igid adam kimi hərəkət etmişdir.

Hesab edirəm, bununla da gənc nəslə nümunə olmuşdur. Bax, buna görə də çalışıram ki, onun kimi görünüm. Çünki mənim üçün o, həmişə etalon olubdur. Ancaq siyasi fəaliyyət etalonu yox, şəxsi davranış etalonu olubdur.

**S u a l: Siz elə bir vaxtda böyümüsünüz ki, Sizə Sovet İttifaqının dağılmasını görmək nəsib olubdur. Yeni kapitalist münasibətləri ilə də tanışsınız. Əhalinin Sizə dostyana münasibət bəsləyən hissəsi belə fikirdədir ki, Sizin hadisələrə baxışınız daha liberal, daha demokratik yönümlü olacaqdır. Sizcə bu doğrudur?**

**C a v a b:** Deyə bilərəm ki, bizim nəslin nümayəndələri, yəqin, əvvəlki nəslin nümayəndələrindən daha bəxtli olubdur. Sistem dağılarkən biz cavan idik. Biz fəal idik və yeni mühitdə özümüzə yer tapmaq gücündə idik. Sistem dağılarkən yaşı 50-60-a çatanlar 1990-cı illərin əvvəllərində daha çox çətinlik hiss edirdilər. Amma Sovet İttifaqı dağılarkən, mən və mənim kimi həmkarlarımın, dostlarımın, yaşıdlarımın çoxu tamamilə yeni həyata başladıq. Çoxları özəl bizneslərini yaratdılar, mənim özüm 3 il özəl biznes sahəsində çalışdım. Şirkətlər qrupunu idarə edirdim. Beləliklə, bunun nə demək olduğunu bilirəm. Biznesmenliyin nə olduğu mənə məlumdur. Ona görə də biznes icmasının tələblərini asanlıqla başa düşə bilərəm.

Sizə deyə bilərəm ki, Azərbaycanda şəxsi biznesi həvəsləndirmək, sürətləndirmək sahəsində çox işlər görülübdür. Biznes mühitinin əlverişli olması üçün çox iş görülübdür. Biznesmenlərin işini asanlaşdırmaq üçün qərarlar qəbul edilmişdir. Bu sahədə Qərbin inkişaf etmiş ölkələri bizi yaxşı nümunə göstərirlər. Möhkəm orta təbəqə olarsa, kiçik və orta şirkətlər çoxsaylı və güclü olarsa, yaxşı nəticələr əldə edilə bilər. Elə bilirəm ki, hökumətin məqsədi, daha doğrusu, məqsədlərindən biri qeyri-neft sahəsinin inkişaf etdirilməsi üçün daha çox iş görmək olacaqdır. Çünki neft sahəsində bizim yaxşı təcrübəmiz var və yaxşı nəticələr əldə edirik. İşsizliyin azaldılması, qeyri-neft sahəsində yeni iş yerlərinin yaradılması, idxalın azaldılması məqsədi ilə yeni müəssisələrin işə salınması

və bununla ixracın artırılmasına nail olunması, yəni, yerli məhsulun istehsalına təkan verilməsi, biznes icması üçün – həm xarici biznesmenlərin, həm də yerli iş adamlarının normal fəaliyyəti üçün şərait yaradılması ölkəni inkişaf etdirməyin yeganə yoludur.

Neft sahəsində dünyanın aparıcı şirkətləri ilə əməkdaşlığımız yaxşı nəticələr vermişdir. Ehtiyat fondu kimi, 1 milyard dollardan artıq vəsait yığılıbdır. Neft Fondu yaradılıbdır. Bu fond tamamilə şəffaf qurumdur. Burada auditi Beynəlxalq Valyuta Fondu və Dünya Bankı kimi nüfuzlu maliyyə qurumları tərəfindən keçirilir. Azərbaycan Böyük Britaniyanın Baş naziri Toni Bleyrin hasilat sahələrində şəffaflıq barədə təşəbbüsünün fəal iştirakçısına çevrilmişdir. Bu təşəbbüs nəticəsində qərara alınmışdır ki, bizim Neft Fondunun idarəçiliyi digər ölkələr üçün nümunə, örnək ola bilər. Bu cür fəaliyyət növləri neftə aid olmayan sahələrə də tətbiq edilə bilər və tətbiq də olunmalıdır. Əminəm ki, bunun da öhdəsindən gələ biləcəyik.

**S u a l: Yenə də Sizin tənqidçilərə qayıdaq. Bunu deyərkən təkcə ölkəmizdəki müxalifəti yox, Sizi xaricdə tənqid edənləri də nəzərdə tuturuq. İllər boyu xaricdə bilməyiblər ki, Azərbaycan hökumətini necə adlandırsınlar. Bəziləri Sizin atanızı diktator adlandırırdı. Yəqin, Sizi gənc diktator adlandıran məqaləni oxuyandan sonra Siz də məyus oldunuz. Siz özünüz hökuməti necə adlandırardınız, avtoritar sistem, tam demokratiya, yoxsa bunların arasında nə isə? Özünüz bu sistemi necə müəyyən edərdiniz və Siz hansı sistemə ümid edirsiniz?**

**C a v a b:** Ən əvvəl hesab edirəm ki, belə məqalələri yazanlar çalışıb obyektiv olmalıdırlar. Başa düşürəm ki, belə məqalələrin çap olunması üçün müəyyən, necə deyərlər, sosial sifarişlər ola bilər. Azərbaycan elə ölkədir ki, bədbəxtlikdən onun təkcə dostları deyil, düşmənləri də var. Bizdə kifayət qədər məlumat var ki, bu məqalələrin arxasında bütün dünyada gücü ilə tanınan erməni lobbisi durur. Bizim torpaqlarımızın 20

faizini işğal edən Ermənistan Azərbaycana qarşı informasiya müharibəsini də davam etdirir.

Ona görə də bu cür məqalələrin heç bir əsası yoxdur. Azərbaycan artıq demokratik cəmiyyət qurmaq seçimini etmiş ölkədir. Mən bununla bağlı sizə çoxsaylı misallar gətirə bilərəm. Azərbaycanın indiki hakimiyyəti dövründə, prezident Heydər Əliyevin dövründə mətbuatda senzura aradan götürüldü. Yeri gəlmişkən, bu, əvvəl hakimiyyətdə, indi isə müxalifətdə olanların tətbiq etdiyi senzura idi. Ölüm hökmü ləğv edildi. Azərbaycan Avropa Şurasının üzvü oldu. Mən özüm Avropa Şurası Parlament Assambleyası sədrinin müavini oldum.

Bizim ölkə inkişaf yolunu seçibdir. 1993-cü ildə seçim yollarımız həddindən artıq çox idi. Qarşımızda digər ölkələrin də nümunələri var. Onlar başqa inkişaf yolu seçiblər. Bəlkə də o yol idarə etmək üçün daha asandır. Müxalifətsiz, azad mətbuatsız, söz azadlığı olmayan yol. Amma bizim seçimimiz belə olmadı. Biz Azərbaycanda demokratik cəmiyyət yaradılmasında dərindən maraqlı idik. İndi Azərbaycanda demokratik cəmiyyətin bütün elementləri mövcuddur. Amma 5-6 ilə demokratik sistem quran ölkə 200 illik demokratiya təcrübəsi olan ölkələrlə müqayisə edilə bilməz. Bu, reallıqdan uzaqdır. Biz isə realist olmalıyıq. Əlbəttə, bizim özümüzü tam qane etməyən, özümüzün xoşumuza gəlməyən məqamlar var, amma bu təbiidir. Vacib olanı odur ki, biz vəziyyəti düzəltməkdən ötrü əlimizdən gələni edirik. Demokratik cəmiyyət qurulması bizim hökumətin ən öncül məqsədidir. Ona görə də mən Azərbaycanı keçid dövründə olan ölkə, demokratik ölkə adlandırardım. Daha çox demokratikləşməyə doğru irəliləyən ölkə adlandırardım. O demokratiya ki, biz onu Qərbi Avropa ölkələrində müşahidə edirik. Amma Azərbaycan bu mərhələdə həmin ölkələrlə müqayisə olunmamalıdır.

**S u a l: Digər sovet ölkələri ilə müqayisə etmək daha düzgün olar?**

**C a v a b:** Məncə, keçmiş sovet ölkələri, keçmiş sosialist blokunun ölkələri – bu, əvvəllər bizim hamımızın olduğu mü-

hitdir – yaddan çıxarmamalıyıq ki, Azərbaycan 70 il SSRİ-nin tərkibində olubdur və on ikinci ildir müstəqil ölkədir.

Müstəqil olduğu dövrdə də o qədər böyük problemlərlə üzləşib ki, – Ermənistanın təcavüzü, vətəndaş müharibəsi, bir neçə dövlət çevrilişi cəhdi – bütün bunların fonunda əldə edilənlər olduqca böyük uğurlardır.

**S u a l: Sizə son 12 il müddətində şəxsi keçid dövrü ilə bağlı sual vermək istəyirik. Siz özünüz çox dəyişmisiniz. Siyasi fəaliyyətlə daha çox maraqlanırsınız. Bir cavan adam kimi, adınız bir sıra məqamlarla bağlanır, bilmirik, bu söhbətlər doğrudur, yoxsa yox?**

**C a v a b:** Bu söz-söhbətin heç bir əsası yoxdur. Sizə deyə bilərəm ki, bu şayiələr müxalifət qüvvələri tərəfindən yayılıbdır. Məqsəd isə mənim adıma xələl gətirməkdir. Yəqin elə buna görə sual verirsiniz. Sizə deyim ki, 1995-ci ildən mənim həyatım ictimaiyyətlə bağlı həyat tərzidir. Parlament üzvü seçildikdən sonra sənin hər addımın, hər hərəkətin bütün cəmiyyətə məlumdur. Bütün həyatım boyu, uşaqlığın lap erkən çağından çalışmışam elə edim ki, öz hərəkətlərimlə atamı peşman etməyim. O, Azərbaycanın lideri olub, sovet sistemində tanınmış siyasətçi idi və siz bilirsiniz ki, sovet sistemi nə qədər ciddi idi. Ona görə də mən həmişə çalışmışam elə hərəkət edim ki, onun nüfuzuna xələl gəlməsin. Bu həmişə mənim üzərimə əlavə məsuliyyət qoyurdu. Mən də məsuliyyət hiss edən adamam. İnsanlar nə istəsələr deyə bilərlər: qaraya ağ, ağa qara. Amma mənim adımla bağlı heç bir şayiənin, heç bir sözün əsasını, sübutunu tapmaq mümkün deyildir. Bütün şayiələr uydurmadır və müvafiq qurumlar tərəfindən ifşa edilmişdir.

Mən bu cür həyat tərzini şüurlu surətdə seçmişəm. Mən anlayıram ki, prezidentlərin ailələri, tanınmış adamların ailələri müxtəlif cür olur. Onların qarşısında geniş imkanlar olur. Bəziləri normal həyat tərzi seçir, sakit həyat tərzinə üstünlük verir, bəziləri ölkədən kənarda yaşayır, özlərini orada daha təhlükəsiz, daha yaraşıqlı mühitdə hiss etmək istəyirlər. Bəziləri isə valideynlərinə, onların işlərinə kömək etməyə üstünlük

verirlər. Ümumiyyətlə isə, necə yaşamaq bir o qədər vacib deyil, əhəmiyyətlisi odur ki, sən nə iş görürsən və nə cür kömək edirsən? İnsanlar sənin haqqında nə düşünürlər? Sən yeni dövlətin quruculuğu işinə hansı töhfələri verirsən. Ona görə də dediyim kimi, bu seçimi şüurlu etmişəm və bundan heç vaxt heyfslənmirəm və  xoşbəxtəm ki, atamın başladığı işi davam etdirmək mövqeyindəyəm. ümid edirəm ki, bu işi onunla birlikdə davam etdirəcəyik.

**S u a l: Baş nazir təyin olunmazdan əvvəl atanız Sizə nə dedi? Onunla söhbət edə bildinizmi?**

**C a v a b:** Bu cür variant əvvəllər də müzakirə olunmuşdu.

**S u a l: Bir neçə ay bundan əvvəl, yoxsa?..**

**C a v a b:** Bir neçə ay bundan əvvəl. Amma qərarı ona görə indi verdi ki, belə fikirləşdi ki, bunu etməyin vaxtı gəlib çatıbdır. 20 gündən çoxdur ki, ölkədən kənardadır. Əlbəttə ki, hər şey nəzarət altındadır. Amma onun qərarı ilə razılaşmalıydım və mən etiraz etmədim.

**S u a l: Siz bu haqda şəxsən danışdınız?**

**C a v a b:** Bəli, bəli. Mən həmin gün Ankarada, onun yanında idim. Mən buradan, Bakıdan onun yanına gedib-gəlirdim və əlbəttə ki, qərar çıxarılan vaxt mən orada idim. Sonra buraya gəldim və avqustun 4-də parlament bu qərara razılıq verdi.

**S u a l: Belə çıxır ki, qərar həftənin 6-cı günü çıxarılıbdır.**

**C a v a b:** Bəli.

**S u a l: Prezident sizə nə dedi?**

**C a v a b:** Dedi ki, sənə inanıram, inanıram ki, sən idarə edə biləcəksən. Məni bir qədər təriflədi, onun dediklərini təkrarlamaq istəmirəm, yəqin bu, təvazökarlıqdan uzaq olar. Amma mən dedim ki, heç vaxt onun gördüyü işi heçə endirməyə yol verməyəm. Dedim ki, indiyə qədər fəaliyyət göstərdiyim bütün sahələrdə, həm ölkə daxilində, həm də ölkə xaricində onun siyasətini davam etdirməyə çalışmışam və söz verdim ki, onun işi davam etdiriləcəkdir.

**S u a l: Birləşmiş Ştatlarla münasibətlərə gəlincə, təbii ki, oraya çox getmisiniz. Bir neçə ay əvvəl, vitse-prezident Çeyni ilə görüşmüsünüz, prezident Buşla da görüşmüsünüz. Onlar zəng edib Sizi təbrik ediblər?**

**C a v a b:** Yox, etməyiblər. Siz haqlısınız. Prezident Buşla Hyüstonda, o, Texas ştatının qubernatoru olarkən görüşmüşük, yaxşı görüşümüz oldu. O, səxavət göstərdi, bizi Texasın Ağ evində gəzintiyə çıxartdı və mənə fəxri texaslı adı verdi. Buna görə ona çox minnətdaram. Prezident seçkilərində isə mən ona təbrik məktubu göndərdim və çox şadam ki, cavab məktubu da aldım. Cavab məktubunda deyilirdi: "Bir texaslıdan digər texaslıya. Təbrikinə görə sağ ol". Birləşmiş Ştatlara kifayət qədər tez-tez gedirəm. Son bir neçə il müddətində, yəqin 10-15 dəfə getmişəm. Hökumətdə, digər sahələrdə çalışan çoxsaylı dostlarım var, həmişə yaxşı görüşlərimiz olur. Çox zaman orada olarkən, qeyd etdiyiniz kimi, vitse-prezidentlə və ya milli təhlükəsizlik üzrə müşavirlə, energetika naziri ilə və digər rəsmilərlə görüşürəm.

Sizə deyə bilərəm ki, Birləşmiş Ştatlarla münasibətlər Azərbaycanın xarici siyasətinin ən öncül istiqamətlərindən biridir. Azərbaycan Birləşmiş Ştatların həqiqi müttəfiqi olduğunu ancaq sözdə deyil, praktiki addımlarla da nümayiş etdirdi və bu siyasət dəyişilməz qalacaqdır. Biz bu münasibətlərimizi daha da inkişaf etdirməkdə çox maraqlıyıq. Bu münasibətlərimiz bir sıra sahələri əhatə edir. Məsələn, ABŞ hökumətinin dəstəyi olmasaydı, nəhəng Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisi mümkün olmazdı. Biz bu işi illər boyu apardıq və indi xoşbəxtik ki, boru kəmərinin tikintisi başlanıbdır.

İşlər cədvələ müvafiq davam edir. Tikinti yəqin ki, gələn ilin sonunda tamamlanacaqdır. Terrorizmə qarşı mübarizə sahəsində bizim yaxşı münasibətlərimiz vardır.

**S u a l: Bəli, Sizə bununla bağlı sual vermək istəyirdik.**

**C a v a b:** Azərbaycan terrorizmdən əzab çəkmiş ölkədir. Biz terrorizmin nə olduğunu bilirik. Erməni terror təşkilatları

tərəfindən Azərbaycana qarşı 30-dan artıq terror aktı törədilmişdir. Bu terror aktları nəticəsində 2000-dən artıq günahsız adam qətlə yetirilmişdir. Yəni, biz terrorizmdən əzab çəkməyin nə olduğunu bilirik. Ona görə də Birləşmiş Ştatlara qarşı dəhşətli terror hücumları həyata keçirilərkən Azərbaycan birinci olaraq öz dəstəyini ifadə etdi. Biz Birləşmiş Ştatların İraqda keçirdiyi əməliyyatları açıq dəstəkləyən ilk ölkələrdən olduq. Siz Birləşmiş Ştatları dəstəkləyən ölkələrin siyahısına baxsanız, orada çox ölkələrin adlarına rast gəlməyəcəksiniz. Bəlkə 30 ölkənin adını görərsiniz. Bu məqamda, İraqda hər şeyin artıq geridə qaldığı mərhələdə bəlkə də çoxları deyər ki, bəli, biz də dəstəkləmişik. Amma hələ heç nəyin başlamadığı vaxtda dəstəyi ifadə etmək bizim düzgün mövqeyimizi, məsələni necə görməyimizi göstərir.

Yeri gəlmişkən, həmin siyahıda Ermənistanı görməyəcəksiniz. Əlbəttə, Birləşmiş Ştatlarda erməni lobbisi güclüdür və çalışır ki, Ermənistanı maraq mərkəzində saxlasın. Lakin milli lobbilərlə ölkənin siyasəti arasında fərq var. Beləliklə, biz ABŞ-la münasibətlərimizə böyük əhəmiyyət veririk və mən əminəm ki, bu münasibətlər gələcəkdə daha fəal, daha geniş olacaqdır.

**S u a l: Şəxsi maraqlarınızla bağlı sual vermək istərdik. Yəqin bu təyinatdan sonra iş cədvəliniz daha sıx, daha gərgin olacaqdır. Siz bir çox xarici dillərdə danışırsınız, indi böyük iş başındasınız. Başqa maraq dairəniz nədən ibarətdir? İşləməyəndə nə ilə maraqlanırsınız?**

**C a v a b:** Mən sizə dedim ki, bir sıra öhdəliklərim var. Parlamentdə, bizim partiyada, neft şirkətində, olimpiya komitəsində çalışıram, istəyirəm ki, bu vəzifələrin öhdəsindən layiqincə gəlim. Sizə deyə bilərəm ki, bütün sahələrdə qarşıma qoyulan məsələlərin hamısında yaxşı nəticələr əldə edə bilmişəm. Nə isə digər bir iş görməyə isə, sadəcə, vaxtım çatmır. Amma sərbəst vaxt olanda, çalışıram ki, onu ailəmlə birlikdə keçirim. Bundan savayı hansısa spesifik marağım yoxdur.

**S u a l: Amma həm də idmançı görkəminiz var.**

**C a v a b:** Bəli, mən idmanla məşğul olmuşam. Özümü formada saxlamağa çalışıram. Amma idmanla məşğul olarkən həmişə çalışmışam ki, qalib gəlim.

**S u a l: Deyək ki, bundan 5 il sonra Siz prezident olursunuz. Siz Azərbaycanı necə görmək istərdiniz?**

**C a v a b:** Mən elə bilirəm ki, insanların həyat şəraitini yaxşılaşdırmaq qarşıda duran ən böyük vəzifədir. Bunu etmək üçün bizim hər cür imkanımız və yetərincə möhkəm iradəmiz var. Çünki hakimiyyətdə olanın əsas vəzifəsi həmvətəninin özünü daha yaxşı hiss etməsi üçün işləməkdir. Baxmayaraq ki, bütün iqtisadi göstəricilərin artımına nail olmuşuq, – məsələn, ümumi daxili məhsulun həcmi son 6 ildə təxminən 10 dəfə artmışdır, bu çox yaxşı nəticədir, – hələ də insanların həyat şəraitini yaxşılaşdırmaq üçün görüləsi işlər çoxdur. Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması qarşıda duran ümdə vəzifədir. Ermənistanın Azərbaycan torpaqlarının işğal altında saxlamasına beynəlxalq birliyin köməyi ilə son qoymaq vacibdir ki, Azərbaycanın 1 milyon qaçqın-köçkünü öz yerlərinə qayıda bilsin. Mən elə bilirəm ki, bu, baş verəcəkdir. Əminəm ki, Azərbaycan iqtisadi cəhətdən güclü ölkəyə çevriləcək və digər ölkələrə nümunə olacaqdır. Mən Azərbaycanı belə görmək istəyirəm.

Amma, əlbəttə, çox şey bizim bu sahələrdə nə dərəcədə uğur əldə etməyimizdən asılı olacaqdır. Regional təhlükəsizlikdən çox şey asılı olacaq, bu çox vacibdir. Bildiyiniz kimi, region təhlükəsiz məkan hesab olunmur, ona görə də Azərbaycanın gələcəyi haqqında düşünərkən, ölkəni əməkdaşlıq məkanı kimi görmək istəyirəm. Keçmişdə qarşıdurma kifayət qədər olub, bizə cəmiyyəti birləşdirmək lazımdır. Biz cəmi 8 milyonuq. Biz bir ola bilərik və bir olsaq, məqsədlərimizə də nail olacağıq.

**J u r n a l i s t: Müsahibəyə görə çox sağ olun.**

## AZƏRBAYCANIN DÖVLƏT TELEVİZİYASININ MÜXBİRİNƏ MÜSAHİBƏ

*9 avqust 2003-cü il*

**S u a l: İlham müəllim, son vaxtlar Azərbaycanda beynəlxalq yarışların, müxtəlif idman tədbirlərinin keçirilməsi ənənə halını almışdır. Bədii gimnastika üzrə bugünkü yarışın keçirilməsi də Azərbaycanın idman tarixində mühüm hadisə deyilmi?**

**C a v a b:** Mən razıyam. Doğrudan da bu, Azərbaycanın idman tarixində mühüm hadisədir, əlamətdar bir haldır. Artıq bir neçə dəfə Azərbaycanda beynəlxalq yarışlar, dünya, Avropa çempionatları, kubok yarışları keçirilibdir. Bu onu göstərir ki, beynəlxalq idman qurumlarının Azərbaycana münasibəti çox xoşdur, bizim fəaliyyətimiz çox yüksək qiymətləndirilir. Biz də hər bir beynəlxalq yarışın təşkilində çalışırıq ki, onu ən yüksək səviyyədə keçirək.

Bundan əlavə, deyə bilərəm ki, Azərbaycan dünyada bəlkə də yeganə bir ölkədir ki, Olimpiya oyunlarına hazırlıq mərhələsində burada idmanın üç növü üzrə lisenziya turnirləri keçiriləcəkdir. Azərbaycanda boks, taekvondo və voleybol üzrə beynəlxalq turnirlər keçiriləcəkdir ki, bu da öz növbəsində idmançılarımıza daha da gözəl şərait yaradacaqdır.

Bilirsiniz ki, Azərbaycanda idman sürətlə, hərtərəfli inkişaf edir. İdmançılarımız beynəlxalq yarışlarda gözəl nəticələr göstərirlər. Azərbaycanda idmanın maddi-texniki bazası ən yüksək səviyyədə yenidən yaradılıbdır. Əlbəttə, beynəlxalq yarışların Azərbaycanda keçirilməsi ölkədə idmana böyük bir təkan verir, gənc, yeniyetmə idmançılarımız, uşaqlar bunu görüb həvəslənirlər. Əminəm ki, bu, həm də Azərbaycanda idmanın kütləviliyinə gətirib çıxaracaqdır. Əsas məqsədimiz də məhz budur. Yəni uşaqlarımız idmanla məşğul olsunlar, öz

fiziki sağlamlıqlarını möhkəmləndirsinlər və Azərbaycanda gözəl, fiziki və mənəvi cəhətdən güclü nəsil yetişsin.

**S u a l: İlham müəllim, bugünkü idman bayramında 17 ölkədən nümayəndə heyəti iştirak edir. Beynəlxalq təşkilatların nümayəndələri də bu tədbirə qatılıblar. Belə bir idman yarışlarının Azərbaycanda keçirilməsini ölkəmizdəki ictimai-siyasi sabitliyin davamlı xarakter alması ilə də izah etmək olarmı?**

**C a v a b:** Şübhəsiz. Əgər Azərbaycanda ictimai-siyasi sabitlik olmasaydı, təbii ki, belə turnirlərin, yarışların keçirilməsi də qeyri-mümkün olacaqdı. Azərbaycanın ən böyük sərvəti ondadır ki, Heydər Əliyevin rəhbərliyi altında son on ildə ölkədə sabitlik, ictimai-siyasi asayiş hökm sürür. Bu, xalqımız, ictimaiyyətimiz üçün ən böyük sərvətdir, ən böyük qazancdır. Əlbəttə, belə bir rahat, sakit şəraitdə hər bir idman tədbirini, digər tədbirləri keçirmək mümkündür.

Mən sizə deyə bilərəm ki, Beynəlxalq Gimnastika Federasiyasının nümayəndələri təxminən bir neçə ay bundan əvvəl təftiş məqsədilə Azərbaycana gəlmişdilər və burada bizim imkanlarımızı öyrənmiş, mövcud idman qurğuları ilə tanış olmuşdular. Onlar bizə böyük məmnuniyyət hissi ilə bildirmişdilər ki, Azərbaycanda nəinki idmanla məşğul olmaq üçün imkanlar, böyük beynəlxalq yarışlar keçirmək üçün gözəl idman qurğuları var, eyni zamanda, ölkədə gözəl əhval-ruhiyyə, abhava hökm sürür. Bütün bu amillər ölkəmizdə belə yarışların keçirilməsinə imkan verir. Əminəm ki, gələcəkdə də Azərbaycanda neçə-neçə beynəlxalq yarışlar, çempionatlar keçiriləcəkdir. Bu da öz növbəsində bizim idmansevərlərimizi sevindirəcəkdir.

**S u a l: Siz indi ölkəmizdəki ictimai-siyasi vəziyyəti necə qiymətləndirirsiniz? Yəni narahatçılıq üçün hər hansı bir əsas varmı?**

**C a v a b:** Narahatçılıq üçün heç bir əsas yoxdur. İctimai-siyasi vəziyyət sabitdir. Hər şey qaydasındadır. Azərbaycan inkişaf edir, irəliyə gedir. Azərbaycan qarşıda qoyduğu bütün

vəzifələri həyata keçirir. Əminəm ki, bundan sonra da belə olacaqdır.

**S u a l: İlham müəllim, respublika ictimaiyyəti Azərbaycan prezidenti Heydər Əliyevin səhhəti ilə bağlı xəbərləri maraqla, ümidlə izləyir. Şükürlər olsun ki, Amerika Birləşmiş Ştatlarından nikbin xəbərlər alınır. Cənab Prezidentin səhhəti ilə bağlı son məlumat necədir?**

**C a v a b:** Mən deyə bilərəm ki, - ictimaiyyət də bunu bilir, - cənab Prezident ora çatandan sonra Klivlend klinikası dövlətimizin başçısının sağlamlığı ilə bağlı rəsmi məlumat vermişdi. O da mətbuata çatdırılmışdır. Eyni zamanda, deyə bilərəm ki, mən bu gün cənab Prezidentlə iki dəfə telefonla danışdım. Oranın vaxtı ilə dünən axşam saat on bir, bizdə səhər saat səkkiz idi. Bir də günorta, saat 4-də danışdım. Cənab Prezidentin səhhətində heç bir problem yoxdur. Özünü çox yaxşı, gümrah hiss edir. Əhval-ruhiyyəsi də yaxşıdır. O da bilirdi ki, bu gün Azərbaycanda belə bir mötəbər idman yarışı keçirilir. Xahiş etmişdi ki, mən onun salamlarını, ən xoş arzularını Azərbaycan xalqına çatdıram. Mən də bunu məmnuniyyətlə edirəm. Allaha şükürlər olsun ki, cənab Prezidentin müalicəsində çox müsbət dəyişikliklər vardır. Əminəm ki, yaxın gələcəkdə o, Vətənə dönəcəkdir. Çox sağ olun.

## BAKI–TBİLİSİ–CEYHAN ƏSAS İXRAC NEFT BORU KƏMƏRİNİN AZƏRBAYCAN HİSSƏSİNİN TİKİNTİSİ İLƏ TANIŞLIQ ZAMANI YERLİ VƏ XARİCİ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİNƏ MÜSAHİBƏ

*11 avqust 2003-cü il*

**S u a l: İlham müəllim, Bakı–Tbilisi–Ceyhan layihəsinin maliyyələşməsində hər hansı problem varmı?**

**C a v a b:** Deyə bilərəm ki, bu layihə üçün sərmayə artıq ayrılmışdır. Bakı–Tbilisi–Ceyhan layihəsi üzrə işlərin 30 faizi yerinə yetirilmişdir. Bugünkü tikinti işləri onu göstərir ki, bütün işlər cədvəl üzrə nəzərdə tutulmuş sürətlə gedir. Sərmayə cəhətdən heç bir problem yoxdur və olmayacaqdır.

**S u a l: İlham müəllim, həmişə Sizi Heydər Əliyev siyasi məktəbinin məzunu kimi qiymətləndirirlər. Siz cənab Heydər Əliyevdən bir məzun kimi nələri öyrənə bilmisiniz, nələri yox?**

**C a v a b:** Mən çalışıram öyrənəm. Çalışıram ki, öz fəaliyyətimlə Heydər Əliyevin siyasətinə töhfəmi verəm. Bu siyasət Azərbaycanda on il ərzində öz bəhrələrini veribdir. Azərbaycan inkişaf edir, iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilir. Əminəm bu siyasət hələ uzun illər Azərbaycana lazımdır ki, ölkəmiz çətin şəraitdən çıxa bilsin, güclənsin, möhkəmlənsin. Dünyada özünə daha da möhkəm yer tutsun. Bölgədə təhlükəsizlik hökm sürsün. Mən çalışıram bu siyasətə öz töhfəmi verim, öz işimlə Azərbaycanın hərtərəfli inkişafına kömək edim.

**S u a l: Cənab Prezidentlə bağlı bu günə olan məlumat varmı? Yəqin ki, Sizin əlaqəniz olur. Son məlumatları bilmək istərdik.**

**C a v a b:** Bəli, əlaqələr olur. Son məlumatlar yaxşıdır. Mən dünən də danışmışam. Bu gün səhər danışa bilməmişəm. Hər şey qaydasındadır, səhhəti yaxşıdır. Həkimlərin də rəyi belədir ki, sağalma prosesi müsbət istiqamətdə davam edir.

**S u a l: Bakıya nə zaman qayıdacağı barədə xəbər varmı?**

**C a v a b:** Hələlik ki, bir xəbər yoxdur.

**S u a l: İlham müəllim, Dövlət Neft Şirkəti ilə sponsorlar qrupu arasında aparılan danışıqlar nə ilə nəticələnmişdir? Deyilənə görə, guya iki Amerika şirkəti Azərbaycanda işləməkdən imtina edibdir.**

**C a v a b:** Heç bir problem yoxdur. Azərbaycan bu günə qədər öz payını maliyyələşdirir. Eyni zamanda bilirsiniz ki, gələcək maliyyə məsələləri haqqında bp şirkəti ilə fikir mübadiləsi aparılmışdı və razılığa gəlmişdik ki, bizə kredit verilənə qədər o və başqa şirkətlər bizim maliyyə problemlərini öz üzərinə götürəcəklər. Beləliklə, bizə kömək edəcəklər, əldə olunan bütün razılaşmalar qüvvədə qalır. Yəni layihənin maliyyələşdirilməsi ilə bağlı heç bir problem yoxdur və olmayacaq da.

**S u a l: Bakı–Ərzurum qaz kəmərində vəziyyət nə yerdədir?**

**C a v a b:** Hər şey qaydasındadır. Yəni işlər proqram üzrə gedir. Lazım gələndə Bakı–Ərzurum kəməri ilə bağlı müvafiq addımlar atılacaq, bunun maliyyə məsələləri həll olunacaqdır. Biz orada da hələlik heç bir problem görmürük. Mən inanmıram ki, hər hansı problem yarana bilsin. Bakı–Ərzurum kəməri tikintisinin dəhlizi də təxminən elə bu yerlərdən keçir. Əlbəttə ki, Bakı–Tbilisi–Ceyhanın həyata keçirilməsi Bakı–Ərzuruma da böyük kömək edəcəkdir.

**S u a l: Regionlara səfərə nə vaxt çıxacaqsınız? Yəni xüsusi bir proqramınız varmı? Ümumiyyətlə, İlham Əliyev səfərə nə ilə gedəcəkdir?**

**C a v a b:** İlham Əliyev regionlara sevgi ilə, məhəbbətlə gedəcəkdir. Azərbaycanın hər bir guşəsi mənim üçün doğmadır,

əzizdir. Hər dəfə bölgələrdə olanda mən özüm üçün yeni şeylər öyrənirəm, insanlarla daha yaxın təmasda oluram. Ona görə mən oraya öz məhəbbətimi aparacağam, öz fikirlərimi, öz düşüncələrimi aparacağam. Çalışacağam ki, Azərbaycanın hər bir regionu inkişaf etsin, bütün Azərbaycan hərtərəfli inkişaf etsin. Azərbaycanın hər bir guşəsində gözəl nəticələr olsun. O ki qaldı səfər nə vaxt həyata keçiriləcək, hələlik bunu deyə bilmərəm. Yəqin ki, bu, yaxın gələcəkdə müəyyən olunacaqdır.

**S u a l: İlham müəllim, ölkə mətbuatında bəzi məsələlərə toxunulmuşdur. Sizin Baş nazir təyin edilməyiniz barədə fərmanda hörmətli prezident Heydər Əliyevin imzasının doğru olmaması kimi iddialar yer aldı. Bu barədə Sizin düşüncələrinizi öyrənmək olarmı?**

**C a v a b:** Bunların hamısı yalandır. Müxalifətin hər bir sözü, o cümlədən bu da yalandır. Bütün prosedur qanunauyğun şəkildə həyata keçirildi. Mən təəssüf edirəm ki, bu barədə müxalifət belə çirkin yalanlara əl atır.

Mən avqustun 2-də – cənab Prezident o təqdimatı Milli Məclisə göndərən gün – Ankarada, onun yanında idim. Bu barədə də söhbətimiz oldu. Ondan sonra mən təyyarə ilə Bakıya uçdum.

Avqustun 4-də Milli Məclis razılığını bildirdi və beləliklə, cənab Prezident fərman verdi. Yəni müxalifətin sözü də, əməli də – hamısı yalandır. Siz onların sözlərinə inanmayın. Buna, görülən bu real işə inanın. Bu, real işdir, real həqiqətdir. Heydər Əliyevin siyasətidir. Biz keçmişdə çətin, gərgin anları yaşamışıq və Bakı–Tbilisi–Ceyhanın həyata keçirilməsində Heydər Əliyevin xidmətləri misilsizdir. Əgər onun qətiyyəti, siyasəti, cəsarəti olmasaydı, heç vaxt biz tərəfdaşlarımızla birlikdə, *BP* şirkəti ilə birlikdə bunu edə bilməzdik. Azərbaycanın reallıqları budur. Müxalifətin dediyi deyildir.

**S u a l: Müxalifət prezident Heydər Əliyevin oğlunun bu vəzifəyə təyinatının antidemokratik olduğunu deyir. Bu cür iddialar barədə nə deyə bilərsiniz?**

**C a v a b:** Bunların da hamısı yalandır. Burada hər şey Konstitusiyaya uyğun şəkildə həll olunubdur. Mən on ilə yaxındır Azərbaycan Dövlət Neft Şirkətində çox məsul bir vəzifədə çalışıram və bilirsiniz ki, ümumiyyətlə, Azərbaycanın iqtisadiyyatı üçün neft sahəsi ən önəmli, ən vacib bir sahədir. Eyni zamanda digər vəzifələrim də mənə bu vəzifəni tutmağa imkan verir. Ona görə qanun pozuntusundan, Konstitusiyaya uyğun olmamaqdan söhbət gedə bilməz. Hər şey Konstitusiyaya müvafiq qaydada həll edilibdir. Burada, sadəcə, müxalifət özünü yenidən gülünc vəziyyətə salır. Onların yalanları yenidən ortaya çıxır. Yenidən təxribat, böhtan kampaniyası aparırlar. Mən buna təəssüf edirəm, amma fikir vermirəm. Sizə də məsləhət görərdim ki, onların dediklərinə fikir verməyəsiniz. Azərbaycanın həyatı, Azərbaycanın reallıqları tamamilə başqadır. Biz işlə məşğul oluruq. Azərbaycanı, onun iqtisadiyyatını inkişaf etdiririk. Onlar isə yalnız söz danışırlar.

**S u a l: İlham müəllim, Türkiyə mətbuatında bəzi adamlar bu fikirlə çıxış edirlər ki, Azərbaycanın indiki iqtidarı Rusiyanın maraqlarını Türkiyənin maraqlarından üstün tutur. Yəni Azərbaycanda Türkiyənin maraqlarını o qədər də təmin etmirlər. Sizin fikirlərinizi bilmək olarmı?**

**C a v a b:** Mən bir neçə gün əvvəl bunu eşitdim. Türkiyə televiziya kanallarından birində belə bir məlumat getdi. Bu, tamamilə yanlış bir məlumatdır. Azərbaycan ilk növbədə öz maraqlarını təmin etməlidir və təmin edir. Azərbaycanda son on il ərzində Heydər Əliyev tərəfindən aparılan siyasət məhz ona yönəlib ki, öncə Azərbaycanın maraqları təmin olunsun. Əgər Azərbaycanın maraqları təmin olunarsa, əlbəttə, bizə dost olan dövlətlər də bundan ancaq fayda götürə bilər.

O ki qaldı "Əsrin müqaviləsi"ndə Rusiya şirkətinə pay verildi, Türkiyə şirkətinə pay verilmədi – mən buna da aydınlıq gətirmək istəyirəm. Bu müqavilə hazırlanarkən o zaman keçmiş iqtidar tərəfindən Türk Petrolları şirkətinə 1,6 faiz pay verilmişdi. Heydər Əliyevin şəxsi təşəbbüsü ilə bu pay 5 faiz artırılaraq 6,6 faizə çatdırılmışdır. Nəzərə alsaq ki, Türkiyədə

neft çıxmır, neft sənayesi yoxdur, biz görərik ki, Azərbaycan hökuməti və şəxsən prezident Heydər Əliyev bu addımla Türk Petrolları şirkətini də beynəlxalq layihəyə qoşdu, onları da buraya cəlb elədi.

Bakı–Ceyhan kimi nəhəng layihənin məhz Türkiyə üzərindən keçməsi də onu göstərir. Siz bilirsiniz, nə qədər səylər olmuşdu ki, bu boru kəməri başqa istiqamətdən keçsin. Bizə hədələr də, təzyiqlər də olmuşdu, digər xoşagəlməz addımlar da atılmışdı. Ancaq biz buna getmədik. Yəni bu, Heydər Əliyevin neft strategiyası idi. Ona görə belə yanlış fikirlərin səslənməsi, əlbəttə, bizi üzür. Gərək Türkiyədə belə adamlara imkan verilməsin. İki ölkə arasında münasibətləri pozmaq istəyən şəxslərə gərək televiziyalarda, xüsusilə NTV kimi tanınmış televiziya kanallarında yer verilməsin. Əgər yer verilirsə, gərək bizim də fikrimiz orada səslənsin.

**S u a l: Cənab Baş nazir, bu gün dövlətimizin başçısı respublikamızda vəziyyətə tam nəzarət edirmi?**

**C a v a b:** Respublikada hər şey nəzarət altındadır. Heç bir narahatedici hal yoxdur. Hərə öz işi ilə məşğuldur. Hökumət fəaliyyəti ilə məşğuldur. Hər şey nəzarət altındadır. Heç bir narahatlığa əsas yoxdur. Sağ olun.

## YAPONİYANIN "MAYNİÇİ SİMBUN" QƏZETİNƏ MÜSAHİBƏ

*12 avqust 2003-cü il*

**J u r n a l i s t: Azərbaycanın daxili siyasəti ilə bağlı bir neçə sualım var. Siz və atanız prezident Heydər Əliyev qarşıdakı prezident seçkilərində namizədlər kimi qeydə alınmısınız?..**

**İ l h a m   Ə l i y e v:** Bəli, elədir. Biz hər ikimiz seçkiqabağı kampaniyada iştirak edirik. Mən artıq dəfələrlə demişəm ki, seçkiqabağı kampaniyada iştirakımdan prezidentin mənafelərinin qorunması üçün istifadə edəcəyəm. Lazım gələrsə, öz namizədliyimi prezidentin xeyrinə geri götürməyi planlaşdırıram.

**S u a l: Ölkənizdə və onun hüdudlarından kənarda çoxları inanır ki, növbəti prezident siz seçiləcəksiniz. Amma tənqidlə çıxış edənlər də var. Siz bunu necə şərh edərdiniz?**

**C a v a b:** Belə tənqid onun mənbələrinin Azərbaycanın daxili siyasətindən və mənim şəxsi mövqeyimdən xəbərsizliyinin nəticəsidir. Mən, demək olar, 10 ildir ki, neftlə bağlı bütün beynəlxalq hadisələrin mərkəzindəyəm, yəni Azərbaycan iqtisadiyyatının ən iri sahəsini idarə etmək təcrübəm var. Səkkiz ildir ki, mən həm də parlamentin deputatıyam, hakim partiya sədrinin birinci müavini, Avropa Şurası Parlament Assambleyası sədrinin müavini və büro üzvü seçilmişəm. Bütün bunlar Azərbaycanın həm daxili, həm də xarici siyasətinə cəlb edilməyimə imkan verir. Odur ki, sizin dediyiniz o tənqid məsələnin ancaq formal tərəfinə aid edilə bilər. Əgər tənqidçilərin mənim təcrübəm və fəaliyyətim barədə real məlumatı olsaydı, onda, zənnimcə, bu, tənqid olmazdı. Mənim fəaliyyətimə bələd olan deputatlar Baş nazir vəzifəsinə namizədliyimi yekdilliklə bəyəndilər. Bunu hökumət üzvləri də tamamilə dəstəklədilər.

**S u a l: Tənqid edilən bəzi məqamlar da var. Məsələn, deyirlər ki, prezident Heydər Əliyevin səhhəti olduqca ağır idi və o Sizin təyinatınız haqqında müvafiq sənədi imzalaya, bu barədə fərman verə bilməzdi...**

**C a v a b:** Bütün bu şayiələri indi ən çirkin üsullara əl atan müxalifət yayır. Avqustun 2-də mən hərbi hospitalda Prezidentin yanında oldum, o, parlamentə məktubu hələ bundan əvvəl göndərmişdi. Biz söhbət etdik. Söhbət əsnasında o mənə öz qərarını bildirdi və mən buna razılıq verdim. Demək istəyirəm ki, o, tamamilə iş qabiliyyətli idi. Mənim təyinatımdan cəmi bir həftə keçmişdir və Prezidentin səhhəti yaxşılaşır. Bunu yəqin siz də bilirsiniz, axı bu informasiya rəsmi mənbədən – Klivlend klinikasından alınmışdır. Prezident özünü yaxşı hiss edir və mən onunla hər gün danışıram. Həkimlər hesab edirlər ki, onun səhhəti xeyli yaxşılaşıbdır. Buna görə də o öz hərəkətlərinə nəzarət etmişdir və tamamilə nəzarət edir. Bir sözlə, onun iş qabiliyyətsizliyi və digər məsələlər barədə müxalifətin yaydığı şayiələr, olsa-olsa, qeyri-etikliyin və insaniyyətsizliyin təzahürüdür.

**S u a l: Mən atanızın səhhəti barədə ətraflı məlumat almaq istərdim. Siz hər gün telefonla əlaqə saxlayırsınız, o, danışa bilirmi? Gəzə bilirmi?**

**C a v a b:** Bəli, bilir. Lakin böyrəkləri, daha doğrusu, onlardan biri ilə bağlı kiçik problemlər var. Ona görə də müalicə həmin böyrəyin tamamilə işləməsinə yönəldilmişdir. Ürəyi tam qaydasındadır. O, danışa bilir, gəzə bilir, amma həkimlər onun tamamilə sağalana qədər terapiya şöbəsində qalmasını məsləhət görürlər.

**S u a l: Həkimlərin fikrincə, o, Azərbaycana nə vaxt qayıdacaq?**

**C a v a b:** Həkimlər bunu dəqiq demirlər. Lakin onun səhhətinin vəziyyətinə əsasən, deyə bilərəm ki, bu, bəlkə də iki həftədən sonra olacaqdır.

**S u a l: Gəlin beynəlxalq münasibətlər mövzusuna keçək. Cənab Baş nazir, siz həm də beynəlxalq münasibətlər üzrə**

**mütəxəssis kimi tanınmısınız. Siz dünyada yaranmış və ABŞ-ın, necə deyərlər, "birtərəfli gücünün" üstünlük təşkil etdiyi vəziyyət baxımından Azərbaycanın mövqeyini necə qiymətləndirirsiniz?**

**C a v a b:** Azərbaycan Birləşmiş Ştatların müttəfiqidir. Artıq neçə illərdir ki, biz energetika sahəsində birgə fəaliyyət göstəririk. ABŞ Bakı–Tbilisi–Ceyhan neft və Bakı–Tbilisi–Ərzurum qaz kəmərlərinin tikintisinə dair layihələrimizi dəstəkləyir. Biz terrorizmlə mübarizədə də ABŞ-ın müttəfiqiyik. İraqda müharibə məsələsində ABŞ-ın müttəfiqi olaraq biz terrorizmin kökünü kəsmək sahəsində onun tədbirlərini dəstəklədiyimizi dərhal və aydın şəkildə açıqladıq. Əvvəla, biz müttəfiqlərik, ikincisi isə, biz erməni terrorundan əziyyət çəkmişik və çəkirik. Erməni terror təşkilatlarının törətdikləri terror əməlləri nəticəsində 2000-dən çox günahsız insan həlak olmuşdur. Biz bunun təkrar olmasını istəmirik, ona görə gələcəkdə də bu koalisiyanın üzvü olaraq qalmaq niyyətindəyik.

**S u a l: Azərbaycan keçmiş Sovet İttifaqının respublikalarından biri idi. İraqda müharibənin əleyhinə çıxmış Rusiya ilə münasibətlərinizi necə qiymətləndirirsiniz?**

**C a v a b:** Rusiya ilə çox yaxşı münasibətlərimiz var. Xarici siyasətimizin mühüm cəhətlərindən biri Rusiya və Birləşmiş Ştatlar ilə yaxşı münasibətlər qurmaqdır. Biz hesab edirik ki, Azərbaycan böyük dövlətlərin ziddiyyət meydanı olmamalıdır. Rusiyanın İraq barəsində öz siyasəti var və biz bu siyasətə hörmət edirik. Digər tərəfdən, bu məsələdə Birləşmiş Ştatlar ilə müttəfiqlik üzrə mövqeyimizə digər dövlətlər də hörmətlə yanaşırlar. Qeyd etməliyəm ki, ölkələrimizin prezidentləri Heydər Əliyevin və Vladimir Putinin səyləri sayəsində biz son üç ildə siyasi və iqtisadi sahələrdə əməkdaşlıqda xeyli irəliləmişik. Biz münasibətlərimizin indiki səviyyəsindən çox razıyıq. Beş il əvvəl Rusiya ilə münasibətlərimiz lazımi səviyyədə deyildi, hərçənd biz qarşılıqlı əlaqələrin

yaxşılaşmasına həmişə səy göstərirdik. İndi isə biz ikitərəfli münasibətlərin vəziyyətindən razıyıq.

**S u a l: Siz dediniz ki, beş il əvvəl Rusiya ilə münasibətlər lazımi səviyyədə deyildi. Bu Sizin Ermənistanla olan probleminizdən irəli gəlmirdimi?**

**C a v a b:** Ermənistanla problem indi də mövcuddur. Rusiyanın keçmiş rəhbərliyinin bu məsələdə mövqeyi ədalətli deyildi. O, Ermənistanı birtərəfli qaydada dəstəkləyirdi, ona təmənnasız olaraq 1 milyard dollar məbləğində silah vermişdi, başqa yardım da göstərirdi. Lakin prezident Putinin hökuməti tarazlı siyasət elan etmişdir və bunu həyata keçirir. Bu siyasət tərəflərdən heç birinə üstünlük vermir. Biz bunu yüksək qiymətləndiririk. Biz Rusiya ilə münasibətlərimizi inkişaf etdirmək istəyirik.

**S u a l: Daxili siyasətlə xarici siyasətin vəhdəti barədə fikrinizi öyrənmək istərdim. Siz Azərbaycanda insan hüquqları və azadlıqlarına riayət edilməsi, mətbuat azadlığı, qanunvericiliyin Qərb standartlarına uyğunlaşdırılması barədə nə deyə bilərsiniz?**

**C a v a b:** Hesab edirəm ki, Azərbaycan cəmiyyətin demokratikləşdirilməsində böyük tərəqqiyə nail olubdur. Təxminən üç ildir ki, biz, əsasən, insan hüquqları məsələləri ilə məşğul olan Avropa Şurasının üzvüyük. Bundan əlavə, biz bu təşkilata daxil olmaq üçün götürdüyümüz bütün öhdəlikləri yerinə yetirmişik. Söz və fikir azadlığı sahəsində də nailiyyətlər var, müxalifət partiyaları fəaliyyət göstərir. Əgər siz qəzetlərə nəzər salsanız, bəzi müxalifət nəşrlərində hökumət haqqında yazılan və hökumət üzvlərinin ünvanına təhqirlər yağdırılan məqalələrdən dəhşətə gələrsiniz. Bizdə senzura yoxdur, ona görə də müxalifətin belə şeylər yazmaqdan ötrü hər cür imkanları var. Onlar nümayişlər, yürüşlər keçirmək üçün tam sərbəstliyə malikdirlər. Ancaq 20-dən çox müxalifət partiyasının təşkil etdiyi nümayişə heç üç min adam toplaya bilməməsi isə başqa məsələdir. Bu, cəmiyyətdə müxalifətin dəstəyinin olmamasına əyani misaldır. Biz isə, demək olar ki, demokratik cəmiyyət

quruculuğu faktını təsdiqləyən bütün atributlara malikik. Təbii ki, bizi Qərbi Avropa ilə müqayisə etmək olmaz və tezdir. Axı biz cəmi 12 ilə yaxındır ki, müstəqil dövlətik. Amma biz bu istiqamətdə irəliləyirik. Düşünürəm ki, bir neçə ildən sonra cəmiyyətimiz demokratik dəyişikliklər yolunda daha böyük uğurlar qazanacaqdır. Biz öz seçimimizi bir çox illər əvvəl etmişik, demokratiya yolunu seçmişik və demokratik Azərbaycan quruculuğunu davam etdirəcəyik.

**S u a l: Bəzən Heydər Əliyevi sərt siyasət yeritməkdə tənqid edirlər. Bəlkə bu onun iradəsinin gücündən irəli gəlir? Məncə, Siz bu fikrə tərəfdar deyilsiniz.**

**C a v a b:** Əlbəttə, tərəfdar deyiləm. Heydər Əliyevi xalq layiqincə qiymətləndirmişdir. İnsanlar onu 30 ildən çox bir müddətdə Azərbaycanın siyasəti ilə məşğul olan adam kimi tanıyırlar. On il əvvəl o, parçalanmaq təhlükəsi ilə qarşılaşmış ölkəni xilas etdi. İndi rəhbərləri müxalifətdə olan o vaxtkı hökumət hər şeyi – iqtisadiyyatı da, ordunu da qara günə qoymuşdu, bundan əlavə, ölkə vətəndaş müharibəsi həddində idi. Əgər 1993-cü ildə Heydər Əliyev gəlməsəydi, ola bilsin, Azərbaycan bir dövlət kimi yox olacaqdı. İnsanların onu sevməsi faktı heç də o demək deyil ki, onun hansısa xüsusi idarəetmə metodları var. Qətiyyən yox, o, demokratik yolla seçilmiş və beynəlxalq birlik tərəfindən tanınmış prezidentdir.

**M ü x b i r: Cənab Baş nazir, müsahibəyə görə Sizə təşəkkür edirik.**

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CORC BUŞA

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin olunmağım münasibətilə səmimi təbrikinizə və xoş arzularınıza görə Sizə dərin təşəkkürümü bildirirəm. Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında bu gün strateji tərəfdaşlıq səviyyəsinə çatmış münasibətlərin qurulmasında, təşəkkülündə və inkişafında atam prezident Heydər Əliyevin rolunu və xidmətlərini yüksək qiymətləndirməyinizdən böyük məmnunluq və hədsiz qürur duyuram.

Bu gün Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında əlaqələrin bütün sahələrdə genişlənməsi, yüksələn xətlə davam etməsi bizi sevindirir. Bir sıra mühüm sahələrdə, irimiqyaslı iqtisadi layihələrdə ölkələrimizin sıx əməkdaşlığı, birgə fəaliyyəti və qarşılıqlı səyləri nəticəsində əldə etdiyimiz uğurlar bu qəbildəndir.

Məmnuniyyət hissi ilə qeyd etmək istərdim ki, beynəlxalq terrorizmə qarşı Amerika Birləşmiş Ştatlarının qətiyyətlə başladığı mübarizənin ilk günlərindən Azərbaycan birincilər sırasında antiterror koalisiyasına qoşularaq bəşəriyyətin məhvi üçün real təhlükə doğuran bu bəlanın aradan qaldırılması işinə öz töhfəsini verməyə çalışmışdır. Azərbaycan son dövrdə Amerika Birləşmiş Ştatlarının başçılığı ilə İraqda həyata keçirilmiş əməliyyatlara da dəstək verdiyini bəyan edərək ABŞ ilə bir sırada durduğunu, əsl tərəfdaş olduğunu bariz şəkildə nümayiş etdirmişdir. Bu günlərdə Azərbaycan sülhməramlılarının beynəlxalq koalisiya tərkibində öz missiyalarını yerinə yetirmək üçün İraqa yola düşməsi dediklərimizin daha bir təsdiqidir.

Qərbin iri neft şirkətləri ilə Azərbaycanın 1994-cü ilin sentyabrında bağladığı "Əsrin müqaviləsi"ndən başlanan neft strategiyasının həyata keçirilməsində və yeni-yeni zirvələr fəth

etməsində Amerika Birləşmiş Ştatları hökumətinin müstəsna rolu vardır. Böyük minnətdarlıq hissi ilə bildirirəm ki, bu gün artıq əfsanədən gerçəkliyə çevrilmiş Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin tikintisi məhz ABŞ-ın sanballı siyasi və iqtisadi dəstəyi hesabına gerçəkləşmişdir.

Müstəqillik qazandıqdan sonra Azərbaycanın qarşılaşdığı ən ağrılı problem olan Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasında, ölkəmizin ərazi bütövlüyünün təmin olunmasında xalqımız ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi Amerika Birləşmiş Ştatlarının və şəxsən Sizin, cənab Prezident, səylərinizə böyük ümidlər bəsləyir.

Siyasi və demokratik islahatlar yolunu tutmuş Azərbaycan indi prezident seçkiləri ərəfəsindədir. Biz Amerika Birləşmiş Ştatları, müvafiq beynəlxalq qurumlar ilə sıx əməkdaşlıq şəraitində ölkəmizdə beynəlxalq normalara uyğun azad və demokratik seçkilər keçirmək əzmindəyik.

Sizi əmin edirəm ki, Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında mövcud dostluq, sıx əməkdaşlıq münasibətlərini daha da inkişaf etdirmək məqsədini güdən siyasi iradəmizin həyata keçirilməsi istiqamətindəki səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Atam prezident Heydər Əliyevə, ailəmizə böyük diqqət və qayğınıza görə Sizə son dərəcə minnətdaram.

Sizə möhkəm cansağlığı, ailə səadəti, dost Amerika xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Baş naziri**

*13 avqust 2003-cü il*

## RUSİYANIN KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ ÜÇÜN MÜSAHİBƏ

*15 avqust 2003-cü il*

**– Sizə necə müraciət etmək lazım olduğunu bilirik. Bununla belə, Azərbaycan mətbuatını əsas götürsək, onda Sizə zati-aliləri, hətta əlahəzrət deyə müraciət etməliyik. Biz çaşbaş qalmışıq...**

- Sağ olun. Mən belə başlanğıca hazır idim. Müsaidənizlə deyim: mən şahzadə deyiləm, mən respublikanın vətəndaşıyam. Xüsusən də, kral deyiləm. Mən Azərbaycan adlı respublikaya mənsubam. Həmvətənlərimin hüquqları kimi, mənim də hüquqlarım Azərbaycan Respublikasının Konstitusiyası ilə qorunur. Mən bunu əziz tuturam.

**- Sizi bu vəzifəyə atanız təyin etmişdir. Bu qərarı düzgün hesab edirsinizmi?**

- Üzr istəyirəm, mənim hüquqlarım nə üçün məhdudlaşdırılmalıdır? Yalnız ona görə ki, mənim atam prezidentdir? Prezident qərar qəbul etdi, mən də razılaşdım. Hətta belə deyərdim: mən dövlətimizin başçısının qərarına tabe oldum.

**- Bu, atanın oğula xahişi idi?**

- Xeyr. Bu, Azərbaycan Respublikası Prezidentinin qərarı idi.

**- Mövzunu qurtaraq. Qarşıda nə var? Respublika üçün monarxiya təhlükəsi varmı?**

- Bir daha deyirəm, mən qanuna tabe olan vətəndaşam. Mən ölkənin qanunlarına tabeyəm. Belə cavab verim: mən çalışacağam ki, Azərbaycanda anarxiya olmasın.

**- Sizin indiki təyinatınız o deməkdirmi ki, Siz ölkənin gələcək prezidentisiniz?**

- Azərbaycanda prezident Heydər Əliyevdir. Atamın tənqidçiləri bu günlər ərzində dəfələrlə ən qorxulu şayiələr

yaymışlar. Canlı və mənən güclü iradəyə malik bir insanı elə hey məzara gömmək istəyirlər.

Bu vicdansızlıqdır. Bu mənə çox ağır təsir bağışlayır. Müxalifətin nümayəndələri hətta Klivlendə gedib yəqin etmək istəyirlər ki, görsünlər, atam doğrudanmı oradadır. Nə etməli, bu həyasızlığa dözmək lazım gəlir. Həmvətənlərimin belə etməsi mənə ağır gəlir. Vəssalam. Mən bu mövzuda daha danışmayacağam.

**- Yeni vəzifədə və yeni vəziyyətdə özünüzü necə hiss edirsiniz?**

- Normal. Əlbəttə, yeni vəzifədir. Amma deməzdim ki, vəziyyət mənim üçün əsaslı surətdə dəyişmişdir. Demək bir az yaxşı düşmür, lakin, hər halda, bütün bu illər ərzində ölkənin Dövlət Neft Şirkətinin rəhbərlərindən biri kimi mən öz vəzifələrim çərçivəsində Azərbaycanın iqtisadi inkişafı məsələləri ilə məşğul olmuşam. Neft sahəsi isə, bildiyiniz kimi, Azərbaycan iqtisadiyyatının əsas sahəsidir, hərəkətverici qüvvəsidir. Ona görə də ölkə iqtisadiyyatında baş verənlərin hamısını kifayət qədər yaxşı bilirəm. Odur ki, məni aldatmağa ancaq səfehlər cəhd göstərə bilərlər.

**- Sizin təyinatınız o deməkdirmi ki, Prezident hakimiyyəti, faktiki olaraq, yeni nəslin siyasətçilərinə verməyə başlayır?**

- Belə nəticə çıxarmaq mənim üçün çətindir. Deməliyəm ki, prezidentin komandasında nazir, komitə rəhbəri vəzifələrində mən yaşda olanlar çoxdur. Təcrübəsi olan kadrlarla müasir həyatın reallıqlarını gözəl bilən kadrlar prezidentin komandasında çox yaxşı vəhdət təşkil edir. Belə siyasət özünü doğrultmuşdur. Buna görə də o, davam etdiriləcəkdir.

**- Sizin təyinatınız qarşıdakı prezident seçkiləri fonunda baş verdi. Əlbəttə, bu, son vaxtlar səslənməkdə olan rəylərə, şərhlərə də öz təsirini göstərir. Şəxsən Siz razısınızmı ki, təyinatınız, bir tərəfdən, gözlənilən, digər tərəfdən isə, gözlənilməz oldu?**

- Bəli, zənnimcə, siz haqlısınız. Məhz belə oldu. Onu xeyli vaxtdır gözləyirdilər. Cəmiyyətdə də bu mövzuda diskussiyalar gedirdi. Çoxlarının fikrincə bunu əvvəllər etmək lazım idi. Lakin belə qərarları yalnız Prezident qəbul edir.

**- Prezident indi özünü necə hiss edir?**

- Normal. Çox istəyirəm ki, o, tezliklə bizimlə birlikdə olsun.

**- Əgər Heydər Əliyev seçkiqabağı kampaniyanı davam etdirsə, Siz atanızla necə rəqabət aparacaqsınız? Razılaşın ki, bu, qeyri-adi vəziyyətdir...**

- Heç bir mənafe "münaqişə"si yoxdur və ola da bilməz. Mən ölkənin indiki Prezidentinin apardığı siyasəti dəstəkləyirəm.

**- Siz bu seçkilərə, hər halda, öz proqramınızla gedəcəksiniz? O, rəqiblərinizin proqramlarından nə iləsə fərqlənirmi?**

- Rəqiblərin proqramları barədə mənə heç nə məlum deyildir. Onlar hər seçkilər - prezident və ya parlament seçkiləri qarşısında deyirlər ki, proqramları var, konsepsiyaları var. Amma proqramlarının təkcə üz qabığını göstərirlər. Heç yerdə heç nə demirlər, heç yerdə dərc etdirmirlər. Onların hansısa ciddi konsepsiyalarının olmasına şübhə edirəm.

**- Heydər Əliyev respublikanın simasıdır. O, ölkənin rəmzinə çevrilmişdir. Müstəqillik əldə edildikdən sonra o, hakimiyyətə yenidən qayıtmalı olmuşdur. İndi atanızın opponentləri onu az qala diktator hesab edirlər. Sizin belə rəylərə fikriniz necədir?**

- Əlbəttə, hesab edirəm ki, Heydər Əliyev Azərbaycanın rəmzidir. Bugünkü Azərbaycan ən çox onun xidmətinin nəticəsidir. Axı ölkə sovet dövründə də çox uğurla inkişaf edirdi. Onda başqa reallıqlar vardı. O, həmişə burada infrastruktur – yeni müəssisələr, yeni iş yerləri yaradılmasına çalışırdı və buna müvəffəq olurdu. Onda Azərbaycan öz inkişaf sürətinə görə bir çox respublikaları qabaqlayırdı, sovet respublikaları arasında liderlərdən biri idi. İndi ÜDM-in artım sürətinə görə

Azərbaycan MDB ölkələri arasında yenə də liderdir. Bizdə ÜDM-in illik artımı, təxminən 10 faiz təşkil edir. Bu isə son 6 ildə 64 faiz deməkdir.

Ölkənin inkişafının uğurlarını elan olunmuş sosializm cəmiyyəti şəraitində də, indiki bazar iqtisadiyyatı şəraitində də Heydər Əliyev amili müəyyən edir. Ona görə də Azərbaycan, əslində, onun tərəfindən yaradılmış bir ölkədir.

**- Siz Azərbaycan Respublikasının vətəndaşı, eyni zamanda dövlət başçısının oğlusunuz. Özünüzü ölkənin qalan sakinləri ilə bərabərhüquqlu hiss edirsinizmi?**

- Bəli, əlbəttə, özümü bütün vətəndaşlarla bərabərhüquqlu hiss edirəm. Hamının hüquqları bərabərdir. Amma vəzifələr müxtəlifdir. Neft Şirkətində, Avropa Şurasında, Milli Olimpiya Komitəsində, Yeni Azərbaycan Partiyasında Prezident tərəfindən mənə verilmiş bir çox tapşırıqları yerinə yetirmişəm. Mən parlamentin deputatıyam. Mənim bütün fəaliyyətim Konstitusiyanın, ölkəmizin qanunlarının bütün normalarına, müddəalarına riayət edilməsinə əsaslanmışdır. Ona görə də təbiidir ki, Azərbaycanın hər hansı digər vətəndaşının malik olduğu hüquqlara mən də malikəm. Eləcə də hər hansı digər vətəndaş kimi, mən də seçkilərdə səsə qoyulmaq hüququna malikəm.

**- Opponentlərinizin, bəlkə də, bədxahlarınızın bütün dediklərinin mənası, əslində belədir: Azərbaycanda sülalə hakimiyyətinin modeli yaradılır. Belə fikirlər Sizi əsəbiləşdirmirmi?**

- Mən buna normal yanaşıram. Hesab edirəm ki, müxalifətin hallandırdığı yeganə bir mövzu varsa, o da budur. Əgər mənim ünvanıma yağdırılan ittihamların mahiyyətinə nəzər salsaq, görərik ki, əvvəlki işimə heç bir irad yoxdur. Odur ki, istənilən səviyyədə sübuta yetirməyə hazıram: mənə nə iş tapşırılmışdırsa, hamısı maksimum səmərə ilə yerinə yetirilmişdir.

**- Postsovet respublikalarından hər biri özünün demokratik inkişaf yolunu keçir. Sizcə, ölkəniz hansı**

**mərhələdədir? Azərbaycana demokratik prosesləri inkişaf etdirməyə nə mane olur?**

- Heç nə mane olmur. Əminəm ki, demokratik proses inkişaf edəcəkdir. Demokratiya, bir növ, nöqtədir, daha doğrusu, hətta nöqtələrdir. Demokratiya quruculuq, özü də, möhkəm quruculuq deməkdir. Bu quruculuğun hər cür yenidənqurmalara ehtiyacı olmamalıdır. Əgər qurub-yaradırıqsa, deməli, həmişəlik qurub-yaradırıq.

**- Bəs Azərbaycanda elə obyektiv səbəblər və obyektiv şərait varmı ki, ölkə demokratik prosesləri məhdudlaşdıra biləcək daha sərt idarəçilik formalarına gəlib çıxsın?**

- Yox, bu, mümkün deyildir. Cəmiyyət buna yol verməz. İqtidar da yol verməz. İqtidar son on ildə nə etmişdirsə, bunların hamısı məhz demokratik dəyişikliklər yolu ilə irəliləyişin dönməz xarakter almasına yönəldilmişdir. Ona görə də demokratik quruculuq prosesini dayandırmaq mümkün deyildir.

**- Hesab edirsinizmi ki, yaxın keçmişdə Rusiya ilə Azərbaycan arasında münasibətlərdə olan böhran tamamilə aradan qaldırılmışdır? Gələcəkdə münasibətlərimizi hansı hallar poza bilər? Bunun üçün hər hansı zəmin varmı? Ümumiyyətlə, ölkələrimiz arasında münasibətlərin inkişafını necə təsəvvür edirsiniz?**

- Hesab etmirəm ki, münasibətlərimizdə hansısa böhran olmuşdur. Sadəcə olaraq, münasibətlər elə idi ki, onlar, məncə, nə bizi, nə də Rusiya tərəfini qane edirdi. Biz münasibətlərin daha yaxşı olmasını istəyirdik. Böhran isə, özlüyündə, heç vaxt olmamışdır.

**- Sözümüzün canı odur ki, 2002-ci ildə aşkar, nəzərəçarpacaq dönüş yarandı. Münasibətlər, həqiqətən, kəskin surətdə yaxşılaşdı...**

- Zənnimcə, bu dönüş ondan əvvəl baş vermişdi. Dönüş onda baş verdi ki, Rusiyaya Vladimir Putin rəhbərlik etdi və ölkəmizə, xalqımıza hörmət göstərərək Azərbaycana rəsmi səfərə gəldi. Rusiya Prezidenti ilk dəfə olaraq Azərbaycana gəldi. Əlbəttə, bu səfəri Azərbaycanda böyük ruh yüksəkliyi ilə

qarşıladılar. Biz Rusiya ilə mehriban qonşuluq, dostluq münasibətlərini inkişaf etdirməyi həmişə istəmişik. Çox fərəhli haldır ki, indi bu münasibətlər çox yüksək səviyyədədir, iki prezident arasında çox yaxşı şəxsi qarşılıqlı münasibətlər var. Bunun nəticəsi kimi, iqtisadi cəhətdən olduqca çox real addımlar atılmışdır, siyasi baxımdan qarşılıqlı fəaliyyət yüksək səviyyədə həyata keçirilir. Hesab edirəm ki, Rusiya ilə münasibətlərimizdə hər şey yaxşı olacaqdır.

**- Siz belə bir vəziyyəti mümkün hesab edirsinizmi: atanız Heydər Əliyev prezident seçkilərində qalib gəlir. Oğul olaraq, Siz isə Baş nazir qalırsınız. Belə bir vəziyyət mümkündürmü, Siz bundan sıxılmayacaqsınız ki?**

- Əlbəttə, mümkündür. Düşünürəm ki, belə də olacaqdır. Mən artıq Baş nazirəm. Prezident isə, əminəm ki, seçkilərdə qalib gələcəkdir. Atamla münasibətlərimiz çox səmimidir. Bir insan kimi də çox yaxınıq, lap çox. İşdə isə münasibətlərimiz sırf işgüzar xarakter daşıyır. Hələ heç vaxt elə olmayıb ki, bu iki müstəvi kəsişsin. Ona görə də xidməti münasibətlər baxımından xoşbəxtəm ki, əvvəlki fəaliyyətimdə o mənim işimə heç vaxt irad tutmamışdır. Əlbəttə, olarsa, o bunu mənə deməyə səbəb tapacaqdır. Mən isə çalışacağam ki, onu indiki vəzifəmdə məyus etməyim.

**- Hər halda, onun 81 yaşı var, çox da sağlam deyildir. Bəlkə ona daha çox istirahət etmək, onu qorumaq lazımdır? Hər halda, prezident olmaq ağır yükdür. Axı o, ölkə üçün olduqca çox faydalı və yaxşı işlər görmüşdür. Bəlkə onun istirahət etməsi barədə düşünmək gərəkdir?**

- Onun elə xarakteri var ki... O, istirahət edə bilməz. Atam apreldə hətta yıxılıb 7 qabırğası sındıqdan, çoxlu qan itirdikdən sonra da yenə işə can atırdı. Ay yarım onda güclü ağrılar oldu. Biz özümüz də deyirdik ki, dincəl, səhhətini bərpa elə. O isə deyirdi ki, yox, bacarmaram. Onun həyatı işlə bağlıdır. Odur ki, qərarı, əlbəttə, ancaq onun özü qəbul edəcəkdir. Heç kim, xüsusən də, biz, ailə üzvləri heç vaxt məcbur və ya xahiş etməyəcəyik. Bu, onun öz ixtiyarındadır. Düşünürəm ki, səhhəti

imkan versə (ümidvaram ki, imkan verəcək), o, seçkilərdə iştirak edəcəkdir. Yox, əgər səhhəti ilə bağlı çətinlik olarsa, onda baxarıq.

**- Bəs o, normal istirahətə, normal rejimə, hər halda, razılıq versə, onda prezidentliyə əsas namizəd kimi siz qalacaqsınız?**

- Bəli, belə çıxır.

**- Deməli, belə olan halda, Siz bütün məsuliyyəti öz üzərinizə götürürsünüz?**

- Mən buna hazıram.

**- Gündəlik işdə kimə arxalanırsınız? Sizinlə birlikdə, keçmişdə deyildiyi kimi, əlbir işləyən adamlar, adamlardan ibarət komanda varmı?**

- Komanda var. O, Prezidentin komandasıdır – çox layiqli, peşəkar komandadır. Mən bunu birinci gün hökumətin üzvlərinə təqdim olunduqda vurğulamışam. Onlara arxalanıram. Aramızda keçmişdə də çox yaxşı qarşılıqlı anlaşma olmuşdur. Biz həmişə ünsiyyətdə olurduq, ümumi bir işi görürdük. Elə indi də onlarla, hökumətin üzvləri, Baş nazirin müavinləri ilə görüşdə dedim ki, onların dəstəyinə ümid bəsləyirəm. Mən bu dəstəyə malikəm.

**- Azərbaycan əhalisinin 90 faizi Qarabağ problemini əsas problem hesab edir. Bu problemin həllinin hansı variantı Sizin ölkəniz üçün məqbul olardı? Heç olmasa, Ermənistanla Azərbaycan arasında dialoqun bərpa edilməsinin ilkin mərhələsində?**

- Variant birdir: Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş ərazilərin tamamilə azad edilməsi. Sonra isə Dağlıq Qarabağın statusu barədə danışıqlar. Bu, yeganə məqbul yoldur. Bunsuz biz heç nə barədə razılığa gələ bilmərik. Əgər Ermənistan yaranmış vəziyyətdən istifadə edə biləcəyini və mənafelərimizin, yaxud ərazi bütövlüyümüzün ziyanına bizi hansısa birtərəfli güzəştlərə getməyə məcbur edəcəyini düşünürsə, o yanılır. Azərbaycanın ərazi bütövlüyü qorunub təmin ediləcək və əlbəttə, beynəlxalq hüquq zəfər çalmalıdır.

XXI əsrdə yol vermək olmaz ki, bir ölkə digər ölkənin torpaqlarının 20 faizini işğal etsin. Zənn edirəm ki, yaxın vaxtlarda hər şey həll olunmalıdır. Biz də bunu sülh yolu ilə həll etmək istəyirik. Bilirsiniz ki, prezidentin siyasəti belədir. Mən bu siyasəti tamamilə dəstəkləyirəm. Azərbaycan xalqı müharibə istəmir. Bizim gələcək üçün çoxlu planlarımız var. Biz bundan sonra da ölkəni qurmalı, xalqın rifah halını yüksəltməli, iqtisadiyyatı inkişaf etdirməliyik, odur ki, məsələnin sülh yolu ilə həllinə çalışırıq. Lakin bu arzu qarşılıqlı olmalıdır. Ermənistan tərəfi başa düşməlidir ki, zor işlətməklə heç nəyə nail ola bilməyəcəkdir. Ümumiyyətlə isə, müharibənin nəticələrinə, Azərbaycan və Ermənistandakı indiki vəziyyətə baxsaq, bu nəticələrin özü sual altındadır. Ermənistan ərazilərimizi işğal etməklə nəyə nail oldu? Orada heç kim yaşamır, boş torpaqlardır, yalnız hərbi postlar vardır. Məgər Ermənistan vətəndaşları bunun nəticəsində yaxşı yaşamağa başlayıblar? Xeyr, daha da pis yaşayırlar. İndi onlar Qafqaz regionunun inkişafı üzrə bütün layihələrdən kənarda qalıblar. Onlarda iqtisadi inkişafın nəzərəçarpan perspektivi yoxdur, Azərbaycanın isə çox gözəl perspektivləri vardır. Bu uçurum getdikcə daha da dərinləşəcəkdir.

**- Güman edirsinizmi ki, hansı bir mərhələdəsə problemin sülh yolu ilə həlli imkanları tükənəcəkdir?**

- Bu, istisna deyildir. Biz, əlbəttə, belə vəziyyətin mümkünlüyünü həmişə nəzərdə tuturuq. Lakin biz hesab edirik ki, problemin sülh yolu ilə həlli imkanları hələ tükənməmişdir. Sadəcə olaraq, bu proses süni surətdə ləngidilir, bunu da Ermənistan edir. Biz bu prosesi intensivləşdirmək istərdik. Buna görə də münaqişəni yalnız sülh yolu ilə həll etməyə çalışacağıq.

**- Siyasi proses getdiyi bir vaxtda Ermənistanla iqtisadi əməkdaşlığa başlamaq mümkündürmü? Bakı belə bir addım atmağa hazırdırmı? Hazırdırsa, hansı şərtlərlə?**

- Xeyr, dəfələrlə bəyan etmişik ki, məsələ sülh yolu ilə həll olunmayınca, biz heç bir şəraitdə buna getməyəcəyik. Ərazilə-

rimiz azad olunmayınca, Ermənistanla heç bir əməkdaşlıq etməyəcəyik. Ermənistan belə bir əməkdaşlığı çox arzulayır, buna çalışır, bəzən vəziyyəti dünya ictimaiyyətinə yanlış şəkildə çatdırmağa cəhd göstərir - guya onlar istəyir, biz isə istəmirik. Lakin bu təbiidir, biz işğalçılarla iqtisadi əməkdaşlıq qura bilmərik. Əvvəlcə işğal olunmuş ərazilər azad edilməli, sülh müqaviləsi bağlanmalıdır. Sonra isə, əlbəttə, iqtisadi cəhətdən əməkdaşlıq edə bilərik. Biz Ermənistanla əməkdaşlıq etmədən də uzun illər, on illərlə gözəl yaşaya bilərik. Kommunikasiyaların açılmaması, regional proseslərdən kənarda qalması isə Ermənistana baha başa gələcəkdir. Onlar diasporun köməyinə, hər hansı başqa xarici mənbələrin maliyyələşdirməsinə nə qədər ümid bəsləyə bilərlər? Ölkə özü-özünü dolandıra bilmir. O, həmişə xaricdən gələn hansısa maliyyə yardımından asılıdır. Azərbaycan isə ərazilərinin işğal edilməsinə, bir milyon qaçqının olmasına baxmayaraq, inkişaf edir və edəcəkdir. Buna görə də sülh müqaviləsi bizim kimi onlara da lazımdır. Bu baxımdan nə qalib var, nə də məğlub. Əlbəttə, sülh yaransa, region kökündən dəyişəcəkdir.

**- Siz Köçəryanla şəxsən görüşmüsünüzmü?**

- Xeyr, görüşməmişəm. Naxçıvanda sərhəddə iki prezident görüşərkən mən prezident Heydər Əliyevin yanında olmuşam. Lakin Köçəryanla görüşüm olmayıbdır.

**- Tutaq ki, Siz Köçəryanla görüşdünüz. Onunla necə danışardınız?**

- Mənim indi onunla görüşməyimin mənası yoxdur. Çünki prezident var. Prezident sağalandan sonra yəqin ki, onların ikitərəfli görüşləri davam etdiriləcəkdir. Ümumiyyətlə, bu, müsbət amildir. Atəşkəsə vasitəçilərsiz riayət etməyimizi də müsbət amillərdən biri hesab etmək olar. Yəni, bizim aramızda heç bir sülhməramlı qüvvə yoxdur. İki prezidentin təkbətək görüşləri, danışıqları, əlbəttə, müsbət haldır. Şübhəsiz ki, belə görüşlərin konkret nəticələr verməsini istərdik.

**- Siz keçmiş SSRİ üzrə bizim həmvətənimizsiniz. Özünüzü sovet gənci hiss edirsinizmi?**

- Əlbəttə, axı biz SSRİ-də anadan olmuşuq və mən SSRİ vətəndaşı kimi təhsil almışam, işləmişəm. Bu bizim ümumi tariximizdir. Bu tarix, əlbəttə, mənim üçün əzizdir. Lakin indi mən özümü yalnız Azərbaycan vətəndaşı kimi hiss edirəm.

**- Sizin üçün nə zaman daha çətin idi - o vaxt, yoxsa indi?**

- Bu, mənim sovet, yaxud qeyri-sovet vətəndaşı olmağımdan asılı deyil. İndi, əlbəttə, daha çətindir.

**- Bəziləri deyirlər ki, Azərbaycana daha iradəli, daha güclü lider lazımdır. Sizin barənizdə isə deyirlər ki, xasiyyətiniz Prezidentin xasiyyətindən daha yumşaqdır. Bu belədirmi?**

- Mən öz atamın oğluyam. Xasiyyətimdə hər hansı zəif, yaxud güclü tərəfləri axtarmaq lazım deyildir. Düşünürəm ki, Azərbaycan inkişaf yolunu, Dünya Birliyinə, dünya iqtisadiyyatına və dünya siyasətinə inteqrasiya yolunu seçmişdir. İstərdim ki, Azərbaycan, sözün tam mənasında, Avropa məkanının bir hissəsi olsun.

**- Deməli, Azərbaycana sərt əl lazım deyil?**

- Zənn edirəm ki, indi lazım deyildir. On il bundan əvvəl, beş il bundan əvvəl müstəqilliyimiz üçün təhlükə olanda, çevrilişlərə cəhd göstəriləndə lazım idi. İndi bunların hamısı keçmişdə qalmışdır.

Ümid edirəm ki, bunlar təkrarlanmayacaqdır. Yox, Allah eləməmiş, əgər Azərbaycanın dövlətçiliyi, onun müstəqilliyi yenə də təhlükədə olarsa, əminəm ki, onun qarşısını sərt şəkildə almaq üçün bizdə qüvvə tapılacaqdır. Ölkənin müstəqilliyini və ərazi bütövlüyünü qoruyub saxlamaq üçün qüvvə tapılacaqdır. Lakin ümid edirəm ki, buna ehtiyac olmayacaqdır.

**- Azərbaycan tarixi perspektivdə Avropa Birliyinin üzvü ola bilərmi?**

- Zənn edirəm ki, Azərbaycan özünün potensialı, coğrafi mövqeyi, təbii ehtiyatları baxımından Avropa Birliyi üçün olduqca cazibədar ölkədir. Ona görə də biz bu istiqamətdə qarşılıqlı istəklə hərəkət etməliyik. Bu barədə danışmaq hələ tezdir, zaman göstərər.

**- Xahiş edirik, deyin, müstəqil Azərbaycan kimdən və nədən asılıdır?**

- Hesab edirəm ki, əsasən, xalqın iradəsindən asılıdır. Çünki ölkə regionda və bütün dünyada öz yerini artıq kifayət qədər möhkəmlətmişdir. Bu gün müstəqillik təkcə formal atributlar deyildir. Bu gün biz heç kimin köməyi olmadan, kiminsə tövsiyələrini yerinə yetirmədən müstəqil surətdə öz qonşularımızla, digər dövlətlərlə siyasətimizi qura bilirik. Bu baxımdan Azərbaycan müstəqil dövlətdir. Lakin dünyada hər şey bir-birindən asılıdır, xüsusən də ərazicə kiçik ölkələr. Bu ölkələr reallığı nəzərə almalıdır, bunsuz mümkün deyildir. Dünya Birliyinə məhəl qoymamaq siyasəti heç vaxt xeyir verməz. Bəli, biz reallıqları, əlbəttə, nəzərə almalıyıq, lakin öz taleyimizi özümüz müəyyənləşdiririk.

**- Azərbaycan Respublikasının müasir dövlətçiliyi nəyə əsaslanır?**

- Ona əsaslanır ki, biz – Azərbaycan vətəndaşları varıq. Ona əsaslanır ki, biz işləyirik.

**- Siz dediniz ki, ölkənin böyük planları vardır. Yaxın onillikdə ölkənin inkişafının əsas istiqamətlərini göstərə bilərsinizmi?**

- Üstünlük, sözsüz ki, neft sektoruna məxsusdur. Biz ölkə iqtisadiyyatının bu əsas istiqamətində bütün proqnozları və bizi nə gözlədiyini bilirik. Pul hesabı ilə bu, hər il milyard dollar deməkdir. Bu isə əhalinin yaşayış vəziyyətini yaxşılaşdırmağa da, əməkhaqqını artırmağa da, qeyri-neft sektoruna çoxlu sərmayə ayırmağa da imkan verəcəkdir. Sənayeyə, kənd təsərrüfatına da. Bu, insanları işlə təmin etməyə imkan verəcək, çünki bizdə işsizlik, təəssüf ki, hələ də mövcuddur. Zəngin təbii ehtiyatlara malik olaraq, onlardan bacarıqla istifadə edərək, çox qısa bir müddətdə insanların maddi rifahını yaxşılaşdıra bilərik. Bu, başlıca vəzifədir. Hər bir hökumətin əsas vəzifəsi ondan ibarətdir ki, insanların həyatını daha yaxşı etsin. Zənn edirəm ki, bunun üçün bizim hər bir imkanımız vardır, ən başlıcası isə bunu istəyirik. İqtisadi proqnozlarımızın hamısı Azərbaycanın

güclü bir ölkə olacağından xəbər verir. Biz heç kimin işinə qarışmaq fikrində deyilik, heç bir iddiamız yoxdur, bütün diqqətimizi yalnız ölkəmizin inkişafına yönəltməliyik. Bu yolu seçən ölkələr uğur qazanır. Ölkədə hələ çox iş görmək lazımdır, bir çox sahələr vardır ki, onları dirçəltmək, yaxud yenidən yaratmaq lazımdır. Biz də bu istiqamətdə işləyəcəyik.

**- Hansı ölkələr Sizin üçün inkişaf nümunəsidir? Postsovet məkanındakı bəzi yeni müstəqil dövlətlər Malayziya modelini götürmüşlər, bəziləri isə Avropaya üz tutmuşlar.**

- Bu barədə danışmaq mənim üçün çətindir, bu haqda düşünməmişəm. Hesab etmirəm ki, kiməsə oxşamaq, kimdənsə nümunə götürmək lazımdır. Prinsipcə milli iqtisadiyyatı ahəngdar şəkildə inkişaf etdirmək lazımdır. Vəssalam.

**- Ötən il kiçik və orta biznesin sərbəstləşdirilməsinə dair xeyli qərar qəbul edilmişdir, özü də Prezidentin fərmanları səviyyəsində. Bu qərarlar və fərmanlar işləyirmi? İqtisadiyyatın bu sektorlarının gələcək inkişafı üçün daha nə çatışmır?**

- Hesab edirəm ki, bu sənədlər işləyir. Onlar cəmiyyətdə çox müsbət qarşılanmışdır. Daha nə lazımdır? Yəqin ki, kiçik və orta biznesə maliyyə yardımı göstərmək, yeni istehsal sahələrinin inkişafına kömək etmək üçün sanballı maliyyə bazası. Biznesmenlər də, öz işinə təzəcə başlamaq istəyənlər də baza kapitalının olmaması kimi ən böyük problemlə qarşılaşırlar. Bax, bu məsələdə dövlət, əlbəttə, kömək etməlidir. Lakin kor-koranə yox. Təbiidir ki, hər şeyi araşdırdıqdan sonra maliyyə yardımı göstərmək lazımdır ki, sonradan bu vəsait itib-batmasın. Hesab edirəm ki, problem bundadır.

**- Yaxın aylarda xarici ölkələrə səfərə çıxmağı nəzərdə tutmusunuzmu?**

- Hələlik yox.

**- Ailənizdə xanımınız, uşaqlarınız Sizin təyinatınızı necə qarşıladılar?**

- Normal qarşıladılar. Yəqin ki, onlar da müəyyən dərəcədə buna hazır idilər, odur ki, üzlərində xüsusi sevinc hissi görmədim. İndi bizim hamımız atamız və babamız barədə düşünürük.

**- Biz Sizin yerli mətbuatla tanış olmuşuq. Bəziləri Sizi və atanızı tənqid edir, digərləri isə Sizi tərifləyirlər. Sizin buna münasibətiniz necədir? Bunun qarşısını almaq olarmı?**

- Mən bütün bunlara çox pis baxıram. Mən deyərdim ki, bu, qaş qayıran yerdə göz çıxarmaqdır. Mədhiyyələrə ehtiyacım yoxdur. Bundan xəcalət çəkirəm. Mən üzr istəyirəm ki, bu məddahların sözlərinin qarşısını demokratik yollarla ala bilmirəm. Bu, biabırçı vəziyyətdir. Xahiş edirəm, məni tərifləmək lazım deyil, mən indi çox mühüm bir iş tapşırılmış adi, sadə bir insanam. Bütün fikir-düşüncələrim Prezidentin və atamın etimadını doğrultmağa yönəldilmişdir. Onun etimadını doğrultmalıyam. Avqustun 2-də, Baş nazir təyin olunmağım barədə təkliflə parlamentə məktub yazanda mən ona dedim... Onunla söhbətimiz oldu və mən dedim: əmin ol ki, sənin etimadını doğruldacağam. Mənim üzərimə böyük məsuliyyət düşmüşdür. Azərbaycanın gözəl gələcəyi var. Mən istəyirəm ki, ölkədə hamı asudə, gələcəyə inamla işləsin. Bu, əsas məsələdir. Mən, həqiqətən, var gücümlə çalışacağam ki, ölkənin, Prezidentin və xalqın etimadını doğruldum. Yerdə qalanlar o qədər də vacib deyildir.

## “NƏ? HARADA? NƏ VAXT?” İNTELLEKTUAL OYUNU ÜZRƏ İKİNCİ DÜNYA ÇEMPİONATININ MÜKAFATLARININ TƏQDİM EDİLMƏSİ VƏ BAĞLANIŞ MƏRASİMİNDƏ ÇIXIŞ

*Bakı, “Avropa” mehmanxanası*

*17 avqust 2003-cü il*

Əziz dostlar! Əziz qonaqlarımız!

İcazə verin, ilk növbədə, mənim xidmətlərimin qeyd olunmasına görə “Nə? Harada? Nə vaxt?” klubunun idarə heyətinə təşəkkürümü bildirim*. Sözün düzü, bu mənim üçün gözlənilməz və çox xoş oldu. Xoşbəxtəm ki, təkcə Azərbaycanda deyil, həm də digər ölkələrdə hamımızın sevdiyimiz bu oyunun şöhrətinin artırılması işinə, kiçik də olsa, öz töhfəmi vermişəm.

Mən bir il öncə demişdim ki, buraya gəlmək barədə dəvətimizi qəbul etdiyinizə görə və bir neçə gün ərzində bizə, şəhərimizin bütün sakinlərinə bayram bəxş etdiyinizə görə sizə çox minnətdaram. Azərbaycanda bu oyunu və biliciləri necə sevdiklərini, bakılıların qonaqlarımıza necə səmimi hisslər bəslədiklərini özünüz yəqin gördünüz. Əminəm ki, minnətdar olduğum sponsorlarımız və sizi müşayiət etmiş adamlar şəhərimizdə qaldığınız günlərin xoş keçməsi üçün əllərindən gələni əsirgəməmişlər. Siz dediniz ki, BKA hələlik federasiya deyildir, lakin zənnimcə, “Nə? Harada? Nə vaxt?” oyununun dünyanın bir çox ölkələrində qazandığı şöhrət idmanın ən

---

* Avqustun 13-də Beynəlxalq Klublar Assosiasiyası Azərbaycan hökuməti başçısının “Nə? Harada? Nə vaxt?” hərəkatının dəstəklənməsinə görə mükafata layiq görülməsi haqqında qəbul etdiyi qərara əsasən, bu mükafat və klubun ən yüksək mükafatı – müdriklik rəmzi olan “Büllur bayquş” mükafatı İlham Əliyevə təqdim olunmşdur.

populyar növlərinin şöhrətindən heç də az deyildir. İnamla deyə bilərəm ki, bu oyunu Azərbaycanda səbirsizliklə gözləyirlər. Televiziya ilə seriya verilişlər göstərilərkən biz hamımız ekran qarşısında oluruq, azarkeşlik edirik. İndi isə, sadəcə, tanınmış və sevdiyimiz adamlara deyil, öz dostlarımıza azarkeşlik edirik. Bu günlər ərzində biz dostlaşdıq.

Biz azərbaycanlılar dostluğu yüksək qiymətləndiririk və ümidvarıq ki, dostluğumuz davam edəcəkdir. Burada gələcəkdə bu oyun üzrə çempionatların keçiriləcəyi yerlərin müəyyənləşdirilməsi barədə bəzi mülahizələr səsləndi. Əlbəttə, qərarı klubun idarə heyəti qəbul edəcəkdir. Lakin sizə demək istəyirəm ki, dostluğun qədir-qiymətini bilən ölkəmizdə ənənələri də yüksək qiymətləndirirlər.

Mən artıq təşəkkül tapmış ənənəni pozmamağı və üçüncü çempionatı da Bakıda keçirməyi təklif edirəm.

Bütün qalibləri və mükafatçıları təbrik edirəm, hamıya cansağlığı, uğurlar və xoşbəxtlik arzulayıram!

## MƏRASİM BAŞA ÇATDIQDAN SONRA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

**S u a l: İlham müəllim, bu çempionat Azərbaycanda Sizin təşəbbüsünüzlə keçirilir. Bugünkü nəticələrdən razısınızmı?**

**C a v a b:** Əlbəttə, razıyam. Hesab edirəm ki, bizim təşəbbüs göstərməyimiz çox müsbət nəticələr verdi. İkinci dəfədir ki, çempionat Azərbaycanda keçirilir. Görürsünüz ki, buna maraq çox böyükdür. Gözəl bir oyundur, gözəl bir tədbirdir, dostluq əlamətidir. Hesab edirəm, gələn dəfə də Bakıda keçirilərsə, bizim insanlarımız buna sevinərlər.

**S u a l: Cənab Prezidentin səhhəti necədir?**

**C a v a b:** Yaxşıdır.

**S u a l: Siz bir neçə gün əvvəl bildirmişdiniz ki, cənab Prezident iki həftəyə Vətənə qayıdacaqdır.**

**C a v a b:** Təxminən. Demək çətindir. Yəni, həkimlərin dediyi budur. İki həftə, üç həftə ola bilər. Müalicəsinin gedişinə baxır.

**S u a l: Cənab Prezidentin üzərində hansısa cərrahiyyə əməliyyatı aparıla bilərmi?**

**C a v a b:** Yox. Bu barədə söhbət getmir. Ancaq terapevtik üsullarla müalicə aparılır. Özü də çox yaxşı nəticələr verir.

**S u a l: İlham müəllim, prezident seçkiləri ilə əlaqədar təbliğat kampaniyası başlanmışdır. Siz rayonlara səfər edəcəksinizmi? Ümumiyyətlə, ilk olaraq, hansı rayonlar nəzərdə tutulmuşdur?**

**C a v a b:** Əlbəttə, olacaq. Hələ ki, müəyyən etməmişəm, baxarıq. Əlbəttə ki, Azərbaycanın bir çox rayonlarına səfərlər gözlənilir. Mütləq gedəcəyəm.

**S u a l: Cənab Baş nazir, xarici kütləvi informasiya vasitələrinə müsahibələrinizdə Dağlıq Qarabağ münaqişəsinə də toxunmusunuz. Bu, bir növ Sizin platformanız kimi də qəbul edilir, yəni, Baş nazir İlham Əliyev Dağlıq Qarabağ münaqişəsi məsələsində bu mövqedədir. Azərbaycanın ərazi bütövlüyünün yaxın zamanda bərpa olunacağına tam zəmanət verirsinizmi? Yəni Azərbaycan buna nail ola biləcəkmi?**

**C a v a b:** Biz buna çalışırıq. Bizim siyasətimiz buna nail olmağa yönəlibdir. Mənim mövqeyimdə heç bir dəyişiklik olmayıbdır. Əgər fikir versəniz, bir neçə ildir bu barədə mən öz fikirlərimi açıq-aydın bildirmişəm və yenə bildirirəm. Azərbaycanın ərazi bütövlüyü tamamilə bərpa olunmalıdır, işğalçılar Azərbaycanın torpaqlarını azad etməlidirlər. Ondan sonra hər hansı bir sülh müqaviləsindən söhbət gedə bilər. Bu, əsas prinsiplərdir. Biz bu prinsiplərdən geri çəkiləsi deyilik. Yəni burada hər hansı bir yenilik yoxdur. Sadəcə olaraq, mənim vəzifəmdə yenilik baş verdi. Yəqin, siz ona görə bunu belə qəbul edirsiniz.

**S u a l: İlham müəllim, sülh danışıqları artıq on ilə yaxındır gedir. Əgər prezident olsanız, bu yenə də davam edəcək, yoxsa nə vaxtsa bu danışıqlar bitəcəkdir?**

**C a v a b:** Hələ ki, imkanlar tükənməyibdir. Bilirsiniz ki, ATƏT-in Minsk qrupu öz səylərini yenə də davam etdirir. Eyni zamanda prezidentlərin ikitərəfli görüşləri keçirilmişdir və gələcəkdə də keçiriləcəkdir. ATƏT-dən yeni təklif ola bilər. Yeni vəziyyət yarana bilər. Dünya dəyişir. Bilirsiniz ki, son iki il ərzində dünyada, bizim regiona yaxın olan yerlərdə çox mühüm proseslər baş veribdir. Ona görə hesab edirəm ki, sülh danışıqları gərək davam etdirilsin. Yəni imkanlar hələ tükənməyibdir. Əgər belədirsə, gərək biz hər bir vasitədən istifadə edək. Mən inanmaq istəyirəm ki, biz bunu sülh yolu ilə həll edə bilərik.

**S u a l: Cənab Baş nazir, müxalifət etiraz aksiyalarını yenidən fəallaşdırır və səsləndirdikləri bütün şüarlara əlavə olaraq, indi də istefa şüarı, tələbi ilə çıxış edirlər. Siz bunu necə qiymətləndirirsiniz?**

**C a v a b:** O yeni nədir, mənə aiddir? Mən necə qiymətləndirə bilərəm. Mən buna ancaq gülə bilərəm. Bilirsiniz, aksiyaları fəallaşdırıblar, ya yox, mən bunu deyə bilmərəm. Çünki müxalifətin bütün aksiyaları elə köhnə qaydada keçirilir. Mən bilmirəm, onlar belə yürüşlərlə nə əldə etmək istəyirlər. Əgər fikirləşirlər ki, kimisə qorxuda bilərlər, bu, əlbəttə, mümkün deyildir. Əgər fikirləşirlər ki, belə hərəkətlərlə özlərinə möhkəm sosial baza yarada bilərlər, bu da inandırıcı deyildir. Çünki insanlarımızın onların fəaliyyətindən, keçmişindən, planlarından kifayət qədər məlumatları var. Onlardan soruşmaq lazımdır ki, əgər siz hakimiyyətə gəlsəniz, Azərbaycan üçün nə edəcəksiniz? Onların fikri Azərbaycanı dağıtmaqdır. Yəni, bunu gizlətmirlər. Mövcud olan vəziyyəti aradan qaldırmaq ki, nəticədə sosial və vətəndaş qarşıdurması yaransın. Ona görə onların bu hərəkətləri hər hansı bir təsir edə bilməz. Xalq bilir ki, iqtidar Azərbaycan üçün nə edib, onlar nə ediblər. Onlar bu vaxta qədər ancaq tənqid edirlər, qeyri-real vədlər verirlər. Ona görə mən onlara ciddi baxmıram. Onların istefa tələbləri də, necə deyərlər, ürəklərində qalacaqdır. Sağ olun.

## “ASSOŞİEYTED PRESS” AGENTLİYİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ

*15 avqust 2003-cü il*

**S u a l: Tamamilə aşkar bir məsələdir, seçkiqabağı kampaniya ərəfəsində hər bir kəs gözləyə bilər ki, yeni prezident Siz olacaqsınız. Bunu çoxları gözləyir. Necə bilirsiniz, Azərbaycanın növbəti prezidenti nə ilə qarşılaşmalı olacaqdır?**

**C a v a b:** Bilirsinizmi, qarşıdakı seçkilər barədə çox müxtəlif informasiyalar yayırlar. Mən isə əminəm ki, prezident Heydər Əliyev növbəti seçkilərdə iştirak edəcəkdir. O buna hazırdır. Prezident müalicədən sonra qayıdacaq və seçkiqabağı kampaniyada iştirak etmək iqtidarında olacaq və seçkilərdə qalib gələcəkdir. Axı ölkəmizin xalqı onu dəstəkləyir, ona inanır, fəaliyyətini layiqincə qiymətləndirir. Bu isə inanmağa əsas verir ki, məhz Heydər Əliyev prezident seçiləcəkdir. Bundan əlavə, Prezidentin seçilməsinə yardımçı olmaq üçün bir namizəd kimi mən də seçkilərdə iştirak etməyə razılıq vermişəm. Bu gün üçün planımız belədir.

**S u a l: Siz namizədliyinizi geri götürmək fikrindəsinizmi? Əgər belədirsə, onda nə vaxt?**

**C a v a b:** Bəli, belədir. Amma bunu nə vaxt edəcəyimi sizə deyə bilmərəm, çünki seçkiqabağı kampaniyada iştirak etməliyəm. Müəyyən bir mərhələdə öz namizədliyimi geri götürməyi nəzərdə tuturam. Əminəm ki, Prezident seçkilərdə iştirak edə biləcəkdir.

**S u a l: Elə ola bilərmi ki, atanız öz namizədliyini Sizin xeyrinizə geri götürsün?**

**C a v a b:** Bu mümkündür. Amma yalnız o halda ki, Prezidentin səhhəti ona seçkilərdə iştirak etməyə imkan verməsin. Şükürlər olsun ki, biz xəstəxanadan nikbin ovqat doğuran məlumat almışıq. Mən onunla dünən danışmışam. Ümumiyyətlə, biz hər gün danışırıq. Vəziyyəti yaxşılaşır, ona

görə də çox ümid bəsləyirik ki, o, seçkilərdə iştirak edə biləcəkdir.

**S u a l: Siz bölgələrdə seçkiqabağı kampaniyaya nə vaxt başlamaq fikrindəsiniz? Ən başlıcası, Siz seçicilərə nə təklif edəcəksiniz?**

**C a v a b:** Deməliyəm ki, seçicilər məni artıq neçə illərdir tanıyırlar. 1994-cü ildən mən ölkədə gedən bütün ən mühüm iqtisadi və siyasi proseslərə cəlb olunmuşam. Bu vəzifəyə təyin edilməzdən əvvəl də mənim çoxlu vəzifələrim vardı. Mən bölgələrə tez-tez gedirəm, ölkədəki vəziyyətə bələdəm və xalq məni tanıyır. Odur ki, özümü təqdim etməyə elə bir ehtiyac yoxdur. Mən xalqın arasına çıxanda insanlara çatdırmaq üçün özümlə ancaq bir müraciət götürəcəyəm – müraciətdə deyiləcək ki, gələcək inkişaf üçün prezident Heydər Əliyevin apardığı siyasətin davam etdirilməsi son dərəcə vacibdir. Əgər bu siyasət davam etdirilməsə, ölkə yenidən anarxiya və qeyri-sabitlik həddinə gəlib çıxacaqdır. Əminəm ki, seçicilər bunu gözəl başa düşürlər. Bu, indiki siyasəti davam etdirəcək hökuməti onların dəstəkləməsinin səbəblərindən biridir. Bu da çox vacibdir. Biz çox layihələr həyata keçirməliyik, çünki Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir, demokratikləşmə prosesi davam edir. Bütün bunlar dayandırılmamalıdır. Xalqa müraciətimin mahiyyəti də məhz bundan ibarətdir.

**S u a l: Siz davam etdirilməli olan bütün müsbət hallardan danışırsınız. Amma cəmiyyətdə başqa məsələlər də var. Ölkənizdə bəziləri müxalifətdədir və Sizin Baş nazir vəzifəsinə təyin olunmağınıza müsbət yanaşmırlar. Necə bilirsiniz, prezidentin səlahiyyətlərini yerinə yetirməli olduğunuz bir vəziyyət yaransa, onlar bunu sakit qarşılayacaqlar?**

**C a v a b:** Düşünmürəm ki, onlar hər hansı ciddi addımlar atmaq iqtidarında olsunlar. Çünki əhalinin əksəriyyəti bizi dəstəkləyir. Bu yaxınlarda aparılmış ictimai rəy sorğusu prezident Heydər Əliyevin və onun siyasətinin hər yerdə

dəstəkləndiyini təsdiqləmişdir. Bu cür sorğuları ABŞ təşkilatları da aparmışlar.

Bu gün Azərbaycanda müxalifət azlıqdadır. Onların iyirmidən çox partiyada təmsil olunmaqlarına baxmayaraq, keçirdikləri müxtəlif mitinqlərə heç vaxt üç min adam da toplaya bilmirlər. Müxalifətçilər elə təsəvvür yaratmağa çalışırlar ki, guya onların hansısa bir sosial bazası var. Əslində isə, belə bir şey yoxdur. Onlar nə qədər can atsalar da, ölkədə vəziyyətin inkişafına təsir göstərmək iqtidarında deyillər və sabitliyin pozulmasına səbəb ola bilməzlər. Müxalifətin cəmiyyətdə sosial gərginlik yaradacağı barədə sözləri, olsa-olsa, təəssüf doğurur. Məlumdur ki, bu adamların cəmiyyətə təklif edə biləcəkləri yeganə bir şey varsa da, o da bunların cəmiyyətdə sabitliyi pozmağa çalışmasıdır. Lakin, əvvəla, onlar buna qadir deyillər, ikincisi isə, onlara imkan verməzlər. Bugünkü müxalifəti təmsil edən adamlar 10 il əvvəl hakimiyyətdə olmuşlar. Onlar hakimiyyətdə vur-tut bir il qala bildilər, nəticədə isə ölkəni anarxiyaya və vətəndaş müharibəsinə gətirib çıxartdılar. Ona görə də xalq onlara inanmır. Üstəlik, on ildir müxalifətdə olan bu adamlar siyasi mübarizəni sivil üsullarla aparmağı, hökumətlə ünsiyyətin yeni yollarını axtarmağı öyrənməmişlər. Əgər siz onların adlarına diqqət yetirsəniz görərsiniz ki, onlar düşmənçiliyə üstünlük verirlər - məsələn, Xalq Cəbhəsi.Ötən əsrin 90-cı illərinin əvvəllərində, əslində, bütün postsovet respublikalarında xalq cəbhələri yaradılmışdı. İndi isə onlar, Azərbaycandan savayı, heç yerdə yoxdur. Yenə cəbhələr. Düşünürəm ki, daha bəsdir. Azərbaycan sabit iqtisadiyyata malik ölkədir, beynəlxalq birliyin bir hissəsidir, Avropa Şurasının üzvüdür, iri beynəlxalq layihələrin iştirakçısıdır, NATO-nun “Sülh naminə tərəfdaşlıq” proqramının fəal üzvüdür, Avropa Birliyi ilə yaxşı münasibətlərimiz var, daha yaxından inteqrasiya üçün bir sıra addımlar atmışıq. Biz, bir tərəfdən, milyonlarla dollar sərmayə qoyulmuş Bakı–Tbilisi–Ceyhan beynəlxalq layihəsi kimi nailiyyətlərə malikik, digər tərəfdən isə, belə maneələrlə

üzləşirik. Zənnimcə, bəsdir. Xalq bundan nə qədər əzab-əziyyət çəkməlidir?! Biz hamımız əminik və şəxsən mən də əminəm ki, indiki iqtidarın siyasəti əhali tərəfindən dəstəklənir, ona görə də bu siyasət davam etdirilməlidir. Biz ölkədə vəziyyətin daha da yaxşılaşması üçün yorulmadan çalışacağıq.

**S u a l: Sizcə, nəyisə təkmilləşdirmək lazımdırmı?**

**C a v a b:** Çox şey. Mənə elə gəlir ki, başlanılmış olan nə varsa, onların hamısı davam etdirilməlidir. Məsələn, biz iqtisadi islahatlara başlamışıq, iqtisadiyyatın özəlləşdirilməsi və sərbəstləşdirilməsi proqramını həyata keçiririk, sahibkarlar üçün yaxşı imkanlar yaradırıq. Bunların hamısı daha geniş miqyasda davam etdirilməlidir. Hökumətin yardımı ilə qeyri-neft sektoru da inkişaf etməlidir. Neft sektorundakı böyük nailiyyətlərimiz buna zəmin yaradır. Ümumiyyətlə, bəzi qonşu dövlətlərlə müqayisədə, iqtisadi vəziyyət müsbətdir. Biz ÜDM-in təxminən 10 faiz artımına nail olmuşuq. Biz birbaşa xarici sərmayələrin cəlb edilməsində liderik, əlverişli sərmayə mühiti yaradılmışdır, milyardlarla dollar məbləğində sərmayələr var. Odur ki, bizə ancaq ən əsas məqsədimizə – əhalinin həyat səviyyəsinin yüksəldilməsinə nail olmaq yolu ilə irəliləməyi davam etdirmək qalır. Bu, bir nömrəli vəzifədir.

**S u a l: Əlbəttə, Dağlıq Qarabağ problemi indi, tezliklə, yaxud 2008-ci ildə seçiləcək prezident üçün yenə də aktual olaraq qalacaqdır. Siz hesab edirsinizmi ki, bu münaqişənin həllinə imkan var?**

**C a v a b:** Əlbəttə. Mən əminəm ki, bu münaqişənin həlli üçün bütün imkanlar var. Beynəlxalq birlik regionda sülhün bərqərar edilməsində maraqlıdır. Amma sülh hər hansı faydanın olmasına və ya yoxluğuna əsaslana bilməz. Əgər sülh tərəflərdən birini qane edirsə və digər tərəfin mənafelərinə ziddirsə, bu halda sülh əldə oluna bilməz. Bu, mümkün deyildir. İlk növbədə, işğal edilmiş bütün ərazilər bizə qaytarılmalıdır, Dağlıq Qarabağa dair ardıcıl danışıqlara artıq bundan sonra başlamaq olar. Ərazi bütövlüyümüz tanınmışdır, pozulmazdır və məsələnin dincliklə həlli yalnız bu bəndlərə əməl edilməsi

şərtilə mümkündür. Biz müharibədən zərər çəkmişik, ərazimizin 20 faizi işğal edilibdir, ölkədə bir milyondan çox qaçqın-köçkün var. Lakin buna baxmayaraq, Azərbaycanda iqtisadi inkişafda böyük tərəqqi əldə edilmişdir. Ərazilərimizi işğal etmiş təcavüzkar ölkə olan Ermənistan isə dərin iqtisadi böhran keçirir. Əhalinin baş götürüb köçdüyü bu ölkədə hökm sürən vəziyyətə nəzər salsaq görərik ki, burada iqtisadiyyat bərbaddır, ölkə tamamilə xarici yardımdan asılıdır. Bir sözlə, qoy onlar mövcud olmayan üstünlük barədə xülyalarla özlərinə təsəlli verməsinlər. Azərbaycan isə, bir milyondan artıq əhalisinin qaçqın-köçkün vəziyyətində olmasına baxmayaraq, uğurlar qazanır. Qeyd edim ki, hökumət onlara qayğı göstərir. Bir sözlə, nə qədər çox vaxt keçsə, ölkəmiz bir o qədər güclü olacaqdır. Ermənistanın isə regional əməkdaşlıq olmadan iqtisadi inkişaf perspektivi yoxdur.Dağlıq Qarabağ məsələsi həll edilməyincə, Ermənistanla hər hansı regional əməkdaşlıqdan söhbət gedə bilməz. Bunda hər iki tərəf maraqlı olmalıdır. Əminəm ki, münaqişə tezliklə sülh yolu ilə həll ediləcəkdir.

**S u a l: Siz Dağlıq Qarabağın müstəqillik statusuna malik olmasını fərz edə bilərsinizmi?**

**C a v a b:** Əlbəttə ki, yox və yenə də yox! Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Azərbaycan öz sərhədləri daxilində tanınmışdır. Biz Avropadakı dövlət quruluşlarını misal çəkə bilərik, axı bir çox ölkələrdə muxtar vilayətlər var. Odur ki, biz məsələnin həlli yolunu yalnız bu istiqamətdə axtarmalıyıq. Azərbaycanın ərazi bütövlüyü toxunulmazdır, üstəlik, daha bir erməni dövlətinin mövcud olması mümkün deyildir. Ermənistanın irəli sürdüyü ideyalar bundan ibarətdir ki, guya Dağlıq Qarabağın əhalisi öz müqəddəratını təyin etmək istəyir. Halbuki ermənilər öz müqəddəratını artıq müəyyən etmişlər, onların müstəqil dövləti var – Ermənistan Respublikası. Dünyada ikinci erməni dövləti ola bilməz, deməli, Dağlıq Qarabağın müstəqilliyi yolverilməzdir. Dağlıq Qarabağ tarixən Azərbaycan ərazisidir və o, ancaq yüksək muxtariyyət statusuna malik ola bilər. Biz öz

mövqeyimizi dəfələrlə izah etmişik, o da bundan ibarətdir ki, biz Dağlıq Qarabağa ən yüksək muxtariyyət statusu verməyə hazırıq.

**S u a l: Azərbaycanın ən mühüm müttəfiqi kimdir?**

**C a v a b:** Ən mühüm müttəfiqlərimiz, zənnimcə, Birləşmiş Ştatlar və Türkiyədir. Birləşmiş Ştatlarla çox yaxşı münasibətlərimiz var və biz onunla energetika sahəsində sıx əməkdaşlıq edirik. Biz energetika layihələrimizi məhz ABŞ-dan aldığımız dəstək sayəsində gerçəkləşdirə bilmişik. Biz İraqda müharibə zamanı ABŞ-la koalisiyada da olmuşuq. Türkiyəyə gəldikdə, o, ən yaxın dostumuzdur, sıx siyasi, iqtisadi və mədəni münasibətlərimiz və əlaqələrimiz olan ölkədir. Bütün bunlar hər iki ölkənin rifahına xidmət edir. Biz qonşularımızla, ilk növbədə, Rusiya ilə əməkdaşlığa da böyük diqqət yetiririk. Çox məmnunuq ki, son üç ildə Rusiya ilə münasibətlərimiz yaxşılaşmışdır. Çox narahat idik ki, Rusiyanın əvvəlki rəhbərliyi Ermənistanı birtərəfli qaydada dəstəkləyərək Dağlıq Qarabağ münaqişəsi məsələsində tarazlı siyasət aparmırdı. Lakin indiki rəhbərliyin mövqeyi tarazlıdır. Biz münasibətlərimizi xeyli yaxşılaşdırmağa müvəffəq olmuşuq və bu faktdan məmnunuq. İstərdik ki, yaxın qonşularımızın hamısı ilə yaxşı münasibətlərimiz olsun. Bilirsinizmi, mən misal olaraq üç ölkənin adını çəkdim. Axı çox rəmzidir ki, bu yaxınlarda Ankarada olan Prezidentimiz həkimlərin qərarı ilə Birləşmiş Ştatlara getmişdir. Rahat uçuş üçün lazım olan təyyarə tapmaq məsələsində rəsmi şəxslərimiz Rusiya hökumətinə müraciət etdilər və o, belə təyyarə verdi. Beləliklə, Prezident Türkiyədən ABŞ-a Rusiya təyyarəsi ilə getdi. Bu fakt üç ölkənin necə birləşə bilməsini göstərir. Biz bu münasibətləri saxlamaq istəyirik. Biz Azərbaycanın elə bir yer olmasını istərdik ki, burada ölkələr rəqabət etmək deyil, əməkdaşlıq edə bilsinlər. Düşünürəm ki, biz buna nail ola bilərik.

**S u a l: Siz Birləşmiş Ştatların Azərbaycana dəstəyini xatırladınız. Siz prezident Buş tərəfindən də dəstək aldınız.**

**Birləşmiş Ştatlar tərəfindən, Qərb tərəfindən bu kömək Azərbaycanda Sizin üçün nə dərəcədə vacibdir?**

**C a v a b:** Əlbəttə ki, vacibdir. Göndərdiyi məktuba görə mən prezident Buşa çox minnətdaram və bilirəm ki, heç də hər bir Baş nazir belə şərəfə layiq görülmür. Mən bunu çox qiymətləndirirəm. ABŞ prezidenti ilə 1996-cı ildən, hələ Texas ştatının qubernatoru olduğu vaxtdan şəxsən tanışam və o vaxtdan bəri həm qubernator kimi, həm də prezident vəzifəsində fəaliyyətinə çox böyük hörmət bəsləyirəm. ABŞ hökumətinin digər üzvləri ilə də çox yaxşı qarşılıqlı münasibətlərimiz var. Mən bu adamları çoxdan tanıyıram, eyni zamanda onlar da İlham Əliyevin kim olduğunu, ölkələrimiz arasında münasibətlərin inkişafına verdiyi şəxsi töhfəni bilirlər. Bu məktubu almaq şəxsən mənim üçün çox xoş idi. Mən bunu çox yüksək qiymətləndirirəm. Bu, Azərbaycanın siyasətinə və bütün ölkəmizə göstərilən dəstəkdir və o, təkcə sözlə təsdiq və sübut olunmur – ABŞ çox etibarlı müttəfiqdir. İraq müharibəsi zamanı Birləşmiş Ştatlar dəstək üçün müttəfiqlərinə və dostlarına müraciət etdi. Azərbaycan ABŞ-ı dəstəkləyən ilk dövlətlərdən biri oldu. O vaxt buna 30-dan az ölkə qoşuldu. İndi bir çox ölkələr deyirlər ki, onlar Birləşmiş Ştatları həmişə dəstəkləmişlər. Lakin indi, hadisələrin artıq arxada qaldığı vaxtda bunu demək asandır. Bu, kimin əsl dost olduğunu, kiminsə dost olmadığını yoxlayan bir növ imtahan idi. Ermənistan Birləşmiş Ştatları dəstəkləyən ölkələr sırasında olmadı, buna biganə qaldı. Özünü Birləşmiş Ştatların əsl, etibarlı dostu olduğunu göstərən Azərbaycanın siyasəti isə Amerikada yüksək qiymətləndirilir. Mənə göndərilən bu məktub da həmin siyasətin, ikitərəfli münasibətlərin nəticəsidir. Əlbəttə, şəxsiyyət məsələsinin də rolu var. Mən çox razıyam, əminəm ki, münasibətlərimiz iki ölkənin rifahı naminə bütün sahələrdə inkişaf edəcəkdir.

**S u a l: Siz dediniz ki, prezident Buşla ilk dəfə o, hələ Texasın qubernatoru olarkən görüşmüşsünüz. Bu barədə danışa bilərsinizmi?**

**C a v a b:** Bu, neft şirkətində işlədiyim vaxtlarda olmuşdur. Görüşlərdə və konfranslarda iştirak etmək üçün ildə iki dəfə ABŞ-a gedirdim. Texas Birləşmiş Ştatların neft sənayesinin vətənidir. Hyüstonda çox olmuşam. Həmin dövrdə Texasın paytaxtında səfərdə olarkən qubernator məni qəbul etdi, çox səmərəli söhbətimiz oldu. Xəzər regionunda Amerika şirkətləri ilə əməkdaşlığa töhfəmə görə o vaxt cənab Corc Buş məni fəxri texaslı fərmanı ilə mükafatlandırdı.

**S u a l: Xəzər dənizinin ehtiyatlarının bölüşdürülməsi barədə nə deyə bilərsiniz? Problem nədədir və onun həllini kim ləngidir?**

**C a v a b:** Hər şey 10 il bundan əvvəl, 1994-cü ildə "Əsrin müqaviləsi"ni imzaladığımız vaxtdan başlandı. Xəzərin Azərbaycan sektorunda işləməyə tam haqqımız var və biz başqa sektorlara girmirik. Bu, düzgün mövqe idi, artıq Rusiya və Qazaxıstan ilə sektor bölgüsünə əsaslanan ikitərəfli sazişlər imzalamışıq. Əlbəttə, problem hələ axıradək həll edilməmişdir, bu, çox pisdir. Amma, eyni zamanda bu, xarici şirkətləri dayandırmadı və onlar Xəzərin Azərbaycan sektoruna kapital qoydular. Artıq 5-6 milyard dollarlıq sərmayə qoyulmuşdur, bir-iki ildən sonra bu rəqəm iki dəfə artacaqdır. Problem hələlik həll edilməsə də, bu, maneə deyildir. Əlbəttə ki, ölkələr razılığa gələ bilsəydilər, çox yaxşı olardı. Amma, təəssüflər olsun ki, hələlik belə deyildir. Zənnimcə, biz bir qərara gəlməliyik, amma, hətta gəlməsək də, məncə, bizim üçün böyük maneələr yaranmayacaqdır.

**S u a l: Hər halda, problemin həllini kim ləngidir?**

**C a v a b:** Müəyyən bir söz demək çətindir. Məsələn, dediyim kimi, biz başqa sektorlara girmirik. Sektor bölgüsü hələ sovet dövründə tətbiq edilmişdi. Biz sovet dövründə qəbul edilmiş bölgünü əsas götürmüşük. İndi Rusiya və Qazaxıstan ilə sazişlərimiz var. Prinsipcə, Türkmənistanla da aramızda ciddi fikir ayrılığı yoxdur. Yeganə problem ondadır ki, Türkmənistan bəzi yataqların onlara məxsus olduğunu iddia edir. Bu, əslində, düzgün deyildir. Hələ 1994-cü ildə biz müstəqil beynəlxalq

tədqiqat apardıq və bu tədqiqat göstərdi ki, sözügedən yataqlar bizə məxsusdur. İranla vəziyyət bir qədər başqa cürdür. Aramızda prinsipial fikir ayrılıqları var, çünki İran sektor bölgüsünü, ümumiyyətlə, tanımır, öz sərhədlərini Sovet İttifaqının dövründəki hüdudlardan kənara çıxarmaq istəyir. Düşünürük ki, bizim mövqeyimiz ədalətlidir, çünki biz beynəlxalq dəstək almışıq və beynəlxalq ekspertiza aparmışıq. Hər hansı beynəlxalq arbitrajda bizim mövqeyimiz ədalətli hesab ediləcəkdir. Buna baxmayaraq, biz bütün əlaqədar ölkələri razılığa gəlməyə və fikir ayrılıqlarına son qoymağa dəvət edirik.

**S u a l: Yadımdadır, Xəzərdə İranla bir hadisə baş vermişdi. İran tərəfindən ölkənizə təhlükə varmı?**

**C a v a b:** Düşünmürəm ki, baş vermiş hadisə ilə əlaqədar hər hansı təhlükə olsun. Biz onda bununla əlaqədar öz etirazımızı bildirdik. Amma düşünmürəm ki, Azərbaycana qarşı təhlükə mövcuddur. Bizim ən böyük sərhədimiz İranladır və onunla olduqca çox oxşar cəhətlərimiz var. Prezidentimizin İrana səfəri, – sonuncu səfəri nəzərdə tuturam, – çox uğurlu oldu. Bu səfər iqtisadi əməkdaşlığın yeni yollarının axtarılmasına kömək etdi və indi biz energetika layihələrini fəal həyata keçiririk. Kənd təsərrüfatı işləri ilə əlaqədar yayda İranın, qışda isə bizim elektrik enerjisinə böyük ehtiyacımız olur. Ona görə də biz bir-birimizə elektrik enerjisi veririk. İqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlıq edirik və İranla münasibətlərimizin yaxşı olmasına çalışırıq. Aramızda hansısa fikir ayrılıqları olduğuna inanmıram.

**S u a l: Siz dediniz ki, Azərbaycan Avropaya inteqrasiyada maraqlıdır. Ölkənizdə insan hüquqları, o cümlədən mətbuat azadlığı, xüsusən də, azad seçkilərlə əlaqədar vəziyyət necədir?**

**C a v a b:** Məncə, bizdə mətbuat çox azaddır. Qəzetlərimizə nəzər salsanız, heç bir senzura görməzsiniz, onların üzərində hökumətin heç bir nəzarəti yoxdur. Bəzi müxalifət qəzetləri hökuməti təhqir edir və prezident haqqında şayiələr yayır.

Amma buna qarşı heç nə edilmir, onların üzərində heç bir nəzarət və senzura yoxdur. Bunu digər azadlıqlar barədə də demək olar. O ki qaldı seçkilərə, biz beynəlxalq müşahidəçilərin iştirakı ilə azad və ədalətli seçkilər keçirmək əzmindəyik. Seçkiləri saxtalaşdırmağın hökumət üçün heç bir mənası yoxdur, çünki yaxşı bilirik ki, əhali bizi dəstəkləyir. Seçkilər azad və ədalətli keçiriləcək, beynəlxalq birlik də bunun şahidi olacaqdır. Lakin nə gizlətməli, bizdə heç də hər şey beynəlxalq standartlara uyğun deyildir. Odur ki, müstəqilliyinin 12-ci ilini yaşayan, işğala, vətəndaş müharibəsinə, çevriliş cəhdlərinə məruz qalmış ölkədə, istər daxildə, istərsə də kənarda hələ də düşmən qruplaşmalarının olduğu bir şəraitdə demokratik inkişafın səviyyəsinin Qərb dövlətlərindəki kimi olduğunu söyləmək sadəlövhlük olardı. Ancaq ən başlıcası odur ki, biz bu istiqamətdə irəliləyirik, bu bizim seçimimizdir. O, başqa cür də ola bilərdi, çünki ölkə üçün strateji seçim etmək hökumətdən və prezidentdən asılı idi. Biz bu yolu seçdik, üç il əvvəl Avropa Şurasının üzvü olduq. Qanunvericiliyimizi əhəmiyyətli dərəcədə təkmilləşdirərək Avropa standartlarına uyğunlaşdırmışıq. Avropa Şurası qarşısında götürülmüş bütün öhdəliklər yerinə yetirilir. Biz bu istiqamətdə irəliləyirik. Lakin buna nə qədər vaxt lazım olacağı hələ məlum deyildir. Zənnimcə, iqtisadiyyat və həyat standartları daha yüksək səviyyədə olarsa, bu, demokratiyanın səviyyəsinə də təsir göstərəcəkdir.

**S u a l: Seçkilər barədə. Seçkilər kimdən asılı olacaqdır? Çoxları iddia edir ki, seçkilər Sizdən və Prezidentdən asılıdır?**

**C a v a b:** Bəli, bu, hakimiyyətdə olanlardan asılıdır. Seçkilərin ədalətli və azad olması üçün biz mümkün olan hər şeyi edəcəyik. Əminəm ki, beynəlxalq müşahidəçilər bunun şahidi olacaqlar.

**S u a l: Potensial prezident kimi, Siz necə hesab edirsiniz, bunun sirri nədədir ki, çoxlarının fikrincə, Sizin atanız tərəfdarlarının böyük bir qrupunu bir yerə toplamaq**

**bacarığına malikdir. Onun çoxillik təcrübəsi var, Siz necə, bunu edə biləcəksinizmi?**

**C a v a b:** Bunun sirri onun şəxsiyyətində və xalq tərəfindən bütünlüklə dəstəklənməsindədir. Əgər lider öz xalqı tərəfindən dəstəklənirsə, əlbəttə, müxtəlif qrupları, bütövlükdə, vəziyyəti nəzarətdə saxlamaq onun üçün çox asandır. Əgər gələcəkdə ölkə rəhbəri olsam, konkret nə baş verəcəyini indidən deyə bilmərəm. Hesab edirəm ki, özüm haqqında, nə edəcəyim barədə, vəzifəmin öhdəsindən gələ bilib-bilməyəcəyim barədə danışmaq təvazökarlıqdan uzaq olardı. Zaman göstərər. Bu gün mənim təyinatım hökumət tərəfindən də, parlament tərəfindən də dəstəklənmişdir. Bütün rayonlardan mənim ünvanıma təbriklər göndərilir. Sadə insanlar mənim təyinatımı dəstəkləyirlər, onu yüksək qiymətləndirirlər, çünki çoxları hakimiyyətdə boşluq yaranacağından, sabitliyin pozulacağından qorxurdu. Mən isə gələcəkdə də sabitliyi təmin etmək və ölkəni inkişaf etdirmək üçün əlimdən gələni etməyə çalışacağam.

**S u a l: Yeni Azərbaycan Partiyasının idarə heyətində fikir ayrılığı varmı?**

**C a v a b:** Heç bir fikir ayrılığı yoxdur. Bu, yalnız şayiələrdir. Müxalifətin mənim bu təyinatımdan sarsılmasının səbəbi onun gündəlik təbliğatının səmərəsiz olmasındadır. Onlar müxtəlif qruplar və fikir ayrılıqları barədə çox danışıblar. Guya, İlham Əliyevi bəziləri dəstəkləyir, bəziləri isə yox. Onlar bu barədə o qədər danışmışdılar ki, artıq özləri öz dediklərinə inanmağa başlayırdılar. Amma mənim parlament və hökumət tərəfindən yekdilliklə dəstəkləndiyimi görəndə isə, əlbəttə, məyus olmuş, düşkünləşmişlər. İndi onların vəziyyəti çox acınacaqlıdır, çünki onların bütün planları bir anın içində alt-üst oldu. Onlar ölkə daxilində qarşıdurma baş verəcəyinə ümid edirdilər, bu, baş vermədi, hökumətdə dəyişikliklər gözləyirdilər, ümid edirdilər ki, bundan istifadə edə biləcəklər, bu da olmadı, beynəlxalq təşkilatların etiraz edəcəyini gözləyirdilər, lakin yenə də səhv etdilər. Bir çox beynəlxalq və Avropa təşkilatlarından, Birləşmiş Ştatlardan mənim ünvanıma

səmimi təbriklər daxil oldu. Onlar artıq nə etməlidirlər? Mən həmişə deyirəm, ölkə, xalq qarşısında xidmətlər özünütəsdiqin ən yaxşı üsuludur. Azərbaycanda neft və qaz sektorunda, idmanda, Ermənistanın təcavüzkar kimi tanındığı Avropa Şurasında, parlamentdə mənim iştirakımla hansı işlər görüldüyünü uzun-uzadı saya bilərəm. Bəs müxalifətdən ölkə üçün nə etdiklərini soruşsanız, nə deyəcəklər? Bunun cavabında onlar yenə də boşboğazlıq edəcəklər. Onlar bizi təhqir edəcək, müxtəlif şayiələr yayacaqlar. Lakin seçkilərqabağı konkret işlərdən danışmaq lazımdır. İşimizdə bəlkə də müəyyən səhvlər olmuşdur, çünki iş olan yerdə səhv də olar. Ancaq məlumdur ki, tənqid etmək konkret işlə məşğul olmaqdan asandır. Bu bizim müxalifətə aiddir. Mən isə onları təhqir etmək, yaxud kəskin tənqid etmək fikrindən uzağam. Lakin fikirləşirəm ki, onların indi əldə etdikləri imkanlarının son həddidir. Bu adamları indiki vəziyyətləri qane edir – maddi vəziyyətləri çox yaxşıdır, müxtəlif ziyafətlərə dəvət olunurlar, xarici səfirliklərə ziyafətlərə getməyi çox xoşlayırlar, mətbuatda, qəzetlərdə onların haqqında yazırlar. Bu onların nail ola bildiklərinin son həddidir. Onların ölkəni idarə etmək imkanı olmuşdur, lakin hər şeyi dağıtdılar. Odur ki, belə adamların müxalifətdə olması həm özləri, həm də bütövlükdə ölkə üçün daha yaxşıdır.

**S u a l: Siz prezident ola biləcəyinizin mümkünlüyü barədə ilk dəfə nə vaxt düşünməyə başladınız?**

**C a v a b:** Bilirsiniz, bu proseslərin hamısı zamanın hökmüdür. Həyatın özü uzun müddət məni istiqamətləndirmişdir. Mən beynəlxalq məsələlərlə məşğul olmağa başladım, parlamentə seçildim. Əlbəttə, Avropa Şurası Parlament Assambleyası sədrinin müavini seçilməyim mənim üçün ən mühüm addım oldu. Hər şey təbii alınırdı. On il ərzində bütün neft layihələri ilə məşğul olmuşam. Buna görə də bütün işlər qaydasınca gedirdi, bu fikir isə beynimə, bəlkə də 2000-ci ildəki parlament seçkilərindən sonra gəldi. Seçkiqabağı kampaniya dövründə partiya siyahısına başçılıq etməyim partiyada aparıcı

mövqedə olduğuma dəlalət edirdi. Bax, elə o zaman mən belə bir imkan barədə düşünməyə başladım.

**S u a l: Çoxları Sizin nə vaxtsa prezident olacağınızı alqışlayır. Lakin bəziləri deyirlər ki, Siz əvvəldən bunun əleyhinə olmusunuz. Bu doğrudurmu?**

**C a v a b:** Xeyr, doğru deyil. Mən həmişə fikirləşmişəm və indi də o fikirdəyəm ki, ən başlıcası bu siyasətin davam etməsidir. Əgər bu vəzifəyə məndən də yaxşı namizəd olsaydı, mən heç bir halda öz namizədliyimi irəli sürməzdim. Mənim üçün, zənn edirəm ki, ölkəmizin əksər vətəndaşları üçün də ən başlıcası indiki siyasətin davam etdirilməsi, indiki vəziyyətin qorunub saxlanmasıdır. Əgər bu gün məni bunun üçün lazımlı adam hesab edirlərsə, bu məsuliyyəti üzərimə götürməyə hazıram. Mən bundan qaçmağa cəhd göstərməmişəm, hərçənd, əlbəttə, çox böyük məsuliyyətdir. Bir var ki, kiçik sahəyə cavabdeh olasan, bir də var bütün ölkəyə. Mənə inanın, bu hisslə yaşamaq o qədər də asan deyildir. Mən çoxlarını tanıyıram ki, mühüm bir vəzifəyə keçən kimi yaxşı tanıdıqları adamlara münasibəti, həyatda baş verən hadisələrə münasibəti tamamilə dəyişmişdir. Mən normal insan kimi qalmaq üçün əlimdən gələni edəcəyəm.

**S u a l: Siz dediniz ki, atanızın vəziyyəti yaxşıdır. Onun səhhəti ilə bağlı son məlumatlar haqqında konkret nə deyə bilərsiniz?**

**C a v a b:** Dünən mən onunla danışdım. Təəssüf ki, bu gün həmin rayonda elektriklə bağlı problemlər olduğundan ona zəng edə bilmədim. Dünən mən həkimlərlə də danışdım. Danışıqların ikisi də çox nikbin oldu. Həkimlər deyirlər ki, Klivlendə gəldiyi gündən onun səhhəti xeyli yaxşılaşmışdır. Böyrəklərindən biri ilə bağlı problem var idi, indi uğurla müalicə olunur. Bunun üçün çox vaxt lazımdır. Bilirəm ki, cürbəcür şayiələr və informasiyalar yayılır ki, bəs sonra nə olacaq, cərrahiyyə əməliyyatı etmək lazım olacaq, yoxsa yox. Həkimlər dedilər ki, terapevtik müalicə aparacaqlar və bu onun tamamilə sağalması üçün kifayət edəcəkdir. Mən bundan çox məmnunam. Ona görə də tələsməyək, gözləyək.

## ABŞ DÖVLƏT KATİBİNİN BİRİNCİ MÜAVİNİ RİÇARD ARMİTACLA GÖRÜŞDƏ SÖHBƏT

*25 avqust 2003-cü il*

*Klivlend klinikasında müalicədə olan Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi ziyarət etmək üçün ABŞ-a qeyri-rəsmi səfərə gəlmiş ölkəmizin Baş naziri İlham Əliyev avqustun 25-də Amerika Administrasiyasının təşəbbüsü ilə Vaşinqtona bir günlük səfər etmiş və dövlət katibinin birinci müavini Riçard Armitacla görüşmüşdür. Görüşdən sonra İlham Əliyev və Riçard Armitac jurnalistlər qarşısında açıqlama vermişlər.*

**R i ç a r d  A r m i t a c:** Mənim üçün şərəf idi ki, bizim dostumuz, Baş nazir İlham Əliyev yenidən Dövlət Departamentindədir. Biz regionda vəziyyəti, eləcə də qarşıdan gələn seçkiləri müzakirə etdik və əlbəttə ki, görüşdən məmnunuq.

**S u a l: Cənab Baş nazir, bugünkü görüşünüz barədə nə deyə bilərsiniz?**

**İ l h a m  Ə l i y e v:** Etiraz etməsəniz, hamının anlaması üçün ingiliscə cavab verərdim. Mən dövlət katibinin birinci müavininə çox minnətdaram. Bir daha bir-birimizi görmək imkanı yaratdı. Mən həmişə Vaşinqtona gələndə bizim görüşlərimiz çox yaxşı keçir. Bu da ona görədir ki, biz tərəfdaşıq, dostuq. Biz birlikdə çox işləyirik ki, regionda təhlükəsizliyi təmin edək. Azərbaycanda demokratik dövlət quruculuğunun davam etdirilməsi üzrə birlikdə çox işləyirik. Münasibətlərimizin gələcəyi haqqında, üzümüzə gələn seçkilər haqqında çox yaxşı söhbətimiz oldu. Bu seçkilər Azərbaycanın gələcək inkişafının müəyyən olunmasında çox önəmlidir. Azərbaycan üçün çox vacibdir ki, seçkilər azad, ədalətli şəraitdə keçsin. Biz hökumət olaraq əlimizdə olan bütün imkanlardan istifadə edəcəyik ki, seçkilərin bu cür keçirilməsi təmin olunsun. Həm də əlavə etmək istərdim ki, bu günə qədər ölkəmizə verdiyi

dəstəyə görə, birgə fəaliyyətimizə görə Birləşmiş Ştatlara minnətdarıq. Bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan bu yöndəki siyasətini davam etdirəcək və gələcəkdə də Birləşmiş Ştatların həqiqi və etibarlı tərəfdaşı olacaqdır.

## KURT UELDONUN BAŞÇILIĞI İLƏ ABŞ KONQRESİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*29 avqust 2003-cü il*

**İ l h a m Ə l i y e v**: ABŞ ilə Azərbaycan arasında ikitərəfli münasibətlər çox sürətlə və hərtərəfli inkişaf edir. Biz müxtəlif sahələrdə əməkdaşlıq edirik və artıq bunun nəticələrini görürük. Amerika hökumətinin dəstəyi olmasaydı, regionda və Azərbaycanda həyata keçirilən böyük enerji layihələrinin reallaşması da mümkün olmazdı.

Bilirsiniz ki, Azərbaycan öz karbohidrogen ehtiyatlarının işlənilməsində böyük uğurlar əldə etmişdir. Ölkəmizin iqtisadiyyatına böyük həcmdə sərmayələr yatırılmışdır və bunun əhəmiyyətli bir hissəsi Birləşmiş Ştatların şirkətlərinin payına düşür. Digər sahələrdə də əməkdaşlığımız yüksək səviyyədədir. Xüsusilə terrora qarşı mübarizədə Azərbaycan ABŞ ilə birlikdədir. İraqdakı son hadisələr zamanı ölkəmiz Birləşmiş Ştatları birmənalı şəkildə dəstəkləmişdir. İndi biz bir koalisiyadayıq və ölkələrimiz arasında mövcud olan əməkdaşlığın daha da inkişaf etdirilməsini arzulayırıq.

Bildiyiniz kimi, bu yaxınlarda Azərbaycanda prezident seçkiləri keçiriləcəkdir. Biz dəfələrlə bəyan etmişik ki, hökumət bu seçkilərin şəffaf və ədalətli şəkildə keçirilməsi üçün əlindən gələni edəcəkdir. Beləliklə, Azərbaycan demokratiya yolunda daha bir böyük addım atacaqdır. Bütün bu məsələləri mən bu yaxınlarda ABŞ-da olarkən müzakirə etdim və indi sizinlə də müzakirə etmək istəyirəm.

**K u r t U e l d o n**: Cənab Baş nazir!

Xoş sözlərə və səmimi qəbula görə Sizə təşəkkür edirəm. Mən çox istərdim ki, Sizi Azərbaycan dilində salamlayım. Təəssüflər olsun ki, Sizin istedadınız məndə yoxdur və beş dildə danışa bilmirəm. Yalnız fransız və rus dillərində bir neçə söz

deyə bilərəm, türk və Azərbaycan dillərində danışmağa isə çətinlik çəkirəm.

Həqiqətən, 5 dildə təmiz danışan və dünya siyasətində xüsusi çəkisi olan Sizin kimi liderlə ilk dəfədir ki, görüşürəm. Beləliklə, həqiqətən, böyük şərəf duyuram ki, dünyamiqyaslı liderlə görüşürəm.

Cənab Baş nazir, bundan əvvəl mən Sizin atanızla da görüşmüşəm və bu, məndə çox böyük təəssürat yaratmışdır. Mən indi də bu təəssüratların təsiri altındayam. Hazırda atanız ABŞ-da müalicədədir. Yalnız bizim qrup deyil, bütün amerikalılar dua edirlər ki, cənab Prezident tezliklə sağalıb Vətənə dönsün. Biz bunun üçün ABŞ-da əlimizdən gələni edirik. Birləşmiş Ştatların ən yaxşı həkimləri onun səhhətinə nəzarət edirlər. Ümid edirəm ki, cənab Prezident tezliklə sağalıb Vətənə dönəcəkdir.

Nümayəndə heyətimizin tərkibindən Sizə məlum olduğu kimi, onun üzvləri arasında həm respublikaçılar, həm də demokratlar partiyalarından konqresmenlər vardır. Onlar Nyu-York, Pensilvaniya, Florida, Texas ştatlarını təmsil edirlər. Bu insanların arasında mühafizəkar, liberal yönümlü siyasətçilər vardır. Lakin hamımızın məqsədi ondan ibarətdir ki, Azərbaycan və Amerika Birləşmiş Ştatları arasında əlaqələrin inkişafında yeni səhifə açaq.

Tanınmış siyasətçi kimi Siz yaxşı bilirsiniz, Amerika Birləşmiş Ştatlarının siyasi sistemi elə qurulmuşdur ki, bizim ölkənin adından yalnız prezident danışa bilir. O olmadıqda, dövlət katibi və yaxud səfir ABŞ-ın mənafelərini təmsil edir. Eyni zamanda, konqresmenlər də Birləşmiş Ştatların adından danışa bilərlər. Bizim sistemə görə, prezident Konqresdən yuxarı səviyyədə deyil, onunla eyni səviyyədədir. Ona görə də biz – konqresmenlər ABŞ-ın adından demək istəyirik ki, Birləşmiş Ştatlarla Azərbaycan arasında münasibətlərin daha da inkişaf etməsi üçün əlimizdən gələni etməliyik.

Bildiyiniz kimi, büdcə məsələləri barədə prezident Konqresə müraciət edir və nə qədər vəsait ayırmağı Konqres özü

müəyyənləşdirir. Yalnız bundan sonra hökumət nə qədər vəsait xərclənəcəyi barədə qərar qəbul edir ki, bu da konqresmenlərin müəyyənləşdirdiyi çərçivədə olur.

Deməliyəm ki, bu günə qədər Konqreslə Azərbaycan parlamenti arasında əlaqələr lazımi səviyyədə olmamışdır. Bir sıra ölkələrin parlamentləri ilə bizim yüksək əlaqələrimiz mövcuddur. On iki il bundan əvvəl mən Rusiya Dövlət Duması ilə əlaqələr yaratmağa başlamışam. Bundan əlavə, bizim Ukrayna Ali Radası ilə, Yaponiya Parlamenti, Almaniya Bundestaqı, İsrail Knesseti ilə yüksək səviyyədə əlaqələrimiz var. Təəssüflər olsun ki, indiyədək Azərbaycan Milli Məclisi ilə əlaqələr istənilən səviyyədə olmamışdır. Amma indi biz bu əlaqələri yaratmışıq. Bu əlaqələrin yaradılması bizim üçün çox vacibdir. Əlaqələrimizin inkişafı üçün xüsusi bir strukturun yaradılmasına ehtiyac vardır. Bu struktur həm də ikitərəfli münasibətlərin qurulmasına məsuliyyət daşımalıdır.

Bizim ölkənin siyasi sisteminin xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, prezident iki dəfədən artıq olmamaqla, 4 il müddətinə seçilir, dövlət katibi isə üç dəfə seçilə bilər. Lakin bizim nümayəndə heyətində elə konqresmenlər vardır ki, artıq 20 ildir bu vəzifəni daşıyırlar. Mənim özüm 17 ildir ki, konqresmenəm. Bu, uzun müddətdir. Həmin müddət ərzində həm ölkəni yaxşı tanımaq olur, həm də uzunmüddətli layihələri həyata keçirmək mümkündür.

Azərbaycan parlamenti ilə yaratdığımız struktur ölkəniz haqqında kifayət qədər məlumatlar toplamağa və fəaliyyətimizi istənilən səviyyədə qurmağa imkan verəcəkdir. Artıq Konqresdə Azərbaycanla əlaqələrə cavabdeh olan bir qurum formalaşmışdır ki, bu, ölkələrimiz arasında əlaqələrin inkişafı üçün böyük əhəmiyyətə malikdir. Bu qurum Azərbaycan haqqında məlumatları öyrəndikdən sonra digər konqresmenləri burada olan vəziyyətlə tanış edəcək və ölkənizə olan maraq daha da artacaqdır. Biz Azərbaycanla əlaqələri inkişaf etdirməyi bundan başlamaq istəyirik.

Mən 17 il bundan əvvəl Konqresə seçilərkən konqresmenlərin bir çoxu Azərbaycanın harada olduğunu xəritədə göstərə bilmirdilər. İndi isə konqresmenlər ölkəniz haqqında kifayət qədər məlumatlıdırlar. Hesab edirəm ki, bizim bu işə kifayət qədər köməyimiz ola bilər. Əgər biz Azərbaycan haqqında ədalətli və düzgün fikir formalaşdıra biləriksə, bu, ölkələrimiz arasında münasibətlərin inkişafında önəmli rol oynayacaqdır.

Biz fəaliyyətimizi bütün sahələrə yönəltməyi planlaşdırırıq. Kənd təsərrüfatı, səhiyyə, təhsil, iqtisadiyyat, ekologiya, müdafiə, mədəniyyət sahələrində əməkdaşlıq olduqca vacibdir. Biz belə hesab edirik ki, ölkələrimizin universitetlərini, təhsil ocaqlarını bir-birinə yaxınlaşdırmalıyıq. Həkimlər arasında praktikanı təkmilləşdirmək üçün onların işbirliyini təşkil etməliyik. Bundan başqa, qeyri-hökumət təşkilatları arasında sıx əlaqələr qurulmalıdır. Bütün bunların həyata keçirilməsi üçün imkanlarımızdan istifadə edərək, lazımi fondların yaradılmasını düşünürük. Bu fondların köməyi ilə ölkənizdə adı çəkilən sahələr lazımi səviyyəyə çatdırılacaqdır.

Cənab Baş nazir, bizim bu səfərimiz tamamilə xalq tərəfindən maliyyələşdirilmişdir. Səfəri maliyyələşdirən "Vətəndaş və İnkişaf Fondu" heç də ABŞ hökumətinin təşəbbüsü ilə bizə vəsait ayırmamışdır. Bu, Konqresin təşəbbüsü ilə ayrılan vəsaitdir və əsas məqsəd ondan ibarətdir ki, biz sizin ölkədə olan tədqiqatçılara yaxından kömək edək və onlar bizim mütəxəssislərlə yeni texnologiyaların inkişafını təmin etmək sahəsində birlikdə işləsinlər. Sizə məlum olduğu kimi, yeni texnologiyaların inkişafı yeni iqtisadi imkanlar deməkdir. Təkrar etmək istəyirəm ki, bu, heç də Ağ evin deyil, Konqresin təşəbbüsüdür. Biz fəaliyyətimizi məhz bu cür imkanlar hesabına qurmaq istəyirik.

Sonda onu bildirmək istəyirəm ki, mənim Moskvada olan həmkarım Adil Bağırov bizi əmin etdi ki, mütləq Azərbaycana səfər etmək lazımdır. Deməliyəm ki, bundan əvvəl biz altı ölkədə olduq, lakin Azərbaycandakı qədər qonaqpərvərlik

görməmişik. Biz burada Amerika ilə möhkəm əlaqələr yaratmaq arzusu ilə rastlaşdıq.

Cənab Baş nazir, liderliyinizə və ölkənizi inkişafa apardığınıza görə Sizə minnətdarlığımı bildirirəm.

**Solomon Ortiz** (*Demokratlar Partiyasından Konqresin üzvü)*: Cənab Baş nazir, mən də səmimi qəbula görə Sizə öz minnətdarlığımı bildirmək istəyirəm. Düşünürəm ki, bu görüş ölkələrimiz arasında münasibətlərin tarixi bir dönəmində baş verir. Hər hansı bir işə başlamazdan əvvəl, ilk addım həmişə çox böyük əhəmiyyətə malikdir. Bu əlaqələri inkişaf etdirməkdə məqsədimiz ölkələrimiz üçün ən vacib məsələləri müəyyənləşdirməkdir. Deməliyəm ki, səfir Ueldon və mən eyni qrupda çalışırıq. Bu, Sinqapur qrupudur. Birləşmiş Ştatlar nəhəng dövlət olmasına baxmayaraq, bizim yalnız dörd ticarət razılığımız vardır. Bunun səbəbi ondan ibarətdir ki, bizə qarşı müxtəlif mənbələrdən müqavimət var. Sinqapurla, Çinlə hər iki tərəfdən razılıq olduğuna görə, biz ticarət müqaviləsi bağlamışıq. Bu ölkələrdən əlavə, Rumıniya və Tayvanla olan ticarət əlaqələrimizi digər ölkələrə də şamil etmək istərdik.

Bizim aramızda oxşarlıq ondan ibarətdir ki, mənim seçildiyim Texas ştatında da həm dəniz, həm də neft vardır. Biz ölkələrimiz arasındakı münasibətlərin mümkün qədər möhkəmlənməsini istəyirik.

Cənab Baş nazir, bir daha Sizə təşəkkür edirəm.

**Kurt Ueldon**: Cənab Baş nazir, bir daha bu görüşə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Bilirəm ki, Sizin vaxtınız çox məhduddur, lakin bu sözləri Sizə çatdırmağı lazım bildik.

Sizi yeni təyinatınız münasibətilə bir daha təbrik edirəm. Biz bilirik ki, Siz bu vəzifənin öhdəsindən layiqincə gələcəksiniz. Əminəm, bir çox ölkələrin xalqları arzulayırlar ki, onların da Sizin kimi bacarıqlı, beş dildə danışa bilən, müxtəlif mövzulara dair geniş bilgilərə malik, geniş dünyagörüşlü bir lideri olsun. Hesab edirəm ki, bu sarıdan Azərbaycan xoşbəxt ölkədir, çünki bu ölkəyə Sizin kimi lider qismət olmuşdur. Azərbaycan indi

tarixi bir dövrünü yaşayır. Ölkənizin yeni bir dövrə qədəm qoyduğu bir vaxtda xalqınıza məhz Sizin kimi lider lazımdır. İnanıram ki, Siz Azərbaycana layiqincə xidmət edəcək, ölkənizə atanız qədər sadiq olacaqsınız, onun inkişafını təmin edəcəksiniz. Xüsusilə, seçkilər ərəfəsində Sizin kimi bacarıqlı və savadlı adamın ölkəyə rəhbərlik etməsi böyük əhəmiyyət daşıyır. İnanıram ki, qarşıdakı seçkilər də yüksək səviyyədə keçəcəkdir.

Yenə də hamımız bu görüşə görə Sizə minnətdarlığımızı bildiririk və atanızın tezliklə sağalması üçün dua edirik.

**İlham Əliyev**: Çox sağ olun. İcazə versəniz, mən bildiyim dillərin birində, çox sevdiyim ingilis dilində cavab verərdim. Xoş sözlərinizə, atam haqqındakı sözlərinizə görə minnətdarlığımı bildirirəm. O, indi Birləşmiş Ştatlarda müalicədədir. Azərbaycan xalqı, bizim ailəmiz və mən bu çətin günlərdə ona göstərilən qayğıya görə Birləşmiş Ştatlara minnətdarıq. Prezidentin səhhəti yaxşılığa doğru dəyişir, o, çox yaxşı müalicə alır. Biz ümid edirik ki, tezliklə Vətənə qayıdacaqdır. Azərbaycanın ona ehtiyacı var və bundan sonra da uzun illər boyu ehtiyacı olacaqdır. Məhz onun liderliyi sayəsində müasir ölkə, müasir Azərbaycan yarandı.

Siz dediniz ki, altı ölkədə olmusunuz və Azərbaycan onların arasında sizə ən yaxşı təəssürat bağışlayıbdır. Təsəvvür edə bilərsiniz ki, biz bunu eşitməkdən nə qədər qürur hissi keçiririk. Bunların hamısı cənab Prezidentin liderliyi, onun fəaliyyəti nəticəsində başa gəlmişdir və bütün bunlar tariximizin çox cətin, bəzən dramatik və təhlükəli dönəminə təsadüf edirdi. Ümidvarıq ki, həmin cətin, qeyri-sabit və qarmaqarışıq dövr, iqtisadi və sosial böhran həmişəlik olaraq keçmişdə qalacaqdır. Biz gələcəyə nikbin baxırıq, müasir, sivil, demokratik ölkə qurmaq üçün yaxşı potensialımız, möhkəm iradəmiz lazımdır. Mənim haqqımda söylədiyiniz sözlərə görə sizə çox minnətdaram. Dediklərinizmənim üçün çox önəmlidir və fəaliyyətim boyu çalışacağam ki, mənə inanan adamları daim sevindirim.

Cənab konqresmen, siz ABŞ Konqresinin rolunu qeyd etdiniz. Biz Konqresin nə dərəcədə vacib rol oynadığını bilirik və hesab edirik ki, onunla qarşılıqlı münasibətlər, əlaqələr və anlaşma çox vacibdir. Birləşmiş Ştatların hökuməti ilə də bizim çox gözəl münasibətlərimiz var. Son zamanlar həyata keçirilən birgə tədbirlər bizim nə dərəcədə yaxın olduğumuzu və Azərbaycanın etibarlı tərəfdaş olduğunu nümayiş etdirir.

Lakin keçmişdə, Azərbaycan hələ yenicə müstəqil dövlət kimi tanındıqda ABŞ-da bizim haqqımızda kifayət qədər məlumat yox idi. Bundan əlavə, bəziləri, yumşaq desək, Azərbaycana dost münasibətləri olmayanlar, bəzi lobbiçilər bizim tanınmağımızda çox mənfi rol oynadılar. Bilirik ki, Konqresin hər dəfə qəbul etdiyi qərarı dəyişmək nə dərəcədə çətindir. Mən 907-ci maddəni nəzərdə tuturam. Buna görə də bütün bu müddət ərzində biz çalışmışıq ki, Birləşmiş Ştatlar Konqresi ilə münasibət yaradaq, bizim mövzumuzu, mövqeyimizi onun gündəliyinə gətirək. Bu nöqteyi-nəzərdən bu gün burada baş verən hadisə, özünüzün dediyiniz kimi, tarixi andır. Bu gün iki parlament arasında əlaqələrin yeni mərhələsi başlayır. Biz bu əlaqələrin gələcəyinə nikbin baxırıq. Əminəm ki, Konqres üzvləri ilə Milli Məclis üzvlərinin birbaşa münasibətləri daha çox anlaşıqlığa səbəb olacaqdır. Düşünürəm ki, ölkəmizə nəyin lazım olduğu, məqsədimizin nədən ibarət olduğu, hansı yolda olduğumuz başa düşüləcəkdir.

Bu qrupun geniş səpkidə fəaliyyət göstərmək, yəni bizim üçün adi, gündəlik xarakter daşıyan işlərlə yanaşı, kənd təsərrüfatından təhsilə qədər digər sahələrlə də məşğul olmaq niyyəti bizi ruhlandırır. Hesab edirəm ki, birgə məqsədlərə nail olmaq üçün əlbir işləməyin böyük potensialı vardır.

Vaxt tapıb ölkəmizə gəldiyinizə görə bir daha sizə minnətdarlığımı bildirmək istəyirəm. Belə səfərlər nə qədər çox olarsa, insanlarımız, qanunverici orqanların üzvləri bir-birlərini daha çox anlayarlar. Birləşmiş Ştatlarla münasibətlər Azərbaycan üçün ən böyük prioritet təşkil edir. ABŞ bizim üçün strateji tərəfdaşdır. Bu seçimi biz on il bundan əvvəl etmişik və

bu müddətdə etibarlı tərəfdaş olduğumuzu yalnız sözdə deyil, əməli işdə də sübuta yetirmişik. Biz göstərmişik ki, Birləşmiş Ştatlarla dost ölkəyik.

Bir daha sağ olun, sizə uğurlar arzulayıram.

## GÖRÜŞDƏN SONRA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

**S u a l: İlham müəllim, cənab Prezidentlə bağlı son məlumatları öyrənmək istərdik. Belə bir xəbər yayılıb ki, guya Gülhanədə müalicəni gecikdiriblər. Bu doğrudurmu?**

**C a v a b:** Cənab Prezidentin səhhəti günü-gündən yaxşılaşır, müalicə davam edir. Ancaq hələ müalicəyə ehtiyac vardır. Yaxşılığa doğru çox müsbət dəyişikliklər müşahidə olunur. Mən də bir neçə gün Amerikada olarkən cənab Prezidentlə birlikdə idim, onunla bütün məsələləri müzakirə edirdik, onun üçün videomateriallar aparmışdım. Bu, Azərbaycanın xalq mahnılarından ibarət idi. Hər şey yaxşı gedir, narahatlığa heç bir əsas yoxdur. İnanıram ki, yaxın vaxtlarda cənab Prezident Vətənə dönəcəkdir. Hesab edirəm ki, o, sağlamlığını tam bərpa edib Vətənə dönməlidir, müalicəni yarıda saxlamaq lazım deyildir.

**S u a l: Siz ABŞ-da apardığınız danışıqlarda Dağlıq Qarabağla bağlı məsələləri müzakirə etdinizmi?**

**C a v a b:** Əlbəttə, bu barədə söhbətimiz olmuşdur. ABŞ bu məsələyə çox ciddi yanaşır. Biz hamımız başa düşürük ki, bu problem həll olunmasa, regionda sülhdən söhbət gedə bilməz. Regionda sülhün yaranması həm bizim üçün, həm Ermənistan üçün, həm də ABŞ üçün lazımlıdır. Əminəm ki, Birləşmiş Ştatlar bu istiqamətdə öz səylərini davam etdirəcəkdir. Yəqin ki, seçkilərdən sonra hər hansı bir real addımlardan söhbət gedə bilər.

**S u a l: İlham müəllim, növbəti əfv fərmanından sonra Avropa Şurası Parlament Assambleyasında münasibət necə olacaqdır?**

**C a v a b:** Yəqin ki, yaxşı olmalıdır. Əlbəttə, əfv fərmanı bizim tərəfimizdən atılan böyük bir addımdır. Hər dəfə belə bir addım atılanda Avropa Şurası bunu qiymətləndirir. Hesab edirəm ki, münasibət yaxşı olmalıdır.

**S u a l: İlham müəllim, apardığınız seçkiqabağı video-materiallardan cənab Prezidentin xoşu gəldimi?**

**C a v a b:** O, təkcə seçkiqabağı materiallar deyildir. Bizim mahnılarımız, Azərbaycanda bəzi hadisələrin videoyazıları onun xoşuna gəlmişdir.

**S u a l: Ola bilərmi ki, YAP-ın iki namizədindən biri könüllü olaraq öz namizədliyini geri götürsün və yaxud YAP-dan vahid namizəd kimi Siz seçiləsiniz?**

**C a v a b:** Mən hesab edirəm ki, seçkilərdə vahid namizəd kimi Heydər Əliyev iştirak edəcəkdir. Məndə buna tam əminlik vardır. Əsas məsələ odur ki, onun səhhəti buna imkan versin. Mən əminəm ki, səhhəti buna imkan verəcək, həkimlərin rəyi də məhz belədir.

## FRANSA SENATININ QAFQAZ ÜZRƏ DOSTLUQ QRUPUNUN SƏDRİ AMBRUAZ DÜPONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*1 sentyabr 2003-cü il*

**İ l h a m  Ə l i y e v:** Hörmətli qonaqlar, Azərbaycana xoş gəlmisiniz. Fransa Senatının Qafqaz qrupunun fəaliyyəti bizə bəllidir. Biz bu fəaliyyəti çox yüksək qiymətləndiririk və ölkələrimiz arasında mövcud olan dostluq, mehribanlıq münasibətlərinin formalaşmasında sizin əməyiniz çox böyükdür.

Ümumiyyətlə, ölkələrimiz arasında münasibətlər çox yüksək səviyyədədir. Biz müxtəlif sahələrdə əməkdaşlıq edirik. Azərbaycan və Fransa prezidentləri arasında da dostluq münasibətləri mövcuddur və bu, ölkələrimizi daha da yaxınlaşdırır.

Fransa həm də ATƏT-in Minsk qrupunun həmsədridir və təbii ki, bu qrupun fəaliyyətində böyük rol oynayır. İstərdik ki, Fransanın Minsk qrupunda rolu bundan sonra da yüksək səviyyədə olsun. Biz bilirik ki, sizin ölkəniz bu məsələnin həllində böyük səy göstərir və bu səy yəqin ki, bundan sonra da davam edəcəkdir. Əlbəttə, bizim böyük ümidlərimiz vardır ki, ATƏT-in Minsk qrupunun həmsədri olan ölkələrin, o cümlədən Fransanın səyləri nəticəsində yaxın zamanlarda bu münaqişəyə son qoyula bilər.

Fransa şirkətləri Azərbaycanda çox geniş fəaliyyət göstərir. Bir çox iri fransız şirkətləri neçə ildir ki, Azərbaycanda bizimlə sıx əməkdaşlıq edir. Biz bu əməkdaşlığı çox uğurlu hesab edirik və Fransa şirkətlərinin buradakı fəaliyyətindən çox məmnunuq. İstərdik ki, gələcəkdə bu fəaliyyət daha da genişlənsin.

**A m b r u a z  D ü p o n:** Səmimi qəbula görə Sizə təşəkkür edirik. Biz buraya Fransa Senatının Fransa-Azərbaycan dostluq qrupu çərçivəsində səfərə gəlmişik.

Cənab Baş nazir, Siz Fransa-Azərbaycan dostluq qrupunun fəaliyyətini çox yüksək qiymətləndirdiniz. Mən də öz növbəmdə dostluq qruplarının fəaliyyəti barədə danışmaq istərdim. Azərbaycan tərəfindən dostluq qrupuna rəhbərlik edən xanım Gülər Əhmədova bizim qrupu çox yaxşı məlumatlandırır və biz onun fəaliyyətindən çox razıyıq. Eyni zamanda, biz bilirik ki, Azərbaycan hazırda seçkiqabağı dövr yaşayır. Fransa seçkiqabağı prosesləri diqqətlə izləyir və bu seçkilərin keçirilməsinə çox diqqətlə yanaşır.

Qeyd etməliyəm ki, ölkələrimiz arasında dostluq əlaqələri yalnız parlamentlər arasında münasibətlərdən ibarət deyildir. Bu əlaqələr ən yüksək səviyyədə həyata keçirilir. Bildiyiniz kimi, prezident Jak Şirakla cənab Heydər Əliyev arasında olan dostluq münasibətləri çox yüksək səviyyədədir. Təbii ki, biz atanızın səhhətinin tezliklə yaxşılaşmasını arzulayırıq.

Siz, eyni zamanda, Minsk qrupunun fəaliyyətinə toxundunuz və bu qrupun Ermənistanla Azərbaycan arasında olan münaqişənin aradan qaldırılması sahəsində görə biləcəyi işlərdən danışdınız. Ermənistanda və Azərbaycanda seçkilərlə əlaqədar münaqişənin həlli prosesi bir qədər dayandırıldı. İnanırıq ki, seçki prosesi başa çatdıqdan sonra Minsk qrupu öz fəaliyyətini yenidən davam etdirəcəkdir.

Fransa prezidenti Jak Şirak, Fransa Senatının sədri Kristian Ponsle bu məsələyə çox diqqətlə yanaşırlar. Cənab Ponsle Cənubi Qafqazın hər üç ölkəsinin parlament sədrlərinin görüşlərini təşkil etmişdir və bu ilin sonuna qədər yeni bir görüş təşkil etmək fikrindədir. Bundan başqa, o, bu ilin sonunda Bakıya səfər edəcəkdir. Bu səfərdən əvvəl o, üç ölkənin parlament sədrləri ilə şəxsən görüşməyi təklif etmişdir. Beləliklə, biz bu münaqişənin həll edilməsi üçün əlimizdən gələn köməyi göstərməyə hazırıq. Bilirik ki, Siz də bu problemin tezliklə həll olunmasında maraqlısınız. Bildiyiniz

kimi, dostluq qrupu Azərbaycanla mütəmadi olaraq əlaqələr saxlayır. Bu, iki il ərzində mənim buraya dördüncü səfərimdir. Sonuncu dəfə mən Fransanın dövlət katibi ilə birlikdə ölkənizə səfərə gəlmişdim. Bu səfər iqtisadi məsələlər üzrə müştərək komissiyanın fəaliyyəti ilə bağlı idi.

Deməliyəm ki, biz ölkələrimiz arasında iqtisadi əməkdaşlığa çox mühüm əhəmiyyət veririk. Bu sahədə bağlanmış ikitərəfli saziş bizi çox sevindirir. Eyni zamanda, biz digər sahələrdə əldə olunmuş razılaşmalara da böyük önəm veririk.

Mən ölkələrimiz arasında mövcud olan əməkdaşlığın iki vacib sahəsini vurğulamaq istərdim. Bunlardan birincisi, ölkə iqtisadiyyatının çoxşaxəli inkişafı, yəni, diversikasiyasıdır. Bu, cəmiyyətdə tarazlıq yaradılması üçün çox vacib bir amildir. Bizim əhəmiyyətli hesab etdiyimiz ikinci əməkdaşlıq sahəsi mədəniyyətdir.

Xüsusilə biz burada mədəniyyət mərkəzinin yaradılmasını nəzərdə tuturuq. Bu sahədə iqtisadi inkişaf naziri Fərhad Əliyev bizə çox böyük kömək göstərir. Bunun üçün biz Sizə təşəkkür edirik. Mədəniyyət sahəsində digər bir layihə 2004-cü ilin sentyabr ayında Senatın binasında keçiriləcək rəsm sərgisidir. Bu sərgi vasitəsilə biz Azərbaycan incəsənətini təbliğ etmək məqsədi güdürük.

Mən fərəh hissi ilə demək istəyirəm ki, çox yüksək səviyyəli nümayəndə heyəti ilə yenidən Bakıya gəlmişəm. Onları təqdim etmək istəyirəm. Senator Bertran Oban Fransa müxalifətinin sosialist fraksiyasına daxildir, cənab Andre Düye Senatın xarici işlər, müdafiə və silahlı qüvvələr komissiyasının sədridir. O, bu regiona çox yaxşı bələddir, Mərkəzi Asiyanı və Sizin ölkənizin yerləşdiyi regionu yaxşı tanıyır. Senator Patris Jelar isə Senatın qanunvericilik komissiyası sədrinin birinci müavinidir. Gördüyünüz kimi, nümayəndə heyətimiz bütün sahələri təmsil edir. Təqdim etdiyim son iki senator parlament çoxluğunu təmsil edən qrupa daxildir.

Cənab Baş nazir, bizi qəbul etdiyinizə görə bir daha Sizə təşəkkür edirik. Ölkənizdə olduğumuz iki gün ərzində çox

faydalı görüşlər keçirmişik və bundan sonra da müxtəlif nazirlərlə görüşlərimiz olacaqdır. Demək istəyirəm ki, bu səfərlər nəticəsində ölkənizi daha yaxşı tanıyırıq. Məqsədimiz Azərbaycan haqqında məlumatları Fransa ictimaiyyətinə çatdırmaqdan ibarətdir.

**İ l h a m  Ə l i y e v:** Ətraflı məlumat üçün sizə təşəkkürümü bildirirəm. Mən bilirəm ki, artıq siz neçə gündür ki, ölkəmizdə səfərdəsiniz və hələ bir neçə gün də burada olacaqsınız.

Dünən siz Quba şəhərində olmusunuz və hələ digər maraqlı görüşlər də keçirəcəksiniz. Sizə səfərinizin uğurla başa çatmasını arzulayıram.

## “KAZMUNAYQAZ” ŞİRKƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*2 sentyabr 2003-cü il*

**T i m u r  K u l i b a y e v** (*Nümayəndə heyətinin rəhbəri, “KazMunayQaz” şirkətinin birinci vitse-prezidenti*):

Hörmətli cənab Baş nazir!

Vaxt ayırıb bizi qəbul etdiyiniz üçün Sizə minnətdarlığımızı bildiririk. Biz bilirik ki, Sizin iş cədvəliniz çox gərgindir.

Qısaca olaraq Sizə Qazaxıstan və Azərbaycan prezidentlərinin tapşırığı ilə neftin və qazın nəqlinə dair görülən işlər barədə məlumat vermək istərdik. Nümayəndə heyətimizin üzvü cənab Kabıldin işçi qrupu çərçivəsində danışıqlar aparır. Deməliyəm ki, biz qarşıya qoyulmuş məsələlərin yerinə yetirilməsi sahəsində ciddi irəliləyiş əldə etmişik.

**İ l h a m  Ə l i y e v:** Biz cənab Kabıldinlə bu danışıqlar çərçivəsində Londonda görüşmüşük. Mən sizi salamlayıram, Azərbaycana xoş gəlmisiniz, sizin gəlişinizə çox şadıq.

Deməliyəm ki, bu danışıqlar hələ ötən ilin dekabrında başlayıbdır. Onda biz ilk dəfə birgə görüş keçirdik. Sonra razılığa gəldik ki, bu görüşlər daimi əsaslarla Qazaxıstanda və Azərbaycanda davam etdiriləcəkdir.

Son zamanlara qədər mən özüm bu prosesin fəal iştirakçısı idim. Bu layihənin dövlətlərimiz üçün böyük əhəmiyyəti olduğunu nəzərə alaraq bundan sonra da onun həyata keçirilməsində fəal iştirak edəcəyəm. Düşünürəm ki, layihə təkcə neft şirkətləri üçün deyil, ümumilikdə dövlətlərimizin gələcəyi üçün çox vacibdir.

Çox məmnunam ki, bu proses Qazaxıstan və Azərbaycan arasında qarşılıqlı anlaşma şəraitində davam edir. Bizdə Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisində əməli nəticələr əldə olunmuşdur. Bu yaxınlarda Natiq Əliyevlə neft kəmərinin

tikintisinin aparıldığı yerə baş çəkdik. Kabinetdə oturub danışmaq, qərarlar qəbul etmək, müzakirələr aparmaq məsələnin bir tərəfidir, tozun içərisində və qızmar çöldə tikinti işləri ilə bilavasitə tanış olmaq isə məsələnin digər tərəfidir. Deməliyəm ki, bu gün orada bizim gələcək inkişafımızın təməli qoyulur.

Əlbəttə, bu sahədə sizin ölkənizlə aparılan danışıqlar böyük əhəmiyyət kəsb edir. Düşünürəm ki, artıq bir sıra nailiyyətlər əldə etmişik. Biz ölkələrimizin potensialını təhlil edərək bütün bu məsələləri təfərrüatı ilə müzakirə edəcəyik.

Sağ olun, sizə uğurlar arzulayıram.

## BÖYÜK BRİTANİYA PARLAMENTİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*3 sentyabr 2003-cü il*

**İ l h a m Ə l i y e v:** Hörmətli lord Caner, hörmətli dostlar, Böyük Britaniya parlamentinin üzvləri, sizi səmimi- qəlbdən salamlayıram, "Azərbaycana xoş gəlmisiniz!" deyirəm.

Ölkələrimiz arasında mövcud olan münasibətlər çox yüksək səviyyədədir. Biz bir çox sahələrdə uğurlu əməkdaşlıq edirik. Xüsusilə neft və qaz sektorunda Britaniya şirkətlərinin Azərbaycana kapital qoyuluşunun həcmi çox yüksəkdir. Bu bizi çox sevindirir. Böyük Britaniya şirkətləri Azərbaycan üçün, region üçün, bizim gələcəyimiz üçün çox mühüm layihələrdə aparıcı rol oynayırlar.

Siyasi məsələlərdə də münasibətlərimiz çox yüksək səviyyədədir. Azərbaycan Respublikası Prezidentinin Böyük Britaniyaya rəsmi səfərindən sonra bu münasibətlər yeni pilləyə qalxmışdır. Ümidvaram ki, həm siyasi, iqtisadi məsələlərdə, həm də iki ölkəni birləşdirən digər məsələlərdə əlaqələrimiz daha da inkişaf edəcəkdir. Biz bunu Avropa Şurasının sessiyalarında, komitələrində, komissiyalarında əyani şəkildə görürük. Böyük Britaniyanın nümayəndələri ilə çox uğurlu əməkdaşlıq edirik və deyə bilərəm ki, Azərbaycan, region üçün çox vacib olan məsələ – Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə məruzəçi də məhz Böyük Britaniyanın nümayəndəsidir. O vaxt bir neçə namizəd irəli sürülmüşdü və məhz Azərbaycan nümayəndə heyətinin təkidi ilə Böyük Britaniya parlamentinin üzvü cənab Devid bu vəzifəyə təyin olunmuşdur. Baxmayaraq ki, ilkin mərhələdə Ermənistan nümayəndə heyəti buna etiraz etmişdi.

Bir sözlə, ölkələrimiz arasında olan münasibətlər bizi qane edir. Biz, sadəcə, bu münasibətlərin daha da gücləndirilməsini,

genişləndirilməsini istəyirik. Beləliklə, iki ölkə bir-biri ilə daha yaxınlaşa bilər və əminəm ki, belə də olacaqdır.

**L o r d  C a n e r** (*Nümayəndə heyətinin rəhbəri*, *Dünya Yəhudilər Konqresinin vitse-prezidenti*): Cənab Baş nazir, Sizə çox minnətdarıq. Ölkənizdə bizi çox hərarətli və səmimi qarşılayıblar. Baş nazir vəzifəsinə yüksəlməyiniz münasibətilə Sizi təbrik etmək istəyirik. Yəqin bizim Baş nazir də Sizə deyər, bu, heç də asan bir iş deyildir.

Biz Azərbaycan Prezidentinin ölkəmizə rəsmi səfərini çox yaxşı xatırlayırıq. Bu, həqiqətən çox uğurlu bir səfər idi. Sizdən xahiş edirik ki, bizim salamlarımızı prezident Heydər Əliyevə yetirəsiniz. Biz onun tezliklə sağalmasını və Vətənə dönməsini arzu edirik.

Sizin kimi biz də əlaqələrimizin inkişafından çox məmnunuq. Böyük Britaniya ilə Azərbaycan arasında əlaqələr bütün sahələrdə sürətlə inkişaf edir. Bizim sözlərimizi xüsusilə sənaye sahəsində çalışanlar daha çox təsdiq edərlər. Dünən biz *BP* şirkətinin nümayəndələri ilə görüş keçirdik. Onlar burada neft sənayesinin inkişafında iştirak etməkdən çox məmnundurlar. Çox şadıq ki, bu görüşdə bizi Böyük Britaniyanın səfiri müşayiət edir. Eyni zamanda, Sizin ölkənin Birləşmiş Krallıqdakı səfiri haqqında da xoş sözlər demək istəyirəm. O, Azərbaycanın mənafeyi üçün çox yaxşı fəaliyyət göstərir və mənim yaxın dostuma çevrilmişdir. Cənab Baş nazir, biz Sizə lordlar və icmalar palatalarının hədiyyələrini təqdim etmək istəyirik.

**İ l h a m  Ə l i y e v:** Hədiyyələrə görə sizə təşəkkür edirəm, çox sağ olun. Bunlar mənim üçün çox əzizdir. Hesab edirəm ki, sizin Azərbaycana səfəriniz ölkələrimizi daha da yaxınlaşdıracaqdır.

Siz çox düzgün qeyd etdiniz ki, *BP* şirkəti ilə Azərbaycan arasında artıq 10 ilə yaxındır davam edən əməkdaşlıq bizim üçün çox vacibdir və bir çox məsələlərdə ölkəmizin iqtisadi gələcəyini təmin edəcəkdir.

Azərbaycan xarici sərmayələr üçün açıq bir ölkədir. Bu bizim prezidentin siyasətidir, onun tərəfindən həyata keçirilən neft strategiyasının tərkib hissəsidir. Yəqin siz də bilirsiniz ki, bizim ölkədə xarici vətəndaşlar özlərini çox sərbəst, rahat hiss edirlər, onların işləməsi və yaşaması üçün çox gözəl şərait vardır. Xalqımız çox qonaqpərvərdir və xarici ölkələrin vətəndaşlarına böyük hörmətlə yanaşır.

Mən bilirəm ki, sizin proqramınızda bölgələrə səfərlər də nəzərdə tutulmuşdur. Əminəm ki, bu səfərlər də nümayəndə heyətinizin üzvləri üçün çox maraqlı olacaqdır. Biz istəyirik ki, Azərbaycan hərtərəfli inkişaf etsin. Əlbəttə, sərmayələrin gəldiyi əsas yer Bakıdır, neft sənayesidir. Ancaq biz çox maraqlıyıq ki, Azərbaycanın hər bir bölgəsi inkişaf etsin, ölkəmizin hər bir vətəndaşı aparılan böyük işlərin nəticəsini hiss etsin. Əminəm ki, bu, belə də olacaqdır.

**L o r d  C a n e r:** Cənab Baş nazir! Siz bildirdiniz ki, ölkənizin hər bir vətəndaşının həyata keçirilən böyük işlərdən bəhrələnməsini istəyirsiniz. Deməliyəm ki, burada olduğumuz müddətdə biz, həqiqətən, ölkənizdəki inkişafa valeh olmuşuq. Eyni zamanda, Azərbaycanda mövcud olan tolerantlıqdan da çox məmnun qalmışıq, bu bizi çox valeh etdi. Nümayəndə heyətimizin üzvləri ilk yəhudi məktəbinin açılışında iştirak etdilər. Burada biz gördük ki, həqiqətən, ölkənizdə dinlər arasında əməkdaşlıq mövcuddur. Baxmayaraq ki, Azərbaycanda əhalinin əksəriyyətini müsəlmanlar təşkil edirlər. İstərdim ki, bütün ölkələr bu məsələdə Sizdən nümunə götürsünlər və müxtəlif dinlər bir-birinə qarşı bu dərəcədə dözümlü olsunlar. Əgər belə olarsa, onda biz dünyanı daha da gözəlləşdirərik və həyat asan olar.

## ATƏT-in MİNSK QRUPUNUN RUSİYADAN YENİ TƏYİN OLUNMUŞ HƏMSƏDRİ YURİ MERZLYAKOV İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*5 sentyabr 2003-cü il*

**İ l h a m Ə l i y e v:** Sizi bu məsul vəzifəyə təyin olunmağınız münasibətilə təbrik edirəm. Bilirsiniz ki, Azərbaycanda biz ATƏT-in Minsk qrupunun fəaliyyətini böyük ümidlə izləyirik, yaxşı nəticələr gözləyirik. Gözləyirik ki, Minsk qrupu münaqişənin ədalətlə nizama salınmasına uyğun ola biləcək təkliflər irəli sürsün.

İndi heç kimə sirr deyil ki, Azərbaycan ərazisi işğal edilmiş ölkədir. Lakin XXI əsrdə, Azərbaycanın və Ermənistanın MDB, Avropa Şurası kimi beynəlxalq təşkilatların üzvü olduğu, dünya strukturlarına inteqrasiya etdiyi bir dövrdə işğal vəziyyətinin davam etməsi yolverilməzdir.

Yəqin bilirsiniz ki, son vaxtlar Minsk qrupunun məsələnin əməli surətdə həllindən özünü, bir növ, kənara çəkməyə çalışması ilə əlaqədar cəmiyyətimizdə müəyyən məyusluq mövcuddur. Elə bil Minsk qrupu hər iki tərəfə özlərinin razılığa gəlməsini təklif edir ki, sonra tərəflər üçün məqbul olan qərar çıxarsın.

Əlbəttə, iki ölkənin prezidentləri arasında danışıqlar aparılması müsbət amildir. Biz bunu alqışlayırıq və ümidvarıq ki, ikitərəfli görüşlər gələcəkdə də davam etdiriləcəkdir. Lakin Minsk qrupunun, onun həmsədrlərinin fəal iştirakı olmadan məsələni həll etmək çətin olacaqdır. Ona görə ki, bizə məlum olduğu kimi, Ermənistanın mövqeyi beynəlxalq hüquq normalarına qətiyyən məhəl qoymamaqdan, reallığın qanunilikdən üstün olduğunu sübut etməyə can atmaqdan ibarətdir. Bizim mövqeyimiz isə beynəlxalq hüquq normalarına tamamilə əməl olunmasına, o cümlədən Azərbaycanın ərazi

bütövlüyünün qorunub saxlanmasına və bərpa edilməsinə əsaslanır. Biz bu prinsiplərdən kənara çəkilməyəcəyik. Hesab edirik ki, yalnız bu prinsiplərə əməl olunduğu təqdirdə münaqişə öz müsbət həllini tapa bilər.

Ermənistanın guya üstünlüyə malik olduğu barədə təsəvvür yaratmağa çalışması bizi çox narahat edir. Təbii ki, biz bunu qəbul etmirik və etməyəcəyik. Üstünlüklərə gəldikdə, hesab edirəm ki, onlar xəyalidir. Əgər atəşkəs vaxtından bəri ölkələrin inkişafına nəzər salsaq, görərik ki, bu dövr ərzində Azərbaycan iqtisadiyyatda, siyasətdə çox böyük uğurlara nail olmuşdur. Ölkəmiz tərəfdaşları ilə birlikdə iri beynəlxalq, regional layihələr həyata keçirir, Azərbaycan gələcəkdə inkişaf üçün böyük perspektivlərə malikdir. Halbuki bizim məlumatımıza görə, Ermənistanda elə bir xüsusi iqtisadi nailiyyət yoxdur, ölkə regional layihələrdən kənarda qalmışdır. Əlbəttə, ərazilərimiz işğal edilmişdir, bizdə bir milyondan çox qaçqın-köçkün var. Bu, həm mənəvi, həm də iqtisadi baxımdan olduqca böyük problemdir. Lakin biz onu həll edirik, Ermənistanın təcavüzü nəticəsində qaçqın-köçkün vəziyyətinə düşmüş insanların sosial vəziyyətini yaxşılaşdırmağa çalışırıq.

Ona görə də demək istəyirəm ki, münaqişənin həlli həm Azərbaycan üçün, həm də Ermənistan üçün vacibdir. Hər iki tərəf onun dincliklə həlli üçün səy göstərməlidir. Biz münaqişənin sülh yolu ilə həllinə tərəfdarıq.

Prezidentimiz bunu dəfələrlə nəzərə çarpdırmışdır və bu, üstünlük təşkil edən siyasətdir, ictimai rəy də buna köklənmişdir. Buna baxmayaraq, başa düşdüyünüz kimi, biz Azərbaycan ərazilərinin işğal altında olması ilə razılaşa bilmərik. Ona görə də belə düşünürəm ki, bu prosesdə sizin rolunuz, Rusiyanın rolu çox vacibdir. Bizim üçün çox xoşdur ki, son illər ölkələrimiz arasında səmimi münasibətlər yaranmışdır. Prezidentlər arasında – Vladimir Putin ilə Heydər Əliyev arasında çox səmimi münasibətlər yaranmışdır. Biz bunu yüksək qiymətləndiririk. Son üç ildə ölkələrimiz bir çox sahələrdə – siyasət sahəsində də, iqtisadiyyat sahəsində də böyük

uğurlara nail olmuşlar. Ona görə də bu amil münaqişənin nizama salınması prosesində Rusiyanın daha fəal iştirak edəcəyində də, yəqin ki, mühüm rol oynayacaqdır.

Mən Sizə uğurlar arzulamaq istəyirəm. Başa düşürəm ki, bu, adi bir vəzifə deyildir. Minsk qrupunun fəaliyyətinin bir nəticə verəcəyinə böyük ümidlər bəslənilir. Sizə və özümüzə arzu etmək istəyirəm ki, biz nizamasalma prosesində problemin həllinə nail ola bilək.

**Y u r i  M e r z l y a k o v:** İlham Heydəroviç, arzularınıza görə çox sağ olun. Mən də, öz tərəfimdən, Sizi Baş nazir vəzifəsinə təyin olunmağınız münasibətilə təbrik etmək istəyirəm. Prezident Heydər Əliyeviçin tezliklə sağalmasını da arzu etmək istəyirəm. Yadımdadır, mən dörd il əvvəl İqor Sergeyeviçin nümayəndə heyətinin tərkibində Bakıda olarkən o, gözəl əhval-ruhiyyədə idi. Biz hamımız şad idik ki, Heydər Əliyeviç cərrahiyyə əməliyyatından sonra özünü yaxşı hiss edir. Onun iradəsinin gücünə heyran idik.

**İ l h a m  Ə l i y e v**: Sağ olun.

**Y u r i  M e r z l y a k o v**: Mən Xəzərin statusu məsələsi ilə uzun müddət məşğul olmuşam, biz Sizinlə Kembricdə, Vaşinqtonda, İstanbulda və Hyüstonda konfranslarda görüşmüşük. Çıxışlarınızı xatırlayıram, onlar çox ölçülüb-biçilmiş çıxışlar idi.

O vaxt Rusiya–Azərbaycan münasibətlərinin inkişafı barədə auditoriya tərəfindən suallar, hətta fitnəkar xarakterli suallar verilirdi. Siz bu vəziyyətlərdən layiqincə çıxırdınız. Məni ruhlandıran budur ki, Xəzərlə bağlı ilk vaxtlar mövqelərimizdə fərq olmasına baxmayaraq, heç kimin mənafelərinə xələl gətirməyən bir variant tapmaq mümkün oldu. Heç kim öz prinsipial mövqelərindən geri çəkilmədi və indi onları daha heç kəs xatırlamır. Başlıcası, məsələnin həllidir. İnanıram ki, indi mənə tapşırılan məsələdə də məhz belə olacaqdır.

Mənim səfərim sırf tanışlıq xarakteri daşıyır. Bu məsələnin tarixini dərindən bilməyimlə öyünə bilmərəm, üstəlik, təcrübədən bilirəm ki, bir neçə dəfə gəlib-getməkdənsə, müasir

vəziyyətdən başlamaq, sonra isə tarixi öyrənmək daha yaxşıdır. Zənnimcə, bu səfər mənə çox şeyi öyrənməyə imkan verəcəkdir. Bu gün mən parlamentin sədri, xarici işlər nazirinin müavini ilə görüşdüm. Bilirəm ki, tezliklə Moskvada Mironovla, öz tərəfdaşlarımla və qonşularınızla, Ermənistan parlamentinin sədri ilə görüşəcəyəm. Bu, problemin həllinə kiçik bir töhfə verməyə kömək edəcəkdir. Görünür, bir neçə gündən sonra Ermənistanda da görüşlər olacaqdır. Bundan sonra həmkarlarıma, daha təcrübəli həmsədrlərə burada görüşlərimin necə keçdiyi barədə məlumat vermək istərdim. Çalışacağam ki, bu məlumat obyektiv olsun. Düşünürəm ki, ölkənizdə prezident seçkilərindən sonra buraya gəlməyimiz məsələsi qarşıya çıxacaqdır. Məncə, bu səfər təxminən noyabr-dekabr aylarında faydalı olacaqdır. Həmkarlarım mənə dedilər ki, hansısa yeni ideyalar var. Sentyabrın 15-də Vyanada onlarla görüşdə, yəqin ki, məni bu ideyalarla tanış edəcəklər. Bundan sonra hər iki tərəfə bir şey təklif edə biləcəyik.

Perspektiv təxminən belədir. Sentyabrın 30-da üçlükdə biz vəziyyət barədə ATƏT-in indiki sədrinə məlumat verəcəyik. Odur ki, Azərbaycanda prezident seçkilərindən sonra həmsədrlər Sizinlə görüşməyə hazır olacaqlar. Əgər görüşlərin vaxtı barədə Sizin hər hansı təklifləriniz varsa, mən onları həmkarlarıma çatdırmağa hazıram.

**İ l h a m  Ə l i y e v:** Təbrikə görə, habelə Prezidentə sağlamlıq diləyinə görə Sizə təşəkkür etmək istəyirəm. Mən sizin xatirələrinizi dinlədim, doğrudan da, 1999-cu ildə cərrahiyyə əməliyyatından dərhal sonra o, işə fəal girişdi. Təbii ki, ruh yüksəkliyi də, iradəsi də, orqanizmi də ona bütün işlərlə fəal məşğul olmağa imkan verirdi və indi də imkan verir. İndi onun səhhəti normaldır, tibbi müalicə çox yaxşı nəticələr verir, sağalma prosesi gedir. Fürsətdən istifadə edərək Azərbaycan Prezidentinin ABŞ-a gedə bilməsi üçün xüsusi təyyarə verdiyinə görə Rusiya rəhbərliyinə, Vladimir Vladimiroviç Putinə təşəkkürümü bildirmək istərdim. Mən çox minnətdaram. Görünür, burada hansısa bir rəmzi məna var – Azərbaycan

Prezidenti Türkiyədən Amerikaya Rusiya təyyarəsində getmişdir. Bunu təsadüf kimi də qəbul etmək olar, lakin mən burada daha böyük məna görürəm. Bu onu göstərir ki, siyasətimiz, dostlarla, tərəfdaşlarla, – Rusiya isə –bizim üçün strateji tərəfdaşdır, – qarşılıqlı münasibətlərimiz nəticəsində çox mehriban qonşuluq münasibətlərinə nail olmuşuq. Biz həmişə bütün ölkələrlə əməkdaşlıq etməyə çalışırıq. İstəyirik ki, Azərbaycan rəqabət yeri deyil, məhz əməkdaşlıq yeri olsun. Ona görə də bu xahişi Sizin vasitənizlə çatdırmaq istəyirəm.

O ki qaldı əməli fəaliyyətə, əlbəttə, ilk vaxtlar bütün məsələləri öyrənmək lazım gələcəkdir. Çox yaxşıdır ki, siz buraya gəldiniz, mövqeyimizi öyrəndiniz. Əlbəttə, bu görüşün, Ermənistanda keçirəcəyiniz görüşlərinizin nəticələri əsasında sizdə bu münaqişənin nədən ibarət olduğu barədə təsəvvür yaranacaqdır. Amma belə düşünürəm ki, keçmiş vəziyyətləri nəzərə almadan, düzgün bir qərar tapmaq çətin olacaqdır. Biz bəzən Ermənistan tərəfindən belə təkliflər eşidirik ki, gəlin, iqtisadi əməkdaşlıq edək, münaqişə isə bir tərəfdə qalsın. Biz buna getməyəcəyik. İşğal olunmuş ərazilər azad edilməyincə, Ermənistanla iqtisadi əməkdaşlıqdan söhbət gedə bilməz.

Şəxsən mən hər hansı qeyri-formal əlaqələri də alqışlamıram. Əlbəttə, hökumət qeyri-hökumət təşkilatlarının fəaliyyətinə təsir göstərə bilməz, xüsusən də ona görə ki, onları bəzən xaricdən maliyyələşdirirlər. Amma şəxsən mən bu fikirdəyəm ki, münaqişə həll olunmayınca, ərazilərimiz azad edilməyincə vətəndaşlarımız hər hansı şəkildə əlaqə saxlaya bilməz və saxlamamalıdır, mədəni xarakterli hər hansı məsələləri, mətbuatla bağlı məsələləri, xüsusən də iqtisadi xarakterli məsələləri müzakirə edə bilməz və etməməlidirlər. Mən bunun əleyhinəyəm. İlk öncə, problemi həll etmək lazımdır, bundan sonra isə digər sahələrdə əməkdaşlıq etmək də olar.

## XƏZƏR DƏNİZ GƏMİÇİLİYİNİN YENİ İNŞA EDİLMİŞ "PROFESSOR ƏZİZ ƏLİYEV" TANKERİNİN İSTİSMARA VERİLMƏSİ VƏ MİLLİ PARKDA TİKİLMİŞ YAXT-KLUBUN AÇILIŞI MÜNASİBƏTİLƏ KEÇİRİLMİŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ ÇIXIŞ

*5 sentyabr 2003-cü il*

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün Azərbaycanda bayramdır. Azərbaycan üçün, ölkəmiz üçün iki mühüm hadisə baş verir. Professor Əziz Əliyevin adını daşıyan tanker istismara verilir, eyni zamanda, Azərbaycanda gözəl Yaxt-klub açılır. Hər iki hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm.

Xəzər Dəniz Gəmiçiliyinin fəaliyyəti son illər ərzində çox yüksək səviyyəyə qalxıbdır. Gəmiçilik tərəfindən həyata keçirilən böyük tədbirlər öz əyani nəticələrini verməkdədir. Çox sevindirici haldır ki, gəmiçilik öz vəsaiti hesabına öz donanmasını yeniləşdirib, yeni avadanlıq alınır, o cümlədən yeni gəmilər, tankerlər alınır. Mənim üçün çox əzizdir ki, bu tanker görkəmli dövlət xadimi, gözəl alim, qayğıkeş həkim, mənim babam Əziz Əliyevin adını daşıyır.

Belə gəmilərə Azərbaycanın görkəmli şəxsiyyətlərinin adlarının verilməsi çox müsbət haldır. Gəmiçilik tərəfindən alınan birinci gəmiyə maestro Niyazinin adı verilib, ondan sonra alınacaq tankerin adı "Cəlil Məmmədquluzadə" olacaqdır. Bilirəm ki, Gəmiçiliyin planlarında digər iri tankerlər alınması da vardır. İnanıram ki, onlara da Azərbaycanın tarixində mühüm rol oynamış şəxslərin adları veriləcəkdir.

Bu tankerin istismara verilməsi, hesab edirəm, təkcə Gəmiçilik üçün deyil, bütün iqtisadiyyatımız üçün çox önəmli bir hadisədir. Bu, Heydər Əliyevin neft strategiyasının tərkib

hissəsidir. Heydər Əliyevin neft strategiyası çoxşaxəlidir, çox istiqamətlərdən ibarətdir. Təbii ki, ilkin mərhələdə əsas vəzifə Azərbaycana xarici sərmayə gətirmək, Azərbaycanın bütün maraqlarını nəzərə almaq və qorumaq şərti ilə xarici şirkətlər üçün gözəl şərait yaratmaq və beləliklə, ölkəmizdə neft sənayesini canlandırmaq idi. Bu mərhələ uğurla başa çatdı və artıq Azərbaycan adambaşına düşən xarici sərmayələrin qoyuluşuna görə MDB ölkələri arasında birinci yerlərdədir.

Azərbaycan neft hasil edən elə ölkədir ki, onun dünya bazarlarına açıq çıxışı yoxdur. Belə olan halda, təbii ki, neft kəmərlərinin tikilməsi zəruridir. Çox çətin bir şəraitdə, iqtisadi, siyasi və digər çətinliklərlə üzləşməsinə baxmayaraq, Heydər Əliyevin iradəsi ona imkan verdi ki, Azərbaycan qısa bir müddət ərzində bir neçə neft kəmərinin tikilməsinə nail oldu. Bakı–Novorossiysk, Bakı–Supsa neft kəmərləri vasitəsilə Azərbaycan nefti dünya bazarlarına çatdırılır. İndi isə Bakı–Tbilisi–Ceyhan kimi nəhəng, irimiqyaslı, dünya üçün önəmli neft kəməri çəkilməkdədir. Heydər Əliyevin neft strategiyasının təntənəsi budur.

Bu strategiyanın bir tərkib hissəsi də Azərbaycanı tranzit ölkəyə çevirməkdən ibarət idi. Çünki Azərbaycan neft-qaz hasil edən ölkəyə çevrilib, gələcəkdə çıxarılacaq neftin həcmi 50 milyon tona çatacaqdır. Bəlkə ondan da çox olacaqdır. Amma, eyni zamanda, Azərbaycan öz coğrafi vəziyyətindən istifadə edərək, başqa ölkələr üçün tranzit ölkəyə çevrilir.

Əlbəttə, bu tankerin əsas vəzifəsi Xəzər dənizinin şərqində yerləşən yataqlardan çıxarılan nefti Bakıya çatdırmaqdır, ondan sonra neft Şərq–Qərb dəhlizi vasitəsilə dünya bazarlarına göndəriləcəkdir. Bu işlər getdikcə daha da genişlənəcəkdir. Artıq Qazaxıstan ilə gələcək əməkdaşlıq haqqında danışıqlar aparılıbdır. Danışıqların nəticələri çox müsbətdir və yaxın gələcəkdə, yəqin ki, Qazaxıstandan və başqa ölkələrdən Azərbaycan vasitəsilə daşınan yüklərin, o cümlədən neft məhsullarının, xam neftin həcmi artırılacaqdır.

Ümumiyyətlə, Azərbaycanda nəqliyyat infrastrukturu genişlənir, güclənir. Əlbəttə, bunun əsas səbəbi ondadır ki, Azərbaycanın iqtisadiyyatı çox sürətlə, hərtərəfli inkişaf edir. Nəqliyyatla bilavasitə məşğul olan idarələr, qurumlar, şirkətlər yeni pilləyə qalxıblar. Dəmir yolu idarəsində çox müsbət dəyişikliklər baş verir, çox böyük işlər görülübdür. Dübəndi neftdoldurma terminalı tikilib istifadəyə verilibdir. Yüzdən artıq sistern alınıb istifadəyə buraxılıbdır. Bakı–Gəncə, Bakı–Mingəçevir, Bakı–Astara, Bakı–Dərbənd sərnişin qatarları istifadəyə verilibdir. Lokomotiv deposunda gözəl təmir-bərpa işləri aparılıbdır. Dəmir-beton şpallar zavodu istifadəyə verilibdir və digər işlər görülübdür. Bütün bunlar Azərbaycan üçün lazımdır, vacibdir. Əminəm ki, gələcəkdə də işlər bu istiqamətdə davam etdiriləcəkdir.

"Azərbaycan Hava Yolları" Dövlət Konserninin xəttilə böyük işlər görülübdür. Bakının hava limanı ən müasir standartlara cavab verən şəkildə tikilib istifadəyə verilibdir. Yerli xətlərlə məşğul olan qurum işini çox yüksək səviyyədə saxlaya bilib və Bakıda köhnə hava limanının inzibati binası və aerovağzal kompleksi demək olar ki, tamamilə sökülərək, əvəzinə yeni müasir bina tikilib istifadəyə verilibdir.

Naxçıvanda yeni aerovağzal kompleksi və hava limanı tikilir. Prezidentin göstərişi ilə inşa olunan hava limanı ən yüksək standartlara cavab verəcəkdir. Eyni zamanda, orada dünyada ən böyük təyyarələrin, o cümlədən yük təyyarələrinin qalxıb-enməsinə imkan verən uçuş zolaqları olacaqdır. Bu da təbiidir. Çünki blokada şəraitində yaşayan, Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan daim cənab Prezidentin diqqət mərkəzindədir və hökumət də daim oraya diqqət göstərir və bundan sonra da göstərəcəkdir.

"Azərbaycan Hava Yolları" Dövlət Konserninin xəttilə iki "Boinq-757" təyyarəsi alınıbdır. İndi vertolyot parkı yeniləşdirilir. Fransadan ən müasir vertolyotlar alınır ki, bunlar da Azərbaycanda həm neftçilərə xidmət edəcək, həm də müvafiq qurumlara gözəl kömək olacaqdır.

Azərbaycanda avtomobil yolları kreditlər, daxili imkanlar vasitəsilə yeniləşir, təzə yollar salınır. Bakı-Qazax avtomobil yolu Gürcüstan sərhədinədək ən yüksək səviyyədə inşa edilir. Gələcəkdə Bakı–Astara yolunun inşası nəzərdə tutulur. Başqa yollar da ən yüksək, müasir standartlara uyğun şəkildə təmir olunacaq və yenidən tikiləcəkdir.

Bütün bunlar onu göstərir ki, Azərbaycanda nəqliyyat infrastrukturu güclənir, yeniləşir və əlbəttə, bu, ölkəmiz üçün çox vacib bir amildir, gələcəyimiz üçün çox mühüm bir haldır. Azərbaycan Şərq–Qərb nəqliyyat dəhlizi layihəsinin iştirakçısıdır və bu dəhliz vasitəsilə artıq böyük işlər görülübdür. Eyni zamanda, Şimal–Cənub dəhlizinə də qoşulmaq niyyətindəyik. Hesab edirik, bu da ölkəmizə böyük uğurlar gətirəcəkdir.

Bir sözlə, Heydər Əliyevin siyasəti, müdrikliyi, uzaqgörənliyi bizə imkan verib ki, XXI əsrin əvvəllərində Azərbaycan dünya üçün mühüm neft-qaz hasil edən ölkəyə çevrilib, eyni zamanda, mühüm tranzit məntəqəsinə çevrilibdir.

Əziz dostlar, biz bu gün idman qurğusunun da açılışını edirik. Bu gözəl Yaxt-klub idmançıların sərəncamına verilir. Hesab edirəm ki, təkcə yelkənli qayıq idmanı növü üzrə federasiyasının nümayəndələri deyil, eyni zamanda, digər idman növləri ilə məşğul olanlar bu gözəl Yaxt-klubdan səmərəli istifadə edəcəklər. Bu da ən yüksək müasir, dünya standartları səviyyəsində yaradılmışdır. Ümumiyyətlə, Azərbaycanda son illər ərzində görülən bütün işlər yüksək səviyyədədir.

Azərbaycanda idman inkişaf edir, bundan sonra da inkişaf edəcəkdir. Gözəl maddi-texniki baza yaradılır. İdmançılarımız beynəlxalq yarışlarda çox böyük nəticələr göstərirlər, ölkəmizi təbliğ edirlər, bayrağımızı qaldırırlar. Mən buna görə onlara minnətdaram. Mən federasiyalara minnətdaram ki, onlar Milli Olimpiya Komitəsinin təşəbbüsünü dəstəkləyərək, özləri də müvafiq idman qurğuları tikməyə başlayıblar. Biz bu gün yelkənli qayıq idmanı növü üzrə federasiyanın idman kompleksini açırıq.

Bundan əlavə, Azərbaycanda taekvondo, voleybol, həndbol, otüstü xokkey, stend atıcılığı və başqa federasiyalar da özləri üçün müvafiq idman kompleksləri tikirlər. Bu, çox müsbət haldır. Əminəm ki, digər federasiyalar da bu təşəbbüsə qoşulacaqlar. Beləliklə, Azərbaycanda qısa müddət ərzində idmanda böyük bir dönüş yarada bildik. Hesab edirəm ki, bizim gözəl imkanlarımız var ki, Azərbaycan qarşıdan gələn Afina yay Olimpiya oyunlarında da yüksək nəticələr qazana bilsin. Mən buna əminəm. Bizim idmançılarımızın nəticələri bunu göstərir. Qısa müddət ərzində idmançılarımız bir neçə növ üzrə dünya çempionu olublar. Bu, çox müsbət haldır. Əlbəttə, bu bizim hamımızın – Milli Olimpiya Komitəsinin, Gənclər, İdman və Turizm Nazirliyinin, müvafiq federasiyaların, idmançıların, onların məşqçilərinin işinin nəticəsidir. Mən çox şadam ki, Azərbaycanda idmana cavabdeh olan bütün qurumlar vahid komanda şəklində çıxış edirlər. Əminəm ki, bundan sonra da belə olacaqdır. İdmançılarımız gələcəkdə də idman yarışlarında Azərbaycanın şərəfini daim yüksək tutacaqlar.

Mən bir məsələyə toxunmaq istəyirəm. Bəlkə də bunun yeri deyil, amma istəyirəm fikrimi sizə çatdıram. İndi biz prezident seçkiləri ərəfəsindəyik. Əlbəttə, hər bir namizəd üçün imkan verilib ki, öz fikrini camaata çatdırsın. Bu, çox müsbət haldır. Amma arzum budur ki, hərə gördüyü işlər haqqında danışsın. Başqa adamların gördüyü işləri öz adına çıxmasın.

Dünən namizədlərin biri fərəhlə deyirdi ki, 1992-ci ildə guya onların səyləri nəticəsində Nazim Hüseynov Olimpiya çempionu olubdur. Nazim Hüseynov buradadır. O, doğrudan da 1992-ci ildə Olimpiya çempionu olubdur. Amma inanmıram ki, bir ay hakimiyyətdə qalan insanların buna köməyi dəysin. Təklifim budur ki, hərə gördüyü işlərə görə qiymət almalıdır. Sabah ola bilər, deyəcəklər ki, bu Yaxt-klubun da təməlini onlar 1992-1993-cü ildə qoyublar. Necə ki, indi deyirlər ki, Bakı–Ceyhanın təməlini, sən demə, 1993-cü ildə onlar qoymuşlar. Nə Bakı–Ceyhan haqqında, nə cüdo idman növü haqqında, ümumiyyətlə, onların təsəvvürü belə yoxdur. İdman nədir, onlar bilmirlər.

Təəssüf edirəm ki, müxalifətdə on il qalmalarına baxmayaraq, sivil, mədəni, siyasi mübarizə üsullarını  qavraya bilməyiblər.

Nazim Hüseynov görkəmli idmançıdır, 1992-ci ilin yayında, avqust ayında çempion olmuşdur. O vaxtkı iqtidar iki ay ondan əvvəl hakimiyyətə gəlmişdi, iki ayda Nazimi belə gözəl hazırlamışdılar? Eyni zamanda, onunla birlikdə gimnast üzrə Belenki var idi. Moskvada olur.

Əlbəttə, idmançının idman ömrü uzun olmur, qısa olur. Nazim də idmanı tərk etdi.

Mən Milli Olimpiya Komitəsinə rəhbərlik etməyə başlayanda Nazimi qiyabi olaraq tanıyırdım, onun haqqında eşitmişdim. Onu dəvət etdim, idmana qaytardım, ona gözəl şərait yaratdım. Onun yaşayış şəraitini yaxşılaşdırdım. Onu bizim milli yığma komandaya təhkim elədim və o, bütün məşqlərdə öz nüfuzundan, peşəkarlığından istifadə edərək, milli komandaya böyük töhfə verir, böyük xidmət edir. İşlə təmin olunmasında kömək etdim.

Bilirəm, indi onun arzusu var. Bir idman bölməsi, yəni, cüdo üzrə bir məktəb yaratsın. Bu istiqamətdə də ona kömək göstəriləcəkdir. Nazim mənim təklifimlə Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü seçilibdir. Mən bunların heç birini bu vaxta qədər deməmişdim və deməyəcəkdim də. Çünki bu mənim borcumdur. Milli Olimpiya Komitəsinin prezidenti kimi mənim borcumdur. Təkcə indi yarışlarda iştirak edən idmançılara yox, ilk növbədə, veteran idmançılara, xüsusilə, Azərbaycanın şöhrətini qaldıran idmançılara qayğı göstərmək mənim borcumdur və mən də bunu edirəm.

Çünki mən başa düşürəm ki, onların idman ömrü qısa olur. İdmanla məşğul olan dövrdə bütün səylərini qoyur, özlərini, bütün qəhrəmanlığını göstərirlər. İdmandan gedəndən sonra bəzi hallarda unudulurlar. Amma bizdə, Azərbaycanda unudulmurlar. O cümlədən Nazim də unudulmur. Onun qələbəsini öz xidməti kimi təqdim edən insanlara məsləhətim odur ki, doğrudan da getsinlər kiməsə əl tutsunlar. Hansısa daşı

daş üstünə qoysunlar. Azərbaycan üçün bir faydalı iş görsünlər. Təəssüflər olsun ki, biz bunları hələ görmürük.

Əziz dostlar, bir sözlə, bu gün Azərbaycanda çox gözəl bir gündür, idman bayramıdır. İki gözəl hadisə baş veribdir. Bu Yaxt-klub eyni zamanda şəhərin – Bakının sakinləri üçün də açıq olacaqdır. O, Bakının memarlığına da gözəl bir töhfədir. Hər tərəfdən, daxildən də, bayırdan da görürsən ki, Yaxt-klub çox gözəl memarlıq üslubu ilə tikilmişdir. Mən hər ikisinə – tankerə də, bu Yaxt-kluba da uğurlar arzulayıram. Azərbaycanın gələcəyi çox gözəl olacaqdır. Mən bu gələcəyə nikbinliklə baxıram. Azərbaycan hərtərəfli, sürətlə inkişaf edir, iqtisadiyyatımız yüksəlir. Siyasi müstəvidə, beynəlxalq aləmdə ölkəmiz böyük uğurlar əldə edibdir və əminəm ki, bundan sonra da əziz cənab Prezidentin rəhbərliyi altında biz yeni qələbələrə, yeni uğurlara doğru birlikdə gedəcəyik. Sağ olun.

## ÇİN XALQ RESPUBLİKASI ALİ XALQ PROKURORLUĞUNUN BAŞ PROKURORU SZYA ÇUNVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*6 sentyabr 2003-cü il*

**İ l h a m   Ə l i y e v**: Çin Xalq Respublikası Ali Xalq Prokurorluğunun Baş prokuroru hörmətli cənab Szya Çunvan, hörmətli qonaqlar!

Mən sizin hamınızı səmimi-qəlbdən salamlayıram, «Azərbaycana xoş gəlmisiniz!» – deyirəm.

Çinlə Azərbaycan arasında münasibətlər son illər ərzində çox sürətlə inkişaf edir. Xüsusilə, Azərbaycan Respublikasının prezidenti cənab Heydər Əliyevin Çin Xalq Respublikasına rəsmi səfərindən sonra bu münasibətlər yeni pilləyə qalxmışdır. Ölkələrimiz arasında əlaqələr inkişaf edir, Azərbaycanla Çin arasında geniş ticarət əlaqələri mövcuddur. Çindən ölkəmizə böyük həcmdə mal idxal olunur. Əlbəttə, biz çox istərdik ki, iki ölkə arasında iqtisadi əlaqələr genişlənsin və hər iki tərəf üçün fayda versin.

Çox sevindirici haldır ki, son illər ərzində Çindən olan şirkətlər Azərbaycanın neft sektoruna maraq göstərirlər. Artıq iki şirkət ölkəmizdə fəaliyyət göstərir.

Azərbaycanda neft sektoru Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsi nəticəsində çox sürətlə inkişaf edir. Bu sahəyə böyük həcmdə sərmayələr qoyulmuşdur, dünya üçün əhəmiyyətli, irimiqyaslı layihələr həyata keçirilir. Əlbəttə, biz çox şadıq ki, Çini təmsil edən neft şirkətləri də bu layihələrə qoşulurlar və Azərbaycana böyük həcmdə sərmayələr qoyurlar. Azərbaycanda xarici sərmayəçilər üçün gözəl şərait yaradılmışdır və əminəm ki, Çinin neft şirkətləri də bu şəraitdən səmərəli istifadə edəcəklər.

Çox sevindirici haldır ki, Çin Xalq Respublikası Ali Xalq Prokurorluğunun Azərbaycan Respublikasının Prokurorluğu ilə gözəl münasibətləri vardır. Bildiyimə görə, müvafiq əməkdaşlıq haqqında sazişlər imzalanmışdır və hesab edirəm ki, bu əlaqələr gələcəkdə də inkişaf etməlidir.

**S z y a  Ç u n v a n:** Cənab Baş nazir, icazənizlə, bizi Nazirlər Kabinetində qəbul etdiyiniz üçün Çin Xalq Respublikası Ali Xalq Prokurorluğunun heyəti adından və şəxsən öz adımdan, habelə Çinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri cənab Çjan Siyunun adından Sizə təşəkkürümü bildirim. Mənim səfərim Azərbaycan Respublikasındakı həmkarım cənab Baş prokurorun dəvəti ilə həyata keçirilir. Səfərimin əsas məqsədi ölkənizin hüquq sahəsi ilə, o cümlədən prokurorluq sistemi ilə yaxından tanış olmaq və təcrübə mübadiləsi aparmaqdan ibarətdir. Səfərimin digər əsas məqsədi iki ölkə arasında hüquq-məhkəmə sahəsində əlaqələri və münasibətləri gələcəkdə daha da genişləndirməkdir.

Bu mənim Azərbaycan Respublikasına ilk rəsmi səfərimdir. Səfərin ilk günündən Azərbaycan prokurorluğunun və digər rəsmi orqanların rəhbərlərinin qayğıkeş münasibətinin şahidi olmuşam. Artıq iki gündür ki, Bakı şəhərindəyəm və paytaxtınızın görməli yerləri ilə tanış olmuşam. Azərbaycan xalqının Çin Xalq Respublikasına, ümumiyyətlə, Çin xalqına münasibəti ilə də yaxından tanış olmuşam və bu münasibətdən böyük şərəf hissi duyuram.

Cənab Baş nazir, bildiyiniz kimi, səfər çərçivəsində dünən biz Çin Xalq Respublikasının Ali Xalq prokurorluğu ilə Azərbaycan Respublikasının Baş Prokurorluğu arasında əməkdaşlığa dair saziş imzalamışıq. Ölkələrimiz və xalqlarımız arasındakı münasibətlər uzun tarixə malikdir. İki ölkənin sıx dostluq münasibətləri vardır.

1992-ci ilin aprelində Çinlə Azərbaycan arasında diplomatik münasibətlər yaranmışdır və bundan sonra ikitərəfli əlaqələr daim inkişaf etmiş və möhkəmlənmişdir. Azərbaycan Respublikasının prezidenti cənab Heydər Əliyevin 1994-cü ildə

Çinə rəsmi səfəri, habelə Çin Xalq Respublikası parlamentinin sədri cənab Li Penin Azərbaycana səfəri bu münasibətlərin daha da yüksək zirvəyə qaldırılmasına təkan vermişdir.

Qeyd etdiyiniz kimi, ölkələrimiz arasında iqtisadiyyat və ticarət sahələrində əlaqələrimiz genişləndirilir. Bu əlaqələrin inkişaf etdirilməsi və daha yüksək pilləyə qaldırılması ölkələrimizin xalqlarının maraqlarına tam cavab verir.

Cənab Baş nazir, bildiyiniz kimi, artıq 20 ildir ki, Çin Xalq Respublikasında müxtəlif sahələrdə, o cümlədən iqtisadiyyat və ticarət sahələrində mühüm islahatlar həyata keçirilir. Bir neçə ildir ki, Çin iqtisadiyyatının artımı 7,3 faiz təşkil edir. İslahatların keçirildiyi dövrdə biz sənayeni və ticarəti, bütün digər müvafiq sahələri inkişaf etdiririk, bu zaman yüksək texnologiyalardan istifadə olunur. Nəticədə ölkəmizin iqtisadiyyatı gündən-günə güclənir.

Çin Xalq Respublikasının Konstitusiyasına əsasən, ölkəmizin Baş Prokurorluğu və prokurorluq orqanları nəzarət funksiyasını həyata keçirirlər. Onlar öz fəaliyyətini gündən-günə gücləndirir, ölkəmizdə sabitliyi qoruyur və inkişafı təmin edir. Konstitusiyaya əsasən, prokurorluq Çin qanunlarının digər dövlət orqanları tərəfindən icrasının təmin olunmasına nəzarət edir.

Çinin Ali Xalq Prokurorluğu ölkədə sabitliyi qorumaqla yanaşı, mənfi hallara, o cümlədən cinayətkarlığa qarşı mübarizə aparır və bu sahədə digər ölkələrin təcrübəsini öyrənməkdən şərəf duyur. Biz digər ölkələrin təcrübəsini öyrənməyə və ondan istifadə etməyə hazırıq. Azərbaycan Respublikası ilə də əməkdaşlığı möhkəmləndirməyə daim hazırıq.

Deməliyəm ki, səfərimiz çox uğurlu keçir. Azərbaycan Respublikasının Prokurorluğu çox gözəl səfər proqramı tərtib etmişdir və onun müvəffəqiyyətlə keçməsi üçün hər cür imkan yaratmışdır. Nümayəndə heyətimiz Azərbaycanın Konstitusiya Məhkəməsinin sədri, Ali Məhkəmənin sədri, Ədliyyə naziri ilə görüşlər keçirmişdir və biz bu görüşlərdə çoxlu faydalı məlumatlar toplamışıq.

Cənab Baş nazir, mən Çin Xalq Respublikası Baş nazirinin salamlarını, həmçinin Azərbaycan Respublikasının Baş naziri təyin edilməyiniz münasibətilə onun təbriklərini Sizə çatdırmaq istəyirəm.

Sonda mən Azərbaycan Respublikasının cənab Heydər Əliyevin rəhbərliyi altında gələcəkdə daha çox nailiyyətlər qazanması arzularımı çatdırmaq istəyirəm. Sizin ölkəniz bu nailiyyətləri əldə edəcək, Azərbaycan xalqı firavan həyat sürəcəkdir. Bizim prokurorluq orqanları, ümumilikdə xalqlarımız arasında olan dostluq münasibətləri gələcəkdə daha da inkişaf edəcək, genişlənəcəkdir.

**İ l h a m Ə l i y e v:** Xahiş edirəm, səmimi təbrikə görə cənab Baş nazirə mənim minnətdarlığımı bildirəsiniz. Əminəm ki, ölkələrimiz gələcəkdə bir-birinə daha da yaxın olacaqdır. Biz Çinlə iqtisadi, siyasi və digər sahələrdə əlaqələrin genişləndirilməsində çox maraqlıyıq, Azərbaycan hökuməti bundan sonra da bu istiqamətdə əməli işlərlə məşğul olacaq və əminəm ki, biz birlikdə böyük nailiyyətlər qazanacağıq.

Son 20 il ərzində Çin Xalq Respublikasında aparılan iqtisadi islahatlar bizə məlumdur, bundan xəbərimiz vardır. Biz görürük ki, bu islahatlar ölkənizə və xalqınıza nə qədər xeyir gətirmişdir. Sizin keçdiyiniz yol bir çox ölkə üçün nümunədir və qazandığınız uğurlar bir daha göstərir ki, bu yol düzgün seçilmişdir.

Yəqin ki, ölkənizdə hökm sürən ictimai-siyasi sabitlik, asayiş bütün bu uğurlar üçün gözəl zəmin yaratmışdır. Prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda da böyük işlər görülmüşdür. İqtisadi islahatlar həyata keçirilmiş və bunun nəticəsində ölkəmiz iqtisadi baxımdan çox sürətlə inkişaf edir. Deyə bilərəm ki, bizdə də ümumi daxili məhsulun həcmi ildən-ilə artır. Son 6 ildə bu, orta hesabla 64-65 faiz təşkil etmişdir. Əminəm ki, gələcəkdə də bu islahatlar Heydər Əliyevin rəhbərliyi altında davam etdiriləcəkdir. Azərbaycanda da hökm sürən ictimai-siyasi sabitlik, asayiş iqtisadi uğurlarımızın əsas səbəblərindən biridir və hesab edirəm ki, bu cəhətdən ölkələrimiz

arasında çox oxşar məqamlar vardır. Ona görə də biz bütün sahələrdə bir-birimizin təcrübəsini öyrənməkdə, ölkələrimizin daha da yaxınlaşmasında və mühüm əhəmiyyət kəsb edən işlər görülməsində maraqlıyıq.

## AZƏRBAYCANIN BAŞ NAZİRİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ İŞGÜZAR SƏFƏRİ

*Ankara*

*8 sentyabr 2003-cü il*

*Azərbaycan Respublikasının Baş naziri İlham Əliyev Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə sentyabrın 8-də Ankaraya işgüzar səfərə gəlmişdir.*

*Azərbaycan Respublikasının Baş naziri İlham Əliyevin işgüzar səfəri çərçivəsində Türkiyə Respublikası Baş nazirinin müavini, xarici işlər naziri Abdullah Güllə, Türkiyə Respublikasının prezidenti Əhməd Necdət Sezər ilə və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanla görüşmüşdür.*

*Səfər çərçivəsində ölkələrimiz arasında qarşılıqlı viza tətbiqi haqqında saziş imzalanmış, Azərbaycanın Baş naziri İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan bəyanatla çıxış etmiş və jurnalistlərin suallarına cavab vermişlər.*

### RƏCƏB TAYYİB ƏRDOĞANIN BƏYANATI

Hörmətli mətbuat nümayəndələri!

Azərbaycandan gəlmiş hörmətli mətbuat nümayəndələri!

Azərbaycanın Baş naziri hörmətli İlham Əliyevin yeni vəzifəsində ilk rəsmi səfərini Türkiyəyə etməsindən böyük məmnunluq duyuram. Bu səfəri ölkələrimiz arasında mövcud olan əlaqələrin inkişafında yeni bir addım kimi dəyərləndirirəm. Eyni zamanda, dəyərli dövlət xadimi Azərbaycan prezidenti Heydər Əliyevə cansağlığı arzularımı yenidən çatdırmaq istəyirəm.

İstər təkbətək görüş, istərsə də heyətlərarası görüşlər keçirdik. Beynəlxalq və ikitərəfli münasibətlərimizə dair məsələlər ətrafında çox səmərəli və faydalı fikir mübadiləsi apardıq.

Türkiyə və Azərbaycan arasında mövcud olan qardaşlıq əlaqələri gücünü dərin tarixi və mədəni mənbələrdən, din birliyindən almaqdadır. Bütün bunlara əsasən, biz indiyə qədər bu şəkildə, yəni bir millət, iki dövlət kimi əməkdaşlıq etmişik. Bu sağlam təməl üzərində bütün sahələrdə inkişaf edən əməkdaşlıqla ikitərəfli əlaqələrimiz bugünkü mükəmməl səviyyəyə yüksəlmişdir.

Ölkələrimiz arasında əlaqələrin davamlı şəkildə və xalqlarımızın mənafeyi naminə nəticələr verməsi, bütün səviyyələrdəki əməkdaşlığın qarşılıqlı anlaşma və yardım təməlində davam etməsi çox böyük əhəmiyyət kəsb edir. Türkiyə və Azərbaycan arasında uğurla davam edən münasibətlərlə yanaşı, beynəlxalq sahədə də güclü bir əməkdaşlıq mövcuddur.

On ildən artıq bir müddətdə öz ədalətli həllini tapmayan Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ən başlıca problemlərindən biridir. Türkiyə torpaqları Ermənistan tərəfindən işğala məruz qalmış Azərbaycana həmişə dəstək vermişdir. Bu problemin həlli məqsədi ilə Türkiyə bundan sonra da Azərbaycana kömək göstərməkdə davam edəcəkdir.

Ölkələrimiz arasında geniş əməkdaşlığın ən bariz nümunələrindən biri olan Bakı–Tbilisi–Ceyhan boru kəməri layihəsinin planlaşdırıldığı kimi həyata keçirilməsindən böyük məmnunluq hissi duyuruq. Boru xəttinin tikintisinə ölkəmizdə, Azərbaycanda və Gürcüstanda eyni vaxtda başlanmışdır və sürətlə davam etməkdədir. Eyni zamanda, Azərbaycan təbii qazını ölkəmizə gətirəcək Bakı–Tbilisi–Ərzurum boru xətti layihəsinin həyata keçirilməsinə dair çalışmalar da davam etməkdədir.

Azərbaycanın Baş naziri İlham Əliyevi və onu müşayiət edən nümayəndə heyətini Ankarada qarşılamaqdan duyduğum məmnunluğu bir daha bildirmək istəyirəm. Bununla da bütün

qardaş Azərbaycan xalqına buradan türk xalqının rifah və əmin-amanlıq arzularını çatdırmaq istəyirəm.

## İLHAM ƏLİYEVİN BƏYANATI

Hörmətli Baş nazir!

Hörmətli mətbuat nümayəndələri!

Bu gün mən Türkiyədə olmağımdan çox böyük məmnunluq hissi duyuram. Milli Məclis Baş nazir vəzifəsinə təyin olunmağıma razılıq verdikdən sonra məni ilk təbrik edən dəyərli qardaşım, Türkiyə Respublikasının Baş naziri hörmətli Rəcəb Tayyib Ərdoğan olmuşdur. Bu mənim üçün çox əzizdir və çox təbiidir. Çünki ölkələrimiz bir-biri ilə o qədər bağlıdır, insanlarımız bir-birinə o qədər böyük hörmət və məhəbbət hissləri bəsləyir ki, bu hal təbii qarşılanmalıdır. Mən buna görə hörmətli Baş nazirə öz minnətdarlığımı bildirirəm.

O da təbiidir ki, bu vəzifədə mənim ilk səfərim məhz Türkiyəyə olmalı idi və belə də oldu. Bu gözəl ənənə yaşayır və bundan sonra da yaşayacaqdır. Bütün beynəlxalq təşkilatlarda, bütün məsələlərdə biz daim Türkiyənin dəstəyini, köməyini hiss etmişik və indi də hiss edirik. Azərbaycan da öz növbəsində həmişə Türkiyənin yanındadır. Biz bir millət, iki dövlətik. Biz iki ölkəni maraqlandıran bütün məsələlərdə qarşılıqlı surətdə faydalı əməkdaşlıq edirik, region üçün, dünya üçün əhəmiyyətli irimiqyaslı layihələri həyata keçiririk. Əgər Azərbaycan və Türkiyənin iradəsi, əzmkarlığı olmasaydı, Bakı–Tbilisi–Ceyhan kimi nəhəng neft layihəsi həyata keçirilə bilməzdi. Biz bu əfsanəni reallığa çeviririk. Regionda və dünyada əməkdaşlığımız bizə imkan verir ki, Türkiyə və Azərbaycan beynəlxalq aləmdə çox mühüm ölkələrə çevrilsinlər. Bütün məsələlər üzrə aramızda qarşılıqlı anlaşma, qardaşlıq hissi mövcuddur. Biz bunu çox yüksək qiymətləndiririk.

Azərbaycanla Türkiyənin taleyi birdir. Xalqlarımız bir-birilə sıx bağlıdır. Bizim hökumət rəhbərlərinin vəzifəsi ondan

ibarətdir ki, xalqlarımızı daha da yaxınlaşdırsın, ölkələrimizə fayda gətirsinlər.

Mən burada olmağıma çox şadam. Türkiyə mənim üçün əziz bir ölkədir, həyatımın bir hissəsi burada keçmişdir. Mən Türkiyəni özüm üçün ikinci Vətən kimi qiymətləndirirəm. Sizi əmin etmək istəyirəm ki, öz vəzifəmdə və gələcək fəaliyyətimdə ölkələrimizi daha da yaxınlaşdırmaq üçün əlimdən gələni edəcəyəm. Bu bizim strateji xəttimizdir, bizim siyasətimizdir. Ölkələrimizi gücləndirən və bir-birinə daha da bağlayan amillərdir. Əlbəttə, Azərbaycanla Türkiyə birlikdə bu mühüm məsələləri, irimiqyaslı iqtisadi layihələri həyata keçirdikdən sonra ölkələrimiz daha da güclənəcəkdir.

Azərbaycanın iqtisadiyyatı inkişaf edir. Biz irəliyə çox nikbinliklə baxırıq. Ancaq bizi ən çox narahat edən məsələ Ermənistan–Azərbaycan münaqişəsidir, Azərbaycan torpaqlarının işğal altında olmasıdır. Biz bu işğala son qoymaq istəyirik, məsələnin sülh yolu ilə həll olunmasına tərəfdarıq. Lakin eyni zamanda, Azərbaycan xalqının səbri də tükənməz deyildir. Biz qısa bir müddət ərzində beynəlxalq təşkilatların yardımı ilə Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanmasına tərəfdarıq. Amma bu müqavilə ədalət prinsipləri əsasında imzalanmalıdır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalı, işğalçı qüvvələr torpaqlarımızdan geri çəkilməli, bir milyona yaxın qaçqın-köçkün öz doğma ata-baba torpaqlarına qayıtmalıdır. Bu prinsiplər əsasında sülh müqaviləsi imzalana bilər.

Mən fürsətdən istifadə edərək, Türkiyə hökumətinə, dövlətinə bir daha minnətdarlığımı bildirirəm ki, onlar bu məsələdə daim Azərbaycanın yanında olmuş, bizə dəstək vermişlər. Azərbaycan haradadır, Türkiyə də oradadır, Türkiyə haradadır, Azərbaycan da oradadır. Biz bu siyasəti aparırıq və bundan sonra da aparacağıq.

Məni doğma Vətənimə dəvət etdiyinə görə, əziz qardaşım hörmətli Rəcəb Tayyib Ərdoğana bir daha öz minnətdarlığımı bildirirəm.

* * *

**S u a l: Hörmətli Baş nazir Ərdoğan, Azərbaycan prezidenti Heydər Əliyev Azərbaycan–Türkiyə əməkdaşlığının genişləndirilməsində böyük xidmətlər göstərmişdir. İlham Əliyev prezident Heydər Əliyevin siyasi xəttinin ən layiqli davamçısı hesab olunur. Bugünkü görüşdən sonra ölkələrimiz arasında münasibətlərin möhkəmlənməsi üçün bu işlər davam etdiriləcəkmi?**

**R ə c ə b T a y y i b Ə r d o ğ a n:** Bir az əvvəl hörmətli Baş nazir İlham Əliyevi dinlədik və istər təkbətək görüşümüzdə, istərsə də geniş tərkibdə görüşdə biz Türkiyə ilə Azərbaycan arasında əlaqələrin gələcəkdə də inkişaf etdiriləcəyini bildirmişik. Biz bu yolda mühüm addımlar atılmasının vacibliyini də vurğuladıq və gördüyünüz kimi, burada ilk imzalar atıldı. Bundan sonra bu prosesləri sürətləndirərək inkişaf etdirəcəyik. İstər qarşılıqlı enerji layihələrinə, Bakı–Tbilisi–Ceyhan boru kəmərinə dair, istərsə də hələ həyata keçirilməsinə başlanılmamış, beyinlərimizdə tamamilə formalaşmış olan "Şahdəniz" layihəsinə dair məsələləri ətraflı müzakirə etdik. İnşallah, bu məsələni 2006-cı ildə və böyük əhəmiyyəti olan nəhəng Bakı–Tbilisi–Ceyhan layihəsini isə 2005-ci ildə başa çatdıracağıq.

Bütün bunlarla yanaşı, Avropaya və dünyaya yeni bir şəkildə açılacaq Azərbaycan bütün mal ixracatında, ticarət və iqtisadi sahələrdə daha da inkişaf edəcəkdir. Bizim qarşılıqlı iqtisadi əlaqələrimizin güclənməsi həm ikitərəfli əməkdaşlığımızın inkişafına, həm də üçüncü ölkələrə müştərək sərmayə qoymağımıza səbəb olacaqdır. Biz bu məsələdə razılığa gəlmişik və inanıram ki, bu sahədə gələcək əməkdaşlığımız çox yaxşı olacaqdır.

**S u a l: Hörmətli Baş nazir Ərdoğan, Azərbaycanda prezident seçkiləri yaxınlaşır. Bugünkü görüşlərinizdə bu mövzu müzakirə olundumu? Türkiyənin bir sıra mətbuat or-**

**qanlarında belə bir fikir səslənir ki, bu seçkilərlə bağlı Türkiyənin hansısa bir narahatlığı var. İkinci sualım Qarabağla bağlıdır. Ermənistanda belə bir fikir mövcuddur ki, bu ölkəni Türkiyə ilə, Qarsla birləşdirəcək dəmir yolunun layihəsinə dair hazırlıqlar başa çatdırılmışdır. Türkiyə Ermənistana dəmir yolu açacaqmı və yaxud belə bir plan varmı?**

**R ə c ə b  T a y y i b  Ə r d o ğ a n:** Birinci sualınızla əlaqədar demək istərdim ki, Azərbaycanda keçiriləcək seçkilər bizim ölkəmizdə də diqqətlə izlənilir. Bu sual müntəzəm olaraq bizə verilir. Seçkilərdə İlham bəy də öz namizədliyini irəli sürmüşdür. Ümidvarıq ki, 15 oktyabrdan sonra Azərbaycan daha güclü sabitliyə nail olacaqdır. Əslində, bunları mənim söyləməyimə ehtiyac yoxdur, İlham bəy görüşlərimizdə bunların hamısını lazımınca açıqlamışdır. Tam bir demokratik, hər kəsin öz iradəsini nümayiş etdirəcəyi bir seçki olacaqdır və təbiidir ki, belə bir seçkinin nəticəsinin də dünyada qəbul olunması çox mühümdür. İnanıram ki, 15 oktyabrdan sonrakı zaman istər Azərbaycandakı yeni bir inkişafa, istərsə də yeni bir demokratik şəraitin güclənərək davam etməsinə səbəb olacaqdır.

İkinci sualınıza gəlincə, bizim hazırda müzakirə etdiyimiz yeganə bir layihə – Qars–Tbilisi layihəsi – vardır. Biz hələ bu layihəni həyata keçirməmişik. Digər tərəfdən, bizim hələ Ermənistanla əlaqədar hər hansı bir addım atmağımız haqqında söhbət getmir. Hazırda biz Qars–Tbilisi layihəsini nəzərdən keçiririk və əsas məqsədimiz türkdilli cümhuriyyətləri əhatə edəcək bir dəmir yolu layihəsini həyata keçirməkdir. Bu dəmir yolu vasitəsilə bütün türkdilli cümhuriyyətlərlə əlaqələri möhkəmləndirmək istəyirik. Məqsədimiz budur, lakin açıq söyləmək istəyirəm ki, biz bu layihəni hələ həyata keçirməmişik.

**S u a l: Hörmətli Baş nazir Ərdoğan, görüşlərinizdə beynəlxalq məsələlərin də müzakirə olunduğunu söylədiniz. Mən İraqla bağlı sual vermək istəyirəm. Prezident Corc**

**Buşun Amerika xalqına müraciətində Şimali İraqın özünüidarəyə doğru getdiyi bildirilir. Bu, Türkiyənin İraqla bağlı mövqeyinə zidd deyildirmi?**

**R ə c ə b T a y y i b Ə r d o ğ a n:** Hazırda İraqda müvəqqəti hökumət qurulmuşdur. Bu hökumət Şimali İraqın özünüidarəsi üçün deyil, bütövlükdə İraqı idarə etmək üçün qurulmuşdur. Təbii ki, biz hadisələrin inkişafını izləyirik və müvəqqəti hökumətin bəzi nazirlərinin son zamanlarda verdiyi bəyanatlarını da izlədik. Onlar bu gün söylədiklərinin sabah tam əksini deyirlər. Belə hallar, hissiyyata qapılmaqla verilmiş bəyanatlar da vardır. Biz Türkiyə olaraq dərin tarixi təcrübəyə sahib olan bir dövlətik və hissiyyatlara söykənən bəyanatlar verə bilmərik. Ona görə də hər məsələni diqqətlə öyrənirik və ondan sonra lazımi bəyanatları verəcəyik. Hazırda bizim bu məsələyə münasibətimiz belədir və yaxın zamanlarda lazımi bəyanatı eşitmək imkanınız olacaqdır.

**S u a l: Hörmətli Tayyib Ərdoğan, yaxın zamanlarda, yəni, seçkilərə qədər Azərbaycana səfər etməyi düşünürsünüzmü?**

**R ə c ə b T a y y i b Ə r d o ğ a n:** Seçkilərə təxminən 35-40 gün qalır. Bizim də, təbiidir ki, çox zəngin proqramımız vardır. İnşallah, seçkilər uğurla başa çatdıqdan sonra biz səfərimizi təşkil edəcəyik.

**S u a l: Mənim sualım hörmətli Baş nazir İlham Əliyevədir. Prezident Heydər Əliyevin səhhəti ilə əlaqədar mətbuatda bəzi xəbərlər yayılır. Bununla əlaqədar nə deyə bilərsiniz? Seçkilərdən əvvəl Baş nazir təyin olunmağınızla əlaqədar nə söyləyərdiniz?**

**İ l h a m Ə l i y e v:** Heydər Əliyevin səhhəti günü-gündən yaxşılaşır. Müalicə müsbət nəticələr verir və bu barədə onun müalicə olunduğu Klivlend klinikasının rəsmi nümayəndələri vaxtaşırı məlumatlar verirlər. Ona görə də ictimaiyyət bundan xəbərdardır. İnşallah, yaxın zamanlarda müalicə başa çatandan sonra prezident Heydər Əliyev Vətənə dönəcəkdir.

Onun haqqında yayılan şayiələrə gəldikdə isə, hesab edirəm ki, bu şayiələr nə etikaya, nə də bizim milli adət-ənənələrə sığmır. Onları yayan insanlara məsləhət görərdim ki, düzgün məlumatlar versinlər.

Mənim bu vəzifəyə təyin olunmağım bütün Konstitusiya normalarına uyğun şəkildə həyata keçirilmişdir. Namizədliyim Milli Məclisə təqdim olunduqdan sonra onun tərəfindən razılıq verilib və bundan sonra mən Prezidentin fərmanı ilə Baş nazir vəzifəsinə təyin edilmişəm.

Bizim seçkilər Avropa Birliyi və Avropa Şurası tərəfindən müsbət rəy verilmiş Seçki Məcəlləsi əsasında keçirilir. Bu, çox demokratik bir sənəddir və bütün namizədlərə eyni imkanlar yaradır. Mənim də namizədliyim irəli sürülmüşdür və hesab edirəm ki, Azərbaycanda hər bir namizəd eyni hüquqlara malikdir.

Bundan əlavə, mən Baş nazir vəzifəsinə təyin olunduqdan sonra məzuniyyətə çıxdım və hökumət adından hər hansı bir qərarın imzalanmasını icra edə bilmərəm. Yəni öz səlahiyyətlərimi Baş nazirin birinci müavininə verdim. Ona görə hesab edirəm ki, mənim bu vəzifədə olmağım seçki prosesinə heç bir təsir göstərməyəcəkdir. Xüsusilə də nəzərə alsaq ki, Azərbaycan cəmiyyətinin böyük əksəriyyəti mövcud iqtidarın nümayəndəsinə səs verəcəkdir. Bunu deməyə əsas verən amillərdən biri də odur ki, müxtəlif yerli və xarici təşkilatlar tərəfindən keçirilən rəy sorğuları seçkilərdə iqtidarın nümayəndəsinin böyük səs çoxluğu ilə qalib gələcəyini göstərir.

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN ADINDAN TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA ÇIXIŞ

*8 sentyabr 2003-cü il*

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab Baş nazir, əziz qardaşım Tayyib Ərdoğan!

Hörmətli hökumət üzvləri, əziz dostlar!

İlk növbədə, məni Türkiyəyə dəvət etdiyinizə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Qeyd etmək istəyirəm ki, Türkiyənin Baş naziri cənab Tayyib Ərdoğan mən Baş nazir təyin olunan gün – avqustun 4-də ilk olaraq məni təbrik etdi və Türkiyəyə dəvət etdi. Mən də böyük məmnuniyyət hissi ilə bu dəvəti qəbul etdim və bu gün burada sizinlə birlikdəyəm. İlk səfərimi Türkiyəyə edirəm.

Hesab edirəm ki, bu gün mənim həyatımda, Türkiyə–Azərbaycan əlaqələrinin gələcək inkişafında çox mühüm bir gün olacaqdır. Bu gün əziz qardaşlarımla Türkiyə və Azərbaycan arasında əlaqələri açıq və səmimi şəkildə müzakirə etdik. Biz iki ölkəni maraqlandıran problemlər ətrafında fikir mübadiləsi apardıq. Ölkələrimizin birgə həyata keçirdikləri irimiqyaslı, dünya üçün əhəmiyyətli Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum layihələrini müzakirə etdik və qərara gəldik ki, iki ölkə arasında olan səmimi münasibətlər, qardaşlıq əlaqələri bu layihələr həyata keçirildikdən sonra daha da yüksək səviyyəyə qaldırılacaqdır. Bu layihələr həyata keçirildikdən sonra Azərbaycan və Türkiyə daha da güclənəcək, regionda onların təsiri daha da möhkəm olacaqdır.

Eyni zamanda, bu fürsətdən istifadə edərək, mənim atama, prezident Heydər Əliyevə göstərdikləri böyük diqqət və qayğıya

görə Türkiyə dövlətinə və hökumətinə öz minnətdarlığımı, həmçinin Azərbaycan xalqının təşəkkürünü bildirmək istəyirəm.

Uzun illər ərzində Prezidentin səhhəti ilə məşğul olmuş dəyərli qardaşlarımız ona böyük kömək ediblər. Türkiyənin hörmətli Prezidentinin və hörmətli Baş nazirinin diqqət və qayğısı onu daha da ruhlandırmış və müalicə prosesini daha da yaxşılaşdırmışdır. İnşallah, yaxın gələcəkdə hörmətli Prezidentimiz öz müalicəsini başa çatdıraraq Vətənə dönəcəkdir.

Ölkələrimiz arasında həll edə bilmədiyimiz heç bir məsələ yoxdur. Bu gün çox əlamətdar gündür. Uzun illərdən qalmış bir məsələ – viza haqqında saziş imzalandı. Bu onu göstərir ki, siyasi iradə, əməkdaşlıq, qardaşlıq, qarşılıqlı anlaşma vardırsa, hər bir məsələ öz həllini tapacaqdır.

Biz Türkiyəyə və Azərbaycana fayda gətirəcək böyük müştərək layihələri müzakirə etdik. Bu müzakirələr bir daha göstərdi ki, biz hər bir məsələdə vahid mövqedən çıxış edirik. İqtisadi əməkdaşlıq, siyasi məsələlər, beynəlxalq təşkilatlarda iştirakımız hər iki ölkənin vahid bir komanda kimi çıxış etməsinə və öz maraqlarını müdafiə etməsinə yönəlmişdir.

Ölkəmiz üçün ən önəmli, ağır problem olan Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsində biz qardaş Türkiyənin dəstəyini daim hiss edirik. Bu dəstək Azərbaycan müstəqilliyə qovuşduqdan sonra göstərilibdir və indi də davam edir. Bu dəstəyə arxalanaraq, hesab edirik ki, münaqişəyə son qoymaq olar. Biz istəyirik onu sülh yolu ilə, amma ədalətli şəkildə həll edək. İşğalçı Ermənistan qoşunları Azərbaycan torpaqlarından çıxmalı, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalı və müharibə nəticəsində qaçqın və köçkün vəziyyətinə düşmüş bir milyona yaxın Azərbaycan vətəndaşı öz doğma torpaqlarına qayıtmalıdır.

Biz imkan verməməliyik ki, XXI əsrdə bir dövlət digər dövlətin torpaqlarının 20 faizini işğal etsin və heç kim ona təsir edə bilməsin. Mən əminəm ki, bu məsələ ilə məşğul olan dövlətlər, ATƏT-in Minsk qrupunun həmsədrləri – Rusiya,

ABŞ, Fransa bundan sonra öz fəaliyyətlərini daha da gücləndirəcək və bizə ədalətli təkliflər təqdim edəcəklər.

Bu gün bir çox məsələlər müzakirə edildi və biz bir daha bir-birimizə nə qədər yaxın olduğumuza əmin olduq. Biz bir millətin nümayəndələriyik, eyni dildə danışırıq, dinimiz də birdir. Aramızdakı münasibətlər, qardaşlıq hissləri hər birimiz üçün əzizdir. Biz çalışmalıyıq ki, gələcək nəsillər də bu tərbiyəni alsınlar, onları elə böyütməliyik ki, Azərbaycan və Türkiyə onlar üçün eyni Vətən olsun. Türkiyədən Azərbaycana və Azərbaycandan Türkiyəyə gələn hər bir şəxs, vətəndaş bunu hiss etməlidir və edir.

Əziz Baş nazir, mənə göstərdiyiniz böyük hörmət və ehtirama, ölkənizə dəvət etdiyinizə görə Sizə bir daha öz minnətdarlığımı bildirirəm. Sizi əmin etmək istəyirəm ki, Baş nazir vəzifəsində mən ölkələrimizin – Türkiyə və Azərbaycanın bundan sonra da inkişaf etməsi, gələcəkdə də gözəl münasibətlər saxlaması, bu münasibətlərin daha yüksək pilləyə qalxması üçün əlimdən gələni edəcəyəm.

## TÜRKİYƏYƏ İŞGÜZAR SƏFƏRİ BAŞA ÇATDIQDAN SONRA BAŞ NAZİR İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN ENERGETİKA VƏ TƏBİİ EHTİYATLAR NAZİRİ HİLMİ GÜLƏRİN ANKARANIN ESENBOĞA HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVABI

*8 sentyabr 2003-cü il*

**S u a l: Cənab Baş nazir, səfərin nəticələrini necə qiymətləndirirsiniz?**

**İ l h a m Ə l i y e v:** Mən işgüzar səfərin nəticələrindən çox razıyam. Azərbaycanla Türkiyə arasında ikitərəfli münasibətlər çərçivəsində bir sıra məsələlər müzakirə olundu, geniş fikir mübadiləsi aparıldı. Həm hörmətli prezident cənab Əhməd Necdət Sezərlə, hörmətli Baş nazir cənab Rəcəb Tayyib Ərdoğanla, həm də hörmətli xarici işlər naziri cənab Abdullah Güllə və energetika və təbii ehtiyatlar naziri Hilmi Gülərlə görüşlər keçirdik. Bütün bu görüşlərdən və mənə göstərilən hörmət və diqqətdən çox razıyam. Hesab edirəm ki, bu səfər iki ölkə arasında mövcud olan münasibətlərdə yeni bir mərhələ, addım olacaqdır.

Bir daha əmin olduq ki, Türkiyə və Azərbaycan bütün məsələlərdə vahid mövqedən çıxış edir və bu siyasət bundan sonra da davam etdiriləcəkdir.

**S u a l: İlham müəllim, müxalifət mətbuatının Sizin bu səfərinizi Türkiyədə dəstək axtarmaq kimi şərh etməsi nə dərəcədə doğrudur?**

**İ l h a m Ə l i y e v:** Mən müxalifət yazılarına fikir vermirəm və məsləhət görürəm ki, siz də onlara fikir verməyəsiniz. Onların dediklərinə şərh vermək istəmirəm. O ki qaldı mənim buraya səfərimə, bildiyiniz kimi, mən Milli Məclis tərəfindən bu vəzifəyə təsdiq olunduqdan sonra məni ilk təbrik edən

Türkiyənin Baş naziri cənab Ərdoğan oldu. O, təbrik etdikdən sonra məni Türkiyəyə dəvət etdi. Bu səfəri onun dəvəti əsasında həyata keçirirəm. Burada hansısa başqa məqam axtarmaq lazım deyildir. Türkiyə ilə Azərbaycan arasında ikitərəfli münasibətlər elə səviyyədədir ki, bu səfərlər sıx-sıx keçirilə bilər və əminəm ki, gələcəkdə də keçiriləcəkdir. Biz bir millət, iki dövlətik, aramızda yalnız dostluq, qardaşlıq və qarşılıqlı anlaşma hökm sürür.

**S u a l: Hilmi bəy, Bakı–Tbilisi–Ceyhanla əlaqədar müzakirələr oldumu?**

**H i l m i G ü l ə r:** Bəli, Bakı–Tbilisi–Ceyhan bizim çox böyük əhəmiyyət verdiyimiz layihədir. Bunu həm Prezidentimiz, həm Baş nazirimiz, həm də biz çox yaxından izləyirik. Layihə tam vaxtında başa çatacaqdır. Eyni zamanda, biz “Şahdəniz” layihəsinə də çox böyük əhəmiyyət veririk. Bu layihələr paralel olaraq həyata keçiriləcəkdir.

**S u a l**: **Hazırda Rusiya ilə Türkiyə arasında təbii qazın nəqli sahəsində bir əməkdaşlıq vardır. Azərbaycan qazının Türkiyəyə nəqli üçün problemlər yaratmayacaqmı?**

**H i l m i G ü l ə r:** Xeyr, bu layihələr bir-birindən fərqlənir. «Şahdəniz» yatağından çıxarılan təbii qaz həm Türkiyədə istifadə olunacaq, həm də Avropaya nəql ediləcəkdir. Avropa Birliyi bu qazın tez bir zamanda qitə ölkələrinə nəql olunmasını istəyir. Yəni “Şahdəniz” layihəsinin iki əhəmiyyəti var: birincisi, Türkiyənin ehtiyaclarını təmin etmək, ikincisi, Azərbaycanın təbii qazını Avropaya çatdırmaqdır.

## YAPONİYA PARLAMENTİ MÜŞAVİRLƏR PALATASI SƏDRİNİN MÜAVİNİ ŞOCİ MOTOOKANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*11 sentyabr 2003-cü il*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Motooka!

Hörmətli qonaqlar!

Sizi salamlayıram, Azərbaycana xoş gəlmisiniz!

Yaponiya ilə Azərbaycan arasında münasibətlər çox sürətlə inkişaf edir. Biz çox uğurlu əməkdaşlıq edirik. Hesab edirəm ki, bu əməkdaşlıq hər iki tərəfi qane edir. Azərbaycan Respublikasının prezidenti cənab Heydər Əliyevin 1998-ci ildə Yaponiyaya ilk rəsmi səfəri bu münasibətlərə yeni bir təkan vermiş və sonrakı illərdə biz bir çox sahələrdə əməkdaşlıq etmişik. Şadıq ki, Yaponiya Cənubi Qafqaz ölkələrində ilk səfirliyini Azərbaycanda açmışdır və o, çox uğurlu fəaliyyət göstərir.

Eyni zamanda, iqtisadi məsələlər üzrə dövlətlərarası komissiya yaradılmışdır ki, onun fəaliyyəti də çox müsbətdir. Bu illər ərzində Yaponiya hökuməti tərəfindən Azərbaycana 400 milyon dollar civarında kredit və təqribən 60 milyon dollar məbləğində yardım ayrılmışdır. Yaponiya şirkətləri Azərbaycanın neft sektorunun inkişafında fəal iştirak edir, bir neçə layihədə sərmayəçi kimi fəaliyyət göstərir. Bakı–Tbilisi–Ceyhan kimi nəhəng layihədə də Yaponiya şirkətlərinin iştirakı vardır ki, bu da bizi çox sevindirir. Məmnunluq hissi ilə deyə bilərəm ki, neft sektorunda əməkdaşlığımızın təməli 1996-cı ildə qoyulmuşdur. O zaman Azərbaycan Dövlət Neft Şirkətinin nümayəndə heyəti Yaponiyaya səfər etmişdi. Nümayəndə heyətinin tərkibində mən də iştirak edirdim.

Biz orada çox səmərəli danışıqlar apardıq. Yaponiyanın Azərbaycandakı hazırkı səfiri ilə məhz orada görüşüb tanış olduq. Onunla geniş söhbətimiz oldu. Bundan sonra Yaponiya neft şirkətlərinin böyük bir heyəti Azərbaycana gəldi, buradakı vəziyyətlə tanış oldu və onları maraqlandıran perspektivli neft strukturları üzrə danışıqlara başladı. Nəticədə bir neçə müqavilə imzalandı.

Ölkələrimizin parlamentləri arasında münasibətlər də uğurla inkişaf edir. Sizin Azərbaycana səfəriniz bunu bir daha təsdiq edir. Biz istəyirik ki, Yaponiya – Azərbaycan münasibətləri bütün sahələrdə inkişaf etsin. Yaponiya bizim üçün çox mühüm və dost bir ölkədir. Deyə bilərəm ki, biz sizinlə əməkdaşlıqdan çox məmnunuq və gələcəkdə onu daha da inkişaf etdirmək istəyirik.

**Ş o c i  M o t o o k a:** Çox məşğul olduğunuza baxmayaraq, vaxt ayırıb bizi qəbul etdiyinizə görə Sizə ürəkdən təşəkkürümü bildirirəm.

Yaponiya parlamenti Müşavirlər Palatasının nümayəndə heyəti cənab Murtuz Ələsgərovun dəvəti ilə Azərbaycana ilk dəfə səfərə gəlmişdir.

Qeyd etdiyiniz kimi, Azərbaycanla Yaponiya arasında müxtəlif sahələrdə mövcud olan əlaqələr çox yüksək səviyyədədir. Biz bu əlaqələrin parlamentlər arasında daha da inkişaf etdirilməsini istəyirik. Bütün ölkələrdə parlamentlərin demokratiyanın təməli olduğuna inanaraq cənab Ələsgərovun dəvətini məmnuniyyətlə qəbul etdik.

Biz hörmətli prezident Heydər Əliyevin tez bir zamanda sağalıb Vətənə dönməsini ürəkdən arzu edirik. Avqust ayında Sizin Baş nazir təyin olunmağınız xəbərini aldıq. Bu münasibətlə Sizi səmimi-qəlbdən təbrik edirəm. Bizim Baş nazirimiz cənab Koidzumi Sizi bu münasibətlə təbrik etmişdir.

Azərbaycan haqqında bizim məlumatlarımız çoxdur. Ölkəniz Avropa və Asiyanı birləşdirən dəhliz rolunu oynayır. Bildiyiniz kimi, orta əsrlərdə böyük İpək yolu bu iki qitəni birləşdirən dəhliz olmuşdur. İpək yolunun bir mərkəzi kimi

Azərbaycan böyük əhəmiyyətə malik olmuşdur. Bu günümüzə gəldikdə, Qafqaz regionunun sabitliyi üçün Azərbaycan çox böyük əhəmiyyət kəsb edir. Bu regionun sabitliyi isə, ümumən dünyada sülh üçün çox zəruridir.

Azərbaycana etdiyimiz səfər iki ölkənin parlamentləri arasında əlaqələrin möhkəmləndirilməsi baxımından tarixi bir hadisədir və böyük önəm daşıdığına inanıram.

Ölkənizə dəvət olunduğumuz üçün bir daha təşəkkürümü bildirmək istəyirəm.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun, mən də fürsətdən istifadə edərək sizdən Yaponiyanın Baş naziri cənab Koidzumiyə məni təbrik etdiyinə görə təşəkkürümü, ən xoş arzularımı çatdırmağı xahiş edirəm.

Mən bilirəm ki, siz bu gün Azərbaycan parlamentinin sədri cənab Murtuz Ələsgərovla görüşmüsünüz. Daha bir neçə görüşləriniz nəzərdə tutulub və əminəm ki, siz Azərbaycanın hər yerində böyük sevgi və məhəbbətlə qarşılanırsınız. Bizim xalqımız çox qonaqpərvərdir. Bilirəm ki, yapon xalqı da qonaqpərvərliyi ilə seçilir. Mən özüm bunun şahidi olmuşam.

Sizə səfərinizdə uğurlar arzulayıram.

## XAÇMAZDA "QAFQAZ" KONSERV ZAVODUNUN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ

*12 sentyabr 2003-cü il*

Əziz xaçmazlılar!

Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar!

Bu gün Azərbaycanın tarixində çox əlamətdar bir gündür. Azərbaycanın gözəl guşəsində, Xaçmaz rayonunda yeni, müasir, bütün beynəlxalq standartlara cavab verən «Qafqaz» konserv zavodu açılır. Bu münasibətlə mən sizin hamınızı ürəkdən təbrik edirəm.

«Qafqaz» konserv zavodunun açılışı və istifadəyə verilməsi Azərbaycanda son illər ərzində prezident Heydər Əliyevin rəhbərliyi altında aparılan iqtisadi siyasətin daha bir bəhrəsidir. Bu siyasətin nəticəsində Azərbaycana qısa müddət ərzində böyük həcmdə sərmayə qoyulub, iqtisadi islahatlar aparılır, özəlləşdirmə prosesi uğurla davam edir. Bu siyasət Azərbaycana imkan verib ki, qısa müddət ərzində iqtisadi cəhətdən güclənsin, möhkəm iqtisadi potensial yarada bilsin.

Həqiqətən, bu zavod çox nəhəng bir emal sənayesi müəssisəsidir. Bu, bütün beynəlxalq standartlara cavab verən bir müəssisədir. Burada quraşdırılan avadanlıq dünyanın aparıcı ölkələrindən gətirilibdir.

Son illər ərzində Azərbaycanda çox işlər dünya standartları səviyyəsində qurulur. Ölkəmiz yeniləşir, müasirləşir, inkişaf edir. Məni çox sevindirən hal odur ki, bu müəssisə Xaçmaz rayonunda tikilibdir. Bir müddət bundan əvvəl onun tikilməsi haqqında söhbət başlayanda, təbii ki, cənab Prezidentə müraciət edildi və xahiş olundu, öz məsləhətini versin ki, bu müəssisə Azərbaycanın hansı bölgəsində yaradılsın. Yaxşı xatırlayıram, cənab Prezident tərəddüd etmədən dedi ki, bu müəssisə məhz

Xaçmaz rayonunda tikilsin. Bu bir daha onu göstərir ki, cənab Prezidentin Xaçmaz rayonuna, xaçmazlılara böyük hörməti və ehtiramı var və zavodun tikilməsi üçün Xaçmaz rayonunu seçməsi bunu bir daha sübut edir.

Bu müəssisədə yeni iş yerləri açılır. Təxminən 17 minə yaxın kəndli öz məhsulunu bu zavoda təhvil verib pulunu alacaqdır. Bu, kəndliləri böyük problemlərdən azad edir. Təkçə Xaçmazda olan kəndlərdən söhbət getmir. Qonşu rayonlardan da buraya məhsul gətiriləcək və beləliklə, Azərbaycanın bu bölgəsi yaxşı inkişaf edəcəkdir. Ümumiyyətlə, bu, bölgə üçün, bölgədə gedən iqtisadi inkişaf üçün gözəl bir təkan olacaqdır. Əminəm ki, yaxın gələcəkdə bu zavodun fəaliyyəti nəticəsində minlərlə insan öz rifahını yaxşılaşdıracaqdır.

Müəssisənin önəmli cəhətlərindən biri ondadır ki, dediyim kimi, burada yeni iş yerləri açılır. Eyni zamanda, müəssisənin açılışı onu göstərir ki, Azərbaycan iqtisadiyyatına sərmayə qoyulur, qeyri-neft sektoruna sərmayə qoyulur. Həm də bu, onu göstərir ki, Azərbaycanda sahibkarlara dövlət tərəfindən qayğı var, diqqət var. Əgər bu olmasaydı, yəqin ki, sahibkarlar Azərbaycana sərmayə qoymazdılar. Bütün bu sadaladığım məsələlər Heydər Əliyevin siyasətinin nəticələridir. Azərbaycanda neft sektoru inkişaf edir. Amma biz maraqlıyıq və istəyirik ki, qeyri-neft sektoru inkişaf etsin. Sahibkarlığa kömək məqsədi ilə böyük tədbirlər planı həyata keçirilir. İqtisadi inkişaf naziri bu barədə məlumat verdi. Bu da öz əksini burada tapır. Sərmayə qoyuluşu baxımından Azərbaycan keçmiş sovet respublikaları arasında qabaqcıl yerlərdə gedir. Ölkəmizə böyük həcmdə sərmayə qoyulur. Yəni, bu zavodda, bu müəssisədə görülən işlər yalnız və yalnız ümumi siyasət çərçivəsində mümkün ola bilərdi.

Yeni iş yerlərinin açılması bizim qarşımızda duran ən əsas məsələlərdən biridir. Azərbaycanda son illər ərzində bu istiqamətdə böyük uğurlar əldə olunubdur. Xüsusilə də neft sektorunda. Deyə bilərəm ki, neft sektorunda son 7-8 il ərzində on minlərlə yeni iş yerləri açılıbdır. Orada gözəl təcrübə var.

Hesab edirəm ki, bizim hökumət bu təcrübədən çox səmərəli istifadə edərək qeyri-neft sektoruna da eyni mövqedən yanaşacaq və orada yeni iş yerləri açılacaqdır.

Zavodun istehsal edəcəyi məhsul daxili bazarda istehlak olunacaqdır. Həm zavodda çalışanlar maaş alacaq, buraya məhsul təhvil verənlər pulunu alacaqlar, həm də satışdan əldə olunan gəlirlərdən də büdcəyə vergilər ödəniləcəkdir. Bu çox mühüm haldır. Hökumətin məqsədi ondan ibarətdir ki, biz idxalı imkan daxilində azaldaq və daxili bazarı yerli məhsullarla, Azərbaycanda istehsal olunmuş məhsullarla təmin edək. Hesab edirəm, bu təcrübə başqa sahələrdə də tətbiq oluna bilər.

İdxalın azalması bütün başqa sahələrə də öz təsirini göstərəcəkdir. Çünki Azərbaycan güclənir, inkişaf edir. Azərbaycanın iqtisadi potensialı möhkəmlənir. Əlbəttə, biz çox istəyirik ki, daxili bazarı yerli istehsalçılar təmin etsinlər. Bu istiqamətdə hökumət tərəfindən işlər görülür. Əminəm ki, gələcəkdə də bu sahəyə böyük bir diqqət göstəriləcəkdir.

Ümumiyyətlə, Azərbaycanda iqtisadiyyat çox müsbət istiqamətdə inkişaf edir. Bütün göstəricilər onu göstərir ki, Azərbaycan qısa bir müddət ərzində öz iqtisadiyyatını möhkəmləndirə bilibdir. Sərmayə qoyuluşu baxımından, inflyasiyanın səviyyəsi baxımından, ümumi daxili məhsulun səviyyəsi baxımından biz bir çox ölkələri geridə qoymuşuq və bu ənənə davam edir. Azərbaycanı gələcəkdə gözəl perspektivlər gözləyir. O perspektivlərin təməli 9 il bundan əvvəl, sentyabrın 20-də qoyulubdur. Heydər Əliyevin neft strategiyasının təməli həmin gün, birinci neft müqaviləsinin imzalanması ilə qoyulubdur. Bu neft müqaviləsi və ondan sonrakı hadisələr Azərbaycana nə veribdir?! Onu verib ki, ölkəyə 10 milyard dollardan çox sərmayə qoyulubdur. Onu verib ki, Azərbaycan öz neftini dünya bazarlarına çıxarır və ondan gəlir əldə edir. Onu verib ki, Azərbaycanda neft kəmərləri tikilir və xüsusilə Bakı–Ceyhan kimi nəhəng,

irimiqyaslı neft kəməri artıq tikilməkdədir və 2005-ci ildə biz onun açılışını qeyd edəcəyik.

Bütün bu amillər imkan verib ki, Azərbaycan böyük bir valyuta ehtiyatı yarada bilsin. Bu məqsədlə Neft Fondu yaradılıbdır. Bu fond müxtəlif sahələrə kömək göstərməyə imkan verir. Məhz Neft Fondunun vəsaiti hesabına cənab Prezidentin fərmanı ilə böyük qrup insanların maaşları qaldırıldı, təqaüdlər artırıldı. Məhz Neft Fondunun fəaliyyəti və orada yığılan vəsait sayəsində biz Ermənistanın işğalından əziyyət çəkən, öz torpaqlarından didərgin düşmüş qaçqın-köçkünlərə kömək göstəririk. Çadır şəhərcikləri ləğv edilir, əvəzində yeni evlər, qəsəbələr, şəhərciklər salınır. Deyə bilərəm ki, qısa bir müddət ərzində cənab prezident Heydər Əliyevin göstərişi ilə 30 mindən çox qaçqın və məcburi köçkün yeni müasir evlərə köçürülübdür. Onlar bütün lazımi infrastrukturla təmin olunublar.

Budur, Heydər Əliyevin neft strategiyası və onun nəticələri. Bu proses bundan sonra da davam edəcəkdir. 2005-ci ildən sonra, Bakı–Tbilisi–Ceyhan neft kəməri istismara veriləndən sonra Azərbaycana daha böyük həcmdə valyuta gələcəkdir. Bu da öz növbəsində imkan verəcək ki, insanlarımız daha da yaxşı yaşasınlar. 2008-ci ildən sonra isə təkcə Azərbaycanın neft strategiyasının həyata keçirilməsi nəticəsində ölkəmizin xəzinəsinə milyardlarla dollar daxil olacaqdır. O vəsaitlə Azərbaycanı yenidən qurmaq mümkün olacaqdır. O vəsaitlə yeni fabriklər, zavodlar, yollar, xəstəxanalar, təhsil ocaqları, digər infrastruktur yaradılacaqdır. Bütün bunlar olacaq və mütləq olacaqdır. Bu, artıq özünü göstərir.

Azərbaycanda son dövrdə görülən işlər böyük nəticələr verir. Ölkədə canlanma gedir, iqtisadiyyat, o cümlədən özəl sektor inkişaf edir. “Qafqaz” konserv zavodu kimi nəhəng müəssisələr yaradılır. Bir daha deyirəm ki, bütün bunlar Heydər Əliyevin siyasətinin nəticəsidir. Bu siyasət gələcəkdə də davam edəcəkdir. Cənab Prezident yaxın günlərdə öz sağlamlığını tam bərpa edib Vətənə dönəcək və uzun-uzun illər Azərbaycana

rəhbərlik edəcəkdir. Azərbaycan xalqının məhəbbəti, inamı, hörməti, duaları ona kömək edəcək və o bizimlə bir yerdə olacaqdır.

Bu ilin oktyabrın 15-də Azərbaycanda prezident seçkiləri keçiriləcəkdir. Əminəm ki, Azərbaycan xalqı düzgün seçim edəcəkdir. 1993-cü ildə Heydər Əliyevi Azərbaycana rəhbərliyə dəvət edəndən sonra xalqımız bir daha gördü ki, çox düzgün və müdrik addım atmışdır. O vaxt yaranan vəziyyətin qarşısını almağa, Azərbaycanı vətəndaş müharibəsindən xilas etməyə, müharibəni dayandırmağa, iqtisadi inkişafa nail olmağa yalnız bir adam – Heydər Əliyev qadir idi və o bunu etdi. Azərbaycanı inkişaf etdirdi. Əminəm ki, oktyabrın 15-də Azərbaycan xalqı yenidən öz müdrikliyini göstərərək Heydər Əliyevə, onun siyasətinə səs verəcəkdir.

Əziz dostlar!

Əziz xaçmazlılar!

Mən Xaçmaz rayonunda dəfələrlə olmuşam. Hər dəfə buraya gələndə məndə çox xoş təəssürat yaranır. Hər dəfə buraya gələndə getmək istəmirəm, sizinlə bir yerdə olmaq istəyirəm. Xaçmaz Azərbaycanın gözəl guşəsidir. Burada yaşayanlar gözəl, zəhmətkeş, vətənpərvər insanlardır. Azərbaycanın müstəqilliyini gücləndirən insanlardır. Mən çox şadam ki, bu gün sizinlə bir yerdəyəm, bu sevinci sizinlə bölüşürəm. Əminəm ki, bundan sonra da biz daim bir yerdə olacağıq. Bundan sonra da xaçmazlılar Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsində, ölkəmizin iqtisadi inkişafının təmin olunmasında fəal iştirak edəcəklər. Sizi bu gözəl müəssisənin açılışı münasibətilə bir daha ürəkdən təbrik edirəm. Sizi öpürəm, qucaqlayıram, bağrıma basıram, hamınıza xoşbəxtlik, cansağlığı və səadət arzulayıram. Sağ olun.

## BAŞ NAZİR İLHAM ƏLİYEVİN JURNALİSTLƏRİN SUALLARINA CAVABI

**S u a l: İlham müəllim, zavodu gəzdiniz, nəticədən razı qaldınızmı?**

**C a v a b:** Əlbəttə, çox razı qaldım. Nəhəng bir müəssisədir. Çox sevindirici haldır ki, Azərbaycanın bölgələrində belə müəssisələr yaradılır. Bu onu göstərir ki, investorlarda Azərbaycanın gələcəyinə inam var. Azərbaycan hərtərəfli inkişaf edir, iqtisadiyyatı inkişaf edir. Biz çox istəyirik və hökumətin də məqsədi budur ki, Azərbaycanın müxtəlif bölgələrində emal müəssisələri yaradılsın. Əlbəttə, hesab edirəm, bu müəssisə başqaları üçün örnək olacaqdır. Burada yüksək səviyyədə məhsul istehsal olunacaqdır. Müəssisədə ən müasir standartlar tətbiq olunur. Belə zavodun Azərbaycanda tikilməsi onu göstərir ki, ölkəmiz inkişaf edir, yaşayır. Mən gələcəkdə başqa yerlərdə də belə zavodların tikilməsini arzulayardım. Mənim investorlardan xahişim bundan ibarətdir.

**S u a l: İlham müəllim, cənab Prezidentin bir çox fərmanları var ki, Nazirlər Kabineti tərəfindən uzun müddət icra olunmayıbdır. Bunların icrası məsələsi qarşıda durURmu?**

**C a v a b:** Əlbəttə, o məsələlərə baxılacaqdır. Harada yubanma varsa, biz onu aradan qaldırırıq. O cümlədən, bu yaxınlarda Türkiyə ilə imzaladığımız viza sazişi uzun illər idi qalmışdı. Halbuki, mən bu məsələ ilə maraqlananda gördüm ki, orada heç bir problem yoxdur. Sadəcə, hansısa bürokratik hala görə qalmışdı. Ona görə belə hallar ola bilər. Amma deyə bilmərəm ki, bunlar kütləvi xarakter alıbdır. Mən Nazirlər Kabinetinin fəaliyyətini yüksək qiymətləndirirəm. O, Azərbaycanın iqtisadiyyatının inkişafı üçün çox mühüm işlər görüb, indi də görür. Amma belə hallar da olur. Əlbəttə, hər bir hal fərdi qaydada müzakirə ediləcək və Nazirlər Kabineti çalışacaq ki, cənab Prezidentin bütün fərmanları vaxtlı-vaxtında öz həllini tapsın.

**S u a l: İlham müəllim, Siz Baş nazir təyin olunandan sonra Dağlıq Qarabağ məsələsinə xüsusi önəm verilir. Rusiya tərəfdən yeni həmsədr bəyan edib ki, tərəflər kompromisə**

**getməyə hazırdırlar. Ümumiyyətlə, hansı kompromislərdən söhbət gedir?**

**C a v a b:** Heç bir kompromisdən söhbət getmir. Mən bilmirəm, o bəyanat nəyin əsasında verilibdir. Bu məsələ hələ müzakirə olunmayıbdır. Mənə də bildirilib ki, Azərbaycanda prezident seçkiləri keçiriləndən sonra Minsk qrupunun həmsədrləri regiona gələcək və hansısa təkliflər verəcəklər. Hələlik bu barədə bir şey deyə bilmərəm, çünki heç bir təklif yoxdur. Ona görə də hansısa kompromislərdən söhbət gedə bilməz.

## AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*15 sentyabr 2003-cü il*

**İ l h a m   Ə l i y e v:** Hörmətli Avropa Şurasının nümayəndələri!

Əziz dostlar!

Mən sizi ürəkdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz. Üç ilə yaxındır ki, Azərbaycan Avropa Şurasının üzvüdür. Bu illər ərzində biz çox gözəl əməkdaşlıq etmişik. Azərbaycanın qanunvericiliyi təkmilləşdirilmiş, Avropa standartlarına uyğunlaşdırılmışdır. Avropa Şurasının tövsiyələri ölkəmiz üçün çox əhəmiyyətli olmuş və bizə çox kömək etmişdir.

Eyni zamanda bu üç il ərzində Azərbaycan nümayəndə heyəti də Avropa Şurasının bütün iclaslarında, onun komitələrinin və komissiyalarının işində çox fəal iştirak etmişdir. Hesab edirəm ki, bu, Azərbaycan üçün çox faydalı olmuşdur.

Həmçinin düşünürəm ki, bu üç il Azərbaycan nümayəndə heyəti üçün böyük məktəb idi. Biz bir çox məsələlərlə yaxından tanış olduq. Eyni zamanda hesab edirəm ki, biz də Avropa Şurasına öz töhfələrimizi vermişik.

Sevindirici haldır ki, Avropa Şurası Azərbaycan üçün ən ağır olan problemin həllində də öz səylərini göstərir. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı xüsusi məruzəçi təyin olunmuş və o, işə başlamışdır. Bu bizi çox sevindirir.

Bilirsiniz ki, Avropa Şurası öz rəsmi sənədlərində Ermənistanı işğalçı dövlət kimi tanımışdır. Bu bir daha göstərir ki, Avropa Şurası həmin məsələ ilə bağlı çox ədalətli mövqe tutur. Buna görə biz hamımız bu təşkilata minnətdarıq.

Fürsətdən istifadə edərək, sizdən Avropa Şurasının rəhbərlərinə – sədr cənab Şiderə, Baş katib cənab Şvimmerə, Parlament Assambleyasının Baş katibi cənab Hallerə mənim xoş arzularımı və salamlarımı çatdırmağı xahiş edirəm. Eyni zamanda cənab Qrossa, – o, Avropa Şurası Parlament Assambleyasının büro üzvüdür, bütün büro üzvlərinə mənim salamlarımı və birgə fəaliyyətimiz, gördüyümüz işlərə görə təşəkkürümü çatdırmağı xahiş edirəm. Mən birgə fəaliyyətimizi çox böyük məmnunluq hissi ilə xatırlayıram və xatırlayacağam. Əminəm ki, Azərbaycan nümayəndə heyəti bundan sonra da Avropa Şurasında ölkəmizin milli maraqlarını müdafiə edəcək, demokratiyanın inkişafı naminə öz səylərini əsirgəməyəcəkdir.

**Andreas Qross:** Cənab Baş nazir!

Avropa Şurası Parlament Assambleyası sədrinin müavini, bizim həmkarımız cənab İlham Əliyev!

Mən çox şadam ki, Azərbaycanda prezident seçkiləri ərəfəsində bütün namizədlərdən əvvəl sizinlə görüşürük.

Cənab Baş nazir, biz buraya seçkilər ərəfəsində bir baxış missiyası ilə gəlmişik. Sizə məlum olduğu kimi, nümayəndə heyətimizin tərkibində bir çox ölkələrin təmsilçiləri vardır. Türkiyənin nümayəndəsi cənab Çavuşoğlu, İspaniyanın yaxından tanıdığınız nümayəndəsi cənab Kassan, Fransanın nümayəndəsi cənab Qule heyətə daxildirlər. Biz Azərbaycanda ədalətli və şəffaf seçkilər keçirilməsini istəyirik. Çünki seçilən şəxsin ölkənin müqəddəratına aid olan həlledici qərarlar qəbul etməyə tam hüququ olacaqdır. Ona görə də biz bu proseslə yaxından tanış oluruq və Azərbaycanda ədalətli seçkilərin keçirilməsində maraqlıyıq.

## RUSİYA FEDERASİYASI PREZİDENTİNİN İCRA APARATININ RƏHBƏRİ ALEKSANDR VOLOŞİN İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*16 sentyabr 2003-cü il*

**İ l h a m  Ə l i y e v:** Hörmətli Aleksandr Stalyeviç!

Hörmətli dostlar!

Sizi salamlamağıma şadam. Azərbaycana xoş gəlmisiniz. Biz sizin gəlişinizə çox şadıq. Bilirəm ki, çox maraqlı görüşlər keçirmisiniz. Əminəm ki, səfəriniz ölkələrimiz arasında münasibətlərin daha da genişlənməsinə kömək edəcəkdir. Biz son illər Rusiya ilə Azərbaycan arasında yaranmış münasibətlərin səviyyəsindən razıyıq. Bütün istiqamətlərdə – siyasi məsləhətləşmələr baxımından da, iqtisadi müstəvidə də, mədəni həyatda da nəzərəçarpan tərəqqi olduğunu görürük. Bütün bu istiqamətlərdə xeyli irəliləyiş var. Ən başlıcası budur ki, dostluq münasibətlərimizə və xalqlarımıza fayda gətirən real nəticələr var.

Rusiya prezidenti hörmətli Vladimir Vladimiroviç Putinin Azərbaycana səfəri bizim üçün çox vacib idi. Zənnimcə, bizim vətəndaşlarımız da mənim fikrimi dəstəkləyərlər ki, bu səfərdən sonra Rusiya ilə Azərbaycan arasında münasibətlər yeni səviyyəyə qalxmışdır. Prezidentlərimiz arasında çox aydın dostluq münasibətləri yaranmışdır. Bu isə onun rəhnidir ki, ölkələrimiz gələcəkdə də öz münasibətlərini mehriban qonşuluq, dostluq, qardaşlıq əsasında quracaqlar. Biz iqtisadi sahədə bir çox mühüm layihələri birlikdə həyata keçiririk.

Çox şadıq ki, Rusiya şirkətləri iqtisadiyyatın müxtəlif sahələrində bizimlə əməkdaşlığa böyük maraq göstərirlər. Biz bunu alqışlayırıq və həmişə alqışlamışıq. Həmişə çalışmışıq ki, iqtisadi potensialın inkişafı və istifadəsi sahəsində ölkələrimizin

əlaqələrindən tam gücü ilə faydalanaq. Bu gün biz bunu görürük.

Əlbəttə ki, bunun üçün ən möhkəm əsas iki dövlət arasında, iki prezident arasında siyasi səviyyədə qarşılıqlı anlaşmanın olmasıdır. Bu, Azərbaycanın mənafelərinə tam uyğundur, əminəm ki, Rusiyanın da mənafelərinə uyğundur. Prezidentimiz Heydər Əliyev dəfələrlə bəyan etmişdir ki, Rusiya Azərbaycan üçün strateji tərəfdaşdır. İndi praktikada görürük ki, bu strateji tərəfdaşlıq münasibətləri hər iki ölkənin mənafelərinə cavab verir. Prezidentimizin rəhbərliyi ilə gələcəkdə də vəzifəmiz münasibətlərimizin məhz belə inkişaf etməsi üçün bizdən asılı olan bütün işləri görməkdən ibarətdir.

Digər bütün sahələrdə qarşılıqlı anlaşma və əməkdaşlıq çox yüksək səviyyədədir. Rusiyada baş verən hadisələr barədə bizdə tam məlumat var. Burada biz Rusiya telekanallarının verilişlərinə baxırıq, ona görə də tam informasiya alırıq. Əlbəttə, istərdik ki, Azərbaycanda baş verən hadisələrdən Rusiya vətəndaşları da xəbər tutsunlar. Bizim ümumi tariximiz olub, biz çox sıx inteqrasiya edilmişik və bu fikirdəyik ki, keçmişdə olmuş əlaqələri, müsbət məqamları möhkəmləndirib inkişaf etdirməliyik. Biz həm o dövrdə yaşamış, həm də indi ölkələrimizin müstəqilliyi şəraitində yaşayan insanlarıq. Əlbəttə, o dövr haqqında təsəvvürümüz var, qarşılıqlı anlaşmanı yüksək qiymətləndiririk. Hesab edirəm, bizim vəzifəmiz ondan ibarətdir ki, həm rusiyalıların, həm də azərbaycanlıların gələcək nəsilləri bu əlaqələri qırmasınlar, bu qarşılıqlı anlaşmanı itirməsinlər. Zənnimcə, bütün səviyyələrdə – istər siyasi səviyyədə, istərsə də məişət səviyyəsində ölkələrimiz və xalqlarımız arasında münasibətlər çox faydalı və vacibdir. Ona görə də Azərbaycana gəldiyinizə görə sizə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Əminəm ki, dediyim kimi, səfəriniz bütün istiqamətlərdə əlaqələrimizin daha da möhkəmlənməsinə xidmət edəcəkdir.

**Aleksandr Voloşin:** Hörmətli İlham Heydəroviç!

Səmimi sözlərə görə sağ olun. Sizinlə görüşməyimə çox şadam. Həqiqətən, Azərbaycanla Rusiya arasındakı qarşılıqlı münasibətlərin və əməkdaşlığın çox böyük potensialı var. Bu potensialın bünövrəsi əvvəlki ümumi tariximizlə və prezidentlərimiz arasındakı qarşılıqlı anlaşmanın yaxşı səviyyəsi ilə qoyulmuşdur.

Həm iqtisadi, həm siyasi potensialla, həm də ən müxtəlif əməkdaşlıqla artırılan bu qarşılıqlı anlaşma hər iki ölkəyə böyük fayda verə bilər. Rusiya üçün Azərbaycan ən öncül tərəfdaşlardandır. Azərbaycan bizim üçün nəinki yaxın və doğma ölkədir, eyni zamanda, siyasi, iqtisadi baxımdan bizim burada həm dostlarımız, həm də tərəfdaşlarımız var. Bizim burada məsləkdaşlarımız da var. Biz Sizi belə insanlar sırasına aid edirik və çox şadıq ki, əməkdaşlığımız bu cür inkişaf edir. Biz münasibətlərimizin Rusiyanın və Azərbaycanın rifahı naminə ardıcıl surətdə inkişaf etməsi üçün bundan sonra da var qüvvə ilə çalışacağıq. Əslinə qalsa, bu, hər iki dövlətin rifahı naminə ölkələrimizin normal inkişaf edə bilməsi üçün yeganə variantdır. Düşünürəm ki, artıq çox möhkəm bazası olan bu münasibətlərin Rusiya və Azərbaycan xalqlarının rifahı naminə dinamik və ardıcıl surətdə inkişaf etməsi üçün biz – həm Rusiya, həm də Azərbaycan birgə səylər göstərəcəyik.

## UKRAYNANIN ƏMƏK VƏ SOSİAL SİYASƏT NAZİRİ MİXAİL PAPİYEV İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*16 sentyabr 2003-cü il*

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab nazir!

Əziz qonaqlar!

Mən sizi salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Eşitmişdim ki, Bakıya gəlməyə hazırlaşırdınız, bizim nazirlə razılaşmışdınız. Buraya səfərinizdən çox şadıq.

Ölkələrimiz arasında siyasi sahədə də, iqtisadi sahədə də, mədəni sahədə də səmimi münasibətlər, dostluq əlaqələri mövcuddur. Ona görə də Ukraynanın belə səviyyədə nümayəndəsinin hər bir səfəri əlaqələrimizin daha da möhkəmlənməsinə kömək edəcəkdir. Prezidentlərimiz arasında çox yaxşı şəxsi dostluq münasibətləri var. Dövlət başçılarımızın dəfələrlə həyata keçirdikləri qarşılıqlı səfərlər müstəqillik dövründə ölkələrimizin necə yaxınlaşdığını nümayiş etdirmişdir. Keçmişdə bir ölkədə – Sovet İttifaqında yaşadığımız dövrdə də belə olmuşdur. Əlbəttə, indi bu münasibətlər tamamilə yeni səviyyəyə qalxmışdır.

GUÖAM kimi regional təşkilatlar çərçivəsində çox yaxşı əməkdaşlığımız var. Ukrayna ilə Azərbaycan arasında iqtisadi əməkdaşlıq yüksələn xətlə inkişaf edir. Bir çox Ukrayna şirkətləri ölkəmizdə həyata keçirilən layihələrdə iştirak edir, öz məhsullarını göndərirlər. Biz bunda çox maraqlıyıq.

Ölkələrimizin, xalqlarımızın həmişə bir-birinə rəğbət, dostluq hissləri bəslədiyi hamıya məlumdur. Bu gün də beynəlxalq aləmdə bir çox məsələlərdə mövqelərimiz uyğun gəlir. Ona görə də sizə xoş hisslərimizi və bütün istiqamətlərdə əməkdaşlığı davam etdirmək arzusunda olduğumuzu bildirmək istərdim.

Bilirəm ki, nazirliklərimiz arasında səmimi münasibətlər yaranmışdır, təcrübə mübadiləsi aparılır. Son illər Azərbaycanda bu sahədə böyük iş görülmüşdür. Cənab Nağıyevin, onun rəhbərlik etdiyi nazirliyin fəaliyyəti nəticəsində insanlara, ehtiyacı olanlara böyük qayğı göstərilir. Bu, ölkəmizdə xüsusilə aktualdır, çünki bizdə erməni təcavüzündən zərər çəkmiş çoxlu insan, çoxlu yaralı və müharibədə sağlamlığını itirmiş adamlar, əlillər var. Dövlət onların güzəranının yaxşılaşdırılması üçün mümkün olan bütün işləri görür. Nazirliyin xətti ilə evlər, reabilitasiya mərkəzləri, obyektlər tikilir və bunlar, ilk növbədə, döyüşlərdə sağlamlığını itirmiş insanlara kömək edir. Bu insanlara maddi yardım göstərilməsi, onların minik avtomobilləri ilə təmin olunması baxımından da çox işlər görülür və sair. Bütün bu konkret nəticələr və konkret işlər hökumətin sosial siyasəti ilə bağlıdır. Real nailiyyətlərə əsaslanmayan siyasət, bir qayda olaraq, səmərəli olmur.

Eşitmişəm ki, Ukrayna bu istiqamətdə müsbət təcrübəyə malikdir. Odur ki, qarşılıqlı əlaqələr və təcrübə mübadiləsi faydalı olacaqdır.

Mən sizi bir daha salamlamaq və arzu etmək istəyirəm ki, Azərbaycana səfəriniz uğurlu olsun, Vətənə ən xoş təəssüratlarla qayıdasınız. Ümidvaram ki, hər şeyin məhz belə olması üçün yoldaşlarımız əllərindən gələni əsirgəməyəcəklər.

**Mixail Papiyev:** Cənab Baş nazir, çox sağ olun. Əvvəlcə Ukraynanın Baş naziri Viktor Fyodoroviç Yanukoviçin ən səmimi sözlərini Sizə yetirmək istərdim.

Xalqlarımızı çoxdan dostluq telləri bağlayır. Mən Bakıya birinci dəfə gəlirəm, düzünü deyəcəyəm, dərhal hiss etdim ki, münasibətlərimiz protokol çərçivəsindən kənara çıxmışdır. Bəli, sən bir nazir kimi dövlət işlərini həll etməyə gəlirsən. Lakin bu zaman nəinki, sadəcə olaraq, dostluq münasibətləri ilə, hətta deyərdim, qardaşlıq münasibətləri ilə qarşılaşırsan. Mən təəssüratlarımızı Sizinlə bölüşmək istərdim.

Bakıda geniş tikinti işləri aparılır, insanlar öz mənzil şəraitini yaxşılaşdırırlar. Onların həyatı daha firavan olur.

Müəssisələr işləyir. Mən sizin iqtisadi göstəricilərinizlə tanış oldum. Çox gözəldir – istehsalın artım həcmi 10 faizdir! Siz 10 ildə istehsalın həcmini iki dəfə artırmısınız. Bu onun sayəsində əldə edilmişdir ki, ölkənizin prezidenti Heydər Əliyeviç Əliyev əhalinin həyat səviyyəsinin daim yaxşılaşmasına yönəldilmiş dəqiq siyasət aparır. Mən bunu düzgün hesab edirəm. Əmək və sosial siyasət naziri kimi demək istərdim ki, Ukrayna prezidenti Leonid Daniloviç Kuçma mənim təyinatım haqqında fərman imzalayarkən adi sözlər söylədi. Amma mən bu sözləri həmişəlik yadımda saxlamışam. O dedi ki, ümumən hökumətin işi sizin nazirliyinizin işi əsasında qiymətləndiriləcəkdir. Yəni nazirlik demoqrafik proseslərdən tutmuş əmək, peşə təlimi məsələlərinədək tam bir sıra məsələlər üzrə iş aparan nazirliyin fəaliyyəti əsasında qiymətləndiriləcəkdir. İnsan əmək fəaliyyətini başa çatdırdıqdan sonra sosial təminatı bizim nazirliyimiz həyata keçirir. Bir sözlə, insanın bütün həyat yolu, demək olar, nazirliyimizin himayəsi altındadır.

Dünən biz Böyük Vətən müharibəsi və Qarabağ müharibəsi əlillərinin tibbi xidmət almaq, müalicə olunmaq imkanı əldə etdikləri Bərpa Mərkəzinə getmişdik. Mən bu mərkəzə, sadəcə olaraq, heyran qaldım. Biz protez zavodunda da olduq. Sadəcə olaraq, nadir bir müəssisədir. Bizə bildirdilər ki, siz ehtiyacı olanları protezlə 100 faiz təmin edirsiniz. Bu o deməkdir ki, fiziki qüsurları olan adamlar indi dövlətdən pulsuz tibbi yardım ala bilərlər, üstəlik, işləmək imkanına malikdirlər. Zənnimcə, sizdə ən mühüm məsələ, yəni, insanın əmək hüququ təmin edilir. Mən əlillər üçün mənzil tikintisi proqramı ilə tanış oldum. Düşünürəm ki, bu proqramı da Ukraynada tətbiq edəcəyik. Mənzillər dövlət tərəfindən tikilir və pulsuz verilir. Görünür ki, Azərbaycan iqtisadi cəhətdən inkişaf edərək ən başlıca məsələni unutmur, buna görə də insanlar özlərinə, hökumətə inanmağa başlayırlar. İnsanların etimadı hökumət üçün çox vacibdir. Əslinə qalsa, hökumət də elə bunun üçün mövcuddur.

Bilirəm ki, oktyabrın 15-də Azərbaycanda çox mühüm hadisə baş verəcək – ölkə prezidentinin demokratik seçkiləri keçiriləcəkdir. Açığını deyim ki, mən Siz sarıdan arxayınam. O qədər çox iş görürsünüz ki, indi mən Sizə müxalif ola biləcək adamlar görmürəm.

**İ l h a m Ə l i y e v:** Biz də görmürük.

**M i x a i l P a p i y e v:** İlk növbədə, hörmətli Heydər Əliyeviçə cansağlığı arzulamaq istərdim. Arzu edirəm ki, Sizin bütün ideyalarınız həyata keçsin. Ən başlıcası budur ki, bütün bu işlərdə Siz Ukraynanın, Ukrayna xalqının simasında dəstəyə, arxa-dayağa və qardaşlıq yardımına malik olacaqsınız.

**İ l h a m Ə l i y e v:** Cənab nazir, çox sağ olun. Səmimi sözlərə görə sizə təşəkkür etmək istəyirəm. Xahiş edirəm, belə səmimi münasibətə görə ən xoş diləklərimi Ukrayna prezidenti hörmətli Leonid Daniloviç Kuçmaya və Baş nazirə yetirəsiniz. Siz çox düzgün qeyd etdiniz ki, ehtiyacı olanlara dövlət qayğısı və bazar iqtisadiyyatı şəraitində iqtisadi inkişaf Azərbaycanda olduqca yaxşı uyğunlaşdırılır. Son 10 ildə bizdə bu istiqamətdə böyük müsbət dəyişikliklər baş vermişdir. Təxminən 6-7 ildir ümumi daxili məhsulun artımı 10 faiz, inflyasiyanın səviyyəsi isə, təxminən 2 faiz həddində qalmaqdadır. Bu isə əmək haqqını vaxtaşırı qaldırmağa imkan verir. Bu yaxınlarda insanların böyük bir qrupunun – tibb işçilərinin, müəllimlərin, mədəniyyət xadimlərinin və başqalarının əmək haqqı, pensiyalar artırılmışdır.

İqtisadiyyat inkişaf edir, ölkə möhkəmlənir, büdcə genişlənir, valyuta yığımları çoxalır. Sizə deyim ki, valyuta ehtiyatları təqribən 1 milyard 400 milyon dollara çatmışdır. Halbuki 10 il əvvəl valyuta ehtiyatları, ümumiyyətlə, yox idi. Demək istəyirəm ki, bütün bunlar məhz prezidentimiz Heydər Əliyevin iqtisadi sahədə apardığı düşünülmüş siyasətin nəticəsidir.

Əlbəttə, iqtisadi inkişaf əsasən özəl sektorun iştirakı ilə bağlıdır. Bizdə torpaq özəlləşdirilib kəndlilərə paylanmışdır, iqtisadiyyatın bütün sahələrində geniş özəlləşdirmə aparılır. Nəzarət paketlərində özəl sektorun payı dövlət sektorunun

payından çoxdur. Lakin dövlətin vəzifəsi də məhz öz ehtiyatlarından istifadə edərək sahibkarlıq, iqtisadi inkişaf üçün yaxşı şərait yaratmaqdan, ehtiyacı olanlara kömək etməkdən ibarətdir. Siz qeyd etdiniz, mən də demək istəyirəm ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xətti ilə Azərbaycanda ehtiyacı olanların sosial müdafiəsi sahəsində çox böyük iş aparılır. Əminəm ki, bu proses bundan sonra da davam etdiriləcəkdir. Bir sözlə, bu gün nə yaradılmışdırsa, onların hamısı real işlərdir.

Bizdə qaçqın-köçkünlərin çox vacib və ciddi problemlərinin həllində də bu cür proseslər gedir. Ermənistanın təcavüzü və ərazilərimizin 20 faizinin işğal edilməsi nəticəsində bir milyonadək vətəndaşımız qaçqın və məcburi köçkün vəziyyətindədir. Onların əksəriyyəti çox ağır şəraitdə yaşayır. Ona görə də dövlət neft sektorunun inkişafından ilk real gəlir götürən kimi, Neft Fondu yaradıldı. Neft Fondundan elə ilk ayırmalar məhz onların ehtiyaclarına yönəldildi. Prezidentin fərmanı ilə üst-üstə 70 milyon dollar ayrılmış, bu pulun hesabına tamamilə yeni şəhərciklər, qəsəbələr tikilmişdir, çadır şəhərcikləri sökülüb yığışdırılır, qaçqın-köçkünlər torpaq sahələri ilə, lazımi infrastrukturla təmin edilirlər. Bu şəhərciklərə köçənlər müasir evlərdə, çox yaxşı şəraitdə yaşayırlar. Odur ki, prezidentimiz Heydər Əliyevin iqtisadi inkişaf siyasətinin əsas cəhəti məhz bu istiqamətə – bazar münasibətlərinin insana daimi qayğı ilə uyğunlaşdırılmasına yönəldilmişdir. Bəzən elə olur ki, bu iki istiqamət bir-biri ilə uyğun gəlmir. Ya bazar münasibətləri olmur, – belə cəmiyyətdə biz də yaşamışıq, – ya da əksinə olur. Yəni bazar münasibətlərinin həddindən artıq inkişaf etdiyi yerdə insana qayğı arxa plana keçir. Biz bunu insanın taleyinin ümidinə buraxıldığı bəzi ölkələrin təcrübəsindən bilirik. O mənada ki, get, necə istəyirsən, elə də yaşa. Ona görə də bu iki istiqamətin uyğunlaşdırılması, zənnimcə, çox vacibdir.

Azərbaycan çox yaxşı iqtisadi inkişaf perspektivlərinə malikdir. Bizdə neft, kommunikasiya layihələri həyata keçirildikdən sonra böyük məbləğdə valyuta əldə ediləcəyi

gözlənilir. Bu, sonrakı 2-3 il ərzində baş verəcəkdir. Əlbəttə, siyasətimiz, ilk növbədə, insana qayğıdan ibarətdir. Bunu nəzərə alaraq, neft layihələrimizin gerçəkləşdirilməsi sayəsində 2-3 il ərzində həyat səviyyəsinin nə qədər yüksələcəyini təsəvvür etmək olar. Bunu sizdən eşitmək mənim üçün çox xoşdur. Biz burada yaşayırıq, necə deyərlər, adət edirik və bizə elə gəlir ki, belə də olmalıdır. Bunu buraya yenicə gəlmiş, xüsusən də belə yüksək vəzifə tutan adamdan eşitmək ikiqat xoşdur. Ona görə də əminik ki, Prezidentin siyasəti bundan sonra da davam edəcəkdir. İstər dövlətin müstəqilliyinin möhkəmlənməsi baxımından, istərsə də Azərbaycanın dünyada layiqli yer və regionda lider mövqeyi tutması baxımından bu siyasətin alternativi yoxdur. Biz bütün istiqamətlərdə müsbət irəliləyiş görürük.

Səmimi sözlərə görə sizə bir daha təşəkkür edirəm. Düşünürəm ki, xalqlarımızın rifahı naminə ölkələrimiz və hökumətlərimiz bu istiqamətdə bundan sonra da işləyəcəklər.

**Boris Aleksenko** (*Ukraynanın Azərbaycandakı səfiri*): Hörmətli cənab Baş nazir!

Əvvəla, vaxt tapıb, nazir başda olmaqla Ukrayna nümayəndə heyətini qəbul etdiyinizə görə Sizə çox minnətdaram. Nazirimizi dəvət etdiyinə görə nazir Əli Nağıyevə təşəkkür edirəm. Bu iki gündə mən özüm üçün çox şey kəşf etdim. Azərbaycan mənə tanış olsa da, təsdiqləmək istərdim ki, Azərbaycanın və dünyanın görkəmli dövlət və siyasi xadimi Heydər Əliyeviç Əliyevin apardığı xarici və daxili siyasət nəticəsində, həyata keçirilmiş islahatlar, neft sahəsindəki strateji xətt sayəsində xarici sərmayələr üçün, iqtisadiyyatın yüksəldilməsi üçün çox əlverişli şərait yaradılmışdır. İqtisadiyyatın əsasında sosial sahədə çox işlər görülür. Bu iki gündə gördüklərim mənim üçün kəşf idi. Sosial şərait yaradılmasına Siz də çox böyük şəxsi töhfə vermisiniz. Siz neft sahəsinin, idmanın, demokratiyanın inkişafına da böyük töhfə vermisiniz. Dünən və bu gün biz sosial sahədə böyük dəyişikliklərin şahidi olduq, ən müasir texnika ilə təchiz edilmiş Bərpa Mərkəzinə

getdik. Biz istər Qarabağ müharibəsinin, istərsə də Böyük Vətən müharibəsinin əlillərindən Heydər Əliyeviçin və onlara xidmət edən həkimlərin ünvanına minnətdarlıq sözləri eşitdik. Biz onların ünvanına minnətdarlıq ifadə olunan şeirlər eşitdik. Bizim üçün çox xoşdur ki, bu obyektlərin sayı getdikcə artır, insanlar qayğı və diqqətlə əhatə olunmuşlar.

İki nazirlik arasında danışıqlar da yaxşı nəticələr vermişdir. Hər iki nazir əlil arabacıqları buraxan müştərək müəssisələr yaradılması haqqında razılığa gəlmişdir. Cənab nazir təvazökarlıq edir, o, əlillərə bir neçə arabacıq bağışlamağı qərara almışdır. Düşünürəm ki, biz bunları yaxın vaxtlarda təqdim edəcəyik. İnformasiya və təcrübə mübadiləsinin yeni yolları da müəyyənləşdirildi. Mənə elə gəlir ki, cənab Nağıyevin Ukraynaya cavab səfəri əməkdaşlıq üçün daha böyük imkanlar açacaqdır. Bu səfər bütün sahələrdə münasibətlərimizin dərinləşməsinə və genişlənməsinə yönəldilən siyasətin davamı olacaqdır. Bizdə əhalinin 30 faizi pensiyaçılardır. Onların mənafelərinin qorunması siyasi vəzifədir. Sizdə də belədir. Odur ki, Sizə, hökumətə uğurlar arzulayırıq. Xoş arzularımızı cənab Prezidentə yetirin. Biz onun tezliklə sağalıb Vətənə dönməsini diləyirik. Sizə sülh, tərəqqi arzulayırıq. Siyasətdəki varislik və ardıcıllıq müsbət nəticələr verir. Biz Sizin uğurlarınıza şadıq.

**İlham Əliyev:** Boris Qriqoryeviç, səmimi sözlərə görə sağ olun. İki nazirlik arasında qarşılıqlı anlaşmanın və əməkdaşlığın belə səviyyədə olmasına çox şadam. Belə gözəl hədiyyəyə görə cənab nazirə çox minnətdaram. Müştərək müəssisə yaradılmasının planlaşdırılması çox müsbət haldır. Biz bir-birimizə kömək göstərməli və əməkdaşlıq etməliyik, təcrübəmizi bölüşə bilərik. Bu istiqamətdə əldə edilənlərin hamısını mən ancaq alqışlayıram. Əminəm ki, sizin Azərbaycana səfəriniz kimi, Əli Nağıyevin Ukraynaya səfəri də uğurlu olacaqdır.

**Əli Nağıyev:** Cənab Baş nazir! Belə gərgin dövrdə, seçkilər qarşısında vaxt tapıb bizi qəbul etdiyinizə görə Sizə

təşəkkür etmək istəyirəm. İndi Siz mühüm siyasi, iqtisadi və sosial vəzifələrin həlli ilə məşğulsunuz. Ölkəmizdə qarşıdakı seçkilərə hazırlığın gedişini bir çox xarici dövlətlər və beynəlxalq təşkilatlar müşahidə edirlər. Azərbaycana gələn qonaqlar dəfələrlə vurğulayırlar ki, ölkə ən yüksək beynəlxalq standartlara uyğun, əsl demokratik seçkilər keçirməyə hazırdır.

**M i x a i l  P a p i y e v:** Hörmətli İlham Heydəroviç!

Məni möhtərəm səfirimizlə birlikdə qəbul etməyə vaxt tapdığınıza görə sağ olun. Bu gün prezidentlərimizə ünvanlanmış təşəkkür sözlərimiz çox səmimi sözlər idi. Ölkələrimizin xalqları bundan sonra da dost kimi yaşayacaqlar və dövlətlərimiz yardıma ehtiyacı olan insanların sosial problemlərinin həllinə təminat verəcəklər.

Biz kiçik bir hədiyyə – süvari heykəlciyi hazırlamışıq. Arzumuz budur ki, Siz həmişə yüksəkdə olasınız.

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TƏKBƏTƏK GÖRÜŞDƏ SÖHBƏT*

*Yalta, Livadiya sarayı*

*18 sentyabr 2003-cü il*

**V l a d i m i r  P u t i n:** Cənab Baş nazir, Sizi görmək, yenidən və yeni vəzifədə qarşılamaq mənim üçün çox xoşdur. Mən Sizi, ilk növbədə, bu yüksək vəzifəyə təyin olunmağınız münasibətilə təbrik etmək istəyirəm. Əminəm ki, bu, uğurlu seçimdir. Son vaxtlar bizim əlaqələrimizin inkişafı barədə ölkələrimizin ictimaiyyətinə təqdim etməli məsələlər var. İndicə mən ötən il üçün məlumatı nəzərdən keçirdim və gördüm ki, ötən il ölkələrimiz arasında əmtəə dövriyyəsi 70 faiz, bu ilin ilk beş ayında isə 20 faiz artmışdır. Çox yaxşı dinamikadır və ümidvaram ki, Azərbaycan Prezidenti ilə söhbətlərimiz də öz bəhrəsini verir. Sizdən xahiş etmək istəyirəm ki, ilk fürsət düşən kimi, ilk imkan yaranan kimi mənim ən xoş arzularımı Prezidentə yetirəsiniz. Biz ümidvarıq ki, o sağalacaq, hər şey normal olacaqdır. Biz bilirik ki, hazırda Azərbaycan getdikcə genişlənən seçkiqabağı mübarizə şəraitindədir. Lakin ümidvar olduğumu ifadə etmək istəyirəm ki, daxili siyasi proseslər ikitərəfli münasibətlərin inkişafının sürətinə təsir göstərməyəcək və o, davam edəcəkdir.

---

* Azərbaycan Respublikasının Baş naziri İlham Əliyev Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşündə iştirak etmək üçün sentyabrın 18-də Ukraynanın Yalta şəhərinə gəlmişdir.

Yaltada Baş nazir İlham Əliyev ilə Qazaxıstan Respublikasının prezidenti Nursultan Nazarbayev, Ukrayna prezidenti Leonid Kuçma, Gürcüstan prezidenti Eduard Şevardnadze arasında da təkbətək görüş olmuşdur.

**İ l h a m  Ə l i y e v:** Cənab Prezident, səmimi sözlərə görə çox sağ olun. Mən, ilk növbədə, Prezidentimizin xahişini yerinə yetirmək və Sizə onun ən xoş arzularını çatdırmaq, işinizdə uğurlar dilədiyini bildirmək istərdim. Bizə də çox xoşdur ki, ölkələrimiz arasında münasibətlər bütün sahələrdə dinamik inkişaf edir və siyasi baxımdan da çox yaxşı qarşılıqlı fəaliyyət var. İqtisadiyyata gəldikdə, qeyd etdiyiniz kimi, əmtəə dövriyyəsi sürətlə artır və qarşılıqlı surətdə faydalı olan bir çox layihələr həyata keçirilir. Ancaq deməliyəm ki, münasibətlərimizin belə inkişafına başlıca təkan Sizin Azərbaycana səfərinizdən sonra verilmişdir. Bilirsiniz ki, Rusiya Prezidentinin səfərini Azərbaycanda çoxdan gözləyirdilər və Siz bu səfəri həyata keçirməyi qərara aldıqda, bu səfərdən dərhal sonra hiss etdik ki, bütün istiqamətlərdə çox sürətli irəliləyiş yarandı və münasibətlərimiz fəallaşmağa başladı. Biz bunu çox əziz tuturuq. Prezidentimiz dəfələrlə bəyan etmişdir ki, Rusiya Azərbaycan üçün strateji tərəfdaşdır. İndi bu siyasət aparılır və gələcəkdə də aparılacaqdır. Dövlətlərarası münasibətlərin bütün səviyyələrində yeni uğurlar qazanmağımız, daha yaxından qarşılıqlı fəaliyyət göstərərək ölkələrimizə və xalqlarımıza fayda gətirməyimiz üçün biz özümüzdən asılı olan bütün işləri görəcəyik. Fürsətdən istifadə edərək, Azərbaycan Prezidenti müalicə olunarkən ona göstərdiyiniz qayğıya görə də Sizə öz şəxsi təşəkkürümü bildirmək istəyirəm. Biz bunu yüksək qiymətləndiririk. Bunu Azərbaycanda yüksək qiymətləndirir və həmişə yadda saxlayacaqlar.

**V l a d i m i r  P u t i n:** Zənnimcə, buna görə təşəkkür etmək lazım da deyildir. Bu, müqəddəs işdir. Təkcə bu məsələlərdə deyil, hər hansı digər məsələlərdə də bizim köməyimizə ümid bəsləyə bilərsiniz. Əgər səfərlər əlaqələrimizə belə kömək edirsə, Sizi Moskvaya işgüzar və ya rəsmi səfərə dəvət etmək istəyirəm. Səfərin formatını yəqin ki, Rusiya Federasiyasının hökuməti ilə razılaşdıracaqsınız.

Təkrar edirəm, bütün seçkiqabağı işlərə baxmayaraq, biz çox istərdik ki, münasibətlərimizin inkişaf sürətini itirməyək. Bizim ən müxtəlif sahələrə dair müzakirələr aparmaq üçün imkanımız var. Odur ki, zənnimcə, bu, yerinə düşəcəkdir.

## AVSTRİYA RESPUBLİKASININ FEDERAL ƏDLİYYƏ NAZİRİ DİTER BÖHMDORFERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*20 sentyabr 2003-cü il*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab nazir! Hörmətli qonaqlar!

Mən sizi salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Avstriya ilə Azərbaycan arasında münasibətlər inkişaf edir. Biz ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin möhkəmlənməsində və genişlənməsində çox maraqlıyıq. Öz tərəfimizdən çalışacağıq ki, gələcəkdə bütün sahələrdə, xüsusilə iqtisadi sahədə əlaqələrimiz yeni pilləyə qalxsın.

Azərbaycan Respublikasının prezidenti cənab Heydər Əliyevin Avstriyaya səfərindən sonra biz ikitərəfli münasibətlərimizin inkişafında nəzərəçarpacaq dərəcədə addım atıldığını hiss etdik. Əlbəttə, biz ümidvarıq ki, ilk növbədə, iqtisadi sahədə mövcud olan ikitərəfli faydalı əməkdaşlıq öz nəticələrini verəcəkdir.

Azərbaycan sürətlə inkişaf edən ölkədir. Biz üç ildir Avropa Şurasının üzvüyük və bu təşkilatda çox fəal iştirak edirik. Eyni zamanda, ölkəmiz iqtisadi sahədə böyük uğurlar əldə etmişdir, Azərbaycana böyük həcmdə xarici sərmayə qoyulur, ümumi daxili məhsul sürətlə artır.

Avropa ailəsinə inteqrasiya istiqamətində bütün sahələrdə – həm siyasi müstəvidə, həm də iqtisadi baxımdan dinamik addımlar atılır. Bizim siyasətimiz məhz bundan ibarətdir. Adambaşına düşən xarici sərmayələrin həcminə görə, Azərbaycan keçmiş sovet respublikaları arasında qabaqcıl yerdədir. Bu onu göstərir ki, ölkəmizdə xarici sərmayədarlar üçün çox geniş şərait yaradılmışdır. Çox istərdik ki, Avstriyanın şirkətləri də

Azərbaycana gəlsin, sərmayə qoysun və beləliklə, iki ölkə arasında münasibətlər daha da güclənsin və genişlənsin.

Bilirik ki, ölkələrimizin ədliyyə nazirlikləri arasında da gözəl münasibətlər qurulmuşdur. İmzalanmış sənədlər onu göstərir ki, bu münasibətlər gələcəkdə də yüksək səviyyədə olacaqdır.

Sizi bir daha salamlayıram, əminəm ki, səfəriniz uğurlu olacaqdır.

**D i t e r B ö h m d o r f e e r:** Cənab Baş nazir, Sizə və əməkdaşlarınıza minnətdarlığımı bildirmək istəyirəm. Biz bilirik ki, Sizin iş cədvəliniz çox sıxdır. Lakin buna baxmayaraq, vaxt ayırıb bizi qəbul etdiyinizə görə Sizə təşəkkürümü bildirirəm.

Bizim bu görüşümüz sizin ölkənin Ədliyyə nazirinin şəxsi təşəbbüsü ilə baş tutmuşdur. Buna görə mən ona da öz minnətdarlığımı bildirərək, ümidvar olduğumu ifadə etmək istəyirəm ki, nazirliklər arasında əməkdaşlıq bundan sonra da inkişaf etdiriləcəkdir. Mən öz tərəfimdən çalışacağam ki, Azərbaycana Avstriya iş adamlarının sərmayəsi cəlb olunsun.

Biz onu da bilirik ki, müstəqillik əldə etdikdən sonra ölkənizin keçdiyi yol çox ağır olmuşdur. Lakin Azərbaycanda Konstitusiyanın qəbul edilməsi, ölüm hökmünün ləğv olunması və Avropa Şurasına üzv olmağınız məhz ölkənizin prezidenti cənab Heydər Əliyevin böyük xidmətləridir. Biz bu işlərin onun fəaliyyəti nəticəsində gerçəkləşdiyini bilirik.

Mən Avstriya Prezidentinin də salamlarını Sizə çatdırıram. Ölkənizdə gedən proseslər haqqında dəqiq məlumata malik olduğumuzu bildirmək istəyirəm. Eyni zamanda, bizə məlumdur ki, Siz Azərbaycanın bugünkü siyasətində müstəsna rola malik bir insansınız. Qarşıdan prezident seçkiləri gəlir. Bu seçkilərdə Azərbaycana və Sizə uğurlar arzulayıram.

Biz Avstriyaya dönərkən Azərbaycanda olan qonaqpərvərlikdən ətraflı bəhs edəcəyik və çalışacağıq ki, ölkənizin sənayesinə sərmayə qoyuluşu geniş vüsət alsın.

Qonaqpərvərliyə görə nümayəndə heyətinin üzvləri adından və şəxsən öz adımdan Sizə bir daha minnətdarlığımı bildirmək istəyirəm.

## AZƏRBAYCAN HÖKUMƏTİ ADINDAN RUS MƏTBUATININ V ÜMUMDÜNYA KONQRESİ İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ QƏBULDA NİTQ*

*20 sentyabr 2003-cü il*

Hörmətli konqres iştirakçıları!
Hörmətli Lyudmila Aleksandrovna!
Xanımlar və cənablar!

İcazə verin, sizi Azərbaycan Respublikası hökuməti adından salamlayım və bu gün Azərbaycanda olduğunuza görə sizə təşəkkür edim. Biz çox şadıq ki, Rusiya Federasiyasının hörmətli prezidenti, Azərbaycan xalqının böyük dostu Vladimir Vladimiroviç Putinin xanımı bu gün Vətənimizin paytaxtına təşrif gətirmişdir. Bu, ölkələrimiz arasındakı münasibətlərin dostluq, qardaşlıq xarakteri daşıdığını bir daha nəzərə çarpdırır. Rusiya prezidenti Vladimir Vladimiroviç Putinin Azərbaycana rəsmi səfərindən, prezident Heydər Əlirza oğlu Əliyev ilə keçirdiyi danışıqlardan, görüşlərdən sonra münasibətlərimizin inkişafına güclü təkan verilmişdir. Onların arasındakı dostluq, qarşılıqlı anlaşma, dərin şəxsi rəğbət ölkələrimizin münasibətlərinin son üç ildə müşahidə etdiyimiz sürətli inkişafını əvvəlcədən bir çox cəhətdən müəyyənləşdirmişdir. Ümidvaram ki, gələcəkdə ölkələrimiz arasında münasibətlər ancaq yüksələn xətlə inkişaf edəcəkdir.

Mən dünən və srağagün, iki gün ərzində Yaltada MDB ölkələri dövlət başçılarının görüşündə oldum və mənə prezident Vladimir Putin tərəfindən rəsmən qəbul edilmək şərəfi nəsib oldu. Bizim çox yaxşı, konstruktiv söhbətimiz oldu, qarşılıqlı fəaliyyətin bütün istiqamətlərində münasibətlərin daha da dərinləşdirilməsinə ölkələrimizin sadiq qaldığını bir daha təsdiqlədik.

---

* Qəbulda Rusiya Federasiyası Prezidentinin xanımı Lyudmila Putina nitq söyləmişdir.

Odur ki, bu fürsətdən istifadə edərək mənə çox səmimi, xoş münasibət göstərdiyinə görə Vladimir Vladimiroviçə dərin minnətdarlığımı bildirmək istəyirəm. Mən belə görüşlərdə ilk dəfə iştirak edirdim və təbii ki, onun mehribanlığı, dəstəyi, xoş sözləri, ümumən, sammitin uğurla başa çatması üçün, habelə bizim münasibətlərimiz üçün, zənnimcə, çox mühüm rol oynadı.

Mən bu gün Rus Mətbuatının Ümumdünya Konqresinin iştirakçılarını da ürəkdən salamlamaq istərdim. Azərbaycanın konqresin keçiriləcəyi yer seçilməsi bizim üçün böyük şərəfdir. Lakin hesab edirəm ki, bu, təsadüfi deyildir. Azərbaycanda rus dilinə, rus mədəniyyətinə, mətbuatına olan münasibət, zənnimcə, dünyanın bir çox digər ölkələri üçün də keçmişimizə qayğıkeşliklə yanaşmağın, qarşılıqlı mehriban münasibətlərimizin, əlaqələrimizin qayğı ilə qorunub saxlanması və möhkəmləndirilməsi üçün örnək olmalıdır.

Bu gün dünyada rus mətbuatını irəliyə aparan və onu inkişaf etdirən qonaqlarımızla, müxtəlif ölkələrin nümayəndələri ilə dostcasına görüşdə dedim ki, müstəqillik əldə edildikdən sonra Azərbaycanda rus dilində nəşrlərin sayı azalmamış, əksinə, artmışdır. Bu, prezidentimiz Heydər Əlirza oğlu Əliyevin ölkələrimiz arasında daha sıx inteqrasiyaya yönəlmiş strateji xəttinin daha bir sübutudur. Biz xalqlarımızı və ölkələrimizi birləşdirən yaxşı nə varsa, hamısını qoruyub saxlamalı və artırmalıyıq.

Mən ölkələrimizin şərəfinə, Rusiyanın və Azərbaycanın şərəfinə, onların keçmişi, bu günü və gələcəyi şərəfinə badə qaldırmaq istəyirəm. Əminəm ki, bütün istiqamətlərdə münasibətlərimizin möhkəmləndirilməsi və inkişafı ölkələrimizin mənafeyinə uyğundur.

Azərbaycan hökuməti adından sizi əmin edə bilərəm ki, biz münasibətlərimizin inkişafı və möhkəmlənməsi, bu münasibətlərin ölkələrimizə və xalqlarımıza xeyir gətirməsi üçün əlimizdən gələni edəcəyik.

Sizin sağlığınıza!

## RUS MƏTBUATININ V ÜMUMDÜNYA KONQRESİNİN İŞTİRAKÇILARI İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Bakı, Yaxt-klub*

*20 sentyabr 2003-cü il*

Hörmətli Vitali Nikitiç, hörmətli qonaqlar!

İcazə verin, sizi salamlayım və Azərbaycanda Rus Mətbuatı Konqresinin uğurla keçirilməsi münasibətilə təbrik edim. Bu bizim üçün çox böyük və mühüm hadisədir. Biz çox istəyirdik ki, bu konqres Bakıda keçirilsin. Odur ki, təkliflərimiz qəbul edildiyinə görə bu təşkilatın rəhbərliyinə çox minnətdarıq.

Hesab edirəm ki, biz haqlı olaraq V Konqresin keçirilməsinə ev sahibliyi etmək şərəfinə layiq idik, çünki Azərbaycanda rus dilinə, rus mədəniyyətinə münasibət də, rus mətbuatının fəaliyyəti də çox yüksək səviyyədədir. Biz dövlətlərarası, hökumətlərarası səviyyədə və sadəcə, insanlar arasında mövcud olan münasibətlərimizi çox əziz tutmuşuq və tuturuq. Bizim üçün çox dəyərlidir ki, on ildən artıqdır müxtəlif dövlətlərdə yaşasaq da, bizi yaxınlaşdıran və əlaqələrimizi təcəssüm etdirən yaxşı və səmimi nə varsa, hamısını qoruyub saxlamışıq və zənnimcə, hətta möhkəmləndirmişik. Prezidentimizin bu siyasəti gələcəkdə mütləq davam etdiriləcəkdir.

Mən elə srağagün Yaltada Rusiya prezidenti, hörmətli Vladimir Vladimiroviç Putinlə görüşmək şərəfinə nail oldum. Onun məni belə səmimiliklə qarşılaması bir daha sübut edir ki, ölkələrimiz arasında münasibətlər ən yüksək səviyyədədir. Biz çox yaxşı görüşlər keçirdik, ikitərəfli münasibətlər və bu münasibətlərin gələcəkdə necə inkişaf etməsi barədə açıq və ətraflı danışdıq. Deməliyəm ki, bizim söhbətimiz daha böyük əminlik yaratdı ki, ölkələrimiz bundan sonra da bütün

istiqamətlərdə fəal əməkdaşlıq edəcək, həm ikitərəfli münasibətlərdə, həm də beynəlxalq aləmdə bir-birinə kömək göstərəcək və bununla da əlaqələrimizin daha da möhkəmlənməsinə kömək edəcək. Bu münasibətlərin bizim üçün prinsip etibarilə böyük əhəmiyyəti vardır. Biz şadıq ki, indi, ilk növbədə, iki prezidentin səyləri ilə münasibətlərimiz uğurla inkişaf edir. Bakıda V Ümumdünya Rus Mətbuatı Konqresinin keçirilməsi dediklərimə daha bir sübutdur.

Mən eşitdim ki, konqres uğurla keçir, çoxlu faydalı iş görülmüşdür. Bu, əlbəttə, vacibdir. Lakin bizim üçün daha vacibi odur ki, Bakıya gəlmiş bütün qonaqlarımız və dostlarımız ölkəmizlə, xalqımızla daha yaxından tanış olmaq imkanı əldə etmişlər. Mən dəfələrlə demişəm, biz heç də bərabər vəziyyətdə deyilik. Rusiyada nələr baş verdiyi barədə bizim tam məlumatımız vardır. Çünki ölkəmiz keçmiş Sovet İttifaqı respublikaları arasında Rusiyanın telekanallarının qəbul edildiyi və Rusiya qəzetlərinin çap olunduğu çox az respublikadan biridir. Odur ki, Rusiyada nələr baş verdiyi bizə məlumdur, Azərbaycanda baş verənlər isə Rusiya cəmiyyətinin heç də geniş dairəsinə məlum deyildir. Zənn edirəm ki, bu konqresin Bakıda təşkili və həmin istiqamətdə gələcəkdə həyata keçiriləcək birgə proqramlar Azərbaycanın bu günü haqqında həqiqətin Rusiyada geniş ictimaiyyətin diqqətinə çatdırılmasına kömək göstərəcəkdir. Bu baxımdan konqresin Azərbaycanda keçirilməsi böyük əhəmiyyət kəsb edir.

Vitali Nikitiçə, Bakıda konqresin keçirilməsinə kömək etmiş bütün dostlarımıza və yaxınlarımıza bir daha öz minnətdarlığımı bildirmək istəyirəm və ümid edirəm ki, biz gələcəkdə Bakıda, Moskvada görüşmək üçün mütləq yeni formalar axtarıb tapacağıq.

Ən başlıcası odur ki, bu əlaqələr davam etsin və münasibətlərimiz möhkəmlənsin. Mən, həmçinin ümid edirəm ki, hava bir o qədər yaxşı olmasa da, Bakı haqqında təəssürat sizin yaddaşınızda uzun müddət qalacaqdır.

**V i t a l i  İ q n a t e n k o** (*Rusiyanın İTAR-TASS agentliyinin baş direktoru*): Sizinlə görüşmək imkanına görə çox sağ olun. Düşünürəm ki, bu, işimizin davamıdır. Əminəm ki, həmkarlarım Sizə öz suallarını verəcək və minnətdarlıq hisslərini bildirəcəklər. Mən də elə bundan başlayacağam.

Mənə elə gəlir ki, çox gözəl təşkil edildiyi üçün bu konqres indiyədək keçirdiklərimizin ən yaxşısıdır. Yeri gəlmişkən, Sizin çox yaxşı, cavan və fəal komandanız var və bu komanda çox sədaqətli və beynəlmiləldir. Hətta Slavyan Universitetinin volontyorları, bu gənc istedadlar da bizim qayğımıza qalırdılar. Biz bu tələbələrin öz işlərinə necə həvəslə, istəklə yanaşdıqlarını gördük. Bütün bunlara görə çox sağ olun.

Siz tamamilə düzgün dediniz ki, konqresin keçirilməsi üçün sizin gözəl ölkəniz – Azərbaycan təsadüfən seçilməmişdir. Hər şeydən əvvəl, biz Azərbaycan prezidenti Heydər Əliyevin iki il bundan əvvəl irəli sürdüyü təklifi nəzərə almalı idik. Mən başa düşürdüm ki, bu, bir növ bizim qarşılıqlı öhdəliyimizdir. Bizim tərəfimizdən məzmunlu və ciddi iş tələb olunur. Digər tərəfdən, hələ iki il bundan əvvəl Heydər Əliyeviç Bakının daha gözəl olacağını deyirdi. Elə belə də oldu.

Mənə belə gəlir ki, xarici teleqraf agentliklərinin beş baş direktorunun burada iştirak etməsi çox əhəmiyyətlidir, onların çoxu informasiya naziridir. Burada mən Küveytdən, Çindən olan həmkarlarımı görürəm. Onlar çox ciddi və tanınmış jurnalistlərdir, neçə illərdir ki, Azərbaycanı gözəl tanıyırlar və onun inkişafını izləyirlər. Zənnimcə, bu gün onlar Azərbaycan barədə çox söz deyə bilərlər. Artıq hamıya bəllidir ki, ölkəniz çox böyük sürətlə inkişaf edir. Azərbaycanı belə irəliləyişdə görmək bizim üçün çox vacib idi. Biz konqresin gedişində qərarlar qəbul etdik və sizə demək istəyirəm ki, qarşıda bizi televiziya yaradılmasına dair böyük iş gözləyir.

Biz bilirik ki, Azərbaycan rus dilində nəşrlərin sayına görə Qazaxıstan və Ukrayna ilə birlikdə bir neçə ölkədən biridir. Elə təkcə "Bakinski raboçi" qəzeti zəngin tarixə malikdir, öz nəşrinə ötən yüzilliyin əvvəllərində başlamışdır. Biz Bakıdakı

rus mətbuatının tarixini gözəl bilirik. Bu gün müxalifət qəzetləri bəlkə də daha çoxdur. Məncə, bu, qorxulu deyildir. Ümumiyyətlə, rusdilli mətbuat öz mahiyyəti etibarilə həmişə müxalif mətbuat olmuşdur. Bundan qorxmaq lazım deyil, bu, normal demokratik cəmiyyətdə normal prosesdir.

Mənə elə gəlir ki, Sizin qonaqpərvərliyinizin əvəzini yaxşılıqla çıxmalıyıq. Bu gün biz Slavyan Universitetində olduq və onun məzunlarından biri – Mixail Qusman orada Səməd Vurğunun şeirlərini oxudu. Düşünürəm ki, biz burada iştirak edənlərin səyləri ilə sizin Slavyan Universitetinin tələbələrini Moskvaya və ölkəmizin başqa regionlarına təcrübə keçməyə dəvət edə bilərik. Hesab edirəm ki, bu, faydalı olacaq və respublikalar arasında canlı əlaqə meydana gələcək, mətbuatınızın inkişafına canlı töhfə veriləcəkdir.

Şəxsən Sizə bir daha təşəkkürümü bildirmək və nadir bir hədiyyəni – Berlində rus dilində nəşr olunmuş “Antologiya sovremennoy Azerbaydjanskoy liriki” kitabını təqdim etmək istəyirəm.

**Mixail Seslavinski** (*Rusiyanın mətbuat, teleradio verilişləri və kütləvi informasiya vasitələri nazirinin birinci müavini*): Azərbaycanda mətbuat və teleradio verilişləri nazirliyinin olmadığını eşitdikdə əvvəlcə heyrətə gəldim. Sizdə kütləvi informasiya vasitələrinin qeydiyyatdan keçirilməsi şərtlərinin Rusiya Federasiyasındakına nisbətən daha liberal olduğunu, kütləvi informasiyanın çap vasitələrinin, onların yaradıldığı barədə Ədliyyə Nazirliyini, sadəcə, xəbərdar etməli olduğunu, lakin onun icazəsini gözləmədən bir həftədən sonra mətbu KİV-in nəşrinə başlandığını eşitdikdə, daha da heyrətləndim. Belə şərait yaradılması məsələləri ilə bizim nazirlik də məşğul olur. Bəlkə onu da hökumətin tərkibindən çıxarmaq olar.

Mən minnətdarlıq hissi ilə bir daha demək istəyirəm ki, Rusiya telekanallarının verilişləri təkcə Bakıda deyil, Azərbaycan Respublikasının ərazisində də yayımlanır. Bizə söylədilər ki, birinci kanalı da, RTR kanalını da hətta dağ yerlərində, bir

çox kəndlərdə qəbul etmək mümkündür. Biz gördük ki, burada peyk televiziyası kifayət qədər inkişaf edib və çoxlu antena var, rusdilli qəzetlər – "Exo" və "Zerkalo" tirajlarına görə Bakıda ən populyar nəşrlərdəndir. Əlbəttə, bu, çox xoşdur.

Şəhərdə gəzərkən görürdük ki, insanlar bizi – moskvalı qonaqları çox mehribanlıqla və səmimiyyətlə qarşılayırlar. Onlar rus dilində yaxşı danışır və Rusiyada baş verən hadisələrə canlı maraq göstərirlər. Bilirsinizmi, Rusiyanın kütləvi informasiya vasitələri Azərbaycanda baş verən hadisələrdən, əslində, ətraflı söhbət açırlar, xüsusilə indi, seçkiqabağı proses gedəndə çoxlu məqalə dərc olunur. Dünən "İzvestiya"nın bütöv bir səhifəsində Azərbaycan Prezidenti haqqında məqalə dərc edilmişdir. Əlbəttə, jurnalistlər öz materialının oxucuda daha canlı reaksiya doğurması üçün onu daha kəskin şəkildə təqdim etməyə çalışırlar. Vitali Nikitiç tamamilə haqlıdır. Bu, normal haldır. Yəqin elə bir dövlət yoxdur ki, orada jurnalistlər öz materialını maksimum kəskin şəkildə təqdim etməyə çalışmasınlar. Demək istəyirəm, Bakıda səmimiyyətlə qarşılanmağımız göstərir ki, təkcə siyasi, iqtisadi səviyyədə deyil, başqa səviyyələrdə də əməkdaşlığımız üçün böyük imkanlar mövcuddur. Məsələn, sizdə güclü Ekologiya naziri var - Hüseyn Bağırov. O öz təsərrüfatını bizə göstərdi. Biz onun öz işinə nə qədər qüvvə və enerji sərf etdiyini gördük. Hələ Mixail Solomonoviç demişdi ki, kaş bizdə də belə nazir olaydı.

Biz onu da dedik ki, birinci kanalda nümayiş etdirmək üçün Azərbaycanın təbii parkları və qoruqları haqqında verilişlər hazırlamaq lazımdır. İndi Rusiyada olduqca çox elmi-kütləvi nəşrlər var, onlardan biri də "Vokruq sveta" jurnalıdır.

Gələcəkdə turizmi inkişaf etdirmək üçün ekspedisiyalar da təşkil etmək olar. Siyasi və insani səviyyədə mövcud olan əməkdaşlıq intensiv turist mübadiləsinə çevrilməlidir.

Bizə göstərilən səmimi qəbula görə bir daha minnətdarlığımı bildirirəm.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Sizin bu sözlərinizi eşitmək bizim üçün çox xoşdur. Bizdə Mətbuat Nazirliyi yoxdur,

lakin çap məhsullarının qeydiyyata alınması prosedurunun olmaması, əlbəttə, müsbət haldır və bu da ona gətirib çıxarmışdır ki, indi Azərbaycanda 500-dən artıq qəzet və jurnal çıxır. Bilmirəm, onları kimlər və neçəsini oxuya bilər. Hər halda, bu, əlbəttə, müsbət faktdır. Bəlkə də hansısa bir ailə, yaxud bir qrup adam hər hansı bir qəzet buraxır. Lakin vəziyyət tamamilə liberaldır və bu, əlbəttə, müsbət haldır. İnsanlar istədiklərini oxumaq hüququna malikdirlər. Qəzetlərin müxalifətyönümlü olmasına gəldikdə isə, biz buna vərdiş etmişik. Çünki 1992-ci ildə, əvvəlki rəhbərliyin dövründə Azərbaycanda tətbiq olunmuş senzura Prezidentimizin fərmanı ilə çoxdan ləğv olunmuşdur. Odur ki, bu gün hər kəs ağlına gələni yaza bilir.

Bununla belə, böyük nüfuza malik olan bir neçə nəşr, o cümlədən rusdilli nəşrlər də vardır. Yeri gəlmişkən, sovet dövrü ilə müqayisədə Azərbaycanda rusdilli nəşrlərin sayı artmışdır. Əvvəllər yalnız "Bakinski raboçi", "Vışka" qəzetləri çıxırdı, indi isə onların sayı çoxalmışdır. Bu onu göstərir ki, həmin qəzetlər oxunur. Səbəbi də yəqin ondadır ki, Azərbaycanda rus dilinə münasibət çox yüksək səviyyədədir. Azərbaycanda rus məktəblərinin heç biri bağlanmamış, rus dilinin sıxışdırılmasına dair heç bir qərar qəbul edilməmişdir, əksinə, biz hesab edirik ki, nə qədər çox Azərbaycan vətəndaşı rus dilini və digər dilləri bilsə, onlar mənəvi cəhətdən bir o qədər zəngin olacaq, dünya ədəbiyyatının əsərləri ilə və elmi ədəbiyyatla tanış olmaq üçün daha böyük imkanlar qazanacaqlar.

Sirr deyil ki, Azərbaycan sakinləri keçmişdə də elmi yazılardan, əbəbi əsərlərdən əsasən rus dili vasitəsilə bəhrələnirdilər. Ona görə də vəzifəmiz bu ənənəni qoruyub saxlamaqdan ibarətdir. Artıq 12 ildir ki, biz müxtəlif ölkələrdə yaşasaq da, Azərbaycanda rus dilinə yiyələnməyin səviyyəsi aşağı düşməmişdir. Bu, çox müsbət amildir. Keçmiş Sovet İttifaqının ərazisində yeganə Slavyan Universitetinin Bakıda olması da müsbət amildir. Bu siyasət Azərbaycanda aparılır və aparılacaqdır. Zənnimcə, Azərbaycan xalqının beynəlmiləlçiliyi

öz əksini bunda bir daha tapır. Axı ölkəmizdə məskunlaşmış millətlər heç zaman eqoizmdən və millətçilikdən əziyyət çəkməmişlər. Bu, bizə yad hal olmuşdur və şükür ki, indi də yaddır. Düşünürəm ki, müəyyənləşdirəcəyimiz birgə proqramları, konqresin işinin gedişində irəli sürüləcək ideyaları biz çox diqqətlə öyrənəcəyik. Biz belə birgə proqramların olmasında maraqlıyıq. Televiziya və ya çap nəşrləri sahəsində stajkeçmələr, yaxud müəyyən layihələr də ola bilər. Bir sözlə, biz bunu alqışlayırıq.

**D a r i q ə N a z a r b a y e v a** (*Qazaxıstanın "Xəbər" informasiya agentliyi Direktorlar Şurasının sədri*): Burada olmaq və böyük bir komanda ilə belə səmimi qəbulda iştirak etmək mənim üçün çox xoşdur. Yəqin ki, bu qayğını konqresin bütün iştirakçıları hiss edir. Bu gün, əslində, hər bir çıxışda səmimi qəbula görə azərbaycanlı dostlarımıza minnətdarlıq sözləri səsləndi. Bakıda olduğum 1996-cı ildən bəri yaranmış və aşkar nəzərəçarpan fərqi görmək mənim üçün xoş idi. "MakDonalds"ların sayı da heyranedicidir. Bizdə, Almatıda bunlar hələ yoxdur. Şəhəriniz çox gözəldir, zəngin mağazaları, valehedici vitrinləri var. Mən bunların hamısını maşının pəncərəsindən görür və xoş təəccüb hissi keçirirdim.

**İ l h a m Ə l i y e v**: Bəli, siz haqlısınız, ölkə uğurla inkişaf edir, iqtisadiyyatda böyük uğurlar qazanılmışdır. Mən sizi statistika ilə yormaq istəmirəm, lakin inanın, həm inkişaf sürəti, həm də inflyasiyaya dair rəqəmlər çox müsbətdir. Neft-qaz layihələrimizin gerçəkləşməsinin həlledici mərhələsi başlayandan sonra iqtisadiyyatda artım daha əhəmiyyətli olacaqdır. Sosial sahəyə böyük diqqət yetirilir, maaşlar, pensiyalar artırılır. Özəl sektor çox sürətlə inkişaf edir, istehsal edilən məhsulun təxminən 70 faizi bu sektorun payına düşür. Bu, çox müsbət haldır, çünki iqtisadiyyatın əsasını neft və neft hasilatı təşkil etsə də bizdə – bu sahələr dövlət inhisarındadır – özəl sektor isə ancaq qeyri-neft sahəsində inkişaf edir. Kənd təsərrüfatında da böyük uğurlar əldə edilmişdir, torpaq kəndlilərə paylanmışdır, yəni torpaq tamamilə özəl-

ləşdirilmişdir. Fermerlərin hamısı beş il müddətinə vergilərdən azad edilmişlər. Yalnız torpaq vergisi qalmışdır ki, bu da rəmzi xarakter daşıyır.

Sizə deyim ki, torpaq şəxsi mülkiyyətə verildikdən sonra kənd təsərrüfatının bütün sahələri üzrə artım 2, bəzən isə 3 dəfə təşkil etmişdir. Bakıda böyük tikinti işləri aparılır. İndi bizdə tikinti işləri vüsət almışdır, özü də təkcə elit evlər deyil, çox da baha olmayan adi evlər də tikilir. Bu o deməkdir ki, cəmiyyətin iqtisadi cəhətdən sağlamlığının göstəricilərindən biri olan orta təbəqə yaranır.

Buna görə də ölkəmiz bu çox müsbət istiqamətdə irəliyə doğru gedir və şəhərimiz getdikcə gözəlləşir. Bax, elə bu Yaxt-klub lap yaxınlarda açılmışdır və bu, klubda keçirilən ilk tədbirdir. Beləliklə, demək olar ki, bu, Yaxt-klubun təqdimatıdır.

**Aleksandr Muzikantski** (*Moskva hökumətinin informasiya və ictimai-siyasi əlaqə məsələləri üzrə naziri*): Hörmətli İlham Heydəroviç, konqresimizin təşkilinə görə Sizə təşəkkür etmək istəyirəm. Mən Bakıda ilk dəfə deyiləm. İl yarım əvvəl Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının burada keçirilən konfransında iştirak etmişəm. Həmin konfrans da yüksək səviyyədə təşkil olunmuşdu. Moskvanın meri Yuri Mixayloviç Lujkovun şəxsi salamını və xoş arzularını, yüksək vəzifənizdə uğurlar dilədiyini Sizə bir daha yetirmək istəyirəm.

Biz Moskva ilə Azərbaycan arasındakı münasibətlərin səviyyəsindən razıyıq. Bilirsiniz ki, iqtisadi sahədə münasibətlərimiz çox sürətlə inkişaf edir, Moskvaya birbaşa ərzaq məhsulları göndərilir. Biz istər Ümumdünya Rus Mətbuatı Assosiasiyasının fəaliyyəti çərçivəsində, istərsə də ikitərəfli əsasda münasibətlərin daha da genişləndirilməsində iştirak etməyə hazırıq. Biz jurnalist və tələbələrin staj keçməsi üçün onları Moskvada qəbul etməyə hazırıq. Zənnimcə, sizin Slavyan Universiteti nadir təhsil müəssisəsidir və biz ona hər cür kömək göstəririk. Konqresin gözəl təşkilinə görə bir daha təşəkkür edirəm. Sizə öz təbriklərimi də yetirmək istəyirəm. Mən uzun

müddət şəhər idarəetmə sistemində işləmişəm və ona görə də Bakı şəhəri merinin fəaliyyətini xüsusi peşəkar marağı ilə izləyirəm. Deməliyəm ki, onun fəal işi çox gözəl nəticələr verir.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Mənim salamımı və ən xoş arzularımı Yuri Mixayloviç Lujkova yetirin, göndərdiyi təbrikə görə mənim adımdan təşəkkür edin. Bizim çox səmimi münasibətlərimiz var, ötən il Moskvada görüşmüşük. Odur ki, ən yaxşı diləklərimi və işinin uğurlu olmasını arzuladığımı ona yetirin.

**E l e o n o r a  M i t r o f a n o v a** (*Rusiya xarici işlər nazirinin birinci müavini*): Hörmətli İlham Heydəroviç, biz Sizi burada salamlamağımıza şadıq. Bilirik ki, Siz Krımdan yenicə gəlmisiniz. Biz bu mühüm görüşlərin nəticələrini diqqətlə izləyirdik və çox şadıq ki, Siz dövlət başçılarının bu yüksək klubuna qəbul edildiniz.

Nəzərə çatdırmalıyam ki, ikitərəfli münasibətlərimizin inkişafına bu böyük təkan, ilk növbədə, iki ölkə liderlərinin yüksək şəxsi əlaqəsinə əsaslanır. Münasibətlərimizin bu cür intensivləşməsi 2000-ci ildən sonra baş vermişdir və ümidvarıq ki, bu proses davam edəcəkdir. Bu gün mən Slavyan Universitetində və pravoslav kilsəsində oldum, din xadimi ilə söhbət etdim. Bu məbədin bərpasına böyük yardım göstərdiyinə görə Azərbaycan rəhbərliyinə də təşəkkür etmək istərdim. O, ianə vermiş adamların hamısının familiyalarını çəkdi.

Bununla belə, mən hesab edirəm ki, bu, şəhər meriyasının, məbədin bərpa olunmasına kömək etmiş ayrı-ayrı ianəçilərin böyük xidmətidir.

Bu çoxmillətli torpaqda, əmin-amanlığın və tolerantlığın hökm sürdüyü torpaqda olmaq çox xoşdur. Üç əsas konfessiya – müsəlman, pravoslav və yəhudi konfessiyaları bir-biri ilə çox yaxşı qarşılıqlı fəaliyyət göstərirlər və aralarında yaxşı münasibətlər vardır, bir-birlərini dəstəkləyirlər. Bu çox müsbət amildir və onu qeyd etməmək olmaz.

Nə arzu edərdim: bu gün biz Xarici İşlər naziri ilə söhbət etdik və bəlli oldu ki, indiyə qədər bizim mədəniyyət mərkəzlə-

rimiz yoxdur. Nə Moskvada Azərbaycan Mədəniyyət Mərkəzi, nə də Bakıda Rusiya Mədəniyyət Mərkəzi var. Əlbəttə, büdcə təşkilatlarındakı məhdudiyyətlər bu işə həmişə çətinlik törədir. Düşünürəm ki, meriyaların yer ayırması üçün yuxarıdan belə bir təşəbbüs göstəriləcəkdir. Sonra isə qalan işləri hər kəs öz hesabına edə bilər.

Bu, problemin həllinə çox kömək edərdi. Sizə demək istəyirəm ki, Moskvada iki Azərbaycan məktəbi vardır. Bundan əlavə, Azərbaycan telekanalları mərkəzi televiziya ilə verilişlər yayırlar, kabel telekanalları da mövcuddur. Bilirsiniz ki, Moskvada çox güclü Azərbaycan diasporu vardır.

**İlham Əliyev:** Məsələn, Mixail Solomonoviç Moskvadakı Azərbaycan diasporunun parlaq nümayəndəsidir.

**Eleonora Mitrofanova:** Bəli, Slavyan Universitetində də onu ulduz kimi qarşıladılar. Sizə bir daha minnətdarlığımı bildirirəm və ümid edirəm ki, dövlət başçılarımızın ölkələrimiz arasında bütün sahələrdə münasibətlərin inkişafına verdiyi təkan alqışlanmalıdır və əminik ki, bu, gələcəkdə də davam edəcəkdir.

**İlham Əliyev:** Xoş sözlərə görə çox sağ olun. Mən sizinlə tamamilə razıyam. İkitərəfli əlaqələrimizin bütün mərhələlərində iştirak etmiş bir şəxs kimi birmənalı şəkildə deyə bilərəm ki, Rusiya prezidenti Vladimir Vladimiroviç Putinin Azərbaycana səfərindən sonra münasibətlərimiz bütün istiqamətlərdə güclü təkan almışdır. Biz Rusiya Prezidentinin Azərbaycana səfərini çox gözlədik, lakin hansısa səbəblərə görə səfər alınmırdı. Vladimir Vladimiroviçin buraya gəlməsi və bununla da ölkəmizə, xalqımıza hörmət göstərməsi Azərbaycanda çox yüksək qiymətləndirilmişdir. Bu səfərdən dərhal sonra biz hiss etdik ki, həlli müşkül hesab edilən problemlərin hamısı qarşılıqlı faydalı əsasda öz həllini tapdı. Bu, Xəzər dənizinin statusuna dair uzun sürən mübahisələrə də, hərbi-texniki əməkdaşlıq çərçivəsində münasibətlərə də aiddir. Bu məsələlər uzun illər idi ki, həll olunmurdu.

Siyasi, səmimi və qarşılıqlı hörmət və etimada əsaslanan əlaqə baş tutan kimi hər şey mümkün oldu. İndi Rusiya ilə Azərbaycan arasında öz həllini gözləyən heç bir problem yoxdur. Bütün problemləri həll etmişik. Bu onu göstərir ki, münasibətlərdə xoş məramımız və niyyətlərimiz var, bunlar problemlərin həlli üçün hər cür şərait yaradır. Bu, bir daha nümayiş etdirir ki, dövlətlər arasında münasibətlər xeyli dərəcədə, iki prezidentin şəxsi münasibətləri ilə müəyyənləşir. Bizim prezidentimizlə Rusiya prezidenti arasında təşəkkül tapmış dostluq, qarşılıqlı dəstək, qarşılıqlı anlaşma hissləri ölkələrimizin yaxınlaşmasına kömək etmişdir.

O ki qaldı mədəniyyət mərkəzinə, bu, ola bilsin, nöqsandır. Düşünürəm ki, biz bunu tezliklə birgə səylərimizlə həll edəcəyik. Bir də ona görə ki, Azərbaycanda çox böyük rus icmasının, Rusiyada, Moskvada da çoxlu azərbaycanlının olduğunu nəzərə alsaq, görərik ki, bu məsələnin həlli vaxtı artıq gəlib çatmışdır. Biz bunu həyata keçirmək üçün maliyyə vəsaiti axtaracağıq.

**Y u r i  S t e r n** (*İsrail knessetinin – parlamentinin deputatı, İsrail və Rusiya əlaqələri komissiyasının sədri):* Hörmətli İlham Heydəroviç, mən Sizin siyasi karyeranızı diqqətlə izləyirəm. Təəssüflənirəm ki, Sizi Avropa Şurasında görmək imkanımız azalır. Orada Siz bizim nümayəndə heyətinə həmişə kömək edirdiniz. Bu köməyə görə Sizə təşəkkürümü bildirirəm. Axırıncı dəfə Siz bizə mühüm bir qətnamənin müzakirəsi zamanı kömək göstərdiniz. Eleonora Valentinovna da dedi, mən də bir daha təkrar edirəm. Dünən İsrail nümayəndə heyətinin üzvləri Bakıda açılmış yeni sinaqoqda oldular. Bu, dini dözümlüyə, həqiqətən, nadir nümunədir. Əvvəla, bizim dostluğumuz uzun tarix ərzində formalaşmışdır. Qafqaz Müsəlmanları İdarəsi başçısının sinaqoqun tikintisinə şəxsi vəsait verməsi faktı konfessiyaların qarşılıqlı fəaliyyətinə dair çox nadir nümunədir. Buna görə Sizə xalqımız adından təşəkkür etmək istəyirəm.

O ki qaldı ikitərəfli münasibətlərə, burada çox böyük perspektivlər var. Bu perspektivlər, ilk növbədə, onunla bağlıdır ki, İsraildəki, Kanadadakı Bakı icmaları xüsusi həmrəyliyi, səmimiliyi ilə fərqlənir. Mən Bakıya bol söhbətlərlə və ümidlərlə gəlmişəm, çünki elə bir bakılı yoxdur ki, öz doğma şəhərini vəsf etməsin. Bu, şəhərsevərliklə yanaşı, həm də qarşılıqlı fəaliyyət üçün çox ciddi ehtiyatdır. Burada rus dilində keçirilən konqres də belə ehtiyatdır. Bu ehtiyat ölkələrimizin hamısında mövcuddur və onu inkişaf etdirmək üçün Azərbaycanda da böyük imkanlar var. Sizə böyük uğurlar arzulayıram.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Əlbəttə, biz bununla ciddi məşğul olacağıq. Siz çox düzgün bir mövzuya – Azərbaycanda dini dözümlüyə toxundunuz. Bəli, bizdə müxtəlif dinlərə dözümlü, təmkinli münasibət göstərilir. Azərbaycanda bütün dinlərin nümayəndələri özlərini rahat hiss edirlər. Hətta keçmişdə, o keşməkeşli günlərdə də özlərini rahat hiss etmişlər. Bu gün müsəlman, xristian və yəhudi dinləri nümayəndələrinin birlikdə olması, bütün dövlət tədbirlərində birlikdə iştirak etməsi diqqətəlayiqdir. Bu, həmin dinlərə etiqad edənlərə necə birgə yaşamağa nümunədir. Dövlətimiz kiçikdir, çoxmillətlidir. Ona görə də sülh, həmrəylik bizim üçün, sadəcə olaraq, mücərrəd sözlər deyildir. Bu bizim üçün dövlətimizin təşəkkülü, mədəniyyətlərin qarşılıqlı ünsiyyət formasıdır. Biz Azərbaycanda milli, dini həmrəyliyi çox əziz tuturuq. Təəssüf ki, müstəqilliyimizin ilk vaxtlarında, səriştəsiz, ekstremist əhval-ruhiyyəli adamların hakimiyyətdə olduğu vaxtlarda on illiklərlə yaradılanları dağıtmağa cəhdlər göstərilmişdir.

Lakin Azərbaycan xalqı müdrik xalqdır. Hay-küylə meydandan hakimiyyətə gələnlər bir il keçməmiş xalq tərəfindən qovuldu. Belə aqibətin əsas amillərindən biri məhz millətçilik toxumu səpməyə cəhd göstərilməsi olmuşdur. Azərbaycan xalqı bunu qəbul etmədi, tarix də bunu sübut etdi. Ona görə də ən başlıcası həmin istiqamətdə işin formalarını daim təkmilləşdirmək və bunu diqqət mərkəzində saxlamaqdır. Mən

hesab edirəm ki, bu gün biz qarşılıqlı fəaliyyətin inkişafında, mədəniyyətlərin qarşılıqlı zənginləşməsində nümunə sayıla bilərdik. Ola bilər Strasburqda az-az görüşəcəyik. Lakin siz tez-tez bizə gələ bilərsiniz.

**Aleksey Şeynin** (*Latviyadakı "Petit" nəşriyyat evinin prezidenti*): Hörmətli Baş nazir, mən qəribə hisslər keçirirəm. Mən mehribanlıq və səmimilik şəraitində keçən görüşdə iştirak edirəm, gözlərim qarşısında isə Baltiki xatırladan tanış mənzərə – dəniz və gəmilər canlanır. Biz neft hasil edən ölkə deyilik. Lakin mən başqa şeyi müqayisə edirəm. Siz deyirsiniz ki, burada rus məktəbləri ixtisar olunmur, bizdə isə əksinədir. Rusdilli KİV-lərə gəldikdə isə, bu, özəl əsasdadır. Mən bilmirəm, Siz bunu necə edirsiniz. Bəlkə öz siyasətinizi aparmaqda və uyğunlaşdırmaqda xüsusi üslubunuz var. Mən bu təcrübəni böyük məmnuniyyətlə özümlə apararam və bunu böyük auditoriya qarşısında danışacağam.

Vitali Nikitiç artıq dedi ki, iki il bundan əvvəl Heydər Əliyeviçlə görüşümüzdən danışdı. Həmin görüşdə iştirak etmək, bu ölçülüb-biçilmiş siyasətin qətiliyini və dərindən dərk olunmasını hiss etmək mənə də nəsib olub. Hər halda, Sizə böyük məmnuniyyətlə bir daha təşəkkürümü bildirir və bu siyasətin möhkəm varisliyini arzulayıram.

**İlham Əliyev:** Çox sağ olun. Sözsüz ki, prezident Heydər Əlirza oğlu Əliyevin yeritdiyi siyasət davam etdirilməlidir. Bu, ölkələrimizin təkcə iqtisadi sahədə deyil, həm də bütün sahələrdə uğurla inkişaf etməsinin yeganə zəmanətidir. Əlbəttə, iqtisadiyyat hər bir dövlətin həyat fəaliyyətinin mühüm komponentidir, lakin cəmiyyətdə həmrəylik ayrı-ayrı milli qruplar arasındakı əmin-amanlıqdan asılıdır. Ölkə nə qədər zəngin olsa da bunsuz onun problemləri həmişə olacaqdır. Mən hesab edirəm ki, Azərbaycanda hansısa firavanlıq formulu müəyyənləşdirmək çətindir, lakin ən əsas amillərdən biri sənin ölkəndə yaşayan ayrı-ayrı millətlərdən olan insanlar arasındakı münasibətlərə mümkün qədər az müdaxilə etməkdir. Əgər müdaxilə edirsənsə, bunu qarşılıqlı anlaşmaya kömək

baxımından etməlisən. Kiminsə buna zərər yetirəcəyi qorxusu yaranmağa başlayanda bu, əsl fəlakət doğurur. Mən elə indi dedim ki, biz bunu artıq Azərbaycanda müşahidə etmişik.

Milli ədavəti qızışdırmağa şərəfsizcəsinə cəhdlər göstərilirdi. Lakin bu cəhdlər boşa çıxdı. Odur ki, nə üçün belə olduğunu tezis şəklində izah etmək çətindir. Ancaq biz bugünkü vəziyyəti çox əziz tuturuq. Bunun çox böyük tarixi kökləri – sovetlərə qədərki dövrdən başlayan, sovet dövründə və sovetlərdən sonra olan kökləri var. Bu artıq milli ənənədir.

Mən deyəndə ki, Rusiyadakı Azərbaycan diasporunun ən görkəmli nümayəndələrindən biri də Mixail Qusmandır, bunu tam səmimi deyirəm. Bizdə millətlər arasında, Azərbaycanın övladları arasında heç bir fərq yoxdur. Prezidentimiz deyir ki, milliyyətindən asılı olmayaraq, biz hamımız ölkəmizin oğul və qızlarıyıq. Zənnimcə, bu onun rəhnidir ki, cəmiyyət sağlam olacaq və millətçilik, ekstremizm, milli əlahiddəlik xəstəliklərinə mübtəla olmayacaqdır. Hesab edirəm, biz bununla çox zənginləşmişik ki, Azərbaycanda müxtəlif millətlərin nümayəndələri yaşamışlar və yaşayırlar. Bu bizdə şəhərimizi, ölkəmizi səciyyələndirən gözəl şərait yaratmışdır. Biz bunu çox əziz tuturuq. Təcrübəmizi bölüşmək lazım gələrsə, biz buna məmnuniyyətlə hazırıq.

**M a r k R i v k i n** (*Gürcüstan Dövlət Teleradio Şirkətinin "Vestnik" proqramının Baş redaktoru*): Hörmətli İlham Heydəroviç, bilirsiniz ki, Qusman istisna olmaqla, Bakıda bir çox qonaqlarınız arasında mən bir qədər imtiyazlı vəziyyətdəyəm. Mən Sizin ölkənizlə təxminən 400 kilometr həmsərhəd olan məmləkətdə yaşayıram. Biz Azərbaycanda nələr baş verdiyini gözəl bilirik, Siz də Gürcüstanda nələr olduğunu çox yaxşı bilirsiniz. Mən Azərbaycan prezidenti möhtərəm Heydər Əliyev ilə dəfələrlə görüşmüşəm. O, heyrətamiz insandır, mən son dərəcə şad və xoşbəxtəm ki, Gürcüstan onu çox ciddi şəkildə dəstəkləyir. Biz hamımız bunu gözəl bilirik. Ölkələrimiz arasında heyrətamiz münasibətlər var və elə talelərimiz də oxşardır, gələcəyimiz də birdir. Həyata keçirdiyimiz qlobal

xarakterli layihələr də bizim gələcəyimizdir. Biz sizə inanırıq, siz də bizə inanırsınız. Gəlin bundan sonra da belə yaşayaq, çünki bu, bizi firavan və ədalətli həyata gətirib çıxara biləcək yeganə yoldur. Onu da demək istərdim ki, Gürcüstanda çoxlu azərbaycanlı yaşayır və onlar bu gün ölkəmizdə gedən prosesləri dəstəkləyirlər. Gürcünü qonaqpərvərliklə təəccübləndirmək çətindir, nə bilmək olar, konqres nə vaxtsa Gürcüstanda da keçiriləcəkdir. Buna baxmayaraq, düzünü deyim ki, mən Azərbaycanda gördüyüm qonaqpərvərliyə heyran qaldım.

Sonda təkcə bir şeyi demək istəyirəm. Mən Azərbaycanda baş verənlərin hamısını Gürcüstan ictimaiyyətinin mühakiməsinə çıxaran insanam. Ölkənizin Tbilisidəki səfiri ilə aramızda dostluq münasibətləri var, sizdə nə baş verirsə, hamısını dərhal efirə çıxarıram. Demək istəyirəm ki, bu gün Slavyan Universitetində gördüklərim məni valeh etdi. Sözün düzü, sizə həsəd apardım. Gəlin topladığınız təcrübədən birlikdə istifadə edək və onu Gürcüstana da aparaq. Mənim ölkəm Sizin atanıza pərəstiş edir, Sizi sevir. Bu mənada, Sizin təcrübənizdən bəhrələnməyə şad olardıq. Sağ olun.

**İ l h a m Ə l i y e v:** Xoş sözlərə görə sağ olun. Doğrudan da, xalqlarımızı və ölkələrimizi qarşılıqlı münasibətlərin tarixi birləşdirir. Müstəqil Gürcüstan ilə müstəqil Azərbaycan arasındakı sıx qardaşlıq və dostluq, təşəkkül tapmış və indi də yaranmaqda olan səmimi münasibətlər iki qonşu ölkənin necə əməkdaşlıq edə biləcəyinə nümunədir. Bəzən qonşular öz aralarında heç də yaxşı münasibətdə olmurlar. Lakin, indiki halda, Gürcüstanla Azərbaycanın münasibətləri sübut edir ki, qonşuların münasibətləri qarşılıqlı məhəbbətə və dostluğa əsaslana bilər.

Bizim üçün çox vacibdir ki, Gürcüstan uğurla inkişaf etsin. Biz bunu dostlar kimi, elə bir ölkə kimi istəyirik ki, Gürcüstanı onunla çox böyük beynəlxalq enerji layihəsi birləşdirir. Biz bir-birimizlə bağlıyıq və təklikdə bizim üçün çox çətin olar. Ona görə də biz bunu birlikdə məhz bu cür davam etdirməliyik.

Fürsət düşmüşkən, Gürcüstandakı bütün dostlarımıza ən xoş arzularımı bildirirəm, onlara əmin-amanlıq, xoşbəxtlik, uğurlar və firavanlıq diləyirəm. Biz, öz tərəfimizdən, bir-birimizə kömək üçün əlimizdən gələni əsirgəməyəcəyik. Sağ olun.

**Vitali İqnatenko:** İlham Heydəroviç, bizə vaxt ayırdığınıza görə təşəkkür edirəm. Biz Sizə böyük uğurlar arzulayırıq.

**İlham Əliyev:** Səmimiliyə, mehribanlığa, məhəbbətə görə sizə təşəkkür etmək istəyirəm. Bilirsiniz ki, bütün bunlar qarşılıqlıdır. Başa düşürəm ki, hər il Bakıda konqres təşkil etmək çətin olar, hərçənd bizim belə beynəlxalq tədbirlər keçirmək təcrübəmiz var. Məsələn, götürək bizim hamımızın sevimli televiziya oyunu olan “Nə? Harada? Nə vaxt?” oyununu. Ötən il bu oyunun ilk dünya çempionatı keçirildi və biz təşəbbüs irəli sürərək onu Bakıda təşkil etdik. Onu bizim Gənclər, İdman və Turizm Nazirliyi, Milli Olimpiya Komitəsi keçirdi.

Elə həmin il mən “Nə? Harada? Nə vaxt?” oyunu üzrə ikinci dünya çempionatını da bizdə keçirmək təşəbbüsünü irəli sürdüm və bu çempionat, təxminən bir ay əvvəl uğurla keçirildi. Ümidvaram ki, üçüncü çempionat da Bakıda olacaqdır. Yəni, bizim təcrübəmiz var, amma bunu sizin təşkilatınızla etmək daha çətin olacaqdır. Əgər çətinliklər olarsa, əlaqə və ünsiyyətlərimizin bu formatda davam etdirilməsi üçün hər hansı formalar axtarıb tapa bilərik.

## BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI BAŞ MƏCLİSİNİN 58-ci SESSİYASINDA

*Nyu-York*

*22 sentyabr 2003-cü il*

*Azərbaycan Respublikasının Baş naziri İlham Əliyev BMT Baş Məclisinin 58-ci sessiyasında keçiriləcək ümumi müzakirələrdə iştirak etmək üçün sentyabrın 22-də ABŞ-ın Nyu-York şəhərinə gəlmişdir.*

*Sentyabrın 23-də Azərbaycan Respublikasının Baş naziri İlham Əliyev Amerika Birləşmiş Ştatlarının prezidenti Corc Buş, Xorvatiyanın prezidenti Stipe Mesiç, Türkiyə Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Abdullah Gül, İranın xarici işlər naziri Kamal Xərrazi, ABŞ-ın Dövlət katibi Kolin Pauell ilə görüşmüşdür.*

## BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI İQAMƏTGAHINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*23 sentyabr 2003-cü il*

**S u a l: Bu gün keçirdiyiniz görüşləri necə qiymətləndirirsiniz?**

**C a v a b:** Görüşlərimi çox yaxşı qiymətləndirirəm. Xüsusilə, İranın xarici işlər naziri cənab Xərrazi ilə keçirilən görüşü. Biz bir çox məsələyə toxunduq, iki ölkəni maraqlandıran mövzular ətrafında fikir mübadiləsi apardıq. Ölkələrimiz arasında münasibətlər hazırda yüksək səviyyədədir. Xüsusilə, Azərbaycan Respublikasının prezidenti cənab Heydər Əliyevin İrana rəsmi səfərindən sonra bir çox sahələrdə irəliləyiş müşahidə olunur. Enerji mübadiləsi məsələsində ikitərəfli əməkdaşlıq bizi xüsusilə qane edir. Biz bunu genişləndirmək istəyirik. Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi üzrə də danışıqlar gedir. Ümidvarıq ki, nəticələr də olacaqdır.

**S u a l: Sentyabrın 24-də Baş Məclisin sessiyasında çıxışınız olacaqdır. Çıxışınızın əsas məqamlarını deyə bilərsinizmi?**

**C a v a b:** Əlbəttə, bu haqda sabah daha yaxşı öyrənə bilərsiniz. Amma əsas məqam budur ki, Azərbaycanın ən ağrılı problemi – Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında danışacağam. Bu, Azərbaycanın ən mühüm problemidir. Biz ümidvarıq ki, BMT– dörd qətnamə qəbul edən təşkilat bundan sonra öz səylərini daha da gücləndirəcəkdir. Hər halda, biz buna inanmaq istəyirik. Düzdür, bu qətnamələrin heç bir real təsiri olmadı, işğalçı dövlət bunlara məhəl qoymadı. Amma, hər halda, beynəlxalq hüquq normaları var. Əgər bu təşkilat qətnamələri qəbul edibsə, gərək çalışsın ki, onlar həyata keçirilsin.

**S u a l: Cənab Baş nazir, Siz yəqin ki, buraya gələndən bəri Klivlendlə əlaqə saxlamısınız. Bir xəbər deyə bilərsinizmi?**

**C a v a b:** Bəli, əlaqə saxlamışam. Bu gün də danışmışam. Xəbərlər çox yaxşıdır. Cənab Prezidentin müalicəsi davam edir. Bərpa prosesi uğurla gedir. Mən özüm bir neçə gündən sonra Klivlendə gedəcək və cənab Prezidentlə görüşəcəyəm.

## BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI BAŞ MƏCLİSİNİN 58-ci SESSİYASINDA ÇIXIŞ

*24 sentyabr 2003-cü il*

Əziz cənab sədr!

Xanımlar və cənablar!

Hər şeydən əvvəl, icazə verin, cənab Julian Robert Hanteni Baş Məclisin 58-ci sessiyasının sədri seçilməsi münasibətilə təbrik edim və cənab Yan Kavana 57-ci sessiya dövründəki sədrlik fəaliyyətinə görə minnətdarlığımı bildirim.

Cənab sədr!

Bu il BMT üçün çətin il oldu. İraq ətrafındakı hadisələr beynəlxalq təhlükəsizlik sistemindəki kövrək məqamları büruzə verdi. Artıq birinci dəfə deyil ki, BMT-nin Təhlükəsizlik Şurası üzvlər arasındakı qarşılıqlı anlaşılmazlığa görə bəyannamələrini tətbiq edə və müvafiq olaraq vəziyyətlə bağlı lazımi reaksiya göstərə bilmir.

Bu cür anlaşılmazlıqlar həm İraq ətrafında, həm də digər münaqişə və böhranlarla bağlı məsələlərdə Təhlükəsizlik Şurasının fəaliyyətinə mənfi təsir göstərməkdə davam edir. İndi artıq aydındır ki, mövcud BMT mexanizmləri zamanın tələbinə cavab vermir, bununla bağlı Birləşmiş Millətlər Təşkilatında islahat vacib məsələyə çevrilmişdir. Təhlükəsizlik Şurasının da islahatına ehtiyac vardır, orada da həm bu günün reallıqları, həm də yarıməsrlik reallıqlar öz əksini tapmalıdır.

Azərbaycan Baş katib Kofi Annanın islahatlarla bağlı məlum təkliflərini, xüsusilə Təhlükəsizlik Şurası üzvlərinin genişlənməsi ideyasını dəstəkləyir. Biz BMT mexanizmlərinin yenidən işlənməsi, xüsusilə də veto hüququna yenidən baxılması kimi məsələlərdə şuranın daimi üzvlərinin xoş məramına ümid edirik.

Biz ümid edirik ki, indi beynəlxalq icma öz səylərini birləşdirə bilib birləşmiş və bölünməz İraqın bərpası və güclənməsi işinə yönəldəcəkdir və bütün İraq xalqının azad iradəsinə əsaslanmış demokratiya qurmağa yardımçı olacaqdır. Bu prosesdə iştirak etməyə hazırlığını bildirən ölkəmiz artıq İraqın təhlükəsizliyi və sabitliyi işinə öz töhfəsini verməyə başlamışdır.

Bağdadda BMT nümayəndəliyinin iqamətgahına qarşı terror aktı bütün beynəlxalq icmanı lərzəyə gətirdi. Serjio de Mello və onun həmkarlarının ölümü həm təşkilat, həm də bizim hamımız üçün faciəvi itkidir. Bağdadda baş verənlər terror qarşısında nə qədər aciz olduğumuzu bir daha göstərdi və bizə sübut etdi ki, terrorçular istənilən cür cinayətə hazırdırlar.

Burada yeganə cavab terror yolunu seçənlərə qarşı amansız, rəhmsiz savaş olmalıdır. Fərqi yoxdur, terrorçular bu terror aktlarını hansı məqsədlə həyata keçirirlər. Bu savaşda ayrı-seçkilik və ikili standartlara yer yoxdur.

Ermənistanın ölkəmizə qarşı başladığı təcavüzün, işğalın və terrorun qurbanına çevrilmiş Azərbaycan artıq illər boyudur ki, terrorizmə qarşı təkbaşına savaşır. Terrorizmə qarşı mübarizədə səyləri gücləndirmək barədə beynəlxalq icmaya çağırışlarımız cavabsız qaldı. Yalnız 2001-ci ilin 11 sentyabrından sonra həyəcan təbili çalındı.

Terrorizmi törədən səbəblərin, eləcə də onun yayılması üçün münbit şərait yaradan amillərin kökü kəsilməsə, terrorizmə qarşı mübarizədə uğur heç vaxt mümkün olmayacaqdır. Digər tərəfdən, bütün dünyadakı, eləcə də Cənubi Qafqazdakı münaqişələri daimi terror praktikası və onun dövlət səviyyəsində dəstəklənməsi şəraitində həll etmək mümkün deyildir.

Biz yadda saxlamalıyıq ki, separatçı və ekstremist qüvvələrin yaradıb inkişaf etdirdiyi terrorçu qruplar, adətən, qeyri-qanuni nəzarət ərazilərində, yəni separatçılıq və xarici təcavüz nəticəsində əmələ gəlmiş “boz zonalar” deyilən ərazilərdə fəaliyyət göstərirlər. Bu, nəzarətsiz “boz zonalardan”

biri Azərbaycan Respublikasının Ermənistan hərbi qüvvələri tərəfindən işğal olunmuş Dağlıq Qarabağ bölgəsi və digər əraziləridir. Terrora qarşı hərtərəfli mübarizə apararaq və münaqişələrin beynəlxalq hüquq normaları əsasında həllinə çalışaraq, beynəlxalq icma gücdən qətiyyətlə istifadə etməlidir. Bu, ədalətli və qanunun aliliyini bərpa edə biləcək yeganə yoldur.

Azərbaycanın nümayəndə heyəti bu yüksək kürsüdən beynəlxalq icmanın diqqətini davam edən Ermənistan – Azərbaycan münaqişəsinə dönə-dönə cəlb etmişdir. Təhlükəsizlik Şurasının 4 qətnamə qəbul etməsindən artıq 10 il keçir. Bu qətnamələr erməni işğalçı qüvvələrinin Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxmasını tələb edir.

Bununla belə, Ermənistan bu qətnamələri saymazlığı ilə beynəlxalq icmaya meydan oxuyur. BMT Təhlükəsizlik Şurası və ATƏT-in Minsk qrupu isə bununla bağlı heç bir adekvat qərar qəbul etmirlər.

Azərbaycan beynəlxalq hüquq normalarına və prinsiplərinə əsasən münaqişənin sülh yolu ilə həllinə tərəfdar olduğunu dəfələrlə bildiribdir. Biz bu yöndə səylərimizi davam etdirməkdə israrlıyıq və beynəlxalq icmanın fəal iştirakına ümid edirik. Azərbaycan heç zaman "mövcud reallıqlar" əsasında həll variantı ilə razılaşmayacaq və torpağının bir qarışını belə heç kimə verməyəcəkdir! Azərbaycanın səbri sonsuz deyil və heç kim bundan sui-istifadəyə cəhd etməsin! Məsələnin həll olunmamasına görə məsuliyyət işğalçı Ermənistanın üzərinə düşür, işğalın qurbanı olan Azərbaycanın üstünə yox. Beynəlxalq icmanın tutduğu passiv müşahidəçi mövqeyi yaranmış çıxılmaz vəziyyəti daha da gərginləşdirə bilər.

Ermənistan yalnız Azərbaycan ərazilərini tərk etdikdən və bununla da münaqişənin sülh yolu ilə həllinə əsas yarandıqdan sonra Azərbaycanla normal dövlətlərarası münasibətlərə və əməkdaşlığa ümid edə bilər. Bizim beynəlxalq hüquq qaydalarına əsaslanan konstruktiv təkliflərimizi rədd etməklə Ermənistan özünün əsl məqsədini – Azərbaycanın işğal

olunmuş torpaqlarını öz ərazisinə qatmaq niyyətini nümayiş etdirir.

Ermənistanın rəhbərliyi təcavüzkar millətçilik, militarizm, separatizm və terrorizm ideologiyasını əsas tutmaqda davam edərək öz xalqını ən dərin böhran uçurumuna sürüyür. Əraziləri genişləndirmək və ətrafda düşmən axtarmaq hisslərinin milli ideya kimi aşılandığı cəmiyyətdə heç vaxt demokratiya və plüralizm kök sala bilməz. Ermənistanda dərk etməlidirlər ki, belə getsə, Azərbaycanla hazırkı münaqişə vəziyyəti nəinki həll olunmayacaq, həm də Ermənistanın özünün ciddi daxili sosial və iqtisadi problemlərini daha da pisləşdirəcəkdir.

Təəssüf hissi ilə bildirirəm və bunu hamı anlamalıdır ki, beynəlxalq icmanın fəaliyyətsizliyi bu pozucu siyasəti davam etdirməkdə Ermənistanın özünə arxayınlığını gücləndirməyə xidmət edir. Həm ATƏT-in Minsk qrupu, həm də BMT-nin Təhlükəsizlik Şurası təcavüzkarın qarşısından geri çəkildilər və bununla öz fəaliyyətlərinin və niyyətlərinin ciddi surətdə davam etdirilməsini şübhə altına aldılar.

İşğalçının cəzalandırılmaması nəinki bütün beynəlxalq təhlükəsizlik sistemini, həm də beynəlxalq hüququn prinsipləri və normalarını ciddi surətdə şübhə altına almağa başlayır.

Bu cür münasibət beynəlxalq icmaya bir çox hallarda baha başa gəlibdir.

Biz Təhlükəsizlik Şurasına müraciət edirik ki, yuxarıda sadalanan 4 qətnamə ilə bağlı lazımi tədbirlər görülməsini təmin etsin və gözləyirik ki, təmas xəttində, eləcə də işğal olunmuş ərazilərdə cinayətkar və təcavüzkar əməllərə son qoyulacaq, işğalçı qüvvələr Azərbaycan ərazilərindən qeyd-şərtsiz, dərhal və tamamilə çıxarılacaqdır.

Cənab sədr!

Münaqişə təxminən 1 milyon azərbaycanlını evsiz-eşiksiz qoymuşdur. Aydındır ki, qarşıdan gələn qış qaçqın və köçkünlər üçün daha bir sınağa çevriləcəkdir. Onlardan yüz minlərlə nəfər hələ də çadır düşərgələrində yaşamaqda davam edir. Azərbaycan hökuməti öz məhdud ehtiyatlarından istifadə edərək

onların əzablarını yüngülləşdirmək üçün əlindən gələni edir. Bu yaxınlarda Azərbaycan Respublikasının Prezidenti öz qərarı ilə qaçqın-köçkünlər üçün evlər tikilməsinə 70 milyon ABŞ dollarından artıq vəsait ayırmışdır.

Beynəlxalq icmanın yardımını yüksək qiymətləndirərək biz, eyni zamanda, yardımın azalmasından narahatlıq keçiririk. Biz BMT-nin müvafiq agentliklərini, donor ölkələri, qeyri-hökumət təşkilatlarını təkidlə inandırırıq ki, diqqətlərini Azərbaycanın öz torpaqlarından zorla qovulmuş insanların problemlərinə yönəltsinlər və onların ehtiyaclarına adekvat cavab versinlər. Problemin uzunmüddətli həllinə gəldikdə isə, əlbəttə ki, bunun əsasında Ermənistanla Azərbaycan arasında münaqişənin aradan qaldırılması və qaçqın-köçkünlərin öz yerlərinə qayıtması durur.

Bu münaqişə Azərbaycanın iqtisadiyyatına ağır zərbə vurmuşdur. Bununla belə, daxili ehtiyatlarımızı səfərbər edərək biz sosial-iqtisadi böhrana üstün gəlməyi, sabitlik və inkişaf yolu ilə irəliləməyi bacardıq. Azərbaycan Respublikasının prezidenti zati-aliləri Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və tətbiq olunmuş iqtisadi islahatlar və neft strategiyası artıq konkret nəticələrini verməyə başlamışdır. Bu islahatlar makroiqtisadi sabitliyə və yüksək iqtisadi göstəricilərə gətirib çıxarmışdır.

Bazar iqtisadiyyatına keçid və sahibkarlığın inkişaf etdirilməsi iqtisadiyyatda özəl sektorun payını 73 faizə çatdırdı. Ölkə əhalisinin sayı ilə müqayisədə birbaşa xarici sərmayələrə dair rəqəmlər göstərir ki, Azərbaycan keçid iqtisadiyyatı ölkələri arasında liderdir. Orta hesabla illik iqtisadi artım 8-10 faiz təşkil edir.

Azərbaycanın təşəbbüsü ilə Xəzər dənizindəki karbohidrogen ehtiyatlarının işlənilməsini və dünya bazarına çıxarılmasını nəzərdə tutan genişmiqyaslı transregional layihələrin tətbiq olunması Şərq–Qərb dəhlizi boyunca yerləşmiş ölkələrin sosial-iqtisadi inkişafı üçün yeni imkanlar açır. Bu layihələr də tarixi İpək yolunun bərpa olunması üçün nəzərdə tutulur.

Cənab sədr!

Radikal siyasi islahatların həyata keçirilməsi və eləcə də demokratik cəmiyyətin inkişaf etdirilməsinə münbit şərait yaratmış daxili siyasi sabitlik olmasaydı, bu tərəqqi mümkün olmazdı.

Bu günlər Azərbaycan demokratiyası növbəti yetkinlik və möhkəmlik sınağının ərəfəsindədir. Oktyabrın 15-də Azərbaycan Respublikasında prezident seçkiləri keçiriləcəkdir. Ölkədə əsl azad və ədalətli seçki keçirilməsi üçün qanunverici baza mövcuddur. Bu yaxınlarda qəbul olunmuş Seçki Məcəlləsi həm yerli, həm də beynəlxalq səviyyədə geniş müzakirələrdən keçib və beləliklə, ən yüksək beynəlxalq standartlara uyğundur. ATƏT, Avropa Şurası və digər beynəlxalq təşkilatları təmsil edən çoxsaylı müşahidəçilər və eləcə də yerli müşahidəçilər prezident seçkilərinin keçirilməsini izləyəcəklər.

Qlobal səviyyədə demokratiyanın qələbəsi, sosial tərəqqi və davamlı inkişaf yoxsulluq problemləri və iqtisadi göstəricilər üzrə müxtəlif ölkələr və regionlar arasındakı kəskin fərqlər həll olunmadan mümkün deyildir. Bununla bağlı minilliyin inkişafı məqsədləri adlanan proqramın həyata keçirilməsi xüsusilə vacib xarakter alır. Yoxsulluğa qarşı mübarizə üçün inkişaf etmiş ölkələr keçid dövrünün iqtisadiyyatını yaşayan ölkələrin problemlərinə daha çox fikir verməlidirlər. Təcrübə göstərir ki, çox zaman dar düşüncəli, yalnız öz maraqlarına xidmət edən məqsədlər üstün gəldikdə, danışıq prosesində irəliləyiş olmur. Azərbaycan inanır ki, çoxtərəfli ticarət sistemində tərəflərin tərkibi genişləndirilərsə, inkişaf etməkdə olan ölkələrə və keçid iqtisadiyyatını yaşayan ölkələrə beynəlxalq ticarət təşkilatında xüsusi, fərqli münasibət göstərilərsə, bunun qlobal inteqrasiyanın uğuruna böyük xeyri dəyər.

Biz qəti inanırıq ki, sivilizasiyalar və mədəniyyətlər arasında dialoqu inkişaf etdirmək vacibdir. Yalnız dialoq və xoş məram vasitəsilə biz inamsızlıq və qarşıdurmanı məğlub edəcək, ümumi təhlükələrə və çətinliklərə qarşı birləşib bir qüvvə kimi çıxış edə biləcəyik.

Sonda, cənab sədr, icazə verin, Azərbaycanın güclü demokratik dövlət, bazar iqtisadiyyatı qurmaq siyasi xəttinə qəti sadiq olduğunu bir daha təkrar edim və bildirim ki, bizim əsl iradəmiz və arzumuz beynəlxalq sülh və təhlükəsizliyə səmərəli töhfə verməkdir. Sağ olun!

## ÜMUMDÜNYA GÖMRÜK TƏŞKİLATININ (ÜGT) BAŞ KATİBİ MİŞEL DANE VƏ ONU MÜŞAYİƏT EDƏN ŞƏXSLƏRLƏ GÖRÜŞDƏ SÖHBƏT

*30 sentyabr 2003-cü il*

**M i ş e l D a n e:** Cənab Baş nazir, səmimi qəbula görə Sizə minnətdarlığımı bildirirəm. Son illər Azərbaycanda iqtisadiyyatda, eləcə də gömrük sistemində aparılan islahatlar və onların uğurlu nəticələri barədə məlumatlarımız var. Bir az əvvəl biz Bakının Maştağa qəsəbəsində yeni istifadəyə verilmiş təlim-tədris mərkəzinin açılışında iştirak etmişik. Bu obyektin Azərbaycanın gömrük işçilərinin təcrübəsinin artırılması üçün xüsusi əhəmiyyəti olacaqdır. Rəhbərlik etdiyim təşkilatla Azərbaycanın Gömrük Komitəsi arasında əlaqələrin vəziyyətindən razı qaldığımı və bu münasibətlərin daha da möhkəmləndiriləcəyinə əminliyimi bildirirəm.

Bu mövcud əməkdaşlığın yaranmasında və inkişaf etdirilməsində prezident Heydər Əliyevin rolunu xüsusi qiymətləndirirəm, özümün ən səmimi və xoş arzularımı Azərbaycan dövlətinin başçısına çatdırmağı xahiş edirəm.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Salamlarınızı böyük məmnuniyyətlə çatdıraram. Mən çox şadam ki, qeyd etdiyiniz kimi, Azərbaycanda gömrük sistemində aparılan islahatlar, görülən işlər sizin təşkilat tərəfindən qiymətləndirilir.

Azərbaycan yeni müstəqil dövlətdir və təbii ki, ötən illərdə ölkəmizdə gömrük sistemi tam yenidən qurulmuşdur. Ondan əvvəlki dövrlərdə bu sahədə heç bir təcrübəmiz olmamışdır. Bəli, çox sevindirici haldır ki, qısa müddət ərzində gömrük sistemində görülən işlər öz nəticələrini vermişdir və bu gün biz deyə bilərik ki, Azərbaycanda bu sahədə bütün dünya standartlarına cavab verən mikrostruktur yaradılıbdır.

Yeni tikilmiş təlim-tədris mərkəzi çox əhəmiyyətlidir. Azər-

baycan iqtisadi cəhətdən güclənir, iqtisadi islahatlar aparılır. Azərbaycanda son illər ərzində görülən işlərin – o cümlədən gömrük sistemində – demək olar ki, böyük əksəriyyəti dünyada mövcud olan ən yüksək standartlara uyğundur. Mən bilirəm, Gömrük Komitəsinin sədri Kəmaləddin Heydərov deyir ki, bizim gömrük təşkilatımız sizin təşkilatın çox fəal üzvüdür, tədbirlərinizdə iştirak edir. Sizin Azərbaycana növbəti gəlişiniz də onu göstərir ki, bu münasibətlər çox yüksək səviyyədədir. Çox istərdik ki, bizim Gömrük Komitəsi beynəlxalq təşkilatda daha möhkəm mövqe tutsun, həm sizdən öyrənsin, eyni zamanda, öz təcrübəsini də sizinlə bölüşsün, öz töhfəsini versin.

## ŞİRVAN MİLLİ PARKININ AÇILIŞINA HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ ÇIXIŞ

*1 oktyabr 2003-cü il*

*Azərbaycan prezidenti Heydər Əliyevin 2003-cü il 5 iyul tarixli sərəncamı ilə Bakı şəhərinin Qaradağ rayonunun, habelə Salyan və Neftçala rayonlarının ərazilərində 54373,5 hektar sahədə Şirvan Milli Parkı yaradılmışdır. Parkın yaradılmasında əsas məqsəd yarımsəhra landşaftının başlıca komponentlərinin, Azərbaycan Respublikasının "Qırmızı kitab"ına düşmüş ceyranların və bu ərazi üçün səciyyəvi olan fauna növlərinin qorunub saxlanılması, ekoloji monitorinqin həyata keçirilməsi, əhalinin ekoloji maarifləndirilməsi, turizm və istirahət üçün şərait yaradılmasıdır.*

*Milli Parkın ərazisində relyefin, bitki və torpaq örtüyünün müxtəlifliyi burada bir sıra təbii landşaft sahələrini ayırmağa imkan verir. Ərazinin əsas hissəsini yovşanlı, şoranotlu, yarımsəhra təpəliklər və düzənlik təşkil edir. Qədim sahil tirələri, külək vasitəsilə yaranan əsas relyef forması olan təpəciklər isə ceyranların sığınacağı və mühafizəsi üçün çox sərfəlidir. Şirvan Milli Parkının herpetofaunasını 17 növ sürünən heyvanlar təşkil edir.*

*Təsadüfi deyildir ki, Azərbaycanda və dünya miqyasında nəsli kəsilmək təhlükəsi ilə üzləşən quşlardan Milli Parkın ərazisində 34 növə rast gəlinir. Onlardan 14-ü yalnız Azərbaycanın "Qırmızı kitab"ına, 10-u Beynəlxalq Təbiəti Mühafizə Cəmiyyətinin siyahısına daxil edilmişdir. Şirvan Milli Parkında məməli heyvanların respublikamızda yayılmış bütün növlərinə də rast gəlinir.*

Hörmətli xanımlar və cənablar! Əziz dostlar!

Mən sizin hamınızı Şirvan Milli Parkının açılışı münasibətilə ürəkdən təbrik edirəm. Bu, Azərbaycanın müasir tarixində çox

əlamətdar bir hadisədir və bir daha göstərir ki, ölkəmizdə təbiətin, ətraf mühitin qorunmasına ən yüksək səviyyədə böyük diqqət yetirilir.

Bu park möhtərəm cənab Prezidentin sərəncamı əsasında təşkil olunmuşdur. Eyni zamanda, Ağgöl və Ordubad milli parklarının yaradılması da cənab Prezidentin həmin sərəncamı ilə həyata keçirilmişdir.

Azərbaycanda təbiətin qorunması bizim gələcəyimizlə bağlı məsələdir. Azərbaycanın çox gözəl təbiəti, iqlimi vardır. Biz hamımız bu təbiəti qorumalıyıq. Son illər ərzində ölkəmiz bütün sahələrdə böyük uğurlar əldə etmişdir. Azərbaycan hərtərəfli inkişaf edir, beynəlxalq aləmdə özünə layiq yer tutmuşdur.

Bu yaxınlarda Amerika Birləşmiş Ştatlarında Birləşmiş Millətlər Təşkilatının toplantısında iştirak edərkən bir daha əmin oldum ki, Azərbaycana böyük hörmət, rəğbət vardır. Ölkəmiz regionda mühüm mövqelərə sahib olmuşdur. Bu, Heydər Əliyev diplomatiyasının təntənəsidir.

Eyni zamanda, islahatların həyata keçirilməsi nəticəsində ölkəmiz iqtisadi cəhətdən güclənmişdir. Azərbaycanda çox güclü iqtisadi potensial yaranmışdır. Ümumi daxili məhsulun artımı, inflyasiyanın səviyyəsi, digər iqtisadi göstəricilər bizi qabaqcıl ölkələr sırasına daxil etmişdir. Bu da möhtərəm cənab Prezidentin iqtisadi sahədə apardığı islahatların və siyasətin nəticəsidir.

Neft strategiyası həyata keçirilir. Bu strategiyanın nəticəsində artıq minlərlə iş yerləri açılmışdır. Azərbaycanda Neft Fondu yaradılmışdır ki, bu da öz növbəsində ölkəmizin inkişafına güclü təkan verir. Burada toplanmış vəsaitin hesabına indi sosial proqramlar həyata keçirilir, qaçqınlar üçün yeni evlər, qəsəbələr tikilir, əməkhaqlarının artırılması üçün imkanlar yaranır. Bir sözlə, Azərbaycan son illər ərzində çox böyük və uğurlu yol keçmişdir. Deyə bilərəm ki, digər keçmiş sovet respublikaları ilə müqayisədə biz çox irəlidə gedirik və qabaqcıl yerləri tuturuq.

Çox sevindirici haldır ki, bütün bu uğurlarla, iqtisadiyyatda əldə olunmuş nailiyyətlərlə, beynəlxalq aləmdə qazanılmış

qələbələrlə yanaşı, bizdə təbiətə də diqqət yetirilir və onun qorunması üçün imkanlar tapılır. Mən bu münasibətlə Ekologiya və Təbii Sərvətlər Nazirliyini təbrik etmək istəyirəm. Onlar öz daxili imkanları hesabına Şirvan Milli Parkının təşkil olunmasında böyük rol oynamışlar. Biz istəyirik ki, bu cür parkların sayı çoxalsın. Bilirəm ki, bu, nazirliyin proqramında vardır. Hesab edirəm ki, beynəlxalq təşkilatların köməyi ilə və daxili imkanlar hesabına, eyni zamanda, Azərbaycan hökumətinin səyi nəticəsində belə parkların sayı çoxalacaqdır. Bu parkların açılması və fəaliyyət göstərməsi artıq öz ilkin nəticələrini verməkdədir. Burada mənə məlumat verdilər ki, parkda ceyranların sayı artmışdır, onlar 2 min baş artaraq 8 minə çatmışdır.

Burada Azərbaycan faunasının "Qırmızı kitab"a düşmüş digər növləri də qorunub saxlanılır. Bu bizim üçün çox vacibdir. Ümumiyyətlə, Azərbaycan hökuməti gələcəkdə ekologiya məsələlərinə daha böyük diqqət göstərəcəkdir. Təəssüflər olsun ki, Sovet İttifaqı dövründə, ümumiyyətlə, ekologiya termini mövcud deyildi, bu barədə heç kim düşünmürdü. O cümlədən, neft sektorunda, neft hasilatı sahəsində də buna əhəmiyyət verilmirdi. İndi isə neft sektorunda bütün ekoloji tədbirlər görülür və deyə bilərəm ki, burada aparılan işlər ən yüksək dünya standartlarına uyğun şəkildə təşkil olunmuşdur. Mən bunu təsadüfi demirəm. Çünki bilirəm ki, bu ərazidə xarici neft şirkətləri, "Salyan Oyl" neft şirkəti fəaliyyət göstərir. Mən əminəm ki, onlar bütün işlərini, o cümlədən ətraf mühitin qorunmasını da dünya standartları səviyyəsində saxlayacaqlar. Başqa cür ola da bilməz. Azərbaycan bizim Vətənimizdir, doğma torpağımızdır və biz bu torpağı qorumalıyıq.

Bir daha sizin hamınızı bu gözəl Şirvan Milli Parkının açılışı münasibətilə təbrik edirəm, sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

## XILLI "NƏRƏ" BALIQARTIRMA ZAVODUNUN AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ

*Neftçala rayonunun Xıllı qəsəbəsi*

*1 oktyabr 2003-cü il*

Hörmətli xanımlar və cənablar!

Əziz neftçalalılar!

Bu gün Azərbaycanın müasir tarixində çox əlamətdar bir gündür. Azərbaycanın Neftçala rayonunun ərazisində yeni, dünya standartlarına cavab verən "Nərə" balıqartırma zavodu tikilib və istifadəyə verilir. Mən bu münasibətlə sizin hamınızı ürəkdən təbrik edirəm.

Bu gün artıq ikinci dəfədir ki, bilavasitə ekoloji problemlərlə bağlı olan mərasimdə iştirak edirəm. Bu gün səhər Bakının Qaradağ, habelə Salyan və Neftçala rayonlarının inzibati ərazilərində yerləşən Şirvan Milli Parkının açılışında iştirak etmişdim və indi də burada sizinlə birlikdəyəm. Deyə bilərəm ki, bunların hər ikisi Azərbaycan Respublikasının prezidenti hörmətli Heydər Əliyevin sərəncamları əsasında, onun təşəbbüsü ilə yaradılmışdır. Bu, bir daha göstərir ki, Azərbaycanın dövlət başçısı, bütün başqa məsələlərlə yanaşı, ekologiyaya, ətraf mühitin qorunmasına böyük diqqət göstərir. Bu, həqiqətən də belədir. Biz bu məsələdə bundan sonra da diqqətli olacağıq. Çünki bu, Azərbaycanın gələcəyi məsələsidir.

Azərbaycan iqtisadi cəhətdən sürətlə inkişaf edir. Ölkəmiz iqtisadi islahatların aparılmasında qabaqcıl yerlərdən birini tutur. Bu bizim hamımızı çox sevindirir. Bu işlər ölkəmiz üçün gözəl potensial və perspektivlər yaradır. Amma bununla yanaşı, biz daim diqqət mərkəzində saxlamalıyıq ki, Azərbaycanın gözəl təbiəti qorunsun. Bu istiqamətdə bu gün iki obyektin açılışı bir daha göstərir ki, dövlət başçısı bu işlərə də öz diqqətini əsirgəmir.

Bu zavod ən müasir avadanlıqla təchiz olunub, ən yüksək dünya standartlarına uyğun şəkildə tikilmişdir. Bu çox sevindirici haldır. Qeyd etməliyəm ki, son illər ərzində Azərbaycanda yaradılan, tikilən binaların, müəssisələrin, idman qurğularının, demək olar, tam əksəriyyəti dünya standartlarına cavab verir.

Bu bizi çox sevindirir. Eyni zamanda, sevindirici hal həm də odur ki, bu zavod, əsasən, yerli inşaatçılar tərəfindən tikilmişdir. On il bundan əvvəl Azərbaycanda hər bir tikili, hər bir kiçik bina xaricdən gələn mütəxəssislər tərəfindən tikilirdi. Yerli şirkətlərin təcrübəsi yox idi. Amma bu illər ərzində təcrübə də toplanmışdır və biz görürük ki, yerli inşaatçılar bütün binaları, zavodları, fabrikləri ən yüksək səviyyədə tikə bilirlər. Bu çox sevindirici haldır və biz gələcəkdə buna daha böyük əhəmiyyət verməliyik, yerli inşaatçıları, istehsalçıları dəstəkləməliyik.

Biz Azərbaycanda istehsalı artırmalıyıq, çalışmalıyıq ki, idxal azalsın, daxili istehsal artsın. Bu istiqamətdə işlər aparılır. Təxminən 20 gün əvvəl Xaçmaz rayonunda böyük emal müəssisəsi tikilib istifadəyə verilmişdir. Bu gün də Neftçala rayonunda balıqartırma zavodu istifadəyə verilir. Əminəm ki, gələcəkdə də Azərbaycanın hər bir bölgəsində yeni infrastruktur, yeni müəssisələr, fabriklər tikiləcəkdir. Bu da öz növbəsində, yeni iş yerlərinin açılmasına imkan verəcəkdir. Azərbaycan hökumətinin qarşısında duran ən önəmli problemlərdən biri də məhz yeni iş yerlərinin açılmasıdır.

Bu gün burada qeyd olundu ki, zavodda yüzə yaxın adam işləyəcəkdir. Yəni, artıq burada yüz iş yeri açılmışdır. Hökumətin planlarına növbəti 5 il ərzində 600 min yeni iş yerinin açılması daxildir. Beləliklə, Azərbaycanda işsizlik, demək olar ki, tamamilə ləğv olunacaqdır. Bu çox sevindirici haldır və hökumət bu istiqamətdə işləyir və bundan sonra da işləyəcəkdir.

Eyni zamanda qeyd olundu ki, bu zavod Xəzəryanı ölkələrdə nadir bir müəssisədir. Bu sahədə Azərbaycan birincilik əldə etmişdir. Bu bizi çox sevindirir. Çünki Xəzər dənizinin müxtəlif sərvətləri vardır. Onun bioresursları, Xəzərdəki neft-qaz

yataqları da bu sərvətlərdəndir. Qürur hissi ilə deyə bilərəm ki, Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsi nəticəsində Azərbaycan öz neft-qaz yataqlarının işlənilməsində və enerji daşıyıcılarının dünya bazarlarına çatdırılmasında birinciliyi qazanmışdır və onu əldən verməyəcəkdir. Məhz Azərbaycanın neft strategiyası sayəsində Xəzər dənizində beynəlxalq konsorsiumlar yaradılmışdır və bu xarici şirkətlər Azərbaycanın iqtisadiyyatına artıq bir neçə milyard dollar investisiya qoymuşlar.

Bu da, öz növbəsində, ona gətirib çıxarmışdır ki, son illər ərzində neft sektorunda on mindən artıq yeni iş yerləri açılmışdır. Bizim məqsədimiz ondan ibarətdir ki, bütün sahələrdə, xüsusilə, qeyri-neft sektorunda buna oxşar meyl müşahidə olunsun. Bu zavodun açılışı da onu göstərir ki, belə meyl vardır və bu siyasət gələcəkdə də davam etdiriləcəkdir.

Azərbaycan Xəzər dənizinin statusu məsələsində dəfələrlə öz mövqeyini bəyan etmişdir. Bu mövqe ədalətlidir və biz çox şadıq ki, son illər ərzində qonşularımızla – Rusiya və Qazaxıstan ilə Xəzər dənizinin dibinin bölünməsi haqqında imzaladığımız sənədlərdə məhz Azərbaycanın mövqeyi öz əksini tapmışdır. Bizim başqa ölkələrin sektorlarında gözümüz yoxdur. Ancaq öz sektorumuzda da işləyəcəyik və işlərimizi lazım bildiyimiz kimi quracağıq. Bu işdə heç kim bizə mane ola bilməz. Xəzər dənizinin sektorlara bölünməsi məsələsində də böyük irəliləyiş müşahidə olunur.

Azərbaycan öz neft ehtiyatlarını artıq hasil edir və iki neft kəməri vasitəsilə dünya bazarlarına çıxarır. Bildiyiniz kimi, hazırda Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri də inşa edilir və inşallah, 2005-ci ilin sonlarında o da istismara veriləcəkdir. Bundan sonra Azərbaycanın xəzinəsinə çox böyük həcmdə valyuta axını gələcəkdir. Bu da, öz növbəsində, qarşımızda duran planları həyata keçirməyə, yoxsulluğu azaltmağa, iş yerləri açmağa, yeni səhiyyə ocaqları, təhsil müəssisələri, yeni infrastruktur yaratmağa imkan verəcəkdir. İmkanlarımız çoxdur. Bu istiqamətdə hökumət xüsusi bir proqram – Azərbaycanın iqtisadi inkişaf proqramını

hazırlayır və burada bütün bu məsələlər öz əksini tapacaqdır.

Əlbəttə, bu məsələlərin həlli bizim valyuta ehtiyatlarımızın bu proqramın həyata keçirilməsinə verdiyi imkandan asılı olacaqdır. Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsi nəticəsində artıq valyuta ehtiyatları yaranır. Bu məqsədlə Neft Fondu yaradılmışdır və orada 1 milyard 400 milyon dollar vəsait toplanmışdır. Bu vəsait Azərbaycanın gələcək nəsilləri üçün istifadə olunacaq, eyni zamanda, ölkəmizin qarşısında duran mühüm sosial-iqtisadi problemlərin həllində də öz rolunu oynayacaqdır.

Açılışına toplaşdığımız zavod həm də Dünya Bankının krediti ilə yaradılmışdır. Bu bizi çox sevindirir. Azərbaycan beynəlxalq maliyyə qurumları ilə çox sıx və uğurlu əməkdaşlıq edir. Əlamətdar haldır ki, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, dünyanın digər aparıcı maliyyə qurumları Azərbaycanda həyata keçirilən iqtisadi siyasəti çox yüksək qiymətləndirir və bəyənirlər. Təbii ki, bu belə də olmalıdır. Çünki ölkəmizin iqtisadiyyatı hər il təxminən 10 faiz artır, inflyasiyanın səviyyəsi 2 faizdən yuxarı deyildir. Digər iqtisadi göstəricilər də deməyə əsas verir ki, Azərbaycan  inamla irəliləyir.

Amma 1993-cü ili yada salaq. Həmin il, o vaxtkı iqtidarın dövründə inflyasiya min faiz təşkil edirdi. Yəni, pulun dəyəri tamamilə itirdi. Azərbaycan, demək olar ki, xaos vəziyyətində, böhran içərisində idi. Xəzinə boşalmışdı, burada qalan vəsaiti isə həmin iqtidar oğurlayıb xaricə aparmışdı. İndi isə Azərbaycanın sərvətləri, o cümlədən valyuta ehtiyatları çox etibarlı şəkildə qorunub saxlanılır. Bu məqsədlə Neft Fondu yaradılıb və o, çox şəffaf qurumdur. Onun fəaliyyəti, orada yığılan vəsait haqqında mütəmadi qaydada əhaliyə məlumat verilir. Bu şəffaf qurum Azərbaycanın gələcəyində və perspektivlərində çox mühüm rol oynayacaqdır.

Bütün bu sadaladığım amillər deməyə imkan verir ki, Azərbaycan yaxın gələcəkdə çox böyük uğurlar əldə edəcək, iqtisadi cəhətdən güclənəcəkdir. İqtisadiyyatımız daha da inkişaf edəcəkdir. Artıq biz bu inkişafı görürük. Xüsusilə aqrar

sektorda. Azərbaycan MDB məkanında yeganə ölkədir ki, torpaq kəndlilərə verilmişdir. Biz artıq bunun nəticələrini görürük. Eyni zamanda, özəlləşdirmə prosesi nəticəsində minlərlə, on minlərlə sahibkarlar təbəqəsi yaranmışdır. Biz çalışmalıyıq ki, ölkəmizdə güclü orta təbəqə yaransın, Azərbaycanın bütün bölgələri hərtərəfli inkişaf etsin. Bu məqsədlə biz bundan sonra da işimizi elə quracağıq ki, hər bir bölgədə, Azərbaycanın hər bir rayonunda yeni iş yerləri açılsın, yeni zavodlar, fabriklər istifadəyə verilsin ki, insanlar işlə təmin olunsunlar.

Biz bütün bunları edəcəyik. Əlbəttə, ilk növbədə biz istəyirik ki, Azərbaycan dünyada daha möhkəm şəkildə özünə layiq yer tutsun. İndi bu, baş verir. Mənim son görüşlərim, xaricdə apardığım danışıqlar bir daha onu göstərir ki, ölkəmiz dünyada öz mövqelərini möhkəmləndirmişdir. İndi Azərbaycanla hesablaşır, ona hörmət edirlər. Ölkəmizin regiondakı mövqeyi möhkəmlənmişdir. Azərbaycansız regionda heç bir iqtisadi layihə həyata keçirilə bilməz.

Halbuki Ermənistan öz işğalçı siyasəti nəticəsində bütün regional layihələrdən məhrum olubdur. Biz onları bu layihələrdən təcrid etmişik. Hesab edirəm ki, Azərbaycanla Ermənistan arasında olan iqtisadi uçurum daha da genişləznəcəkdir. Azərbaycan möhkəm və zəngin ölkəyə çevriləcəkdir. Ermənistanda isə bu perspektivlər yoxdur. Əlbəttə ki, bu amil danışıqlar prosesində də mühüm rol oynayacaqdır. Azərbaycanın ordusu güclənir. Dövlətimizin başçısı cənab Prezidentin göstərişləri əsasında ordu quruculuğunda da böyük işlər görülmüşdür. Artıq bizim ordumuz qarşıda duran bütün vəzifələri həll etməyə qadirdir. Amma biz istəyirik ki, müharibə olmasın, problemi sülh yolu ilə həll edək. Eyni zamanda, ordumuz güclü olmalıdır və bu istiqamətdə işlər aparılır.

Yenidən iqtisadiyyata qayıdaq, çünki hər şey iqtisadi zəmin üzərində qurulur. İqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir. Bunu cənab Prezident bir neçə il əvvəl demişdir. Bu ifadə bu gün də aktualdır, sabah da aktual olacaqdır. Ona görə də, ilk

növbədə, iqtisadi inkişafa diqqət yetirilməlidir və yetirilir. Əlbəttə, bundan sonra maaşların və gəlirlərin daha da artırılmasına imkan yaranacaqdır. Deyə bilərəm ki, cənab Prezidentin son sərəncamları nəticəsində 2 milyon insan bunu hiss etmişdir – maaşlar 50 faiz qaldırılmış, pensiyalar artırılmışdır. Bu proses davam edəcəkdir. İmkan yarandıqca, biz bunu davam etdirəcəyik. Çünki bütün müsbət nəticələrə baxmayaraq, biz çox gözəl bilirik ki, problemlər də çoxdur və xalqın müəyyən təbəqəsi çətinlik çəkir. Yoxsulluğun azaldılması istiqamətində biz yenə də beynəlxalq maliyyə qurumları, o cümlədən Dünya Bankı ilə sıx əməkdaşlıq edirik və çalışırıq ki, bu məsələ də aradan qalxsın. Əminəm ki, bu, belə də olacaqdır.

Azərbaycanda bu zavodun tikilib istifadəyə verilməsi bir də ona görə önəmlidir ki, iqtisadiyyatımızın təkcə neft və qaz üzərində qurulmadığını bir daha göstərir. Bizim əsas məqsədimiz ondan ibarətdir ki, qeyri-neft sektoru inkişaf etdirilsin. Neft sektorunda hər şey yerindədir. 9 il ərzində Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsi nəticəsində Azərbaycan böyük uğurlar əldə etmişdir. Azərbaycan nefti dünya bazarlarına çıxarılmışdır və ölkəmiz bundan böyük gəlirlər əldə edir. Biz qeyri-neft sektoruna da eyni meyarlarla yanaşmalıyıq. Orada da böyük dönüş gözlənilir və əminəm ki, bu, yaxın gələcəkdə baş verəcəkdir.

Beləliklə, Azərbaycan hərtərəfli inkişaf edəcəkdir. Ölkəmizin iqtisadiyyatı, bölgələri hərtərəfli inkişaf edəcəkdir. Biz bunu istəyirik və əminəm ki, buna nail olacağıq.

Əziz dostlar!

Mən bir daha sizin hamınızı bu gözəl müəssisənin açılışı münasibətilə ürəkdən təbrik edirəm. Sizə uğurlar, cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

## BİLƏSUVAR RAYONUNDA MƏCBURİ KÖÇKÜNLƏR ÜÇÜN YENİ İNŞA EDİLMİŞ QƏSƏBƏNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ

*1 oktyabr 2003-cü il*

Əziz bacılar və qardaşlar!

Əziz cəbrayıllılar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və bu gözəl qəsəbənin istifadəyə verilməsi münasibətilə ürəkdən təbrik edirəm.

Burada qeyd olundu ki, bu qəsəbə Azərbaycan Respublikasının prezidenti möhtərəm Heydər Əliyevin fərmanı, göstərişi əsasında yaradılıbdır. Bu məqsədlə Azərbaycan Dövlət Neft Fondundan vəsait ayrılıb və o vəsait hesabına bu qəsəbə yaradılıb, tikilibdir. Bu bir daha onu göstərir ki, 1994-cü ildə "Əsrin müqaviləsi" imzalananda cənab Prezident tərəfindən nə qədər düzgün, nə qədər müdrik addım atılmışdı. Əgər o müqavilə imzalanmasaydı, Azərbaycan öz neftini dünya bazarlarına çıxara bilməsəydi, Neft Fondu yaradılmasaydı, əlbəttə, imkanımız olmayacaqdı ki, belə gözəl evləri tikək və bizim bacılara, qardaşlara hədiyyə edək.

Buraya gələndə yolda çadır düşərgəsinin qalıqlarına baxdım və o günləri xatırladım. Cənab Prezidentlə birlikdə buraya gələrkən məcburi köçkünlərlə görüşlərimiz olmuşdu. Onların nə qədər ağır şəraitdə yaşadıqlarını görəndə cənab Prezident çox məyus olmuşdu. O mənzərələr ona çox təsir etmişdi. Ona görə imkan düşən kimi, Neft Fondu yaranandan sonra birinci vəsait məhz buraya, Biləsuvar rayonuna yönəldildi ki, o çadır düşərgələri dağıdılsın, yeni evlər, binalar, məktəblər, klublar tikilsin. Belə də oldu. Beş çadır düşərgəsi tamamilə dağıdılıb və əvəzində bu gözəl qəsəbə yaradılıbdır. Burada 2560 ev tikilibdir. Nəzərə alsaq ki, bundan əvvəl çadır düşərgəsində

yaşayan Füzuli camaatı üçün də Haramı ərazisində müasir evlər tikilibdir, onda deyə bilərik ki, burada keçmişdə yaşayan bütün məcburi köçkünlər evlə təmin olunubdur. Bu siyasət bundan sonra da davam etdiriləcəkdir.

Azərbaycanda Ermənistanın işğalı nəticəsində öz doğma torpaqlarından didərgin düşmüş məcburi köçkünlər, qaçqınlar lazımi şəraitlə təmin olunacaqlar. Azərbaycan artıq iqtisadi cəhətdən güclənir, ayağa durur. Keçirilən iqtisadi islahatların nəticəsində böyük iqtisadi potensial yaradılıb və bundan sonra da yaradılacaqdır.

Bakı–Tbilisi–Ceyhan kimi nəhəng neft kəməri tikilir. 2005-ci ilin sonunda o, istismara veriləcəkdir. Ondan sonra Azərbaycana daha böyük həcmdə, indikindən bir neçə dəfə çox vəsait daxil olacaqdır. Həmin vəsaitlə Azərbaycanın bütün sosial problemləri həll ediləcəkdir. O cümlədən, qaçqın-köçkünlərin vəziyyətinin yaxşılaşdırılması istiqamətində əlavə tədbirlər görüləcəkdir.

Mən bu gün Baş nazirin müavini, Dövlətqaçqınkomun sədri cənab Əli Həsənovla bu barədə söhbət etdim. Bizim planlarımızda var ki, bu siyasəti davam etdirək. Hələlik digər bölgələrdə çətin vəziyyətdə yaşayan qaçqın-köçkünlər üçün buna bənzər şərait yaradaq. Bu bizim borcumuzdur və bunu edəcəyik. Bu, Heydər Əliyevin siyasətidir və biz bu siyasəti davam etdirəcəyik.

Bu gün burada çıxış edən bacılar, qardaşlar müxalifət haqqında öz fikirlərini söylədilər. Ümumiyyətlə, mən onların haqqında bir şey demək istəmirdim. Amma bir halda ki, siz bunu qeyd etdiniz, istəyirəm öz fikirlərimi sizə bildirəm. Müxalifət xalqın qarşısına beş ildə bir dəfə çıxır. Özü də o məqsədlə ki, xalqdan səs alsın. Son beş il ərzində heç vaxt olmayıb ki, müxalifət gəlib hansısa qaçqının problemi ilə maraqlansın, ona əl tutsun, ona kömək etsin. Yox, bu heç vaxt olmayıbdır. Yalnız beş ildə bir dəfə, seçkilər ərəfəsində televiziya ekranına çıxırlar, yürüşlərə, mitinqlərə çıxırlar, yalan vədlər verirlər, özlərini təqdim etmək, tərifləmək istəyirlər.

Halbuki buna ehtiyac yoxdur, xalq onları yaxşı tanıyır.

Məhz bu adamlar 1992-ci ildə hakimiyyətdə olan zaman Azərbaycanı bəlaya saldılar. Azərbaycanı uçurum kənarında qoydular. Vətəndaş müharibəsini başladılar. Azərbaycanın torpaqlarının itirilməsi də onların yarıtmaz fəaliyyəti nəticəsində olubdur. Heç nə unudulmur. Xalq hər şeyi yaxşı yadda saxlayır. Əlbəttə, özünü biabır edən, Azərbaycanı dağıdan, Azərbaycanın milli sərvətlərini talayan insanlara xalqımız heç vaxt səs verməyəcəkdir. Qoy, onlar bunu gözləməsinlər.

Mən dedim ki, Azərbaycanın çox gözəl perspektivləri vardır. Azərbaycan iqtisadi cəhətdən inkişaf edir. Əlbəttə, burada aparıcı rolu neft sektorunda görülən işlər tutur və bu da təbiidir. Çünki bu, Azərbaycanın əsas sərvətidir və ondan da çox səmərəli istifadə olunur. Heydər Əliyevin neft strategiyasının təntənəsi məhz bu gün burada görünür. Bu evlərin tikilməsində görünür. Bəzən müxalifət deyir ki, neftdən əldə olunan gəlirlər hara gedir.

Budur, neftdən əldə olunan gəlirlər Azərbaycan xalqına verilir.

Onların hakimiyyətdə olduğu ildə Azərbaycana birinci neft bonusu ödənilmişdi. Üç-dörd gün ərzində o vəsait, bir neçə milyon dollar özəl bankın hesabına köçürülmüş və ondan sonra da dağıdılmış, onların cibinə getmişdir. Biz isə Heydər Əliyevin rəhbərliyi altında neftin satışından və bonuslardan qısa müddət ərzində 1 milyard 400 milyon dollar vəsait əldə etmişik və o pullar şəffaf şəkildə Azərbaycan Dövlət Neft Fondunda saxlanılır, belə gözəl işlərə xərclənir və gələcək nəsillər üçün də əmanət kimi saxlanılacaqdır.

Biz bu işləri davam etdirəcəyik. Əlimizdən gələni edəcəyik ki, Azərbaycanda çətin vəziyyətdə yaşayan insanlara – bacılara, qardaşlara imkan daxilində kömək edək. Bu kömək bundan sonra da göstəriləcəkdir. Amma əlbəttə, məsələnin tam həlli ondan ibarətdir ki, qaçqınlar, məcburi köçkünlər öz doğma torpaqlarına qayıda bilsinlər. Bu istiqamətdə böyük işlər aparılır. Bilirsiniz ki, cənab Prezident bir neçə il ərzində çox

gərgin danışıqlar aparır, beynəlxalq aləmdə Azərbaycanın mövqeləri möhkəmlənir. Azərbaycanın səsi beynəlxalq təşkilatların tribunalarından gəlir. Avropa Şurasında ilk dəfə olaraq, bizim nümayəndə heyətinin fəaliyyəti nəticəsində Ermənistan işğalçı dövlət kimi tanınıbdır. Bu, böyük hadisədir. Bu, gələcək danışıqlara çox müsbət təsir edə bilər və edəcəkdir.

Avropa Şurası Dağlıq Qarabağ münaqişəsi üzrə xüsusi məruzəçi təyin etmişdir. Halbuki Ermənistan bunun əleyhinə idi. Çünki onlara sərf etmir ki, bu məsələ müzakirə obyektinə çevrilsin. İstəyirlər ki, bunu ört-basdır eləsinlər və keçmişdə olduğu kimi, özlərinin təbliğatı vasitəsilə dünya ictimaiyyətinə yanlış məlumat versinlər. Amma bizim fəaliyyətimizin nəticəsində bütün beynəlxalq təşkilatlarda bu məsələ ilə bağlı fikir formalaşıbdır və bu fikir bizim xeyrimizədir.

Biz çalışacağıq ki, bu məsələni sülh yolu ilə həll edək, çünki müharibə istəmirik. Amma eyni zamanda biz heç vaxt barışmayacağıq ki, torpaqlarımız işğal altında qalsın. Nəyin bahasına olursa- olsun, torpaqlarımızı azad edəcəyik.

İndi Ermənistan hesab edir ki, bu münaqişədə üstünlük əldə edibdir. Şəxsən mən bu fikirlə razı deyiləm. Gəlin Ermənistanda və Azərbaycanda olan vəziyyətə baxaq. Bizim ölkələrimizin iqtisadi səviyyələri arasında uçurum dərinləşir. Azərbaycanın iqtisadiyyatı inkişaf edir. Azərbaycan növbəti beş ildə Bakı–Tbilisi–Ceyhan kəməri vasitəsilə təkcə neftin satışından 5 milyard dollar vəsait əldə edəcəkdir. Əlbəttə, bu vəsait Azərbaycanın iqtisadi inkişafına, ordu quruculuğuna yönəldiləcəkdir. İnsanların rifahı yaxşılaşacaq, maaşlar, təqaüdlər artacaqdır. Əlbəttə, Azərbaycan iqtisadi cəhətdən daha da güclü olacaqdır.

Ermənistanda isə belə perspektivlər yoxdur. İndi Ermənistanda iqtisadi böhran yaşanır və heç bir perspektiv yoxdur. Çünki biz onları bütün beynəlxalq regional layihələrdən təcrid etdik. Biz onlarla heç vaxt iqtisadi əməkdaşlıq etməyəcəyik və belə olan halda onlar tənəzzülə daha çox uğrayacaqlar. Beləliklə, bir neçə ildən sonra iqtisadi, siyasi, ümumiyyətlə, hər

cəhətdən güclü Azərbaycan zəif Ermənistanla üz-üzə qalsa, əlbəttə, üstünlük bizim tərəfimizdə olacaqdır. Bu məqsədlə cənab Prezidentin göstərişləri əsasında ordu quruculuğunda böyük işlər görülür və bundan sonra da görəcəyik. Mən əminəm ki, yaxın gələcəkdə Azərbaycan torpaqları işğalçılardan azad olunacaq, qaçqın-köçkünlər öz dədə-baba torpaqlarına qayıdacaqlar.

Bu gün buraya gələndə bir ailəyə qonaq oldum. Məni çox mehriban qarşıladılar. Mənim arzum var ki, – hesab edirəm, bu hamımızın arzusudur – Cəbrayıla qonaq gəlim. Cəbrayıl işğaldan azad olunandan sonra orada sizin üçün bundan da gözəl evlər tikəcəyik və mən də gəlib sizin qonağınız olacağam.

Əziz dostlar, bilin ki, bu siyasət davam etdiriləcəkdir. Heydər Əliyevin siyasi xətti davam etdiriləcəkdir. Bizim başqa alternativimiz yoxdur. Azərbaycanın gələcəyi üçün, Azərbaycanın çiçəklənməsi üçün yalnız bu siyasət aparılmalıdır və xalqın dəstəyi ilə aparılacaqdır. O cümlədən, qaçqınların, məcburi köçkünlərin problemləri daim diqqət mərkəzində olacaqdır.

Burada dedilər, bu qəsəbə deyil, şəhərdir. Həqiqətən belədir, görün burada nə qədər evlər, məktəblər, tibb məntəqələri, klublar tikilib, yollar salınıb, işıqlar çəkilibdir. Mənə Əli müəllim deyir ki, burada görülən işlər keçmiş Sovet İttifaqı vaxtında bir beşillikdə görülən işlərə bərabərdir. Həqiqətən də belədir.

Mən sizi bu gözəl qəsəbənin istifadəyə verilməsi münasibətilə bir daha ürəkdən təbrik edirəm. İstəyirəm ki, siz burada xoşbəxt yaşayasınız. Amma bilin, bu, yenə də müvəqqəti bir məkandır. Siz öz doğma torpaqlarınıza qayıdacaqsınız. Biz bunu təmin edəcəyik. Azərbaycanın ərazi bütövlüyünü bərpa edəcəyik. Mən sizin hamınızı öpürəm, qucaqlayıram. Sağ olun.

* * *

## MƏRASİM BAŞA ÇATDIQDAN SONRA JURNALİSTLƏRƏ QISA MÜSAHİBƏ

**S u a l: İlham müəllim, bu gün çoxsaylı müxtəlif görüşləriniz oldu. İlkin təəssüratlarınız necədir və qarşıda hansı görüşləriniz var?**

**C a v a b:** Təəssüratlar çox yaxşıdır, müsbətdir və gözləniləndir. Hər yerdə böyük ruh yüksəkliyi görürəm, hörmət görürəm. İnsanların bu münasibəti məni çox sevindirir. Bu gözlənilən idi. Çünki mən bilirəm ki, Azərbaycanda real vəziyyət necədir və bu görüşlər onu bir daha təsdiqlədi. Azərbaycanın bölgələri inkişaf edir. İnsanların əhval-ruhiyyəsi yaxşıdır.

Bu gün çox sevindirici haldır ki, Azərbaycanda növbəti infrastruktur obyekti açılıbdır. Balıqartırma zavodu istifadəyə verilibdir. Düzdür, oradan əldə olunan məhsul bilavasitə satışa çıxarılmır və onun qısa müddət ərzində gəlir gətirməsi mümkün deyildir.

Amma Azərbaycanın gələcəyi üçün, Azərbaycanın təbiətinin qorunub saxlanılması üçün, Xəzər dənizinin bioresurslarının artırılması üçün mühüm layihədir. Bu onu göstərir ki, Azərbaycan hökuməti bütün sahələrdə fəal iş aparır, bütün sahələri inkişaf etdirməyə çalışır. Ümumiyyətlə, keçirdiyim görüşlər məni çox sevindirir.

**S u a l: Hörmətli Baş nazir, daha hansı rayonlara getməyiniz nəzərdə tutulmuşdur?**

**C a v a b:** Müxtəlif rayonlarda olacağam. Sizə xəbər veriləcəkdir.

**S u a l: İlham müəllim, seçki bülletenləri iki gündən sonra çap olunacaqdır. Bilmək istərdik ki, iqtidar bu seçkilərə nəhayət, neçə namizədlə gedəcəkdir?**

**C a v a b:** Hələ vaxt var, öyrənərsiniz.

**S u a l: İlham müəllim, Prezident nə vaxt qayıdacaqdır?**

**C a v a b:** İnşallah, yaxın günlərdə dönəcəkdir.

* * *

*Həmin gün Baş nazir İlham Əliyev Bakıya qayıdarkən yolüstü Saatlıda dayandı. Rayonun minlərlə sakini onu böyük hörmət və məhəbbətlə qarşıladılar.*

*Baş nazir ona göstərdikləri hərarətli münasibətə görə rayon sakinlərinə minnətdarlığını bildirərək dedi:*

- Əziz saatlılılar, çox sağ olun. Mən də çox şadam ki, sizinlə görüşürəm, zəhmət çəkib gəlmisiniz. Bilin, biz həmişə bir yerdə olacağıq. Həmişə hörmətli cənab Prezidentin siyasətini birlikdə davam etdirəcəyik. Azərbaycan güclənəcək, çiçəklənəcək və möhkəmlənəcəkdir. Hamınızı öpürəm. Çox sağ olun.

## «EUPES–AZƏRBAYCAN» ALMANİYA–AZƏRBAYCAN BİRGƏ MÜƏSSİSƏSİNİN AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ

*Bakı, Xətai rayonu*

*2 oktyabr 2003-cü il*

Əziz dostlar!

Xanımlar və cənablar!

Mən sizin hamınızı bugünkü əlamətdar hadisə – Azərbaycan–Almaniya birgə müəssisəsinin açılışı münasibətilə təbrik edirəm.

Azərbaycanda Heydər Əliyevin rəhbərliyi altında 1994-cü ildən yeni neft strategiyası həyata keçirilir. Bu zavodun yaradılması da məhz həmin neft strategiyasının həyata keçirilməsi ilə bağlıdır. Əgər 1994-cü ildə "Əsrin müqaviləsi" imzalanmasaydı, təbii ki, bu zavoda da ehtiyac olmazdı. O vaxtdan bəri Azərbaycanda bu istiqamətdə çox işlər görülmüşdür. Bu barədə artıq burada deyilmişdir. Azərbaycana böyük həcmdə sərmayə qoyulur, yeni müəssisələr, zavodlar, fabriklər yaradılır, yeni iş yerləri açılır. Çox sevindirici haldır ki, bu proses davam edir.

Heydər Əliyevin neft strategiyası çoxşaxəlidir, müxtəlif istiqamətlərdən ibarətdir. Əlbəttə, ilkin mərhələdə ən önəmli məsələ ondan ibarət idi ki, Azərbaycana sərmayə cəlb edilsin. İndi bu proses uğurla davam edir. Azərbaycana milyardlarla dollar sərmayə qoyulmuşdur və gələcəkdə də qoyulacaqdır. *bp* şirkətinin nümayəndəsi burada dedi – Azərbaycanın neft sektoruna 18 milyard dollar sərmayə qoyulacaqdır. Məhz buna görə Azərbaycan MDB məkanında və Şərqi Avropa ölkələri arasında adambaşına düşən xarici sərmayənin həcminə görə qabaqcıl yerlərdədir.

Neft strategiyasının digər istiqaməti ondan ibarətdir ki,

Azərbaycanda nəqliyyat infrastrukturu yaradılsın, neft kəmərləri inşa edilsin. Bu proses davam edir. Azərbaycan nefti artıq iki kəmər vasitəsilə dünya bazarlarına çatdırılır. Bunlar Bakı–Novorossiysk və Bakı–Supsa neft kəmərləridir. Hazırda nəhəng Bakı–Tbilisi–Ceyhan neft kəməri tikilir və yaxın gələcəkdə istifadəyə veriləcəkdir.

Bu da imkan verəcəkdir ki, Azərbaycan öz neftini böyük həcmdə ixrac etsin, dünya bazarlarına çatdırsın. Beləliklə, iqtisadiyyatımız daha da möhkəmlənəcəkdir.

Heydər Əliyevin neft strategiyasının daha bir istiqaməti ona yönəlmişdir ki, Azərbaycanda yerli istehsal yaransın, iş yerləri açılsın. Bu gün biz bunu açılışını etdiyimiz zavodda görürük. Ümumiyyətlə, bütün bu amillər bu zavodun yaradılmasında özünü göstərir. Bura həm sərmayə qoyuluşu, həm yeni yerli istehsal yaradılması, həm də yeni iş yerləri açılması daxildir. Burada 350 iş yeri açılmışdır, onun 300-dən çoxuna da yerli vətəndaşlar cəlb olunmuşdur. Maaşlar da çox yüksəkdir. Mənə verilən məlumata görə, burada Azərbaycan vətəndaşlarının maaşları 400 dollardan artıqdır. Əlbəttə ki, bütün bunlar çox sevindirici hallardır. Ümumiyyətlə, Azərbaycanda yeni iş yerlərinin açılması istiqamətində işlər görülür və görüləcəkdir, növbəti beş il ərzində 600 min yeni iş yeri açılacaqdır. Azərbaycanda zavodlar, fabriklər, emal müəssisələri yaradılır və gələcəkdə də yaradılacaqdır. Bu bizə imkan verəcəkdir ki, Azərbaycanı hərtərəfli inkişaf etdirək.

Əlbəttə ki, hələ uzun illər ərzində ölkəmizin iqtisadi inkişafını müəyyən edən amil neft faktoru olacaqdır. Bu da təbiidir. Amma bununla yanaşı, Azərbaycanın digər sektorları da inkişaf edir və gələcəkdə də buna fikir veriləcəkdir. Əminəm ki, hələ buna bənzər və dünya standartlarına cavab verən neçə-neçə müəssisə yaradılacaq və insanlarımız işlə təmin olunacaqdır.

Mənə məlumat verildi ki, burada yerli vətəndaşlar həm fəhlə işini görürlər, eyni zamanda yüksək peşəkarlıq tələb edən işlərlə də məşğuldurlar. Bu bir daha göstərir ki, Azərbaycanda güclü insan potensialı var, peşəkar insanlar çoxdur. Çox sevindirici

haldır ki, bu müəssisə onlardan istifadə edir.

Bu birgə müəssisənin yaradılması həm də ona görə sevindiricidir ki, o, Almaniya və Azərbaycan şirkətləri tərəfindən təsis olunmuşdur. Bu iki ölkə arasında münasibətlər çox yüksək səviyyədədir. Bizim aramızda nəinki heç bir problem yoxdur, əksinə, əməkdaşlıq və qarşılıqlı hörmət, anlaşma vardır.

Hesab edirəm ki, Azərbaycanın Avropa ailəsinə inteqrasiyası məsələsində də Almaniyanın dəstəyi bizə lazım olacaqdır və biz bu dəstəyi hiss edirik. Çox şadıq ki, Almaniya kapitalı, biznesi Azərbaycana gəlir. Əlbəttə, Azərbaycanda Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsi nəticəsində yüzlərlə xarici şirkət ölkəmizdə fəaliyyət göstərir, minlərlə xarici vətəndaş Azərbaycanda çox gözəl və rahat yaşayır. Onlar heç Azərbaycandan getmək də istəmirlər. Çünki ölkəmiz, şəhərimiz günü-gündən abadlaşır, gözəlləşir, iqtisadiyyatımız möhkəmlənir. Biz çox sevinirik ki, Azərbaycanda bu baxımdan heç bir problem yoxdur. Əksinə, əməkdaşlıq ruhu mövcuddur.

Biz eyni zamanda çox istərdik ki, burada podratçı qismində fəaliyyət göstərən şirkətlər öz ofislərini açsınlar. Amma ilk növbədə, Azərbaycana sərmayə qoyan şirkətlər gəlsin. Ölkəmizin böyük imkanları, potensialı, gələcəyi vardır. Əlbəttə ki, bu gün bizim iqtisadiyyatımıza sərmayə qoyan şirkət bundan böyük mənfəət, fayda əldə edəcəkdir. Hesab edirəm ki, bu gün Almaniya şirkəti tərəfindən göstərilən nümunə digər şirkətlər tərəfindən də bəyəniləcək və onlar da bu təcrübədən istifadə edib Azərbaycana sərmayə qoyacaqlar.

Ölkəmiz, ümumiyyətlə, çox sürətlə inkişaf edir. Azərbaycanda iqtisadi islahatlar aparılır, özəlləşdirmə prosesi gedir. Çox sevindirici haldır ki, ümumi daxili məhsulda özəl sektorun payı 70 faizdən yuxarıdır. Bu gün olduğumuz müəssisə də tamamilə özəl sektora məxsusdur. Biz çox istəyirik ki, Azərbaycanda özəl sektor inkişaf etsin, sahibkarların sayı artsın, orta təbəqə yaransın. Hökumət bu istiqamətdə əlindən gələni edir və gələcəkdə də edəcəkdir. Bu bizim strateji xəttimizdir. Azərbaycan zəngin ölkəyə çevrilməlidir və çevriləcəkdir.

Bunun üçün bizdə bütün imkanlar vardır. Təbii sərvətlər, yüksək peşəkarlıq, iradə, Vətənə, xalqa məhəbbət vardır. Bundan başqa daha nə lazımdır?

Bütün bu amilləri səfərbər edib Azərbaycanı çox qısa bir zamanda zəngin dövlətə çevirmək niyyətindəyik və bunu edəcəyik. Biz istəyirik insanlarımız yaxşı yaşasın, işsizlik, yoxsulluq olmasın. Bu istiqamətdə də işlər aparılır və deyə bilərəm ki, artıq uğurlar əldə etmişik.

Qısa müddət ərzində Azərbaycanda dünya standartlarına cavab verən bir neçə müəssisə yaradılıb. Dünən balıqartırma zavodunun açılışı oldu, iyirmi gün əvvəl Xaçmazda konserv zavodunun açılışını etdik. Bu gün burada Azərbaycanın iqtisadi inkişafı üçün çox önəmli zavod açılır. Çox mühüm cəhət budur ki, bütün bu müəssisələrin istehsal etdiyi məhsulların böyük bir qismi Azərbaycanda satılacaqdır. Yəni xaricdə bazar axtarmaq lazım olmayacaqdır. Bu da, öz növbəsində, bir daha onu göstərir ki, 1994-cü ildə Heydər Əliyev tərəfindən "Əsrin müqaviləsi"nin imzalanması çox cəsarətli və müdrik addım idi. Məhz o müqavilənin nəticəsində Azərbaycanda infrastruktur və yerli istehsalçılar üçün şərait yaradılır.

Biz istəyirik ki, Azərbaycanın bazarını yerli şirkətlər öz məhsulları ilə doldursunlar. Əlbəttə, idxal da lazımdır və olacaqdır. Amma o sahələrdə ki, imkanımız vardır, gərək biz yerli şirkətlərə öz istehsal etdikləri məhsulları Azərbaycan bazarına çıxarmalarına kömək edək.

Əziz dostlar, dediyim kimi, bu gün Azərbaycanın tarixində çox əlamətdar bir gündür. Gözəl, yeni müəssisə yaradılıb istifadəyə verilir. Mən bu münasibətlə bir daha sizin hamınızı ürəkdən təbrik etmək istəyirəm, sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

## İSMAYILLI RAYONUNDA ŞƏHİD AİLƏLƏRİ VƏ QARABAĞ ƏLİLLƏRİ ÜÇÜN İNŞA EDİLMİŞ BİNANIN İSTİFADƏYƏ VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ ÇIXIŞ

*3 oktyabr 2003-cü il*

Hörmətli ismayıllılar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün bu görüşə gəldiyinizə görə və mənə göstərdiyiniz hərarətli münasibətə, mehribanlığa görə sizlərə öz təşəkkürümü bildirirəm.

Bu gün Azərbaycanda bayramdır. Bu gün Azərbaycanın gözəl guşəsində, İsmayıllıda hörmətli cənab prezident Heydər Əliyevin göstərişi əsasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən tikilib istifadəyə verilmiş evin açılışını qeyd edirik. Bu evdə Qarabağ müharibəsində öz fiziki sağlamlığını itirmiş insanlar yaşayacaq, şəhid ailələri yaşayacaqlar. Bu münasibətlə mən sizin hamınızı bir daha təbrik edirəm.

Azərbaycanda sosial məsələlərin həllinə daim diqqət göstərilir. Cənab Prezidentin göstərişləri əsasında bütün müvafiq qurumlar əlindən gələni edir ki, çətin vəziyyətdə yaşayan insanlara kömək göstərilsin. Bu açılış mənim iştirak etdiyim birinci mərasim deyildir. Bundan bir neçə il əvvəl, cənab Prezidentlə birlikdə biz Qaradağ rayonunda məskunlaşmış qaçqınlar və məcburi köçkünlər, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri üçün tikilmiş və hərəsi 50 mənzildən ibarət iki evin açılışını etmişdik. Yəni, bu ənənə, bu siyasət davam edir. Sizi əmin etmək istəyirəm ki, gələcəkdə də Azərbaycan hökuməti bu məsələyə daim diqqət göstərəcək, Qarabağ müharibəsi əlilləri, şəhid ailələri üçün eyni şəraitli yeni-yeni evlər tikiləcəkdir.

Bütün bu məsələləri həll etmək üçün, ümumiyyətlə, Azərbaycanda bütün sosial məsələləri həll etmək üçün, əlbəttə,

iqtisadiyyatımız güclü olmalıdır. Heydər Əliyev tərəfindən həyata keçirilən iqtisadi islahatlar, aparılan neft strategiyası bizə imkan verir ki, ölkəmizin valyuta ehtiyatları artsın, Azərbaycan zəngin dövlətə çevrilsin. Azərbaycan dövləti, hökuməti bu imkanlardan istifadə edib belə gözəl binalar tikir, qaçqınlar, məcburi köçkünlər üçün yeni qəsəbələr, şəhərciklər salınır.

İki gün bundan əvvəl, mən Biləsuvar rayonunda məskunlaşmış məcburi köçkünlərlə görüşmüşdüm. Orada böyük qəsəbələr tikilib istifadəyə verilibdir. 2500-dən artıq ailə yeni, müasir, yaxşı şəraiti olan evlərə köçürülübdür. Onlar əvvəllər çadır düşərgələrində yaşayırdılar. Yenə də deyirəm, bu siyasət davam etdirilir, Azərbaycan iqtisadi cəhətdən güclənir, ayağa qalxır. Əlbəttə ki, bizim imkanlarımız artdıqca, ilk növbədə, sosial məsələlər öz həllini tapacaqdır.

Azərbaycanın çox gözəl perspektivləri, çox gözəl gələcəyi var. İslahatlar aparılır. O cümlədən torpaq islahatı aparılıb və sizlər, İsmayıllı rayonunda yaşayan, kənd təsərrüfatı ilə məşğul olan insanlar bunu yaxşı bilirsiniz və görürsünüz.

Torpaq vergisindən savayı, kəndlilər bütün vergilərdən azad olunublar. Başqa yardımlar da edilir. Azərbaycan MDB dövlətləri arasında birinci ölkədir ki, bütün torpağı kəndlilərin mülkiyyətinə verib və onlar da bundan çox səmərəli istifadə edirlər.

Bizi gələcəkdə nələr gözləyir? Gələcəkdə, Azərbaycanda Heydər Əliyevin neft strategiyası həyata keçiriləndən, qarşımızda duran bütün irimiqyaslı layihələr başa çatdırılandan sonra Azərbaycana milyardlarla dollar vəsait daxil olacaqdır. O vəsaitin hesabına Azərbaycan yenidən qurulacaq, yeni iş yerləri yaradılacaq, yeni binalar, qəsəbələr, səhiyyə, təhsil ocaqları – bunların hamısı olacaqdır. Artıq bunlar baş verir. Apardığımız işlərin nəticəsində son 20 gündə açdığımız müəssisələr, qəsəbələr bir daha onu göstərir ki, Azərbaycanda aparılan siyasət ən düzgün siyasətdir. Bu siyasəti 1993-cü ildə Heydər Əliyev başladı və biz onu davam etdirəcəyik. Heydər Əliyevin siyasətini biz hamımız birlikdə davam etdirəcəyik.

İqtisadiyyatda əldə olunan və gələcəkdə də əldə ediləcək nəticələr bizə imkan verəcək ki, müharibədən əziyyət çəkmiş insanların həyat şəraitini yaxşılaşdıraq. Müharibə Azərbaycana böyük ziyan vurub, böyük bəlalar gətiribdir. Azərbaycan şəhidlər verib, müharibədən qayıdan insanlar öz fiziki sağlamlığını itiriblər. Əlbəttə, bu insanlara qayğı göstəriləcək, diqqət göstəriləcək və onların həyat şəraiti yaxşılaşdırılacaqdır. Amma əsas məsələ bundan ibarətdir ki, Azərbaycanın torpaqları işğaldan azad olsun.

Bilirsiniz ki, bu istiqamətdə işlər görülür, danışıqlar gedir. Biz çalışırıq ki, bütün beynəlxalq təşkilatlarda Ermənistan işğalçı dövlət kimi tanınsın. Biz Avropa Şurasında buna nail ola bildik. Baxmayaraq ki, Ermənistan tərəfi çox güclü müqavimət göstərirdi. Baxmayaraq ki, onları dünyada dəstəkləyən dairələr həddindən artıq çoxdur, Azərbaycan nümayəndə heyətinin fəaliyyəti nəticəsində Avropa Şurası dünyada ilk dəfə Ermənistanı işğalçı dövlət kimi tanıdıb və onun siyasətini pisləyibdir. Bu bizim böyük qələbəmizdir və gələcəkdə danışıqlar prosesində müsbət rol oynayacaqdır.

Əgər Ermənistanda fikirləşirlərsə ki, bizim torpaqlarımızı işğal edib və bundan da hansısa üstünlük əldə ediblər – onlar səhv edirlər. Azərbaycan xalqı heç vaxt bu vəziyyətlə barışmaz, nəyin bahasına olursa-olsun, öz doğma torpaqlarını azad edəcəkdir.

Biz istəyirik bunu sülh yolu ilə həll edək. Amma görsək ki, sülh yolu ilə  mümkün deyil, onda bizim güclü ordumuz var, güclü xalqımız var, iradəmiz, cəsarətimiz var. Torpaqlar azad olunacaqdır.

İndi baxın və Ermənistanda olan vəziyyəti və Azərbaycanda olan vəziyyəti müqayisə edin. Ermənistan tamamilə böhran içindədir. Hər şey dağıdılıbdır. Ölkə borc içindədir. Qalan müəssisələrini  də borcun əvəzinə başqa ölkələrə təhvil verir. İşsizlikdir, iqtisadi inkişaf yoxdur, bir dənə də daş-daş üstə qoyulmur. Azərbaycan isə inkişaf edir. Azərbaycanın valyuta ehtiyatları 1 milyard 400 milyon dollar səviyyəsindədir.

Əlbəttə, Ermənistanda belə imkanlar yoxdur. Onlar sadəcə olaraq, xaricdə yaşayan ermənilərin və bəzi ölkələrin hesabına yaşayırlar. Gələcəkdə bu, özünü daha açıq-aydın büruzə verəcəkdir. Azərbaycan iqtisadi cəhətdən güclü dövlətə çevriləcəkdir, Ermənistan isə tənəzzülə uğrayacaqdır.

Orada, təxminən Azərbaycanda 1992–1993-cü illərdə olan vəziyyət yaranmışdır. O vaxt Azərbaycan böhran içində idi. Azərbaycana rəhbərlik edən səviyyəsiz, səriştəsiz şəxslər, indiki müxalifət ölkəyə böyük bəlalar gətirmişdilər, Azərbaycan uçurum kənarında idi. Azərbaycanda anarxiya, xaos, hərc-mərclik hökm sürürdü. Quldur dəstələri meydan sulayırdı. Azərbaycan parçalanırdı, iqtisadiyyat tamamilə dağıdılmışdı. Belə olan vəziyyətdə hakimiyyətdəkilər öz canlarından qorxaraq, Heydər Əliyevə müraciət etdilər. Azərbaycan xalqı da Heydər Əliyevə müraciət etdi, Heydər Əliyevi dəvət etdi. 1993-cü ildə Heydər Əliyev Azərbaycana gəldi, onu xaosdan, anarxiyadan qurtardı. Azərbaycanda sabitlik yarandı, iqtisadi inkişaf başladı. İndi Azərbaycan yaşayır və bundan sonra da yaşayacaqdır.

O vaxt Azərbaycanı bu çətin vəziyyətə salan insanlarda mənəvi haqq olmamalıdır ki, yenidən xalqın qarşısına çıxsınlar, öz fikirlərini söyləsinlər. Amma mən hesab edirəm ki, onların bu seçkiqabağı kampaniyada iştirakı Azərbaycan xalqı üçün çox lazımdır. Ona görə ki, onlar bir daha özlərini xalqın qarşısında biabır edirlər. Bir daha göstərirlər ki, xalq üçün heç nə etməyiblər və etmək fikrində də deyillər.

Xalq hər şeyi görür. Hər kəsə də gördüyü işlərə görə qiymət verir.

Müxalifətə sual vermək lazımdır ki, bu on ildə onlar nə ediblər? Öz kabinetlərində oturublar, öz çirkin qəzetlərində iqtidara, cənab Prezidentə, Azərbaycan xalqına böhtan yağdırırlar, təhqir edirlər. Bu on il ərzində ancaq böhtan, yalanla məşğul olublar. Bir dəfə də olsun gəlib soruşublar, sizinlə bir dəfə görüşüblər?!

**Y e r d ə n  s ə s l ə r:** Xeyr.

**İ l h a m   Ə l i y e v:** Bəli, bu onları maraqlandırmır. Belə olan halda hansı üzlə gəlib xalqdan səs istəyirlər? Azərbaycan xalqı onları 1993-cü ildə bir dəfə qovub və bir də heç vaxt hakimiyyətə gələn deyillər. Azərbaycanda onlar kimi qorxaqlardan heç vaxt prezident olmaz.

Qarşımızda duran bəzi problemlər də gələcəkdə həll olunacaqdır. Mən dedim ki, Azərbaycan hərtərəfli inkişaf edir. Beynəlxalq aləmdə özünə layiq yerini tuta bilibdir, Azərbaycanla hesablaşırlar, hörmət edirlər. Son həftələr ərzində mən müxtəlif ölkələrdə olarkən, dövlət və hökumət başçıları ilə görüşərkən bir daha əmin oldum ki, Azərbaycana, Heydər Əliyev siyasətinə böyük hörmət və rəğbət vardır.

Azərbaycan iqtisadi baxımdan bütün keçmiş sovet respublikaları arasında birinci yeri tutur. Ölkəmizdə sosial məsələlər həll olunur, işsizlik aradan qaldırılır. Ehtiyac içində yaşayanlar üçün gözəl binalar, qəsəbələr salınır. Amma problemlərin həllinə yönəlmiş səylər gələcəkdə daha da artırılmalıdır. Azərbaycanda işsizlik tamamilə aradan qaldırılmalıdır və bu istiqamətdə hökumət öz tədbirlərini görəcəkdir. Xüsusi bir proqram hazırlanır. O proqram çərçivəsində Azərbaycanda 600 min yeni iş yeri açılacaqdır. Yoxsulluqla mübarizə aparılır. Düzdür, Azərbaycanda prezident Heydər Əliyevin fərmanları əsasında insanların böyük bir qrupunun maaşları, təqaüdləri artırılıbdır. 40–50 faiz artım olubdur. Amma bu, yenə də kifayət etmir. Biz bilirik ki, bu da azdır və bu istiqamətdə də gələcəkdə gözəl şərait yaradılacaqdır. Bizə bunu etmək üçün gərək vəsait daxil olsun. Vəsait də Azərbaycanda Heydər Əliyevin neft strategiyası həyata keçiriləndən sonra daxil olacaqdır.

2005-ci ildə Bakı–Tbilisi–Ceyhan neft kəməri tikilib istifadəyə veriləndən sonra Azərbaycanda həyat səviyyəsi qat-qat yüksələcəkdir. Məhz ona görə ermənilər bu neft kəmərinin əleyhinə kampaniya aparırlar. Biz onları başa düşə bilərik. Onlar bizim düşmənlərimizdir. Təbiidir, onlar qorxurlar ki, Azərbaycan neft kəmərləri vasitəsilə güclü iqtisadiyyat yaradıb, münaqişə məsələsini ədalətli şəkildə öz xeyrinə həll edəcəkdir.

Mən müxalifəti başa düşmürəm. Onlar da bu neft kəmərinin tikilməsinin əleyhinədirlər. Nəyə görə? Çünki bilirlər ki, o, tikilib istismara veriləndən sonra Azərbaycanda həyat səviyyəsi qalxacaq, Azərbaycan xalqı daha da yaxşı yaşayacaq və heç onların üzünə də baxmayacaqdır. Belə olan halda, biz bir daha əmin oluruq ki, ermənilərin və bizim müxalifətin maraqları üst-üstə düşür. Nəzərə alsaq ki, onların qohumları da ermənilərdir, onda təəccüblənməli bir şey yoxdur. Ona görə mən bir daha demək istəyirəm ki, Azərbaycanda Heydər Əliyevin siyasətinə alternativ siyasət ola bilməz və yoxdur. Azərbaycan xalqı heç bir başqa siyasəti qəbul etməyəcəkdir.

Azərbaycan Respublikasının Prezidenti dünən xalqa müraciət edibdir. Sizin bundan xəbəriniz var. Biz hamımız çox istəyirdik ki, cənab Prezident bu seçkilərdə iştirak etsin. Amma səhhətində yaranan problemlər buna imkan vermir. Buna baxmayaraq–biz daim əlaqə saxlayırıq–bərpa prosesi uğurla davam edir və yaxın gələcəkdə o, Vətənə dönəcəkdir, sizinlə bir yerdə olacaqdır. Amma onun siyasəti davam etdiriləcəkdir. Bu gün seçkilərdə mən iştirak edirəm və ümidvaram ki, xalqın dəstəyinə arxalanaraq, Azərbaycanı parlaq gələcəyə bir yerdə aparacağıq.

Əziz dostlar!

Əziz bacılar, qardaşlar!

Əziz ismayıllılar!

Mən sizi bu gözəl binanın açılışı münasibətilə bir daha ürəkdən təbrik edirəm, hamınıza uğurlar, cansağlığı, xoşbəxtlik arzulayıram. Çox sağ olun.

## QƏBƏLƏ RAYONUNDAKI QARAÇAY ÜZƏRİNDƏ İNŞA EDİLMİŞ KÖRPÜNÜN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ

*3 oktyabr 2003-cü il*

Əziz dostlar!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı bu körpünün tikilib istifadəyə verilməsi münasibətilə ürəkdən təbrik edirəm. Qısa müddət ərzində tikilib istifadəyə verilən bu körpü xalq üçün, millət üçün yaradılıbdır. Bu vaxta qədər əziyyət çəkən insanlar üçün yaradılıbdır. İndi 10 kəndin sakinləri rahat, sərbəst şəkildə bu körpüdən istifadə edib, başqa kəndlərlə, rayonun mərkəzi ilə, Azərbaycanın digər rayonları ilə əlaqə saxlamaq imkanı əldə ediblər.

Bu bir daha onu göstərir ki, siyasi iradə, peşəkarlıq, istək və ən önəmlisi, xalqa diqqət, qayğı olan yerdə bütün məsələlər öz həllini tapır və bu siyasət gələcəkdə də davam etdiriləcəkdir. Bu siyasət Heydər Əliyevin quruculuq, abadlıq siyasətidir. Təkcə Qəbələ rayonunda qısa müddət ərzində 20-dən çox məktəb əsaslı təmir olunmuş, körpülər salınmış, digər infrastruktur obyektləri yaradılmışdır. Böyük stadion bərpa olunmuşdur və bu gün biz orada yığışacaq, bir yerdə olacağıq.

Azərbaycanın digər bölgələrində də buna oxşar proseslər gedir. Bu gün Şamaxı rayonunda olarkən orada inşa edilən yeni Olimpiya kompleksinin qarşısında seçicilərlə görüşüm olubdur. Ondan sonra İsmayıllıda Qarabağ əlilləri, şəhid ailələri üçün istifadəyə verilən binanın qarşısında seçicilərlə görüşüm olubdur. Bundan əvvəl Biləsuvar rayonunda cənab Prezidentin fərmanı əsasında məcburi köçkünlər üçün yeni salınmış qəsəbənin açılışında iştirak etmişdim.

Neftçalada balıqartırma zavodunun, Şirvan Milli Parkının, Xaçmaz konserv zavodunun açılışında iştirak etmişəm. Baxın,

qısa müddət ərzində Azərbaycanda nə qədər işlər görülübdür.

Yeni müəssisələr, iş yerləri açılıb, binalar tikilir, infrastruktur yaradılır. Körpü müəssisə deyil, körpü fabrik deyil ki, burda hansısa məhsul istehsal olunsun və satışa çıxarılsın. Bu, yalnız və yalnız insanlara diqqət əlaməti olaraq, onların rahatlığı üçün yaradılıbdır və mən sizi əmin etmək istəyirəm ki, möhtərəm cənab Prezidentin qoyduğu yol gələcəkdə də davam etdiriləcəkdir. Biz hamımız bu yolla birlikdə gedəcək və Azərbaycanı parlaq gələcəyə aparacağıq.

Bizim iqtisadiyyatımız güclənir, möhkəmlənir, Azərbaycan qüdrətli ölkəyə çevrilir. Gələcəkdə planlarımızda böyük işlər var. Azərbaycanda yeni iş yerləri açılacaq, yeni zavodlar və fabriklər tikiləcəkdir. Bütün bunları biz edəcəyik. Bütün bunları etmək üçün də gözəl imkanlarımız var. Heydər Əliyevin həyata keçirdiyi neft strategiyası sayəsində Azərbaycana külli miqdarda sərmayə gəlir və bundan sonra da gələcəkdir. İlk növbədə, çətin vəziyyətdə yaşayanlar üçün bu vəsaitdən istifadə olunacaq, qaçqınların, məcburi köçkünlərin vəziyyəti yaxşılaşdırılacaqdır. Azərbaycanın bütün sərvətləri sosial problemlərin həllinə yönəldiləcəkdir. Əmək haqları, pensiyalar, müavinətlər artırılacaq və digər məsələlər öz həllini tapacaqdır. Mən əminəm ki, Azərbaycan xalqı Heydər Əliyevin siyasətinə, görülən işlərə sadiq qalacaqdır. Müxalifətdən fərqli olaraq, biz nə yalan vəd veririk, nə boş söz danışırıq, nə də başqa xoşagəlməz işlər görürük. Biz real iş görürük və gələcəkdə də Azərbaycanın iqtisadiyyatının möhkəmləndirilməsi üçün yaradılacaq yeni-yeni müəssisələrin açılışında iştirak edəcəyik. Doğma Vətənimizi hərtərəfli inkişaf etdirəcəyik.

Bir daha sizin hamınızı bu körpünün açılışı münasibətilə ürəkdən təbrik edirəm. Xeyirli, uğurlu olsun. Sağ olun.

## AZƏRBAYCAN ŞAİRİ NİZAMİ GƏNCƏVİNİN MƏQBƏRƏSİNİ ZİYARƏTDƏN SONRA JURNALİSTLƏRƏ QISA MÜSAHİBƏ

*5 oktyabr 2003-cü il*

**S u a l: Cənab Baş nazir, Gəncədə Sizi hansı görüşlər gözləyir?**

**C a v a b:** Gəncədə çox mühüm və böyük işlər görülür. Müəssisələr bərpa olunub işə salınır, abadlıq işləri aparılır. Məqsədimiz budur ki, burada yeni iş yerləri açılması prosesi daha sürətlə getsin. Biz yenicə işə salınmış gil-torpaq zavodunda olacağıq. Orada 2 mindən artıq gəncəli işlə təmin edilmişdir. Məqsəd bundan ibarətdir ki, Azərbaycanın hər bir bölgəsi inkişaf etməli, insanlar işlə təmin olunmalıdırlar. Hökumət bu sahədə öz fəaliyyətini bundan sonra da davam etdirəcəkdir. Görülən işlər deməyə əsas verir ki, biz buna nail olacağıq.

**S u a l: Bölgələrdə vəziyyət barədə nə deyə bilərsiniz?**

**C a v a b:** Bölgələrdə xalqın əhval-ruhiyyəsi çox yüksəkdir. İnsanlar məni çox səmimi və hərarətlə qarşılayırlar. Əlbəttə, Azərbaycanın hər bir bölgəsində problemlər mövcuddur. Buna baxmayaraq, insanlarda nikbinlik hissi var. Buna əsas Heydər Əliyevin Azərbaycanda apardığı siyasətdir və bu siyasət davam etdirilməlidir. Azərbaycan xalqı bundan da yaxşı yaşamalıdır.

## GƏNCƏ ŞƏHƏR SAKİNLƏRİ QARŞISINDA ÇIXIŞ

*5 oktyabr 2003-cü il*

Əziz gəncəlilər!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və bu gün görüşə gəldiyinizə görə sizə öz minnətdarlığımı bildirmək istəyirəm.

Azərbaycanın qədim torpağı olan Gəncə – dahi Nizaminin Vətəni olan Gəncə daim cənab Prezidentin diqqət mərkəzindədir və bundan sonra da diqqət mərkəzində olacaqdır.

Siz bilirsiniz ki, mən dəfələrlə Gəncədə olmuşam, sizin yanınıza gəlmişəm, sizinlə bir yerdə olmuşam. Müxtəlif məsələləri bir yerdə müzakirə edib həll etmişik. Sizə səmimi deyə bilərəm ki, bu dəfəki gəlişim məni çox sevindirir. Mən görəndə ki, Gəncə yeniləşir, abadlaşır, yeni müəssisələr yaradılır, yeni iş yerləri açılır, insanların əhval-ruhiyyəsi yuksəlir, bu məni çox sevindirir. Mən çox şadam ki, bu gözəl gündə sizinlə bir yerdəyəm və sizi əmin etmək istəyirəm ki, bundan sonra da biz daim bir yerdə olacağıq.

Burada deyildi ki, qısa müddət ərzində möhtərəm cənab Prezidentin göstərişləri əsasında Gəncədə böyük işlər görülübdür. Fəaliyyətini dayandırmış müəssisələr öz işlərini bərpa ediblər. Bu gün gil-torpaq zavodunda 2700 adam işləyir, əməkhaqqı alır. Bu çox böyük göstəricidir, çox sevindirici haldır. Bu onu göstərir ki, Azərbaycanda iş yerlərinin açılması istiqamətində çox böyük işlər görülür. Çox böyük sevindirici haldır ki, bu işlər təkcə Bakıda yox, Azərbaycanın müxtəlif bölgələrində də görülür.

İqtisadi İnkişaf naziri məlumat verdi ki, Gəncədə nə qədər müəssisə fəaliyyətini bərpa edib, gil-torpaq zavodunda nə qədər məhsul istehsal olunur və ixrac edilir. Bu proses gələcəkdə də

davam edəcəkdir. Məndə olan məlumata görə, artıq bu müəssisəyə 6 milyon dollar sərmayə qoyulubdur, gələcəkdə fəaliyyətini genişləndirəcək və yeni iş yerlərinin açılması üçün gözəl şərait yaranacaqdır.

Eyni zamanda, Gəncədə sosial problemlər öz həllini tapır. Azərbaycan Respublikasının prezidenti möhtərəm Heydər Əliyevin siyasəti ondan ibarətdir ki, biz həm iqtisadi inkişafa nail olmalıyıq, həm də sosial məsələlərə böyük əhəmiyyət verməliyik. Bu məqsədlə bu yaxınlarda cənab Prezidentin sərəncamları ilə insanların böyük bir qrupunun əməkhaqları, təqaüdləri qaldırılıbdır. Bu proses bundan sonra da davam edəcəkdir. Azərbaycanın iqtisadiyyatı gücləndikcə maaşların, təqaüdlərin həcmi daha da artırılacaqdır. Gəncədə də sosial məsələlərin həllinə böyük əhəmiyyət verilir.

Burada yeni yollar, parklar salınır, şəhər abadlaşır, gözəlləşir. Əlbəttə, biz çalışacağıq ki, yerli orqanlara bu istiqamətdə daim kömək göstərək. Qeyd olundu ki, Gəncədə işıq və qaz sarıdan heç bir problem yoxdur. Amma mən yaxşı xatırlayıram və siz də məndən yaxşı bilirsiniz ki, iki il bundan əvvəl şəhərdə bu problem çox ciddi xarakter almışdı.

Mən xatırlayıram, 2001-ci ildə Gəncəyə gələndə buradakı vəziyyətlə maraqlandım. Məni əmin etdilər ki, vəziyyət yaxşıdır. Amma Bakıya qayıtdıqdan sonra mənə məlumat verildi ki, mən orada olan müddət ərzində işıq verilirdi, ancaq gedəndən sonra işıq kəsilmişdir. Əlbəttə, bu məni çox narahat elədi və müvafiq orqanlardan xahiş etdim ki, tezliklə bu məsələ öz həllini tapsın. İndi mən çox şadam ki, Gəncəyə işıq fasiləsiz verilir və demək olar, bütün şəhər qazla təmin olunubdur.

Su təchizatı ilə bağlı işlər görüləcəkdir. Bu barədə məlumat verildi. Böyük məbləğdə alınan kreditlər hesabına Gəncəyə verilən suyun həcmi də artırılacaq, keyfiyyəti də yaxşılaşdırılacaqdır. Bu onu göstərir ki, bizim hökumətimiz məhz sosial problemlərin həllinə böyük əhəmiyyət verir və bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Əlbəttə, bütün bu problemlərin həllinə nail olmaq üçün, ilk növbədə, gərək

Azərbaycanın iqtisadiyyatı güclü olsun. Azərbaycanda iqtisadi inkişaf getsin. Çox sevindirici haldır ki, biz bunu görürük. Azərbaycan qısa müddət ərzində, ölkədə aparılan iqtisadi islahatların nəticəsində, Heydər Əliyevin yeni neft strategiyası nəticəsində öz iqtisadi potensialını gücləndiribdir.

Azərbaycanda çox böyük həcmdə valyuta ehtiyatları yaradılıbdır. Bu ehtiyatlar yenə də, ilk növbədə, əhalinin sosial problemlərinin həllinə yönəldilibdir. İlk növbədə Azərbaycanda ən ağır vəziyyətdə yaşayan qaçqınların və məcburi köçkünlərin həyatının yaxşılaşdırılması üçün sərf olunur. Bu günlərdə Biləsuvar rayonunda məcburi köçkünlər üçün yeni salınmış qəsəbənin açılışında iştirak edirdim. Bu proses davam edəcəkdir. Məqsədimiz bundan ibarətdir ki, Azərbaycanda heç bir çadır düşərgəsi olmasın, bütün qaçqınlar, məcburi köçkünlər yeni müasir evlərə köçürülsünlər.

Məqsədimiz budur ki, Azərbaycanda insanlar yaxşı yaşasınlar. Əgər Bakıda işıq varsa, qaz varsa, Gəncədə də işıq, qaz olmalıdır. Biləsuvarda da, Yardımlıda da olmalıdır, Azərbaycanın bütün bölgələrində olmalıdır.

Planlarımız böyükdür, artıq açıq-aydın görürük ki, bizi nələr gözləyir. Azərbaycanda Heydər Əliyevin apardığı siyasətin nəticəsində çox gözəl perspektivlər yaranıbdır. Növbəti beş il ərzində Azərbaycana ancaq neft və qaz sektorunun fəaliyyəti nəticəsində 5 milyard dollar vəsait daxil olacaqdır. Əlbəttə ki, bu vəsait səmərəli şəkildə istifadə olunacaq və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəldiləcəkdir.

Eyni zamanda, növbəti beş ildə Azərbaycanda 600 min yeni iş yeri açılacaq və bu da, öz növbəsində, işsizlik probleminin aradan qaldırılmasına böyük kömək göstərəcəkdir. Son iyirmi gün ərzində bəlkə də iki-üç min yeni iş yeri açılıbdır. Mən Baş nazir kimi, bütün yeni yaradılan müəssisələrin açılışında iştirak etmişəm və çox məmnunluq hissi ilə deyə bilərəm ki, onlar bütün dünya standartlarına cavab verir. Bizim məqsədimiz budur ki, Azərbaycan müasirləşsin, Azərbaycan yeniləşsin, Azərbaycan zəngin, qüdrətli dövlətə çevrilsin.

Bütün Azərbaycan xalqı ölkəmizdə son on il ərzində aparılan siyasəti dəstəkləyir və bəyənir. 1993-cü ildə Azərbaycan böhran içində idi, xaos, anarxiya içində idi. Azərbaycan o vaxtkı səviyyəsiz, səriştəsiz rəhbərlik tərəfindən uçurum kənarında qalmışdı. Məhz onların yarıtmaz fəaliyyəti nəticəsində Azərbaycanın iqtisadiyyatı dağılmışdı, respublikamız böhran içində idi. Əgər 1993-cü ildə Heydər Əliyev xalqın tələbi ilə yenidən rəhbərliyə gəlməsəydi, Azərbaycanın gələcəyi çox pis ola bilərdi. Amma xalq öz müdrikliyini göstərdi, xalq milli liderini dəvət etdi və əminəm ki, bundan sonra da onun siyasətini daim dəstəkləyəcəkdir.

O vaxt Azərbaycanı bərbad vəziyyətə salan, vətəndaş müharibəsini başlayan insanlar, Gəncəni bombalamaq istəyən İsa Qəmbərov və onun kimiləri yenidən baş qaldırır, xalqdan səs istəyir. Amma Azərbaycan xalqı Heydər Əliyevin siyasətini dəstəkləyir və bundan sonra da dəstəkləyəcəkdir.

On il ərzində Heydər Əliyev Azərbaycanı anarxiyadan, xaosdan, böhrandan ictimai-siyasi sabitliyə, inkişafa gətirdi.

Yaşasın Heydər Əliyev!

Biz hamımız – bütün Azərbaycan xalqı çox istəyirdik ki, bu seçkilərdə möhtərəm cənab Prezident iştirak etsin, ancaq onun səhhətində yaranan problemlər buna imkan vermədi. Mən onunla daim telefon əlaqəsi saxlayıram, Azərbaycanda baş verən hadisələr haqqında məlumat verirəm, ondan məsləhətlərimi alıram. Sizi əmin etmək istəyirəm ki, yaxın vaxtlarda o, səhhətini bərpa edəcək və yenidən Azərbaycan xalqı ilə birlikdə olacaqdır.

O bu seçkilərdə iştirak etmədiyinə görə bu seçkilərdə mən iştirak edəcəyəm və söz verirəm ki, Azərbaycan xalqı ilə birlikdə onun siyasətini davam etdirəcəyəm. Xalqın problemləri ilə maraqlanmayan, bu problemlərə biganə olan, beş ildə bir dəfə xalqın qarşısına çıxan müxalifət indi ağzına gələni danışır, iqtidara böhtan atır, yalan vədlər verir, fantaziyalar danışır və s. Buna əhəmiyyət vermək lazım deyildir. Mən bilirəm, Azərbaycan xalqında onlara qarşı o qədər mənfi münasibət var

ki, onların bəzi tədbirlərində öz hisslərini cilovlaya bilmir və onlara çox kəskin reaksiya verir. Mən Azərbaycan xalqından xahiş edərdim ki, onlara əhəmiyyət verməsin. Qoy haraya gedirlər-getsinlər, nə danışırlar-danışsınlar. Onsuz da onların sözünə baxan yoxdur. Nə qədər çox danışsalar, bir o qədər də özlərini biabır edəcəklər.

O vaxt Azərbaycan dövlətçiliyinə xəyanət edən, sonra əsir düşüb oraya gətirilən, eşitdiyimə görə, Gəncənin küçələrini süpürən İsa Qəmbərov əgər o işlə məşğul olsaydı, Azərbaycana daha da çox fayda gətirərdi. Azərbaycan xalqı onları 1993-cü ildə görüb və onların bir daha hakimiyyətə gəlməsi imkansızdır.

Bizim planlarımız çoxdur. Azərbaycanı hər cəhətdən inkişaf etdirəcəyik. Azərbaycanın iqtisadiyyatı möhkəmlənəcəkdir. Heydər Əliyevin neft strategiyası davam etdiriləcəkdir. Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri 2005-ci ildə istismara veriləcəkdir. Ondan sonra Azərbaycan ildə 50 milyon ton neft ixrac edəcəkdir. Bu da ölkəyə milyardlarla dollar valyuta gətirəcəkdir. Bu vəsaitlə Azərbaycanın hər bölgəsi, iqtisadiyyatın hər bir sahəsi inkişaf edəcəkdir. Yeni iş yerləri yaradılacaq, zavodlar, fabriklər, məktəblər, səhiyyə obyekləri tikiləcək, Azərbaycan güclənəcəkdir. Eyni zamanda, sosial məsələlər öz həllini tapacaqdır.

Azərbaycanda idman daha da inkişaf etdiriləcəkdir. Mən çox şadam ki, bizim təşəbbüsümüzlə ilk olimpiya komplekslərindən biri də Gəncə şəhərində tikilib istifadəyə verilmişdir. İndi mən eşidəndə ki, uşaqlar, cavanlar, gənclər orada məşq edir, ürəyim fərəhlə dolur. Mən buna çox sevinirəm.

Əziz gəncəlilər, siz bilirsiniz ki, Gəncə Heydər Əliyev üçün çox doğma, əziz şəhərdir. Yəqin onu da bilirsiniz ki, mənim üçün də çox doğma, əziz şəhərdir. İstəyirəm biləsiniz ki, gələcəkdə öz fəaliyyətimdə daim Gəncəyə, gəncəlilərə diqqət göstərəcəyəm, bütün problemləri biz bir yerdə həll edəcəyik, Heydər Əliyevin siyasətini birlikdə davam etdirəcəyik.

Mən sizin hamınızı bir daha salamlayıram. Bu görüşə gəldiyinizə görə minnətdarlığımı bildirirəm. Bu xoş, səmimi

münasibətinizə görə sizi qucaqlayıram, öpürəm, bağrıma basıram. Gələcək bizimlədir.

Yaşasın Heydər Əliyev!

Yaşasın müstəqil Azərbaycan Respublikası!

***

*Görüş başa çatdıqdan sonra Baş nazir İlham Əliyev şəhərin mərkəzində yerləşən Şah Abbas məscidinə gəldi və onun yaxınlığında Cavad xanın məzarını ziyarət etdi.*

*Baş nazir İlham Əliyev toplaşanlara müraciətlə dedi:*

- Əziz bacılar və qardaşlar, bu xoş sözlərə görə sizə minnətdarlığımı bildirirəm. Bilirsiniz ki, möhtərəm cənab Prezident Gəncəyə həmişə qayğı göstərmişdir. Bu diqqətin və qayğının nəticəsində uzun illər ərzində yaranmış çətinliklər, ilk növbədə sosial problemlər öz həllini tapır. Bir az bundan əvvəl Gəncə gil-torpaq zavodunda böyük bir mərasim keçirilmişdir və mən zavodla tanış oldum. Çox sevindim ki, artıq 2700 insan orada işlə təmin olunmuşdur. Digər müəssisələrdə – qənnadı fabrikində, şərab zavodunda, əlvan metallar zavodunda yeni iş yerləri açılıb və gələcəkdə də bu proses davam edəcəkdir. Azərbaycanda minlərlə, on minlərlə, yüz minlərlə iş yerləri açılacaqdır. Gəncədə işıq təminatı sahəsində, qazın verilməsində böyük problemlər var idi. Mən 2000-ci ildə burada olarkən çox narahat oldum ki, Gəncə kimi Azərbaycanın qədim və ikinci əhəmiyyətli şəhəri belə problemlərlə üzləşibdir. Sizin də bildiyiniz kimi, görülən tədbirlərin nəticəsində şəhər, demək olar ki, tamamilə qazla, işıqla təmin olunmuşdur.

Bilməlisiniz ki, ancaq qazın alınması üçün Azərbaycan hökuməti hər il Rusiyaya 210 milyon dollar ödəyir. Biz bunu edirik ki, insanlarımız qazdan korluq çəkməsinlər. Əgər Bakıda qaz, işıq varsa, Gəncədə də olmalıdır. Su təminatı məsələsi də həllini tapacaqdır. Bu sahədə işlər görülür, kreditlər ayrılmışdır, nəticədə verilən suyun həcmi də, keyfiyyəti də artırılacaqdır. Digər məsələlər də öz həllini tapacaqdır. Mən sizi əmin etmək istəyirəm ki, Azərbaycan prezidenti Heydər Əliyevin siyasəti

davam edəcəkdir. Gəncə şəhərinə və əhalisinə keçmişdə göstərilən diqqət və məhəbbət bundan sonra da göstəriləcəkdir.

Mən daim sizinlə birlikdə olacağam və sizin problemlərlə məşğul olacağam. Bütün problemləri biz birlikdə həll edəcəyik, Azərbaycanı zəngin və qüdrətli dövlətə çevirəcəyik. Bu işləri görmək üçün gəncəlilərin dəstəyinə ehtiyac vardır. Mən bu dəstəyi duyuram, hiss edirəm. Olimpiya Komitəsi tərəfindən Gəncədə tikilmiş idman kompleksi fəaliyyət göstərir. Bu gün bu barədə mənə məlumat verildi və çox sevindim ki, artıq uşaqlar, gənclər öz asudə vaxtlarını orada keçirirlər. Bu onların həm fiziki cəhətdən sağlamlığı, həm də mənəvi cəhətdən saflığı üçün çox vacibdir. Əminəm ki, Azərbaycanda möhkəm, sağlam gənc nəsil yetişəcəkdir və bizim torpaqlarımızı qoruyacaqdır.

Azərbaycan artıq bütün beynəlxalq təşkilatlarda öz sözünü deyir. Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilat Ermənistanı işğalçı dövlət kimi tanıyır. Birləşmiş Millətlər Təşkilatının tribunasından Ermənistanı ifşa edən nitqlər söylənibdir. Bu fəaliyyət davam etdiriləcəkdir. Əlbəttə, biz çalışacağıq ki, problemi sülh yolu ilə həll edək. Amma bizim səbrimiz də tükənməz deyildir. Azərbaycanın güclü ordusu, cəsarətli xalqı vardır. Biz hər an torpaqlarımızı azad etməyə hazır olmalıyıq. Beləliklə, çalışaraq Azərbaycanı qüdrətli, zəngin dövlətə çevirməliyik.

Bir daha təşəkkür edirəm. Siz məni çox səmimiyyətlə qarşıladınız və bilməlisiniz ki, mənim də sizə münasibətim çox səmimidir.

## "QARADAĞ–DİGAH–ŞİMAL DRES" YÜKSƏK TƏZYİQLİ QAZ KƏMƏRİNİN VƏ MÜVAFİQ KOMPRESSOR STANSİYASININ AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ

*6 oktyabr 2003-cü il*

Hörmətli xanımlar və cənablar!
Hörmətli səfirlər!
Əziz qonaqlar!

Bu gün Azərbaycanın həyatında çox əlamətdar bir gündür. Azərbaycanda yeni infrastruktur obyekti – Qaradağ qaz kompressor stansiyası tikilib və istifadəyə verilir. Bu münasibətlə mən sizin hamınızı təbrik edirəm.

1998-ci ildə möhtərəm cənab prezident Heydər Əliyev Yaponiyada rəsmi səfərdə olarkən bu stansiyanın tikilməsi haqqında razılaşma əldə edilmişdi. Yaponiya hökumətinin krediti hesabına bu stansiya tikilib və eyni zamanda uzunluğu 87 kilometr olan qaz kəməri çəkilibdir. Bu bir də onu göstərir ki, Yaponiya ilə Azərbaycan arasında münasibətlər çox yüksək səviyyədədir. Aramızda qarşılıqlı hörmət və anlaşma vardır. Bu bizim üçün çox vacibdir. Çünki Yaponiya ilə bizim aramızda olan münasibətlər, iqtisadi sahələrdə əməkdaşlığımız bizə bir çox məsələni həll etməyə imkan verəcəkdir. Bu indi baş verir. Yaponiya hökumətinin krediti vasitəsilə Azərbaycanda "Şimal" elektrik stansiyası tikilib istifadəyə verilibdir. Bu gün bu stansiya istifadəyə verilir. Bilirəm ki, biz gələcəkdə digər layihələr üzrə  işləyəcəyik. Əminəm ki, bizim əməkdaşlığımız digər sektorlarda da özünü göstərəcəkdir.

Eyni zamanda bu kreditlərlə yanaşı, - qeyd etməliyəm ki, bunlar çox məqbul şərtlərlə, aşağı faizlə 40 il müddətinə verilir – Yaponiya hökuməti Azərbaycana təmənnasız olaraq yardım şəklində böyük həcmdə kömək göstəribdir. Bu gün bu fürsətdən istifadə edərək Yaponiya hökumətinə Azərbaycan hökuməti

adından öz təşəkkürümü bildirmək istəyirəm.

Bu stansiyanın tikilib istifadəyə verilməsi bizə qarşımızda duran bir neçə mühüm məsələni həll etməyə imkan verəcəkdir. Bu stansiya vasitəsilə Bakıya və onun ətrafında yerləşən qəsəbələrə qazın verilməsi daha da yüksək səviyyəyə qalxacaq, onun həcmi artacaqdır. Bu bizim üçün çox vacib məsələdir. Biz indi ciddi məşğuluq ki, Azərbaycanın hər bölgəsinə qazın verilməsi bərpa olunsun. Çünki bilirsiniz ki, Heydər Əliyev 1970–1980-ci illərdə Azərbaycanın rəhbəri olarkən respublikamızın bütün bölgələri, bütün kəndləri qazlaşdırılmışdı, hər yerə qaz xətləri çəkilmişdi. Ondan sonra, düzdür, o xətlərin bəziləri köhnəlib, sıradan çıxıb və qazın da verilməsi dayandırılmışdı. Biz indi bunu bərpa edirik. Son iki il ərzində bu istiqamətdə xeyli iş görülmüşdür.

32 rayona yenidən qazın verilməsi bərpa olunmuşdur. İndi o rayonların mərkəzlərinə qaz verilir. Bu məqsədlə hər il Rusiyadan 4 milyard kubmetr qaz alınır. Bu tədbir ilk növbədə sosial xarakter daşıyır. Sizə açıq deyim ki, bunun iqtisadi cəhətdən o qədər də səmərəsini görmürük. Çünki Azərbaycanda qazın qiyməti çox aşağıdır. Deyə bilərəm ki, hər il qaz alınmasına 200 milyon dollardan çox vəsait ödənilir. Əvəzində isə bunun haradasa 5 faizi qayıdır, bəlkə də qayıtmır. Amma bütün bunlara baxmayaraq, biz bu məsələnin vacibliyini nəzərə alır, buna məhz sosial nöqteyi-nəzərdən yanaşırıq və qiymətlər də aşağıdır. Elektrik enerjisinin də həmçinin. İstəyirəm biləsiniz, hökumətin planlarında belə məqsəd yoxdur ki, bunların qiymətləri artsın. Çünki biz bilirik ki, əhalinin imkanları hələ məhduddur. Ona görə də qiymətlər elə bu səviyyədə qalacaqdır. Mən istəyirəm hamı bilsin ki, həyata keçirilən bu layihə məhz sosial xarakter daşıyır. Biz bu istiqamətdə işlərimizi gələcəkdə də davam etdirəcəyik. Azərbaycana əlavə həcmlərdə qazın alınmasını təmin edəcəyik. Amma bir neçə ildən sonra Azərbaycan özü-özünü qazla təmin edəcəkdir. Azərbaycanda "Şahdəniz" kimi nəhəng qaz yatağı kəşf olunubdur. Orada bu yaxınlarda əməli işlər görüləcək,

quyular qazılacaqdır. Beləliklə, bir neçə ildən sonra Azərbaycan özü-özünü qazla təmin etmək iqtidarında olacaqdır. O vaxta qədər isə qazın alınması davam edəcəkdir.

Eyni zamanda bu stansiya Azərbaycanda elektrik enerjisinin həcmini artıracaqdır. Biz hamımız bilirik ki, son illər bu istiqamətdə də çox gözəl işlər görülüb, elektrik enerjisinin verilməsi daha yüksək səviyyədədir. Xüsusilə Azərbaycanın bölgələrində. Mən bu yaxınlarda Azərbaycanın bir neçə rayonunda olmuşam və çox məmnunluq hissi ilə sizə deyə bilərəm ki, keçmişdə elektrik enerjisinin verilməsində olan fasilələr artıq yoxdur, əhali təmin olunur. Bu sahədə işlər davam edəcək, gələcəkdə Azərbaycanda hər birinin gücü 400 meqavat olan iki yeni elektrik stansiyası tikiləcəkdir. Əminik ki, onların biri, "Şimal-2" stansiyası yenə Yaponiya hökumətinin krediti hesabına tikiləcəkdir. Bu stansiyalar tikilib istifadəyə verildikdən sonra Azərbaycanda, ümumiyyətlə, elektrik enerjisi problemi olmayacaq, özümüzü elektrik enerjisi ilə tam təmin edə biləcəyik. Bəlkə gələcəkdə elektrik enerjisini ixrac da edə biləcəyik. Bütün bunlar, görülən işlər Azərbaycanda son illər Heydər Əliyev tərəfindən aparılan ümumi iqtisadi siyasət nəticəsində mümkün olmuşdur.

Azərbaycanda iqtisadiyyat gücləndikcə, təbiidir ki, ilk növbədə sosial məsələlərin həllinə fikir verilir. Bu istiqamətdə böyük işlər görülübdür.

Azərbaycanda Heydər Əliyevin neft strategiyası uğurla həyata keçirilir. Bunun nəticəsində minlərlə yeni iş yerləri açılıbdır. Azərbaycana böyük həcmdə sərmayə qoyulubdur. Çox sevindirici haldır ki, bu sərmayələri qoyanlar arasında Yaponiya şirkətləri də vardır. Onlar Azərbaycanın neft-qaz sektorunda çox fəal iştirak edirlər. Eyni zamanda sərmayəçi kimi çox böyük həcmdə vəsait qoyurlar.

Azərbaycanda neft kəmərləri tikilib istifadəyə verilmişdir. İndi Bakı–Tbilisi–Ceyhan neft kəməri inşa edilir. Yaxın zamanlarda o da istifadəyə veriləcəkdir. Bu da öz növbəsində qarşımızda duran digər sosial məsələlərin həllində bizə

yaxından kömək edəcəkdir. Bu istiqamətdə işlər aparılacaqdır. Azərbaycanın perspektivləri çox gözəldir. Bizim gözəl potensialımız, təbii sərvətlərimiz, ən önəmlisi isə çox güclü insan potensialımız vardır. Bütün bu amillərdən gərək çox səmərəli istifadə edək.

Əziz dostlar, bu gün bu stansiya istifadəyə verilir. Bu bizim hamımızı çox sevindirir. Çünki biz bilirik ki, yaxın gələcəkdə Azərbaycan bunun faydasını görəcəkdir. Gələcəkdə buna bənzər infrastruktur obyektləri tikiləcək, istismara veriləcəkdir.

Son 20 gün ərzində Azərbaycanın müxtəlif sektorlarında yeni, müasir, bütün dünya standartlarına cavab verən obyektlər istifadəyə verilir. Bu təkcə Bakıda deyil, Azərbaycanın digər bölgələrində də baş verir. Çünki biz çox istəyirik ki, Azərbaycan hərtərəfli inkişaf etsin. Əlbəttə ki, paytaxtımız öz yerində, amma bölgələr də inkişaf etməlidir. Əgər Bakıda işıq, qaz varsa, deməli, Azərbaycanın hər bir rayonunda işıq və qaz olmalıdır. Biz də bunu təmin edəcəyik.

Bu gün bu stansiyanın istifadəyə verilməsi mənim üçün başqa bir cəhətdən də çox sevindiricidir. Çünki bu, Qaradağ rayonunun ərazisində baş verir. Qaradağ rayonu mənim üçün çox əzizdir. 1995-ci ildə Qaradağ rayonunun sakinləri mənə etimad göstərərək, Milli Məclisin deputatı seçdilər. Mən 5 il ərzində Milli Məclisdə Qaradağ rayonunu təmsil edirdim. Zənnimcə, pis də təmsil etmirdim.

2000-ci ildə mən artıq Milli Məclisə Yeni Azərbaycan Partiyasının siyahısı ilə seçilmişdim. Amma buna baxmayaraq rayonla əlaqəmi heç vaxt kəsməmişəm, rayon rəhbərliyi ilə daim əlaqə saxlamışam. Mənim təşəbbüsümlə yaradılmış Qaradağ sosial-iqtisadi fondunun fəaliyyəti də davam etmişdir və bu gün də davam edir, sabah da davam edəcəkdir.

2000-ci ildə Qaradağ rayonunda olarkən mən öz çıxışımda demişdim ki, biz artıq bir yerdəyik. Baxmayaraq ki, mən Qaradağ rayonunu artıq rəsmi olaraq təmsil etmirəm, amma mən daim sizi ürəyimdə təmsil edəcəyəm. Biz daim bir yerdə olacağıq. Çalışacağam ki, Qaradağ rayonunda birlikdə topladığımız o gözəl

təcrübəni başqa bölgələrdə də tətbiq edəm. Biz burada çox işlər gördük. Şəhid ailələri, Qarabağ müharibəsi əlilləri üçün hərəsi 50 mənzildən ibarət iki müasir yaşayış evi tikilib istifadəyə verilmişdir. Möhtərəm cənab Prezident o evlərin açılışında iştirak etmişdir. Burada qaçqınlar, məcburi köçkünlər üçün "Ümid" qəsəbəsi salınmışdır. 300 ailə öz yaşayış şəraitini yaxşılaşdırmışdır. Cənab Prezident onun da açılışını etmişdi, bizimlə bir yerdə idi.

Digər məsələlər də həll olunmuşdur. Yollar çəkilmişdir. Burada məskunlaşmış qaçqın, məcburi köçkün ailələrinə yardımlar göstərilmişdir və bundan sonra da göstəriləcəkdir. Cənab Prezidentin Qaradağ rayonuna qayğısı daim olubdur və siz də bunu hiss etmisiniz. İndi cənab Prezident Azərbaycanda deyil, müalicə olunur, müalicə də uğurla davam edir. Mən əminəm ki, yaxın gələcəkdə o, Vətənə dönəcək və yenə Azərbaycan xalqı ilə birlikdə olacaqdır.

Əziz dostlar, bu gözəl stansiyanın açılışı münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

## BƏRDƏ ŞƏHƏRİNDƏ OLİMPİYA İDMAN KOMPLEKSİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ

*7 oktyabr 2003-cü il*

Əziz bərdəlilər!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və bu gözəl, yeni Olimpiya İdman Kompleksinin açılışı münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Gün gələcək, Azərbaycanın işğal altında olan torpaqları azad ediləcək və Milli Olimpiya Komitəsinin prezidenti kimi, mən sizə söz verirəm ki, hər bir işğaldan azad olunan rayonda buna bənzər olimpiya kompleksləri tikiləcəkdir. Azərbaycanda idman sürətlə inkişaf edir, idmançılarımızın beynəlxalq yarışlarda göstərdiyi nəticələr bizim hamımızı çox sevindirir. Dünya, Avropa çempionatlarında, Olimpiya oyunlarında, digər beynəlxalq yarışlarda idmançılarımız doğma Vətənimizi ləyaqətlə təmsil edirlər. Ölkəyə medallar gətirirlər. Son 6 il ərzində beynəlxalq yarışlardan idmançılarımız Vətənə mindən çox medal gətiriblər. Bu onu göstərir ki, Azərbaycanda idman sahəsində çox güclü potensial yaranıbdır. Azərbaycanın, demək olar ki, bütün idman federasiyaları öz fəaliyyətlərini yüksək səviyyədə qura biliblər. İdmançılarımız bütün beynəlxalq yarışlarda iştirak edir, qələbə qazanır və hər dəfə qələbə qazanılanda Azərbaycanın milli bayrağı qaldırılır, Azərbaycanın dövlət himni səslənir. Ən böyük mükafat məhz bunlardır. Bütün Azərbaycan xalqı çox böyük qürur hissi ilə idmançılarımızın qələbələrini alqışlayır, qarşılayır. Amma təəssüflər olsun, elələri də var ki, onlar nəinki sevinmir, hətta peşman olurlar. Bunlar kimdir? Bizim müxalifət. Nəyə görə? Çünki onlar hesab edirlər ki, bir halda ki, İlham Əliyev Milli Olimpiya Komitəsinin prezidentidir, bu qələbələr əlavə siyasi kapital verəcəkdir.

Buna görə onlar bütün çıxışlarında, qəzetlərində gedən yazılarda idmançılarımıza, idmanla məşğul olanlara, idmana rəhbərlik edən şəxslərə böhtanlar atırlar. Bu bir daha göstərir ki, onların maraqları Azərbaycan xalqının maraqları ilə üst-üstə düşmür.

Amma bütün bunlara baxmayaraq, biz onlara fikir vermirik. Bizim məqsədimiz ondan ibarətdir ki, Azərbaycanı hərtərəfli inkişaf etdirək. Azərbaycanın hər sahəsi inkişaf etsin, o cümlədən idman da. Əlbəttə ki, bunu əldə etmək, idmanla məşğul olmaq üçün, ilk növbədə, gözəl şərait yaradılmalıdır və biz bu şəraiti yaradırıq. Bu gün burada açılan, bütün müasir standartlara cavab verən Olimpiya kompleksi bunu bir daha təsdiqləyir. Mən çox istərdim ki, bu kompleksdən səmərəli istifadə olunsun. Uşaqlar, gənclər, yeniyetmələr, idmançılar buraya gəlib idman bölmələrində məşğul olsunlar. Bu onları fiziki cəhətdən, eyni zamanda, mənəvi cəhətdən də sağlam edəcəkdir. Beləliklə, Azərbaycanda idmanla məşğul olmaq kütləvi xarakter alacaqdır. Bu artıq baş verir. Azərbaycanın müxtəlif bölgələrində buna oxşar idman kompleksləri tikilib, istifadəyə verilibdir. Biz bu proqramı başlayanda istəyirdik ki, bu komplekslərdən biri də Qarabağ torpağında tikilsin. Mən çox xoşbəxtəm ki, biz bunu etmişik və bu gün sizinlə birlikdə onun açılışına toplaşmışıq.

Bərdə Azərbaycanın dilbər guşəsidir. Hər bir azərbaycanlı üçün doğma yerdir, doğma məkandır. Bərdə çox inkişaf edib, gözəlləşir, abadlaşır. Siz bilirsiniz ki, möhtərəm cənab Prezident keçmişdə, 1970-ci illərdə də, ondan sonrakı dövrlərdə də mütəmadi qaydada Bərdəyə gəlmiş, bərdəlilərlə ünsiyyətdə olmuş, Bərdəyə və Bərdə camaatına daim diqqət göstərmişdir. Mən sizi əmin etmək istəyirəm ki, bundan sonra da biz Bərdəyə daim diqqət göstərəcəyik, hörmət göstərəcəyik, birlikdə Azərbaycanı inkişaf etdirəcəyik.

Mən bərdəlilərə bir də ona görə öz minnətdarlığımı bildirmək istəyirəm ki, onlar çətin vəziyyətə düşən, öz ata-baba yurdlarından didərgin salınan qaçqınlara, məcburi köçkünlərə

çox mehriban münasibət göstərirlər. Onlar üçün hər bir şərait yaratmağa çalışırlar. Baxmayaraq ki, onların özlərinin də imkanları məhduddur. Amma o qaçqınlara və məcburi köçkünlərə göstərilən diqqət və qayğı təqdirəlayiqdir. Mən əminəm ki, bundan sonra da belə olacaqdır.

Ancaq eyni zamanda, bizim məqsədimiz bundan ibarətdir ki, Azərbaycanda Ermənistanın işğalı nəticəsində öz torpaqlarını itirmiş insanlar üçün yeni qəsəbələr, yeni şəhərciklər tikilsin. Bu istiqamətdə işlər görülür. Bildiyiniz kimi, Biləsuvar rayonunda çadır düşərgələrində məskunlaşmış insanlar üçün möhtərəm cənab Prezidentin fərmanları ilə yeni qəsəbələr salınıbdır. Bu yaxınlarda mən orada olarkən qəsəbənin açılışında iştirak etdim. 2600 ailə yeni, müasir evlərə köçürülübdür. Ondan əvvəl orada çadır düşərgəsində məskunlaşmış Füzuli qaçqınları da yeni tikilmiş evlərə köçürülmüşlər. Mən bilirəm ki, Bərdədə üç çadır düşərgəsi vardır. Bunlarda təxminən 3 min ailə, 12 min insan yaşayır. Bizim məqsədimiz bundan ibarətdir ki, o çadır düşərgələrini də ləğv edək və əvəzində müasir evlər tikək. Mən sizə söz verirəm ki, bu belə də olacaqdır. Bir dənə də çadır düşərgəsi qalmayacaq, orada yaşayan qaçqınlar və məcburi köçkünlər yeni, müasir evlərə köçürüləcəklər.

Bütün bu tədbirləri görmək üçün, əlbəttə ki, Azərbaycanda gərək iqtisadiyyat güclü olsun. Bu istiqamətdə Heydər Əliyev tərəfindən keçirilən iqtisadi islahatlar öz bəhrəsini verməkdədir. Azərbaycan iqtisadi cəhətdən güclənir, ayağa qalxır, ölkədə çox güclü iqtisadi potensial yaranmışdır. Bu ona görə baş verir ki, Azərbaycanda islahatlar keçirilir. Aqrar islahat nəticəsində torpaq kəndlilərin mülkiyyətinə verilibdir. Kənd təsərrüfatı ilə məşğul olan adamlar məndən yaxşı bilirlər ki, bu nə qədər böyük xeyir gətirir. Azərbaycanda özəlləşdirmə prosesi həyata keçirilir və on minlərlə sahibkarlar yaranıbdır. Onlar da öz tərəfindən Azərbaycanın iqtisadiyyatını gücləndirirlər. Sizə deyə bilərəm ki, indi Azərbaycanın iqtisadiyyatını özəl sektor daha fəal formalaşdırır. Ümumi daxili məhsulun 75 faizi özəl sektorun payına düşür. Bu çox gözəl nəticədir və Azərbaycanda

iqtisadi islahatların çox uğurla aparıldığını göstərir. Bizimlə əməkdaşlıq edən dünyanın aparıcı maliyyə qurumları da bunu qiymətləndirir, təsdiq edirlər.

Azərbaycanda Heydər Əliyevin neft strategiyası həyata keçirilir. Bunun nəticəsində Azərbaycanın nefti dünya bazarlarına çatdırılır. Neft kəmərləri tikilibdir. Hazırda əsas ixrac neft kəməri – Bakı–Tbilisi–Ceyhan kəməri tikilir və demək olar ki, işlərin xeyli hissəsi görülüb və inşallah, yaxın gələcəkdə onun açılışında iştirak edəcəyik. Bu bizə imkan verəcək ki, Azərbaycan iqtisadi cəhətdən daha da güclənsin, zənginləşsin.

Bilirsiniz ki, Azərbaycanda Dövlət Neft Fondu yaradılıbdır. Bu o məqsədlə yaradılıb ki, neftdən əldə olunan gəlirlər bir yerdə, şəffaf şəkildə saxlansın və ilk növbədə, sosial problemlərin həllinə xərclənsin. Məhz belə də edilir. Biləsuvarda məcburi köçkünlər üçün qəsəbə məhz Neft Fondunun vəsaiti hesabına tikilibdir. Burada, Bərdədə, Ağdamda, işğaldan azad olunan digər ərazilərdə yaxın gələcəkdə məcburi köçkünlər üçün yeni qəsəbələr də Neft Fondunun vəsaiti hesabına tikiləcəkdir. Budur Heydər Əliyevin neft strategiyası, budur Heydər Əliyevin neft strategiyasının təntənəsi!

Amma sizə deyə bilərəm ki, bu strategiya Azərbaycan xalqının böyük əksəriyyətinin dəstəyinə arxalanıbdır. Eyni zamanda, xatırlatmaq istəyirəm ki, bu məsələlər 1994–1995-ci illərdə, hətta 1996-cı ildə Milli Məclisdə müzakirə ediləndə, indi sizdən səs istəyən, Azərbaycanı dağıdan, böhrana salan, sonra qorxaqcasına qaçıb gizlənən müxalifət tərəfindən çox böyük etiraza səbəb olmuşdu. Mənim yadımdadır – o vaxt da Milli Məclisin deputatı idim – Şahdəniz layihəsi orada müzakirə olunanda, indi sizdən əbəs yerə səs istəyən Etibar Məmmədov hətta öz dəstəsi ilə Milli Məclisin iclasını tərk etmişdi. Nəyə görə bunu etmişdi? Çünki o bilirdi, Azərbaycanda vətəndaş müharibəsini başlayan, qardaş qanını tökən İsa Qəmbərov da yaxşı bilirdi ki, əgər neft sektorunda Heydər Əliyevin planlarında, proqramında nəzərdə tutulan tədbirlərin görülməsi mümkün olacaqsa, onda, əlbəttə ki, Azərbaycan zəngin dövlətə

çevriləcəkdir. Bu gün əldə olunan bütün nəticələri biz o vaxt görürdük. Müxalifət də – baxmayaraq ki, bu sahədə çox da böyük biliyə malik deyillər, amma o qədər də ağılsız deyillər – bilirdi ki, bu tədbirlər Azərbaycana yaxın gələcəkdə böyük faydalar verəcəkdir. Onlar bunu istəmirdilər. Mən bunu demişəm, bir daha deyəcəyəm. Azərbaycanın iqtisadi inkişafını dünyada iki qüvvə istəmir – biri Ermənistan, biri də Azərbaycan müxalifəti.

Ermənistan ona görə istəmir ki, başa düşür – bu layihələr həyata keçəndən sonra Azərbaycan iqtisadi cəhətdən güclənəcək, zəngin, qüdrətli dövlətə çevriləcəkdir. Bu da öz növbəsində bizə imkanlar yaradacaq ki, Dağlıq Qarabağ məsələsini öz xeyrimizə, yəni ədalətli şəkildə, bütün beynəlxalq hüquq normalarına əsaslanaraq həll edək.

Müxalifət bunu istəmir ona görə ki, çünki başa düşür, əgər bütün nəzərdə tutulan məsələlər öz həllini taparsa, Azərbaycan xalqı daha yaxşı, daha da zəngin yaşayacaq və o vaxt nəinki onlara səs verməyəcək, heç onların üzünə də baxmayacaqdır. Bu məsələdə ermənilərin və müxalifətin maraqları üst-üstə düşür. Amma qoy onlar özlərini yormasınlar. Azərbaycan qüdrətli dövlətdir, öz siyasətini aparır. Azərbaycan Heydər Əliyevin siyasətini dəstəkləyir, bundan sonra dəstəkləyəcək və mən də bütün xalqımızla birlikdə bu siyasəti davam etdirəcəyəm.

Biz Ermənistanla Azərbaycan arasında olan münaqişəni sülh yolu ilə həll etmək istəyirik. Bu məqsədlə danışıqlar aparılır. Düzdür, hələlik danışıqların heç bir nəticəsi yoxdur. Bu məsələyə kömək göstərmək funksiyasını öz üzərinə götürən ATƏT-in Minsk qrupu, təəssüflər olsun ki, çox zəif fəaliyyət göstərir və onun fəaliyyəti bizi qane etmir. Bütün bunlara baxmayaraq, biz xoş niyyət göstərərək, hələlik yenə də danışıqlar prosesindən imtina etmirik. Çünki ümidvarıq ki, beynəlxalq ictimaiyyət, nəhayət, Ermənistanı məcbur edəcək ki, o, işğal olunan torpaqlardan çəkilsin. Eyni zamanda, Azərbaycan bu istiqamətdə bütün beynəlxalq təşkilatlarda öz fəaliyyətini gücləndirib və BMT-nin də məlum qətnamələri var.

Bu yaxınlarda Avropa Şurası bu məsələdə çox düzgün, ədalətli mövqe nümayiş etdirmişdir.

Əlbəttə ki, bu ilk növbədə Azərbaycan nümayəndə heyətinin fəaliyyətinin nəticəsində baş veribdir. Biz çox şadıq ki, Avropa Şurasının deputatları qəbul olunan sənədlərdə Ermənistanı işğalçı dövlət kimi tanıyıblar. Biz hesab edirik ki, bütün bunlar gələcək danışıqlar prosesinə müsbət təsir göstərməlidir və göstərəcəkdir. Mən əminəm ki, biz məsələnin həllinə sülh yolu ilə nail ola bilərik. Amma mən dəfələrlə demişəm və bir daha burada qeyd etmək istəyirəm ki, bizim səbrimiz də tükənməz deyil. Əgər biz görsək ki, bütün bu danışıqlar, sadəcə olaraq, formal xarakter daşıyır və heç bir nəticəsi yoxdur, onda Azərbaycan xalqının tam haqqı var ki, nəyin bahasına olursa-olsun, öz torpaqlarını azad etsin.

Azərbaycanda gedən və bundan sonra da gedəcək iqtisadi inkişaf bizə imkan verəcək ki, həm iqtisadi cəhətdən möhkəmlənək, həm də ordu quruculuğuna daha böyük diqqət göstərək.

Bu diqqət göstərilir. Azərbaycanda qüdrətli ordu yaradılıbdır. Bizim məqsədimiz ondan ibarətdir ki, Azərbaycanın iqtisadi potensialından istifadə edərək ordunu daha da gücləndirək. Bu istiqamətdə işlər aparılacaq. Eyni zamanda, bütün bu görülən işlər, Heydər Əliyev tərəfindən on il ərzində aparılan iqtisadi siyasət, ilk növbədə, neft strategiyasının həyata keçirilməsi bizə imkan verəcək ki, Azərbaycanın sosial problemlərini də uğurla həll edək. İnsanların həyat səviyyəsini qaldıraq. Bu proses də davam edir və cənab Prezidentin son sərəncamları ilə məhz Neft Fondunun hesabına səhiyyə, təhsil, mədəniyyət işçilərinin maaşları, pensiyalar artırılıb və bu proses bundan sonra da davam edəcəkdir.

Azərbaycanın bütün bölgələrində, o cümlədən Bərdədə də elektrik enerjisi və qaz təminatı yaxşılaşır. Düzdür, bütün rayon əhalisinə qazın verilməsi hələlik mümkün deyil, buna imkanımıız çatmır. Amma böyük sayda abunəçiyə qazın verilməsi bərpa olunubdur. Mən istəyirəm siz biləsiniz ki, bu məqsədlər üçün Azərbaycan dövləti Rusiyadan alınan qazın

haqqının ödənilməsinə hər il 200 milyon dollardan çox vəsait xərcləyir. Bu bir daha onu göstərir ki, Azərbaycanda sosial məsələlərin həllinə böyük diqqət yetirilir və bundan sonra da yetiriləcəkdir. Mən böyük məmnuniyyətlə onu da deyə bilərəm ki, alınan məlumatlara görə, son vaxtlar Bərdə şəhərində böyük abadlıq, quruculuq işləri aparılıbdır, yeni yollar salınıbdır, yeni məktəblər tikilibdir. İnsanlara qayğı çox artıbdır. Bu, sevindirici haldır və mən çox istərdim ki, bu qayğı, diqqət bundan sonra da artsın. Azərbaycan xalqı buna layiqdir. Azərbaycan xalqı qəhrəman xalqdır. Azərbaycan xalqı, o cümlədən Bərdə camaatı daim Heydər Əliyevin siyasətini dəstəkləyib və mən əminəm ki, bundan sonra da dəstəkləyəcəkdir.

Bu gün qədim Bərdədə, hər bir azərbaycanlı üçün doğma olan Qarabağ torpağında gözəl Olimpiya Kompleksi açılır. Milli Olimpiya Komitəsinin prezidenti kimi mən bu gün çox xoşbəxt günümü keçirirəm. Mən inanıram və əminəm ki, burada məşğul olan uşaqlar, gənclər öz sağlamlıqlarını möhkəmləndirəcəklər. Amma bütün bu görülən işlərlə yanaşı, istəyirəm sizə bildirəm, qərara gəldim ki, bu kompleksla yanaşı, burada gözəl bir üzgüçülük hovuzu da tikək. Milli Olimpiya Komitəsi bunu edəcəkdir. Çünki bilirsiniz, biz bu kompleksləri tikməyə başlayanda üzgüçülük hovuzları nəzərdə tutulmamışdır. Amma əlbəttə, həyat bir yerdə durmur, daim inkişaf edir və başqa rayonlarda tikilən bəzi komplekslərlə yanaşı, hovuzlar da tikilmişdir. Ona görə mən buraya gələrkən dedim ki, bir halda o biri rayonlarda bu hovuzlar tikilir, Bərdədə də mütləq tikilməlidir və tikiləcəkdir.

Mənə verilən məlumata görə, son vaxtlar rayonlarda, kəndlərdə yeni məktəblər tikilibdir. Çox sevindirici haldır ki, buna diqqət göstərilir. Mən də öz tərəfimdən sizə demək istəyirəm ki, ən müasir standartlara cavab verən, ən müasir avadanlıqla təchiz edilən, 800 şagird yeri olan bir yeni məktəb də burada tikiləcəkdir. Bu da bizim sizə hədiyyəmizdir.

Mən qeyd etdim ki, bərdəlilər Heydər Əliyevə daim böyük hörmətlə, məhəbbətlə yanaşmışlar. Ona çox gözəl münasibət

göstərmişlər və indi də göstərirlər. Onun siyasətini daim, 1970–1980-ci illərdə də dəstəkləyiblər, son on ildə də dəstəkləyirlər. Təəssüflər olsun ki, Heydər Əliyev səhhətində yaranmış problemlərlə bağlı seçkilərdə iştirak edə bilməyəcəkdir. Bu seçkilərdə mən iştirak edəcəyəm. Mən əminəm ki, bərdəlilər həmişə olduğu kimi, Heydər Əliyev siyasətinə səs verəcəkdir.

Əziz bərdəlilər!

Əziz bacılar və qardaşlar!

Mənə göstərdiyiniz çox hərarətli, xoş, səmimi münasibətinizə görə sizin hamınıza bir daha öz təşəkkürümü bildirmək istəyirəm. Sizə söz verirəm ki, həmişə sizinlə birlikdə olacaq, problemlərinizlə daim məşğul olacağam. Biz sizinlə birlikdə Azərbaycanı iqtisadi, siyasi cəhətdən inkişaf etdirəcək, dövlət müstəqilliyimizi möhkəmləndirəcəyik.

Azərbaycan xalqı Heydər Əliyevin siyasətinə sadiqdir. Bu siyasət yaşayacaqdır. Azərbaycan yaşayacaqdır. Heydər Əliyev yaşayacaqdır və daim yaşayacaqdır. Sağ olun.

* * *

*Bərdədə müvəqqəti məskunlaşmış gənclərin – Ağdamdan və Kəlbəcərdən olan məcburi köçkünlər Emin və Mirvarinin toy məclisində yeni ailə quranlara, toy şənliyinə toplaşanlara müraciət:*

Hörmətli xanımlar və cənablar!

Mənim bu gün buraya gəlişim bu gözəl toyla bir vaxta təsadüf edir. Bu gün burada iştirak etməyim məni sevindirir. Arzu edirəm ki, Azərbaycan xalqı daim sevinsin, daim toy-bayram olsun, gənclərimiz, uşaqlarımız böyüsün, gözəl tərbiyə alsınlar. Azərbaycanın gəncləri hamısı gözəl, qüdrətli, həm fiziki, həm də mənəvi cəhətdən sağlam böyüsünlər, yetişsinlər.

Mən buraya Bərdədə yeni açılmış Olimpiya İdman Kompleksindən gəlirəm. O kompleks mənim təşəbbüsümlə tikilib istifadəyə verilibdir. Məqsəd də budur ki, orada uşaqlar, yeniyetmələr, gənclər məşğul olsunlar.

İndi Azərbaycan abadlaşır, yeniləşir. Azərbaycanda böyük işlər görülür. İqtisadiyyatımız inkişaf edir, sosial məsələlər öz həllini tapır.

Mən bu gün buraya gəlməmişdən əvvəl Ağdamdan olan köçkünlərlə görüşdüm. Ondan sonra Bərdədə öz çıxışımda dedim ki, burada mövcud olan üç çadır şəhərciyi dağılacaqdır. Biz onları ləğv edəcəyik ki, onların əvəzinə Ağdam rayonu ərazisindəki yerlərdə gözəl, müasir evlər tikiləcəkdir və bütün məcburi köçkünlər bu evlərə köçürüləcəkdir.

Mən sizi bu gözəl toy, mərasim münasibətilə bir daha ürəkdən təbrik edirəm. Xoşbəxt olun. Azərbaycanın müstəqilliyi, iqtisadi inkişafı uğrunda möhtərəm cənab prezident Heydər Əliyevin siyasətini bundan sonra da bir yerdə aparacağıq. Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirəcəyik.

Mən də bu məclisə əliboş gəlməmişəm. Mənim hədiyyələrim var. Bu hədiyyələr sizə təqdim olunacaqdır. "Panasonik" markalı rəngli televizor, soyuducu və bir də avtomobil. Sağ olun, xoşbəxt olun!

## AZƏRBAYCANDA RƏSMİ SƏFƏRDƏ OLAN RUSİYA TƏHLÜKƏSİZLİK ŞURASININ KATİBİ VLADİMİR RUŞAYLO VƏ ONU MÜŞAYİƏT EDƏN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*8 oktyabr 2003-cü il*

**İ l h a m Ə l i y e v:** Hörmətli Vladimir Borisoviç!

Hörmətli qonaqlar, sizi Azərbaycanda salamlamağıma çox şadam. Mən həmçinin şadam ki, Rusiya ilə Azərbaycan arasında əsası möhtərəm prezidentlərimiz Vladimir Vladimiroviç Putin və Heydər Əlirza oğlu Əliyev tərəfindən qoyulmuş intensiv siyasi dialoq ənənələri davam etdirilir. Ötən dövr ərzində bir çox görüşlər keçirilmiş, ikitərəfli danışıqlar aparılmış, Rusiya Prezidentinin Azərbaycana, Azərbaycan Prezidentinin Rusiyaya səfərləri olmuşdur. Əlaqələrimiz bütün səviyyələrdə – siyasi müstəvidə də, iqtisadi əməkdaşlıq çərçivəsində də, mədəni əlaqələr sahəsində də möhkəmlənir. Rusiya ilə Azərbaycan arasında əlaqələr, ənənəvi olaraq, dərin rəğbətə, qarşılıqlı dostluğa və əməkdaşlığa əsaslanmışdır. Biz çox şadıq ki, bütün bunları nəinki qoruyub saxlamağa, həm də artırmağa müvəffəq oluruq.

Rusiya Prezidenti ilə bu yaxınlarda Yaltada, MDB dövlət başçılarının sammitində olan görüşümüzü çox səmimiyyətlə xatırlayıram. Bizim aramızda çox mehriban, açıq söhbət, qarşılıqlı maraq doğuran məsələlər, ikitərəfli münasibətlər, habelə regional problemlər barəsində fikir mübadiləsi oldu.

Sevinc hissi ilə qeyd edə bilərəm ki, hər ikimiz belə bir yekdil rəydə olduq ki, ölkələrimiz arasında əvvəllər olmuş problemlər daha mövcud deyildir. Bütün bunlar yenə də prezidentlərimiz arasında xoş məram və yüksək səviyyədə qarşılıqlı anlaşma sayəsində mümkün olmuşdur. Bu bir daha göstərmişdir ki, belə xoş məramın olması bütün problemləri,

hətta ilk baxışdan həlledilməz görünən problemləri də həll edə bilər. Odur ki, bizim vəzifəmiz bütün bunları davam etdirmək, möhkəmlətmək və genişləndirməkdir. Rusiya ilə Azərbaycan arasındakı ənənəvi əlaqələri daim təkmilləşdirmək və möhkəmlətmək lazımdır. Biz öz tərəfimizdən bunun davam etməsi üçün mümkün olan bütün tədbirləri görəcəyik.

Bu yaxınlarda Azərbaycanda Rus Mətbuatının Ümumdünya Konqresi keçirildi. Zənnimcə, bu da təsadüfi deyildi. Çünki bu, cəmi beşinci konqres idi və onun Azərbaycanda keçirilməsi faktı ölkələrimiz arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu göstərir. Mən bütün dünyadan gəlmiş rus mətbuatının nümayəndələri ilə görüşdə qeyd etdim ki, Rusiya da, Azərbaycan da müstəqil dövlətlər olduqdan sonra ölkəmizdə rusdilli mətbuatın sayı azalmadı, əksinə, artdı. Yəqin ki, bu da Azərbaycanda rus dilinə, rus mədəniyyətinə və münasibətlərimizə necə qayğı ilə yanaşıldığının göstəricilərindən biridir. Əminəm ki, biz bu istiqamətdə birgə səylərlə, Vladimir Borisoviç, sizin də yaxından iştirakınızla bundan sonra da fəal işləyəcəyik. Bilirsiniz ki, Azərbaycanda sizi sevirlər, sizə çox hörmət bəsləyirlər, ölkəmizin dostu bilirlər. Burada dəfələrlə olmusunuz və şəxsən sizə, ümumən, Rusiyaya münasibətimizi bilirsiniz. Ona görə də biz münasibətlərimizi birgə səylərlə inkişaf etdirəcək və möhkəmləndirəcəyik. Mən sizi bir daha salamlamaq istəyirəm. Ümidvaram ki, səfəriniz çox faydalı və yaddaqalan olacaqdır.

**Vladimir Ruşaylo:** Hörmətli İlham Heydəroviç, Azərbaycana rəsmi səfərə gəlmək imkanına görə şəxsən Sizə və Ramiz Ənvəroviçə ürəkdən təşəkkür etmək istərdim. Bu, daimi məsləhətləşmələrin, görüşlərin gözəl bir ənənəsidir. Mən bu ilin fevralında olmuş səfərimi məmnunluqla xatırlayıram. Biz Heydər Əliyeviç Əliyev ilə iki saatdan artıq çəkən görüş zamanı bir çox məsələləri müzakirə etdik və indi dövlətlərimiz arasında yaranmış bu gözəl ənənələri davam etdiririk. Mən Sizin fikrinizlə tam razıyam ki, bütün bunlar dövlət başçılarının müəyyənləşdirdiyi xətt sayəsində baş verir. Bu xətt Azərbaycan

prezidenti Heydər Əliyev və Rusiya prezidenti Vladimir Putin tərəfindən müəyyən edilmişdir.

Biz artıq tam bir sıra məsləhətləşmələr aparmışıq. Ramiz Ənvəroviç onların məzmunu barədə Sizə qısaca məlumat vermişdir. Bunlar beynəlxalq və regional təhlükəsizlik problemidir, habelə ikitərəfli qarşılıqlı fəaliyyətimizlə bağlı məsələdir. Həqiqətən, son illər Rusiya–Azərbaycan münasibətlərində mühüm keyfiyyət dəyişiklikləri, müsbət dəyişikliklər baş vermiş, bu münasibətlər sabit dinamika almışdır. Biz siyasi dialoqun intensivləşməsindən razıyıq və Sizin dediyiniz kimi, əminik ki, Rusiya prezidenti Vladimir Vladimiroviç Putinlə 2003-cü ilin sentyabrında Yaltada apardığınız danışıqlar dövlətlərimizin əməkdaşlığına yeni təkan verəcəkdir. Həqiqətən, Sizinlə görüşdən sonra Rusiya Prezidenti bir sıra tapşırıqlar vermişdir və indi onlar müxtəlif nazirliklərdə və baş idarələrdə həyata keçirilir.

Mehriban qonşu olaraq Rusiya Azərbaycanın dinamik sosial-iqtisadi və siyasi inkişafında, ölkəmizə münasibətdə səmimi xarici siyasət xəttinin varisliyində maraqlıdır. Rusiyada Heydər Əliyeviçin səhhəti sarıdan narahatlıq və həyəcan keçirilir. Görkəmli dövlət xadimi kimi onu yaxşı tanıyırıq. Azərbaycanda siyasi sabitliyin və tərəqqinin bərqərar olmasını onun adı ilə bağlayırlar. Biz Heydər Əliyeviçin Azərbaycanda qarşıdakı prezident seçkilərində öz namizədliyini geri götürmək barədə qərarına hörmətlə yanaşırıq, bu addımı, ilk növbədə, öz ölkəsinin taleyi və gələcəyi barədə düşünən insanın, siyasi xadimin müdrik və mərdanə hərəkəti kimi qiymətləndiririk.

Biz onun Azərbaycan xalqının rifahı naminə, ölkələrimizin dostluğunun möhkəmlənməsi, habelə Rusiya–Azərbaycan strateji tərəfdaşlığının dərinləşməsi naminə fəaliyyətinə dərin hörmət hissi ilə yanaşırıq. Sirr deyil ki, dövlətlərimizin başçıları arasında yaranmış şəxsi münasibətlər sayəsində indi, ilk növbədə, etimad və tərəfdaşlıq sahəsində münasibətlərimiz yüksək səviyyədədir.

Biz güc strukturlarında danışıqlarımız zamanı bunu yəqin

edirik. Bu gün biz Daxili İşlər, Milli Təhlükəsizlik nazirliklərində və bir az əvvəl Müdafiə Nazirliyində danışıqlar apardıq. Ekspertlərimiz Təhlükəsizlik Şurasında işi davam etdirirlər.

Biz güman edirik ki, dövlət başçılarının yüksək səviyyədə keçirdikləri görüşlər bünövrə və qarşılıqlı fəaliyyətimiz üçün müəyyənləşdirici amil olaraq qalacaqdır. Biz Təhlükəsizlik Şurasının xətti ilə bütün lazımi işləri görməyə çalışırıq ki, bu əlaqələr müntəzəm olsun və münasibətlərimizdə tərəqqiyə kömək etsin. Azərbaycan Prezidentinin dediyi bu sözləri Rusiyada xatırlayırlar ki, keçmişdə bizim fəxr etməli nailiyyətlərimiz olub və uzun illər ərzində bizi birləşdirmiş tarixi talelərin ümumiliyinin üstündən bir andaca xətt çəkmək mümkün deyildir. Ona görə də biz prezidentlərimizin apardıqları o xətti davam etdirməyə və dövlət başçılarımızın göstərişlərinin bütün səviyyələrdə yerinə yetirilməsinə nail olmağa borcluyuq. Sağ olun.

**İ l h a m  Ə l i y e v:** Vladimir Borisoviç, sağ olun. Mən sizin dediklərinizlə tam razıyam. Biz Azərbaycanda bu xətti davam etdirəcəyik. Prezident Heydər Əliyevin siyasətinin ölkəmizdə alternativi yoxdur. Biz hamımız çox istəyirdik ki, səhhəti ona seçkilərdə iştirak etməyə imkan versin. Bütün planlarımız məhz buna əsaslanırdı. Təəssüf ki, belə olmadı. İndi o müalicədədir. Müalicə uğurla keçir. Lakin o, seçkilərədək Vətənə dönə bilməyəcəkdir. Ümidvarıq ki, o, seçkilərdən sonra mümkün qədər tez bir vaxtda qayıdacaqdır, çünki Azərbaycan xalqı onu gözləyir. İstəyirik və əminik ki, o hələ uzun müddət bizimlə birlikdə olacaqdır.

Rusiya ilə münasibətlərimiz strateji tərəfdaşların münasibətləridir. Prezidentimiz bunu dəfələrlə bəyan etmişdir və Yaltada Vladimir Vladimiroviç Putinlə görüşdə mən də bunu dedim. Bu bizim üçün öncül münasibətlərdir. Bu münasibətlər çox vacibdir və biz onları qiymətləndiririk. Əlbəttə, son bir neçə ildə bu münasibətləri belə yüksək səviyyəyə çıxarmağa müvəffəq olmağımız bizi çox sevindirir. Biz öz tərəfimizdən bütün işləri görəcəyik ki, bu münasibətlər bütün sahələrdə – iqtisadiyyatda

da, siyasi baxımdan da, iki ölkənin təhlükəsizlik şuraları arasında qarşılıqlı fəaliyyət çərçivəsində də inkişaf etsin. Bilirəm ki, Ramiz Ənvəroviçlə aranızda çox yaxşı, konstruktiv əməkdaşlıq var. Bu çox qiymətlidir. Ona görə də bizdən nə asılı olacaqsa – zənnimcə, çox şey asılı olacaq – hər şeyi edəcəyik, çünki təcrübə göstərir ki, xoş siyasi məram olduqda, bütün məsələlər öz həllini tapır. Biz var qüvvə ilə çalışacağıq ki, münasibətlərimiz inkişaf etsin. İstər ikitərəfli, istər regional əlaqələr, istərsə də beynəlxalq xarakterli məsələlərin həlli üzrə əməkdaşlıq baxımından səylər göstərilməsi üçün sahələr olduqca çoxdur. Bir çox beynəlxalq təşkilatlarda Rusiya və Azərbaycan nümayəndələri bir-birlərini dəstəkləyirlər. Mən özüm bunu Avropa Şurasının fəaliyyətində iştirak etdiyim illərdə yəqin etmişəm. Bu əməkdaşlıq həmişə yaxşı bəhrələr verir.

Azərbaycanda biz münasibətlərimizi qayğı ilə qoruyuruq və çox şadıq ki, Rusiya iqtisadi cəhətdən möhkəmlənir, inkişaf edir, ölkənizin rifahı naminə olduqca ciddi siyasi proseslər baş verir. Hesab edirik ki, Rusiyada əmin-amanlıq və firavanlıq olarsa, əlbəttə, həm orada yaşayan azərbaycanlılar, həm də biz, Azərbaycan vətəndaşları bundan ancaq fayda görəcəyik. Biz bu fikirdəyik ki, qarşılıqlı əlaqələr bütün səviyyələrdə davam etdirilməlidir. Biz öz tərəfimizdən bütün işləri görəcəyik ki, belə olsun və bu, gələcəkdə də həyata keçirilsin. Azərbaycanın xarici siyasət xətti dəyişməz qalacaqdır, dediyim kimi, Rusiya ilə münasibətlərimiz bizim üçün öncül xarakter daşıyır. Ona görə də düşünürəm ki, biz ümumi rifahımız naminə qarşılıqlı səylərlə ölkələrimizi, xalqlarımızı daha çox yaxınlaşdıracağıq. Əlbəttə, sizi burada tez-tez görməyə ümid bəsləyirik, hər bir gəlişinizə çox şadıq.

Xahiş edirəm, mənim səmimi salamımı və ən xoş arzularımı hörmətli prezident Vladimir Vladimiroviç Putinə yetirəsiniz. Mən Rusiya dövlətinin başçısı ilə Yaltada görüşümüz barədə təəssüratlarımı məhdud dairədə qeyd etmişəm, danışmışam. Bu mənim üçün ilk bu cür təcrübə idi. Təbii ki, hər hansı tədbirdə

ilk dəfə iştirak etdikdə müəyyən hisslər keçirirsən. Lakin Vladimir Vladimiroviçin səmimi münasibəti, dəstəyi, dövlət başçılarına xitabən dediyi sözlər çox xoş idi. Orada Vladimir Vladimiroviç dedi ki, o da bir vaxtlar Baş nazir kimi, ilk dəfə belə bir görüşdə olmuşdur və belə tədbirlərdə ilk dəfə iştirak etməyin nə demək olduğunu bilir. O bütün həmkarlarından mənə dəstək və qayğı göstərməyi xahiş etdi. Mən bunu çox yüksək qiymətləndirirəm. Bir daha xahiş edirəm, mənim ən xoş arzularımı Rusiya Prezidentinə yetirəsiniz. Mən ona doğum günü münasibətilə təbrik məktubu göndərmişəm. Sizdən xahiş edirəm, şəxsən onun əlini sıxasınız və xoş diləklərimi ona və ailəsinə yetirəsiniz.

## AZƏRBAYCANDA ƏN MÜASİR STANDARTLARA CAVAB VERƏN İLK ATICILIQ STENDİNİN İSTİFADƏYƏ VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ ÇIXIŞ

*Bakı, Binəqədi rayonu*

*8 oktyabr 2003-cü il*

Hörmətli xanımlar və cənablar!
Əziz idmançılar!
Əziz dostlar!

Bu gözəl kompleksin açılışı münasibətilə sizin hamınızı ürəkdən təbrik edirəm. Azərbaycanda idman inkişaf edir. İdmana göstərilən qayğı yüksək səviyyədədir. Bu qayğının nəticəsində idmançılarımız beynəlxalq yarışlarda Azərbaycanı ləyaqətlə təmsil edirlər. Azərbaycan idmançıları dünya, Avropa çempionatlarında, olimpiya oyunlarında yüksək nəticələr göstərərək, ölkəmizin idman şöhrətini yüksəklərə qaldırırlar. O cümlədən stend atıcılığı idman növündə Azərbaycanın çox gözəl nəticələri vardır.

Zemfira Meftahəddinova 2000-ci ildə keçirilən Sidney Yay Olimpiya oyunlarında çempion olubdur. Bundan əlavə, o, Dünya kubokunun sahibidir və dünya rekordçusudur. Biz əminik ki, 2004-cü ildə Afinada keçiriləcək Yay Olimpiya oyunlarında da Zemfira Azərbaycanı ləyaqətlə təmsil edəcəkdir.

Uzun illərdir ki, stend atıcılığı ilə məşğul olan idmançılarımızın Azərbaycanda məşq etmək üçün imkanları olmamışdır. Buna görə də onlar məcbur olub təlim-məşq toplanışlarını xaricdə keçiriblər. Əlbəttə, bu, əlavə əziyyət idi, əlavə çətinliklər yaradırdı. Ona görə Milli Olimpiya Komitəsinin təşəbbüsü ilə belə bir gözəl kompleks yarandı. Bu kompleks həm idmançılarımıza xidmət edəcək, eyni zamanda Bakı

şəhərinin sakinləri üçün də açıq olacaqdır. Burada sərbəst şəkildə hər bir vətəndaş öz asudə vaxtını keçirə bilər.

Bu gün Azərbaycanda idman qurğularının sayı getdikcə artır. Azərbaycanın müxtəlif bölgələrində idmanın maddi-texniki bazası yaradılır. Eyni zamanda Bakı şəhərində də idman komplekslərinin sayı artır. Çox məmnunam ki, Milli Olimpiya Komitəsinin təşəbbüsünə qoşularaq, federasiyalar da müvafiq idman qurğuları yaradırlar. Ağırlıqqaldırma Federasiyası, Voleybol Federasiyası, Həndbol Federasiyası, Otüstü Xokkey Federasiyası, Taekvondo Federasiyası özləri üçün Bakıda müvafiq qurğular, komplekslər yaradırlar. Çox müsbət haldır ki, bütün yeni yaradılan idman obyektləri ən yüksək standartlara cavab verir. O cümlədən, bu gün açdığımız bu kompleks.

Bunun inşasında yerli mütəxəssislər, şirkətlər iştirak ediblər. Bu da çox sevindirici haldır. Azərbaycanın tikinti sahəsində də gözəl təcrübə toplanır, bizim inşaatçılarımız belə komplekslərin yüksək səviyyədə tikilməsini təmin edirlər.

Bu kompleks Milli Olimpiya Komitəsinin və Gənclər, İdman və Turizm Nazirliyinin birgə əsəridir. İşin inşaat tərəfinə nazirlik cavabdehlik daşıyıb, avadanlığın alınmasını isə Milli Olimpiya Komitəsi təmin edibdir. Deyə bilərəm ki, hər iki sahədə yaxşı işlər görülübdür. Bu, həm memarlıq baxımından çox gözəl binadır, eyni zamanda ən müasir avadanlıqla təchiz olunubdur. Bu bir daha onu göstərir ki, Azərbaycanda idmana rəhbərlik edən qurumların arasında işbirliyi var, əməkdaşlıq var. Milli Olimpiya Komitəsi, Gənclər, İdman və Turizm Nazirliyi, federasiyalar, idman cəmiyyətləri – biz hamımız vahid bir komanda kimi fəaliyyət göstəririk. Mən əminəm ki, məhz bu birgə fəaliyyətin nəticəsində Azərbaycan idmanda böyük uğurlar əldə edə bilibdir.

Biz çox maraqlıyıq ki, Azərbaycanda beynəlxalq yarışlar keçirilsin. Artıq bir neçə mötəbər yarış keçirilibdir. Dünya, Avropa çempionatları, Afina Olimpiadasına hazırlıq mərhələsində seçmə turnirləri də Azərbaycanda keçiriləcəkdir. Azərbaycanda üç lisenziya turniri olacaqdır. Deyə bilərəm ki, respublikamız

yeganə ölkədir ki, burada üç lisenziya turniri keçiriləcəkdir. Bunlar boks, voleybol və taekvondo üzrə turnirlərdir. Biz müvafiq beynəlxalq federasiyalara bu barədə təkliflərlə müraciət etmişdik və çox şadıq ki, bizim müraciətimiz cavabsız qalmadı. Məhz ona görə cavabsız qalmadı ki, biz beynəlxalq idman qurumları ilə çox sıx əlaqələr yarada bilmişik. Əlbəttə, Azərbaycan idmanında əldə olunan nailiyyətlər, yüksək səviyyədə keçirilən beynəlxalq yarışlar, beynəlxalq idman təşkilatları üçün də sirr deyil və onlar bütün bu amilləri nəzərə alaraq, bu turnirlərin məhz ölkəmizdə keçirilməsi haqqında qərar qəbul etdilər. Şübhəsiz ki, bizim idmançılarımıza burada çıxış etmək daha da əlverişli olacaqdır. Mən əminəm ki, 2004-cü ildə keçiriləcək Afina Yay Olimpiya Oyunlarında da idmançılarımız doğma Azərbaycanımızı layiqincə təmsil edəcəklər.

İdman cəmiyyətimizin ayrılmaz hissəsidir. İdman o ölkədə inkişaf edir ki, orada sabitlik, iqtisadi inkişaf, əmin-amanlıq var. Bütün bu amillər Azərbaycanda mövcuddur. Bunların Azərbaycanda mövcud olmasının səbəbkarı möhtərəm cənab prezident Heydər Əliyevdir. Məhz onun Azərbaycanda apardığı siyasətin nəticəsində sabitlik yaranıb, ölkəmiz iqtisadi cəhətdən inkişaf edir və bu bizə imkan verir ki, bütün sahələrdə uğurlar qazanaq. Əlbəttə, cənab Prezident tərəfindən idmançılarımıza, ümumiyyətlə, idmanın inkişafına bu qayğı, diqqət göstərilməsəydi, biz bu uğurları əldə edə bilməzdik. Bütün bu amillər – həm dövlət tərəfindən göstərilən diqqət, həm idmançılarımıza yaradılan gözəl şərait, məşqçilərimizin məqsədyönlü, peşəkar fəaliyyəti sayəsində bu uğurları qazanmışıq.

Bu da böyük bir hadisədir. İdman, sadəcə olaraq, idman deyildir. Bu, hər bir ölkə üçün çox önəmli amildir, önəmli bir atributdur. Müstəqilliyimizi əks etdirən bir sahədir. Çünki ölkələr ancaq idman yarışlarında bir-biriləri ilə mübarizə aparırlar. Məsələn, Sidney Olimpiya oyunlarının nəticələri bizi ona görə sevindirir ki, Azərbaycan 199 ölkə arasında 34-cü yeri

tuta bilibdir. Mən gələcəyə çox nikbinliklə baxıram və əminəm ki, qarşıdan gələn olimpiadada Azərbaycanın reytinqi daha yüksək ola bilər. Bunu deməyə əsas da var. Çünki ötən olimpiadadan keçən üç ildə bir neçə idman növündə böyüklər arasında bizim dünya çempionlarımız vardır. Əlbəttə, onlar olimpiya oyunlarında da medallar uğrunda mübarizə aparacaqlar.

Azərbaycan gələcəkdə idman sahəsində daha da sürətlə inkişaf edəcəkdir. Biz bir məsələyə də daim diqqət göstəririk. Bu da uşaqların, yeniyetmələrin idmanla məşğul olmasıdır. Bu, həm onların fiziki sağlamlığı nöqteyi-nəzərindən önəmlidir, eyni zamanda idmanın davamlı inkişafını təmin etmək üçün yeni gənc nəsil yetişməlidir. Azərbaycan o ölkələrdəndir ki, məhz yerli kadrlara arxalanır. İndi bizdə yeniyetmələr, gənclər arasında çox güclü idmançılar var. Onlar 4-5 ildən sonra Azərbaycanın idman şərəfini dünyada qoruyacaqlar.

Bir sözlə, bu proses gedir. İdman Azərbaycanda kütləvi xarakter alır. İdmanla məşğul olmaq istəyənlərin sayı artır. Bunu Bakıda müşahidə edirik. Ən önəmlisi isə odur ki, Azərbaycanın müxtəlif bölgələrində də müşahidə edirik. Çünki keçmişdə Bakıda kifayət qədər idman obyektləri var idi. Amma rayonlarda olan obyektlərin əksər hissəsi dağıdılmışdı. Bu gün Azərbaycan Milli Olimpiya Komitəsi məhz rayonlarda yeni, müasir idman bazalarını yaradır. Çünki idmanla məşğul olmaq üçün Bakıda şərait varsa, deməli, Azərbaycanın hər bir bölgəsində bu şərait olmalıdır. Azərbaycan hərtərəfli, dinamik inkişaf etməlidir. Azərbaycanın bölgələri inkişaf etməlidir və bu da bizim ölkəmizi gücləndirəcəkdir.

Mən əminəm ki, burada məşq edəcək idmançılarımız Zemfiranın yolunu təkrarlamaq istəyəcəklər. Zemfira, doğrudan da, çox görkəmli idmançıdır. Sözün əsl mənasında, idmançıdır. Həm idmançı kimi çox güclüdür, həm də insan kimi çox yaxşı insandır. Mənim ona çox böyük hörmətim var. Onun məşqçisi Hafiz Cəfərov da keçmişdə SSRİ milli komandasının baş məşqçisi idi. Mən eşitmişdim ki, bir müddət Azərbaycanda bu

idman növünə biganə münasibət olan zaman Hafiz müəllimə xaricdən təkliflər gəlmişdi. Onu dəvət edirdilər. Çünki o, dünya səviyyəli mütəxəssisdir.

Amma çox şadam ki, Hafiz müəllim Azərbaycanda qaldı. Onun Azərbaycanda qalması ona gətirib çıxardı ki, ölkəmiz Sidney Yay Olimpiya oyunlarında ilk qızıl medalı məhz bu idman növündə qazandı. Mən bilirəm ki, indi yeni nəsil yetişir. Əminəm ki, bu stend fəaliyyətə başlayandan sonra bu idman növü ilə məşğul olmaq istəyənlərin sayı artacaqdır. Bu da öz növbəsində Azərbaycanda yeni istedadları üzə çıxaracaqdır. Mən əminəm ki, burada məşq edən gənclər Azərbaycanın idman şöhrətini daim uca tutacaq, doğma Vətənimizə yeni qələbələr gətirəcəklər.

Ümumiyyətlə, idmançılarımıza minnətdaram ki, onlar Azərbaycanın Milli Olimpiya Komitəsi tərəfindən həyata keçirilən siyasəti dəstəkləyirlər. Bu bizim üçün çox vacibdir. Çünki biz ümumi iş görürük. Bu işdə təkcə rəhbərlik nailiyyətlər əldə edə bilməz. Rəhbərliyin vəzifəsi ondan ibarətdir ki, idmançılara şərait yaratsın, onların beynəlxalq yarışlarda iştirakını təmin etsin. İdmançıların isə vəzifəsi odur ki, məşqlərə, yarışlara ciddi yanaşsınlar, ölkəmizi ləyaqətlə təmsil etsinlər. Bu iki amil Azərbaycanda var və bizim uğurlarımızın əsl səbəbi də bunların olmasıdır.

Əziz idmançılar!

Əziz Binəqədi rayonu sakinləri!

Mən sizin hamınızı bu gözəl, əzəmətli, dünya standartlarına cavab verən yeni idman kompleksinin açılışı münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik, yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

## RUSİYA FEDERASİYASININ AZƏRBAYCANDAKI SƏFİRLİYİNDƏ RUSİYA TƏHLÜKƏSİZLİK ŞURASININ KATİBİ VLADİMİR RUŞAYLONUN ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA ÇIXIŞ

*8 oktyabr 2003-cü il*

**Vladimir Ruşaylo:** Hörmətli İlham Heydəroviç! Mən Rusiya Federasiyasının prezidenti Vladimir Vladimiroviç Putinin tapşırığını yerinə yetirmək və Sankt-Peterburqun 300 illiyi şərəfinə medalı Sizə təqdim etmək istəyirəm.

**İlham Əliyev:** Bu medalla təltif olunmaq mənim üçün böyük şərəfdir. Xüsusən ona görə ki, bu medal mənə hörmətli prezident Vladimir Vladimiroviç Putinin fərmanı ilə təqdim edilir. Bu, ölkələrimiz arasında münasibətlərin necə dostluq, qardaşlıq xarakteri daşıdığını, talenin hökmü ilə ölkələrimizə rəhbərlik edən şəxslərin bir ümumi arzusunun – əməkdaşlığımızı möhkəmlətmək, Rusiya ilə Azərbaycan arasında, rus və Azərbaycan xalqları arasında dostluğu, qardaşlığı inkişaf etdirmək arzusunun olduğunu bir daha nəzərə çarpdırır.

Mən bu medalı çox yüksək qiymətləndirirəm və sizi əmin etmək istəyirəm ki, biz öz tərəfimizdən – bu gün sizinlə bu barədə danışdıq – var qüvvə ilə çalışacağıq ki, ölkələrimiz daha da yaxınlaşsın, aramızdakı münasibətlər daha yaxşı olsun. Hərçənd, zənnimcə, bundan da yaxşı ola bilməz, lakin buna baxmayaraq, biz çalışacağıq.

Sizə bir daha təşəkkür edirəm.

## "BUTA" KONSERV ZAVODUNUN AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ

*Lənkəran*

*10 oktyabr 2003-cü il*

Əziz dostlar!

Mən sizin hamınızı bu yeni müəssisənin açılışı münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bu bir daha onu göstərir ki, Azərbaycanda iqtisadi inkişaf var, yeni iş yerləri açılır. Azərbaycanın bütün bölgələrinə yeni, müasir standartlara cavab verən avadanlıq gətirilir, qurulur. Burada, bu zavodda yüzdən artıq adam işlə təmin olunubdur.

Mənə verilən məlumata görə, gələcəkdə zavodun fəaliyyəti daha da genişlənəcək, daha çox çeşiddə məhsullar istehsal edilərək, həm daxili bazarda satılacaq, həm də ixrac olunacaqdır. Bu çox sevindirici haldır. Bu ümumiyyətlə, Azərbaycanda son illər ərzində müşahidə olunan ənənəni göstərir. Onun əyani sübutudur. Bu siyasəti Azərbaycanda 1993-cü ildən başlayaraq möhtərəm cənab prezident Heydər Əliyev aparır. Onun rəhbərliyi altında Azərbaycanın hər sahəsi inkişaf edir. İqtisadiyyatımızın bütün sektorları inkişaf edir.

Məhz aparılan iqtisadi islahatların nəticəsində, Azərbaycanda hökm sürən sabitliyin nəticəsində investorlar vəsait qoyurlar, yeni iş yerləri açırlar, yeni müəssisələr yaradırlar. Əgər investorlarda gələcəyə inam olmasaydı, onlar heç vaxt risk edib vəsait qoymazdılar. Bu bir daha onu göstərir ki, Azərbaycan düz yoldadır.

Azərbaycanın çox gözəl gələcəyi vardır. Mən bu müəssisənin kollektivinə, buraya sərmayə qoyan şəxslərə öz minnətdarlığımı bildirirəm ki, onlar ümumi işimizə kömək göstərirlər. Eyni zamanda, bütün başqa sahibkarlara da müraciət etmək istəyirəm və bildirirəm ki, Azərbaycan hökuməti, dövləti

sahibkarlara daim kömək göstərəcəkdir. Onların investisiyalarını qoruyacaqdır və onlardan xahiş edəcəkdir ki, belə gözəl müəssisələri daha da çox yaratsınlar. Azərbaycanın müxtəlif bölgələrində belə gözəl müəssisələr açılsın.

Mən bu zavodun açılışı münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm, sizə uğurlar arzulayıram. Sağ olun.

* * *

*Azərbaycan hökumətinin başçısı İlham Əliyev daha sonra şəhərin mərkəzində yerləşən «Qala» mehmanxanasının təntənəli açılışında iştirak etdi.*

*Həmin gün Baş nazir İlham Əliyev açılış mərasimindən sonra Lənkəranda Şəhidlər kompleksini ziyarət etdi. Daha sonra «MostBank»ın Lənkəran şöbəsinin yeni istifadəyə verilmiş binası və Yeni Azərbaycan Partiyası Lənkəran rayon təşkilatının yeni tikilmiş binası ilə də yaxından tanış oldu.*

## LƏNKƏRAN RAYONUNUN SÜTƏMURDOV KƏNDİNDƏ TİKİNTİSİ YENİCƏ BAŞA ÇATMIŞ OLİMPİYA KOMPLEKSİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ

*9 oktyabr 2003-cü il*

Əziz lənkəranlılar!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gözəl idman kompleksinin açılışı münasibətilə sizi təbrik edirəm. Eyni zamanda, bu gün zəhmət çəkib buraya gələn astaralılar, leriklilər, sizi də ürəkdən salamlayıram, bu görüşə gəldiyinizə görə sizə öz minnətdarlığımı bildirmək istəyirəm.

2001-ci ilin oktyabrında mən Lənkəranda olarkən, camaatla görüşərkən, müəyyən məsələləri müzakirə edərkən, eyni zamanda, çıxışımda bəyan etmişdim ki, Milli Olimpiya Komitəsi qərar qəbul edib ki, Lənkəranda müasir Olimpiya İdman Kompleksi tikilsin. Mən çox şadam ki, biz buna nail ola bilmişik və bu gün sizinlə birlikdə bu gözəl kompleksin açılışında iştirak edirik, ona öz xeyir-duamızı veririk.

Azərbaycanda idman kütləvi xarakter alır, yeni-yeni idman qurğuları yaradılır və istifadəyə verilir. Bu çox sevindirici haldır. Bu siyasəti Milli Olimpiya Komitəsi 2000-ci ildə başlamışdır və qısa müddətdə – 3 il ərzində Azərbaycanın, demək olar ki, bütün bölgələrində müasir komplekslər tikilib idmançılarımızın istifadəsinə verilibdir. Bu çox böyük hadisədir. Hesab edirəm ki, bu, düşünülmüş siyasətdir. Azərbaycanın hər bir yerində, hər bir bölgəsində istedadlı idmançılar, gənclər vardır. Onlar idmanla məşğul olmalıdırlar. İdmanla məşğul olan insan həm fiziki, həm də mənəvi cəhətdən sağlam olur. Bizə isə sağlam xalq lazımdır, sağlam millət lazımdır, sağlam gənc nəsil lazımdır.

Dünən biz Bakıda yeni idman qurğusunun açılışında iştirak

etmişdik. Ondan əvvəl Bərdədə idman kompleksinin açılışında iştirak edirdik, bu gün isə Lənkərandayıq. Bu, ümumiyyətlə, onu göstərir ki, Azərbaycanda idmana böyük qayğı var. Bu qayğı ən yüksək səviyyədə göstərilir. Əgər cənab prezident Heydər Əliyevin idmana qayğısı olmasaydı, əlbəttə ki, biz bu uğurları əldə edə bilməzdik. İdmanın maddi-texniki bazasının yaradılması ilə yanaşı, idmançılarımız da Azərbaycanı beynəlxalq yarışlarda çox ləyaqətlə təmsil edirlər. Azərbaycanın idman şərəfini qoruyurlar. Son 3-4 il ərzində, demək olar ki, bütün beynəlxalq yarışlarda idmançılarımız nəinki iştirak edir, eyni zamanda, medallar uğrunda mübarizə aparır və bu mübarizədə də qalib çıxırlar. Mən əminəm ki, idmançılarımız bundan sonra da beynəlxalq yarışlarda, dünya, Avropa çempionatlarında, Olimpiya oyunlarında Azərbaycanın idman şərəfini daim yüksək tutacaq, doğma Vətənimizə yeni-yeni qələbələr gətirəcəklər.

İdman o ölkədə inkişaf edir ki, orada iqtisadi inkişaf var, sabitlik var. Azərbaycan da Heydər Əliyevin rəhbərliyi altında son 10 il ərzində bütün bu məsələlərin həllinə nail olmuşdur. Burada qeyd olundu ki, 1993-cü ildə Azərbaycan nə vəziyyətdə idi, ölkə demək olar ki, dağılırdı. Ölkəyə rəhbərlik edən şəxslər onu elə vəziyyətə salmışdılar ki, Azərbaycan, demək olar, dünya xəritəsindən silinirdi. Məhz Heydər Əliyevin siyasəti nəticəsində Azərbaycanda qısa müddət ərzində asayiş, ictimai-siyasi sabitlik yarandı və ölkədə inkişaf başlandı. Bu inkişafın nəticəsində Azərbaycan qısa müddətdə ilk uğurlarını əldə etmişdir. Bu uğurlar özünü bütün sahələrdə açıq-aydın göstərir. İqtisadiyyatımız inkişaf edir, Azərbaycan beynəlxalq aləmdə öz layiqli yerini tuta bilibdir.

Azərbaycanda islahatlar aparılır, Heydər Əliyevin neft strategiyası həyata keçirilir. Görülən bütün bu tədbirlərin nəticəsində Azərbaycan xalqı daha yaxşı yaşamağa başlayıbdır. Bu siyasətin kökündə duran məsələ budur ki, Azərbaycan daha da inkişaf etsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar. Bunun üçün bizdə bütün imkanlar var. Təbii

sərvətlər, möhkəm siyasi iradə, xalqın dəstəyi vardır. Bütün bu amillər bizə imkan verəcək ki, gələcəkdə Azərbaycanı hərtərəfli inkişaf etdirək. Bütün Azərbaycan xalqı kimi, cənub zonasında yaşayan soydaşlarımız daima Heydər Əliyevin siyasətini dəstəkləmişlər və əminəm ki, bu dəfə də Heydər Əliyevin siyasətinə səs verəcəklər.

Mən çox şadam və məmnunluq hissi ilə deyə bilərəm ki, Azərbaycandakı inkişaf Lənkəranda da özünü göstərir. Bu gün səhər mən bir neçə yeni obyektin açılışında iştirak etdim. Lənkəranda yeni konserv zavodu istifadəyə verildi. Bu çox sevindirici haldır. Ümumiyyətlə, bu proses Azərbaycanın müxtəlif bölgələrində gedir. Yeni iş yerləri açılır, müasir standartlara uyğun müəssisələr yaradılır. Bu, imkan verəcək ki, kənd təsərrüfatı ilə məşğul olan insanlar heç bir problemlə üzləşmədən öz məhsullarını həmin müəssisələrə təhvil verib ondan vəsait əldə etsinlər.

Eyni zamanda, yerli istehsal da imkan verəcək ki, daxili bazar yerli məhsullarla təmin olunsun. Burada açılan konserv zavodu bir daha onu göstərir ki, bu proses gedir. Yeni iş yerlərinin açılması hökumətin siyasətində prioritet məsələdir. Bu məsələyə daim diqqət göstəriləcək və qısa müddətdə, növbəti beş il ərzində, – mən bunu artıq bir neçə dəfə bəyan etmişəm, bir də demək istəyirəm, – 600 min yeni iş yeri açılacaqdır. Bu çox böyük rəqəmdir. Bəzilərinə elə gələ bilər ki, bu qeyri-realdır. Amma mən sizə deyə bilərəm ki, bütün iqtisadi hesablamalar aparılmışdır və bir daha mən bu rəqəmi sizin nəzərinizə çatdırıram. Belə olan halda, Azərbaycanda işsizlik problemi, demək olar ki, tamamilə aradan qaldırılacaqdır. Bu da Azərbaycanın qarşısında duran ən mühüm problemlərdən biridir. İşsizliyin qarşısı alınmalıdır, eyni zamanda, yoxsulluqla mübarizə aparılmalıdır və aparılır.

Bu məqsədlə Azərbaycan dünyanın aparıcı maliyyə qurumları ilə birlikdə xüsusi proqram həyata keçirir. Əminəm ki, bu proqramın həyata keçirilməsi nəticəsində yaxın gələcəkdə yoxsulluğun azaldılması mümkün olacaqdır.

Azərbaycanda sahibkarlıq, özəl sektor inkişaf edir. Ümumi daxili məhsulda özəl sektorun payı 70 faizdən yuxarıdır. Bu onu göstərir ki, Azərbaycanda tam mənada bazar iqtisadiyyatı prinsipləri mövcuddur və işləyir.

Bu gün başqa bir infrastruktur obyekti, yeni bir mehmanxana da açılıbdır. Mən onun açılışında da iştirak etmişəm. Çox sevindirici haldır ki, bu mehmanxana ən yüksək standartlara uyğun şəkildə tikilibdir. Lənkərana, lənkəranlılara layiq olan bir yerdir. Əminəm ki, buraya gələn hər bir qonaq orada rahat yaşaya bilər. Bu da çox sevindiricidir. Çünki indi belə səviyyəli mehmanxanalar, adətən, Bakıda tikilir. Mən Azərbaycanın bölgələrində hələ ki, belə mehmanxanaya rast gəlməmişəm. Çox şadam ki, bu ilk təcrübə məhz burada, Lənkəranda baş veribdir. Bu da öz növbəsində, Azərbaycanın dilbər guşəsi olan Lənkəranda turizmin inkişafına böyük kömək göstərəcəkdir. Burada turizmin inkişafı üçün hər bir şərait – gözəl iqlim var, gözəl təbiət var. Ən önəmlisi isə, Lənkəranın ən böyük sərvəti olan əməksevər, vətənpərvər insanları vardır. Mən sizi, əziz, doğma bacılarımızı, qardaşlarımızı bir daha salamlayıram və sizin dəstəyinizə arxalanıram. Biz bu dəstəklə, sizinlə birlikdə Azərbaycanı inkişaf etdirəcəyik.

Azərbaycan yaxın vaxtlarda zəngin dövlətə çevriləcəkdir. Son on il ərzində Heydər Əliyevin Azərbaycanda apardığı siyasət artıq öz əyani nəticələrini verməkdədir. Azərbaycanda neft strategiyası həyata keçirilir. Bunun hesabına böyük həcmdə valyuta ehtiyatları yaranıbdır. Bu isə Azərbaycanın hər bir bölgəsini inkişaf etdirməyə imkan verəcəkdir.

İndi İqtisadi İnkişaf Nazirliyi tərəfindən xüsusi proqram hazırlanıbdır. Bu proqramda Azərbaycanın bölgələri haq-qında ayrıca bir bölmə var. Orada Azərbaycanın bütün bölgələrinin inkişafı, iqtisadi perspektivləri öz əksini tapır. Mən əminəm ki, seçkilərdən sonra bu proqramın həyata keçirilməsinə başlayacağıq. Azərbaycanın hər bir vətəndaşı onun xeyrini görəcəkdir.

2001-ci ildə burada olarkən mən başqa bir vəd də vermiş-

dim. Mən vəd verməyi xoşlamıram. Bəzi müxalifət liderlərindən fərqli olaraq, mən daha çox əməli işlərə üstünlük verirəm. Yalnız o vaxt vəd verirəm ki, onun yerinə yetirilməsinə nail olacağımı bilirəm. Mənə müraciət olunmuşdu və söyləmişdilər ki, Lənkəranın ən böyük problemlərindən biri buraya təbii qazın verilməsinin dayandırılmasıdır. Şəhərə uzun illər təbii qaz verilməmişdir.

Mən o vaxt Bakıya qayıdarkən bu məsələni ciddi araşdırdım. Biz xüsusi tədbirlər planı hazırlayıb həyata keçirdik və bunun nəticəsində Azərbaycanın bir neçə rayonuna, o cümlədən Lənkərana təbii qazın verilməsi bərpa olundu. İndi mənə verilən məlumata görə, şəhərin 85 faizi qazla təmin edilmişdir. Məqsədimiz isə budur ki, lənkəranlılar təbii qazla yüz faiz təmin olunsunlar. Mən söz verirəm ki, biz buna nail olacağıq.

Azərbaycan vahid ölkədir. Azərbaycanın hər bir vətəndaşı eyni şəraitdə yaşamalıdır. Əgər Bakıda elektrik enerjisi, təbii qaz varsa, deməli, hər yerdə, o cümlədən Lənkəranda da elektrik enerjisi də, qaz da olmalıdır. Biz bunu təmin edirik və bundan sonra da edəcəyik.

Siz bilirsiniz ki, möhtərəm cənab Prezident Lənkərana, bu zonada yerləşən digər rayonlara daim diqqət və hörmətlə yanaşmışdır. Siz hamınız bu diqqəti hiss etmisiniz. Cənab Prezident dəfələrlə burada olmuşdur, insanlarla görüşmüşdür, problemlərin həlli istiqamətində öz köməyini göstərmişdir. İndi cənab Prezident səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirak etməyəcəkdir. Mən iştirak edəcəyəm. Sizi əmin etmək istəyirəm ki, onun siyasətini davam etdirəcəyəm. Biz daim birlikdə olacağıq və mən sizə daim diqqət göstərəcəyəm.

Azərbaycanda Heydər Əliyevin siyasətinə alternativ siyasət yoxdur. Alternativ siyasət Azərbaycanı uçuruma apara bilər. Azərbaycan xalqı 1992–1993-cü illərdə o çox ağır günləri yaşayıbdır. O vaxt Azərbaycan demək olar ki, dağılırdı, ölkəmiz böhran içində idi, anarxiya, xaos, hərc-mərclik hökm sürürdü. Ölkədə qanunsuz silahlı dəstələr, quldur dəstələri meydan

sulayırdılar. Belə olan halda Azərbaycanın gələcəyi, ümumiyyətlə, sual altında idi. 1993-cü ildə Azərbaycan xalqı öz müdrikliyini nümayiş etdirərək Heydər Əliyevi Bakıya dəvət etdi. Ondan sonra bütün bu xoşagəlməz halların qarşısı alındı. Azərbaycanı bu çətin vəziyyətə salan o vaxtkı iqtidar, indiki müxalifət qaçıb gizləndi və bir neçə il ərzində onlar gizlənmişdilər, xalqın qarşısına çıxmağa cəsarət etmirdilər. Özlərini biabır edən, Azərbaycan dövlətçiliyinə xəyanət edən şəxslər indi yalnız Heydər Əliyevin həyata keçirdiyi demokratik proseslərin nəticəsində yenidən siyasətə qayıdıblar. İndi onlar sizə müxtəlif yalan vədlər verirlər, fantaziya danışırlar. Mən bilirəm ki, Azərbaycan xalqı onların vədlərinə inanmır, çünki əgər onlarda belə bir niyyət olsaydı, elə hakimiyyətdə olduqları dövrdə bunu həyata keçirərdilər.

İndi Azərbaycan bütün bəlalardan qurtarıbdır. Azərbaycanda müharibə dayanıbdır. Artıq Azərbaycanda iqtisadi tənəzzül yoxdur, əksinə, inkişaf var. Başqa qonşu ölkələrlə müqayisədə Azərbaycan birinci yerdədir. Adambaşına düşən xarici sərmayənin həcminə görə Azərbaycan nəinki MDB ölkələrini, hətta bəzi Şərqi Avropa ölkələrini də qabaqlayır. Azərbaycan ümumi daxili məhsulun artım səviyyəsinə görə dünyanın aparıcı ölkələrinin sırasındadır. İnflyasiyanın səviyyəsinə görə də dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrinin sırasındadır.

Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsi nəticəsində iki neft kəməri tikilib istifadəyə verilibdir. Bakı–Tbilisi–Ceyhan kimi nəhəng, bütün dünya üçün əhəmiyyətli, ilk növbədə, Azərbaycan xalqının milli maraqlarına cavab verən neft kəməri inşa edilir. İnşallah, 2005-ci ildə biz hamımız birlikdə onun istismara verilməsini qeyd edəcəyik.

Azərbaycanda Heydər Əliyevin sərəncamı əsasında Neft Fondu yaradılıbdır. İndi Azərbaycanın 1 milyard 400 milyon dollar valyuta ehtiyatı var. Halbuki 1993-cü ildə bu rəqəm sıfıra bərabər idi. Nə var idisə, onu da indi sizdən səs istəyən İsa Qəmbərov, Etibar Məmmədov və onlar kimiləri dağıtmışdılar, aparıb xarici banklarda öz hesablarına yerləşdirmişdilər.

Azərbaycan neft strategiyasının həyata keçirilməsini davam etdirəcəkdir. Bakı–Tbilisi–Ceyhan neft kəməri istismara veriləndən sonra Azərbaycan ildə 50 milyon ton neft ixrac etmək iqtidarında olacaq və bu da təkcə növbəti beş il ərzində ölkəyə 5 milyard dollar vəsait gətirəcəkdir. Əlbəttə ki, bu vəsaitlə Azərbaycanı hərtərəfli inkişaf etdirmək mümkün olacaq, yeni zavodlar, fabriklər, məktəblər, xəstəxanalar tikiləcək, yeni iş yerləri açılacaqdır. Yaxşı, müxalifətdən soruşmaq lazımdır ki, axı siz bu ölkəni dağıdırdınız, siz vətəndaş müharibəsini başlamışdınız, siz Bakıda hakimiyyət uğrunda mübarizə apararkən Dağlıq Qarabağda torpaqlarımız əldən gedirdi. Heydər Əliyev sizə indiki bütün bu şəraiti yaratdı. Nəyə görə yaratdı? Yaratdı ki, siz yenidən gəlib dağıdasınız?! Heç vaxt bu olmayacaq, Azərbaycan xalqı öz seçimini edib və bu seçimə də sadiq qalacaqdır.

Biz imkan verməməliyik ki, səriştəsiz, bacarıqsız insanlar, Vətənə xəyanət etmiş insanlar yenidən hakimiyyətə gəlsinlər və mən əminəm ki, Azərbaycan xalqı buna imkan verməyəcək, Heydər Əliyevin siyasətini dəstəkləyəcək və oktyabrın 15-də bu siyasətə səs verəcəkdir.

Bizim planlarımız genişdir, çoxdur. Qarşıda duran məsələlər həll olunmalıdır. Mən qeyd elədim ki, Azərbaycan çox sürətlə inkişaf edir. Azərbaycanda sosial məsələlər öz həllini tapır, o cümlədən əhalinin təbii qazla, elektrik enerjisi ilə təminatı yaxşılaşmışdır. Bundan sonra daha da yaxşı olacaqdır. Növbəti beş il ərzində hər biri 400 meqavat gücündə iki elektrik stansiyası tikilib istifadəyə veriləcəkdir. Ondan sonra respublikada, ümumiyyətlə, elektrik enerjisi ilə bağlı heç bir problem olmayacaqdır. Əksinə, Azərbaycan elektrik enerjisini ixrac edə biləcəkdir.

Təbii qazın idxalı davam edəcəkdir. Biz bu məqsədlər üçün böyük həcmdə vəsait xərcləyirik. Amma bunu etməliyik ki, bu sahədə də heç bir problem olmasın. Digər məsələlər də öz həllini tapmalıdır. Amma bütün bu görülən işlərlə, qazanılan uğurlarla yanaşı, əlbəttə ki, Azərbaycanda böyük problemlər də

var. Biz bunu bilirik. Mən demək istəmirəm ki, Azərbaycanda hər şey öz qaydasındadır. İlk növbədə, qeyd etdiyim kimi, biz sosial məsələlərə daha çox diqqət göstərməliyik. İnsanlara daha böyük diqqət göstərməliyik. Bəzi hallarda müxtəlif məmurlar bu işdə lazımi səviyyədə fəaliyyət göstərmirlər, müraciətlərə, ərizələrə biganə yanaşırlar. Mən dəfələrlə bunu demişəm. Son on gün ərzində respublikanın müxtəlif bölgələrində olarkən çoxlu sayda ərizələr, məktublar almışam. Deyə bilərəm ki, keçmişdə də belə olubdur. Keçmişdə həm Azərbaycan Dövlət Neft Şirkətinə, Milli Məclisə, Milli Olimpiya Komitəsinə mənim adıma yüzlərlə, bəlkə də minlərlə ərizə və məktublar göndərilmişdir. Hər bir məktuba reaksiya verilmiş, hər bir məktuba cavab göndərilmiş, aidiyyəti orqanlara göstərişlər verilmişdir. Bu proses davam edir.

Son 8-10 gün ərzində bölgələrdə mənə verilən bütün ərizələrə operativ qaydada baxılır və deyə bilərəm ki, onların 90 faizi öz müsbət həllini tapacaqdır. Bunu ona görə deyirəm ki, burada da mənə ərizələr verilibdir. Mən sizi əmin edirəm ki, bunlara da baxılacaqdır. Əgər bu ərizə mənə verilirsə, o deməkdir ki, yerlərdə bu məsələ öz həllini tapmır. Düzdür, ola bilər ki, bu məsələ yerli orqanlar tərəfindən həll oluna bilməz. Bunu mərkəzi orqanlar həll edə bilərlər. Ərizələrin əksəriyyəti də bu məzmundadır. Amma bununla yanaşı, mən Azərbaycanda vəzifədə çalışan, işləyən insanlara müraciət edib demək istəyirəm ki, daha diqqətli olmaq lazımdır. Biz vəzifədə ona görə oturmuşuq ki, xalqa xidmət edək.

Misal üçün, mən öz vəzifəmi belə başa düşürəm. Bunu mənə, nəinki mənə, bütün Azərbaycan xalqına Heydər Əliyev öz nümunəsi ilə göstəribdir. Biz hamımız, vəzifədə olan şəxslər, dövlət orqanlarında çalışan şəxslər ilk növbədə, insanların problemləri ilə məşğul olmalıyıq. Mən şəxsən bu yoldayam və bütün dövlət orqanlarında, hakimiyyət orqanlarında işləyən insanları bu yola dəvət edirəm. Əgər hamımız belə hərəkət etsək, Azərbaycanda heç bir problem qalmayacaq, insanlarımız daha rahat, firavan yaşayacaqlar.

Əziz lənkəranlılar!

Mən gözəl bilirəm ki, lənkəranlılar Azərbaycanın müstəqilliyi uğrunda, ərazi bütövlüyünün qorunması uğrunda böyük işlər görmüş, itkilər vermiş, şəhidlər vermişlər. Lənkəranlılar mərd insanlardır. İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov kimi mərd oğulun davamçılarıdır. Mən buna görə sizə minnətdarlığımı bildirirəm. Əminəm ki, gələcəkdə də biz hamımız birlikdə Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirəcəyik.

Mən bu barədə dedim, bir daha demək istəyirəm. 2001-ci ildə Lənkəranda olarkən bəyan etmişdim ki, sizin üçün gözəl idman kompleksini tikəcəyik və onun açılışında iştirak edəcəyəm. Görürsünüz ki, həm tikdik, həm də açılışında iştirak edirəm. Deyə bilərəm ki, bu mənim təşəbbüsüm idi. Bəzi yerlərdə olarkən yerli camaat məndən xahiş edir, deyirlər ki, bizdə də tikin. İmkan daxilində biz bunu edəcəyik.

Azərbaycanın bütün bölgələrində, ondan sonra hər bir rayonda idman kompleksləri tikiləcəkdir. Amma Lənkəranda kompleksin tikilməsi haqqında qərarı şəxsən öz təşəbbüsümlə qəbul etmişdim. Çıxışlarımın birində qeyd etdim ki, həyat yerində durmur. Biz bu proqrama 2000-ci ildə başlamışdıq. O vaxt şərait başqa idi, indi imkanlarımız daha da artıbdır. Ona görə bəzi yerlərdə, rayonlarda bu komplekslərlə yanaşı, üzgüçülük hovuzu da tikilir. Mən sizə bir vəd də verirəm ki, burada üzgüçülük hovuzu tikiləcək, onun açılışında birlikdə iştirak edəcəyik.

Əziz lənkəranlılar!

Əziz astaralılar!

Əziz leriklilər!

Bu görüşə gəldiyinizə və mənə göstərdiyiniz səmimi münasibətinizə görə hamınıza öz təşəkkürümü bildirirəm. Sizi əmin etmək istəyirəm ki, mən Heydər Əliyevin siyasi xəttinə sadiq olacağam. Biz hamımız birlikdə Heydər Əliyevin siyasətini davam etdirəcəyik.

* * *

*Baş nazir İlham Əliyev daha sonra idman kompleksinin yaxınlığında inşa edilmiş müasir «Olimpik» mehmanxanası ilə tanış oldu. Həmin gün Lənkəran rayonunun Sütəmurdov kəndindəki «Beta» çay fabrikində də oldu.*

*Baş nazir İlham Əliyev oktyabrın 9-da Masallı və Cəlilabad rayonlarında da oldu, seçicilərlə görüşlər keçirdi.*

# UŞAQ BƏRPA MƏRKƏZİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ

*Bakı, Nərimanov rayonu*

*11 oktyabr 2003-cü il*

Hörmətli mərasim iştirakçıları!
Hörmətli xanımlar və cənablar!
Hörmətli qonaqlar!

Bu gün gözəl bir gündür. Bizim Azərbaycanda yeni bir tibb müəssisəsi, Uşaq Bərpa Mərkəzi açılır. Mən bu münasibətlə sizin hamınızı təbrik edirəm. Bu işdə bizə kömək edən Yaponiya hökumətinə və Avropa Birliyinə də öz minnətdarlığımı bildirirəm.

Son günlər ərzində ikinci dəfədir ki, mən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xətti ilə tikilib istifadəyə verilən obyektlərin açılışında iştirak edirəm. Bundan əvvəl, İsmayıllı rayonunda Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün tikilmiş evin istifadəyə verilməsində iştirak etmişdik. Bu gün isə buradayıq. Bu onu göstərir ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi çox böyük iş aparır, əlillərə, ehtiyac içində yaşayanlara kömək edir, böyük qayğı göstərir. Mən nazirliyin və cənab nazir Əli Nağıyevin xidmətlərini xüsusi qiymətləndirir və qeyd edirəm.

Azərbaycanda son illər ərzində görülən bütün işlər Heydər Əliyevin siyasətinin nəticələridir. Məhz onun siyasətinin nəticəsində Azərbaycanda sosial məsələlərin böyük əksəriyyəti öz həllini tapıbdır. Heç kəs üçün sirr deyil ki, Azərbaycan hələ iqtisadi cəhətdən o qədər də güclü ölkə deyildir. Azərbaycanın çox böyük problemləri var. O problemlərin həlli ilə bağlı biz böyük işlər görürük.

Bütün bu çətinliklərə baxmayaraq, Heydər Əliyevin siyasəti

nəticəsində əldə edilən uğurlar bizə imkan verir ki, Azərbaycanda ən çətin vəziyyətdə olan xəstələrə, xüsusilə uşaqlara böyük diqqət və qayğı göstərək. Bu bir daha onu göstərir ki, Azərbaycan Respublikası Prezidentinin siyasəti məhz xalqa xidmətə yönəldilmişdir. Bu siyasət bizə imkan verib ki, belə gözəl, lazımlı, xəstələrə kömək edəcək müəssisələr tikilsin, istifadəyə verilsin. Azərbaycanda bu siyasət davam edəcəkdir. Buna alternativ siyasət ola bilməz.

Mən öz çıxışlarımda dəfələrlə bəyan etmişəm ki, gələcək fəaliyyətimdə bu siyasəti rəhbər tutaraq, ilk növbədə, Azərbaycanda sosial məsələlərin həllində xalqın dəstəyinə arxalanaraq, çalışacağam ki, bu istiqamətdə daha gözəl işlər görə bilək. Əminəm ki, bu belə də olacaqdır. Əminəm ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu xeyirxah missiyanı bundan sonra da davam etdirəcək, Azərbaycanda çətin vəziyyətdə yaşayan insanlar üçün gözəl şərait yaradacaqdır.

Mən bilirəm ki, Azərbaycanın digər şəhərlərində də gözəl evlər tikilib istifadəyə verilibdir. Təəssüflər olsun ki, mən onların hamısında iştirak edə bilməmişəm. Halbuki, Əli müəllim mənə təklif etmişdi. Sadəcə, vaxt azlığından buna imkan olmadı. Amma hesab edirəm ki, gələcəkdə bütün belə gözəl tədbirlərdə iştirak edəcəyəm və insanlarımıza xidmət göstərəcək neçə-neçə belə müəssisə, obyekt, xəstəxana, bərpa mərkəzi açacağıq.

Uşaq Bərpa Mərkəzinin açılışı münasibətilə sizin hamınızı bir daha ürəkdən təbrik edirəm. Arzu etmək istəyirəm ki, burada çalışan həkimlər, mütəxəssislər uşaqlara yaxşı xidmət eləsinlər, qayğı göstərsinlər, kömək etsinlər. Əminəm ki, bu belə də olacaqdır. Xeyirli olsun, uğurlu olsun. Sağ olun.

## DÜNYA TAEKVONDO FEDERASİYASININ PREZİDENTİ, BEYNƏLXALQ OLİMPİYA KOMİTƏSİNİN VİTSE-PREZİDENTİ UN YONQ KİM İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*10 oktyabr 2003-cü il*

**İ l h a m  Ə l i y e v:** Sizi səmimi-qəlbdən salamlayıram. Sizin səfərinizin ölkəmizdə taekvondo idman növünün inkişafına təkan verəcəyini bildirirəm. Sizin dünyada idmanın inkişafındakı xidmətlərinizi yüksək qiymətləndirirəm.

**U n  Y o n q  K i m:** Səmimi qəbula görə təşəkkürümü bildirirəm. Azərbaycanda bir neçə il əvvəl olmuşam. Bu illər ərzində Azərbaycan idman sahəsində böyük tərəqqi əldə etmiş, taekvondo idman növünün inkişafını və daha çox populyarlıq qazandığını vurğulamaq istəyirəm.

Cənab Baş nazir, taekvondonun inkişafına göstərdiyiniz diqqət və qayğıya görə Sizə təşəkkürümü bildirirəm.

**İ l h a m  Ə l i y e v**: Xatırladım ki, ölkəmizdə taekvondo və boks idman növləri üzrə son illər böyük nailiyyətlər qazanılmışdır. Digər idman növləri də sürətlə inkişaf edir və artıq Azərbaycan idmançıları beynəlxalq turnirlərdə ölkəmizi layiqincə təmsil edirlər.

İdmanın inkişafını, xüsusilə Olimpiya oyunlarında qazanılmış uğurları Azərbaycanda iqtisadi-sosial sahədə əldə olunmuş tərəqqinin nəticəsi kimi dəyərləndirirəm. İdmançılara böyük qayğı və diqqət göstərilir. Məhz bunun nəticəsində gənclər və yeniyetmələr idmana daha çox həvəs göstərirlər.

**U n  Y o n q  K i m:** Cənab Baş nazir, açılışında iştirak etdiyim bu idman sarayının ən yüksək dünya standartlarına cavab verdiyini xüsusi vurğulamaq istəyirəm. Bu cür idman obyektinin istifadəyə verilməsi Azərbaycanda idmana göstərilən diqqət və qayğının bariz nümunəsidir.

İcazə verin, Azərbaycan idmanının, o cümlədən taekvon-

donun inkişafında xidmətlərinizə görə Sizə taekvondo üzrə 6-cı dan Qara kəmər və sertifikat, idman geyimini təqdim edim.

## AZƏRBAYCAN TAEKVONDO FEDERASİYASININ İDMAN SARAYININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ

*Bakı, Nərimanov rayonu*

*10 oktyabr 2003-cü il*

Hörmətli xanımlar və cənablar!

Əziz idmançılar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və taekvondo idman kompleksinin açılışı münasibətilə təbrik edirəm.

Bu gün Azərbaycana gəlmiş Dünya Taekvondo Federasiyasının prezidenti, eyni zamanda, Beynəlxalq Olimpiya Komitəsinin vitse-prezidenti cənab Un Yonq Kimi xüsusi salamlayıram. Siz Azərbaycana xoş gəlmisiniz!

Azərbaycanda taekvondo idman növü çox sürətlə inkişaf edir. Hər bir inkişafın da öz göstəriciləri vardır. İdmanda bu göstəricilər özünü daha açıq-aydın büruzə verir. Bu da medalların sayı ilə ölçülür.

Çox şadam ki, Azərbaycan taekvondoçuları ölkəmizin idman şöhrətini dünyada çox yüksək tuturlar. Azərbaycan Taekvondo Federasiyasının prezidenti Kəmaləddin Heydərovun çıxışında qazanılan uğurlar haqqında məlumat verildi. Hər şey göz qabağındadır. Amma deyə bilərəm ki, 2000-ci ilə qədər Azərbaycanda taekvondo idman növü o qədər də böyük nailiyyətlər əldə edə bilməmişdi. Biz, idmana rəhbərlik edən şəxslər də bu idman növü ilə 2000-ci ildə Sidneydə keçirilən yay Olimpiya oyunlarında yaxından tanış olduq. Gördük ki, idmanın bu növü bizdə çox məşhur olan karate idman növünə bənzəyir.

Belə fikir oyandı ki, biz də həmin idman növündə tanınmış mütəxəssisləri cəlb edək və olimpiya idman növü olan taekvondonu Azərbaycanda inkişaf etdirək. Bu məqsədlə, ilk

növbədə, federasiyanın tərkibi gücləndirildi, federasiyanın rəhbərliyinə Azərbaycanda tanınmış şəxslər gəldi və ondan sonra da inkişaf başlandı. İndi hər şey göz qabağındadır. Bu gün burada səsləndi və mən bunu bir daha demək istəyirəm ki, Azərbaycan MDB ölkələri arasında yeganə respublikadır ki, taekvondo idman növündə dünya çempionu vardır. Digər beynəlxalq yarışlarda, Avropa çempionatlarında, beynəlxalq birinciliklərdə idmançılarımız daim yüksək nəticələr qazanırlar. Mən əminəm ki, 2004-cü ildə keçiriləcək Olimpiya oyunlarında da idmançılarımız Vətənimizi ləyaqətlə təmsil edəcək, medallar uğrunda mübarizə aparacaqlar.

Taekvondonun Azərbaycanda inkişafı həm də ona görə mümkün olmuşdur ki, Dünya Taekvondo Federasiyasından bizə böyük dəstək, kömək var. Bu dəstəyə görə mən federasiyanın prezidenti cənab Un Yonq Kimə öz minnətdarlığımı bildirmək istəyirəm.

Siz bilirsiniz ki, Azərbaycanda taekvondo üzrə seçmə turnir, lisenziya turniri keçiriləcəkdir. Bu bir növ o deməkdir ki, Azərbaycanda Olimpiya oyunlarının bir hissəsi keçiriləcəkdir. Biz Dünya Taekvondo Federasiyasına və şəxsən onun prezidentinə minnətdarıq ki, bu turnir məhz Azərbaycanda keçiriləcəkdir. Əlbəttə ki, bu, Azərbaycanda taekvondo idman növünün daha da yayılmasına kömək göstərəcəkdir.

Mən əminəm ki, bu turnirdən sonra idman bölmələrinə uşaqların daha güclü axını hiss ediləcəkdir. Bu da bizim əsas məqsədimizdir. Əsas məqsədimiz budur ki, uşaqlarımız, gənclərimiz idmanla məşğul olsunlar, həm fiziki cəhətdən, həm də mənəvi cəhətdən sağlam olsunlar. Çünki idman sağlamlıq, sağlam həyat tərzi deməkdir. Bu istiqamətdə Azərbaycanda böyük işlər aparılır. 2000-ci ildən Azərbaycan Milli Olimpiya Komitəsi xüsusi proqram həyata keçirir və bunun nəticəsində bir neçə olimpiya idman kompleksi tikilib istifadəyə verilmişdir. Bu proses davam edir. Deyə bilərik ki, bu siyasətin birinci mərhələsi artıq başa çatmaq üzrədir.

Biz söz vermişdik ki, Azərbaycanın hər bir bölgəsində

idmanla məşğul olmaq üçün müasir şərait yaradılacaqdır. Bu belə də oldu. Artıq Azərbaycanın bütün bölgələrində idman kompleksləri tikilib, biz də bunların açılışlarında iştirak etmişik. Bundan sonrakı mərhələ, əlbəttə, bu prosesin davam etdirilməsindən ibarət olacaqdır. Azərbaycanın hər bir yerində idmanla məşğul olmaq üçün şərait yaradılmalıdır. Biz də bunu təmin edəcəyik.

Mən çox böyük məmnunluq hissi keçirirəm ki, artıq federasiyalar tərəfindən də belə komplekslərin tikilməsinə başlanmışdır. Azərbaycanın bir neçə idman federasiyası bu işlə məşğuldur və bu, uğurla davam etdirilir.

Bu gün açılışında iştirak etdiyimiz kompleks də məhz federasiyanın təşəbbüsü ilə bərpa olunub və artıq taekvondoçuların sərəncamına verilir. Bu, köhnə bir binadır. Bakı şəhərində bu binanı yaxşı tanıyırlar. Hamımız da yaxşı xatırlayırıq ki, bu bina çox yararsız vəziyyətə düşmüşdü, tamamilə dağılmaq ərəfəsində idi. Onu bərpa etdilər, müasir şəkildə təmir olundu, lazımi avadanlıq gətirildi və beləliklə, idmançılarımızın sərəncamına verilibdir. Bu bir daha onu göstərir ki, harada iradə, xoş niyyət varsa, orada iş görülməsi də mümkündür.

Ən böyük təbliğat, ən böyük nailiyyət real işin görülməsidir. Biz bu işi görürük. Bunu ona görə edirik ki, istəyirik Azərbaycanda idman kütləvi xarakter alsın. İdmanla məşğul olanların sayı artsın, Azərbaycan gəncləri, bütün xalqımız sağlam olsun. Mən əminəm ki, bu istiqamətdə işlər davam etdiriləcəkdir. Azərbaycanda idmana rəhbərlik edən qurumlar arasında həmrəylik, vahid strategiya var, biz vahid komanda şəklində fəaliyyət göstəririk. Sizə deyə bilərəm ki, beynəlxalq idman tədbirlərində iştirak edərkən, öz həmkarlarımızla, Beynəlxalq Olimpiya Komitəsinin rəhbərləri ilə görüşərkən dəfələrlə bildirilmişdir ki, Azərbaycan, bəlkə də, çox nadir ölkələrdən biridir ki, burada idmana rəhbərlik edən qurumlar arasında heç bir anlaşılmazlıq yoxdur. Təəssüflər olsun ki, bir çox ölkədə olimpiya komitəsi, nazirlik, federasiyalar arasında daim rəqabət aparılır. Azərbaycanda bu rəqabət yoxdur.

Azərbaycanda əməkdaşlıq, işbirliyi var. Çünki biz bir məqsədə qulluq edirik. O da ondan ibarətdir ki, Azərbaycanda idman inkişaf etsin.

Azərbaycanda bu inkişaf da var. Olimpiya oyunlarından sonra müxtəlif idman növlərində, o cümlədən taekvondoda dünya çempionlarımız olubdur. Bu proses davam edəcəkdir. Ona görə davam edəcəkdir ki, Azərbaycanda gənc nəsil yetişir. Azərbaycanda yeniyetmələrin, gənclərin idmanla məşğul olmasına diqqət göstərilir. Əgər biz yeniyetmələr arasında dünya və Avropa çempionatlarına nəzər salsaq görərik ki, ölkəmizin idmançıları orada da qabaqcıl yerlərdədirlər.

Bu o deməkdir ki, beş-on ildən, iyirmi ildən sonra Azərbaycan idmançıları ölkəmizi daim ləyaqətlə təmsil edəcəklər. Bu o deməkdir ki, başlanmış proses dönməz xarakter almışdır. Mən bu nəticələri görəndə, Milli Olimpiya Komitəsinin Prezidenti kimi, çox böyük məmnunluq hissi keçirirəm.

Biz 1997-ci ildə bu işlərə başlayanda bəziləri buna inanmırdı, qeyri-ciddi yanaşırdı. Amma biz bilirdik ki, düzgün yoldayıq. Bilirdik ki, görüləcək tədbirlər nəticəsində Azərbaycanda idman inkişaf edəcək və Azərbaycan dünyanın aparıcı idman ölkəsinə çevriləcəkdir.

Əziz dostlar!

Mən bu gözəl binanın, idman kompleksinin açılışı münasibətilə sizin hamınızı bir daha ürəkdən təbrik edirəm, idmançılarımıza yeni uğurlar, qələbələr arzulayıram. Sağ olun.

## SİYƏZƏNDƏ KƏRPİC ZAVODUNUN İSTİFADƏYƏ VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ ÇIXIŞ

*11 oktyabr 2003-cü il*

Əziz siyəzənlilər!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və bu gözəl zavodun açılışı münasibətilə ürəkdən təbrik edirəm.

Siyəzəndə bu zavodun yaranması həm rayonun, həm də Azərbaycanın gələcək iqtisadi inkişafı üçün çox mühüm bir hadisədir. Son illər ərzində Heydər Əliyevin apardığı iqtisadi siyasət burada da öz əksini tapıbdır. Bu siyasət çoxşaxəlidir, bir neçə istiqamətdən ibarətdir. Bütün bu istiqamətlər bu zavodun yaranmasında öz əksini tapır. Buraya həm sərmayə qoyulubdur, həm yeni iş yerləri açılıbdır, yerli istehsal sahələri yaradılıbdır. Eyni zamanda rayonun inkişafı da təmin olunur. Heydər Əliyevin iqtisadi siyasəti məhz bu amillərə söykənir.

Son illər ərzində aparılan işlər nəticəsində Azərbaycanın bir neçə bölgəsində belə gözəl, müasir standartlara cavab verən müəssisələr yaranır. Çox sevindirici haldır ki, bu müəssisədə də yeni iş yerləri açılır. İlkin mərhələdə 170 nəfər işlə təmin edilibdir. Gələcəkdə isə burada iş yerlərinin sayı 300-dən yuxarı olacaqdır. Bu bizim siyasətimizin əsas istiqamətlərindən biridir. Azərbaycanın hər bir bölgəsində, hər bir yerində yeni iş yerlərinin açılması zəruridir və bu istiqamətdə tədbirlər davam edir. Mən bu barədə dəfələrlə demişəm. Bir daha demək istəyirəm ki, gələcək hökumətin də siyasətinin öncül istiqaməti məhz iş yerlərinin açılması ilə bağlı olacaqdır.

Zavod bütün beynəlxalq standartlara cavab verir. Müasir avadanlıqla təchiz olunubdur. Eşitdiyimə görə, bu zavodun inşasında da yerli şirkətlər iştirak ediblər. Bu da bizi çox sevindirir. Çünki, əgər xatırlayırsınızsa, keçmişdə, 7-8 il bundan

əvvəl Azərbaycanda tikilən binaların, obyektlərin inşasında xarici şirkətlər iştirak edirdi. Yerli şirkətlərdə belə bir təcrübə yox idi. Amma bu illər ərzində Azərbaycan hərtərəfli inkişaf edir, o cümlədən inşaat sektoru da. Bu inkişafın nəticəsində bizim yerli şirkətlərimiz gözəl binalar, müasir zavodlar tikirlər.

Siyəzənin gələcək inkişafında bu müəssisə mühüm rol oynayacaqdır. Mən bilirəm ki, rayonda son illər ərzində böyük quruculuq, abadlıq işləri aparılıbdır. Bu da çox sevindirici haldır. Azərbaycanın hər bir bölgəsi, rayonu gərək abadlaşsın, orada quruculuq işləri aparılsın. Bunu etmək üçün imkan da, niyyət də var. Mən çox sevinirəm ki, Siyəzəndə də bu proses uğurla davam edir.

Siyəzən rayonunun iqtisadi inkişafı üçün digər tədbirlər də görülübdür. Uzun illər fəaliyyəti dayanmış Siyəzən broyler fabriki öz fəaliyyətini bərpa edibdir. İndi mənə verilən məlumata görə, fabrikdə 1300 nəfər işləyir. Bu bir daha onu göstərir ki, Azərbaycanda son illər ərzində aparılan siyasət, Heydər Əliyevin siyasəti öz gözəl nəticələrini verməkdədir.

Ötən əsrin 80-ci illərində bu fabrik məhz Heydər Əliyevin təşəbbüsü ilə yaranmışdır. Mən o günləri çox yaxşı xatırlayıram. O vaxt Heydər Əliyev Macarıstanda olarkən, buna bənzər fabriklə tanış olmuşdu. Ondan sonra, Bakıya qayıdarkən mərkəzi hökumətə, SSRİ-nin o vaxtkı rəhbərliyinə müraciət etmişdi ki, belə bir fabrik alınsın və Azərbaycana gətirilsin.

Siz bilirsiniz ki, o vaxt Azərbaycan müstəqil dövlət deyildi və bütün belə böyük miqyaslı işlər, layihələr gərək mərkəzdən həll olunaydı. Onun təkidi ilə bu məsələ öz müsbət həllini tapdı, fabrik Azərbaycana gətirildi. Məhz o vaxt Heydər Əliyevin göstərişləri əsasında bu fabrik Siyəzəndə quruldu.

1990-cı illərin əvvəlində Azərbaycan çox çətin dövrlərini yaşayırdı. Azərbaycanda hakimiyyətə gəlmiş insanların, ümumiyyətlə, iqtisadiyyatdan xəbəri yox idi, bu məsələ onları maraqlandırmırdı. Onları maraqlandıran bu idi ki, Azərbaycanda mövcud olan, pis-yaxşı işləyən obyektləri dağıtsınlar, özəlləşdirsinlər, avadanlığı xaricə satsınlar. Hamımız xatır-

layırıq ki, zavodlarda qurulan, demək olar, bütün avadanlıq xaricə satılmışdı. Eyni zamanda trolleybus xətləri də kəsilib xaricə satılmışdı. Çünki onun tərkibində mis var idi.

Biz o günləri xatırlayırıq. Məhz o hakimiyyətin fəaliyyəti nəticəsində Azərbaycanda zavodlar, fabriklər dayandı, iqtisadiyyat tənəzzülə uğradı, inflyasiyanın səviyyəsi 1600 faizə qalxdı. Amma indi inflyasiyanın səviyyəsi 2 faizdir. Azərbaycanın iqtisadiyyatı məhvə doğru gedirdi. Əlbəttə, o illərdə bu fabrikin də fəaliyyəti dayanmışdı. Məhz Azərbaycana sərmayələrin cəlb edilməsi istiqamətində aparılan siyasətin nəticəsində, sərmayəçilərə əlverişli şəraitin yaradılması, özəlləşdirmənin həyata keçirilməsi nəticəsində bu fabrikə vəsait qoyuldu, o, öz fəaliyyətini bərpa etdi.

Bayaq dediyim kimi, həm 1300 nəfər işlə təmin olunub, yaxşı maaş alır, həm də bu fabrikin məhsulları Azərbaycanda satılır. Nə üçün bizdə ola-ola, gündəlik tələbat məhsullarını xaricdən almalıyıq? Biz bunu Azərbaycanda istehsal etməliyik. Siyəzəndəki broyler fabriki də, kərpic zavodu da məhz bu məqsədlərə xidmət edir. Yerli istehsal yaranmalıdır ki, camaat burada buraxılan məhsulları alsın və istifadə etsin. Xüsusilə nəzərə alsaq ki, bu məhsullar ən yüksək dünya standartlarına cavab verir.

Azərbaycanda iqtisadi inkişafla yanaşı, sosial məsələlərə də böyük önəm verilir. Hökumət bu istiqamətdə əlindən gələni edir. Bilirsiniz ki, imkan yaranan kimi, ilk növbədə, sosial məsələlər həll edilir. Azərbaycan əhalisinin, demək olar ki, böyük əksəriyyəti təbii qazla təmin olunur. Elektrik enerjisinin verilməsində fasilələr, demək olar, ləğv edilmişdir. Bu istiqamətdə işlər davam etdiriləcək, Azərbaycanda növbəti beş ildə yeni elektrik stansiyaları tikiləcəkdir. Beləliklə, elektrik enerjisinin verilməsində heç bir problem olmayacaqdır. Təbii qazın da verilməsi tam təmin olunacaq və iki il bundan əvvəl başlanan proses davam etdiriləcəkdir.

Siyəzən rayonunda da sosial məsələlərin həlli istiqamətində işlər görülür. Qeyd olundu ki, uzun illər tikintisi dayandırılmış

xəstəxanada Dövlət Neft Şirkətinin vəsaiti hesabına təmir-bərpa işləri, demək olar, başa çatıbdır. İndi yeni müasir avadanlıqla təmin ediləcəkdir. Üçmərtəbəli binadır və siyəzənlilərə yaxşı xidmət göstərəcəkdir. Biz bu sahəyə də böyük diqqət göstərməliyik.

Azərbaycan iqtisadi cəhətdən güclənir və yaxın gələcəkdə öz iqtisadi potensialına görə nəinki regionda, eyni zamanda daha böyük miqyasda aparıcı ölkəyə çevriləcəkdir. Bizdə bütün imkanlar var. Amma bununla yanaşı, gərək insanlarımızın, vətəndaşlarımızın həyat səviyyəsi də yaxşılaşsın. İlk növbədə, təhsil, səhiyyə sistemlərində, insanların gündəlik təmasda olduğu sahələrdə yaxşı nəticələr olsun. İndi bu nəticələri görürük və burada istifadəyə veriləcək xəstəxana da məhz bu məqsədlərə xidmət edəcəkdir.

Siyəzən neft rayonudur. Siz məndən yaxşı bilirsiniz ki, Siyəzən rayonunun iqtisadiyyatının əsasını təşkil edən neft sənayesidir və onun inkişafına da diqqət göstərilir. Ümumiyyətlə, neft sənayemizin inkişafı hamımızın gözünün qabağındadır. 1994-cü ildə imzalanan ilk neft müqaviləsi bizə imkan verib ki, Azərbaycan öz strategiyasını uğurla irəliyə aparsın. Bu strategiyanın nəticəsində Azərbaycana milyardlarla sərmayə qoyulubdur. Adambaşına düşən xarici sərmayəyə görə Azərbaycan MDB ölkələri arasında birinci yerdədir. Bir neçə Şərqi Avropa ölkəsini qabaqlayır.

Neft sektoruna qoyulan böyük həcmdə sərmayələr Azərbaycanda bu sahədə fəaliyyət göstərən insanlarımızın həyat səviyyəsini qaldırıbdır. 10 minlərlə yeni iş yerləri açılıbdır. Azərbaycanda yeni neft infrastrukturu yaradılıbdır. Qazma qurğuları, platformalar, neft kəmərləri və s. Bakı–Tbilisi–Ceyhan neft ixrac kəməri inşa edilir. Bütün çətinliklərə, maneələrə baxmayaraq, Heydər Əliyevin cəsarəti, siyasəti bu neft kəmərinin tikilməsini də təmin edibdir. Yaxın gələcəkdə o, istifadəyə veriləcəkdir. Beləliklə, bu mərhələdə Azərbaycanın qarşısında duran bütün məsələlər öz həllini tapacaqdır.

Bu siyasəti Azərbaycanda Heydər Əliyev aparıbdır və aparır.

Ona görə yaşasın Azərbaycanın əbədi Prezidenti, milli lideri Heydər Əliyev!

Biz, bu işlərlə məşğul olan şəxslər, sadəcə, bu siyasətin həyata keçirilməsində ona kömək göstərmişik, onun yanında olmuşuq, bizə tapşırılan bütün vəzifələrdə çalışmışıq ki, onun etimadını doğruldaq. Çox şadam ki, biz buna müvəffəq olduq. Bizə tapşırılan bütün vəzifələri ləyaqətlə yerinə yetirdik və görülən işlər də göz qabağındadır.

Azərbaycanı çox gözəl gələcək gözləyir. Azərbaycanda yeni iş yerləri açılacaqdır. Bu gün mənə məlumat verildi ki, bu məsələ Siyəzən rayonunda həllini tapıbdır. İş yerlərinin açılmasına daha ehtiyac varmı? Bir az var. Lakin mənə verilən məlumata görə, artıq burada bu problem o qədər də ciddi deyildir. Amma başqa regionlarda bu problem mövcuddur və insanlarımızı incidir. Biz bu istiqamətdə işlərimizi aparacağıq və əminəm ki, Azərbaycan xalqı yaxın gələcəkdə bunun nəticələrini görəcəkdir.

Böyük planlarımız var, böyük perspektivlərimiz, gələcəyimiz var. Bunu həyata keçirmək üçün, qarşımızda duran planları reallaşdırmaq üçün Azərbaycanda Heydər Əliyevin siyasəti davam etməlidir. Azərbaycan xalqı öz seçimini edibdir. 1993-cü ildə bu siyasətə öz səsini veribdir. Əminəm ki, növbəti seçkilərdə də bu siyasətə səs verəcəkdir. İndi bu siyasətə alternativ yoxdur, ola da bilməz. Hər bir alternativ siyasət Azərbaycana böyük faciələr gətirə bilər. Azərbaycanda yenə vətəndaş müharibəsi təhlükəsi yarada bilər, ölkəmiz yenə xaosa, anarxiyaya düçar ola bilər. Biz buna imkan verməməliyik. Azərbaycan xalqı buna imkan verməyəcəkdir. Azərbaycan xalqı yaxşını pisdən çox gözəl ayıra bilir.

Bu gün bəzi tədbirlərdə Azərbaycan xalqına müraciət edib yalan vədlər verənlərə də, təbii ki, heç bir inam yoxdur. Ona görə inam yoxdur ki, onların sözləri də yalandır, əməlləri də yalandır. Hakimiyyətdə olan dövrdə məhz bu adamlar Azərbaycanı dağıdırdılar, talan edirdilər, qardaş qanı tökürdülər. Ona görə Azərbaycan xalqı onlara "Yox!" deyib.

Onların bir daha hakimiyyətə gəlməsi mümkünsüzdür. Azərbaycan xalqı Heydər Əliyevi dəstəkləyir, onun siyasətini dəstəkləyir və bundan sonra da dəstəkləyəcəkdir.

Biz Heydər Əliyevin siyasətini davam etdirəcəyik, Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirəcəyik. Bizdə bütün imkanlar var. Bu gün burada istifadəyə verilən bu zavod bir daha göstərir ki, bizim əsas məqsədimiz Azərbaycanın hər bir rayonunu, hər bir bölgəsini inkişaf etdirməkdir.

Keçid dövrünü yaşayan ölkələrin hansında inkişaf varsa – deyə bilərəm ki, bizimlə qonşu olan bir çox ölkədə bu inkişaf hiss olunmur – ilk növbədə, o ölkələrin mərkəz şəhərləri, paytaxtları, yaxud böyük şəhərləri inkişaf edir. Kiçik şəhərlər, rayonlar o qədər də inkişaf etmir. Amma biz istəyirik ki, Azərbaycanın hər bir bölgəsi, lap ən balaca, kiçik kəndi, qəsəbəsi, rayonu da inkişaf etsin. Orada insanlar rahat yaşasınlar, yaxşı maaş alsınlar, uşaqlara yaxşı tərbiyə verə bilsinlər. Xəstəxanalarda yaxşı müalicə olunsunlar, yaxşı məktəblərdə oxusunlar, müasir müəssisələrdə işləsinlər. Bizim məqsədimiz budur. Əminəm ki, bu, bütövlükdə Azərbaycan xalqının məqsədidir və amalıdır. Bizdən asılı olan isə bunu həyata keçirməkdir. Bunu həyata keçirmək üçün də xalqın dəstəyi, inamı lazımdır. Biz bu dəstəyi, inamı hiss edirik, buna arxalanırıq. Bu dəstəyi hiss edərək işlərimizi davam etdirəcəyik.

Əziz siyəzənlilər, yeni istifadəyə verilmiş bu gözəl müəssisənin açılışı münasibətilə sizin hamınızı bir daha ürəkdən təbrik edirəm. Sizə cansağlığı, uğurlar, xoşbəxtlik arzulayıram. Sağ olun.

## QUBA OLİMPİYA İDMAN KOMPLEKSİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ

*11 oktyabr 2003-cü il*

Əziz qubalılar!
Əziz qusarlılar!
Əziz xaçmazlılar!

Mən sizin hamınızı salamlayıram, bu görüşə gəldiyinizə görə sizə öz təşəkkürümü bildirmək istəyirəm. Sizin hamınızı burada istifadəyə verilmiş gözəl Olimpiya İdman Kompleksinin açılışı münasibətilə ürəkdən təbrik edirəm.

Mən bu gün kompleksin açılışında bizimlə bərabər iştirak edən qardaş Dağıstandan gəlmiş dostlarımızı – hörmətli Səid Camaloviç Qurbanovu və hörmətli Qurban Qurbanovu salamlamaq istəyirəm. Siz Azərbaycana xoş gəlmisiniz! Səid Camaloviç möhtərəm cənab Prezidentimizin köhnə, çox etibarlı dostudur. Onlar 40 ildən çoxdur ki, dostluq edirlər, bir-biriləri ilə əlaqə saxlayırlar. Dəfələrlə görüşmüşlər, bütün məsələləri müzakirə etmişlər və əlbəttə ki, Azərbaycanla Dağıstan arasında, Azərbaycanla Rusiya arasında olan mehriban dostluq münasibətlərinin qurulmasında da onların müstəsna xidmətləri vardır. Fürsətdən istifadə edərək, bu işdə göstərdiyi xidmətlərə görə hörmətli Səid Camaloviçə öz təşəkkürümü bildirmək istəyirəm. Sağ olun.

Dağıstan və Azərbaycan xalqları daim birlikdə olublar, bir-birilərinə daim kömək ediblər. Bu bütün dövrlərdə belə olubdur. Keçmiş dövrlərdə – burada Qurban müəllim dedi, – Dağıstan xalqları üçün ən çətin dövr olan Böyük Vətən müharibəsi zamanı mənim babam Əziz Əliyev Dağıstana rəhbərlik edərkən böyük xidmətlər göstərib və mən dağıstanlılara minnətdaram ki, onun xidmətlərini unutmayıblar. Biz bütün dövrlərdə qardaş olmuşuq. Çox şadam ki, Azərbaycan, Rusiya müstəqil dövlət olandan sonra bu əlaqələr davam edir, genişlənir, güclənir.

Əlbəttə ki, bu işdə Dağıstan Respublikası Dövlət Şurasının sədri hörmətli Məhəmmədəli Məhəmmədovun böyük xidmətləri var. Bizim cənab Prezidentimiz və Məhəmmədəli müəllim daim ünsiyyət saxlayaraq, bütün məsələləri operativ şəkildə həll edirdilər. Bu fürsətdən istifadə edərək, mən Dağıstandan gələn nümayəndələrdən xahiş etmək istəyirəm ki, cənab Məhəmmədəli Məhəmmədova bizim ən xoş arzularımızı, səmimi salamlarımızı çatdırsınlar.

Bu gün Azərbaycanın idman həyatında çox əlamətdar bir gündür, Quba şəhərində yeni müasir Olimpiya idman kompleksi istifadəyə verilir. Bu, Azərbaycanda son illər ərzində bu istiqamətdə aparılan işlərin məntiqi davamıdır. Bilirsiniz ki, Milli Olimpiya Komitəsinin təşəbbüsü ilə Azərbaycanın müxtəlif bölgələrində olimpiya kompleksləri tikilmişdir. Onların bir neçəsi son on gün ərzində istifadəyə verilmişdir. İndi isə Qubada tikilib istifadəyə verilmiş kompleksi də biz bu gün sizinlə bərabər açırıq. Bunlar nəinki idmanın, ümumiyyətlə, Azərbaycanın hərtərəfli inkişafı üçün çox mühüm işlərdir. Belə komplekslərin yaradılması gənclərimizi idmana daha da yaxınlaşdıracaqdır. İdmanla məşğul olmaq üçün gözəl şərait yaradılacaqdır. Bizim məqsədimiz budur. İstəyirik ki, Azərbaycanın hər bir uşağı, gənci idmanla məşğul olsun. Məşğul olmaq üçün də biz gözəl şərait yaradırıq və görürük ki, uşaqların idman bölmələrinə axını daha da sürətlənir. Gələcəkdə Azərbaycanda idman daha da kütləvi xarakter alacaqdır.

Mən dəfələrlə bəyan etmişəm və bu gün bir daha bildirirəm – Milli Olimpiya Komitəsinin əsas vəzifəsi budur ki, Azərbaycanda sağlam gənc nəsil yetişsin, sağlam gənclərimiz olsun. Bu istiqamətdə işlərimiz davam edəcəkdir.

Heç kəs üçün sirr deyil ki, idman hər bir ölkənin ictimai həyatında da mühüm rol oynayır, ölkəni tanıdır, xaricdə təqdim edir. Elə ölkələr var ki, onlar ancaq idmanda əldə olunan nəticələrə görə dünyada tanınırlar. Amma Azərbaycan dünyada həm də öz qədim tarixi, mədəni irsi, nailiyyətləri ilə tanınır. Öz lideri Heydər Əliyev ilə tanınır. O cümlədən, idmançılarımız da

Azərbaycanı dünyada tanıdırlar. İdmançılarımızın beynəlxalq yarışlarda, dünya və Avropa çempionatlarında, Olimpiya oyunlarında qazandıqları yüksək nəticələr, əlbəttə, hər bir Azərbaycan vətəndaşını, o cümlədən Milli Olimpiya Komitəsinin Prezidenti kimi, məni də çox sevindirir.

Bu kompleks bir neçə vəzifəyə xidmət edəcəkdir. Bu çox möhtəşəm bir kompleksdir. Burada həm qapalı idman salonu, qapalı hovuz, stadion, idman meydançaları, otel, kotteclər, digər infrastruktur yaradılıbdır. Yəni bu kompleks, eyni zamanda bu bölgədə turizmin inkişafına xidmət göstərəcəkdir. Mən bilirəm ki, turizm baxımından bu bölgə, bu zona, xüsusilə Quba şəhəri, rayonu çox məqbul bir yerdir. Buranın çox gözəl təbiəti var. Əgər bu bölgədə turizmin inkişafına nail ola bilsək, əlbəttə ki, bu, həm rayonun sosial-iqtisadi vəziyyətinə müsbət təsir göstərəcək, həm də yeni iş yerlərinin açılmasına gətirib çıxaracaqdır. Bizim məqsədimiz budur. Mən əminəm ki, gələcəkdə bu kompleks beynəlxalq mərkəz şəklini alacaqdır.

Baxmayaraq ki, kompleks yenicə açılır, amma mənə verilən məlumata görə, artıq müxtəlif ölkələrdən sifarişlər daxil olmağa başlayıbdır: həm idmançılar burada təlim-məşq toplantıları keçirmək istəyirlər, həm də burada istirahət etməyi arzulayan insanlar sifarişlərini göndərirlər. Görərsiniz, bu kompleks işə başlayandan sonra turistlər, xarici ölkələrin nümayəndələri buraya gəlməyə başlayandan sonra, əlbəttə ki, rayonun bütün infrastrukturu bundan xeyir götürəcəkdir. Amma biz istəyirik ki, bu kompleksdən ilk növbədə yerli idmançılar, uşaqlar, gənclər çox səmərəli istifadə etsinlər. Əminəm ki, belə də olacaqdır. Heç kəs üçün sirr deyil ki, idman Azərbaycanda sürətlə inkişaf edir və respublikamız artıq aparıcı idman ölkələrinin birinə çevrilibdir. İdmanın inkişafı üçün ən mühüm amil odur ki, ölkədə sabitlik, inkişaf olsun. Bu sabitliyi Azərbaycana Heydər Əliyev siyasəti veribdir.

Müstəqillik əldə edildikdən sonra Azərbaycan çox böyük çətinliklərlə üzləşmişdi. Azərbaycana rəhbərlik edənlərin səriştəsizliyi nəticəsində ölkəmiz dağılırdı. Xalqın tələbi ilə Heydər

Əliyev rəhbərliyə gələndən sonra Azərbaycanda iqtisadi böhrana son qoyuldu və inkişaf başladı. Çox qısa müddətdə bu inkişaf bütün sahələrdə özünü açıq-aydın göstərdi.

Bu bölgənin inkişafı üçün tədbirlər planı hazırlanır. Tədbirlər planının tərkib hissəsi olaraq, yerli istehsal sahələrinin yaradılması nəzərdə tutulubdur. Bu yaxınlarda mən Xaçmaz rayonunda yeni, müasir standartlara uyğun şəkildə tikilmiş konserv zavodunun açılışında iştirak etmişdim. Bu gün buraya gələrkən Qubada bir neçə ildir ki, fəaliyyət göstərən konserv zavoduna baş çəkdim. Orada istehsal edilən məhsullarla tanış oldum və çox sevindim ki, Azərbaycanın mərkəzində yox, onun bölgələrində ən müasir müəssisələr tikilmişdir. Bu onu göstərir ki, Heydər Əliyev siyasəti Azərbaycana artıq böyük xeyirlər verir. Bizim hamımızın məqsədi ondan ibarət olmalıdır ki, bu siyasət Azərbaycanda davam etdirilsin. Azərbaycan xalqı imkan verməməlidir ki, 1992-1993-cü illərdə iqtisadiyyatını dağıdan, təbii sərvətlərini talayan, ölkəmizdə vətəndaş müharibəsini başlayan, qardaş qanı tökən insanlar yenidən hakimiyyətə gəlsinlər. Bu, Azərbaycan xalqı, dövlətçiliyi, müstəqilliyi üçün böyük faciə ilə nəticələnə bilər. Azərbaycan xalqı bunu çox gözəl dərk edir. Çünki heç nə və heç kim unudulmayıbdır. O qara günləri heç kəs bir də yaşamaq istəmir.

Biz gələcək haqqında, gələcək nəsillər barədə düşünməliyik. Azərbaycanı daha da möhkəmləndirməliyik. Azərbaycan hər cəhətdən qüdrətli dövlətə çevrilməlidir və çevriləcəkdir. Bunu etmək üçün yeganə vasitə odur ki, Azərbaycanda Heydər Əliyevin siyasəti davam etdirilsin. Mən əminəm ki, həmişə olduğu kimi, yenə də Azərbaycan xalqı bu siyasəti dəstəkləyəcək və Heydər Əliyev siyasətinə səs verəcəkdir.

Mən son günlər ərzində Azərbaycanın, demək olar ki, bütün bölgələrinə getmişəm, vəziyyətlə tanış olmuşam. Əlbəttə, mənim arzum vardı ki, seçkilərə qədər Azərbaycanın hər bir rayonuna gedim. Lakin vaxt azlığından buna imkan olmadı. Amma o yerlərə ki getməmişəm, söz verirəm, seçkilərdən sonra həmin rayonlara gedəcəyəm. Yəni, qoy o rayonların camaatı

məndən inciməsin, mən onlara da diqqət göstərəcəyəm. Sadəcə, vaxt azlığından gedə bilməmişəm. Azərbaycanın hər bir bölgəsi, yeri, rayonu mənim üçün əzizdir və doğmadır. Bu, Heydər Əliyevin siyasətidir, mən də bu siyasəti davam etdirəcəyəm.

Azərbaycanda sosial məsələlər öz həllini tapır. Bu istiqamətdə böyük işlər görülmüşdür. Maaşlar, pensiyalar artırılır, yeni məktəblər tikilir, xəstəxanalar istifadəyə verilir. Bu proses davam edəcəkdir.

Ölkəmizin iqtisadi potensialı güclənibdir. Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsi nəticəsində Azərbaycanda güclü potensial yaranıbdır. Bu potensial gələcəkdə daha da güclənəcəkdir. Bu, Bakı–Tbilisi–Ceyhan neft kəməri istismara veriləndən sonra baş verəcək, Azərbaycana daha böyük həcmdə vəsait daxil olacaqdır. İnsanlarımız daha da yaxşı yaşayacaqlar. Yeni iş yerləri açılacaqdır. İş yerlərinin açılması öncül məsələdir, buna böyük diqqət göstərilir. Son on gün ərzində bir neçə min iş yerinin açılması ilə əlaqədar mən müəyyən bölgələrdə tədbirlərdə olmuşam, yeni zavodların, fabriklərin açılışında iştirak etmişəm. Vaxtilə işləyən, sonradan fəaliyyəti dayanmış müəssisələrin bərpa olunması prosesini müşahidə etmişəm. Görürəm ki, Azərbaycanda iş yerlərinin açılması istiqamətində böyük tədbirlər görülüb və gələcəkdə də görüləcəkdir. Bunu etmək üçün, əlbəttə, sərmayə qoyulmalıdır. Bax, bu kompleksin, konserv zavodunun, digər infrastruktur obyektlərinin tikintisinə sərmayə qoyulubdur. Sərmayə o yerə qoyulur ki, sərmayədar orada özünü rahat hiss edir. O bilir ki, qoyduğu sərmayəyə gələcəkdə heç kəs göz dikməyəcəkdir. Əlbəttə ki, Azərbaycanda mövcud olan vəziyyət, sabitlik sərmayədarları daha da ruhlandırır. Ən önəmlisi budur ki, əgər onlarda gələcəyə inam olmasaydı, şübhəsiz, öz vəsaitlərini risk altında qoymazdılar, Azərbaycana sərmayə sərf etməzdilər.

Çox sevinirəm ki, sərmayələr qeyri-neft sektoruna qoyulur. Biz neft sektoruna sərmayə qoyuluşunu təmin etmişik. 1994-cü ildən bu işlə məşğuluq, nəticələr də göz qabağındadır. Qeyri-

neft sektorunun inkişafı üçün, əlbəttə ki, buraya da sərmayə qoyulmalıdır. Biz Azərbaycana sərmayə gətirilməsi istiqamətində fəaliyyətimizi bundan sonra da davam etdirəcəyik.

Mən də sərmayədarların fikrinə şərikəm, mən də Azərbaycanın gələcəyinə inanıram. Mən də əminəm ki, Azərbaycanda bu sabitlik, ictimai-siyasi asayiş qorunacaq, ölkəmiz inkişaf edəcəkdir. Çünki Azərbaycan xalqının tələbi bundan ibarətdir. Əminəm ki, xalqımızın böyük əksəriyyəti oktyabrın 15-də öz seçimini edəcəkdir, Heydər Əliyev siyasətinə səs verəcəkdir. Azərbaycan xalqı Heydər Əliyev siyasətinə səs verməklə sabitliyə, sülhə, əmin-amanlığa, iqtisadi inkişafa, ölkəmizin gələcəyinə səs vermiş olacaqdır. Bizim hamımız istəyirik ki, Azərbaycan qüdrətli, zəngin dövlətə çevrilsin. Bunu etmək üçün bizdə bütün imkanlar, zəngin təbii sərvətlər var və bu sərvətlərdən indi səmərəli istifadə olunur. Azərbaycanın çox güclü insan potensialı var, peşəkar mütəxəssislər var və Azərbaycan rəhbərliyində qarşıda duran bütün məsələləri həll etmək üçün möhkəm iradə var. Biz xalqla birlikdə Azərbaycanı inkişaf etdirəcəyik, ölkəmizi zəngin, qüdrətli dövlətə çevirəcəyik.

Əziz bacılar və qardaşlar!

Əziz qubalılar!

Əziz xaçmazlılar!

Əziz qusarlılar!

Bu mərasimə gəldiyinizə görə hamınıza öz təşəkkürümü bildirmək istəyirəm və sizi əmin edirəm ki, mən Heydər Əliyevin siyasi xəttinə sadiq olacağam. Heç bir qüvvə məni bu yoldan döndərə bilməz.

Yaşasın Heydər Əliyev!

Yaşasın müstəqil Azərbaycan!

Mən çıxışımın əvvəlində Dağıstandan gəlmiş qardaşlarımızı – hörmətli Səid Camaloviçi, Qurban müəllimi salamladım. Bu

gün bu tədbirdə Dağıstanın hörmətli rəhbəri, Dövlət Şurasının sədri Məhəmmədəli Məhəmmədovun oğlu iştirak edir, mən onu da salamlayıram.

## RESPUBLİKA ƏLVAN METALLURGİYA SƏNAYESİNİN ƏN İRİ OBYEKTLƏRİNDƏN BİRİ – "AZƏRBAYCAN ALÜMİNİUMU" SƏHMDAR CƏMİYYƏTİNİN SUMQAYIT ƏLVAN METAL MÜƏSSİSƏSİNİN ƏMƏKÇİLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*12 oktyabr 2003-cü il*

Əziz sumqayıtlılar!

Əziz xanımlar və cənablar!

Sizi ürəkdən salamlayıram. Bu gün Azərbaycanın iqtisadi həyatında çox əlamətdar bir gündür. Sumqayıt alüminium zavodu öz fəaliyyətini bərpa edir. Bu münasibətlə mən sizin hamınızı ürəkdən təbrik edirəm. Bu doğrudan da mühüm və diqqətəlayiq bir hadisədir. Bu barədə çox sözlər demək olar. Amma ən gözəl sözlərdən daha da dəyərlisi bu mənzərədir. Bura nə vəziyyətdə idi, indi isə necədir. Mənə verilən məlumata görə, digər sexlər də yaxın gələcəkdə bərpa olunacaq, ən müasir standartlara cavab verəcəkdir. Bu bir daha onu göstərir ki, Azərbaycanda Heydər Əliyevin siyasəti davam edir və öz nəticələrini verməkdədir. Xüsusilə qeyri-neft sektorunun inkişaf etməsi Azərbaycanın gələcək inkişafı üçün mühüm bir amildir. Bildiyiniz kimi, neft sektorunda işlər çox yaxşıdır. Qarşımızda duran bütün proqramları vaxtında həyata keçiririk. Bununla bağlı heç bir problem yoxdur və əminəm ki, olmayacaqdır. On minlərlə yeni iş yerləri açılıbdır. Böyük infrastruktur obyektləri tikilibdir. Milyardlarla dollar sərmayə qoyulubdur. Yaxın gələcəkdə, Bakı–Tbilisi–Ceyhan neft kəməri istismara verildikdən sonra bütün Azərbaycan xalqı 1994-cü ildə nə qədər cəsarətli, düzgün addım atıldığını daha yaxşı hiss edəcəkdir.

Qeyri-neft sektorunun inkişafı bizim iqtisadi siyasətimizin əsas istiqamətidir. Çox sevindirici haldır ki, bu istiqamətdə də

inkişaf göz qabağındadır. İqtisadi İnkişaf nazirinin çıxışında Sumqayıtda görülən işlər haqqında məlumat verildi. Bu zavodda 650 adam işlə təmin olunubdur. Azərboru zavodunda 1200 nəfər adam işlə təmin edilibdir. Eşitdiyimə görə, Aşqarlar zavodunda 200-dən artıq, Sintetik-kauçuk zavodunda 100-dən artıq adam işlə təmin edilmişdir. Fəaliyyətini dayandırmış digər müəssisələr də işə salınır. Bu, çox mühüm amildir. Yeni iş yerlərinin açılması Azərbaycanda işsizliyin aradan qaldırılması istiqamətində atılan addımları daha da gücləndirəcəkdir. Mən əminəm ki, gələcəkdə Azərbaycanda işsizlik problemi olmayacaq və olmamalıdır.

Bizdə bütün imkanlar var. Təbii sərvətlərimiz var, iqtisadiyyatımız güclənir, insan potensialımız güclüdür və hökumətin xüsusi proqramı da vardır. Bu proqram artıq həyata keçirilir. Son 10-12 gün ərzində mən bölgələrdə olarkən yeni tikilib istifadəyə verilmiş bir neçə müəssisənin açılışında iştirak etmişəm. Bölgələrdə də bu proses gedir. Orada da yeni iş yerləri açılır, yeni zavodlar, fabriklər, sosial obyektlər inşa edilir. Beləliklə, Azərbaycan hərtərəfli inkişaf edir, yaxın gələcəkdə ölkəmiz iqtisadi cəhətdən güclü ölkəyə çevriləcəkdir.

Bu da öz növbəsində imkan verəcək ki, sosial məsələlərin həllinə daha böyük diqqət göstərilsin. Bu diqqət indi də göstərilir. Sumqayıtda da son müddət ərzində görülən tədbirlər nəticəsində, – əminəm ki, sakinlər də bunu hiss edirlər, - şəhərdə böyük abadlıq, quruculuq işləri gedir. Yerli icra oqranlarının çox gərgin fəaliyyəti nəticəsində Sumqayıt çox abadlaşıbdır. Böyük təmir işləri aparılır. Bəlkə bu, o qədər də mühüm məsələ deyil, amma mən qeyd etmək istəyirəm ki, mənə verilən məlumata görə, yaşayış binalarında 121 lift təmir edilibdir. Əlbəttə, bu, ölkənin iqtisadi həyatında mühüm məsələ deyil, lakin insanların rahatlığı üçün çox mühüm məsələdir. Harada lift varsa, gərək o işləsin. Əgər onu təmir etmək mümkündürsə, deməli, təmir olunmalıdır. Mən təəssüflə demək istəyirəm ki, keçmişdə bu məsələlərə diqqət lazımi səviyyədə deyildi. Amma hökumətdə olanların, icra orqanlarının birinci

vəzifəsi ondan ibarətdir ki, insanlara, vətəndaşlarımıza daha yaxşı şərait yaratsınlar. Düzdür, elə məsələlər var ki, onlar qlobal xarakter daşıyır, çoxlu sərmayə, böyük layihələrin həyata keçirilməsi tələb olunur. Amma elə işlər də var ki, əgər insanın ürəyi yanırsa, rəhbərin ürəyi yanırsa, bunu etmək mümkündür. Bu, bəlkə də kiçik bir nümunədir. Amma özlüyündə bu nümunə göstərir ki, sosial məsələlərin həlli istiqamətində Sumqayıtda son dövr ərzində çox iş görülür. Mən bu işləri çox yüksək qiymətləndirirəm və yerli icra orqanlarına yeni-yeni uğurlar arzulayıram.

Azərbaycanın bütün bölgələrində sosial məsələlərin həllinə böyük diqqət göstərilir və göstəriləcəkdir. Bu, Azərbaycanın gələcəyi üçün lazımdır. Mən bilirəm ki, Sumqayıtda 60 mindən çox qaçqın və məcburi köçkün yerləşibdir.

Bilirsiniz ki, möhtərəm cənab Prezidentimizin fərmanları ilə məcburi köçkünlərin və qaçqınların yaşayış şəraitinin yaxşılaşdırılması üçün tədbirlər planı həyata keçirilir, yeni qəsəbələr salınır, yeni evlər tikilir. Biz də çalışacağıq ki, gələcəkdə də Azərbaycanda qaçqınlara və köçkünlərə köməyimizi əsirgəməyək. Əmin ola bilərsiniz ki, bu istiqamətdə işlər davam etdiriləcəkdir.

Amma, əlbəttə ki, bu məsələni əsaslı surətdə həll etmək üçün Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulmalıdır. Biz ümidlərimizi hələ kəsməmişik. Ümid edirik ki, danışıqlar prosesi nəticə verəcək və Azərbaycanın torpaqları azad olunacaqdır. Mən bunu dəfələrlə demişəm və indi də demək istəyirəm ki, bu münaqişənin həlli yalnız beynəlxalq hüquq normalarına əsaslanmalıdır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır, işğal altındakı bütün torpaqlar azad edilməlidir. Bunu etmək üçün bizim bütün imkanlarımız var. Beynəlxalq təşkilatlarda Azərbaycanın mövqeyi dəstəklənir, danışıqlar prosesində Azərbaycanın mövqeyi güclənir. Əlbəttə ki, Azərbaycanın iqtisadiyyatı da güclü olmalıdır ki, bu məsələdə də biz istədiyimiz nailiyyətləri əldə edə bilək.

Bu gün burada yenidən açdığımız bu gözəl müəssisə də onu

göstərir ki, Azərbaycan iqtisadiyyatı güclənir, güclü iqtisadi potensial yaranır.

Təkcə bu zavod ildə 100 min tondan çox yüksək keyfiyyətli alüminium istehsal edəcək və bu məhsul ixrac olunacaqdır. Mən bu gün sexlərə baxış keçirərkən maraqlandım ki, sovet vaxtındakı istehsal gücü nə qədər idi? Mənə dedilər ki, ildə 50 min ton istehsal edilirdi. İndi isə, hələlik 30 min ton təşkil edir və yaxın gələcəkdə 100 min ton və ondan sonra 175 min ton olacaqdır. Bəziləri daim müqayisə edirlər. O vaxt həyat səviyyəsi necə idi, indi necədir. Əlbəttə ki, o vaxt işsizlik də yox idi, başqa problemlər də yox idi, Azərbaycanın ərazi problemi də yox idi. Amma bununla yanaşı, biz müstəqil dövlət də deyildik. Bütün çətinliklərə baxmayaraq, bütün böhranlara baxmayaraq, ən böyük nailiyyət Azərbaycanın müstəqil bir ölkə olmasıdır. Biz bu müstəqilliyi bundan sonra da qorumalıyıq, Azərbaycanın dövlətçiliyini qorumalıyıq. Mən əminəm ki, müstəqilliyimiz gücləndikcə, iqtisadiyyatımız da güclənəcək və belə zavod və fabriklərin sayı çoxalacaqdır.

Sumqayıtda, Gəncədə, Bakıda və Azərbaycanın bütün bölgələrində yeni iş yerlərinin açılması istiqamətində bundan sonra da tədbirlər görəcəyik və Heydər Əliyevin siyasətinə daim sadiq qalacağıq. Bu siyasət Azərbaycana lazımdır, Azərbaycan xalqı bu siyasəti dəstəkləyir və mən əminəm ki, qarşıdan gələn prezident seçkilərində də öz sözünü deyəcəkdir.

Əziz dostlar, bu müəssisənin fəaliyyətinin bərpa edilməsi münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm, sizə uğurlar arzulayıram. Sağ olun.*

---

* Görüşdən xatirə olaraq, Baş nazirə üzərində "İlhamla irəli" və "Azəralüminium" sözləri yazılmış alüminium külçəsi hədiyyə edildi.

## AZƏRBAYCAN ZİYALILARI İLƏ GÖRÜŞDƏ AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

*12 oktyabr 2003-cü il*

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Mən, ilk növbədə, sizin hamınızı salamlamaq və bu görüşə gəldiyinizə görə sizə öz minnətdarlığımı bildirmək istəyirəm. Bu gün mənim ünvanıma çox dəyərli, xoş sözlər deyildi. Bu mənim üçün çox xoşdur, sizin verdiyiniz qiymət mənim üçün çox dəyərlidir. Gələcək fəaliyyətimdə çalışacağam ki, bu qiymətə görə, bəslənilən ümidlərə görə peşmançılıq çəkməyəsiniz.

Bu gün burada qeyd olundu, mən bir daha demək istəyirəm, biz hamımız, bütün Azərbaycan xalqı istəyirdik ki, möhtərəm cənab Prezident Heydər Əliyev bu seçkilərdə iştirak etsin. Bəlkə də bunu ən çox istəyən mən idim. Çünki bu belə də olmalı idi. Müstəqil Azərbaycan Heydər Əliyevin əsəridir. Heydər Əliyev o şəxsiyyətdir ki, 30 ildən artıq Azərbaycana rəhbərlik edib və bütün dövrlərdə – sovet dövründə, müstəqillik dövründə, sözün əsl mənasında, xalqın, millətin lideri olubdur. Əlbəttə ki, o, gərək iştirak edəydi və mən əminəm ki, xalqın böyük əksəriyyəti ona səs verərdi. Ancaq onun səhhətində yaranmış problemlər buna imkan vermədi. Aprelin 21-də baş verən hadisə onun səhhətinə çox böyük zərbə vurdu. Əfsuslar olsun ki, mən həmin günü Respublika sarayında yox idim. Ondan sonra fikirləşdim ki, mən orada olsaydım, onu ikinci dəfə, üçüncü dəfə səhnəyə buraxmazdım. Amma sonra düşündüm ki, yox, bunu etmək mənə nəsib olmazdı, çünki Heydər Əliyev haqlı idi. O, kursantların, zabitlərin qarşısında çıxış edirdi. O, Ali Baş Komandan kimi çıxış edirdi və bütün

hallarda səhnəyə çıxacaqdı. Çünki o Heydər Əliyevdir, çünki o Ali Baş Komandandır.

İndi, belə olan halda, seçkilərdə mən iştirak edəsi oldum və bütün keçirdiyim görüşlərdə, bölgələrdə olarkən birmənalı şəkildə bəyan etmişəm ki, Heydər Əliyevin siyasi xəttinə sadiq olacağam. Əgər xalq mənə etimad göstərərsə, onun siyasətini davam etdirəcəyəm. Çünki bu, Azərbaycan xalqı üçün lazımdır, Azərbaycanın müstəqilliyi üçün lazımdır. Heydər Əliyevin siyasətinə Azərbaycanda alternativ yoxdur. Bu siyasət Azərbaycanı anarxiyadan, xaosdan sabitliyə, inkişafa gətirdi.Bu gün burada 1990-cı illərin əvvəli xatırlandı və biz hamımız o çətin günləri yaşamışıq. Heç kim istəməz ki, o günlər qayıtsın, Azərbaycanın rəhbərliyinə savadı, biliyi olmayan, səriştəsiz şəxslər gəlsin. Azərbaycan inkişaf edir. Azərbaycan böyük uğurlar əldə edir və əlbəttə ki, Azərbaycan xalqı son on il ərzində yaxşını pisdən ayıra bilib. Heydər Əliyevin siyasəti nəticəsində Azərbaycanda böyük dəyişikliklər baş veribdir. Bu dəyişikliklər özünü bütün sahələrdə açıq-aydın göstərir. İqtisadi sahədə inkişaf göz qabağındadır. Bu barədə mən dəfələrlə demişəm. Həmin iqtisadi göstəricilərlə sizi yormaq istəmirəm.

Bütün beynəlxalq maliyyə qurumları etiraf edir ki, MDB ölkələri arasında Azərbaycan iqtisadi inkişaf sürətinə görə birinci yeri tutur. Azərbaycan dünyada özünə layiq yerini tuta bilibdir. Bu gün Azərbaycanla hesablaşırlar, Azərbaycana hörmət edirlər. Mən şəxsən son iki ay ərzində etdiyim səfərlər zamanı bunu görürdüm. Görüşdüyüm dövlət başçıları ilə danışıqlarda bir daha əmin oldum ki, Azərbaycan Dünya Birliyində çox dəyərli bir ölkəyə çevrilibdir. Regionda Azərbaycanın iştirakı olmadan heç bir layihə həyata keçirilmir. Azərbaycan bütün qonşuları ilə çox mehriban, işgüzar münasibətlər qura bilibdir. Baxmayaraq ki, regionumuz o qədər də sabit deyildir.

Sosial sahədə də nailiyyətlər göz qabağındadır. Əlbəttə ki, bütün bu tədbirləri həyata keçirmək üçün, ilk növbədə, Azərbaycanda gərək iqtisadiyyat güclü olaydı. Bu məqsədlə

1994-cü ildə çox çətin və ağır vəziyyətdə Heydər Əliyevin şəxsi təşəbbüsü ilə «Əsrin müqaviləsi» imzalandı. Bu müqavilə haqqında çoxlu mübahisələr olubdur. Mən bunları çox yaxşı xatırlayıram. Ölkədə bəzi qüvvələr tərəfindən əks-təbliğat aparılırdı ki, Azərbaycanın milli sərvətləri xarici şirkətlərə verilir, dağıdılır və sair. Amma kimin haqlı olduğunu həyat göstərdi. Məhz bu müqavilənin həyata keçirilməsi nəticəsində Azərbaycanın iqtisadiyyatı dirçəldi. Azərbaycan iqtisadi cəhətdən çox güclü addımlar ata bilibdir.

Azərbaycanda Neft Fondu yaradılıbdır və bu fondda artıq 1 milyard 400 milyon dollar vəsait toplanıbdır. Əgər bütün bunlar olmasaydı, əlbəttə ki, sosial problemlərin həllinə də diqqət göstərmək çətin olardı. Bizim problemlərimizin ən çətini, ən ağrılısı Dağlıq Qarabağ problemidir, Ermənistan–Azərbaycan münaqişəsidir. Bu münaqişə nəticəsində yaranmış bir milyona yaxın qaçqın-köçkünlərin çətin vəziyyətdə yaşamasıdır. Onların vəziyyətini yaxşılaşdırmaq istiqamətində işlər görülür. Onların həyat səviyyəsi yaxşılaşır. Prezidentin fərmanları ilə ayrılan vəsaitin hesabına yeni qəsəbələr, şəhərciklər salınır. Mən bu yaxınlarda Biləsuvarda yeni salınmış qəsəbənin açılışında iştirak etmişdim.Mən orada söz verdim ki, çalışacağam. Azərbaycanda heç bir çadır düşərgəsi olmasın. Çətin vəziyyətdə yaşayan bütün qaçqınlar, məcburi köçkünlər müasir evlərə köçürülsünlər. Amma, əlbəttə ki, bu, problemin bir tərəfidir. Problemin əsas tərəfi ondadır ki, Ermənistan öz işğalçı siyasətindən əl çəkməlidir. Biz əlbəttə ki, sülhün tərəfdarıyıq. İstəmirik ki, yenidən müharibə başlasın, yenidən qan tökülsün. Ona görə bütün səylərimizi buna yönəltmişik ki, sülh danışıqlarında bir irəliləyiş əldə olunsun. Eyni zamanda, əgər razılığa gələriksə, sülh müqaviləsi ancaq bir neçə prinsip əsasında imzalana bilər. O prinsiplər də ondan ibarətdir ki, Azərbaycanın ərazi bütövlüyü tamamilə bərpa edilməlidir. İşğal edilmiş torpaqlar azad olunmalıdır.

Əgər kimsə, hansısa beynəlxalq təşkilat və yaxud da hansısa dairələr fikirləşirlərsə ki, Azərbaycanı onun milli maraqlarına

cavab verməyən sazişə zorla dəvət etmək olar, onlar səhv edirlər. Məhz bu prinsiplər gərək qorunsun. Azərbaycan müstəqil dövlətdir. Bütün hüquq normaları Ermənistan tərəfindən pozulubdur və bu normalara mütləq əməl olunmalıdır. Biz gələcəkdə də çalışacağıq ki, münaqişəni sülh yolu ilə həll edək. Hələ ki, ümidlərimiz tükənməyibdir. Ancaq, eyni zamanda, bütün başqa hadisələrə də hazır olmalıyıq. Mən qeyd etdim ki, Azərbaycan iqtisadi cəhətdən güclü dövlətə çevrilir. Onun iqtisadi perspektivləri çox parlaqdır. Bütün bunları biz bilirik. Növbəti beş il ərzində ancaq neft-qaz sektorunun fəaliyyəti nəticəsində 5 milyard dollar vəsait daxil olacaqdır. Əlbəttə, bu vəsait bizə imkan verəcək ki, Azərbaycan hərtərəfli inkişaf etsin. Belə də olacaqdır. Azərbaycan yaxın gələcəkdə qüdrətli, zəngin dövlətə çevriləcəkdir. Məqsədimiz də bundan ibarətdir. Biz istəyirik ki, Azərbaycan xalqı daha yaxşı yaşasın.

Bütün bu müsbət uğurlardan danışarkən, yaddan çıxarmamalıyıq ki, işsizliyin səviyyəsi kifayət qədər yüksəkdir. Yoxsulluq mövcuddur. Digər sosial məsələlər hələ ki, tam həcmdə öz həllini tapmayıbdır. Amma buna baxmayaraq, tərəqqi də müşahidə olunur. Ölkə inkişaf edir və son altı il ərzində ümumi daxili məhsulun illik artımı təxminən 10 faiz təşkil edir. Bu yaxınlarda bir xarici qonaqla söhbət əsnasında dedi ki, bilirsiniz, o ölkədə ki, altı il ərzində ümumi daxili məhsulun artımı 10 faiz təşkil edir, o ölkənin iqtidarı, adətən, seçkilərdə qalib gəlir.Bu, əlbəttə ki, işin bir tərəfidir. İqtisadi siyasətimiz, Heydər Əliyevin apardığı neft strategiyası Azərbaycana böyük uğurlar gətiribdir və bunu heç kəs inkar edə bilməz. Digər tərəfdən, bu illər, son on il ərzində Azərbaycanın müstəqilliyi möhkəmlənmişdir. Azərbaycan ilk vaxtlar müstəqil dövlət kimi mövcud olanda onun müstəqilliyi, bir növ, rəmzi xarakter daşıyırdı. Əlbəttə ki, müstəqilliyimiz tanınmışdı, Azərbaycan Birləşmiş Millətlər Təşkilatının üzvü idi və müstəqilliyi əks etdirən bütün atributları da vardı. Amma əsl müstəqillik o vaxt əldə edilir ki, ölkə tam mənada müstəqil siyasət aparmaq iqtidarında olur. Bu baxımdan Azərbaycan həqiqi mənada

müstəqil dövlətdir. Biz qonşu dövlətlərə nəzər sala bilərik. Orada olan vəziyyətlə az-çox tanışıq. O ölkələrin bəzilərində müstəqillik şərti xarakter daşıyır, məhdud xarakter daşıyır.

Azərbaycan isə tam mənada müstəqildir və dünyada öz siyasətini aparır. Bütün çətinliklərə, keçmişdə olan təzyiqlərə baxmayaraq, Heydər Əliyev tutduğu yoldan dönmədi. Heç kimin qarşısında əyilmədi, ölkəni möhkəmləndirdi, müstəqilliyimizi dönməz etdi. Mən əminəm ki, bu proses dönməz xarakter alıbdır. Azərbaycan bundan sonra da öz siyasətini bütün sahələrdə müstəqil şəkildə həyata keçirəcəkdir.Bunu etmək üçün, əlbəttə ki, hakimiyyət, iqtidar gərək güclü olsun. O ölkədə ki iqtidar, hakimiyyət zəifdir, əlbəttə, xarici təsirə də məruz qala bilər. Öz şəxsi maraqlarını qorumaq üçün hansısa, öz ölkəsi üçün məqbul olmayan güzəştlərə də gedə bilər. Amma biz bunlara heç vaxt imkan verməik. Nəyin bahasına olursa-olsun, ilk növbədə, Azərbaycanın milli maraqları qorunmalıdır. Biz hamımız bu maraqları qoruyacağıq.

Burada çıxışlarda belə bir fikir səsləndi ki, idmançılara qayğı göstərilir. Əlbəttə, bu çox müsbət haldır. Bu vaxta qədər mənim bir neçə vəzifəm var idi. Onlardan biri Milli Olimpiya Komitəsinin prezidenti vəzifəsidir. Ümumiyyətlə, mən bütün işlərə, bütün vəzifələrə çox məsuliyyətlə yanaşıram. Ona görə ki, bu vəzifələri mənə Heydər Əliyev tapşırmışdı. İdmançılara qayğı göstərmək, idmanı inkişaf etdirmək, idmançılarımızın həyat səviyyəsini yaxşılaşdırmaq, onların beynəlxalq yarışlarda iştirakını təmin etmək mənim vəzifə borcum idi və indi də vəzifə borcumdur. Əlbəttə, əgər mənim oktyabrın 15-də vəzifə borclarım genişlənsə, söz verirəm ki, bütün sahələrə eyni diqqətlə yanaşacağam.

Siz məndən yaxşı bilirsiniz ki, möhtərəm prezident Heydər Əliyev elmə, mədəniyyətə, ədəbiyyata, incəsənətə daim böyük diqqətlə yanaşır, bu münasibət ürəkdən gəlir, reklam üçün, təbliğat üçün deyildir. Biz hamımız bunu yaxşı bilirik. Məhz bu diqqətin, qayğının nəticəsində Azərbaycanda mədəniyyət, incəsənət, ədəbiyyat inkişaf edibdir. İmkan yarandıqca, cənab

Prezident sərəncamlar vermişdir ki, yaradıcılıqla məşğul olan insanların həyat səviyyəsi yaxşılaşsın, onlara yaxşı şərait yaradılsın. Burada çox düzgün qeyd olundu ki, bazar iqtisadiyyatı şəraitində bu məsələlərə, adətən, dövlət tərəfindən diqqət göstərilir. Əgər biz digər inkişaf etmiş ölkələrin təcrubəsinə nəzər salsaq, görə bilərik ki, orada dövlət tərəfindən belə addımlar atılmır. Orada hər şey bazar iqtisadiyyatı prinsipləri əsasında qurulur. Amma, əlbəttə ki, Azərbaycanda Heydər Əliyevin siyasəti nəticəsində bu sahəyə diqqət göstərilibdir. Təqaüdlər təsis edilibdir.

Burada latın əlifbası ilə bağlı, kitabların çap olunması ilə bağlı çox dəyərli təkliflər səsləndi. Mən düşünürəm ki, əgər bu barədə təkliflər paketi təqdim olunarsa, bütün bu məsələlər öz həllini tezliklə tapa bilər. Ümumiyyətlə, mən düşünürəm ki, bütün yaradıcılıq ittifaqları tərəfindən bizə təkliflər göndərilməlidir. Harada nə problemlər varsa, onlara operativ şəkildə baxılacaqdır. Mən qəti əminəm, elə məsələ yoxdur ki, onun həlli mümkün olmasın. Əlbəttə ki, qlobal məsələlər var. Elə məsələlər var ki, o, qlobal xarakter daşıyır. Təkcə ölkənin imkanlarından asılı olmur. Amma Azərbaycanda belə məsələlər çox deyildir. Azərbaycanın bütün problemləri öz həllini tapa bilər, o cümlədən bu sahənin problemləri. Əziz dostlarım, əgər Azərbaycan xalqı mənə etimad göstərərsə, şahidi olacaqsınız ki, bu sahədə də Heydər Əliyevin siyasətinə sadiq qalacağam.

Son iki ay mənim həyatımda qeyri-adi bir dövr idi. Çox çətin aylar idi. İlk növbədə, məni mənəvi cəhətdən sarsıdan cənab Prezidentin xəstəliyi olubdur. Əlbəttə ki, bütün Azərbaycan xalqı cənab Prezidentə şəfa diləyir. Məlumat vermək istəyirəm ki, biləsiniz, mən mütəmadi olaraq onunla telefon əlaqəsi saxlayıram. Bu günün özündə də cənab Prezidentlə danışmışam. O, Azərbaycanda gedən bütün prosesləri izləyir. Yaxşı ki, bizim özəl kanallarımız artıq internetə çıxıblar və internet vasitəsilə bütün verilişlərə baxır. Azərbaycanda gedən proseslərə münasibəti çox müsbətdir.

Mən əminəm ki, o yaxın gələcəkdə öz sağlamlığını tam bərpa edib Vətənə dönəcək və yenidən bizimlə olacaqdır.Əlbəttə ki, cənab Prezident seçki prosesini də çox maraqla izləyir. Ümumiyyətlə, biz hamımız deyə bilərik ki, bu seçki kampaniyası çox müsbət istiqamətdə gedir. Bütün namizədlərə eyni şərait yaradılıbdır. Kampaniya çox şəffaf, açıq şəkildə aparılır. Bütün namizədlər görüşlər keçirir, dövlət televiziyası vasitəsilə birbaşa təmaslar yaradılır. Bunun əsas səbəbi odur ki, Azərbaycanda bu seçkilər yeni qəbul olunmuş, beynəlxalq təşkilatlardan müsbət rəy almış Seçki Məcəlləsi əsasında keçirilir. Mən əminəm ki, bu Məcəllənin bütün maddələrinə əməl ediləcək, Azərbaycanda seçkilər tam şəffaf, demokratik şəkildə keçiriləcəkdir. Bu bizim ölkəmiz üçün lazımdır.

Mən inanmaq istərdim ki, seçkilərdən sonra Azərbaycanda demokratik proseslər daha da sürətlə gedəcəkdir. Bu proseslər indiyədək də getmişdir. Azərbaycan artıq üç ildir ki, Avropa Şurasının üzvüdür və öz qanunvericiliyində də Avropa ölkələrində mövcud olan prinsipləri əks etdirir. Azərbaycanda yeni qanunlar qəbul olunur. Bu proseslər davam edəcəkdir. Çox istərdik ki, Azərbaycanda müxtəlif siyasi partiyalar arasında olan ədavət, düşmənçilik aradan götürülsün. Baxmayaraq ki, o partiyaların liderləri Azərbaycanı 1992–1993-cü illərdə faktiki olaraq dağıtmışdılar, böhrana salmışdılar, parçalamışdılar. Vətəndaş müharibəsinə başlamışdılar, özləri də bundan qorxaraq gizlənmişdilər. Amma Heydər Əliyev onlara da şərait yaratdı. Onları yenidən siyasətə dəvət etdi. Baxmayaraq ki, onlar Azərbaycan xalqı qarşısında böyük cinayətlər törətmişdilər. İndi də onlar gecə-gündüz dövlət başçısına, iqtidarın digər nümayəndələrinə olmazın təhqirlər söyləyirlər, yalan, böhtan atırlar. Bütün bünlara baxmayaraq, yenə də inanmaq istəyirəm ki, onların tərəfindən də dialoqa meylli olanlar ortaya çıxacaqdır. Düzdür, iqtidar olaraq bunsuz da yaşaya bilərik. Biz Azərbaycanda hökm sürən ab-havanı çox yaxşı hiss edirik, duyuruq. Görürük ki, Azərbaycan xalqı demək olar ki, öz seçimini edibdir və Heydər Əliyevin siyasətini dəstəkləyir.

Mənim bölgələrdə keçirdiyim bütün görüşlər bir daha onu təsdiqləyir ki, Azərbaycan xalqı oktyabrın 15-də Heydər Əliyevin siyasətinə səs verəcəkdir. Bu baxımdan dediyim təkliflər bizə o qədər lazım deyildir. Amma sülh naminə, barışıq naminə, Azərbaycanda vətəndaş cəmiyyəti yaradılması naminə mən hələ də ümidvaram ki, düşmənçilik mövqeyində dayanan bütün siyasi partiyalar tərəfindən bu istiqamətdə addımlar atılacaqdır. Yenə deyirəm, baxmayaraq ki, vaxtilə onlar Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə, ümumiyyətlə, Azərbaycanın varlığına xəyanət etmişdilər.Onların bugünkü fəaliyyətləri də iqtidara qarşı deyil, əslində, Azərbaycanın müstəqilliyinə qarşı fəaliyyətdir. Əgər müxalifət Bakı–Ceyhanın uğurla inşa olunmasından məyus olursa, müxalifət idmançılarımızın beynəlxalq yarışlarda, Olimpiya oyunlarında qızıl medallar qazanmasından peşman olursa, bunu başqa cür necə qiymətləndirmək olar? Bu, Azərbaycanın milli maraqlarına zidd olan siyasətdir! Bütün bunlara baxmayaraq, yenə də bizim ürəyimiz geniş olmalıdır. Biz bütün bu yalanlara, böhtanlara baxmayaraq Azərbaycanın gələcəyinə xidmət edərək, onun müstəqilliyini möhkəmləndirərək, yenə də çalışmalıyıq ki, ölkədə fəaliyyət göstərən siyasi qüvvələr arasında münasibətlər siyasi müstəvidə qurulsun.

Əziz dostlar!

Mən bir daha sizə öz minnətdarlığımı bildirmək istəyirəm ki, bu görüşə gəldiniz, öz ürək sözlərinizi dediniz, mənə dəstək verdiniz. Mən avqustun 2-də Ankarada cənab Prezidentin yanında olarkən, o mənim Baş nazir vəzifəsinə təyin olunmağımla əlaqədar Milli Məclisə məktub yazmışdı. O, məktubu imzalayandan sonra ona dedim ki, darıxma, mən sənin etimadını doğruldacağam.

Əgər oktyabrın 15-də mənə etimad göstərilərsə, bu etimadı mən doğruldacaq, Azərbaycan xalqına xidmət edəcək, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm.

Sağ olun.

## 15 OKTYABR PREZİDENT SEÇKİLƏRİ İLƏ ƏLAQƏDAR XARİCİ ÖLKƏLƏRİN KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ ÜÇÜN MƏTBUAT KONFRANSINDA SUALLARA CAVAB

*13 oktyabr 2003-cü il*

**İ l h a m Ə l i y e v**: Hörmətli mətbuat nümayəndələri!

Mən sizin hamınızı salamlayıram, Azərbaycana "Xoş gəlmisiniz!" deyirəm. Siz Azərbaycanda keçiriləcək prezident seçkilərini müşahidə edəcəksiniz. Məlumat vermək istəyirəm ki, bu seçkilər yeni qəbul olunmuş Seçki Məcəlləsi əsasında keçiriləcəkdir. Məcəllə çox demokratik sənəddir və beynəlxalq təşkilatların müsbət rəyini almışdır.

Seçki kampaniyası çox uğurla davam edir və artıq başa çatmaq üzrədir. Bütün namizədlər eyni şəraitə, eyni hüquqlara malikdir. Hər bir namizədin öz fikirləri, siyasi platforması haqqında seçicilərə məlumat verməyə geniş imkanı var idi. Həm dövlət televiziyası vasitəsilə onlara geniş şərait yaradılmışdır, həm də bölgələrdə keçirilmiş görüşlərdə bunun üçün böyük imkanlar var idi. Ona görə də mən əminəm ki, bu seçkilər demokratik şəkildə, şəffaf və azad keçiriləcəkdir. Seçkilərdən sonra Azərbaycanda gedən demokratik proseslər daha da inkişaf edəcəkdir.

Mən vaxtınızı çox almaq istəmirəm, bilirəm ki, sizin mənə suallarınız vardır. Bu suallara cavab verməyə hazıram.

**S u a l: Hörmətli cənab Baş nazir İlham Heydəroviç, mən Yaponiya teleşirkətini təmsil edirəm. Ölkənin inkişafına dair strategiyanız necədir? Siz indicə demokratik inkişaf məsələsinə toxundunuz. Siz prezident seçilsəniz bu istiqamətdə nə kimi addımlar atacaqsınız? İkinci sualım var. Atanız Heydər Əliyev, əlbəttə, böyük siyasətçidir. Siz onun prezidentliyini necə qiymətləndirirsiniz? Axı yeni**

**prezidentin qarşısında yeni vəzifələr durur. Sizin yoxsulluq və cəmiyyətin parçalanması problemlərinin aradan qaldırılmasına dair planlarınız varmı?**

**C a v a b:** Prezident Heydər Əliyevin rəhbərliyi ilə aparılan demokratik islahatlar siyasətinə Azərbaycan qətiyyətlə əməl edir. Ölkəmizdə çox qanunlar qəbul olunub və onlar demokratiyanı bu sözün əsl mənasında, inkişaf etdirməyə imkan verir. Artıq üç ildir ki, Azərbaycan Avropa Şurasının üzvüdür və qanunvericiliyimizi Avropa standartlarına uyğunlaşdırmaq işi, əslində, başa çatmaqdadır. Əminəm ki, seçkilərdən sonra ölkəmiz azad cəmiyyətin, demokratiyanın inkişafı üzrə öz xəttini davam etdirəcəkdir. Bu, ilk növbədə, Azərbaycan xalqı üçün və ölkəmizin uğurla inkişafı üçün vacibdir. Bu yolda bütün lazımi tədbirlər görüləcəkdir. Əminəm ki, demokratik və ədalətli seçkilər keçirilməsi demokratiyanın inkişafı işinə böyük töhfə olacaqdır. Biz bu xəttə, Azərbaycanın Dünya Birliyinə inteqrasiyasına sadiqik. Biz bu yolda böyük uğurlar qazanmışıq və o xətti davam etdirəcəyik.

Heydər Əliyev Azərbaycan xalqının lideridir. Ölkədə siyasi ab-havanın necəliyindən asılı olmayaraq, o, bütün ömrünü Azərbaycana xidmətə həsr etmişdir. Bu, Azərbaycan Sovet İttifaqının bir hissəsi olduğu illərdə də, onun rəhbərliyi ilə Azərbaycanın müstəqil, azad dövlət kimi formalaşdığı 10 il ərzində də belə olmuşdur. Sovet İttifaqı dövründə də, müstəqillik dövründə də Heydər Əliyev Azərbaycan xalqına vicdanla, sədaqətlə, fədakarlıqla xidmət etmişdir. Onun xidmətləri olduqca böyükdür, bugünkü müstəqil Azərbaycan onun əsəridir. 1993-cü ildə o, xalqın iradəsi ilə Bakıya qayıtmasaydı və prezident seçilməsəydi, şübhəsiz, Azərbaycan bu gün yenidən hakimiyyət iddiasında olan əvvəlki rəhbərlərin o vaxtlar ölkədə apardıqları məsuliyyətsiz və zərərli siyasətin fəlakətli çətinlikləri və nəticələri ilə üzləşəcəkdi.

Heydər Əliyev tarixi şəxsiyyətdir. Onun rəhbərliyi ilə Azərbaycanda nə kimi işlər görüldüyü barədə saatlarla danışmaq olar. Əminəm ki, Azərbaycan xalqı ölkəmizin inkişafı

işinə Heydər Əliyevin verdiyi misilsiz töhfəni layiqincə qiymətləndirib və bundan sonra da qiymətləndirəcəkdir. Onun xətti davam etdirilməlidir. Azərbaycanda başqa alternativ yoxdur. Son iki həftə ərzində seçicilərlə görüşlərim, gündəlik ünsiyyətlərim məni bir daha inandırdı ki, Azərbaycan xalqı Heydər Əliyevin siyasətinə sadiqdir və bütün istiqamətlərdə, o cümlədən əhalinin həyat şəraitinin yaxşılaşdırılması məsələsində onun xəttini davam etdirəcəkdir.

**S u a l: Mən "Röyter" informasiya agentliyini təmsil edirəm. Bəzi adamlar deyirlər ki, onlar yeni iqtisadi siyasətə ehtiyac duyurlar. Siz isə dediniz ki, atanızın siyasətini davam etdirəcəksiniz.**

**C a v a b:** Əgər siz maraqlanıb öyrənsəydiniz ki, son 7 ildə ölkəmizdə ümumi daxili məhsulun artımı hər il 10 faiz olmuşdur, hakim partiyanın qələbəsinə sizdə şübhə oyanmazdı. Əgər siz 1993-cü ildə ölkədə indiki müxalifətin rəhbərliyi ilə nələr baş verdiyinin şahidi olsaydınız, tamam başqa sual verərdiniz.

Azərbaycan xalqı o vaxtların qayıtmasından qorxur, çünki indi müxalifətdə olanların rəhbərliyi ilə ölkə vətəndaş müharibəsi həddinə gəlib çıxmışdı, Ermənistan silahlı qüvvələri tərəfindən ərazilərimizin işğalına şərait yaradılmışdı. İnsanlar qorxur və o hadisələrin təkrarlanmasını istəmirlər. Hər bir kəs bilir ki, müxalifətin hakimiyyətə gəlməsi yenə də vətəndaş iğtişaşlarına, digər xoşagəlməz hadisələrə gətirib çıxara bilər. Bir vətəndaş kimi, mən bunların hamısını görmüşəm və o hadisələrin təkrar edilməsini heç vaxt istəmərəm.

İndi Azərbaycan uğurla inkişaf edir. Xarici sərmayələrin həcminə görə ölkəmiz təkcə keçmiş Sovet İttifaqı məkanında deyil, həm də Şərqi Avropa ölkələri arasında öncül mövqe tutur. Əgər insanlar yaxşı yaşamağa başlamışlarsa, bu vəziyyət niyə dəyişməlidir? İndi inflyasiyanın səviyyəsi 2 faizə enmişdir. Belə siyasəti dəyişdirməyə əsas varmı? Əksinə, bu siyasət davam etdirilməlidir və əminəm ki, insanlar düzgün seçim edəcəklər.

**S u a l: Cənab Baş nazir, mən Gürcüstanın "Rustavi-2"**

**telekanalını təmsil edirəm. İlham Heydəroviç, Sizin qələbəniz təqdirində müxalifət aksiyalar, mitinqlər keçirəcəkdir. Bunu onların liderləri demişlər. Siz iğtişaşların qarşısının alınması üçün nə kimi tədbirlər görəcəksiniz?**

**C a v a b:** Bu gün üçün seçkilərdə 8 namizəd iştirak edir. Onları dinləsəniz görərsiniz ki, müxalifətin namizədlərindən hər biri bildirir ki, ikinci tura çıxmasa, seçkiləri tanımayacaqdır. Bəri başdan məlumdur ki, ikinci turda 7 namizəd ola bilməz. Yəni indidən aydındır ki, müxalifət məğlubiyyətlə barışmaq istəmir. Çünki on ildən çoxdur ki, eyni şeyi deyən, yerinə yetirilməsi mümkün olmayan eyni vədlər verən müxalifət liderləri məğlubiyyətlə barışsalar, siyasət meydanından getməli olacaqlar. Ona görə də onların ən düzgün və ədalətli seçkiləri şübhə altına almasında təəccüblü bir şey yoxdur. Əgər hər hansı xoşagəlməz hadisələr baş versə, qanun çərçivəsində müvafiq tədbirlər görüləcəkdir.

**S u a l: Günaydın, cənab Baş nazir, mən İTAR-TASS agentliyini təmsil edirəm. Sizdən qələbəniz təqdirində Azərbaycanın beynəlxalq əlaqələri barədə soruşmaq istərdim. Siz münasibətlərinizi kiminlə daha artıq dərəcədə və daha intensiv və dərindən inkişaf etdirəcəksiniz?**

**C a v a b:** Mən dəfələrlə bəyan etmişəm ki, Azərbaycan tamamilə müstəqil dövlətdir. Müstəqillik nəinki atributdur, həm də azad, heç kimdən asılı olmayan siyasətdir. Kimlərinsə mənafelərindən asılı olmayan, öz mənafelərinin gözlənilməsinə əsaslanan siyasətdir. On il ərzində Azərbaycanda məhz belə siyasət aparılmışdır və onun uğurları göz qabağındadır.

Bu gün Azərbaycan aparıcı ölkələrlə həm regional miqyasda, həm də dünya miqyasında bir çox istiqamətlərdə – iqtisadi istiqamətdə də, siyasi istiqamətdə də uğurla əməkdaşlıq edir. İstəyirik ki, ölkəmiz rəqabət meydanına çevrilməsin. İstəyirik ki, Azərbaycan əməkdaşlıq məkanı olsun.

Bu, milli mənafelərimizə uyğundur. Ona görə də digər ölkələrlə, qonşularımızla və dostlarımızla münasibətlərimizi

bunu nəzərə alaraq quracağıq. Bu siyasət uğurludur, artıq təcrübədə yoxlanılmışdır. Ona görə də bu fikirdəyəm ki, Azərbaycanın xarici siyasəti davam etdirilməlidir. İstəmirəm ki, Azərbaycanın xarici siyasət xəttinə qiymət verilərkən hansısa meyllərə istinad edilməsin. Bizim istiqamətimiz öz xarici siyasət fəaliyyətimizlə qarşıya qoyulan məqsədlərə, Azərbaycanın dünyada yerinin möhkəmlənməsinə, habelə dünya ölkələri ilə qarşılıqlı surətdə faydalı əməkdaşlıq vasitəsilə iqtisadi inkişafımıza nail olmağa kömək etməyə əsaslanır. Bu siyasət indiyədək aparılmışdır və davam etdiriləcəkdir.

**S u a l: Mən Gürcüstan teleşirkətini təmsil edirəm. Cənab Baş nazir, oktyabrın 15-dən sonra Azərbaycanda vəziyyət sabit olacaqmı?**

**C a v a b:** Əminəm ki, sabitlik olacaqdır. Çünki Azərbaycan bir dövlət kimi formalaşmışdır, biz heç kimə qanunları pozmağa imkan verməyəcəyik. Dediyim kimi, seçkilər ədalətli və açıq şəraitdə keçiriləcəkdir. Müntəzəm olaraq müxtəlif ictimai rəy sorğuları aparılır. Əgər seçkiləri işıqlandırmağa gələn jurnalistlər seçicilərin əhval-ruhiyyəsi ilə maraqlansalar, Azərbaycan vətəndaşlarının nəyə üstünlük verdiyi onlara da aydın olar. Odur ki, seçkilərin şəffaflığını şübhə altına almağa heç bir əsas yoxdur.

Yeni demokratik Seçki Məcəlləsinin bütün cəhətləri nəzərə alınmışdır, bunlar həm də məsələnin texniki tərəfinə, yəni şəffaf qutuların olması, bülletenlərin çap edilməsi və s. aiddir, mən təfsilata varmaq istəmirəm, maraqlananlar bunu öyrənə bilərlər. Ona görə də buna şübhə etməyə heç bir əsas yoxdur. Seçkilərədək nə olmuşdusa, yəni seçki kampaniyası da çox demokratik keçmişdir. Odur ki, əgər kimsə Azərbaycanda vəziyyətin sabitliyini pozmaq istəsə, əlbəttə, qətiyyətlə dəf ediləcəkdir.

Təəssüf ki, müstəqillik illərində ölkəmiz hərbi və dövləti çevriliş, vətəndaş qarşıdurması yaratmaq cəhdləri kimi sınaqlara məruz qalmışdır. Lakin Azərbaycanda dövlətçilik kamillik imtahanından uğurla çıxmışdır. Ona görə də sabitliyi pozmaq

üçün göstərilən hər hansı cəhdlərin qarşısı alınacaqdır.

**S u a l: Cənab Baş nazir, Azərbaycanda hicablı qadınların səs verməsi problemi həll olunubmu? İkinci sualım ondan ibarətdir ki, son illər Azərbaycanla İran arasında münasibətlər çox uğurlu olmuşdur. Siz atanızın bu yolunu davam edəcəksinizmi?**

**C a v a b:** İlk növbədə qeyd etmək istərdim ki, seçkilər günü hər bir vətəndaş seçki məntəqəsinə gələrək sərbəst və azad şəkildə istədiyi namizədə səs verə bilər. Bu barədə heç bir məhdudiyyət qoyulmur və Azərbaycanın bütün vətəndaşları eyni hüquqa malikdirlər.

Azərbaycanla İran arasında münasibətlər inkişaf edir. Azərbaycan Respublikasının prezidenti cənab Heydər Əliyevin İrana son səfəri nəticəsində iki ölkə arasında münasibətlər yeni pilləyə qalxmışdır. İran bizim qonşumuzdur və çox maraqlıyıq ki, bu ölkə ilə münasibətlərimiz yüksək səviyyədə olsun. Bildiyiniz kimi, həmin səfərdən sonra ölkələrimiz arasında bir sıra iqtisadi layihələrin həyata keçirilməsinə başlanmışdır. Biz artıq bir neçə istiqamətdə uğurlu əməkdaşlıq edirik. Hesab edirəm ki, bu əməkdaşlıq bundan sonra da davam edəcəkdir.

Mən dəfələrlə bildirmişəm ki, əgər Azərbaycan xalqı mənə etimad göstərərsə, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm. O cümlədən, Azərbaycanla İran arasında olan münasibətlər də öz gələcək inkişafını tapacaqdır. Eyni zamanda, bildirmişəm ki, Azərbaycan öz xarici siyasətini müstəqil şəkildə aparır və bundan sonra da aparacaqdır. Ölkəmizin milli maraqlarına cavab verən bütün tədbirlər görüləcəkdir. Biz istərdik ki, İranla münasibətlərimiz bundan sonra da inkişaf etsin və hər iki tərəfə fayda versin.

**S u a l: Mən Frans Press Agentliyini təmsil edirəm. İlham müəllim, Siz öz qələbə imkanınızı necə qiymətləndirirsiniz və müxalifətin seçkiqabağı vəziyyətin qeyri-demokratik şəraitdə keçdiyi barədə dediklərinə necə baxırsınız?**

**C a v a b:** Öz imkanlarımdan danışmaq təvazökarlıqdan

uzaq olardı, bu barədə danışmayacağam. Hərçənd deməliyəm ki, özümü kifayət qədər inamlı hiss edirəm. Məndə bu inamı təkcə keçirilmiş seçkiqabağı kampaniya və seçicilərlə görüşlər deyil, həm də, ümumən, seçki prosesi yaradır. Azərbaycan xalqı insanları seçkilərə iki həftə qalmış deyilən sözlər əsasında deyil, real işlər əsasında qiymətləndirir. Mən demokratik Azərbaycanın inkişafına verdiyim töhfəmlə fəxr edə bilərəm. Mənə tapşırılmış bütün sahələrdə, bütün bu istiqamətlərdə – neft strategiyasının həyata keçirilməsində də, idmanın inkişafında da, Azərbaycanın nümayəndə heyətinə başçılıq etdiyim Avropa Şurası kimi beynəlxalq təşkilatların fəaliyyəti çərçivəsində də Azərbaycan böyük uğurlar qazanmışdır. Ona görə də mən bu seçkilərə boş sözlərlə və vədlərlə deyil, hamının gözləri qarşısında olan konkret işlərlə və nəticələrlə gedirəm. Yəqin ki, hər hansı namizədin imkanı qiymətləndirilərkən məhz bunları nəzərə almaq lazımdır. Kiminsə boş vədlərə inandığı vaxtlar artıq keçib getmişdir. Bir, yaxud iki aya əhalinin yaşayışını yaxşılaşdırmaq, əmək haqqını artırmaq kimi fantastik vədlərə, bütün Azərbaycan xalqı kimi, mən də istehza ilə yanaşıram. Biri əməkhaqqını beş dəfə artıracağını vəd edir, digəri isə bunu eşidən kimi söz verir ki, on dəfə artıracaqdır. Belə getsə, iyirmi dəfə də artıracaqlar. Odur ki, bütün bunlar artıq keçib getmişdir və cəmiyyət boş vədləri daha qəbul etmir. Qiymət ancaq konkret işlərin nəticələrinə əsasən verilir.

Seçkiqabağı kampaniyaya gəldikdə, o, demokratik şəraitdə keçmişdir. Mən artıq bu barədə danışdım, müxalifətdə olanlar, istənilən halda, özlərini günahsız qurbanlar kimi qələmə verməyə çalışacaqlar. Lakin bunun əsası yoxdur. Azərbaycanda seçkiqabağı kampaniyanın gedişini izləməyə imkanı olanlar gördülər ki, bütün namizədlərin dövlət televiziyasında efir vaxtından istifadə edilməsində də, seçicilərlə görüşlər keçirilməsində də tamamilə bərabər şəraiti vardı. Heç kim heç kimi sıxışdırmırdı. Əminəm ki, seçkiqabağı kampaniya sakit və uğurlu keçdiyinə görə, seçkilər də belə keçəcəkdir.

**S u a l: "Amerikanın səsi" radiosu. İlham müəllim, Siz**

**prezident seçilərsinizsə, biz Amerika – Azərbaycan münasibətlərində hansı inkişafı görə bilərik? İkinci sualım belədir. Dağlıq Qarabağ münaqişəsinin həlli yollarında danışıqlar prosesinə üstünlük verəcəksiniz, yoxsa prezidentliyiniz dövründə bu danışıqların başqa metod və üsullarından da istifadə edəcəksiniz?**

**C a v a b:** Amerika ilə Azərbaycan arasında olan münasibətlər uğurla inkişaf edir. Biz artıq 10 ilə yaxındır ki, müxtəlif sahələrdə əməkdaşlıq edirik. Həm siyasi müstəvidə əlaqələr çox intensivləşib, həm də iqtisadi sahədə Amerika hökumətinin dəstəyi ilə Azərbaycanda bütün region və dünya üçün, ilk növbədə, ölkəmiz üçün önəmli olan beynəlxalq layihələr həyata keçirilir. Biz bu münasibətlərimizdən çox razıyıq və ümidvarıq ki, gələcəkdə əlaqələrimiz daha da inkişaf edəcək və hər iki dövlətə, xalqa fayda verəcəkdir. Bu siyasi xətt dəyişməz olaraq qalacaqdır. Arzumuz budur ki, bu münasibətlər daha da intensivləşsin və bütün sahələrə öz təsirini göstərsin.

Dağlıq Qarabağ münaqişəsinə gəldikdə isə, biz sülh siyasətimizə sadiqik və hesab edirik ki, hələlik danışıqların potensialı tükənməyibdir. Eşitdiyimizə görə, həmsədr dövlətlər bu istiqamətdə müəyyən addımlar atır və ola bilsin ki, gələcəkdə bizə yeni təkliflər təqdim olunsun. Heç kim, o cümlədən Azərbaycan xalqı da müharibə istəmir. Biz istəyirik ölkəmiz sülh şəraitində yaşasın, inkişaf etsin, iqtisadiyyatımız güclənsin, mövcud olan sosial problemlər – işsizlik, yoxsulluq aradan qaldırılsın. Əlbəttə, bunları etmək üçün gərək sülh olsun. Ancaq eyni zamanda Azərbaycan xalqı və hökuməti torpaqlarımızın işğal altında qalması ilə heç zaman barışmayacaqdır. Əvvəlcədən bir şey deyə bilmərəm. Amma hər şey danışıqlardan asılı olacaqdır. Əgər biz görsək ki, sülh danışıqlarının heç bir əhəmiyyəti yoxdur, onlar formal xarakter daşıyır və heç bir nəticə vermir, onda Azərbaycanın tam haqqı var ki, bütün vasitələrdən istifadə edərək, öz ərazi bütövlüyünü bərpa etsin. Ölkəmiz iqtisadi cəhətdən güclənir, bizim güclü ordumuz vardır və ordu quruculuğu prosesi davam edir. Mən

əminəm ki, Azərbaycanın möhkəmlənmiş mövqeləri, ATƏT-in Minsk qrupunun həmsədrlərinin ədalətli mövqeyi, beynəlxalq ictimaiyyətin bu məsələdə birmənalı mövqe nümayiş etdirməsi bizə bu münaqişəni sülh yolu ilə həll etməyə imkan verəcəkdir. Ancaq eyni zamanda biz başqa yolları da istisna etməməliyik və hər şeyə hazır olmalıyıq.

**S u a l: Türkiyədə çıxan "Hürriyyət" qəzeti. Cənab Baş nazir, mənim sualım belədir: təsəvvür edək ki, bu gün oktyabrın 16-dır və Siz seçkilərdə qalib gəlmisiniz. Prezident vəzifəsində Sizin ilk qərarınız nə olacaqdır? İkinci sual: biz bilirik ki, Azərbaycanda seçkiqabağı kampaniya uğurla keçmişdir. Lakin bu kampaniya həm də gərgin olmuşdur. Əgər Siz seçilsəniz, indi əleyhinizə çıxış edən hər hansı bir müxalifət partiyası ilə əməkdaşlıq edəcəksinizmi?**

**C a v a b:** İcazə versəniz, birinci suala cavab verməzdim. Həyata keçməsi mümkün olmayan bütün vədlərinin öz əksini tapdığı fərmanlarını, qərarlarını artıq çap etdirmiş müxalifətdən olan bəzi namizədlərə oxşamaq istəmirəm. Buna görə də, hər halda, təvazökar olmaq və indidən heç nə demək istəməzdim. Oktyabrın 15-də Azərbaycan xalqı kimə səs verəcəyini özü həll edəcəkdir. Əlbəttə, əgər mənə səs versələr, bütün qərarlarım, həm ilk, həm də sonrakı qərarlarım məhz Azərbaycanın iqtisadi cəhətdən inkişaf etməsinə, sosial məsələlərin həll olunmasına yönəldiləcəkdir ki, ölkə öz dövlətçiliyini və suverenliyini möhkəmlətsin.

Seçkiqabağı kampaniyaya gəldikdə isə, buna baxışlar müxtəlif cür ola bilər. Bəlkə də müəyyən bir gərginlik olmuşdur, lakin bu gərginliyə biz rəvac verməmişik. Görünür, bu, müxalifət partiyalarının bir hissəsinin nümayəndələrinin daxili gərginliyinin nəticəsi olmuşdur. Onlar yaxşı başa düşürlər ki, ədalətli seçki kampaniyası keçiriləcəyi təqdirdə seçicilərin rəğbətini qazanmaq onlar üçün çox çətin olacaqdır. Odur ki, onlardan bəziləri çirkin üsullara – şantaja, böhtana, yalana əl atmışlar. Lakin biz artıq çoxdandır ki, belə şeylərlə üzləşmişik, bir çox müxalifət qəzetlərində hər gün prezident, prezidentliyə

namizədlər və istənilən normal insan barədə təhqiramiz, böhtan dolu məqalələr çap olunur. Ona görə də bütün bunlara vərdiş etmişik və daha fikir vermirik. Hörmətli Prezident müxalifəti dəfələrlə dialoqa, əməkdaşlığa dəvət etmişdir. Onlar geniş məsələlərə dair əməkdaşlığa hazır olmasalar da, Prezident müxalifətə, heç olmazsa, Ermənistan–Azərbaycan münaqişəsinin həlli yollarının axtarılıb tapılması çərçivəsində əməkdaşlığı təklif etmişdir. Bu məqsədlə parlamentdə bir neçə gün dinləmələr keçirilmiş, Prezident çıxış edəndə isə bütün siyasi qüvvələr dəvət olunmuşdu. Lakin təəssüf ki, hətta o zaman, söhbət Azərbaycanın hər vətəndaşını narahat edən həyati əhəmiyyətli məsələlərdən gedəndə də müxalifət həmin dəvətə məhəl qoymadı.

Bilirsiniz, daim dəvət etmək olmaz. Bir dəfə dəvət etmək olar. Əgər sənin dəvətin cavabsız qalırsa, özünə əziyyət verməyə dəyməz. Azərbaycan cəmiyyəti müxalifətin ekstremist əhval-ruhiyyəli xadimlərinin yaymağa cəhd göstərdikləri ideyalardan tamamilə uzaqdır. Onlar iki istiqamətdə fəaliyyət göstərirlər. Ya qəzet səhifələrində, ya da küçələrdə təhqir edir və yalanlar yayırlar. Onlarda konstruktivizm anlayışı yoxdur. Bununla belə, biz on ildən çoxdur ki, özlərini göstərmək istəyən müxalifət xadimlərinə müəyyən dərəcədə xoş məram, ürək açıqlığı nümayiş etdirərək, əlbəttə, bunun köməyi olarsa, bir daha onlara dialoq təklif etməyə hazırıq. Biz dialoqa hazırıq, amma mən əminəm ki, onlar bundan istifadə etməyəcəklər.

Mən hesab edirəm ki, Azərbaycan cəmiyyəti birləşməlidir. Biz ərazicə kiçik, əhalisi az olan ölkəyik. Biz ölkəmizin qarşısında duran əsas problemi – münaqişəni ədalətlə, Azərbaycanın mənafeyinə uyğun şəkildə sülh yolu ilə həll etmək üçün bir olmalıyıq. Bu məsələdə bizim mənafeyimiz beynəlxalq hüquq normalarına əsaslanır. Bir daha demək istəyirəm ki, digər tərəf arzu edərsə, biz dialoqa hazırıq.

**S u a l: Mən "Döyçland Saytunq" qəzetini təmsil edirəm. Cənab Baş nazir, mən indicə ATƏT-in müşahidəçilər qrupunun başçısı Piter Aykerlə söhbət etdim. O, seçkilərin**

**gedişində müxalifət tərəfindən fitnəkarlıq törədilməsi və hüquq pozuntularına yol verilməsi ehtimalının mümkünlüyündən danışdı. Bu barədə Sizin fikriniz necədir? İkinci sualım: Prezidentin səhhəti haqqında yayılan şayiələr barədə Siz nə deyə bilərsiniz?**

**C a v a b:** Azərbaycanda seçkiqabağı kampaniyanı cürbəcür qiymətləndirirlər. Mən ATƏT-in, Avropa Şurasının nümayəndələri ilə görüşmüşəm. Namizədlərin seçkiqabağı kampaniyası vaxtı hər hansı bir nöqsanlara yol verilməsi barədə bəzi fikirlərlə tamamilə razı deyiləm. Hər bir namizədə hər həftə dövlət telekanalında 10 dəqiqə efir vaxtı təqdim edilmişdir. Yeddi həftə ərzində bütün namizədlər, o cümlədən mən də, 70 dəqiqə seçicilərlə birbaşa əlaqədə olmaq imkanı əldə etmişdir.

Baş nazir kimi, vəzifəm üzərimə əlavə məsuliyyət qoymuşdur. Mən dövlət başçıları ilə bir neçə qeyri-rəsmi görüş keçirmişəm və bunlar mətbuatda geniş işıqlandırılmışdır. Lakin bunlar seçkiqabağı kampaniyaya aid deyildir. Əgər hansısa pozuntular olmuşdursa, bunlara, əsasən, müxalifət tərəfindən yol verilmişdir. Yaxud da, bu kampaniyanın gedişini izləmiş adamlar çox da səmimi danışmırlar. Bu pozuntulara görə hökumət məsuliyyət daşımır. Görünür, bunlar həm də keçid dövrü ilə bağlıdır. Şəxsən mən belə faktlara görə təəssüflənirəm. O ki qaldı beynəlxalq təşkilatlarla əməkdaşlığa, bu, ölkəmizin mənafelərinə uyğundur. Azərbaycan Avropa Şurasında layiqli yer tutur. Bu təşkilatın rəhbərliyi qanunvericiliyimizin təkmilləşdirilməsində ölkəmizə kömək göstərmişdir. Ona görə də əminəm ki, Azərbaycan bu təşkilatlarla əməkdaşlığı davam etdirməlidir.

Azərbaycan Prezidenti müalicədədir, səhhəti normaldır. Tibbi mənbələr onun səhhəti barədə müntəzəm olaraq məlumat yayırlar. Mən onunla daim əlaqə saxlayıram və o, seçkiqabağı kampaniyanın gedişini internet vasitəsilə izləyir, çünki bizim televiziya kanallarının internetə qoşulmaq imkanı var. Siz dediyiniz şayiələrin qarşısını almağa çalışmırıq, ona görə ki,

bizdə mətbuat azaddır. Əgər biz həmin mətbu nəşrlərə qarşı inzibati tədbirlər görsəydik, bu, demokratik normalara zidd olardı. Şayiələrin digər səbəbi müxalifət mətbuatında ədəb-ərkan normalarının olmamasındadır, bu şayiələri yayanların əməlləri insanlığa ziddir, bu adamlar özlərini normal məxluq kimi aparmalıdırlar.

**S u a l: Rusiya televiziyası. Cənab Baş nazir, Azərbaycan son 10 ildə hasilat sənayesində, xüsusən neft sektorunda, həqiqətən, böyük uğurlara nail olmuşdur. Siz prezident seçilsəniz, digər sahələri, məsələn, kənd təsərrüfatını və sairəni də inkişaf etdirəcəksinizmi?**

**C a v a b:** Bilirsinizmi, mən bu fikirlə razı deyiləm. Lakin neft sektorunun sürətlə inkişafı, sadəcə olaraq, hamının gözü qabağındadır. Digər sahələrdə əldə edilmiş nailiyyətlər onun arxasında, bəlkə də, həmişə görünmür. MDB ölkələri arasında birinci olaraq Azərbaycan torpaq islahatı apardı və torpaq kəndlilərin xüsusi mülkiyyətinə verildi. Yalnız bir vergi, torpaq vergisi istisna olmaqla, bu sahədəki bütün vergilər ləğv edilmişdir.

Biz son 6-7 ildə kənd təsərrüfatı istehsalının sürətlə, 4-5 dəfə artdığını, bəzi kənd təsərrüfatı məhsulu istehsalında isə hətta 10 dəfə artdığını müşahidə edirik. İndi Azərbaycan kənd təsərrüfatı məhsulları ilə özünü tamamilə təmin edir və bu meyl davam etməkdədir. Qeyri-neft sektorunun, təkcə kənd təsərrüfatının deyil, həm də neft kimyasının, tikintinin, nəqliyyatın, xidmət sahəsinin inkişaf etdirilməsi hakimiyyətdə olacaq hər hansı hökumətin fəaliyyətinin öncül istiqaməti olacaqdır. Biz neft sektorunda böyük uğurlar qazanmışıq, burada ciddi problemlər yoxdur, ona görə də qeyri-neft sektorunun inkişaf etdirilməsi öncül vəzifə olmalıdır. Bu istiqamətdə iş aparılır. Azərbaycanın illərdən bəri boş dayanan iri sənaye müəssisələri artıq öz fəaliyyətini bərpa edir. Son iki ayda mən yeni fabrik və zavodların açılışında və çoxdan işləməyən müəssisələrin fəaliyyətinin bərpasında iştirak etmişəm. Bu bizim üçün öncül istiqamət olacaqdır və əminəm ki, Azərbaycan dinamik surətdə və hərtərəfli inkişaf edəcəkdir.

**S u a l: Türkiyənin "Samanyolu" televiziyası. Cənab Baş nazir, xarici siyasət sahəsində Azərbaycan üçün ən önəmli ölkələrdən biri Türkiyədir. Sizcə, iki ölkə arasında əməkdaşlığın hansı imkanlarından istifadə olunmayıb? İkinci sualım ondan ibarətdir ki, Heydər Əliyevin siyasi xəttinə gətirəcəyiniz yenilik nə olacaqdır?**

**C a v a b:** Türkiyə ilə Azərbaycan arasında münasibətlər uğurla inkişaf edir. Biz qardaş ölkələrik və bütün sahələrdə əməkdaşlığımız bizi sevindirir. Təsadüfi deyil ki, Baş nazir vəzifəsinə təyin olunduqdan sonra məni ilk təbrik edən Türkiyənin Baş naziri hörmətli Rəcəb Tayyib Ərdoğan olmuşdur. O, eyni zamanda məni Türkiyəyə dəvət etdi. Çox şadam ki, Baş nazir kimi ilk xarici səfərim məhz bu ölkəyə oldu və bu, belə də olmalıdır. Ölkələrimiz bütün sahələrdə sıx əməkdaşlıq edir, bir-birinə kömək göstərir. Biz dəfələrlə bəyan etmişik ki, gələcəyimiz də birlikdə olmalıdır. Elə sahə yoxdur ki, orada Türkiyə ilə Azərbaycan arasında uğurlar əldə edilməsin. Bunları sadalamaq üçün çox vaxt lazımdır. Biz, sadəcə, çalışmalıyıq ki, bu əməkdaşlıq, işbirliyi bundan sonra da davam etsin və ölkələrimiz, insanlarımız bir-birinə daha da yaxın olsunlar.

Mən dəfələrlə bəyan etmişəm ki, Heydər Əliyevin siyasi xəttinə sadiq olacağam. Azərbaycanla Türkiyə arasında mövcud olan qardaşlıq münasibətlərinin səbəbkarlarından biri də Heydər Əliyev və onun siyasəti olmuşdur. Cənab Prezidentin apardığı siyasət bütün sahələrdə bizə böyük uğurlar gətirmişdir. Biz bu siyasəti davam etdirməliyik. Həyat yerində durmur, Azərbaycan sürətlə inkişaf edir. Yəqin ki, qarşımıza hansısa yeni vəzifələr çıxacaqdır, yeni tədbirlər görüləcəkdir. Amma onlar da Heydər Əliyevin siyasi xəttinin çərçivəsində olacaqdır. Azərbaycanın xoşbəxt gələcəyi Heydər Əliyevin siyasətinin davam etməsi ilə bağlıdır.

**S u a l: Gürcüstan televiziyasının birinci kanalı. Cənab İlham Əliyev, ATƏT missiyası nümayəndələrinin seçkilərlə bağlı narahatlıq ifadə olunan bu yaxınlardakı bəyanatlarını**

**neçə şərh edərdiniz?**

**C a v a b:** Mən heç kimə qabaqcadan bir fikir söyləməyi məsləhət görmürəm. Hadisələri necə baş verməsinə görə qiymətləndirmək lazımdır. Nə istəsən güman etmək olar. Lakin bu gümanlar müəyyən bir nəticəyə gəlmək üçün əsas olmamalıdır. Müşahidəçilər nəticə çıxaracaqlar. Bu gün ölkədə mindən artıq xarici müşahidəçi vardır, yerli müşahidəçilər isə 40 mindən çoxdur. Saxtalaşdırma özlüyündə praktiki cəhətdən qeyri-mümkündür. Yeni Seçki Məcəlləsi və nəzərdə tutulmuş bütün prosedurlar buna imkan vermir. Yeni şəffaf qutular, zərflər qoyulmuş möhürlü bülletenlər, xarici nümayəndələrin iştirakı ilə bülletenlərin çap olunması da buna xidmət edir. Buna görə də məntəqələrdə nəticələr daha tez elan olunacaq. Bütün bu tədbirlər ona görədir ki, hər hansı manipulyasiyalar üçün imkan olmasın. Mən əminəm ki, bu olmayacaq və buna heç ehtiyac da yoxdur. Mən yenə də kiminsə şanslarından danışmaq istəmirəm, lakin böyük əminliklə deyə bilərəm ki, Azərbaycan xalqının əksəriyyəti artıq öz seçimini etmişdir. Mən bütün müşahidəçilərə öz mülahizələrinə görə deyil, artıq baş vermiş faktlar əsasında nəticələr çıxarmağı məsləhət görmək istəyirəm.

**S u a l: «Röyter» agentliyinin Qafqaz bürosu. Cənab İlham Əliyev, xahiş edirəm, deyin, Siz seçilsəniz kadr dəyişiklikləri etmək fikrindəsinizmi? Siz dediniz ki, Heydər Əliyevin xəttini davam etdirmək niyyətindəsiniz. Tarixə yenilikçi İlham Əliyev kimi yox, Heydər Əliyev xəttinin davamçısı İlham Əliyev kimi daxil olmaq Sizi düşündürmürmü? İkinci sual: bu günlərdə Sizin açdığınız taekvondo mərkəzindən 200 metr aralıqda qaçqınlar ağır şəraitdə yaşayırlar. Onların həyatını yüngülləşdirmək üçün Siz konkret nə etmək fikrindəsiniz?**

**C a v a b:** Kadr dəyişikliklərinə gəldikdə, parlament tərəfindən Baş nazir vəzifəsinə təsdiq olunanda, mən bu barədə dedim. Dedim ki, Heydər Əliyev komandasının üzvüyəm və bu komandada ləyaqətli adamlar təmsil olunmuşlar, mən də bu adamlarla əməkdaşlıq etmək fikrindəyəm.

Ona görə də heç bir dəyişiklikdən söhbət belə gedə bilməz. Heydər Əliyev ilə işləmiş adamlar layiqli insanlardır, Azərbaycan dövlətçiliyinin, iqtisadiyyatının inkişafı işinə öz töhfələrini vermişlər. Odur ki, hər hansı köklü dəyişikliklərdən danışmağın heç bir mənası yoxdur. Zənnimcə, insan tarixə necə düşəcəyi barədə ən axırda fikirləşməlidir. Mən həmişə bunu əsas tutmuşam ki, gərək üzərinə düşən vəzifələri dəqiq yerinə yetirəsən. Digər tərəfdən, tarixə düşməkdən danışmalı olsaq, məncə, bu tarixə bir yenilikçi, novator kimi yox, məhz Heydər Əliyevin xəttinin davamçısı kimi düşmək daha şərəflidir. Biz "novatorları" Azərbaycanda 1992-ci ildə görmüşük. İndi müxalifətdə olan bu "novatorlar" uzun illər ərzində yaradılmış məktəbləri bağlayırdılar. Bax, bu "novatorlar" hakimiyyətdə bir il qaldıqdan sonra Azərbaycan xalqı onlara qapını göstərdi, özü də kifayət qədər birmənalı şəkildə. Ona görə də ölkəmizin rifahı üçün, müstəqilliyin və suverenliyin möhkəmlənməsi naminə, iqtisadi inkişaf naminə Heydər Əliyev xətti, nəyin bahasına olursa-olsun, davam etdirilməlidir. Bu mənim qəti əqidəmdir.

Dediyim kimi, üzərimə düşən bütün vəzifələrə məsuliyyətlə yanaşıram, o cümlədən də idmanın inkişafı məsələsində. Azərbaycanda haradasa problem varsa, o demək deyil ki, yeni idman qurğuları tikilməməlidir. Mən belə yanaşmanı tamamilə səhv və Azərbaycanın mənafeləri baxımından yersiz hesab edirəm. Ölkəmizin bir çox bölgələrində hər cür şərait yaradılmışdır ki, gənclər küçələrdə avara gəzib-dolaşmasınlar, narkotiklərə qurşanmasınlar, əksinə, idmanla məşğul olsunlar. Bu çox yaxşıdır. Azərbaycan xalqı üçün çox yaxşıdır. Olimpiya Komitəsinin bu gün gördüyü işləri indiyədək başa düşməyənlər 5–10 ildən sonra başa düşəcəklər. Lakin başa düşməyənlər azdır.

Azərbaycanda qaçqın-köçkünlərin yaşayışını yaxşılaşdırmaq problemi həll edilir. Ölkə özünün neft sahəsindəki fəaliyyətindən ilk mənfəəti götürən kimi, neft fondundan ilk pulları – 70 milyon dolları onların həyat şəraitinin yaxşılaşdırılmasına yönəltmişdir.

Mən bu yaxınlarda Biləsuvar rayonunda olarkən yeni qəsəbənin açılışında iştirak etdim. Çadır düşərgəsindən 2600 ailə, – bu isə 10 mindən çox adam deməkdir, – hər cür rahatlığı, suyu, işığı, torpaq sahəsi olan müasir evlərə köçmüşdür. Onlar maddi yardım da aldılar. Bu proses davam etdiriləcəkdir. Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmamalıdır. Şükürlər olsun ki, indi bizdə buna imkanlar yaranır və onları, ilk növbədə, bu məqsədlərə yönəldirik. Bu adamlar ən ağır şəraitdə yaşayırlar. Ona görə də hökumətin vəzifəsi onlara kömək etməkdir. Bu kömək bundan sonra da göstəriləcəkdir.

**S u a l: "Çikaqo tribyun" qəzeti. Korrupsiya ilə mübarizə barəsində nə deyə bilərsiniz?**

**C a v a b:** Təəssüf ki, inkişaf etmiş ölkələr də daxil olmaqla, korrupsiya bütün dünyada var. Zəngin demokratiya ənənələri olan ölkələrdə də korrupsiya ilə bağlı zaman-zaman qalmaqallar baş verir. Bu o deməkdir ki, korrupsiya nəinki keçid dövrünü yaşayan ölkələrə, cəmiyyətin demokratik inkişafı sahəsində böyük təcrübəyə malik dövlətlərə də xas olan haldır. Lakin keçid dövrünü yaşayan ölkələr bundan daha çox əziyyət çəkir, ona görə də hökumət korrupsiya ilə mübarizədə böyük səylər göstərməlidir. Amma bu mübarizədə təkcə inzibati tədbirlərlə uğur qazanmaq mümkün deyildir. Korrupsiyanın səviyyəsini aşağı salmaq üçün, ilk növbədə, özəlləşdirmə aparmaq lazımdır, sahibkarlar sinfi yaradılması çox vacibdir. Bu amillər korrupsiya ilə mübarizədə kömək edərdi. Onlar inzibati tədbirlərdən daha səmərəlidir. Azərbaycan özəlləşdirmə sahəsində böyük uğurlar qazanmışdır. İndi ümumi daxili məhsulun təxminən 75 faizi özəl sektorun payına düşür. Ölkədə bazar iqtisadiyyatı inkişaf edir. Azərbaycanda korrupsiya halları mövcuddur və indi ölkənin hüdudlarından kənarda yaşayan müxalifət liderlərinin bunda xeyli dərəcədə əli var. Onlar oğurladıqları pullar hesabına beynəlxalq mətbuatda Azərbaycan əleyhinə məqalələr yazdırırlar. Ancaq deməliyəm ki, hökumət tərəfindən ölkənin nə daxilində, nə də xaricində indiyədək bir dənə də belə korrupsiya hadisəsi qeydə alınmayıbdır.

**S u a l: "Rossiyskaya qazeta". Cənab Baş nazir, mənim üç sualım var. Siz prezident seçilsəniz, iqtisadiyyat sahəsində Rusiya ilə hansı önəmli məsələni həll edəcəksiniz? İkinci sual: Siz prezident seçilsəniz, indiki prezident Heydər Əliyev həyatınızda nə kimi rol oynayacaqdır? Üçüncü sual: beynəlxalq terrorizmlə mübarizədə Azərbaycanın rolu necədir? Cənab Prezidentin şəxsi mühafizə rəisinin həbs edilməsi barədə şayiəni təkzib edə bilərsinizmi?**

**C a v a b:** Bax, görürsünüzmü, yenə də şayiələr. Təəssüf ki, bizdə hər şey barəsində şayiələr yayırlar.

Rusiya ilə bizim çox yüksək səviyyədə iqtisadi əməkdaşlığımız var. Biz elə layihələr həyata keçiririk ki, onları keçmişdə təsəvvürə belə gətirmək çətin olardı. Bütün bunlar ölkələrimizin rəhbərliyinin, iki prezidentin – Vladimir Putinin və Heydər Əliyevin möhkəm iradəsi sayəsində mümkün olmuşdur.

Aramızdakı əlaqələr, qarşılıqlı anlaşma, siyasi müstəvidə münasibətlərin yaxşılaşması energetika sahəsində və digər sahələrdə yaxşı iqtisadi nəticələrə gətirib çıxarmışdır. Biz bundan sonra da Rusiya ilə əməkdaşlığa böyük əhəmiyyət verəcəyik və bu əməkdaşlığı bütün istiqamətlərdə inkişaf etdirməyə hazırıq.

Mənim həyatımda Heydər Əliyevin rolu mənim statusum və yaxud vəzifəmlə müəyyən edilmir. Bu rol mənim formalaşmağımda həlledici olmuşdur. Mən taleyimə minnətdaram ki, belə ailədə doğulmuş və böyümüşəm. Onun Prezident kimi fəaliyyəti çoxlarına məlumdur. Lakin onun mərdliyi, cəsarətliliyi, səmimiliyi və ədalətliliyi kimi şəxsi keyfiyyətlərini çox az adam bilir. Heydər Əliyev ən çətin şəraitlərdə həmişə, ilk növbədə, mərd adam, insan kimi qalmışdır. Buna görə də mənim həyatımda onun rolunu qiymətləndirmək çox çətindir. Mən bütün həyatım boyu ona oxşamağa çalışmışam və çalışacağam. Azərbaycan beynəlxalq terrorizmlə mübarizədə fəal iştirak edir. Biz özümüz beynəlxalq erməni terrorizmindən əziyyət çəkmişik. Erməni terror təşkilatları Azərbaycanda 32 terror aktı

törətmiş, metro, avtobuslar, bərələr, qatarlar partladılmışdır. Bu 32 terror aktı nəticəsində Azərbaycanın 2 min günahsız vətəndaşı – qadınlar, uşaqlar, qocalar həlak olmuşdur. Bütün bunlar erməni terrorçuları tərəfindən törədilmişdir, amma, nədənsə, beynəlxalq birlik tərəfindən pislənməmişdir.

Hansısa həbslər barədə şayiələrə gəldikdə isə, bütün bunlar cəfəngiyatdır. Prezidentin mühafizəsinin bütün işçiləri öz funksiyalarını yerinə yetirirlər, onların bir hissəsi prezidentin yanındadır, bir hissəsi isə Bakıdadır. Heç kim həbs olunmamışdır. Mən müxalifət qəzetlərində deyilənlərə, onların uydurmalarına inanmamağı məsləhət görürəm.

**S u a l: Cənab Baş nazir, Neft Fondunun şəffaflığının təmin edilməsinə dair hansısa tədbirlər görməyi, qanunvericilikdə dəyişikliklər etməyi planlaşdırırsınızmı?**

**C a v a b:** Biz Azərbaycanın Neft Fondunun inkişafından çox razıyıq. Mən 9 ildir ki, bilavasitə neft layihələri ilə bağlı məsələlərlə məşğul olmuşam. Neft sektoruna 5-6 milyard dollardan artıq vəsait qoyulmuşdur. Yaxın 3 il ərzində 9 milyard dollar da qoyulacaqdır. Yeni yataqlardan neft hasil olunur, Bakı–Tbilisi–Ceyhan boru kəməri tikilir. Bu kəmər yaxın gələcəkdə işə salınacaq və 50 milyon ton neft nəql etməyə imkan verəcəkdir. Odur ki, hər şey çox uğurludur, sərmayədarlar qanunvericiliklə qorunur, hər bir neft müqaviləsi parlamentdə təsdiqlənir və qanun qüvvəsi alır. Şəffaflıq barədə deyə bilərəm ki, Azərbaycanın Neft Fondu bu şəffaflığın ən parlaq nümunəsidir, bu sektorda şəffaflıq birbaşa öz əksini tapmışdır. Hər il Neft Fondunun beynəlxalq auditi keçirilir, Neft fondunun gəlir və xərcləri barədə bütün informasiya mətbuatda dərc olunur. Valyuta Fondu, Dünya Bankı kimi beynəlxalq maliyyə təşkilatları Neft Fondunun məhz şəffaflığını çox yüksək qiymətləndirirlər.

Azərbaycan Böyük Britaniyanın Baş naziri Toni Bleyrin hasilat sahələrində şəffaflıq haqqında təşəbbüsünə qoşulmuş ilk ölkələrdən biridir və mən özüm şəxsən bu il Londonda bu barədə konfransda iştirak etmişəm. Bizim üçün bu, əsas

məsələdir. Biz istəyirik ki, neft sərvətləri ədalətlə bölüşdürülsün. Belə bir acı həqiqət də vardır ki, neft hasil edən bir çox ölkələrdə külli miqdarda neft çıxarılması nəinki iqtisadi vəziyyəti yaxşılaşdırmamış, əksinə, pisləşdirmişdir. Biz dünyada mövcud olan bütün neft fondlarının fəaliyyətini öyrənirik və Norveçdəki fondu model kimi seçmişik. Çünki həmin fond daha şəffafdır, neft hasil edən ölkələr arasında ən müsbət nəticələr məhz orada əldə edilmişdir. Buna görə də heç kimdə heç bir şübhə olmamalıdır. Azərbaycan Neft Fondunun şəffaf olmasında, ölkənin bütün vətəndaşlarının ondan bəhrələnməsində, ilk növbədə, özü maraqlıdır. Çox sağ olun.

## AZƏRBAYCAN MİLLİ OLİMPİYA KOMİTƏSİ İCRAİYYƏ KOMİTƏSİNİN İCLASINDA ÇIXIŞ

*13 oktyabr 2003-cü il*

Əziz idmançılar!

Bu gün Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin növbəti toplantısıdır. Biz bu görüşləri mütəmadi qaydada keçiririk, vəziyyəti müzakirə edirik, idmançılarımızın uğurlarına sevinirik. Eyni zamanda, ilin yekunları haqqında da məlumat veririk. Azərbaycan idmançılarının beynəlxalq yarışlarda qazandıqları medalların sayı ildən-ilə artır. 1997-ci ildən bu günə qədər bütün beynəlxalq yarışlarda – dünya, Avropa çempionatlarında, olimpiya oyunlarında, rəsmi yarışlarda mindən çox medal qazanılmışdır. Bu bir daha onu göstərir ki, Azərbaycan idmanı inkişaf edir, respublikamız dünyanın aparıcı idman ölkəsinə çevrilir. Bunu nəinki biz deyirik, bütün beynəlxalq idman qurumları nailiyyətlərimizi təsdiqləyir.

Beynəlxalq Olimpiya Komitəsi ilə çox işgüzar münasibətlərimiz var. Onların bir neçə tədbiri Azərbaycanda keçirilibdir. Beynəlxalq federasiyalarla əməkdaşlığımız uğurla davam edir.

Beynəlxalq federasiyaların prezidentlərinin Azərbaycana gəlməsi də bunu təsdiqləyir. Biz bu əlaqələri önəmli hesab edirik və istəyirik ki, dünya idman təşkilatları ilə əməkdaşlığımız daha da genişlənsin.

Azərbaycanda idmanın maddi-texniki bazası yaradılıb və bundan sonra da yaradılacaqdır. Çox sevindirici haldır ki, müvafiq federasiyalar özləri də bu təşəbbüsə qoşulublar. Azərbaycanda son müddət ərzində bir neçə federasiya idman kompleksi yaradılıbdır. Görülən bütün bu işlər bir məqsədə qulluq edir. Bu da ondan ibarətdir ki, Azərbaycanda idman inkişaf etsin və idmançılarımız xalqımızı sevindirsinlər, sağlam gənc nəsil yetişsin. Bu sahədə qarşımıza qoyduğumuz bütün məsələləri müvəffəqiyyətlə həyata keçiririk.

Son iki həftə ərzində Azərbaycanın bir neçə bölgəsində yeni olimpiya kompleksləri açılıbdır. Bu müddət ərzində mən Azərbaycanın, demək olar ki, bütün bölgələrində olmuşam və bəzi görüşlərdə də məndən xahiş edilmişdir ki, bu komplekslərin sayı artsın, digər yerlərdə də tikilsin. Mən də söz verdim ki, biz bu siyasətimizi davam etdirəcəyik. Beləliklə, elə bir vəzifə yoxdur ki, Milli Olimpiya Komitəsi onu yerinə yetirməsin. Azərbaycanın idman potensialı ildən-ilə güclənir, idman bölmələrinə axın artır və bunun nəticəsində idmançılarımız uğurlar qazanırlar.

Sidney Olimpiadasında idmançılarımızın uğurla çıxış etmələrini xatırlasaq, bu, hesab edirəm ki, o dövr üçün Azərbaycan idmanında baş verən ən mühüm hadisə, idmanda əldə etdiyimiz zirvə idi. Amma o dövrdən sonra atletlərimiz idmanın bir neçə növü üzrə dünya və Avropa çempionatlarından doğma Vətənə qələbə ilə qayıtmışlar. Bu da onu göstərir ki, olimpiya oyunlarından sonra bu işlər davam edir və mən əminəm ki, qarşıdan gələn Afina olimpiadasında da idmançılarımız müxtəlif növlərdə medallar uğrunda mübarizə aparacaqlar.

Olimpiya oyunlarında ölkəmizi ləyaqətlə təmsil etmək üçün Azərbaycanda bütün tədbirlər görülür. Bildiyiniz kimi, Azərbaycanda üç idman növü üzrə lisenziya turniri keçiriləcəkdir. Bu da beynəlxalq idman qurumları ilə uğurlu münasibətlərimizin təzahürüdür. Əgər bu münasibətlər olmasaydı, əlbəttə ki, bizə bu diqqət göstərilməzdi.

Hesab edirəm ki, bu turnirlərin Azərbaycanda keçirilməsi idmançılarımızın olimpiya oyunlarında çıxış etmək imkanlarını asanlaşdıracaqdır. Olimpiya oyunlarına hazırlıq lisenziyaları, bir növ, olimpiya oyunları keçirilməsi deməkdir. Eyni zamanda, Azərbaycanda gələcəkdə də belə mötəbər yarışların keçirilməsi imkanları daha da genişlənəcəkdir. Gələcəkdə müxtəlif idman növlərində çempionatlar keçiriləcək, beləliklə, Azərbaycanda idman daha geniş vüsət alacaqdır.

Biz idmançılarla tez-tez görüşürük. Demək olar ki, son üç ay

ərzində, müəyyən səbəblərə görə, mən idmançılarla görüşə bilməmişəm. Seçki kampaniyası ilə məşğul olmuşam. Əbülfəs müəllimlə söhbət əsnasında maraqlandım ki, bu müddət ərzində idmançılarımızın çıxışları necə olubdur. Düzdür, mən bunu izləyirdim, amma, eyni zamanda, dəqiqləşdirmək istəyirdim. Çox məmnunluq hissi ilə deyə bilərəm ki, bu müddət ərzində 50-dən çox idmançımız rəsmi yarışlarda, yəni Avropa və dünya çempionatlarında medal qazanıbdır.

Bildiyiniz kimi, mən idmançılarla, ola bilər ki, ayda iki dəfə, bəzən üç dəfə görüşlər keçirirəm. Hər dəfə müəyyən qrup idmançı ilə, yəni bir idman növü ilə məşğul olan idmançılarla görüşürəm. Amma bu uzun fasiləyə görə bu gün biz burada Azərbaycanın müxtəlif idman növləri ilə məşğul olan idmançılarla görüşürük. Görün qısa müddət ərzində Azərbaycanın bayrağı neçə dəfə qaldırılıb, himni səslənibdir. İdmançılarımız neçə dəfə ölkəmizi ləyaqətlə təmsil ediblər. Bu proses gedir və artıq dönməz xarakter alıbdır. Bunun qarşısını heç kim ala bilməz.

Mən əminəm ki, indi yeniyetmə yaşında çıxış edən idmançılarımız da bir müddətdən sonra bu estafeti davam etdirəcəklər. Hazırda Azərbaycanı təmsil edən idmançılar çıxışlarını dayandırandan sonra onların yeri boş qalmayacaqdır. Çox gözəl nəsil yetişir. Gənclər və yeniyetmələr arasında dünya, Avropa çempionatlarında idmançılarımızın çıxışları da bunu təsdiqləyir. Bir sözlə, Azərbaycan artıq idman ölkəsidir. Bizimlə hesablaşırlar, bizdən çəkinirlər və Azərbaycanın adı gələndə bütün yarışlarda, mən əminəm ki, rəqiblərimiz də idmançılarımıza böyük hörmətlə yanaşırlar. Bu hörməti hamımız birlikdə qazanmışıq. Bizim birgə fəaliyyətimiz bunu mümkün edibdir. Mən, ilk növbədə, idmançılarımızın, onların məşqçilərinin, idman mütəxəssislərinin fəaliyyətini yüksək qiymətləndirmək istəyirəm. Çünki bu yükün böyük hissəsi, ilk növbədə, onların üzərinə düşür.

Üzərimizə düşən vəzifələri biz gözəl dərk edirik. Çox şadam ki, hər bir tərəf, yəni idmançılar da, federasiya rəhbərləri də,

nazirliyin əməkdaşları da, Milli Olimpiya Komitəsi də öz üzərinə düşən vəzifələri ləyaqətlə yerinə yetirirlər. Məhz bu birgə fəaliyyət nəticəsində Azərbaycan idmanda böyük uğurlar qazana bilibdir.

Burada nəticə göstərmiş, medal qazanmış 50-dən çox idmançı artıq mükafatlandırılıbdır. Onlara pul mükafatları verilibdir. Azərbaycanda bu praktika davam edir. Eyni zamanda, hökumət, dövlət tərəfindən də mükafatlar verilir. Bəzi hallarda federasiyalar tərəfindən də mükafatlar verilir və verilməlidir. Çünki mən dəfələrlə demişəm ki, idmançılar gərək heç nədən korluq çəkməsinlər. Onların həyat səviyyəsi də, məişət şəraiti də yaxşı olmalıdır. Azərbaycanı təmsil edən, ölkəmizin bayrağını qaldıran idmançı hər mənada gərək hörmətə layiq olsun. Ona görə biz keçmişdə də bu məsələlərlə məşğul olmuşuq və deyə bilərəm ki, Azərbaycanda onlarca idmançının, ilk növbədə, Azərbaycanı olimpiya oyunlarında, dünya çempionatlarında təmsil edən, qələbə qazanan idmançıların vəziyyəti yaxşılaşdırılıbdır. Bu proses bu gün də davam edir. Mən qeyd etdim ki, 50-dən çox idmançıya pul mükafatları verilibdir. Eyni zamanda, daxil olan ərizələrə də biz Bakı Şəhər İcra Hakimiyyəti ilə birlikdə baxırıq, idmançılarımıza diqqət göstərir, kömək edirik.

Bu gün bizim 14 idmançımıza, məşqçimizə, mütəxəssisimizə mənzillər verilir. Onların bir neçəsi burada yoxdur, yarışlarda iştirak edirlər, Vətənə döndükdən sonra onlar da mənzillərini alacaqlar, orderlərini verəcəyik. Amma adlarını burada çəkərik. Burada olanlara isə mən istəyirəm bu orderləri təqdim edim, onlara xoşbəxtlik arzulayım və əmin olduğumu bildirim ki, bundan sonra da Azərbaycanın idman şərəfini onlar uca tutacaqlar.

Boks üzrə dünya çempionu Ağasi Məmmədov uzun müddət idi ki, yəni 15 yaşından qardaş Türkiyənin milli yığma komandasında fəaliyyət göstərirdi. Amma mən çox şadam ki, Ağasi Vətənə döndü və ondan sonra dünya çempionu oldu. Buna nail olmağa əziz Vətən sənə kömək etdi. Səni təbrik

edirəm. Sağ ol.

Mən sizin hamınızı bir daha təbrik edirəm. Bizim görüşlərimiz bundan sonra da davam edəcəkdir. Əgər oktyabrın 15-də Azərbaycan xalqı mənə etimad göstərərsə, yenə də idmandan ayrılmayacağam. Keçmişdə mənim bir neçə vəzifəm var idi – Milli Məclisin deputatı, Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Avropa Şurasında Azərbaycan nümayəndə heyətinin başçısı və Milli Olimpiya Komitəsinin Prezidenti... O biri vəzifələr də mənim üçün əziz idi. Mən də həyatımın böyük hissəsini bu işlərə həsr etmişdim. Hesab edirəm ki, bu vəzifələri ləyaqətlə yerinə yetirmişəm. Hər halda, heç kim irad tuta bilməz ki, mənə tapşırılan hansısa bir işdə qüsur olubdur. İndi nə qədər ağır olsa da, həmin vəzifələrdən mən imtina edəsi oldum. Amma hələlik Milli Olimpiya Komitəsinin Prezidenti vəzifəsində qalıram. Hesab edirəm ki, əgər idmançılar tərəfindən razılıq olarsa, mən bundan sonra da bu vəzifəmi saxlayacağam.

**TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ,**
**ƏDALƏT VƏ İNKİŞAF PARTİYASININ SƏDRİ**
**ZATİ-ALİLƏRİ CƏNAB**
**RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Baş nazir!
Əziz dostum və qardaşım!
Əsasını qoyduğunuz və hakimiyyətə gətirdiyiniz Ədalət və İnkişaf Partiyasının birinci qurultayında yekdilliklə partiyanın sədri vəzifəsinə yenidən seçilməyiniz münasibətilə sizi səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Türkiyə arasında tarixin sınaqlarından çıxmış möhkəm dostluq, sıx əməkdaşlıq, həqiqi tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin inkişafı və möhkəmləndirilməsi yolunda səylərimizi bundan sonra da əzmlə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 14 oktyabr 2003-cü il

## SEÇKİ MƏNTƏQƏSİNDƏ YERLİ VƏ XARİCİ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN ÇOXSAYLI MÜXBİRLƏRİNİN SUALLARINA CAVAB

*15 oktyabr 2003-cü il*

**S u a l: İlham müəllim, seçkilərlə əlaqədar Sizin fikrinizi bilmək istərdik. Seçki kampaniyasına münasibətiniz necədir?**

**C a v a b:** Münasibətim çox müsbətdir. Seçki kampaniyası çox uğurla başa çatır. Əminəm ki, bu seçkilər Azərbaycanın xoşbəxt gələcəyi üçün mühüm bir addım olacaqdır. Mən arzu edirəm ki, ölkəmiz qüdrətli, zəngin dövlətə çevrilsin. Azərbaycanda yaşayan hər bir insan normal həyata layiq olsun. Əminəm ki, bu belə də olacaqdır.

**S u a l: İlham müəllim, əhval-ruhiyyəniz necədir?**

**C a v a b:** Əhval-ruhiyyəm çox yaxşıdır, çox gözəl hisslər keçirirəm. Əminəm ki, bu seçkilər Azərbaycan cəmiyyətinin inkişafında, xalqımızın rifah halının yüksəlməsində və dövlətçiliyimizin möhkəmlənməsində mühüm addım olacaqdır.

**S u a l: Cənab Baş nazir, Siz kimə səs verdiniz?**

**C a v a b:** Mən Azərbaycanın xoşbəxt gələcəyinə səs verdim.

**S u a l: İlham müəllim, seçkilərin gedişindən razısınızmı?**

**C a v a b:** Bəli, razıyam.

**S u a l: Bu gün səhər prezident Heydər Əliyevlə danışmısınızmı?**

**C a v a b:** Yox, bu gün hələ danışa bilməmişəm, çünki indi orada gecə vaxtıdır. Dünən cənab Prezidentlə danışmışam. Biz, demək olar ki, hər gün əlaqə saxlayırıq. İndi orada gecə saat 3-dür. Bir azdan sonra əlaqə saxlayacağam.

**S u a l: O sizə məsləhət və yaxud xeyir-dua verdimi?**

**C a v a b:** Bundan əvvəl məsləhətlərini vermişdi. Bu gün də yəqin ki, o mənə uğurlar arzulayacaq.

**S u a l: Cənab Prezidentin bu seçki ilə bağlı hər hansı bir**

**narahatlığı var idimi?**

**C a v a b:** Xeyr, heç bir narahatlığı yox idi. Mən bu barədə demişəm. O burada gedən bütün prosesləri internet vasitəsilə izləyir, Azərbaycanın televiziya kanallarına baxır və demək olar ki, onda tam mənada təəssürat vardır.

**S u a l: İlham müəllim, ilk addımlarınızı bilmək olarmı?**

**C a v a b:** Əgər mənə etimad göstərilərsə, bütün addımlarım – istər ilk, istərsə də sonrakı addımlarım Azərbaycanın dövlətçiliyinin, suverenliyinin və müstəqilliyinin möhkəmləndirilməsinə, iqtisadi inkişafa, sosial problemlərin həllinə, xüsusilə daha ağır şəraitdə yaşayanların – qaçqınların, məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılmasına, Dağlıq Qarabağ probleminin ədalətli və beynəlxalq hüquq normalarına uyğun şəkildə həllinə yönəldiləcəkdir.

**S u a l: Bu gün bəzi qəzetlərdə Prezidentin səhhəti ilə bağlı müxtəlif məlumatlar yayılıb. Ümumiyyətlə, Prezidentin səhhəti necədir?**

**C a v a b:** Prezidentin səhhəti yaxşıdır. Onun müalicəsi davam edir. Yayılan məlumatlara fikir verməməyinizi məsləhət görürəm.

**S u a l: Andiçmə mərasiminə qədər Prezidentin qayıtması gözlənilirmi?**

**C a v a b:** Mən ümidvaram ki, cənab Prezident o vaxta qədər Azərbaycanda olacaqdır. Əlbəttə, hər şey onun müalicəsindən asılı olacaqdır.

**S u a l: İlham müəllim, seçkilərdə əhalinin fəallığı Sizi razı salırmı?**

**C a v a b:** Bəli. Mənə verilən məlumatlara görə, o cümlədən televiziya kanallarından verilən reportajlara əsasən deyə bilərəm ki, fəallıq çox yüksək səviyyədədir, artıq səhər saatlarında əhalinin böyük bir hissəsi öz münasibətini bildiribdir. Bu təbiidir. Çünki bu gün Azərbaycanın gələcək inkişafı, hansı yolla irəliləyəcəyi müəyyən olunur. Əlbəttə, insanlarımızın fəallığı başa düşüləndir və təbiidir.

**S u a l: Azərbaycan mətbuatı ilə bağlı hansı addımları atacaqsınız?**

**C a v a b:** Atılacaq bütün addımlar Azərbaycanda söz azadlığının, demokratiyanın daha da inkişafına yönəldiləcəkdir. Bu, mətbuata da aiddir. İndi mən hansısa konkret söz deyə bilmərəm və heç bir vəd vermək istəmirəm. Amma əminəm ki, görüləcək bütün tədbirlər Azərbaycanın milli maraqlarının daha da ciddi şəkildə qorunmasına yönəldiləcəkdir.

**S u a l: Cənab Əliyev, Siz ilk turda qalib gələcəyinizə əminsinizmi?**

**C a v a b:** Mən özümün və yaxud digər namizədlərin şansını əvvəlcədən qiymətləndirmək istəmirəm və hesab edirəm ki, bu, düzgün deyildir. Heç kimə qabaqcadan nəticələr çıxarmağı məsləhət görmürəm. Lakin demək istəyirəm ki, keçirilmiş seçkiqabağı kampaniya və Azərbaycan vətəndaşlarının mənə göstərdiyi münasibət belə bir əminlik yaratmışdır ki, onlar öz seçimlərini etmişlər və bu seçim seçkilərin nəticələrində öz əksini tapacaqdır. Azərbaycana sülh, sabitlik, iqtisadi inkişaf, beynəlxalq aləmə inteqrasiya lazımdır. Ölkəmizə vətəndaş müharibəsinə, xaosa, anarxiyaya və cəhalətə qayıtmaq lazım deyildir. Azərbaycan əhalisinin böyük əksəriyyəti bunu çox gözəl başa düşür.

**S u a l: Cənab Baş nazir, Gürcüstanda da Sizin seçkilərdə qalib gəlməyinizi arzulayırlar. Bununla bağlı nə deyərdiniz?**

**C a v a b:** Təşəkkür edirəm, Gürcüstan vətəndaşlarına öz minnətdarlığımı bildirirəm. Bizim ölkələrimiz arasında münasibətlər qarşılıqlı anlaşma və dostluq əsasında, xalqlarımızın mənafeyi naminə daha da möhkəmlənməlidir.

**S u a l: Seçkilərin bu günədək gedişi haqqında fikrinizi öyrənmək istərdik?**

**C a v a b:** Seçkiqabağı kampaniya azad və şəffaf şəraitdə keçirilib, hər bir kəs bütün məsələlərə öz münasibətini bildirmək imkanına malik idi. Əminəm ki, bugünkü seçkilər azad və demokratik şəraitdə keçəcək və Azərbaycan xalqı özü kimə səs verəcəyini sərbəst və açıq şəkildə müəyyən edəcəkdir.

## TÜRKİYƏNİN AZƏRBAYCANDAKI FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ ƏHMƏD ÜNAL ÇEVİKÖZ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*16 oktyabr 2003-cü il*

**Ə h m ə d  Ü n a l  Ç e v i k ö z:** Cənab Baş nazir, bu an mən həm həyəcanlıyam, həm də çox böyük qürur hissi keçirirəm. Dünən keçirilmiş seçkilərin yekunlarının hələ rəsmən elan olunmamasına baxmayaraq, qeyri-rəsmi məlumatlara görə, Sizin ən yüksək səs toplayaraq Azərbaycanın Prezidenti seçilməyiniz artıq bəllidir. Azərbaycan və Türkiyə arasındakı əlaqələr hər zaman qardaşlıq zəminində inkişaf etmişdir. Hörmətli prezident Heydər Əliyevin siyasətinin davamı olaraq, Sizin prezident vəzifələrini icra etməyə başladıqdan sonra iki ölkə arasında münasibətlərin inkişafının davam edəcəyini düşünürəm və buna əminliyimi ifadə edirəm.

Mən Baş nazirimiz Rəcəb Tayyib Ərdoğanın Sizi telefonla təbrik etdiyini bilirəm. Öz növbəmdə, mən də Sizi öz adımdan, hörmətli Prezidentimizin, hörmətli Baş nazirimizin və Xarici İşlər nazirimizin adından bir daha təbrik etmək istəyirəm.

Azərbaycanda son on ildə yaradılmış sabitlik və inkişaf, həqiqətən, ölkənizi həm Qafqazda parlayan bir ulduza çevirmiş, həm də Avropa ailəsində gənc, dinamik və yeni müstəqillik qazanmış ölkələr arasında fərqlənən bir nöqtəyə gətirmişdir. Mən bu duyğularla Sizə öz təbriklərimi gətirmişəm. Eyni zamanda, şəhərdə sabitliyin pozulmasına yönəlmiş hərəkətləri də üzüntü ilə qarşılayıram və onların qarşısının ən qısa zamanda alınacağına inanıram.

Sizin və Azərbaycanın dövlət strukturlarının ölkədə sabitliyin qorunması sahəsində əzminizə inanıram. Azərbaycanda sabitlik və ölkənizin bu günə qədər yürütdüyü xəttin davam etməsi, həqiqətən, çox böyük əhəmiyyət kəsb edir.

Məni qəbul etdiyinizə görə öz təşəkkürümü bildirir və bir daha Sizi təbrik edirəm.

**İ l h a m  Ə l i y e v:** Cənab səfir, çox sağ olun. Sizə çox minnətdaram. Qeyd etdiyiniz kimi, cənab Baş nazir Rəcəb Tayyib Ərdoğan bu gün telefonla mənə zəng etdi və təbrik etdi. Bu bir daha göstərir ki, ölkələrimiz arasında olan dostluq və qardaşlıq münasibətləri davam və inkişaf edir. Siz bilirsiniz ki, Baş nazir vəzifəsinə təyin olunduqdan sonra da məni ilk təbrik edən hörmətli Baş nazir Rəcəb Tayyib Ərdoğan olmuşdur. O məni Türkiyəyə dəvət etdi və təbii ki, bu vəzifədə ilk səfərimi qardaş ölkəyə etdim. Bu ənənə Azərbaycanda yaşayır və bundan sonra da yaşayacaqdır. Fürsətdən istifadə edərək sizdən xahiş edirəm ki, hörmətli Prezidentə, hörmətli Baş nazirə və hörmətli xarici işlər nazirinə təbriklərə görə mənim dərin minnətdarlığımı çatdırasınız.

Türkiyə ilə Azərbaycan arasında olan dostluq və qardaşlıq münasibətləri çox yüksək səviyyədədir. Son on il ərzində ölkəmizdə Heydər Əliyev tərəfindən bu istiqamətdə aparılan siyasət öz müsbət nəticələrini verir. Mən çox şadam ki, həm Türkiyənin, həm də Azərbaycanın ictimai həyatında iki ölkənin qarşılıqlı münasibətləri öncül xarakter almışdır. Mən bundan sonrakı vəzifəmdə də çalışacağam ki, bu münasibətlər daha da genişlənsin, iki qardaş ölkə bir-birinə daha da yaxın olsun. Hörmətli Prezidentimiz dəfələrlə bəyan etmişdir ki, “Biz bir millət, iki dövlətik”. Bu, həqiqətən də belədir. Öz tərəfimdən çalışacağam ki, bu bir milləti daha da yaxın edəm.

Səfərim zamanı məni hərarətlə qəbul etdiklərinə görə, qardaş Türkiyənin Prezidentinə və Baş nazirinə bir daha öz təşəkkürümü bildirirəm. Bu bir daha sübut edir ki, bizim dostluq və qardaşlıq münasibətlərimiz bundan sonra da davam edəcəkdir. Bu gün mənim görüşdüyüm ilk rəsmi qonaq da məhz Türkiyənin böyük elçisidir. Dəfələrlə bəyan etmişəm ki, mən Heydər Əliyevin siyasi xəttinə sadiq olacağam, onun siyasətini davam etdirəcəyəm. Əmin ola bilərsiniz ki, ölkələrimiz arasında olan münasibətlər bundan sonra da inkişaf edəcəkdir. Bu sahədə

Azərbaycanın üzərinə düşən vəzifə layiqincə yerinə yetiriləcəkdir.

## MDB İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ – MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN İCRAÇI KATİBİ YURİ YAROV İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*17 oktyabr 2003-cü il*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Yarov, çox xoşdur ki, siz gəlib seçki prosesini müşahidə etdiniz. Sizin adınızdan verilmiş və seçki prosesini tam əks etdirən bəyanatdan xəbərdaram. Bu seçkilər bizim üçün çox mühüm idi. Azərbaycan xalqı öz seçimini demokratiyanın, sabitliyin və tərəqqinin xeyrinə etdi. Bir daha nümayiş etdirildi ki, Azərbaycanda hörmətli prezidentimiz Heydər Əliyevin siyasətinin alternativi yoxdur. Biz buna şübhə etmirdik və bilirdik ki, belə də olacaqdır. Çox şadıq ki, MDB ölkələrinin və digər beynəlxalq təşkilatların müşahidəçiləri də seçkilərin düzgün və ədalətli şəraitdə keçdiyini gördülər.

Obyektiv qiymətə görə və bu işə çəkdiyiniz zəhmətə görə sizə və sizinlə birlikdə iştirak edən müşahidəçilərin hamısına təşəkkürümü bildirmək istəyirəm. Düşünürəm ki, Azərbaycanda olmaq sizə də xoşdur.

**Y u r i Y a r o v:** İlham Heydəroviç, mən, ilk növbədə, Sizi Müstəqil Dövlətlər Birliyinin 200-dən artıq müşahidəçisi adından təbrik etmək, Heydər Əliyeviçə Dövlət Başçıları Şurası tərəfindən qəbul olunan dəvətinə görə təşəkkürümü bildirmək istərdim.

Həqiqətən, biz burada işləyərkən hiss edirdik ki, öz ailəmizdəyik. Rayonlara, şəhərlərə getmək üçün bizə hər cür imkan verilmişdi. Biz İvanovkada, kolxozda olduq və mən oradakı şəraitdən və bunun Azərbaycan üçün necə bir nailiyyət olduğu barədə hamıya danışdım. Burada insanlar 200 ildir yaşayırlar, onlara, həqiqətən əla şərait yaradılıb, hətta bu kollektiv təsərrüfatın gələcəkdə də saxlanması barədə ayrıca

qərar qəbul edilibdir.

Əlbəttə, mən bizə kömək göstərənlərin hamısına, xüsusən MDB İqtisadi Şurasının üzvü Abbas Aydınoviçə təşəkkür etmək istərdim. Çünki bizi hər yerdə kifayət qədər diqqətcilliklə qəbul edirdilər, demək lazımdır ki, biz heç bir problemlə, heç bir məsələ ilə qarşılaşmadıq, hər şey dərhal həll edilirdi. Bizim adamların hamısı razıdır, hər kəsə, komandamızın ən adi üzvünə diqqət göstərilirdi.

Biz burada özümüzü qardaş kimi hiss etdiyimizə görə minnətdarıq. Biz buraya qardaş kimi gəlmişik və bu prosesi birlikdə yaşadıq. Seçkilər prosesi isə ideal idi. Çünki harada olurduqsa, hər yerdə kifayət qədər ciddi hazırlıq işləri aparıldığını görürdük. Eyni zamanda, Seçki Məcəlləsində də bir çox yeni məqamlar var, bunlar MDB-də heç yerdə yoxdur. Məsələn, biz şəffaf qutular, zərflər gördük. Seçki komissiyalarının – istər dairə, istərsə də məntəqə komissiyalarının formalaşdırılmasının burada olan sistemini ilk dəfə görürdük. Seçki komissiyalarında ilk dəfə iştirak edən adamların faizi də yüksək – 30 faizdən 80 faizədək idi. Kifayət qədər ciddi məşğələlər keçirilməsi, qanunların öyrənilməsi bu adamların bilik səviyyəsinin yüksək olduğunu göstərirdi.

Şübhəsiz ki, biz seçicilərin fəallığına heyran qaldıq. Bu heyrətamiz idi, görürdük ki, adamlar seçki məntəqələrinin açıldığı ilk dəqiqələrdən gəlirdilər. Halbuki, onlar içəri keçib səs vermək üçün gözləməli olurdular. Lakin onlar səbrlə gözləyir və səs verirdilər. Həmin gün biz 1103 məntəqəyə getdik. Mənim üçün xoş idi ki, hamı, o cümlədən də müxalifətin nümayəndələri seçkilərin şəffaf keçdiyini etiraf edirdilər.

Bəli, Siz şərəflə və böyük səs fərqi ilə qalib gəldiniz. Bakı şəhərindəki 47 nömrəli məktəbdə açılmış 24 nömrəli məntəqədə hamının necə əl çaldığını görmək mənim üçün xoş idi. Ona görə də biz Sizi bir daha təbrik edirik. İlham Heydəroviç, mən Sizi Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsi adından da təbrik etmək, Sizə xoşbəxtlik və firavanlıq, bu çətin, məsul işdə uğurlar arzulamaq istərdim. Biz xoşbəxtik ki, Azərbaycanda

xalq öz seçimini, həqiqətən, açıq və azad, böyük səs çoxluğu ilə etmişdir. Bu sevindirici və xoşdur.

Mən Sizə onu da demək istəyirəm ki, seçki məntəqələrindən birində səsvermə bülleteni üçün zərfdə Sizin ünvanınıza məktub da vardı. Bu məktubun müəllifi Sizə xoşbəxtlik, öz dövlətinə tərəqqi arzulayır. Bu adam andiçmə mərasimindən sonra gedəcək, onun uşaqları isə burada qalacaqlar. O buraya, öz evinə bir daha qayıdacağı vaxtı səbirsizliklə gözləyir. Mən belə başa düşdüm ki, bunu yazan rusdur. Ona görə bu mənim üçün ikiqat xoşdur.

İndi, Dövlət Başçıları Şurasına daxil olduğunuz vaxtda Sizə hədiyyə təqdim etmək istərdik. Bu hədiyyə Müstəqil Dövlətlər Birliyinin 10 illiyi ərəfəsində hazırlanmışdır. 12 dövlətin emblemi olan bu hədiyyə yalnız prezidentlərə təqdim edilir. Siz dövlətin Prezidenti və Birlik Dövlətləri Başçıları Şurasının üzvüsünüz və hədiyyə təsdiq və ümid əlaməti kimi Sizə haqlı olaraq təqdim edilir. Siz MDB-ni möhkəmləndirəcəksiniz və biz inteqrasiyanın, dostluğun, demokratiyanın və iqtisadi əməkdaşlığın inkişafında irəliləyə biləcəyik. Biz Sizə böyük ümidlər bəsləyirik, çünki Heydər Əliyeviç patriarx, bütün bunları birləşdirən adam idi. Mən ona məsləhət üçün müraciət edirdim və həmişə də ondan dəstək alırdım. O, Birliyin prezidentləri arasında danılmaz nüfuza malikdir.

Bundan əlavə, cənab Heydər Əliyevə verilməsi üçün Rusiya Federasiyasının Rəssamlıq Akademiyasının prezidenti Zurab Seretelinin üçcildlik əsərini Sizə təqdim etmək istəyirəm. Bu əsərləri atanıza, bizim ən hörmətli adamımıza – əməkdaşlığımızın möhkəmlənməsi üçün çox işlər görmüş və əminəm, hələ çox işlər görəcək insana çatdırmağı Seretelinin özü xahiş etmişdir.

**İ l h a m  Ə l i y e v:** Xoş sözlərə görə, sizin verdiyiniz qiymətə görə və mənim üçün çox əziz hədiyyəyə görə sağ olun. Sizi əmin edirəm ki, MDB-nin üzvü olan dövlətlərin daha sıx birliyinə kömək göstərmək üçün var qüvvəmlə çalışacağam. Azərbaycan ölkələrimizin və xalqlarımızın yaxınlaşmasında

əvvəlkitək fəal rol oynayacaqdır.

Siz dediniz ki, seçkilər yeniliklərlə keçirildi. Bizim Seçki Məcəlləsi çox demokratikdir, indiki seçkilərə monitorinqi həyata keçirmiş, demək olar, bütün beynəlxalq təşkilatların kifayət qədər yüksək qiymətini almışdır. Buraya şəffaf qutular da, zərflər də daxildir. Həmçinin deyə bilərəm ki, səsvermənin nəticələrinə dair məlumat internet vasitəsilə dərhal yayılır, habelə məntəqələrdə divardan asılırdı. Görülən tədbirlərdən məqsəd bu idi ki, maksimum şəffaflıq, ədalətlilik təmin edilsin, heç kimdə şübhə yaranmasın.

Seçkilərin nəticələri bizim üçün gözlənilməz deyildi. Azərbaycan cəmiyyətinin əhval-ruhiyyəsi aydındır. Xalq öz sözünü hələ 1993-cü ildə, bir tərəfdən xaos və anarxiya, digər tərəfdən isə sülh və əmin-amanlıq arasında seçim etməli olanda demişdir. Ölkəmizin prezidenti Heydər Əliyevin rəhbərliyi ilə keçdiyi onillik yol xalqın seçiminin düzgün olduğunu göstərdi. İndiki seçkilərdə də Azərbaycan xalqı sülhə, əmin-amanlığa, sabitliyə və inkişafa səs verdi. Bu seçimin nə qədər düzgün olduğunu, təəssüf ki, dünənki hadisələr – 1992–1993-cü illərdə Xalq Cəbhəsi və Müsavatın dəhşətli hakimiyyət illərini bizə xatırladan kütləvi iğtişaşlar da göstərdi.

Siz İvanovkadakı kolxozdan danışdınız. Bu, Azərbaycanda yeganə kolxozdur. Heydər Əliyev orada hər şeyin olduğu kimi saxlanması barədə müvafiq fərman vermişdir. Yəni, orada həmin kəndin sakinlərinin istədiyi şərait yaradılmışdır. O dəhşətli vaxtlarda həmin bu İsa Qəmbərin göstərişi ilə Azərbaycanda rus məktəbləri bağlanırdı, hətta Elmlər Akademiyasının da bağlanmaq təhlükəsi var idi. Yaradıcılıq ittifaqları da bağlanırdı. Xalqımız bütün bunları yaxşı xatırlayır. Keçmiş üzvləri dünən iğtişaşlar törətməyə çalışan həmin hökumətin xalqımızın başına nə kimi müsibətlər gətirdiyini də xatırlayırıq. Lakin Azərbaycan indi qüdrətli dövlətdir. Biz özümüzü də, dövlətçiliyimizi də qorumaq iqtidarındayıq. Qayda-qanun bərpa edilmişdir və biz heç kimə qanunsuz hərəkətlər etməyə imkan verməyəcəyik. Cinayət törədənlər xalq

qarşısında, qanun qarşısında cavab verməli olacaqlar.

Mən çox şadam ki, siz və müşahidəçiləriniz seçki prosesini izləyə bilmisiniz. Mən Qərbi Avropa ölkələrindən olan müşahidəçilərin nümayəndəsi ilə görüşdüm. Mənə demişdilər ki, bu adam səslərin hesablanmasında iştirak etmişdir. O dedi: "Mən gördüm ki, seçicilərin 80 faizi Sizə səs vermişdir". Bu mənim üçün çox xoş idi və mən bunu, ilk növbədə, Heydər Əliyevin Azərbaycandakı siyasətinin təntənəsi kimi qiymətləndirirəm. Bu onu göstərir ki, Azərbaycan xalqı onun siyasi xəttinə sadiqdir. Mən onun siyasətini bütün istiqamətlərdə, o cümlədən MDB-nin fəaliyyəti çərçivəsində davam etdirmək üçün var qüvvəmlə çalışacağam.

Fürsətdən istifadə edib, mənə Yaltada göstərilən səmimi qəbula görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Bildiyiniz kimi, bu, sammitdə mənim ilk iştirakım idi. Adətən, ilk iştirak həmişə həyəcanlandırıcı olur. Lakin məhz Sizin münasibətiniz, diqqətiniz, mehribanlığınız elə bir şərait yaratmışdı ki, mən özümü köhnə tanışlarımın əhatəsində hiss edirdim.

Şəxsən Sizə, təşkilata, MDB İcraiyyə Komitəsinə Birlik ölkələrinin bütün xalqlarının tərəqqisi naminə çox vacib fəaliyyətinizdə uğurlar arzulamaq istəyirəm.

## RUSİYANIN AZƏRBAYCANDAKI FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ NİKOLAY RYABOV İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*17 oktyabr 2003-cü il*

**N i k o l a y R y a b o v:** Sizinlə, Azərbaycan Respublikasının yeni seçilmiş Prezidenti ilə görüşmək imkanına görə çox minnətdaram. Sizi xalqın bu çox yüksək etimadı münasibətilə təbrik etmək və belə bir faktı vurğulamaq istəyirəm ki, Ukraynanı çıxmaq şərti ilə, MDB məkanında ilk dəfə olaraq hakimiyyətin bir prezidentdən digərinə verilməsi demokratik prosedur əsasında, ölkənin Konstitusiyasına və Seçki Məcəlləsinə müvafiq surətdə həyata keçirilmişdir. Bu əla ənənədir və heç şübhəsiz ki, Azərbaycanı dünyanın demokratik dövlətləri sırasına çıxarır. Bu münasibətlə mən Sizi və xalqınızı təbrik etmək istəyirəm.

Hörmətli İlham Heydəroviç, dünən Rusiya Federasiyasının Prezidenti ilə telefon söhbətiniz oldu. Bilirsiniz ki, o, Moskvada deyil, dünyanın o biri başında – Malayziyadadır. Ona görə də çox xoşdur ki, Rusiya dövlətinin başçısı bu dialoqu aparmağa belə imkan tapmışdır.

Mən fəxri tapşırıq – ölkənin Prezidenti seçilməyiniz münasibətilə Rusiya Federasiyası Prezidentinin təbrikini Sizə şəxsən yetirmək tapşırığı almışam. Burada bizim Xarici İşlər nazirinin təbriki də var. Öz tərəfimdən demək istərdim ki, dünən televiziya ilə çıxış edərkən belə bir ifadə işlətdim ki, indi Azərbaycanda cavan və gözəl prezident var. Düşünürəm ki, Siz bu ifadəyə görə inciməyəcəksiniz. Onu da əlavə etmək istərdim ki, Sizin seçkiqabağı kampaniyanın məharətlə aparmağınıza heyran qaldım. Sizin çox az vaxtınız var idi, hes kəs, hətta təcrübəli siyasətçi də bu çox gərgin siyasi kampaniyaya belə üzvi surətdə və belə ustalıqla daxil ola bilməzdi. Bu, bir siyasətçi kimi, Sizin kamilliyinizdən xəbər verir. Sözün düzü,

bu bizi yaxşı mənada çox təəccübləndirdi. Yeri gəlmişkən, bu Sizin siyasi təcrübənizə şübhə edənlərə də cavab oldu. Prezident olmaq üçün təhsil almırlar, belə təhsil müəssisəsi yoxdur. Lakin Sizin məhz bu vəzifəyə doğru yolunuz çox zəngin siyasi baqajı və bütünlüklə, belə parlaq şəkildə nümayiş etdirdiyiniz təcrübəni formalaşdırmışdır.

Onu da demək istəyirəm ki, mən Sizin seçkiqabağı çıxışlarınızı diqqətlə oxuyurdum, onlar təmkinliliyi, aydınlılığı, ardıcıllığı ilə Rusiyada xoş təsir bağışlayır. Biz əminik ki, – Rusiya Federasiyasının Prezidenti də Sizə müraciət edərək bu barədə yazır və deyir, – bu xətt davam etdiriləcəkdir, qarşıda bizi bütün istiqamətlərdə konstruktiv, səmərəli dialoq və əməkdaşlıq gözləyir. Mən ikitərəfli münasibətlərimizdən, əlaqələrimizdən çox danışa bilərəm, lakin bir qədər, Sizin öz xalqınız qarşısında and içəcəyiniz vaxtadək gözləmək lazımdır. Bu, tezliklə olacaq və Siz prezident vəzifəsinə rəsmən başlayacaqsınız. Biz o anı səbirsizliklə gözləyirik.

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab səfir Nikolay Timofeyeviç, sağ olun. Rusiya prezidenti Vladimir Vladimiroviç Putinin axşam mənə zəng vurması və Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyim münasibətilə təbrik etməsi mənim üçün çox xoş idi. Qeyd etdiyimiz kimi, o, Moskvada deyildir, Malayziyadadır və iş cədvəlinin gərgin olmasına baxmayaraq, – dünən onun çıxışlarını və dövlət başçıları ilə çoxsaylı görüşlərini Rusiyanın televiziya kanalları ilə izləməyə imkanımız oldu – belə gərgin vaxtda o, imkan tapdı və məni təbrik etdi. Bu mənim üçün çox qiymətli, əhəmiyyətlidir. Fürsətdən istifadə edərək, həm telefon zənginə görə, həm də Sizin mənə çatdırdığınız təbriklərə görə mənim ən dərin təşəkkürümü ona yetirməyinizi xahiş edirəm. Ölkələrimiz arasında münasibətlər uğurla inkişaf edir. Bu münasibətlərimizin müasir mərhələsinin bünövrəsini prezidentlərimiz – Heydər Əlirza oğlu Əliyev və Vladimir Vladimiroviç Putin qoymuşlar. Rusiya Azərbaycan üçün strateji tərəfdaşdır. Rusiya ilə münasibətlər bizim üçün öncül xarakter daşıyır. Biz bu münasibətlərin bütün səviyyələrdə –

iqtisadi əməkdaşlıq sahəsində də, siyasi müstəvidə də, mədəniyyət sahəsində də daha da inkişaf etdirilməsində çox maraqlıyıq. Bu, Rusiya vətəndaşları üçün də, Azərbaycan vətəndaşları üçün də böyük nemət olacaqdır. Əlbəttə, Azərbaycanda Heydər Əliyevin rəhbərliyi ilə aparılmış və xalqlarımızın, ölkələrimizin yaxınlaşmasına yönəldilmiş siyasət davam etdiriləcəkdir. Buna heç kimdə şübhə olmamalıdır. Rusiya yaxın dostumuzdur və biz rus xalqına ən səmimi rəğbət hissləri bəsləyirik. Azərbaycan öz dostları ilə – qonşuları, ilk növbədə, Rusiya ilə mehriban qonşuluq münasibətlərinə sadiqliyini son on ildə əməli surətdə sübuta yetirmiş ölkədir. Əminəm ki, əlaqələrimiz bütün səviyyələrdə davam etdiriləcəkdir. Vladimir Vladimiroviç Putinin MDB dövlət başçılarının zirvə toplantısı çərçivəsində görüşlərimiz zamanı mənə yetirdiyi diqqəti bir daha qeyd etmək mənim üçün çox xoşdur. Çoxtərəfli görüşlər çərçivəsində də, ikitərəfli əsasda da biz bir çox mühüm məsələləri müzakirə etdik və münasibətlərimizin inkişafına gələcəkdə də kömək etmək niyyətində olduğumuzu bildirdik.

İndi Azərbaycan xalqı mənə etimad göstərib səs çoxluğu ilə namizədliyimi dəstəkləməklə Azərbaycanda həyata keçirilmiş və bundan sonra da keçiriləcək xarici siyasətə səs vermişdir. Biz öz tərəfimizdən ölkələrimizin gələcəkdə ikitərəfli əsasda və regional miqyasda sıx əməkdaşlıq etməsi üçün əlimizdən gələni edəcəyik. Əminəm ki, beynəlxalq məsələlərin həllində beynəlxalq miqyasda birgə fəaliyyətimiz ölkələrimizin rifahına və xeyrinə xidmət edəcəkdir. Son 2–3 ildə ölkələrimiz arasında siyasi münasibətlərin möhkəmlənməsinin müsbət nəticələrini biz artıq təcrübədə görmüşdük. Dediyim kimi, bu, ilk növbədə, iki prezidentin – Vladimir Putinin və Heydər Əliyevin şəxsi xidmətləridir. Əminəm ki, Vladimir Putin və İlham Əliyev də bu istiqamətdə fəaliyyətlərini davam etdirəcəklər.

Əziz Nikolay Timofeyeviç, mən ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafına töhfənizə görə, şəxsən Sizə təşəkkürümü bildirmək istəyirəm. Rusiyanın mənafelərinin qorunması və ölkələrimizin yaxınlaşması ilə bağlı burada apardığınız böyük işin bilavasitə şahidiyəm. Biz söhbətlərimizdə həmişə belə bir ümumi

rəydə olmuşuq ki, ölkələrimizin bütün istiqamətlərdə yaxınlaşması həm Rusiyanın, həm də Azərbaycanın milli maraqlarına cavab verir. Əminəm ki, Siz gələcək fəaliyyətinizdə də bu nəcib işi davam etdirəcəksiniz. Bizim həyata keçirilməli çoxlu birgə planlarımız, məsələlərimiz vardır. Lakin deməliyəm ki, Vladimir Vladimiroviç Putinlə Yaltadakı görüşümüzdə də mən qeyd etdim ki, bu gün Rusiya ilə Azərbaycan arasında heç bir problem yoxdur. Bu göstərir ki, keçmişdəki problemlər uğurla həll olunmuşdur və bizim vəzifəmiz əldə olunmuş nailiyyətləri möhkəmləndirməkdən və inkişaf etdirməkdən ibarətdir. Düşünürəm ki, biz buna nail olacağıq.

**N i k o l a y R y a b o v:** Sələfinizin işini yüksək qiymətləndirdiyiniz üçün çox sağ olun, mən Sizinlə tam razıyam. Heydər Əliyev Azərbaycan dövlətçiliyinin təşəkkülünə, ölkənin tanınmasına və nüfuz qazanmasına misilsiz töhfə vermiş dahi siyasətçi, əfsanəvi şəxsiyyətdir. Onun fəaliyyəti Rusiya siyasətçiləri və Rusiya ictimaiyyəti arasında dəstəklənir, diqqətlə qarşılanır və hətta demək olar ki, heyranlıq doğurur. Əlbəttə, Heydər Əliyev Azərbaycanın keçmişi deyil, o, həm də ölkənizin bu günüdür. Sözsüz ki, biz onu Azərbaycan torpağında yenidən görəcəyimiz anı səbirsizliklə gözləyirik. Mənim prezidentimin ünvanına söylədiyiniz minnətdarlıq sözlərinə görə çox sağ olun. Düzünürəm ki, onun prezident Heydər Əliyevə və Sizə bəslədiyi səmimi hisslərə şübhə etmirsiniz. Bu, ölkələrimizin daha da yaxınlaşması və əməkdaşlığı yolunda bizi gözləyən uğurun təminatıdır. Özüm haqqında danışmağa isə, ümumiyyətlə, utanıram. Prezidentlər olmasaydı, səfirin işi çox çətin olardı.

Buna baxmayaraq, cüzi əməyimə verilən belə yüksək qiymətə görə Sizə təşəkkür edirəm. Əlbəttə, mən daha yüksək enerji ilə işləyəcəyəm.

Hörmətli İlham Heydəroviç, Rusiya Federasiyasının Prezidenti Yaltada Sizə etdiyi təklifi bir daha təkrar edərək bildirir ki, Siz vəzifəyə başladıqdan sonra onunla görüşəsiniz, işin istiqamətini və həcmini bizim üçün müəyyənləşdirəsiniz. Biz onları məmnuniyyətlə yerinə yetirəcəyik.

Bu görüşə və səmimi sözlərə görə sağ olun. Ən məsul və ali vəzifədə ürəkdən gələn arzularımızı bir daha qəbul edin.

**İ l h a m   Ə l i y e v:** Nikolay Timofeyeviç, sağ olun. Mən seçkiqabağı kampaniyada da dəfələrlə demişdim ki, prezidentimiz Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının əldə etdiyi bütün uğurların davam etdirilməsi mənim əsas vəzifələrimdən biri olacaqdır. Azərbaycanda onun siyasətinin alternativi yoxdur. Əminəm ki, gələcəkdə Vladimir Vladimiroviç Putinlə görüşlərimiz münasibətlərimizin inkişafına və möhkəmlənməsinə yönəldiləcəkdir. Qarşıdakı görüşü mən də səbirsizliklə gözləyirəm, ümid edirəm ki, bizim aramızda yaranmış qarşılıqlı anlaşma və qarşılıqlı hörmət hələ öz təsdiqini tapacaqdır. Həqiqətən, dinclik, əmin-amanlıq, sabitlik siyasətinin ölkəmizdə alternativi yoxdur. Azərbaycan xalqı öz tarixinin ağır dövrünü, kataklizmləri yaxşı xatırlayır və əlbəttə, cəmiyyətdə tərəqqinin, sivilizasiyanın, normal münasibətlərin xeyrinə seçim etmişdir. Mən belə dəstəyə görə seçicilərə minnətdaram və düşünürəm ki, mənə səs verənlər heyfsilənməyəcəklər. Mən seçicilərin, Azərbaycan xalqının etimadını doğrultmağa çalışacağam.

## BMT İNKİŞAF PROQRAMININ REZİDENT ƏLAQƏLƏNDİRİCİSİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*17 oktyabr 2003-cü il*

**M a r k o   B o r s o t t i:** Səmimi qəbula görə Sizə, cənab Baş nazir, təşəkkürümü bildirirəm. Sizi 15 oktyabr prezident seçkilərində parlaq və inamlı qələbəniz münasibətilə təbrik edirəm.

Məlumat verim ki, Azərbaycanla BMT İnkişaf Proqramı arasında bir sıra birgə layihələr həyata keçirilir. Əminəm ki, Sizin prezidentliyiniz dövründə də bu layihələr və digər yeni proqramla həyata keçiriləcəkdir. Onu da vurğulayım ki, Azərbaycanda prezident Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilmiş iqtisadi və sosial islahatlardan çox məmnunam. Azərbaycanın dövlət başçısının fərmanı ilə həyata keçirilən yoxsulluğun azaldılması ilə əlaqədar dövlət proqramı məhz BMT İnkişaf Proqramı ilə birgə reallaşdırılır. BMT bu proqramın və digər layihələrin həyata keçirilməsində Azərbaycana bundan sonra da yardım göstərəcəkdir. Əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsi və iqtisadi islahatların sürətləndirilməsi üçün ölkənizdə yaradılmış sabitliyin və əmin-amanlığın gələcəkdə də möhkəmləndirilməsi vacibdir.

**İ l h a m   Ə l i y e v:** Səmimi sözlərə və təbrikə görə təşəkkürümü bildirirəm. BMT İnkişaf Proqramı ilə Azərbaycan arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu məmnunluqla bildirirəm. Qeyd etmək istərdim ki, neftdən gələn gəlirlərin xalqın rifahının yaxşılaşdırılmasına yönəldilməsi Azərbaycan hökumətinin öncül məqsədidir. Onu da xatırladım ki, bir sıra ölkələrdə zəngin neft ehtiyatları olsa da, neftdən əldə olunan gəlirlər heç də xalqın həyat səviyyəsinin yaxşılaşdırılmasına xidmət etmir. Buna görə də Azərbaycan hökuməti neft gəlirlərinin şəffaf şəkildə toplanması və onların xalqın ən ağır şəraitdə yaşayan təbəqələrinin rifahının yaxşılaşdırılmasına yönəldilməsi istiqamətində əməli işlər görür. Təsadüfi deyildir ki,

cənab Prezidentin göstərişi ilə yaradılmış Neft Fondundan ayrılmış vəsaitlər hesabına indi qaçqın və məcburi köçkünlər üçün yeni qəsəbələr və şəhərciklər tikilir.

Hazırda ölkədə mövcud olan sosial problemlərin – yoxsulluğun, işsizliyin aradan qaldırılması üçün ciddi addımlar atılır və onu da bildirim ki, 1996-cı ildən başlayaraq, Azərbaycanda ümumi daxili məhsulun həcminin hər il 10 faiz artması və gələn ilin sonunda Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istifadəyə veriləcəyi təqdirdə ölkəmizə daxil olacaq böyük valyuta axını bu problemlərin tezliklə aradan qaldırılacağını deməyə əsas verir.

Xahiş edirəm mənim salamlarımı BMT İnkişaf Proqramının rəhbərliyinə çatdırasınız*.

---

* Görüşdə Marko Borsotti Baş nazir İlham Əliyevə BMT-nin Azərbaycandakı fəaliyyətinin on illiyinə həsr olunmuş kitab təqdim etdi.

## DÖVLƏT MÜSTƏQİLLİYİ GÜNÜ ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT EDƏRKƏN KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ NÜMAYƏNDƏLƏRİNİN SUALLARINA CAVAB

*18 oktyabr 2003-cü il*

**S u a l: İlham müəllim, Dövlət müstəqilliyi günündə Azərbaycana nə arzulayardınız?**

**C a v a b:** Biz istəyirik ki, Azərbaycan müstəqil dövlət kimi möhkəmlənsin, güclənsin. Çalışacağıq ki, belə də olsun. Azərbaycanın dövlət müstəqilliyi ölkəmizin ən böyük sərvətidir. Hamımızın borcudur ki, dövlətimizi möhkəmləndirək.

**S u a l: Bakıda baş vermiş son hadisələrlə bağlı nə deyə bilərsiniz? Xarici ölkələrin bəzi informasiya vasitələri bunu dövlət çevrilişinə cəhd kimi də qiymətləndirir. Belə faktlar varmı?**

**C a v a b:** Belə faktlar yoxdur, bu, kütləvi iğtişaşlardır, müxalifətin radikal qanadı özünün iç üzünü bir daha göstərdi. Bilirsinizmi, bu barədə mən dəfələrlə öz fikirlərimi bildirmişəm. Demişdim ki, heç nə unudulmayıbdır. Azərbaycan xalqı yaxşı xatırlayır ki, 1992-ci ildə, 1993-cü ildə məhz bu adamlar Azərbaycanda qardaş qanı tökdülər. Məhz bu adamlar Azərbaycanı xaosa, böhrana saldılar, ondan sonra qaçıb gizləndilər. Bu hadisələr də sanki onun bir növ təkrarı idi. Fərq onda idi ki, o vaxt onların bu dağıdıcı fəaliyyəti 1992-ci ildə Azərbaycanda hakimiyyətdə olan qüvvələrə təsir edə bilmişdi. Bu dəfə isə bu alınmayıb və heç vaxt da alınmayacaqdır. Azərbaycan qüdrətli dövlətdir, özünü müdafiə etməyə qadirdir. Belə hərəkətlərə, əlbəttə ki, son qoyulub və bundan sonra da ciddi tədbirlər görüləcəkdir. O adamlar ki bu iğtişaşlarda iştirak ediblər, ona rəhbərlik ediblər, insanları qeyri-qanuni hərəkətlərə təhrik ediblər, onlar qanun qarşısında cavab verəcəklər.

**S u a l: Azərbaycan Respublikasının yeni seçilmiş Prezi-**

**denti kimi, xalqımıza nə arzulayırsınız?**

**C a v a b:** Sağ olun. Mən dəfələrlə demişəm, çalışacağam ki, Azərbaycan xalqına xidmət edim, Azərbaycan inkişaf etsin, zəngin dövlətə çevrilsin. Azərbaycanda yaşayan hər bir vətəndaş özünü rahat, sərbəst, azad hiss etsin, onun yaşayış səviyyəsi yüksəlsin. Mənim arzum budur.

Arzum budur ki, Azərbaycan müstəqil dövlət kimi Dünya Birliyində daha möhkəm mövqelər tuta bilsin. Bu istiqamətdə də böyük işlər aparılıbdır. Bir sözlə, mən çalışacağam ki, Azərbaycanda son on il ərzində yaranmış vəziyyət, onunla bağlı inkişaf özünü daha da büruzə versin. Çalışacağam ki, Heydər Əliyev siyasətini ləyaqətlə davam etdirim.

**S u a l: İlham müəllim, seçkilərin nəticələri məlumdur, artıq bildiniz ki, Siz qalib gəlmisiniz. İlk olaraq Heydər Əliyev Sizi təbrik etdi, yoxsa Siz ona zəng etdiniz?**

**C a v a b:** Bəli, mən zəng etdim və məlumat verdim. O da seçki prosesini izləyirdi və məni təbrik etdi.

**S u a l: Onun Sizə tövsiyəsi oldumu?**

**C a v a b:** Məsləhəti seçkilərdən qabaq olmuşdu. Yeni bir tövsiyə eşitmədim.

**S u a l: Siz seçkilərdə qələbənizə inanırdınızmı?**

**C a v a b:** Mən inanırdım ki, qalib gələcəyəm, çünki seçkilərdən əvvəlki bütün proseslər onu göstərirdi ki, Azərbaycan xalqı artıq öz seçimini edibdir. Eyni zamanda, seçkiyə qəd ər bir-iki həftə ərzində keçirdiyim görüşlər də bunu göstərirdi. Yəni xalqın münasibəti mənə bəlli idi. Sözün düzü, şübhə etmirdim ki, qələbə qazanacağam.

**S u a l: Bakıda baş verən son hadisələri necə qiymətləndirirsiniz?**

**C a v a b:** Mən bu hadisələri kütləvi iğtişaşlar kimi, bunları törədən adamların 1990-cı illərin əvvəllərinə qayıdışa cəhdi kimi qiymətləndirirəm. Xaos, anarxiya yaratmaq cəhdi kimi qiymətləndirirəm. Lakin bu mümkün deyildir. Azərbaycan

dövləti formalaşmışdır. Bu kütləvi iğtişaşlarda iştirak etmiş, vandalizmə yol vermiş bütün ünsürlər Azərbaycan Respublikasının qanunları qarşısında cavab verməli olacaqlar.

**S u a l: İsa Qəmbəri, müxalifəti bu iğtişaşların təşkilatçıları hesab etmək olarmı?**

**C a v a b:** Bunu Azərbaycan xalqı və hüquq-mühafizə orqanları həll edəcəklər. Mən hüquq-mühafizə orqanlarının əvəzinə fikir söyləyə bilmərəm. Təhqiqat aparılacaq və partiyada vəzifə tutub-tutmamasından asılı olmayaraq, hər kəsin bu iğtişaşlarda nə dərəcədə əli olduğu müəyyən ediləcəkdir. Qanun qarşısında hamı bərabərdir. Bəzən elə olur ki, cinayət törətmək üçün partiya lideri olurlar və beləliklə, immunitet qazanırlar. Mən hesab edirəm ki, qanun qarşısında hamı cavab verməlidir. İsa Qəmbəri isə təhrikçi, qan tökülməsinin səbəbkarı kimi bütün Azərbaycan xalqı lənətləyəcəkdir.

**S u a l: Bu hadisə ölkəmizin beynəlxalq imicinə təsir edə bilərmi?**

**C a v a b:** Əlbəttə, təsir edə bilər. Mənfi tərəfdən təsir edə bilər. Dünyanın bütün televiziya kanalları bu kadrları göstərirlər. Axı bütün dünyada bu kadrlara baxan vətəndaşlar bilmirlər ki, bunu törədənlər Azərbaycan cəmiyyətinin cüzi bir hissəsidir. Onlarda elə təəssürat yarana bilər ki, ümumiyyətlə, Azərbaycanda sabitlik yoxdur. Ümumiyyətlə, Azərbaycan xalqı o səviyyədədir. Ona görə bu, mənfi təsir göstərə biləcəkdir. Bütün məsuliyyəti yenə də Müsavat Partiyası, onun rəhbərləri daşıyırlar və onlar qanun qarşısında cavab verəcəklər.

**S u a l: Seçkilərin xarici ölkələrdə qiymətləndirilməsi, ümumiyyətlə, Sizi razı saldımı?**

**C a v a b:** Müxtəlif qiymətlər səsləndi. Ümumilikdə qiymət o idi ki, seçkilər real vəziyyəti əks etdirir. Yəni Azərbaycan xalqının seçimi belə idi. Azərbaycan xalqı İlham Əliyevə səs veribdir və təbii ki, müxtəlif çatışmazlıqlar da vardı. Xüsusilə seçkilərdən qabaq olan bəzi hallar dünya standartlarına cavab vermirdi. Plakatların çap olunması, yaxud da ki, başqa məsələlər – bunlar ciddi xarakter daşımır. Ümumiyyətlə,

seçkilər çox demokratik, ədalətli şəraitdə keçirilibdir. Beynəlxalq müşahidəçilərin böyük əksəriyyəti seçkilərə məhz belə qiymət veribdir. Onların bəziləri ilə mən görüşmüşəm. Onlar məni ürəkdən təbrik ediblər.

## ATƏT-in HAZIRKI SƏDRİ, NİDERLAND KRALLIĞININ XARİCİ İŞLƏR NAZİRİ YAAP DE HOOP SXEFFER VƏ ONU MÜŞAYİƏT EDƏN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*22 oktyabr 2003-cü il*

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab nazir!

Hörmətli qonaqlar!

Sizin hamınızı ürəkdən salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Mən bilirəm ki, regiona səfəriniz çərçivəsində müxtəlif görüşlər keçirirsiniz. Bu gün də Azərbaycanda görüşləriniz olmuşdur. Əminəm ki, keçirdiyiniz bütün görüşlər, burada aparılan danışıqlar Azərbaycanda baş verən hadisələr haqqında sizdə daha geniş təəssürat yaradacaqdır.

Azərbaycan inkişaf edən ölkədir və müstəqillik əldə etdikdən sonra bütün sahələrdə böyük uğurlar qazanmışdır. Əlbəttə, ölkəmizdə problemlər də vardır və onların ən vacibi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. ATƏT və onun Minsk qrupu bu məsələ ilə bağlı uzun illərdir məşğul olur və göstərilmiş bütün səylərə görə mən sizə öz minnətdarlığımı bildirirəm. Eyni zamanda, ümid edirəm ki, bu fəaliyyət davam edəcək və konkret nəticələr əldə olunacaqdır. Biz hamımız münaqişənin ədalətli şəkildə həll olunmasını istəyirik və bu istiqamətdə ATƏT-in Minsk qrupunun fəaliyyəti güclənməlidir, yeni təkliflər hazırlanmalıdır. Əminəm ki, veriləcək bütün təkliflərə diqqətlə baxılacaq və beynəlxalq hüquq normaları əsas tutularaq, münaqişə tezliklə öz həllini tapacaqdır.

**Y a a p  d e  H o o p  S x e f f e r**: Cənab yeni seçilmiş Prezident, hər şeydən əvvəl, çox sağ olun ki, bu gün bizim nümayəndə heyətini qəbul edirsiniz. Bizim regiona olan səfərimiz, həqiqətən, çox böyük əhəmiyyət kəsb edir. Çünki bu

regionda olan bir sıra problemlər çoxdan bəri öz həllini gözləyir.

Bu problemlər həm də bəşəri dəyərlər, insan haqları və qanunun aliliyi ilə bağlıdır. Düşünürəm və ümid edirəm ki, Sizin bu yaxınlarda Azərbaycan Prezidenti kimi fəaliyyətə başlamağınız bu problemlərin həllinə yeni bir pəncərə açacaqdır. Bu, Dağlıq Qarabağ ətrafında danışıqların davam etdirilməsi üçün imkan pəncərəsi olacaqdır. Bildiyiniz kimi, ATƏT bu məsələdə Sizə əlindən gələn yardımı etməyə həmişə hazırdır. Ümidvaram ki, Minsk qrupunun həmsədrləri də bir sıra müzakirələr apardıqdan sonra ilin axırında regiona gələ bilər. Bu qrup heç vaxt fəaliyyətini dondurmayıb və daim bu məsələ üzərində işləyir. Son nəticə isə neçə illərdir ki, uzanır. O da məlumdur ki, bir çox insanlar bu son nəticəni gözləyərək əziyyət çəkməkdədirlər. Bu nəticə Ermənistandan və Azərbaycandan asılı olacaqdır. Həmçinin ümidvar olduğumu bildirirəm ki, bu məsələnin həlli regionda sabitliyin və təhlükəsizliyin daha da möhkəmlənməsinə səbəb olacaqdır. Sabitlik və təhlükəsizlik isə region üçün çox vacibdir. Buna görə də Avropa Şurası, Avropa Birliyi və ATƏT kimi beynəlxalq təşkilatlar buraya gəlməli və öz fəaliyyətlərini davam etdirməlidirlər.

Cənab yeni seçilmiş Prezident, Sizə dediklərimi eynilə Ermənistanın prezidentinə də söyləmişəm. Elə bilirəm ki, məsələnin həlli üçün imkanlar hələ də mövcuddur və gərək çalışaq ki, bu tunelin sonunda olan işıq yanmaqda davam etsin və sönməsin.

Qonaqpərvərliyə görə Sizə bir daha minnətdarlığımı bildirmək istəyirəm və ümidvaram ki, tezliklə bu məsələ öz həllini tapacaqdır.

**İ l h a m  Ə l i y e v**: Çox sağ olun, cənab nazir, mən sizinlə tamamilə razıyam. Regionda sülhün, sabitliyin və təhlükəsizliyin qorunması çox mühüm bir vəzifədir. Azərbaycan öz tərəfindən bu istiqamətdə işlər görür və hesab edirəm ki, regionda sabitliyin qorunmasına öz dəyərli töhfələrini vermişdir.

Siz qeyd etdiyiniz kimi, bu münaqişədən çox insanlar əziyyət çəkir. Bildiyiniz kimi, münaqişə nəticəsində Azərbaycanın torpaqlarının 20 faizi işğal olunmuşdur və nəticədə bir milyondan artıq vətəndaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Əlbəttə, onların yaşayış şəraiti çox ağırdır və münaqişədən ən çox əziyyət çəkən məhz onlardır.

Eyni zamanda, biz bilirik ki, bu münaqişə Ermənistana da çox böyük ziyan vurmuşdur. Bu ölkənin də iqtisadi inkişafı münaqişənin həlli ilə bağlıdır. Ona görə də Ermənistan tərəfi də münaqişənin tezliklə həllində çox maraqlıdır. Hər iki tərəfdən xoş niyyət olarsa, ədalətli prinsiplər üzərində və beynəlxalq hüquq normaları əsasında münaqişənin həlli mümkün olarsa, bu həm Azərbaycan, həm Ermənistan, həm də bütün region üçün böyük bir inkişafa səbəb olacaqdır. ATƏT-in Minsk qrupu öz fəaliyyətini davam etdirir və biz bu qrupun həmsədrlərini Azərbaycanda qəbul etməyə, onlarla danışıqlar aparmağa hazırıq. Ümidvarıq ki, onların yeni təklifləri məhz beynəlxalq normaların bərqərar olunmasını təmin edəcək və münaqişənin həllinə nail olmağımıza imkan yaradacaqdır.

**Yaap de Hoop Sxeffer:** Cənab yeni seçilmiş Prezident! Mən istəyirəm sözlərimi ümid notları ilə tamamlayım. Çünki biz həmişə ümidlə yaşayırıq. Prezident seçkiləri beynəlxalq təşkilatlar tərəfindən, o cümlədən mənim təmsil etdiyim ATƏT tərəfindən bəzi tənqidlə qarşılandı. Lakin buna baxmayaraq, biz ümidvarıq və gözləyirik ki, Sizin liderliyiniz dövründə ölkənizdə tam razılıq olacaqdır. Əlbəttə ki, cinayət törədənlər cəzalandırılmalıdır, eyni zamanda, hesab edirik ki, bəzən həbsxanalarda lazımsız saxlanılanlar da olur və onlar azadlığa buraxılacaq, onların yanına hüquqşünasların getməsinə icazə veriləcəkdir. Bir daha demək istəyirəm ki, Sizin liderliyiniz altında ölkədə tam razılıq və konsensus olacaqdır.

Mən qədim ənənələrə malik olan Hollandiyadanam. Bəlkə də buna görədir ki, Azərbaycandan daha çox şey gözləyirəm. Deməliyəm ki, bu mənada Sizin ölkəniz müəyyən uğurlar əldə etmişdir. Öncə Seçki Məcəlləsinin uğurla hazırlanması

haqqında bir neçə kəlmə xoş söz demək istəyirəm. Bu sənəd, həqiqətən, çox yüksək səviyyədə hazırlanmışdır və ümid edirəm ki, bu məcəllənin müddəalarına gələcəkdə də əməl olunacaqdır. Həmçinin ümidvar olduğumu bildirmək istəyirəm ki, Siz iqtidarla müxalifət arasında dialoq yaratmağa nail olacaqsınız.

Mən isə bu gün Hollandiyaya qayıtmalıyam. Çünki orada məni parlamentdə gözləyirlər. Bu, demokratiyanın ən çətin, lakin eyni zamanda, ən gözəl cəhətlərindən biridir ki, biz parlament qarşısında məsuliyyət daşıyırıq. Bir daha ümidvar olduğumu bildirirəm ki, Sizin liderliyiniz altında Azərbaycan inkişaf etməkdə davam edəcəkdir və ölkənizdə mətbuat, əvvəllər olduğu kimi, yenə də azad fəaliyyət göstərəcəkdir. Siz region ölkələri ilə yaxşı münasibətlərə nail olacaqsınız və eyni zamanda, Avropa Şurası və Avropanın digər beynəlxalq təşkilatları ilə əlaqələriniz yeni səviyyəyə qalxacaqdır.

Cənab yeni seçilmiş Prezident, icazə verin, ümidvar olduğumu bildirim ki, bundan sonra da Azərbaycana gəlmək və Sizinlə yenidən görüşmək imkanım olacaqdır. Onda biz bu gün toxuna bilmədiyimiz digər məsələləri də müzakirə edəcəyik. Təəssüf ki, bu səfərim zamanı Sizin atanızla – prezident Heydər Əliyevlə görüşə bilmədim. Sizdən çox xahiş edirəm ki, mənim ən xoş arzularımı və salamlarımı ona yetirəsiniz.

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab nazir! Qeyd etmək istəyirəm ki, Azərbaycanda prezident seçkiləri ədalətli və şəffaf şəkildə keçirilmişdir. Azərbaycan xalqı sərbəst və azad surətdə öz iradəsini ifadə etmişdir. Bəzi qüsurlar olmuşdur və heç kəs onları inkar etmir. Bu təbiidir. Çünki Azərbaycan demokratiya yoluna yeni qədəm qoymuş ölkədir. Əlbəttə, bu nöqsanların aradan qaldırılması istiqamətində ciddi iş aparılacaqdır. Ancaq eyni zamanda, onu da deməliyəm ki, bu qüsurlar ümumi nəticəyə heç bir təsir etməmişdir. Deyə bilərəm ki, beş min məntəqədən 3600-də protokollar bütün komissiya üzvləri, o cümlədən müxalifətin nümayəndələri tərəfindən imzalanmışdır. Bununla yanaşı, mən razıyam ki, biz gərək Azərbaycanda fəaliyyət göstərən bütün siyasi qurumlarla dialoq aparaq. Seçki

kampaniyası ərzində mən bir neçə dəfə müxalifətə dialoq təklif etmişdim. Təəssüf edirəm ki, onlar məni eşitmədilər. Əksinə, onlar qeyri-qanuni hərəkətlər edərək Azərbaycanda sabitliyin pozulması istiqamətində addımlar atmışlar. Əlbəttə, bütün bu xoşagəlməz hadisələrin qarşısı qanun çərçivəsində alınmışdır. Artıq bu hadisələrdə fəal iştirak etməyən şəxslərin böyük bir hissəsi azadlığa buraxılır və bu proses davam edəcəkdir. Əmin ola bilərsiniz ki, biz bu məsələyə yalnız hüquq prizmasından baxacağıq və burada heç bir siyasi aspektdən söhbət gedə bilməz.

Azərbaycanda demokratiya inkişaf edir, biz demokratiya prinsiplərinə sadiqik. Biz də Azərbaycanın Avropa Birliyi ilə əməkdaşlığının gələcəyinə böyük ümidlərlə baxırıq.

Sizin salamlarınızı hörmətli cənab prezident Heydər Əliyevə çatdıracağam. Mən də təəssüf edirəm ki, Siz onunla görüşə bilmədiniz və ümidvar olduğumu bildirmək istəyirəm ki, növbəti dəfə Azərbaycana gələndə onunla görüşə biləcəksiniz.

## ALMANİYA FEDERATİV RESPUBLİKASININ AZƏRBAYCANDAKI FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ KLAUS QREVLİX İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*27 oktyabr 2003-cü il*

**K l a u s  Q r e v l i x:** Zati-aliləri, məni qəbul etməyə vaxt ayırdığınız üçün Sizə təşəkkür edirəm. Mən Almaniya Federativ Respublikasının federal kansleri cənab Şröderin təbrik məktubunu təqdim etmək istəyirəm.

Eyni zamanda, icazə verin, müqəddəs Ramazan ayının başlanması münasibətilə həm Sizə, həm də Azərbaycandakı bütün müsəlmanlara Allahdan xeyir-bərəkət arzulayım. Qoy bu ibadət ayı insanlara mənəvi rahatlıq və əmin-amanlıq gətirsin.

Sizin ölkədə yaşamaq mənim üçün böyük şərəfdir. Bu ölkədə dini icmalar arasında xüsusi dözümlülük və dostluq münasibətləri vardır.

Almaniya Federativ Respublikasının federal kansleri öz məktubunda Sizi prezident seçilməyiniz münasibətilə ürəkdən təbrik edir və vurğulayır ki, Azərbaycan demokratiya və bazar iqtisadiyyatı yolunda böyük vəzifələr qarşısındadır. Zati-aliləri, o Sizə bu işlərin öhdəsindən gəlməkdə uğurlar arzulayır. Bundan əlavə, cənab federal kansler öz məktubunda bildirir ki, o, Azərbaycan və Almaniya arasında dostluq münasibətlərinin və səmimi əlaqələrin gələcəkdə də inkişaf edəcəyinə ümidvardır.

İcazənizlə, şəxsən öz adımdan da Sizə uğurlar arzulayım. Demokratiya və bazar iqtisadiyyatı hüquqi dövlət quruculuğu ilə bağlıdır. Hüquqi dövlət olmadan heç bir demokratiya ola bilməz. Hüquqi dövlətin şərtlərinə riayət etmədən müəssisələrin buraya sərmayə qoyması üçün şərait də yaranmır və iqtisadi inkişafdan da söhbət gedə bilməz.

Mənim Sizə kiçik bir hədiyyəm də vardır. Almaniyada

Kölbel adlı bir rəssam vardır. O bütün dövlət xadimlərinin portretini çəkmişdir. Cənab Kölbel Sizin atanızın – prezident Heydər Əliyevin də portretini çəkmişdir. O bunu Sizə hədiyyə etmək istəyir. Ancaq əvvəlcə o bu portreti öz sərgisində nümayiş etdirmək istəyir və bunun üçün Sizin avtoqrafınızı xahiş edir. Cənab Kölbel bu məktubu da Sizə çatdırmağı xahiş etmişdir.

Zati-aliləri, ümid edirəm ki, Siz sülh və sabitlik prezidenti, ölkənizdə iqtisadi və sosial inkişafın prezidenti olacaqsınız və Sizin prezidentliyiniz ölkədə həmrəylik və milli barışıqla müşayiət ediləcəkdir. Mən Sizin prezidentliyiniz dövründə həm daxildə, həm də xaricdə sülh olmasını arzulayıram.

Bir daha zati-alilərinizə təşəkkür edirəm.

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab səfir, xahiş edirəm, ilk növbədə, hörmətli kansler Gerhard Şröderə mənə göndərdiyi məktuba görə minnətdarlığımı çatdırasınız.

Almaniya ilə Azərbaycan arasında əlaqələr çox sürətlə inkişaf edir. Biz bütün sahələrdə uğurlu əməkdaşlıq edirik. Əlbəttə, çox istərdik ki, bu əməkdaşlıq gələcəkdə daha da genişlənsin.

Azərbaycan iqtisadiyyatı bazar iqtisadiyyatı prinsipləri əsasında qurulur. Almaniya isə iqtisadi inkişaf baxımından dünyada qabaqcıl yer tutur. Ona görə sizin təcrübəniz bizim üçün çox əhəmiyyətlidir. Biz bu təcrübəni öyrənirik. Mən əminəm ki, yaxın gələcəkdə Azərbaycan da iqtisadi cəhətdən inkişaf etmiş ölkəyə çevriləcəkdir. Azərbaycanda özəl sektor inkişaf edir. Ümumi daxili məhsulun formalaşmasında özəl sektorun payı 70 faizdən yuxarıdır. Siz çox düzgün qeyd etdiniz ki, bazar iqtisadiyyatının inkişafı demokratiyanın inkişafı ilə bərabər həyata keçirilməlidir. Azərbaycan demokratik prinsiplərə sadiqdir və ölkəmizdə demokratiyanın inkişafı sahəsində bundan sonra da ardıcıl tədbirlər görüləcəkdir.

Azərbaycan regionda artıq mühüm mövqelərə sahib olmuşdur və iqtisadi cəhətdən daha da inkişaf edəcəkdir. Bütün bu planları həyata keçirmək üçün, ilk növbədə, ölkədə sabitlik

və milli həmrəylik lazımdır. Mən əminəm ki, Azərbaycanda sabitlik davam edəcəkdir.

Biz hüquqi dövlət qurulması istiqamətində səylərimizi bundan sonra da davam etdirəcəyik və bu sahədə aparılacaq işlər yaxın gələcəkdə Azərbaycanı hərtərəfli inkişaf etmiş dövlətə çevirəcəkdir.

Mən hədiyyəyə görə də Sizə təşəkkürümü bildirirəm. Bu mənim üçün gözlənilməz idi. Xahiş edirəm rəssama da mənim salamlarımı çatdırasınız.

## TAMARA VƏ KOTE LEŞKAŞELİLƏRƏ

Hörmətli Tamara və Kote Leşkaşelilər!

Oğlunuzun dünyaya gəlişi münasibətilə sizi səmimi-qəlbdən təbrik edirəm.

Ailənizə böyük sevinc bəxş etmiş körpəyə İlham adını verməyinizdən məmnunluq duyur və mənə bəslədiyiniz belə yüksək münasibətə görə sizə təşəkkürümü bildirirəm.

Balaca İlhama möhkəm cansağlığı, xoşbəxtlik, ailənizə səadət və xoş günlər arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Baş naziri**

*28 oktyabr 2003-cü il*

**TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Baş nazir!

Əziz dostum və qardaşım!

Türkiyə Respublikasının milli bayramı – Respublika elan edilməsi günü münasibətilə Sizi və Sizin simanızda bütün qardaş Türkiyə xalqını ürəkdən salamlayır və təbrik edirəm.

Türkiyənin yüksəlişindən, dünya miqyasında uğurlarından və gündən-günə artan nüfuzundan qəlbimizi fərəh hissi bürüyür.

Xalqlarımızın qarşılıqlı etibarı, inamı və dəstəyi zamanın sınaqlarından çıxmış qardaşlığımızın və dostluğumuzun bariz ifadəsidir.

Əminəm ki, möhkəm təməllər üzərində qurulmuş dövlətlərarası münasibətlərimizin və müttəfiqliyimizin daha da inkişafı, əlaqələrimizin və əməkdaşlığımızın hərtərəfli genişlənməsi üçün səylərimizi bundan sonra da əzmlə davam etdirəcəyik.

Hörmətli cənab Baş nazir!

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına əmin-amanlıq və xoşbəxtlik arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Baş naziri**

*27 oktyabr 2003-cü il*

## BÖYÜK BRİTANİYANIN AZƏRBAYCANDAKI FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ ENDRYU TAKER İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*29 oktyabr 2003-cü il*

**E n d r y u   T a k e r:** Cənab Baş nazir! Cənab yeni seçilmiş Prezident, mən Böyük Britaniyanın Baş naziri cənab Toni Bleyrin şəxsi məktubunu Sizə təqdim etmək istəyirəm. O Sizi prezident seçilməyiniz münasibətilə təbrik edir, bu məsul vəzifədə Sizə uğurlar diləyir və ölkələrimiz arasında əlaqələrin daha da inkişaf edəcəyinə ümidvar olduğunu bildirir.

Mən də öz adımdan Sizə növbəti beş ildə ölkənizin inkişafı naminə müvəffəqiyyətlər arzulayıram.

**İ l h a m   Ə l i y e v:** Çox sağ olun, cənab səfir!

Mənim təşəkkürümü və ən xoş arzularımı cənab Baş nazirə çatdırmağı xahiş edirəm.

Bizim əlaqələrimiz çox sürətlə inkişaf edir. Birləşmiş Krallıq və Azərbaycan bir çox sahələrdə uğurlu əməkdaşlıq edirlər. Ölkələrimiz arasında çox yaxşı iqtisadi əməkdaşlıq mövcuddur. Britaniya şirkətləri Azərbaycana sərmayə qoyuluşunda liderdirlər. Biz iqtisadi əlaqələrimizdən çox məmnunuq. Xüsusilə neft-qaz sektorunda və iqtisadiyyatın digər sahələrində əməkdaşlıq çox yüksək səviyyədədir.

Bildiyiniz kimi, son illər ərzində Azərbaycanda xarici sərmayələrin qorunması üçün xeyli iş görülmüşdür. İqtisadiyyatımıza qoyulan sərmayələrin böyük həcmi də məhz bununla əlaqədardır. Bu siyasət gələcəkdə də davam etdiriləcək, biz xarici sərmayələrin qorunmasına böyük diqqət yetirəcəyik. Əminəm ki, bu, ölkəmizə xeyli mənfəət gətirəcəkdir.

Biz həmçinin Böyük Britaniya ilə dostluq əlaqələrimizi bütün səviyyələrdə davam etdirəcəyik. Bu əlaqələr müxtəlif sahələrdə əməkdaşlıqla yanaşı, ən mühüm məsələlərdən olan terrorizmə qarşı mübarizə sahəsində müttəfiqliyimizə də aiddir.

Azərbaycan etibarlı müttəfiqdir və bunu dəfələrlə əməli addımlarla sübut etmişdir. Növbəti beş il ərzində mənim fəaliyyətim ölkələrimiz arasında münasibətlərin daha yüksək pilləyə qalxmasına yönələcəkdir.

## İSRAİL DÖVLƏTİNİN AZƏRBAYCANDAKI FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ EYTAN NAYE İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*29 oktyabr 2003-cü il*

**E y t a n  N a y e:** Cənab yeni seçilmiş Prezident!

İcazə verin, İsrail dövləti prezidentinin təbrik məktubunu Sizə təqdim edim. Cənab Moşe Katsav Sizə ən xoş arzularını bildirir, ölkənizin gələcək inkişafı naminə fəaliyyətinizdə uğurlar diləyir. İsrail dövlətinin başçısı həm də iki dost ölkə arasında əlaqələrin yüksələn xətlə inkişafına ümidvar olduğunu bildirir.

**İ l h a m  Ə l i y e v:** Sağ olun, cənab səfir. Mənim təşəkkürümü və xoş arzularımı cənab Prezidentə yetirməyinizi xahiş edirəm.

Ölkələrimiz arasında münasibətlər sürətlə inkişaf edir. Bizim istər iqtisadi, istərsə də mədəni sahələrdə çox yaxşı əlaqələrimiz vardır. Əlbəttə, mən çox istəyirəm ki, əlaqələrimiz bütün sahələrdə daha da inkişaf etsin.

Azərbaycanın böyük gələcəyi vardır. Son 10 il ərzində ölkəmiz inkişaf edərək regionda mühüm dövlətə çevrilmişdir. Deyə bilərəm ki, indi Azərbaycan ümumən regionun inkişafında fəal rol oynayır. Əlbəttə, biz dostlarımızın köməyini də hiss edirik və bu, məqsədlərimizə nail olmaqda bizə yardım edəcəkdir. Biz iqtisadi cəhətdən daha güclü dövlət olacağıq, demokratiyanı inkişaf etdirəcəyik. Regionda sabitlik və təhlükəsizlik də bizim üçün öncül məsələlərdəndir. Əminəm ki, biz qarşımıza qoyduğumuz vəzifələri uğurla həyata keçirəcəyik.

Ümidvaram ki, ölkələrimiz  və xalqlarımız arasında mövcud olan dostluq və əməkdaşlıq gələcəkdə də daha sıx əlaqələrin formalaşmasına imkan verəcəkdir. Biz İsrail şirkətlərinin Azərbaycanda fəaliyyətini çox yüksək qiymətləndiririk və onların iqtisadiyyatımıza daha çox sərmayə qoymasını istəyirik.

Bildiyiniz kimi, ölkəmizdə sərmayələrin etibarlı qorunması üçün münbit şərait mövcuddur. Ona görə də biz biznesmenləri Azərbaycanda fəaliyyətlərini gücləndirməyə çağırırıq.

## TÜRKİYƏNİN AZƏRBAYCANDAKI FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ ƏHMƏD ÜNAL ÇEVİKÖZ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*29 oktyabr 2003-cü il*

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab səfir, Türkiyə Cümhuriyyətinin qurulmasının 80-ci ildönümü münasibətilə sizi ürəkdən təbrik edirəm. Xahiş edirəm ki, mənim təbriklərimi bütün türk xalqına çatdırasınız.

Bu, eyni zamanda, bizim üçün də böyük bayramdır. Çünki biz bir millət, iki dövlətik. Türkiyənin bütün bayramlarını biz öz bayramımız hesab edir və onları qeyd edirik. Cümhuriyyətin qurulması tarixdə böyük bir hadisədir. Böyük öndər Mustafa Kamal Atatürkün qurduğu Türkiyə qüdrətli dövlətə çevrilibdir. Bölgədə, regionda, dünyada çox möhkəm mövqelərə sahib olubdur və çox güclü təsirə malikdir.

Azərbaycan da öz müstəqilliyini əldə edəndən sonra onu ilk tanıyan, ona dəstək verən məhz qardaş Türkiyə olubdur. Biz bunu heç vaxt unutmayacağıq. Son 12 il ərzində biz Türkiyədən daim diqqət, hörmət, məhəbbət görmüşük. Əminəm ki, Azərbaycan tərəfindən də eyni münasibət özünü göstəribdir.

Bizim ikitərəfli münasibətlərimiz çox uğurla inkişaf edir, bütün sahələrdə qardaşlıq, dostluq prinsipləri əsasında qurulur. Əminəm ki, gələcəkdə də biz bu münasibətləri daha da inkişaf etdirəcəyik. İqtisadi sahədə dünya üçün çox əhəmiyyətli Bakı–Tbilisi–Ceyhan neft kəməri inşa edilir. Məhz iki ölkənin səyləri nəticəsində bu kəmərin tikintisini həyata keçirmək mümkün olmuşdur. İşlərin xeyli hissəsi artıq görülür və böyük həcmdə vəsait qoyulur. İnşallah, gələn ilin sonlarında biz onun açılışında bərabər iştirak edəcəyik.

Bakı–Ərzurum qaz kəməri layihəsi də uğurla həyata keçirilir. Bu işdə də heç bir problem yoxdur. Bu bir daha onu

göstərir ki, iki ölkə arasında mehriban münasibətlər mövcud olanda bütün məsələlər öz həllini tapa bilər.

Siyasi müstəvidə də münasibətlərimiz çox yüksəkdir. Siz bilirsiniz ki, mən Baş nazir vəzifəsinə təyin olunandan sonra məni ilk təbrik edən Türkiyənin hörmətli Baş naziri cənab Ərdoğan olubdur. O məni Türkiyəyə dəvət etdi və çox məmnunam ki, mənim ilk səfərim qardaş ölkəyə olubdur.

Bundan sonra da biz hamımız çalışmalıyıq ki, bu münasibətləri inkişaf etdirək, Azərbaycan və Türkiyəni bir-birinə daha da sıx bağlayaq və xalqlarımız da bir-birinə daha da bağlı, daha da yaxın olsun. Xahiş edirəm mənim səmimi təbriklərimi bir daha qəbul edəsiniz.

**Əhməd Ünal Çeviköz:** Hörmətli Baş nazir, çox təşəkkür edirəm. Bu gün Türkiyə Cümhuriyyətinin qurulmasının 80-ci ildönümüdür. Türkiyə Cümhuriyyəti 80 ildir çağdaş səviyyəyə çatmış bir müstəqil ölkə kimi dünya dövlətləri arasında öz həqiqi yerini almışdır. Atatürkümüzün əmanət etdiyi bu dövləti biz öz çiyinlərimizdə daha neçə səksən illər boyunca irəli aparmağa hazırıq.

Bugünkü məmnunluğumun başqa bir səbəbini xüsusilə vurğulamaq istəyirəm. Bir neçə gündən bəri Azərbaycanın hər yerindən, hər kəsdən, dövlət təşkilatlarından bir çox təbrik məktubu alıram. Əslində, bu da Türkiyə Cümhuriyyətinin 80-ci ildönümünün bizə verdiyi qüruru Azərbaycanda bütün xalqın hiss etdiyini göstərir. Bu mənim üçün çox böyük sevincdir. Bunu xüsusilə vurğulamaq istəyirdim.

Cümhuriyyətimizin qurulmasının 80-ci ildönümü münasibətilə təbriklərinizi hörmətli cümhur başkanımıza, Baş nazirimizə çatdıracağam. Sizin vurğuladığınız kimi, Türkiyə ilə Azərbaycan arasında əlaqələr son 12 ildə, Azərbaycanın müstəqillik qazanmasından bəri güclü surətdə inkişaf etmişdir. Bu gün Türkiyə ilə Azərbaycan arasında siyasi, iqtisadi, ticarət, hərbi və mədəniyyət sahələrində fövqəladə yaxın bir işbirliyi, qardaşlıq əlaqələri mövcuddur.

Təbii, bütün bunların hamısının başında duran, bu əlaqələrin

irəliyə aparılmasında böyük rolu olan Cümhurbaşkanı hörmətli Heydər Əliyevin adını çəkməmək və onun xidmətlərini xatırlamamaq mümkün deyildir. Mən hörmətli Heydər Əliyevin ən qısa zamanda sağlamlığını bərpa edərək Azərbaycana dönməsini bütün könlümlə səmimi arzu edirəm.

Cənab Baş nazir!

Prezident seçilməyinizdən sonra Sizi ziyarət edib Cümhurbaşkanımızın, Baş nazirimizin və Xarici İşlər nazirimizin təbriklərini çatdırdığım zaman söylədiyim kimi, biz Sizin prezidentliyiniz dövründə də Türkiyə–Azərbaycan əlaqələrini və bu yaxın qardaşlığın daha yüksək səviyyələrə çatdırılacağına əminik.

Həqiqətən, bu gün 80-ci ildönümü münasibətilə çox həyəcanlı və duyğuluyam. Məni bu gün qəbul etdiyiniz üçün və bizim bayramımızı, tariximizin şanlı səhifəsini bu şəkildə təbrik etdiyiniz üçün Sizə minnətdaram. Çox təşəkkür edirəm.

**İlham Əliyev:** Cənab səfir, mən də demək istəyirəm ki, hörmətli Prezidentimizin, Heydər Əliyevin səyləri nəticəsində bizim münasibətlərimiz daha da güclü inkişaf edibdir və Bakı–Tbilisi–Ceyhan neft kəməri şəxsən onun əsəridir. Onun iradəsi, cəsarəti olmasaydı, o çətin dövrdə, bizə hər tərəfdən təzyiq olan dövrdə əgər öz qətiyyətini göstərməsəydi, bəlkə də bu layihə əfsanə kimi qalacaqdı. Ancaq o bunu əfsanədən reallığa, gerçəkliyə çevirdi. Onun xidmətləri çox böyükdür, misilsizdir.

Ümumiyyətlə, müasir Azərbaycan Heydər Əliyevin əsəridir. Biz hamımız, bütün Azərbaycan xalqı gərək bundan sonra onun gördüyü işləri davam etdirək, genişləndirək, onun yolu ilə Azərbaycanı gələcəyə aparaq. Mən əminəm ki, biz hamımız buna müvəffəq olacağıq, Azərbaycanı daha zəngin, daha qüdrətli dövlətə çevirəcəyik.

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HEYKİ TALVİTYENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*30 oktyabr 2003-cü il*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Talvitye, hörmətli qonaqlar!

Mən sizi ürəkdən salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsinin təyin edilməsi çox müsbət haldır və biz bunu yüksək qiymətləndiririk. Bu onu göstərir ki, Avropa İttifaqı bizim regiona böyük diqqət göstərir. Əlbəttə ki, biz Azərbaycanla Avropa İttifaqı arasında olan münasibətlərin genişlənməsi və inkişaf etməsini istəyirik. Eyni zamanda, fürsətdən istifadə edərək Azərbaycana göstərilmiş yardımlara görə Avropa İttifaqına öz təşəkkürümü bildirirəm. İstərdik ki, gələcəkdə də bizim münasibətlərimiz genişlənsin, müxtəlif sahələrdə mövcud olan əməkdaşlığımız, xüsusilə enerji sektorunda olan işbirliyimiz yeni pilləyə qalxsın.

Eyni zamanda, ümidvaram ki, Avropa İttifaqının Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də diqqəti artırılacaq və bu təşkilat problemin ədalətli həllinə öz töhfəsini verəcəkdir. Bu münaqişə beynəlxalq hüquq normaları əsasında öz həllini tapa bilər. İşğal olunmuş torpaqlar azad edilməli, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalı, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Təbii ki, bu münaqişə həll olunmayanadək Ermənistanla Azərbaycan arasında hər hansı bir iqtisadi əməkdaşlıqdan söhbət gedə bilməz.

Bildiyiniz kimi, ATƏT-in Minsk qrupu bu məsələnin həlli ilə bağlı fəaliyyət göstərir. Ancaq mən hesab edirəm ki, Avropa

İttifaqının bu məsələyə diqqətinin artırılması müsbət nəticələr verə bilər. Bir daha sizi salamlayıram. Əminəm ki, Azərbaycanda keçirəcəyiniz bütün görüşlər ölkəmiz haqqında sizdə daha dolğun təəssürat yaradacaqdır.

**H e y k i  T a l v i t y e:** Cənab yeni seçilmiş Prezident, xoş sözlərinizə görə Sizə təşəkkürümü bildirirəm. Fürsətdən istifadə edərək Sizi Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə ürəkdən təbrik edirəm. Sabah Sizin andiçmə mərasimində iştirak etməyimiz bizim üçün çox xoş bir fürsətdir və biz bundan çox məmnuniyyətlə istifadə edəcəyik.

Zənnimcə, Azərbaycanla Avropa İttifaqı arasında münasibətlər çox gözəl inkişaf edir. Avropa İttifaqının Cənubi Qafqazda xüsusi nümayəndəsinin təyin edilməsi bu təşkilatın sizin regionda daha çox və daha vacib rol oynaması üçün zəmin yaradır. Mənim yanımda oturan cənab Devris də Avropa İttifaqının Azərbaycan üzrə xüsusi elçisi təyin olunmuşdur və Azərbaycanda Avropa Komissiyasını təmsil edir. İnanıram ki, onun təyinatı yaxın vaxtlarda öz konkret nəticələrini verəcəkdir.

Biz bilirik ki, daha geniş Avropa təşəbbüsünün qarşısında müəyyən problemlər vardır. Bizə yaxşı məlumdur ki, bütün Cənubi Qafqaz dövlətləri Avropa İttifaqının üzvü olmaq niyyətindədirlər və bunda israrlıdırlar. Əlbəttə, hər bir ölkə Avropa İttifaqının üzvü olaraq ümumi dəyərlərə və ümumi standartlara əməl etməklə yanaşı, öz milli xüsusiyyətlərini də saxlayır.

Seçkilərə gəldikdə, deməliyəm ki, müsbət hallarla yanaşı, bəzi problemlər də olmuşdur. Sizin qarşınızda Azərbaycanın demokratik yolla inkişafı sahəsində böyük vəzifələr durur. Avropa İttifaqı ilə inteqrasiyanın davam etdirilməsi barədə biz Sizinlə müzakirələr aparacağıq. Biz Sizinlə işləməyə hazırıq və bunda israrlıyıq.

**İ l h a m  Ə l i y e v:** Siz çox düzgün qeyd etdiniz ki, Azərbaycan Avropa strukturlarına inteqrasiya yolu ilə gedəcəkdir. Bu bizim strateji xəttimizdir. Eyni zamanda, mən hesab edirəm ki, Azərbaycan da Avropa İttifaqı üçün çox cəlbedici və mühüm

bir ölkədir. Ölkəmizin coğrafi-siyasi vəziyyəti, iqtisadi potensialı və siyasi mövqeləri Avropa İttifaqı üçün mühüm əhəmiyyət kəsb edir. Ona görə hesab edirəm ki, aramızdakı münasibətlər qarşılıqlı olmalıdır.

15 oktyabrda Azərbaycanda keçirilmiş seçkilər ölkədə demokratiyanın inkişafı istiqamətində mühüm bir addım olmuşdur.

Hesab edirəm ki, Avropa İttifaqının da bu seçkilərə münasibəti ədalətlidir. Seçkiləri müşahidə edən bütün qurumlar və şəxslər seçkilərin nəticələrinin Azərbaycanda real vəziyyəti əks etdirdiyi fikrindədirlər. Mənim üçün ən önəmlisi odur ki, Azərbaycan xalqı seçkilərin nəticələrinin reallığı əks etdirdiyinə əmindir. Göstərilən bu etimad, əlbəttə ki, mənim üzərimə çox yüksək məsuliyyət qoyur və çalışacağam ki, bu etimadı ləyaqətlə doğruldum.

Əminəm ki, Azərbaycanla Avropa İttifaqı arasında olan münasibətlər növbəti beş ildə daha da güclənəcək və hər iki tərəfə böyük fayda verəcəkdir.

Bir daha sizə təşəkkürümü bildirirəm.

## İTALİYANIN AZƏRBAYCANDAKI FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ XANIM MARQARİTA KOSTA İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*30 oktyabr 2003-cü il*

**M a r q a r i t a  K o s t a:** Cənab Baş nazir, icazə verin Sizin Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz ilə əlaqədar İtaliya Respublikasının prezidenti Karlo Adzelyo Çampinin təbrik məktubunu Sizə təqdim edim.

**İ l h a m  Ə l i y e v:** Xahiş edirəm cənab Prezidentin məktubuna görə, təbriklərinə görə ona təşəkkürümü yetirin. Çox xoşdur ki, ölkələrimiz arasında yaxşı münasibətlər vardır. Bu münasibətlər bütün müstəvilərdə – iqtisadiyyatda da, siyasətdə də, mədəni həyatda da inkişaf edir. Bu bizi çox sevindirir. Biz sizin ölkənizlə münasibətləri inkişaf etdirməyi çox istəyirik. Bilirsiniz ki, bu yaxınlarda Prezidentimiz İtaliyaya səfir təyin olunması haqqında qərar qəbul etmişdir. Biz bunu çox gözləyirdik. Düşünürəm ki, Azərbaycanın səfirliyi ölkənizdə fəaliyyətə başlayandan sonra əlaqələrimiz daha çox olacaqdır. Bu isə ölkələrimiz arasında münasibətlərin daha da möhkəmlənməsinə təkan verəcəkdir.

Həmçinin, xahiş edirəm ki, mənim ən xoş arzularımı cənab Baş nazirə yetirəsiniz. Xatirimdədir, mən Baş nazir təyin olunanda, o məni təbrik etmişdi və mən də ona cavab məktubu göndərmişdim. İtaliyaya, italyan xalqına uğurlar diləmək və Azərbaycanda fəaliyyətinizə görə sizə şəxsən təşəkkür etmək istəyirəm. Bilirəm, siz ölkəmizə çox səmimi münasibət bəsləyirsiniz, çox gözəl tədbirlər keçirirsiniz. Əlbəttə, bütün bunlar ölkələrimizin yaxınlaşmasına daha da kömək edir. Mən yeni vəzifəmdə ölkələrimizin bundan sonra da yaxınlaşmasına çalışacağam və prezidentimiz Heydər Əliyevin siyasətini davam etdirəcəyəm.

**M a r q a r i t a  K o s t a:** Xoş sözlərə görə Sizə təşəkkür etmək istəyirəm. Düşünürəm ki, Azərbaycanla İtaliyanın bir böyük ailə olması üçün ikitərəfli münasibətləri daha da inkişaf etdirmək məqsədilə birlikdə işləyəcəyik. Bu mənim arzumdur, çünki mənə həmişə deyiblər ki, ölkələrimiz arasında oxşar cəhətlər çoxdur. Əminəm ki, Siz çox yaxşı, əla prezident olacaqsınız. Atanız sizin gözəl ölkənizin inkişafı üçün çox işlər görmüşdür. Hesab edirəm ki, Siz onun işinin layiqli davamçısı olacaqsınız. Ümidvaram ki, atanızı çox tezliklə görəcəyəm. İstəyirəm ki, filarmoniyanın açılışında biz onunla birlikdə iştirak edək.

Ölkənizə uğurlar, ailənizə xoşbəxtlik arzulayıram.

**İ l h a m  Ə l i y e v:** Onu biz də çox səbirsizliklə gözləyirik. Zənnimcə, tezliklə gələcəkdir. Bilirsiniz ki, o Sizə çox hörmət edir. Bu gün görüşdüyümüzü ona çatdıracağam. O çox şad olacaqdır.

# Q E Y D L Ə R

**1. Heydər Əliyev,** H e y d ə r  Ə l i r z a  o ğ l u (1923-2003) – görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993-2003), SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı, iki dəfə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın büro üzvü, Azərbaycan KP MK-nın birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969-82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsinə, əmək və ictimai-siyasi fəallığın artırılmasına, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsinə, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi vaxtlarda da həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991-93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. Azərbaycan xalqı 1993-cü ilin may-iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət başçıları onu rəsmən Bakıya dəvət etməyə məcbur oldular. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü ilin oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda «Əsrin müqaviləsi» adı almış neft müqaviləsi bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanları Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən Prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən, Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusudur. – 5-11,12,15,18,20,21,28,29,30,31,34,39,46, 47, 48, 50,51,52,53,54, 55, 57,59,60,62,63,65,108, 111,112,116, 118,124,125,133,136,140,141,143,144,145,146,147,157,158, 159, 160,166,167,169,170,173,183,184,188,194,199, 202,204,205, 207, 208,209,212,215,216,217,219,220,221,222,223,224,225,227,229, 230,231,232,233,234,235, 236,237,243,244,245,246,247,248,249, 250,251,252,257,261,264,265,266,267,268,269,271,273,274,281, 282,284, 285,286,289,290,291,292,294,298,299,300,301,302,303, 304,305,306,307,308,311,318,319,320,322,331,334,335, 337,340,341,334,335,337,340,341,344,345,350,357,359,369.

**2. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Ərazisi 4 min km$^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə Qarabağ separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər.

BMT-nin 822,853,874,884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyri-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 7,12,26,44,59,66,75,80,81,82,99, 107,128,131,136,148,157,160,188,192,211,219,225,239,244, 269,300,313,353,354,370.

**3. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi-siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5 minə yaxın ilk partiya təşkilatında birləşən 180 min üzvü var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Parlamentdə 73 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdi. 2005-ci il mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 10,87,100,262.

**4. Murtuz Ələsgərov,** M u r t u z N ə c ə f o ğ l u (d.1928) – Azərbaycanın dövlət xadimi, hüquq elmləri doktoru, professor. Respublikanın əməkdar hüquqşünası. Yeni Azərbaycan Partiyasının sədr müavini və partiyanın Siyasi Şurasının üzvüdür. 1993-cü ildə Bakı Dövlət Universitetinin rektoru olub. 1995-ci ildə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilib. 1996-2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin sədri olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 12,141,142.

**5. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ)** – Respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və

istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 13,15,17,25,34,49,51,61,63,146,270,284.

**6. Ramiz Mehdiyev,** R a m i z Ə n v ə r o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978-80-ci illərdə rayon partiya komitəsinin birinci katibi, 1980-81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981-83-cü illərdə Azərbaycan KP MK-da partiya təşkilat işi şöbəsinin müdiri, 1983-88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988-94-cü illərdə Azərbaycan Respublikası MEA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəridir. 1995-2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvü. – 15,18,250,253.

**7. Avropa Şurasının Parlament Assambleyası** (AŞ PA) – 2004-cü ildə təşkil olunmuşdur. AŞ PA-da 25 Avropa ölkəsinin 732 deputatı fəaliyyət göstərir. – 15,39,53,88,99,150-152.

**8. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları

Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən AŞ-nın üzvüdür. – 12,13,39,56,63,79,86, 87,100,110,134,150,151,166,167,181,195,221,312,234,245, 304,307,316,329,354.

**9. Artur Rasizadə,** A r t u r  T a h i r  o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986-92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 17,28.

**10. Klivlend** – ABŞ-da şəhər. Klivlend ABŞ-ın sənaye, maliyyə-ticarət və mədəni mərkəzlərindən biri kimi tanınır. – 23,29,31,47,54,61,89,133,189.

**11. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub–şərq kənarında dövlət. Sahəsi 780,6 min km$^2$, əhalisi 78 mln. nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 23,27,28,51,52,82,114,127-139,148,151,187,314, 318,328,330,334-336,363,367-369.

**12. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyə ictimai, siyasi və dövlət xadimi. P.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuşdur. 1983-cü ildən siyasi fəaliyyətini Rifah partiyasında davam etdirir. 1994-cü ilin martında keçirilən bələdiyyə seçkilərində İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri seçilir. Bu arada Rifah Partiyası bağlanır və onun bazasında Fəzilət Partiyası yaradılır. Buna görə də Ərdoğanı dəstəkləyən partiya üzvləri Fəzilət Partiyasından ayrılaraq Ədalət və İnkişaf Partiyasını qurdular və onu özlərinə lider seçdilər.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində AKP təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri seçildi. – 23, 127-139,318,330,334,335,362,368.

**13. BP, «B r i t i ş  P e t r o l e u m»,** – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. BP 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 25,50,108.

**14. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 25,42, 48-52,55,59,105,116,119,128,129,131,135,139,145,146,204,209, 211,216,223,232,237,243,268,269,284,294,323,348,367,369.

**15. Atəşkəs rejimi –** 1994-cü il mayın 12-də Moskvada Ermənistan–Azərbaycan arasında atəşin müvəqqəti dayandırılması (atəşkəs) haqqında müqavilə imzalandı. Müqaviləyə görə, müharibə aparan tərəflər sülh müqaviləsi bağlanana qədər atəşin dayandırılması haqqında razılığa gəldilər. – 27, 68,111.

**16. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Ərazisi 17075,4 min km$^2$, əhalisi 146,3 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı iki palatalı – Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 29,30,51,55,56,60-72,82,84,110-114,137,148,152-154,163,165,169-186,233,236,246,249-254,260,287,322,342-346.

**17. Putin,** V l a d i m i r V l a d i m i r o v i ç (d.1952) – 2000-2008-ci illərdə Rusiya Federasiyasının prezidenti. 1975-97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası prezidenti administrasiyasının rəhbəri, 1998-99-cu illərdə MTİ-in direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. – 30,55,56,64, 111,113,163-165,169,170,171,249,251,252,253,254

**18. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Ərazisi 9,14 milyon km$^2$, əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştata bölünür. Ali qanunvericilik orqanı iki palatalı (Nümayəndələr palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 31-44,47,54,55,58-59,77-89,90-91,92-100,113,114, 132,137,187,200.

**19. «Vaşinqton post»** – ABŞ-da gündəlik qəzet. Əsası 1877-ci ildə qoyulmuşdur. Tirajı təxminən 500 min nüsxədir. – 31-44.

**20. Sovet İttifaqı,** bax: SSRİ

**21. SSRİ,** S o v e t S o s i a l i s t R e s p u b l i k a l a r ı İ t- t i f a q ı – 1922-1991-ci illərdə dünyanın ən böyük və qüdrətli dövlətlərindən biri. Tərkibində 15 müttəfiq respublika, 20 muxtar respublika, 8 muxtar vilayət olmuşdur. – 32,36,37,39,68,85,282.

**22. İsa Qəmbərov,** İ s a Y u n i s o ğ l u (d.1957) –1990-95-ci illərdə Milli Məclisin deputatı, 1992-93-cü illərdə parlamentin sədri olub. 1992-ci ildən Müsavat Partiyasının başqanıdır. – 36,231,232,244,268,340,351.

**23. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Ərazisi 0,013 min km$^2$, əhalisi 67 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX-VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində isə Albaniyanın, IV əsrdən isə Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olur. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil edilərkən respublikanın paytaxtı oldu. – 36,68,117.

**24. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal–şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 58,8 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 38,107-109,323, 363-364.

**25. Neft Fondu** – 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti Azərbaycanın neft strategiyasından əldə edilən gəlirlərin idarə edilməsidir. – 38,146,159,205,208,210,243,245,268,300,323,324,348.

**26. Beynəlxalq Valyuta Fondu** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi, beynəlxalq valyuta təşkilatı. 1945-ci ildə yaradılmış, 1947-ci ildən fəaliyyətə başlamışdır. İdarə heyəti Vaşinqtondadır. Dünyanın 130-a yaxın ölkəsi fondun üzvüdür. Nizamnaməsinə görə, məqsədi beynəlxalq valyuta

əməkdaşlığına yardım etmək, ölkələr arasında valyuta-hesablaşma münasibətlərini nizama salmaq, fonda daxil olan ölkələrin ödəmə balanslarını tarazlaşdırmaq və valyuta məzənnəsini tənzimləməkdən ibarətdir. 1992-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fonduna qəbul olunmuşdur. – 38,205,323.

**27. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton–Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 38,205,323.

**28. Toni Bleyr,** E n t o n i Ç a r l z L i n t o n (d.1953) – B.Britaniyanın siyasi və dövlət xadimi. Hüquqşünas. 1983-cü ildən parlamentə deputat, 1994-cü ildən Leyboristlər partiyasının sədri seçilmişdir. 1997-2007-ci illərdə B.Britaniyanın Baş naziri olmuşdur. 2007-ci ildən BMT-nin İsrail ilə Fələstin probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etmək üçün vasitəçi təyin edilmişdir. – 38,323,363.

**29. Çeyni Riçard (Dik)** (d.1941) – Amerikanın siyasi xadimi. 1989-1992-ci illərdə ABŞ-ın müdafiə naziri olmuşdur. 1993-cü ildən Amerikada Sahibkarlıq İnstitutunun direktorudur. «Hallibörtn» korporasiyasının prezidenti, Amerika–Azərbaycan Ticarət Palatasının fəxri üzvüdür. Hal-hazırda ABŞ-ın vitse-prezidentidir. – 41.

**30. Corc Buş** (d.1946) – ABŞ-ın 43-cü prezidenti (2000-ci ildən). ABŞ-ın 41-ci prezidenti Corc Herbert Buşun oğludur. 1968-ci ildə Yel universitetini (incəsənət, tarix bakalavrı), 1975-

ci ildə isə Harvard universitetini (incəsənət magistri) bitirmişdir. «Speaktrum-7 Enerci Korporeyşn» firmasının yaradıcısıdır. 1994-cü ildən Texas ştatının qubernatoru olmuşdur. Respublikaçıdır. – 42,82,83,132,187.

**31. Hyüston** – ABŞ-ın cənubunda şəhər və port. Texas ştatındadır. Əhalisi təqribən 2 milyon nəfərdir. Hyüston ABŞ-ın neft biznesinin mərkəzidir. – 42,84,112.

**32. «Əsrin müqaviləsi»** – 1994-cü ilin sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 51,59,208,215,218,300.

**33. T ü r k P e t r o l l a r ı, TRAO,–** 1954-cü ildə Türkiyənin neft və qaz sənayesinin inkişafı üçün yaradılmışdır. Karbohidrogen istehsalı və emalı sahəsində Türkiyənin ən böyük şirkətidir. TPAO hazırda MDB, Şimali Afrika və Orta Şərqdə fəaliyyət göstərir. Azərbaycana gələn ilk xarici neft şirkətlərindəndir. – 52.

**34. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 372 min $km^2$, əhalisi 126 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 53-57,140-142,235.

**35. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya,

ABŞ və Fransa həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 59,76,101, 102,110-114,137,149,192,193,244,314,353,355,370.

**36. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici işlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 62,110,116,169,206,215,220,249,268,278,284, 299,317,337-341.

**37. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin

qurtarmasından sonra ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 76,113,195,325,318, 353-357.

**39. Assoşieyted Press** – ABŞ-ın ən iri informasiya agentliklərindən biri. 1848-ci ildə Nyu-Yorkda yaradılmışdır. Amerika qəzet naşirlərinin xüsusi mülkiyyəti olan A.p. agentliyi ABŞ-da bütün informasiya işinə nəzarət edir. – 7-90

**40. Avropa Birliyi** (AB) – 1951-57-ci illərdə yaranmış üç Qərbi Avropa inteqrasiya təşkilatının ümumi adı Avropa İqtisadi Birliyi - AİB, Avropa Kömür və Polad Birliyi – AKPB, Avropada Atom Energetika Birliyi – AAEB. AB ümumi prinsiplərin müəyyən edilməsindən birgə fəaliyyətə qədər bir neçə mərhələ (Avropa İnvestisiya Bankının, Avropa Regional İnkişaf Fondunun – vahid valyuta qəbul etməsi) keçmişdir. Mühüm mərhələ Vahid Avropa Aktının (1986-1987-ci ildən qüvvəyə minmişdir) qəbul edilməsi olmuşdur. 1967-ci ildə rəhbər orqanların birləşməsindən sonra – AİB, AKPB və AAEB – Avropa Birliyi – 1993-cü ildə isə Avropa Şurası yarandı. – 79,134,373,354,357.

**41. Azərbaycan Xalq Cəbhəsi** (AXC) – ictimai-siyasi təşkilat. 1989-cu ildə təsis konfransı keçirilmiş, Proqram və Nizamnaməsi qəbul olunmuşdur. 1999-cu il iyulun 25-də keçirilmiş qurultayının qərarı ilə Azərbaycan Xalq Cəbhəsi Partiyası adlandırılmışdır. – 79,340.

**42. «Sülh naminə tərəfdaşlıq» proqramı** – NATO ilə Şərqi Avropa və keçmiş SSRİ ölkələri arasında siyasi və hərbi sahələrdə əməkdaşlıq sənədi, 1994-cü il yanvarın 10-11-də NATO Şurasının dövlət və hökumət başçıları səviyyəsində Brüsseldə keçirilən görüşdə ABŞ tərəfindən təklif edilmişdir.

Azərbaycan Prezidenti Heydər Əliyev 1994-cü il mayın 4-də NATO-nun Brüsseldəki mənzil-qərargahında Azərbaycanın «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulması haqqında sənədi imzalamışdır. 1996-cı ilin aprelində Heydər Əliyev NATO-nun Brüsseldəki mənzil-qərargahında NATO-nun Baş katibi Xavyer Solana ilə görüşündə Azərbaycan Respublikasının təqdimat sənədini ona vermişdir. Həmin sənəd əsasında Azərbaycanın NATO ilə tərəfdaşlığının fərdi proqramı hazırlanmışdır. – 79.

**43. Texas –** ABŞ-ın cənubunda ştat. Sahəsi 691,2 min $km^2$, əhalisi 19 milyon nəfərdir. Texas sənaye-aqrar ştatıdır. İnzibati mərkəzi Ostin şəhəridir. – 42,82,83,93,96.

**44. Qazaxıstan Respublikası** – Avroasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2724,9 min $km^2$, əhalisi 16 679 min nəfərdir. Paytaxtı Astana şəhəridir. Dövlət başçısı – prezident, qanunvericilik orqanı birpalatalı Ali Sovetdir. – 84, 105-106,116,173.

**45. İran,** İran İslam Respublikası – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon $km^2$, əhalisi 62,2 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 84,85,187,188,311.

**46. Riçard Armitac** – R.Reyqanın prezidentliyi dövründə (1980-1988) müdafiə nazirinin beynəlxalq təhlükəsizlik üzrə müşaviri olmuşdur. Corc Buşun (ata) prezidentliyi dövründə (1988-1992) xüsusi tapşırıqlar üzrə səfir işləyərkən yeni

müstəqil dövlətlərə yardım göstərmək proqramının müəlliflərindən biri olmuşdur. Həmin vaxtdan 907-ci düzəlişin əleyhinə çıxır. Amerika–Azərbaycan Ticarət Palatası Direktorlar Şurasının üzvüdür. «Armitac Assoşieyts El Si» şirkətinin sahiblərindən biridir. – 90-91.

**47. Dövlət Departamenti** – ABŞ-da 1789-cu ildən Xarici İşlər Nazirliyi funksiyasını həyata keçirən əsas xarici siyasət idarəsi. Dövlət katibi başçılıq edir, prezidentin və Konqresin hazırladığı xarici siyasi xətti həyata keçirir. – 90.

**48. ABŞ Konqresi,** A m e r i k a B i r l ə ş m i ş Ş t a t l a r ı K o n q r e s i – ali qanunverici hakimiyyət orqanı. İki palatadan – Senatdan və Nümayəndələr palatasından ibarətdir.

Senatın 100 nəfər üzvü var. Ölkənin hər ştatından Senata iki senator seçilir. Nümayəndələr palatasının 435 üzvü var. Bu palatanın üzvləri hər seçki dairəsində yaşayan əhalinin sayına görə seçilir. Qanun layihələri hər iki palatada müzakirə olunur. Konqres tərəfindən qəbul olunan qanunları ABŞ prezidenti təsdiq edir. – 92-100.

**49. Nyu-York –** Şimal-Şərqi ABŞ-da ştat. Sahəsi 137,3 min $km^2$, əhalisi 8 milyon nəfərdir. İnzibati mərkəzi – Trenton. – 93,187.

**50. Pensilvaniya –** Şimal–Şərqi ABŞ-da ştat. Sahəsi 118,5 min $km^2$, əhalisi 12,1 milyon nəfərdir. İnzibati mərkəzi – Xarzisberq. – 93.

**51. R u s i y a D ö v l ə t D u m a s ı** – 1906-cı ildə Rusiyada yaradılan nümayəndəli qanunvericilik müəssisəsi. 17 oktyabr Manifesti əsasında yaradılmışdır. Burada qanunlar müzakirə edilərək Dövlət Şurasına təqdim edilir və çar tərəfindən təsdiq edilirdi. Duma 1917-ci il 6 oktyabra qədər fasilələrlə fəaliyyət göstərdi. 1993-cü il Rusiya Federasiyasının Konstitusiyasına əsasən Duma təzədən bərpa olundu. – 94.

**52. Ukrayna Ali RADA-sı** – Ukraynanın ali qanunverici hakimiyyət (Sovet–Şura, Xalq Deputatları RADA-sı) orqanı – 94.

**53. Yaponiya Parlamenti** – ali qanunverici hakimiyyət orqanı. Parlament Nümayəndələr Palatası və Müşavirlər Palatasından ibarətdir. Parlament maliyyə işlərinin idarə olunmasına, hökumətin fəaliyyətinə nəzarət edir. – 94.

**54. Almaniya Bundestaqı** – Almaniyada parlamentin aşağı palatası. –

**55. İsrail Knesseti** – İsrail parlamentinin adı. – 94.

**56. Demokratlar Partiyası** – ABŞ-ın iki əsas partiyasından biri. Əsası 1828-ci ildə qoyulmuşdur. XIX əsrin birinci yarısında Cənub plantasiyaçılarının və bankirlərin mənafeyini müdafiə edirdi. 1829-41, 1845-49, 1853-61, 1885-89, 1893-97, 1913-21, 1933-53, 1961-69, 1977-81,1993-2001-ci illərdə hakimiyyətdə olmuşlar. – 96.

**57. Çin Xalq Respublikası,** ÇXR – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1219 milyon nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansiz), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszın) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı – Çin Xalq Respublikasının sədridir. Paytaxtı Pekindir. – 96,122-126,173.

**58. «907-ci maddə» –** ABŞ Konqresinin 1992-ci il oktyabrın 24-də erməni lobbisinin təzyiqi ilə qəbul etdiyi «Rusiyanın və yeni müstəqillik qazanmış dövlətlərin azadlığını müdafiə aktı»na 907-ci düzəliş nəzərdə tutulur. Düzəliş ABŞ hökumətinin Azərbaycan hökumətinə yardımını qadağan edir. Buna

baxmayaraq, istər Bill Klinton, istərsə də ondan sonra ABŞ prezidenti seçilən Corc Buş administrasiyası bu düzəlişin reallığı nəzərə almadığını təsdiq edərək onun ləğv edilməsi təklifini müdafiə etmişlər. C.Buş hökuməti 2002-ci ildə bu düzəlişin fəaliyyətdən düşdüyünü qərara almışdır. – 98.

**59. Fransa,** Fransa Respublikası – Qərbi Avropada dövlət. Sahəsi 551 min km$^2$, əhalisi 58,4 milyon nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanunverici hakimiyyəti iki palatadan (Milli Məclis və Senat) ibarət parlament həyata keçirir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 101-104,137,151.

**60. Fransa Senatı** – Qanunverici hakimiyyət orqanı. – 101-104.

**61. Gülər Əhmədova,** Gülər Mikayıl qızı (d.1965) – psixologiya elmləri namizədi. Heydər Əliyev tərəfindən yaradılmış Respublika Uşaq Təşkilatının (1996) sədridir. 2000-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. – 102.

**62. Jak Şirak** (d.1932) – Fransanın görkəmli siyasi və dövlət xadimi. 1974-76 və 1986-88-ci illərdə Fransanın Baş naziri, 1977-95-ci illərdə Paris şəhərinin meri, 1995-2007-ci illərdə Fransa Respublikasının prezidenti. «Heydər Əliyev» ordeni ilə təltif olunmuşdur. – 102.

**63. Natiq Əliyev,** Natiq Agaəli oğlu (d.1947) – 1993-2006-cı illər Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti olmuşdur. Hazırda Azərbaycan Respublikası Sənaye və Energetika naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 106.

**64. Merzlyakov Yuri** (d.1949) – Rusiya Federasiyasının fövqəladə və səlahiyyətli səfiri. 2003-cü ildən ATƏT-in Minsk qrupunda Dağlıq Qarabağ məsələsinin nizamlanması üzrə həmsədrlərindən biri. – 110-114.

**65. Sergey Mironov,** S e r g e y  M i x a y l o v i ç (d.1953) – Rusiya dövlət xadimi, mühəndis-geofizik. 1994-2001-ci illərdə Sankt-Peterburq Qanunverici məclisinin üzvü, 2001-ci ildə Rusiya Federasiyası Federal Şurasının üzvü, 2001-ci ilin dekabrından Federal Şuranın sədridir. – 113.

**66. Əziz Əliyev,** Ə z i z  M ə m m ə d k ə r i m  o ğ l u (1897-1962) – görkəmli dövlət və siyasi xadimi, səhiyyə təşkilatçısı. Tibb elmləri doktoru, professor. Əziz Əliyev müxtəlif illərdə Azərbaycan Klinik İnstitutunun direktoru, Bakı Səhiyyə Şöbəsinin müdiri, Azərbaycan Xalq Səhiyyə Komissarının müavini və Xalq Səhiyyə Komissarı, Azərbaycan Dövlət Tibb İnstitutunun və Azərbaycan Dövlət Universitetinin rektoru, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan KR MK-nın katibi, Dağıstan MSSR Vilayət Komitəsinin birinci katibi, Azərbaycan SSR Nazirlər Soveti Sədrinin birinci müavini, Azərbaycan Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahiyyə İnstitutunun direktoru, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru vəzifəsində çalışmışdır. SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. – 115-121,287.

**67. Niyazi,** T a ğ ı z a d ə – H a c ı b ə y o v  N i y a z i  Z ü l-f ü q a r  o ğ l u (1912-1984) – görkəmli Azərbaycan dirijoru, bəstəkar. Azərbaycan milli dirijorluq məktəbinin formalaşması, inkişafı Niyazinin adı ilə bağlıdır. SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, iki dəfə SSRİ Dövlət mükafatı laureatı idi. –115.

**68. Bakı–Supsa neft kəməri** – 1994-cü ilin sentyabrında Azərbaycan hökumətinin xarici neft şirkətləri ilə imzaladığı

«Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir vəsiləsi Bakı–Supsa neft kəməridir. Kəmərin uzunluğu 830 km, gündəlik maksimum ötürmə gücü 115 min barreldir. Supsada hər birinin tutumu 250 min barrel olan dörd terminal tikilmişdir.

1999-cu il aprelin 17-də Supsada ilkin Xəzər neftinin Qərb istiqamətində nəqli üçün Bakı–Supsa ixrac boru kəmərinin və Supsa yerüstü terminalının təntənəli rəsmi açılış mərasimi olmuşdur. – 116,216.

**69. Bakı–Novorossiysk neft kəməri –** 1994-cü ilin sentyabrında Azərbaycan Respublikası hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir hissəsi Bakı–Novorossiysk neft kəməridir. Bu kəmər 1997-ci ilin noyabrında istifadəyə verilmişdir. –

**70. Nazim Hüseynov,** N a z i m Q a l i b o ğ l u (d.1969) – Azərbaycan cüdoçusu, azərbaycanlı ilk Olimpiya çempionu (1992), 2 qat Avropa çempionu (1992-93). Dünya çempionatının gümüş və bürünc mükafatçısı. 1992-ci ildə bütün çəkilərdə Avropanın ən güclü cüdoçusu adına layiq görülmüşdür. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 119,120.

**71. Li Pen (d.1928)** – Çinin siyasi və dövlət xadimi. 1979-98-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildən ÇXR Ümumçin Xalq Nümayəndələri Məclisi Daimi Komitəsinin sədridir. – 124.

**72. Abdullah Gül** (d.1950) – Türkiyə dövlət və siyasi xadimi, iqtisad elmləri doktoru, professor. 1983-91-ci illərdə İslam İnkişaf Bankında Türkiyə təmsilçisi olmuşdur. 1991-ci ildə TBMM-nın üzvü seçilmişdir. Abdullah Gül Rəcəb Ərdoğanla Ədalət və İnkişaf Partiyasının (Adelet və Kalkinma Partisi) yaradıcılarından biridir. 2002-ci il seçkilərində AKP qalib gəlir və A.Gül Baş nazir vəzifəsini tutur.

2003-cü ildə Rəcəb Tayyib Ərdoğan Baş nazir, Abdullah Gül isə Baş nazirin müavini olur. 2007-ci il avqust ayının 28-də Abdullah Gül Türkiyənin 11-ci prezidenti seçildi. – 127,138,187.

**73. Əhməd Necdət Sezər** (d.1941) – 2000-2007-ci illərdə Türkiyə prezidenti. 1962-83-cü illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1993-cü ildə Türkiyə Kassasiya Məhkəməsinin, 1988-ci ildə isə Türkiyə Konstitusiya Məhkəməsinin üzvü seçilib. 1998-2000-ci illərdə Türkiyə Konstitusiya Məhkəməsinin sədri olmuşdur. – 127,138.

**74. Müşavirlər Palatası** – Yaponiya ali qanunverici orqanının iki palatasından biri. – 141.

**75. İpək yolu**, b ö y ü k İ p ə k y o l u – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin böyük İpək yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də böyük İpək yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – böyük İpək yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 142.

**76. Xaçmaz** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Quba və Qusar rayonlarına verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1045 $km^2$, əhalisi 111,6 min nəfərdir. – 143-149,203,218,226.

**77. Voloşin Aleksandr Stalyeviç** (d.1956) – inşaatçı-mühəndis. 1992-95-ci illərdə AO «ESTA Korp» prezidenti. 1997-98-ci illərdə Rusiya Federasiyası Prezidentinin İcra Aparatı rəhbərinin müavini, 1999-cu ildən isə rəhbəri olmuşdur. – 152-154.

**78. İkinci dünya müharibəsi** (1939-45) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibə elan etdi. 1942-43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 72 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 152,160,287.

**79. Ukrayna,** Ukrayna Respublikası – Cənub–Şərqi Avropada dövlət. Ərazisi 603,7 min $km^2$, əhalisi 51,3 milyon nəfərdir. Ukraynanın tərkibinə 24 vilayət və Krım

Respublikası daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı – Ali RADA-dır. Paytaxtı Kiyev şəhəridir. – 155-162.

**80.** G**UÖAM** – Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997). 2005-ci ildə isə Özbəkistan bu qurumu tərk etdi. – 155.

**81. Əli Nağıyev,** Əli Teymur oğlu (d.1954) –1996-2006-cı illərdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziri, 2006-cı ilin mayında Azərbaycan Respublikasının Belarus Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilmişdir. I çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. – 156,160, 161,273,274.

**82. Yanukoviç Viktor Fyodoroviç** (d.1950) – mühəndis-mexanik. 2003 və 2007-2008-ci illərdə Ukrayna Respublikasının Baş naziri olmuşdur. Hal-hazırda Regionlar Partiyasının rəhbəridir. – 156.

**83. Leonid Daniloviç Kuçma** (d.1938) – Ukraynanın siyasi və dövlət xadimi. 1994-2005-ci illərdə Ukrayna Respublikasının prezidenti olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 156,158.

**84. Böyük Vətən müharibəsi** – bax: İkinci dünya müharibəsi.

**85. Avstriya,** Avstriya Respublikası – Mərkəzi Avropada, Dunay hövzəsində dövlət. Sahəsi 83,8 min km$^2$, əhalisi 8,1 milyon nəfərdir. Dövlət başçısı prezident,

qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Vyanadır. – 166-168.

**86. Lyudmila Aleksandrovna Putina** – Rusiya Federasiyasının ikinci prezidenti Vladimir Putinin həyat yoldaşı. – 169-186.

**87. İqnatenko Vitali Nikitiç** (d.1941) – jurnalist. 1991-ci ildən İTAR-TASS agentliyinin baş direktorudur. – 169-186.

**88. Bakı Slavyan Universiteti** – 2000-ci ildə prezident Heydər Əliyevin fərmanı ilə M.F.Axundov adına Azərbaycan Rus dili və Ədəbiyyatı İnstitutunun bazası əsasında yaradılmışdır. İnstitutun beş fakültəsi var. Burada rus, bolqar, polyak, çex, yunan, ukrayna dilləri, roman–alman filologiyası öyrənilir. Universitetdə 40-dan çox elmlər doktoru, 200-ə yaxın elmlər namizədi fəaliyyət göstərir, üç min tələbə isə təhsil alır. – 173,174,177,179, 180.

**89. «Bakinski raboçi»** – ilk nömrəsi rus dilində 1906-cı ilin mayında Bakıda gizli nəşr olunmuşdur. «Bakinski raboçi» Sovetlər Birliyində Azərbaycan KP, Azərbaycan SSR Ali Soveti və Nazirlər Sovetinin orqanı olmuşdur.

1993-cü ildən isə «Bakinski raboçi»nin təsisçiləri Prezident işlər idarəsinin və qəzetin redaksiya heyətidir. – 173,176.

**90. İTAR – TASS** – Rusiya İnformasiya Teleqraf Agentliyi. 1992-ci ildə SİTA-nın bazası əsasında yaradılmışdır. – 173,309.

**91. Qusman Mixail Solomonoviç** (d.1950) – jurnalist. İTAR-TASS informasiya agentliyi Baş direktorunun müavini. Rusiya Federasiyası Dövlət mükafatı laureatı. – 174,184.

**92. Səməd Vurğun,** Səməd Yusif oğlu Vəkilov (1906-1956) – böyük Azərbaycan şairi, ictimai xadim. Azərbaycanın xalq şairi. S.Vurğunun yaradıcılığı XX əsr Azərbaycan şeirinin inkişafında mühüm rol oynamışdır. S.Vurğun Azərbaycan Yazıçılar İttifaqının məsul katibi, sədri, Azərbaycanın

Xarici Ölkələrlə Mədəni Əlaqə Cəmiyyətinin sədri, Azərbaycan MEA-nın vitse-prezidenti olmuşdur, iki dəfə SSRİ Dövlət mükafatı laureatı adına layiq görülmüşdür. – 174.

**93. KİV** – Kütləvi İnformasiya Vasitələri. – 174,183.

**94. RTR, Ümumrusiya Dövlət Televiziya və Radio Verilişləri Kompaniyası** (ÜDTRVK) – 1990-cı ildə yaradılmışdır, Rusiya Federasiyası ərazisində televiziya və radio verilişləri təşkil edir. 1998-ci il bazasında yaradılmış ÜDTRVK dövlət media holdinqı federal «Rossiya» və «Kultura» telekanalları, «Radio Rossii», «Mayak», «Orfey», «Yunost», «Qolos Rossii» radiostansiyalarını və 92 regional dövlət teleradiokompaniyalarını, Ostankino televiziya və Rusiya informasiya texniki mərkəzini, «Vesti» agentliyini əhatə edir. – 175.

**95. «Exo»** – Azərbaycanda buraxılan gündəlik ictimai-siyasi qəzet. 2001-ci ildən Bakıda nəşr edilir. Gündəlik tirajı 6 min nüsxədir. – 175.

**96. «Zerkalo»** – ictimai-siyasi qəzet. 1990-cı ildən nəşrə başlayıb. 1999-cu ildən «Zerkalo» gündəlik çıxır. – 175.

**97. Hüseyn Bağırov,** Hüseynqulu Seyidoğlu (d.1955) – iqtisadçı. 1993-cü ildən Qərb Universitetinin təsisçisi, prezidenti və rektorudur. 2000-ci ildə Azərbaycan Respublikası Ticarət naziri, 2001-ci ilin may ayından Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər naziridir. H.Bağırov bir sıra beynəlxalq akademiyaların və assosiasiyaların həqiqi üzvüdür. – 175.

**98. «Vışka»** – gündəlik qəzet. 1928-ci ilin martından Bakıda rus dilində nəşr edilir. – 176.

**99. Lujkov Yuri Mixayloviç** (d.1936) – Rusiyanın dövlət xadimi. 1987-ci ildə Moskva Soveti İcraiyyə Komitəsinin 1-ci müavini, 1990-cı ildə sədri olmuşdur. 1991-ci ildə Moskva

şəhərinin vitse-meri, 1992-ci ildən isə meri və Moskva hökumətinin başçısıdır. SSRİ və Rusiya Federasiyasının Dövlət mükafatları laureatıdır. – 178,179.

**100. Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı** – 1992-ci ildə İstanbul zirvə görüşündə yaradılmışdır. Buraya Albaniya, Azərbaycan, Bolqarıstan, Ermənistan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Serbiya, Xorvatiya, Türkiyə, Ukrayna və Yunanıstan daxildir. Bu təşkilat ancaq iqtisadi əməkdaşlıq maraqları əsasında qurulmuş təşkilatdır. İqamətgahı İstanbuldadır. – 179.

**101. İsrail –** Yaxın Şərqdə dövlət. Sahəsi 20,8 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. İsrail dövləti BMT-nin Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli qərarına əsasən yaradılmışdır. İsrail inzibati cəhətdən 6 mahala bölünür. Dövlət başçısı prezidentdir, onu birpalatalı parlament (knesset) seçir. Hökumətə geniş səlahiyyəti olan Baş nazir başçılıq edir. – 181,182,365-366.

**102. Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi** – BMT-nin əsas orqanlarından biri. BMT üzvü olan bütün dövlətlərdən ibarətdir. BMT üzvlərinə və ya BMT Təhlükəsizlik Şurasına hər cür məsələlərə və işlərə tövsiyələr vermək səlahiyyəti var.

Baş Məslisin qərarları tövsiyə xarakteri daşıyır, yəni hüquqi cəhətdən üzv dövlətlər üçün məcburi deyil. Məclisin hər il növbəti sessiyası olur. Baş Məclisin nəzdində onun funksiyalarını həyata keçirmək üçün 7 əsas komitə var. – 187-196.

**103. Kofi Annan** (d.1938) – 1997-2006-cı illərdə Birləşmiş Millətlər Təşkilatının Baş katibi olmuşdur. Nobel mükafatı laureatı. – 190.

**104. Stipe Mesiç** (d.1934) – hüquqşünas. 2000-2008-ci illərdə Xorvatiya Respublikasının prezidenti. – 187.

**105. Xərrazi Seyid Kamal** (d.1945) – İranın siyasi və dövlət xadimi, pedaqoji elmləri doktoru, professor. 1998-2005-ci illərdə İran İslam Respublikasının xarici işlər naziri olmuşdur. Hazırda İran İslam Respublikasının Ali Məsləhət Şurasının üzvü və Strateji Tədqiqatlar Mərkəzinin rəhbəridir. – 187,188.

**106. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür. – 188-189,200,234,245,301,347-348.

**107. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 190.

**108. Kəmaləddin Heydərov,** K ə m a l ə d d i n F ə t - t a h o ğ l u (d.1961) – gömrük xidməti general –polkovniki.

1995-2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri olmuşdur. 2006-cı ildən Azərbaycan Respublikası Fövqəladə Hallar naziridir. – 198.

**109. Füzuli** (1959-cu ilədək Qaryagin rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 1386 $km^2$, 80,2 min nəfərdir. 1993-cü ildə erməni hərbi qüvvələri tərəfindən işğal edilmişdir. – 209,242.

**108. Əli Həsənov,** Ə l i Ş a m i l o ğ l u (d.1948) – 1998-ci ildən Azərbaycan Respublikası Baş Nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsinin sədridir. 1995-2000-ci illərdə Milli Məclisin üzvü olmuşdur. – 209.

**109. Cəbrayıl** — Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 1050 $km^2$, əhalisi 45,8 min nəfər idi. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 212.

**110. «EUPES–Azərbaycan» Almaniya–Azərbaycan birgə müəssisəsi.** Bu qurum 2002-ci il iyunun 19-da Almaniyanın tanınmış "Eupec Pipe Coatings" və Azərbaycanın "Azpetrol" neft şirkəti tərəfindən yaradılmışdır. Müəssisənin yaradılmasında əsas məqsəd regionda karbohidrogen ehtiyatlarının işlənilməsi ilə bağlı irimiqyaslı layihələrin həyata keçirilməsi zamanı inşa olunacaq neft və qaz kəmərləri üçün boruların örtüklənməsi işlərinin yerinə yetirilməsi olmuşdur. Birgə işlərin ilkin mərhələsində 25 hektarlıq sahədə qısa müddət ərzində dünya standartlarına cavab verən müasir zavod inşa olunmuşdur.

Korroziyaya qarşı və betonlaşdırma əməliyyatları üçün avadanlıq Almaniyada və ABŞ-da sifariş olunmuş, onların quraşdırılması alman, ABŞ və Kanada mütəxəssislərinin nəzarəti altında yerinə yetirilmişdir. – 215-218.

**111. Nizami Gəncəvi,** İ l y a s  Y u s i f  o ğ l u (1141-1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı beş epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 227.

**112. Gəncə –** Azərbaycan Respublikasında şəhər. Sahəsi 107 $km^2$, əhalisinin sayına görə Bakıdan sonra ikinci şəhərdir. Gəncə Azərbaycanın qədim şəhərlərindəndir. Gəncənin salındığı tarix dəqiq məlum deyil. Bəzi müəlliflər Gəncənin Makedoniyalı İsgəndərin dövründə (e.ə.336-323) salındığını qeyd etmişlər. – 227-234,297.

**113. Şah Abbas məscidi** – G ə n c ə  c ü m ə  m ə s c i d i. – Azərbaycan memarlıq abidəsi. 1606-cı ildə Azərbaycan alim və memarı Şeyx Bəhaəddin tərəfindən inşa edilmişdir. Məscid minbərinin üzərində oyma bəzəkləri olan ağac şəbəkələri şəbəkəçilik sənətinin nadir nümunələrindəndir. – 233.

**114. Cavad xan** (  - 1804) – Gəncə xanı (1785-1804), Ziyadoğluları nəslindən idi. Cavad xan dövründə Qazax, Borçalı, Şəmsəddil, Şamxor və s. yerlər Gəncə xanlığına daxil idi. Gürcüstan Rusiyaya birləşdikdə (1801) Cavad xan Şəmsəddilə qoşun göndərib 29 kəndi Gəncə xanlığı ərazisinə qatdı. Rusiya Cavad xana narazılığını bildirdi və Şəmsəddildən əl çəkməsini tələb etdi. 1803-cü ilin noyabrında çar generalı P.D.Sisianovun komandanlığı ilə Gəncəyə qoşun göndərildi. P.D.Sisianovun

tabe olmaq tələbini rədd edən Cavad xan döyüşdə qəhrəmancasına həlak oldu. – 233.

**115. «Qaradağ–Digah–Şimal Dres»–yüksək təzyiqli qaz kəməri və müvafiq kompressor stansiyası**. Layihənin əsas niyyət və məqsədi Azərbaycanda elektrik güclərinin artırılması, Abşeron yarımadasının elektrik enerjisi və təbii qazla sabit təmin edilməsidir. Belə ki, yeni tikilmiş kompressor stansiyası və qaz kəməri Abşeron yarımadasında yerləşən sənaye, kommunal-məişət obyektlərini və əhalini təbii qazla təchiz edəcəkdir. – 235-239.

**116. Bərdə** – Azərbaycan Respublikasında şəhər. Bərdə Azərbaycanın ən qədim şəhərlərindəndir. Ərəb tarixçisi Bəlazuri (XI əsr) Bərdənin Sasani hökmdarı I Qubadın (488-531), İran tarixçisi Həmdullah Qəzvini (XIV əsr) isə Makedoniyalı İsgəndərin dövründə (e.ə.336-23) salındığını göstərmişdir. – 240-248,264.

**117. Ağdam şəhəri** – Azərbaycan Respublikasında şəhər. Ağdam rayonunun mərkəzi 1993-cü ildə erməni işğalçıları tərəfindən işğal edilmişdir. – 243.

**118. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1936 $km^2$, əhalisi 58 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 247.

**119. Ruşaylo Vladimir Borisoviç** (d.1953) – 1972-ci ildən SSRİ Daxili İşlər Nazirliyində müxtəlif məsul vəzifələrdə işləmişdir. 1998-ci ildən Rusiya Daxili İşlər nazirinin müavini, 1999-cu ildən isə nazir, 2001-ci ildə isə MDB ölkələri üzrə Kollektiv Təhlükəsizlik Şurasının sədri, 2003-cü ildə isə Rusiya Təhlükəsizlik Şurasının katibi olmuşdur. – 249-254,260.

**120. Zemfira Meftahəddinova** (d.1963) – stend atıcısı. 1986-88,1990,1993,1997-ci illərdə Avropa çempionu, 1995-ci ildə dünya çempionu, 2000-ci ildə Sidney Olimpiya oyunlarının çempionu, Qahirədə XXI əsrin ilk dünya çempionatında birinci yeri tutmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 255,258.

**121. Sankt-Peterburq** – Əsası 1703-cü ildə I Pyotr tərəfindən qoyulmuşdur. 1918-ci ilə kimi Rusiyanın paytaxtı idi. Rusiya Federasiyasının ən böyük sənaye, mədəniyyət və elm mərkəzidir. – 260.

**122. Lənkəran** — Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 661 $km^2$, əhalisi 146,9 min nəfərdir. – 261-272.

**123. Etibar Məmmədov,** E t i b a r  S a l i d a r  o ğ l u (d.1955) – Azərbaycan Milli İstiqlal Partiyasının sədri. 1990-2000-ci illərdə Milli Məclisin deputatı olmuşdur. – 268

**124. Həzi Aslanov,** H ə z i  Ə h ə d  o ğ l u (1910-1945) – tank qoşunları qvardiya general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı. Böyük Vətən müharibəsinin ilk günlərindən döyüşlərdə iştirak edən H.Aslanov Stalinqrad vuruşmasında, 55-ci əlahiddə tank polku feldmarşal Manşteynin tank ordusunun darmadağın edilməsində xüsusi məharət göstərmişdir. 1944-cü ildə Aslanovun 35-ci qvardiya tank briqadası Belorusiyanı, Pribaltika respublikalarını azad etmək uğrundakı vuruşmalarda xüsusilə fərqlənmişdi. H.Aslanov Mitağa şəhəri yaxınlığındakı vuruşmada qəhrəmancasına həlak olmuşdur. – 271.

**125. Uşaq Bərpa Mərkəzi** – Cənubi Qafqazda fəaliyyət göstərən yeganə tibb müəssisəsidir. Yaponiyanın "İtoçu" şirkəti Mərkəzi ən müasir standartlara cavab verən avadanlıqla təchiz etmişdir. Burada çalışan həkimlərin əksəriyyəti Yaponiyada hazırlıq kurslarında olmuşdur. Bundan əlavə, Tokiodan gəlmiş ixtisaslı həkimlərin iştirakı ilə Azərbaycanda təşkil olunmuş

kurslarda xüsusi təlimlər keçmişlər. 42 çarpayılıq stasionar da ambulator müalicəsi də aparılacaqdır. – 273-274.

**126. Dağıstan,** D a ğ ı s t a n  R e s p u b l i k a s ı – Rusiya Federasiyasında respublika. Sahəsi 50,3 min $km^2$, əhalisi 2094,6 min nəfərdir. Paytaxtı Mahaçqala şəhəridir. Dağıstan ərazisi bizim eradan əvvəl 1-ci minnilliyin axırlarına qədər Qafqaz Albaniyası tərkibində olmuşdur. 1813-cü ildə Gülüstan müqaviləsinə əsasən çar Rusiyasına birləşdirilmişdir. – 287,288,292.

**127. Sumqayıt** – Azərbaycanda şəhər. Bakıdan 35 km şimal–qərbdə, Xəzər dənizinin qərb sahilində yerləşir. Sahəsi 83 $km^2$, əhalisi 231,1 min nəfərdir. Əvvəllər kiçik yaşayış məntəqəsi olan Sumqayıt, 1938-ci ildə Bakı neft sənayesini elektrik enerjisi ilə təmin edəcək İstilik Elektrik Stansiyasının tikintisi ilə şəhər tipli qəsəbəyə çevrildi və get-gedə Bakıdan sonra ölkəmizin ikinci sənaye şəhərinə çevrildi. Sənayesində kimya və metallurgiya sahələri əsas yet tutur. – 294-297.

**128. «Röyter»** – İngiltərənin xarici informasiya agentliyi. 1851-ci ildə Londonda yaradılmışdır. Pöyter B.Britaniyanın rəsmi teleqraf agentliyidir. – 308

**129. 1993-cü il iyun hadisələri –** Azərbaycanı vətəndaş müharibəsi həddinə gətirmiş Gəncə hadisələri, Bakıda Ali Sovetin binası qarşısında keçirilən çoxsaylı mitinqlər, Heydər Əliyevin xalqın tələbilə Naxçıvandan Bakıya gəlməsi, Ali Sovetin sədri seçilməsi, o zamankı respublika prezidenti Ə.Əliyevin (Elçibəyin) Kələki kəndinə getməsi, Ali Sovetin sədri Heydər Əliyevin respublika prezidenti vəzifəsini icra etməyə başlaması nəzərdə tutulur. – 308,340,349.

**130. Frans Press** – Fransa informasiya agentliyi. Muxtar kommersiya müəssisəsidir. Havae Fransa məlumat agentliyinin (1835) varisi kimi 1944-cü ildə yaradılmışdır. Parisdə fəaliyyət

göstərir. 155 ölkəyə fransız, ingilis, ispan, portuqal, alman və ərəb dillərində informasiya yayır. Bir çox ölkəni beynəlxalq informasiya ilə təchiz edən dünya agentliklərindəndir. – 311.

**131. «Amerikanın səsi»** – ABŞ hökumətinin xarici radio-verilişləri idarəsinin adı. 1942-ci ildən fəaliyyət göstərir. Verilişləri 38 dildədir. Retranslyasiya xidmətləri ABŞ-dan başqa, B.Britaniyanın, Almaniyanın, Yunanıstanın, bir sıra Asiya və Afrika ölkələrinin ərazisində yerləşir. – 313.

**132. Ağasi Məmmədov,** A ğ a s i  A ğ a g ü l o ğ l u (d.1980) – Azərbaycan boksçusu. Əməkdar İdman ustası. Avropa, dünya çempionu və Afina olimpiya oyunlarının bürünc mükafatçısı. – 328.

**133. Türkiyə Ədalət və İnkişaf Partiyası** (Adelet və Kalkinma Partisi) – hal-hazırda Türkiyədə hakimiyyətdə olan partiya. 2002-ci ildə Rəcəb Tayyib Ərdoğan və Abdullah Gül tərəfindən yaradılmışdır. – 330.

**134. Abbas Abbasov,** A b b a s  A y d ı n  o ğ l u (d.1949) – 1992-2006-cı illərdə Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 338.

**135. Zurab Sereteli,** Z u r a b  K o n s t a n t i n o v i ç (d.1934) – gürcü rəssamı. Rusiya Federasiyası Rəssamlıq Akademiyasının prezidenti. SSRİ xalq rəssamı. Seretelinin monumental dekorativ əsərləri məşhurdur. Dövlət və Lenin mükafatları laureatıdır. –339.

**136. Azərbaycan Elmlər Akademiyası** – respublikanın ali elmi ocağı. 1945-ci ildə Bakıda təsis edilmişdir. 2001-ci ilin may ayından Azərbaycan Milli Elmlər Akademiyası adlanır. Azərbaycan Milli EA-nın aşağıdakı bölmələri var: fizika; texnika və riyaziyyat elmləri; kimya elmləri; yer elmləri; biologiya elmləri;

ictimai elmlər. Burada elmin müxtəlif sahələrinə dair aktual problemlər üzərində tədqiqat işləri aparılır. Hər il onlarca elmi işin nəticəsi istehsalatda tətbiq olunur. – 340.

**137. Müsavat Partiyası** – 1911-ci ildə Bakıda yaranıb. 1920-ci ildə fəaliyyəti qadağan edilib. 1992-ci ildən yenidən fəaliyyətə başlayıb. – 340,351.

**138. Şəhidlər xiyabanı.** Azərbaycanın azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş mərd oğul və qızların uyuduğu müqəddəs ziyarətgah. 1990-cı il yanvarın 20-də sovet ordusunun hücumu zamanı həlak olmuş onlarla adam «Dağüstü park»ın qərb hissəsində dəfn edilmişdir. Bura o vaxtdan «Şəhidlər xiyabanı» adlanır. Xiyabanda eyni zamanda Ermənistan işğalçılarına qarşı Azərbaycan torpaqlarının müdafiəsi uğrunda qəhrəmancasına həlak olanlar da dəfn edilmişdir. 1998-ci ildə burada hündürlüyü 22 metr olan əbədi məşəl – abidə qoyulmuşdur. – 349-352.

**139. Niderland Krallığı** (qeyri-rəsmi adı Hollandiya) – Qərbi Avropada Şimal dənizi sahilində dövlət. Sahəsi 41,5 min $km^2$, əhalisi 15,6 milyon nəfərdir. İnzibati ərazisi 12 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı (Baş ştatlar) parlamentdir. Paytaxtı Amsterdam. – 353-357.

**140. Almaniya,** Almaniya Federativ Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min $km^2$, əhalisi 81,9 milyon nəfərdir. AFP tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı – parlamentdən – Bundestaq və Bundersatdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 215-218,358-360.

**141. Şröder Çerhard** (d.1944) – Almaniyanın ictimai və siyasi xadimi. 1980-cı ildən Almaniya Bundestaqının üzvü, 1990-98-ci illərdə Aşağı Saksoniya vilayətinin nazir- prezidenti,

2000-06-cı illərdə Almaniyanın federal kansleri olmuşdur. – 358.

**142. Mustafa Kamal Atatürk,** Q a z i M u s t a f a K a m a l (1881-1938) –Türkiyə dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi və ilk Prezidenti (1923-38). Birinci dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir.

Atatürk 1919-cu ildə «kamalçılar hərəkatına» – milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratdı, məclisin və təşkil edilən hökumətin sədri seçildi. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və «Qazi» fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə türk ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etdi.

Atatürk soyadı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 367.

**143. Avropa İttifaqı** – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderlandiya, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına Avstriya, Finlandiya daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildə vahid valyuta-avro işlənir, vahid pul-kredit siyasəti aparılır. – 370-372.

**144. İtaliya,** İ t a l i y a R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Radan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301 min km$^2$, əhalisi 57,5 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 373.

## Şəxsi adlar göstəricisi


**Abbas Abbasov** – 338
**Aleksenko Boris** – 155-162
**Annan Kofi** – 190
**Armitac Riçard** – 90-91
**Aslanov Həzi** – 271
**Ayker Piter** – 316
**Atatürk Mustafa Kamal**– 367
**Bağırov Adil** – 95
**Bağırov Hüseynqulu** – 175
**Bleyr Toni** – 38,323,363
**Borsotti Marko** – 347-348
**Böhmdorfeer Diter** – 166-168
**Buş Corc** – 42,82,83,132,187
**Campi Karlo** – 373
**Caner** – 107-109
**Cavad xan** – 233
**Cəfərov Hafiz** – 259
**Çavuşoğlu** – 151
**Çevikgöz Əhməd Ünal** – 334-336,367-369
**Çeyni Riçard** – 41
**Çunvan Szya** – 122-126
**Dane Mişel** – 197-198
**Devid** – 107
**Devris** – 371
**Düye Andre** – 103
**Düpon Ambruaz** – 101-104
**Emin** – 247
**Əhmədova Gülər** – 102
**Ələsgərov Murtuz** – 12,141,142
**Əliyev Əziz** – 115-121,287
**Əliyev Heydər** –5-11,12,15,18,20,21,28,29,30, 31,34,39,46,47,48,50,51,52,53, 54,55,57,59,60,62,63,65,108,

111,112,116,118,124,125,133,
136,140,141,143,144,145,146,
147,157,158,159,160,166,167,
169,170,173,183,184,188,194,
199,202,204,205,207,208,209,
212,215,216,217,219,220,221,222,2
23,224,225,227,229,230,231,
232,233,234,235,236,237,243,244,2
45,246,247,248,249,250,251,
252,257,261,264,265,266,267,268,2
69,271,273,274,281,282,284,
285,286,289,290,291,292,294,298,2
99,300,301,302,303,304,305,
306,307,308,311,318,319,320,
322,331,334,335,337,340,341,
334,335,337,340,341,344,345,
350,357,359,369

**Əliyev Natiq** – 106
**Ərdoğan Rəcəb Tayyib** –23,127-139,318,330,334,
335,362,368
**Gəncəvi Nizami** – 227
**Gül Abdullah** – 127,138,187
**Gülər Hilmi** – 138-139
**Haller** – 151
**Hanten** – 190
**Heydərov Kəmaləddin** – 198
**Həsənov Əli** – 209
**Hüseynov Nazim** – 119,120
**Xərrazi Kamal** – 187,188
**İqnatenko Vitali** – 169-186
**Kassan** – 151
**Kavana Yan** – 190
**Jerar Patris** – 103
**Köçəryan Robert** – 410
**Koidzumi** – 141,142
**Kosta Marqarita** – 373
**Kölbel** – 359
**Kucma Leonid** – 157,158

**Kulibayev Timur** – 105-106
**Qəmbərov İsa** – 36,231,232,244,268,340,351
**Qrevlix Klaus** – 358-360
**Qross Andreas** – 150-151
**Qule** – 151
**Qurbanov Qurban** – 287,293
**Qurbanov Səid** – 287,293
**Qusman Mixail** – 174,184
**Leşkaşeli Kote** – 361
**Leşkaşeli Tamara** – 361
**Li Pen** – 124
**Lujkov Yuri** – 178,179
**Meftahəddinova Zemfira** – 255,258
**Mehdiyev Ramiz** – 15,18,250,253
**De Mello Serjio** – 191
**Merzlyakov Yuri** – 110-114
**Mesiç Stipe** – 187
**Məhəmmədov Məhəmmədəli** – 288,293
**Məmmədov Ağasi** – 328
**Məmmədov Etibar** – 268
**Mironov Sergey** – 113
**Mitrofanova Eleonora** – 179-180
**Mirvari** – 247
**Motook Şoci** – 140-142
**Muzikantski Aleksandr** – 178-179
**Nağıyev Əli** – 156,160,161,273,274
**Naye Eytan** – 365-366
**Nazarbayeva Dariqə** – 177
**Niyazi** – 115
**Oban Bertran** – 103
**Ortiz Solomon** – 92-100
**Papiyev Mixail** – 155-162
**Pauell Kolin** – 187
**Ponsle Kristian** – 102
**Putin Vladimir** – 30,55,56,64,111,113,163-165,169,170,171,249,251,252,253,254,260,322,343,344,345,346

**Putina Lyudmila** – 169-186
**Rasizadə Artur** – 17,28
**Rivkin Mark** – 184-185
**Ruşaylo Vladimir** – 249-254,260
**Ryabov Nikolay** – 342-346
**Sereteli Zurab** – 339
**Seslavinski Mixail** – 174-176
**Sezər Əhməd Necdət** – 127,138
**Səməd Vurğun** – 174
**Sxeffer Yaap de Hoop** – 353-357
**Siyu Çjan** – 123
**Stern Yuri** – 181
**Şeynin Aleksey** – 183
**Şider** – 151
**Şirak Jak** – 102
**Şröder Gerhard** – 358
**Şvimmer** – 151
**Talvitye Heyki** – 370-372
**Taker Endryu** – 363-364
**Ueldon Kurt** – 92-100
**Un Yonq Kim** – 275-280
**Voloşin Aleksandr** – 152-154
**Yanukoviç Viktor** – 156
**Yarov Yuri** – 337-341

## Coğrafi adlar göstəricisi


| | |
|---|---|
| **Afina** | – 255,257 |
| **Ağdam** | – 243 |
| **Almaniya** | – 215-218,358-360 |
| **Almatı** | – 177 |
| **Amerika Birləşmiş Ştatları** | – 31-44,47,54,55,58-59,77-89, 90-91,92-100,113,114,132, 137,187,200 |
| **Ankara** | – 16,41,82,127-139 |
| **Asiya** | – 141 |
| **Avropa** | – 45,71,81,86,87,139,141,307, 334 |
| **Avstriya Respublikası** | – 166-168 |
| **Bağdad** | – 191 |
| **Bakı** | – 14,23,41,67,73,102,103,109, 117,121,155,156,171,172,173,174 ,175,177,178,179,180,181,182,18 4,186,197,214,228,229,230,233,2 38,255,256,258,264,267,268,269, 273,277,282,297,307,323,330,338 ,349,350 |
| **Berlin** | – 174 |
| **Bərdə** | – 243-248,264 |
| **Biləsuvar** | – 208-214,230,242,320 |
| **Böyük Britaniya** | – 38,107-109,323,363-364 |
| **Cəbrayıl** | – 212 |
| **Cəlilabad** | – 272 |
| **Cənubi Qafqaz** | – 102,146,191 |
| **Çin** | – 96,122-126,173 |
| **Dağıstan** | – 287,288,292 |
| **Dağlıq Qarabağ** | – 7,12,26,44,59,66,75,80,81, 82,99,107,128,131,136,148, 157,160,188,192,211,219,225, 239,244,269,300,313,353,354, 370 |
| **Florida (ABŞ-da ştat)** | – 93 |

**Fransa** – 101-104,137,151
**Füzuli** – 209,242
**Gəncə** – 227-234,297
**Gürcüstan** – 184,185,186,309,310,333
**Hyüston** – 42,84,112
**Xaçmaz** – 143-149,203,218,226
**Xəzər dənizi** –84,112,115-121,188,194,204, 205
**Xorvatiya** – 187
**İraq** – 43,55,83,132,190,191
**İran** – 84,85,187,188,311
**İsmayıllı** – 219-224,225
**İspaniya** – 151
**İsrail** – 181,182,365-366
**İstanbul** – 112
**İtaliya** – 373
**İvanovka (Azərbaycanda kənd)**–337,340
**Kanada** – 182
**Kembric** – 112
**Kəlbəcər** – 247
**Klivlend** – 23,29,31,47,54,61,89,133, 189
**Krım** – 179
**Küveyt** – 173
**Qafqaz** – 67,142,334
**Qars** – 131
**Qazaxıstan** – 84,105-106,116,173
**Qəbələ** – 225-226
**Qərbi Avropa** – 39,56,341
**Quba** – 104,287-293
**Latviya** – 183
**Lənkəran** – 261-272
**London** – 323
**Macarıstan** – 282
**Malayziya** – 71,343
**Masallı** – 271
**Maştağa** – 197
**Mərkəzi Asiya** – 103
**Moskva** – 113,164,172,174,178,179,

180,181,343
**Naxçıvan** – 36,68,117
**Neftçala** – 199,202,203
**Niderland Krallığı** – 353-357
**Norveç** – 324
**Nyu-York (ABŞ-da ştat)**– 93,187
**Pensilvaniya (ABŞ-da ştat)** – 93
**Rumıniya** – 96
**Rusiya** – 29,30,51,55,56,60-72,82,84, 110-114,137,148,152-154,163, 165,169-186,233,236,246,249-254,260,287,322,342-346
**Saatlı** – 214
**Salyan** – 199,202
**Sankt-Peterburq** – 260
**Sidney** – 255,258,277
**Sinqapur** – 96
**Siyəzən** – 281-286
**Strasburq** – 183
**Sumqayıt** – 294-297
**Sütəmurdov (kənd)** – 272
**Şamaxı** – 225
**Şərqi Avropa** – 215,268,284,308
**Şimali İraq** – 132
**Tayvan** – 96
**Tbilisi** – 185
**Texas (ABŞ-da ştat)** – 42,82,83,93,96
**Türkiyə** – 23,27,28,51,52,82,114,127-139,148,151,187,314,318,328, 330,334-336,362,367-369
**Türkmənistan** – 84
**Ukrayna** – 155-162
**Vaşinqton** – 90,112
**Yalta** – 171,249,251,253,341,345
**Yaponiya** – 53-57,140-142,235,237,273
**Yardımlı** – 230

# KİTABIN İÇİNDƏKİLƏR

AZƏRBAYCAN XALQINA MÜRACİƏT....................................................5

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN NÖVBƏDƏNKƏNAR SESSİYASI
*4 avqust 2003-cü il..........................................................................12*

NAZİRLƏR KABİNETİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ YENİ TƏYİN OLUNMUŞ BAŞ NAZİRİ İLHAM ƏLİYEVİN HÖKUMƏT ÜZVLƏRİNƏ TƏQDİM OLUNMASI MƏRASİMİNDƏ ÇIXIŞ
*4 avqust 2003-cü il..........................................................................15*

"LİDER" YARIMDALMA ÜZƏN QAZMA QURĞUSU İLƏ TANIŞLIQDAN SONRA JURNALİSTLƏRƏ MÜSAHİBƏ
*7 avqust 2003-cü il..........................................................................23*

RUSİYA TELEVİZİYASININ "VESTİ" XƏBƏRLƏR PROQRAMINA MƏXSUSİ MÜSAHİBƏ
*9 avqust 2003-cü il..........................................................................29*

"VAŞİNQTON POST" QƏZETİNƏ MÜSAHİBƏ
*9 avqust 2003-cü il..........................................................................31*

AZƏRBAYCANIN DÖVLƏT TELEVİZİYASININ MÜXBİRİNƏ MÜSAHİBƏ
*9 avqust 2003-cü il..........................................................................45*

BAKI–TBİLİSİ–CEYHAN ƏSAS İXRAC NEFT BORU KƏMƏRİNİN AZƏRBAYCAN HİSSƏSİNİN TİKİNTİSİ İLƏ TANIŞLIQ ZAMANI YERLİ VƏ XARİCİ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİNƏ MÜSAHİBƏ
*11 avqust 2003-cü il........................................................................48*

YAPONİYANIN "MAYNİÇİ SİMBUN" QƏZETİNƏ MÜSAHİBƏ
*12 avqust 2003-cü il........................................................................53*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ CƏNAB CORC BUŞA
*13 avqust 2003-cü il........................................................................58*

RUSİYANIN KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ ÜÇÜN MÜSAHİBƏ
*15 avqust 2003-cü il*..........................................................................60

“NƏ? HARADA? NƏ VAXT?” İNTELLEKTUAL OYUNU ÜZRƏ İKİNCİ DÜNYA ÇEMPİONATININ MÜKAFATLARININ TƏQDİM EDİLMƏSİ VƏ BAĞLANIŞ MƏRASİMİNDƏ ÇIXIŞ
*17 avqust 2003-cü il*..........................................................................73

“ASSOŞİEYTED PRESS” AGENTLİYİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ
*15 avqust 2003-cü il*..........................................................................77

ABŞ DÖVLƏT KATİBİNİN BİRİNCİ MÜAVİNİ RİÇARD ARMİTACLA GÖRÜŞDƏ SÖHBƏT
*25 avqust 2003-cü il*..........................................................................90

KURT UELDONUN BAŞÇILIĞI İLƏ ABŞ KONQRESİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*29 avqust 2003-cü il*..........................................................................92

FRANSA SENATININ QAFQAZ ÜZRƏ DOSTLUQ QRUPUNUN SƏDRİ AMBRUAZ DÜPONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*1 sentyabr 2003-cü il*.......................................................................101

“KAZMUNAYQAZ” ŞİRKƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*2 sentyabr 2003-cü il*.......................................................................105

BÖYÜK BRİTANİYA PARLAMENTİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*3 sentyabr 2003-cü il*.......................................................................107

ATƏT-in MİNSK QRUPUNUN RUSİYADAN YENİ TƏYİN OLUNMUŞ HƏMSƏDRİ YURİ MERZLYAKOV İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*5 sentyabr 2003-cü il*.......................................................................110

XƏZƏR DƏNİZ GƏMİÇİLİYİNİN YENİ İNŞA EDİLMİŞ “PROFESSOR ƏZİZ ƏLİYEV” TANKERİNİN İSTİSMARA VERİLMƏSİ VƏ MİLLİ PARKDA TİKİLMİŞ YAXT-KLUBUN AÇILIŞI MÜNASİBƏTİLƏ KEÇİRİLMİŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ ÇIXIŞ
*5 sentyabr 2003-cü il*.......................................................................115

ÇİN XALQ RESPUBLİKASI ALİ XALQ PROKURORLUĞUNUN BAŞ PROKURORU SZYA ÇUNVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*6 sentyabr 2003-cü il.........................................................................122*

AZƏRBAYCANIN BAŞ NAZİRİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ İŞGÜZAR SƏFƏRİ
*8 sentyabr 2003-cü il.........................................................................127*

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN ADINDAN TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA ÇIXIŞ
*8 sentyabr 2003-cü il.........................................................................135*

TÜRKİYƏYƏ İŞGÜZAR SƏFƏRİ BAŞA ÇATDIQDAN SONRA BAŞ NAZİR İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN ENERGETİKA VƏ TƏBİİ EHTİYATLAR NAZİRİ HİLMİ GÜLƏRİN ANKARANIN ESENBOĞA HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVABI
*8 sentyabr 2003-cü il.........................................................................138*

YAPONİYA PARLAMENTİ MÜŞAVİRLƏR PALATASI SƏDRİNİN MÜAVİNİ ŞOCİ MOTOOKANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*11 sentyabr 2003-cü il.......................................................................140*

XAÇMAZDA "QAFQAZ" KONSERV ZAVODUNUN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ
*12 sentyabr 2003-cü il.......................................................................143*

AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*15 sentyabr 2003-cü il.......................................................................150*

RUSİYA FEDERASİYASI PREZİDENTİNİN İCRA APARATININ RƏHBƏRİ
ALEKSANDR VOLOŞİN İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*16 sentyabr 2003-cü il.......................................................................152*

UKRAYNANIN ƏMƏK VƏ SOSİAL SİYASƏT NAZİRİ MİXAİL PAPİYEV İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*16 sentyabr 2003-cü il.......................................................................155*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TƏKBƏTƏK GÖRÜŞDƏ SÖHBƏT
*18 sentyabr 2003-cü il.........................................................................163*

AVSTRİYA RESPUBLİKASININ FEDERAL ƏDLİYYƏ NAZİRİ DİTER BÖHMDORFERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*20 sentyabr 2003-cü il.........................................................................166*

AZƏRBAYCAN HÖKUMƏTİ ADINDAN RUS MƏTBUATININ V ÜMUMDÜNYA KONQRESİ İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ QƏBULDA NİTQ
*20 sentyabr 2003-cü il.........................................................................169*

RUS MƏTBUATININ V ÜMUMDÜNYA KONQRESİNİN İŞTİRAKÇILARI İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*20 sentyabr 2003-cü il.........................................................................171*

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI BAŞ MƏCLİSİNİN 58-ci SESSİYASINDA
*22 sentyabr 2003-cü il.........................................................................187*

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI İQAMƏTGAHINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ
*23 sentyabr 2003-cü il.........................................................................188*

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI BAŞ MƏCLİSİNİN 58-ci SESSİYASINDA ÇIXIŞ
*24 sentyabr 2003-cü il.........................................................................190*

ÜMUMDÜNYA GÖMRÜK TƏŞKİLATININ (ÜGT) BAŞ KATİBİ MİŞEL DANE VƏ ONU MÜŞAYİƏT EDƏN ŞƏXSLƏRLƏ GÖRÜŞDƏ SÖHBƏT
*30 sentyabr 2003-cü il.........................................................................197*

ŞİRVAN MİLLİ PARKININ AÇILIŞINA HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ ÇIXIŞ
*1 oktyabr 2003-cü il.............................................................................199*

XILLI "NƏRƏ" BALIQARTIRMA ZAVODUNUN AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ
*1 oktyabr 2003-cü il.............................................................................202*

BİLƏSUVAR RAYONUNDA MƏCBURİ KÖÇKÜNLƏR ÜÇÜN YENİ İNŞA EDİLMİŞ QƏSƏBƏNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ
*1 oktyabr 2003-cü il*.......................................................................................*208*

«EUPES–AZƏRBAYCAN» ALMANİYA–AZƏRBAYCAN BİRGƏ MÜƏSSİSƏSİNİN AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ
*2 oktyabr 2003-cü il*.......................................................................................*215*

İSMAYILLI RAYONUNDA ŞƏHİD AİLƏLƏRİ VƏ QARABAĞ ƏLİLLƏRİ ÜÇÜN İNŞA EDİLMİŞ BİNANIN İSTİFADƏYƏ VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ ÇIXIŞ
*3 oktyabr 2003-cü il*.......................................................................................*219*

QƏBƏLƏ RAYONUNDAKI QARAÇAY ÜZƏRİNDƏ İNŞA EDİLMİŞ KÖRPÜNÜN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ
*3 oktyabr 2003-cü il*.......................................................................................*225*

AZƏRBAYCAN ŞAİRİ NİZAMİ GƏNCƏVİNİN MƏQBƏRƏSİNİ ZİYARƏTDƏN SONRA JURNALİSTLƏRƏ QISA MÜSAHİBƏ
*5 oktyabr 2003-cü il*.......................................................................................*227*

GƏNCƏ ŞƏHƏR SAKİNLƏRİ QARŞISINDA ÇIXIŞ
*5 oktyabr 2003-cü il*.......................................................................................*228*

"QARADAĞ-DİGAH-ŞİMAL DRES" YÜKSƏK TƏZYİQLİ QAZ KƏMƏRİNİN VƏ MÜVAFİQ KOMPRESSOR STANSİYASININ AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ
*6 oktyabr 2003-cü il*.......................................................................................*235*

BƏRDƏ ŞƏHƏRİNDƏ OLİMPİYA İDMAN KOMPLEKSİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ
*7 oktyabr 2003-cü il*.......................................................................................*240*

AZƏRBAYCANDA RƏSMİ SƏFƏRDƏ OLAN RUSİYA TƏHLÜKƏSİZLİK ŞURASININ KATİBİ VLADİMİR RUŞAYLO VƏ ONU MÜŞAYİƏT EDƏN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*8 oktyabr 2003-cü il*.......................................................................................*249*

AZƏRBAYCANDA ƏN MÜASİR STANDARTLARA CAVAB VERƏN İLK ATICILIQ STENDİNİN İSTİFADƏYƏ VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ

TƏNTƏNƏLİ MƏRASİMDƏ ÇIXIŞ
*8 oktyabr 2003-cü il..........................................................................255*

RUSİYA FEDERASİYASININ AZƏRBAYCANDAKI SƏFİRLİYİNDƏ RUSİYA TƏHLÜKƏSİZLİK ŞURASININ KATİBİ VLADİMİR RUŞAYLONUN ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA ÇIXIŞ
*8 oktyabr 2003-cü il..........................................................................260*

"BUTA" KONSERV ZAVODUNUN AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ
*10 oktyabr 2003-cü il........................................................................261*

LƏNKƏRAN RAYONUNUN SÜTƏMURDOV KƏNDİNDƏ TİKİNTİSİ YENİCƏ BAŞA ÇATMIŞ OLİMPİYA KOMPLEKSİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ
*9 oktyabr 2003-cü il..........................................................................263*

UŞAQ BƏRPA MƏRKƏZİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ
*11 oktyabr 2003-cü il........................................................................273*

DÜNYA TAEKVONDO FEDERASİYASININ PREZİDENTİ, BEYNƏLXALQ OLİMPİYA KOMİTƏSİNİN VİTSE-PREZİDENTİ UN YONQ KİM İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*10 oktyabr 2003-cü il........................................................................275*

AZƏRBAYCAN TAEKVONDO FEDERASİYASININ İDMAN SARAYININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ
*10 oktyabr 2003-cü il........................................................................277*

SİYƏZƏNDƏ KƏRPİC ZAVODUNUN İSTİFADƏYƏ VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ ÇIXIŞ
*11 oktyabr 2003-cü il........................................................................281*

QUBA OLİMPİYA İDMAN KOMPLEKSİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ
*11 oktyabr 2003-cü il........................................................................287*

RESPUBLİKA ƏLVAN METALLURGİYA SƏNAYESİNİN ƏN İRİ OBYEKTLƏRİNDƏN BİRİ – "AZƏRBAYCAN ALÜMİNİUMU" SƏHMDAR CƏMİYYƏTİNİN SUMQAYIT ƏLVAN METAL MÜƏSSİSƏ-SİNİN ƏMƏKÇİLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*12 oktyabr 2003-cü il*..........................................................................*294*

AZƏRBAYCAN ZİYALILARI İLƏ GÖRÜŞDƏ AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ İLHAM ƏLİYEVİN ÇIXIŞI
*12 oktyabr 2003-cü il*..........................................................................*298*

15 OKTYABR PREZİDENT SEÇKİLƏRİ İLƏ ƏLAQƏDAR XARİCİ ÖLKƏLƏRİN KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ ÜÇÜN MƏTBUAT KONFRANSINDA SUALLARA CAVAB
*13 oktyabr 2003-cü il*..........................................................................*306*

AZƏRBAYCAN MİLLİ OLİMPİYA KOMİTƏSİ İCRAİYYƏ KOMİTƏSİNİN İCLASINDA ÇIXIŞ
*13 oktyabr 2003-cü il*..........................................................................*325*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ, ƏDALƏT VƏ İNKİŞAF PARTİYASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA
*14 oktyabr 2003-cü il*..........................................................................*330*

SEÇKİ MƏNTƏQƏSİNDƏ YERLİ VƏ XARİCİ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN ÇOXSAYLI MÜXBİRLƏRİNİN SUALLARINA CAVAB
*15 oktyabr 2003-cü il*..........................................................................*331*

TÜRKİYƏNİN AZƏRBAYCANDAKI FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ ƏHMƏD ÜNAL ÇEVİKÖZ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*16 oktyabr 2003-cü il*..........................................................................*334*

MDB İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ – MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN İCRAÇI KATİBİ YURİ YAROV İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*17 oktyabr 2003-cü il*..........................................................................*337*

RUSİYANIN AZƏRBAYCANDAKI FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ NİKOLAY RYABOV İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*17 oktyabr 2003-cü il*..........................................................................*342*

BMT İNKİŞAF PROQRAMININ REZİDENT ƏLAQƏLƏNDİRİCİSİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*17 oktyabr 2003-cü il*..........................................................................*347*

DÖVLƏT MÜSTƏQİLLİYİ GÜNÜ ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT EDƏRKƏN KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ

NÜMAYƏNDƏLƏRİNİN SUALLARINA CAVAB
*18 oktyabr 2003-cü il*........................................................................349

ATƏT-in HAZIRKI SƏDRİ, NİDERLAND KRALLI-ĞININ XARİCİ İŞLƏR NAZİRİ YAAP DE HOOP SXEFFER VƏ ONU MÜŞAYİƏT EDƏN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*22 oktyabr 2003-cü il*........................................................................353

ALMANİYA FEDERATİV RESPUBLİKASININ AZƏRBAYCANDAKI FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ KLAUS QREVLİX İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*27 oktyabr 2003-cü il*........................................................................358

TAMARA VƏ KOTE LEŞKAŞELİLƏRƏ
*28 oktyabr 2003-cü il*........................................................................361

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA
*27 oktyabr 2003-cü il*........................................................................362

BÖYÜK BRİTANİYANIN AZƏRBAYCANDAKI FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ ENDRYU TAKER İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*29 oktyabr 2003-cü il*........................................................................363

İSRAİL DÖVLƏTİNİN AZƏRBAYCANDAKI FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ EYTAN NAYE İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*29 oktyabr 2003-cü il*........................................................................365

TÜRKİYƏNİN AZƏRBAYCANDAKI FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ ƏHMƏD ÜNAL ÇEVİKÖZ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*29 oktyabr 2003-cü il*........................................................................367

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMA-YƏNDƏSİ HEYKİ TALVİTYENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*30 oktyabr 2003-cü il*........................................................................370

İTALİYANIN AZƏRBAYCANDAKI FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ XANIM MARQARİTA KOSTA İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*30 oktyabr 2003-cü il*........................................................................373

QEYDLƏR........................................................................................375

ŞƏXSİ ADLAR GÖSTƏRİCİSİ...................................................................*409*

COĞRAFİ ADLAR GÖSTƏRİCİSİ............................................................*413*

KİTABIN İÇİNDƏKİLƏR.......................................................................*417*

**Kitabı çapa hazırlayan** ***Tofiq Babayev***

**Rəssamı** ***Zaur Kantemirov***
**Texniki redaktoru** ***Zoya Nəcəfova***
**Yığım üzrə operator** ***İlhamə Kərimova***
**Kompüter tərtibatı** ***Məhəbbət Orucov***

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x1081/32. Ofset kağızı 1. Şərti çap vərəqi 26,5. Uçot vərəqi 26,0. Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç., 61, dalan 2, ev 3.
"Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.